# Mizanul – hikmət

*(xülasəsi)*

Peyğəmbər(s) və İmamlar(ə)ın
mübarək hədisləri

# I cild

**Mizanul – hikmət**
*(xülasəsi)*
Peyğəmbər(s) və İmamlar(ə)ın mübarək hədisləri

**Toplayan:**
Ayətullah Məhəmməd Məhəmmədi Reyşəhri

**Tərcüməçilər:**
Ağabala Mehdiyev,
Elşən Mahmudov,
Etibar Quliyev

**Redaktorlar:**

**İxtisas redaktoru**
Höccətül –İslam vəl-müslimin
Hacı Adil Mövlayi

**Ədəbi redaktor:**
Dürdanə Cəfərli

# Müqəddimə

**بسم الله الرحمن الرحيم**
**الحمدلله ربالعالمين و الصلوة و السلام علي نبينا محمد و آله الطاهرين و صحبهالمنتجبين**

İlahi dinlər arasında ən kamil və ən əhatəli din olan müqəddəs İslam dini  ilahi maarifin bütün sahələrini əhatə edir. Bu müqəddəs din ilahi maarifin tərənnümçüsü qismində, Allah taalanın yer üzünün insanlarında görmək istədiyi bütün insani keyfiyyətləri, kamil və dininə bağlı insanın həyatının bütün aspektlərini təsvir edir. İslam maarifi üç prinsip: etiqad, ehkam və əxlaq əsasında qurulmuşdur. Etiqad bölümü bir müsəlmanın nəyə və necə etiqad bəsləməli olduğu və bu düşüncə tərzinin yekunu kimi varlıq aləminin hansı reallıqlarına çatması, azğınlıq və zəlillik vadisində səfil qalmaması ətrafındakı insani düşüncə və təfəkkür istiqamətlərinə şamil olunur. Ehkam, insanın özbaşına rəftarla və müxtəlif vasitələrlə, Allah taalanın onun təbiətində qoyduğu, varlıq aləmi ilə səsləşən fitrətinə zidd üsullara əl atmaqla özünü puç etməməsi üçün onun əməl və rəftarını konkretləşdirən göstərişlər toplusudur

Əxlaq bölümü isə mənəviyyatın, ruhun, torpaqda olan insanın mələklərdən daha gözəl və əzəmətli oluncaya qədər mənəvi gözəlliklərlə zinətlənməsindən bəhs edir. Bu üç bölümün istinadgahı İslam dinidir. Etiqad, ehkam, əxlaq üçün müraciət

olunacaq mənbə isə, ilk növbədə Qurani-Kərim və Qurandan sonra İslamın əziz peyğəmbəri Həzrəti Məhəmmədin (s.) və Əhli-Beytinin (ə.) kəlamları, rəftarlarıdır.

İslam peyğəmbərinin və onun Əhli-Beyti olan mə‘sum İmamların (ə) hədisləri, əslində birinci prinsipin, yəni Qurani-Kərimin təfsiri və izahdır. Təbiidir ki, Peyğəmbərin(s) və mə‘sum imamların(ə) hədislərinin olmayacağı təqdirdə, Qurani-Kərimə, Onun ruh və təlimləri ilə daban-dabana zidd olan yozum və şərhlər veriləcəkdi. İslamın əziz peyğəmbərinin (s) öz Əhli-Beytini Qurani-Kərimlə birgə əmanət qoymasını və Əhli-Beytinin Qurandan ayrılmaz olduğunu dönə-dönə tə‘kid etməsi də bununla bağlı olmuşdur ki, Quran bəşərin nəfsani istəklərinin və xəyallarının girdabına düçar olmasın. Onun mətni, İlahinin vədinə görə təhriflərdən qorunub saxlandığı kimi, məzmunu da, Allahın lütfü ilə Peyğəmbər Əhli-Beytinin (ə) izah və təfsirləri sayəsində cahil və azğınların hücumlarından müdafiə olunsun. Bu ideoloji əsasa söykənən müsəlmanlar, böyük İslam peyğəmbərinin (s) və Əhli-Beytinin (ə) sözlərini və rəftarlarını yazıya köçürüb saxlamışlar. Hədislərin yazılması və qeydiyyatı, son höccət, mə‘sum İmamın (əc.) «qeybəti kubrasına» – 329-cu hicri qəməri ilinə qədər davam etmişdir. Başqa sözlə desək, həmin vaxta qədər Əhli-Beyt imamları (ə) silsiləsinin vasitəsilə hər üç prinsipi-etiqad, ehkam və əxlaqı izah edən yeni-yeni hədisləri əldə etmək imkanı olmuşdur. Həmin zamanadək hədislərin toplanması mövzusunda İslam alimləri tərəfindən saysız-hesabsız kitablar yazılmışdır. Ondan sonra da, görkəmli İslam alimləri böyük əziyyət və zəhmətlər bahasına çoxsaylı hədis toplularını hazırlamışlar.

Bu proses yaşadığımız əsrə qədər ardıcıl, şəkildə davam etmişdir və Allahın istəyi ilə bundan sonra da belə olacaqdır. Ötən dövrlərdə adlı-sanlı İslam alimləri tərəfindən qələmə alınmış hədis kitabları müasir hədis toplularının baza və əsasını təşkil etsələr də, yeni-yeni məsələlərin meydana gəlməsi, cəmiyyətin ehtiyacının artması, elmin, insan həyatının inkişafı hər bir zamanda alimlərin, din xadimlərinin yeni tədqiqatlara başlamalarını, hər üç sahədəki ehtiyacların Peyğəmbər və Əhli-Beytinin (ə) hədislərinə istinadən

ödənilməsini tələb edir. Təbii ki, bu işin öhdəsindən hədisşünaslıq və ona aid sahələr üzrə mütəxəssis alimlər gələ bilər. Çünki, hədis elminin özü də, güclü hədislə zəifi, doğru və yanlışı, bir sözlə hədis növlərinin bir-birindən ayırd edilməsini təmin edən özünəməxsus incəlik və çətinliklərdən xali deyil. Belə ki, hər bir elmin öz mütəxəssisləri var və həmin elmi öyrənmək üçün məhz onlara müraciət olunmalıdır.

Böyük təşəbbüskarlığın məhsulu olan çox dəyərli «Mizanul hikmə» kitabı İslam peyğəmbəri və Əhli-Beytinin (ə) hədisləri barədə müasir dövrdə qələmə alınmış kitablardandır. Əsərin on cildlik toplusu ilk dəfə 1981-ci miladi ilində (1360 hicri şəmsi) çap olunaraq dünya müsəlmanlarının ixtiyarına verilmişdir. Kitabın müəllifi, İslam elmlərinin yorulmaz tədqiqatçı alimlərindən olan böyük ustadım, rəbbani alim, Həzrəti ayətullah cənab Məhəmməd Məhəmmədi Reyşəhridir *(damət bərəkatuh)*. O, özünün xüsusi diqqəti və İslam elmlərinə, müasir beynəlxalq vəziyyətə və hazırki cəmiyyətin ehtiyaclarına olan əhatəli baxışı ilə İslam hədislərini tədqiq etmişir. Onun zəhmətlərinin bəhrəsi olan bu kitab İslam dünyasında böyük rəğbətlə qarşılanmışdır. Bu dəyərli əsər, nəşrindən keçən 22 ildə, dəfələrlə yenidən çap və dünyanın bir çox əsas dillərinə tərcümə olunmuşdur. Qiymətli toplunun bir sıra orijinal xüsusiyyətləri var və qısaca, onlardan Bəzilərini qeyd edirik:

**1-** *Çox hörmətli müəllif öz təşəbbüsünə uyğun olaraq, hədisləri Quran ayələrinin ardınca elə formada vermişdir ki, hədis, Qurani-Kərimin mənasının başa düşülməsində açar rolunu oynayır.*

**2-** *Rəvayətlərin seçilməsi və fəsillər üzrə bölgüsü yeni və ürəyə yatan bir metodla həyata keçirilmişdir.*

**3-** *Günümüzün tələblərinə uyğun olaraq, rəvayətlər üçün çoxsaylı başlıq və mövzular çıxarılmışdır. Belə ki, Quran və İslamın həmin məsələlərdə fikrini bilmək istəyənlərin mütləq əksəriyyəti, özlərinin nəzərdə tutduqları mövzuları burada tapa bilərlər.*

**4-** *Rəvayətlər çox diqqətlə və hədis elmindəki xüsusi ekspert tələbkarlığı ilə seçilmişdir.*

**5-** *Kitabda bütün İslam firqələrinin mənbələrindən istifadə olunmuşdur.*

**6-** *Hədislərin verilməsindən əlavə, onun istinad məxzləri və bu rəvayətin, yaxud da bu mövzuda olan rəvayətlərin digər mənbələri də göstərilmişdir.*

Əlbəttə, bu dəyərli kitabın çoxsaylı başqa üstün cəhət və xüsusiyyətləri də var. Ancaq, yazının yığcamlığını gözləmək məqsədi ilə, yazılanlarla kitfayətlənirəm. Əminəm ki, hörmətli oxucu və mütəxəssislərin özləri də, kitabdakı digər üstün cəhətləri görəcəklər.

İslam hədisləri və ona aid elmlər sahəsində müsəlman dünyasının ən mühüm tədqiqat mərkəzlərindən biri olan və Həzrət ayətullah cənab Məhəmmədi Reyşəhrinin nəzarəti altında İslam hədisləri sahəsində tədqiqat işləri aparan «Darul Hədis» Mərkəzi «Mizanul Hikmə»nin müntəxabatını çap etdirmişdir. Bu iş daşıdığı xüsusi əhəmiyyətlə yanaşı, dünya müsəlmanları üçün də çox faydalı bir işdir. İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Mədəniyyət Mərkəzi İranın və Azərbaycanın müsəlman xalqlarının qırılmaz tellərlə bir-birinə bağlandığını və dost, qardaş Azərbaycan xalqına mədəni xidmətlər göstərilməsi məqsədilə «Mizanul-Hikmənin müntəxabatı» kitabını azərbaycan dilinə tərcüməsini təşkil etmişdir. Azərbaycan elmi ictimaiyyətinin və vətəndaşlarının müqəddəs İslam dininin mənbə kitablarına və əsas prinsiplərinə nə səviyyədə ehtiyac duyduğunu nəzərə alsaq, bu işin əzəməti və göstərilən xidmətin böyüklüyü daha da aydın olar. Kitabın Hacı Ağabala Mehdiyev, Məşədi Elşən Mahmudov, Hacı Etibar Quliyev və hörmətli redaktor xanım Dürdanə Cəfərlidən *(əyyədəhumullah)* ibarət tərcümə qrupu Mədəniyyət Mərkəzinin dini eksperti, səmimi və köhnə dostum böyük alim höccətül islam vəlmüslimin cənab Hacı Şeyx Adil Mövlayinin *(damət ifazatuh)* elmi redaktorluğu ilə yorulmaz səy göstərmiş və işdə qarşıya çıxan çoxsaylı çətinlikləri aradan götürməklə kitabın tərcüməsini 6 ay ərzində başa çatdırmışlar. Əlbəttə, mənbə və tərcümə dillərindəki incəliklər, sözlə məna arasında optimal variantın tapılması kimi məqamlar bu sahənin mütəxəssislərinə gizlin deyil. Xüsusilə də hazırki kitab

kimi sırf dini məzmunlu ədəbiyyatların tərcüməsi xüsusi bir diqqət və həssaslıq tələb edir. Belə məqamlara riayət olunması, bir sıra hallarda tərcümədə cüzi qüsurlara gətirib çıxarır ki, bu da olduqca təbiidir. Bununla əlaqədar, hörmətli alim və müttəxəsislərin rəylərinə ehtiyac var və güman edirəm ki, onların faydalı olanlarından növbəti çaplarda istifadə olunacaqdır.

Nəhayət ki, qiymətli əsəri böyük sevinclə Azərbaycan Respublikasının müsəlman xalqına, ismət və paklıq nümunəsi olan Əhli-Beytinin (ə) aşiqlərinə təqdim edərək Həzrəti Mehdi Sahibəz-zəmandan *(ərvahuna fədah)* bu kiçik xidmətimizi qəbul etməsini acizanə diləyirəm. Həqiqətən də, Onun razılığı haqq olan Allahın razılığı ilə nəticələnər.

اِنّه ولي النعم. آخر دعوانا ان الحمدلله ربّ العالمين وصلي‌الله علي محمدو آله الطاهرين

**Seyyid Əliəkbər Ocaqnejad**
*İran İslam Respublikasının*
*Azərbaycan Respublikasındakı*
*Mədəniyyət Mərkəzinin sədri*

1

# Fədakarlıq

***1.Fədakarlığın dəyəri.***

1.İmam Əli (ə):«Fədakarlıq ən ali insani sifətdir.» [1]

2.İmam Əli (ə):«Fədakarlıq yaxşı əməl sahiblərinin xislətidir.»[2]

3.İmam Əli (ə):«Fədakarlıq yaxşılıqların ən gözəli və imanın dərəcələrinin ən üstünüdür.[3]«

4.İmam Əli (ə):«Fədakarlıq ibadətlərin ən üstünü və ağalığın ən böyüyüdür.»[4]

5.İmam Əli (ə):«Səxavətliliyin ən üstünü fədakarlıqdır.»[5]

6.İmam Əli (ə):«Başqaları ilə insafla, möminlərlə isə fədakarlıqla davran.»[6]

7.İmam Əli (ə):«Nəcib əxlaqın ən yüksək mərtəbəsi fədakarlıqdır.»[7]

8.İmam Əli (ə):« Azad insanlar fədakarlıqla qul edilirlər.»[8]

***2.Fədakarların dəyəri.***

**Qur'an:**

«Mühacirlərdən əvvəl (Mədinədə) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilənlərə (qənimətlərə) ürəklərində ehtiyac (və həsəd) duymaz, özləri ehtiyac içində olsalar belə onları özlərindən üstün tutardılar. Nəfsinin xəsisliyindən, tamahından qorunub saxlanılan kimsələr . məhz onlar nicat tapıb səadətə qovuşanlardır»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 986
[2] Ğurərul-Hikəm, hədis 606
[3] Ğurərul-Hikəm, hədis 1705
[4] Ğurərul-Hikəm, hədis 1148
[5] Ğurərul-Hikəm, hədis 2888
[6] Ğurərul-Hikəm, hədis 6342
[7] Ğurərul-Hikəm, hədis 6361
[8] Ğurərul-Hikəm, hədis 4187
[9] Həşr, ayə 9

**Hədis:**

9.Əbu Hüreyrə:«Bir kişi Peyğəmbərin (s) yanına gəlib aclıqdan şikayətləndi. Allahın Peyğəmbəri (s) bir nəfəri zövcələrinin evinə göndərdi. Amma onlar dedilər:«Sudan başqa bir şeyimiz yoxdur.» Peyğəmbər (s) buyurdu:« Bu kişini bu axşam kim qonaq aparar?» Əli ibn əbu Talib (ə) dedi:«Ey Allahın Peyğəmbəri, mən onu qonaq apararam.» Sonra Fatimənin (s.ə.) yanına gəlib dedi:«Ey Allahın Peyğəmbərinin qızı, yeməyə nəyin var?» Fatimə dedi:«Şam yeməyindən başqa bir şeyimiz yoxdur, amma qonağı özümüzdən üstün tutar, qabağa salarıq.» Həzrət buyurdu:«Ey Məhəmmədin qızı! Uşaqları yatızdır və çıraqları söndür.» Əli (ə) səhər Peyğəmbərin (s) yanına gəlib baş verənləri Həzrətə danışandan sonra çox keçmədi ki, Allah-taala «…özlərindən üstün tutarlar . . . . . .» ayəsini nazil etdi.»[1]

10.Ayişə:«Allahın Peyğəmbəri (s) dünyadan köçənə kimi heç vaxt üç gün dalbadal doyunca yemək yemədi. Əgər istəsəydi, doyunca yeyə bilərdi. Amma başqalarını özündən üstün tutur, qabağa salırdı.»[2]

11.Əbuttufeyl:«Əli (ə) xoşu gələn bir paltar aldı. Sonra onu sədəqə verib buyurdu:«Allahın Peyğəmbərindən(s) eşitmişəm ki, «hər kim fədakarlıq edərək başqasını özündən qabağa salsa, Allah Qiyamət günü ona Cənnəti bağışlayar.»[3]

12.İmam Sadiq (ə):«Fatimənin (ə. s) evində bir az arpa var idi və o, ondan quymaq hazırladı. Yemək hazır olandan sonra onu qarşılarına qoydular (ki, yesinlər). (Birdən) Bir yoxsul gəlib çıxdı və dedi:«Allah sizə rəhm etsin!» Əli durub yeməyin üçdə birini ona verdi. Çox keçmədi ki, bir yetim gəlib dedi:«Allah sizə rəhm etsin!» Əli (ə) durub yeməyin digər üçdə bir hissəsini ona verdi. Sonra bir əsir gəlib dedi:«Allahın rəhmi olsun sizə!» Əli (ə) durub yeməyin qalan üçdə birini də ona verdi və özü həmin yeməkdən heç dadmadı. Sonra Allah onların barəsində bu ayəni nazil etdi və həmin ayə Allaha görə belə bir fədakarlıq edən hər bir möminə də şamildir.»[4]

ιooooooπ

[1] Nurus-Səqələyn, c.5, səh. 285, hədis 53
[2] Tənbihul-xəvatir, c.1, səh.172
[3] Nurus-Səqələyn, c.5, səh.285, hədis 52
[4] Nurus-Səqələyn, c.5, səh.470, hədis 20

**2**

# İcarə

***3.İcarə.***

**Qur'an:**

«Məgər Rəbbinin rəhmətini onlarmı paylaşdırırlar?! Dünyada onların ruzilərini öz aralarında Biz bölüşdürürük. Biri o birinə iş gördürsün deyə birinin dərəcəsini digərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından daha yaxşıdır.»[1]

«O iki qızın biri dedi:«Atacan! Onu muzdla çoban tut, çünki bu güclü və etibarlı adam muzdla tutduqlarının ən yaxşısıdır!»[2]

**Hədis:**

13.İmam Əli (ə): «Onların ruzilərini aralarında biz bölüşdürürük» ayəsi barəsində buyurub- «Pak və müqəddəs Allah bu ayə ilə bizə insanların dolanacaq yollarından birinin icarə olmasını xəbər verdi. Çünki, Allah öz hikməti əsasında insanları istək, əzmkarlıq və digər cəhətlərdən fərqli yaradıb və bu məsələni yaradılmışların dolanışığının dayaq nöqtəsi edib. Ona görə də bir şəxs digərini (onun əmək qüvvəsini) icarə edir. . . . əgər bizlərdən biri özü üçün bənnalıq, xərratlıq, yaxud digər sənət sahiblərinin işlərini görməyə məcbur olsa, onda dünyanın işləri düzəlməz. İnsanların buna imkanı da yoxdur və heç cür bunu edə bilməzlər. Lakin, Allah onların istəyini müxtəlif etdi, hər kəsin meylini bir işə saldı ki, həmin işi başqaları üçün də görsün və hər biri başqasının köməyi ilə vəziyyətinə uyğun olaraq məişət işlərini irəli aparsın. Beləliklə, Allah dəqiq bir tədbir tökübdür.»[3]

***4.İnsanın muzdlu iş görməsinin xoşagəlməzliyi.***

14.Əmmar Sabati:«Əbu Abdullaha (İmam Sadiqə (ə)) dedim:«İnsan ticarət edib özünü belə bir şəkildə icarəyə verə bilərmi ki, alver etdiyi miqdarda ona (pul) verilsin?» Buyurdu:«Özünü muzda satmasın, əksinə, Allahdan ruzi istəsin və ticarətə başlasın. Çünki əgər muzdla işləsə öz ruzisinə mane olub.»[4]

***5.İcarədə dəllallıq.***

---

[1] Zuxruf, ayə 32

[2] Qəsəs, ayə 26

[3] Vəsailuş-Şiə, c.13, səh.244, hədis 3

[4] əl-Kafi, c.5 səh.90, hədis 3

15.Məhəmməd ibn Müslim:«İmam Baqir və ya İmam Sadiqdən (ə) soruşdular:«Bir şəxs iş götürür, amma onu özü yerinə yetirmir başqasına həvalə edir və ortada xeyir götürür.»Buyurdu:«Özü də həmin işin bir qədərini görməsə, xeyr. (bu düzgün deyil)!» [1]

***6. Muzd alanın haqqını kəsməmək.***

16.Həzrət Peyğəmbər (s):«Allah muzd alanın (fəhlənin) muzdunu kəsən şəxsin əməlini puç və ətri beş yüz illik məsafədən hiss olunan Cənnətin iyini ona haram edər.»[2]

17. Həzrət Peyğəmbər (s):«Muzd alanın (fəhlənin) muzdunu kəsmək böyük günahlardandır.»[3]

***7.Zəhmət haqqının müəyyənləşdirilməsi və zəhməthaqqı verməyin qaydası.***

18.Həzrət Peyğəmbər (s):«Fəhlənin zəhməthaqqını onun təri qurumamış verin və həmin iş halında onun muzdunu müəyyənləşdirin.»[4]

19.İmam Əli (ə):«Allahın Peyğəmbəri (s) muzdu təyin edilməmişdən qabaq fəhlə işlətməyi qadağan edib.»[5]

ιοooooπ

[1] əl-Kafi, c.5, səh. 273, hədis 1
[2] Əmali-Səduq, səh.347, hədis 1
[3] Biharul-Ənvar, c.103, səh170, hədis 27
[4] Kənzul-Ummal, hədis 9126
[5] əl-Fəqih, c.4, səh.10, hədis 4968

3

# Əcəl

***8.Əcəl.***

20.İmam Əli (ə):«(Allah) əcəlləri (ömrün müddətini) təqdir edib, müəyyənləşdirib. Bəzilərini uzun və Bəzilərini qısa edib və bir qismini arxaya atıb və bir qismini qabağa salıb. Onların amillərini ölümə bağlayıb (əcəlin sona çatmasının səbəblərini hazırlayıb).»[1]

21.İmam Əli (ə):«Əcəl və ölümdən doğru şey yoxdur.»[2]

22.İmam Əli (ə):« Əcəl nə gözəl dərmandır.»[3]

23.İmam Əli (ə):«İnsanın nəfəsləri onun ölümə tərəf addımlarıdır.»[4]

***9.Əcəl möhkəm bir qaladır.***

**Qur'an:**

«Allahın izni olmayınca heç kəs ölmür. O, vaxtı müəyyn edilmiş bir yazıdır.»[5]

**Hədis:**

24. İmam Əli (ə):«Əcəlin gözətçiliyi kifayətdir.»[6]

25.İmam Əli (ə):«Əcəl möhkəm qaladır.»[7]

***10. Hər bir şeyin ömrü var.***

26.İmam Əli (ə):« Hər bir şeyin müddəti və sonu vardır.»[8]

27.İmam Əli (ə):«Allah hər bir şey üçün ölçü və hər bir ölçü üçün əcəl və son qoyub.»[9]

***11.Hər bir ümmətin əcəli (sonu) var.***

***Qur'an:***

«Hər bir ümmətin ömür müddəti vardır. Onların əcəli gəlib çatdıqda ondan nə bircə saat yubanar, nə də qabağa keçərlər!»[1]

---

[1] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.7, səh. 21
[2] Ğurərul-Hikəm, hədis10648
[3] Ğurərul-Hikəm, hədis 9905
[4] Nəhcül-Bəlağəğnin şərhi, İbn Əbil Hədid, c.18, səh. 221
[5] Ali-İmran, ayə 145.
[6] Biharul- ənvar, c.5 səh.142, hədis 14
[7] Ğurərul–hikəm, hədis 494
[8] Nəhcül-Bəlağə, Xütbə 190
[9] Ğurərul-Hikəm, hədis 4778

«Biz heç bir məmləkəti əcəli gəlib çatmamış məhv etmədik. Heç bir ümmət nə əcəlindən qabağa keçə bilər, nə də ondan arxaya qala bilər.»[2]

*Həmçinin müraciət et: Nəhl, 61; Ta Ha, 129; Ənkəbut, 5; Şura, 14; . Muminun, 43*

***12.Şərti və qəti əcəl.***

***Qur'an:***

«Sizi palçıqdan yaradan, sonra da bir əcəl müəyyən edən Odur. Qəti əcəl Onun yanındadır. Siz yenə də şübhə edirsiniz!»[3]

***Hədis:***

28.İmam Sadiq (ə)-*yuxarıda qeyd olunan ayənin təfsirində buyurmuşdur*-«Naməlum (adsız) əcəl asılı və şərti haldadır, Allahın istəyi ilə tez və gec ola bilir. Amma məlum (adı olan) əcəl Allahın Qədr gecəsindən gələn ilin Qədr gecəsinə kimi qəzavü-qədər olaraq müəyyənləşdirdiyi əcəldir və Allah onun barəsində buyurmuşdur:«Onların əcəli gəlib çatdıqda bircə saat belə nə yubanar, nə də qabağa keçərlər.»[4]

***13.Şərti əcəli uzaqlaşdıran amil.***

29.İmam Əli (ə):«Ömürlər sədəqə verməklə uzanır.»[5]

30.İmam Sadiq (ə):«İnsanlar öz ömürlərindən çox öz yaxşılıq və ehsanları ilə yaşayırlar. Həmçinin əcəllərinin çatmasından çox günahlarının nəticəsində ölürlər.»[6]

ιοooooπ

---

[1] Ə'raf, ayə 24.
[2] Hicr, ayə 4-5.
[3] Ənam, ayə 2.
[4] Biharul-Ənvar, c.5, səh.139, hədis 3
[5] Ğurərul-Hikəm, hədis 4239
[6] Biharul-Ənvar, c.5, səh.140, hədis 7

4

# Axirət

***14.Axirət.***

***Qur'an:***

«Biz axirət qazancını istəyənin qazancını artırır, dünya mənfəətini istəyənə də ondan veririk. Onun axirətdə heç bir payı yoxdur.»[1]

***Hədis:***

31.İmam Əli (ə):«Dünya bədbəxtlərin arzusu, axirət isə xoşbəxtlərin qurtuluş və uğurudur.»[2]

32.İmam Əli (ə):«Axirətdən möhkəm yapış ki, dünya sənə kiçik gəlsin.»[3]

33.İmam Əli (ə):«Həqiqətən dünya səndən ayrılandır, axirət isə sənə yaxındır.»[4]

***15.Axirət işlərinin əzəməti.***

***Quran:***

«Bir gör onların birini digərindən necə üstün etdik. Axirətdə dərəcə və üstünlüklər daha yüksək və ucadır.»[5]

***Hədis:***

34.İmam Əli (ə):«Dünyanın hər bir şeyini eşitmək görməyindən böyükdür. Axirətin isə hər bir şeyini görmək eşitməyindən böyükdür. Odur ki, axirəti görməyin yerinə, gözlərə görünməyən, qeyb pərdəsi arxasında olanları müşahidə etmək əvəzinə, elə eşitməklə və (peyğəmbərlərin vasitəsi ilə) xəbərdar olmaqla kifayətlənin.»[6]

***16.Axirət əbədi evdir.***

***Quran:***

«Ey qövmüm! Bu dünya həyatı keçici bir şeydir, qalmaq yeri axirət evidir.»[7]

---

[1] Şura, ayə 20
[2] Ğurərul-Hikəm, hədis 694+695
[3] Ğurərul-Hikəm, hədis 6080
[4] Nəhcül-Bəlağə, məktub 32.
[5] İsra, ayə 21.
[6] Nəhcül-Bəlağə, xütbə 114.
[7] Ğafir,ayə 39.

**Hədis:**

35.İmam Əli (ə):«Öz əbədi evini abadlaşdıran kəs ağıllıdır.»[1]

36.İmam Əli (ə):«Dünya qurtaran, axirət isə əbədidir.»[2]

***17.Axirətin üstünlüyü.***

**Quran:**

«De:«Dünyanın malı azdır və axirət, təqvası olan üçün daha yaxşıdır.»[3]

**Hədis:**

37.İmam Əli (ə):«Axirətin heç bir əvəzi yoxdur və dünya insanın qiyməti deyil.»[4]

***18.Axirəti yada salmaq.***

38.İmam Əli (ə):«Axirəti yada salmaq dava-dərmandır, dünyanı yada salmaq isə ən pis dərd və xəstəlik.»[5]

39.İmam Əli (ə):«Kim axirəti çox yadına salsa günahı və (Allaha qarşı) itaətsizliyi az olar.»[6]

***19.Axirət üçün iş görmək.***

40.Allahın Peyğəmbəri (s):«Dünyan üçün elə işlə ki, sanki əbədi yaşayacaqsan və axirətin üçün elə iş gör sanki sabah öləcəksən.»[7]

41. Allahın Peyğəmbəri (s):«Allah gecə-gündüz ən böyük dərd-qəmi axirət olan kəsin qəlbini ehtiyacsız və zəngin edər, onun işini qaydaya salar. O, ruzisini tam şəkildə əldə etməyincə dünyadan köçməz. Allah gecə-gündüz ən böyük dərd-qəmi dünya olan kəsin alnına isə yoxsulluq (möhürü) vurar, işinin nizamını pozar.O dünyada öz qismətindən artıq bir şey əldə etməz.»[8]

42.İmam Əli (ə):«Dünyaya rəğbəti ola-ola axirət üçün iş görmək faydasızdır.»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 8298.

[2] Ğurərul-Hikəm, hədis 4.

[3] Nisa, ayə 77.

[4] Ğurərul-Hikəm, hədis 7502

[5] Ğurərul-Hikəm, hədis 5175+5176

[6] Ğurərul-Hikəm, hədis 8769

[7] Tənbihul-Xəvatir, c.2, səh.234

[8] Biharul-Ənvar, c.77, səh.151, hədis 104

[9] Ğurərul-Hikəm, hədis 10829

ιοοοοοοπ

**5**

# Qardaş

***20.Möminlər bir-birləri ilə qardaşdır.***

**Qur'an:**

«Həqiqətən möminlər bir-birləri ilə qardaşdırlar. Buna görə də qardaşlarınızın arasında sülh yaradın və Allahdan qorxun ki, bəlkə rəhm olunasınız.»[1]

**Hədis:**

43.Allahın Peyğəmbəri (s):«Möminlər qardaşdırlar, qanları bərabərdir və başqalarının qarşısında əlbirdirlər. Onların ən aşağı olanı bir şəxsi hamısının amanına daxil edə bilər.»[2]

44.İmam Əli (ə):«Nə çox qardaşın ki, onları sənin anan doğmayıb.»[3]

45.İmam Baqir (ə):«Mömin möminin doğma qardaşıdır.»[4]

46.İmam Sadiq (ə):«Mömin möminin qardaşı, onun gözü və bələdçisidir. Ona xəyanət və zülm etməz, aldatmaz və ona əməl etməyəcəyi və'di verməz.»[5]

47. İmam Sadiq (ə):«Mömin möminin qardaşıdır.Eyni ilə bir bədən kimidirlər.Onun bir üzvü ağrıyanda digər üzvlər də həmin ağrını hiss edərlər. Onların ruhları bir ruhdandır.»[6]

***21.Həqiqi qardaşlar.***

48.Allahın Peyğəmbəri (s):«Qardaşlarınızın sayını artırın. Çünki Qiyamətdə hər bir mömin şəfaət edəcək.»[7]

49.İmam Əli (ə):«Həqiqi qardaş və yoldaşlarını qoru. Çünki onlar asayiş dövrünün ehtiyatı, bəla günlərinin qalxanıdırlar.»[8]

***22.Qardaşları sevmək.***

50.İmam Əli (ə):«Qardaşın (səninlə) dostluqda səndən güclü olmasın.»[9]

51.İmam Əli (ə):«Qardaşları, onların pəhrizkarlıqları qədərincə sev.»[1]

---

[1] Hucurat, ayə 10
[2] Əmali-Mufid, səh.187, hədis 13
[3] Ğurərul-Hikəm, hədis 5351
[4] əl-Kafi, c.2, səh.166, hədis 2 və 7
[5] əl-Kafi, c.2, səh.166, hədis 3
[6] əl-Kafi, c.2, səh.66 hədis 4
[7] Kənzul-Ummal, hədis 24642
[8] Əmali-Səduq, səh.250, hədis 8
[9] Biharul-Ənvar, c.74, səh.165, hədis 29

52.İmam Sadiq (ə):«İnsanın dinsevərliyinin nişanələrindən biri onun qardaşını sevməsidir.»[2]

***23.Dostluğun davamlılığına səbəb olan amillər.***

53.İmam Sadiq (ə):«Ey Nö'manın oğlu! Əgər qardaşının səninlə olan dostluğunun xalis olmasını istəyirsənsə, onunla (yersiz) zarafat etmə, mübahisə etməkdən çəkin, ona öyünmə və onunla dava etmə.»[3]

54.İmam Sadiq (ə):«Qardaşlar öz aralarında üç şeyə möhtacdırlar ki, əgər onları yerinə yetirsələr dostluqları davamlı olacaq, əks halda isə bir-birlərindən ayrılacaq və düşmən olacaqlar. Həmin üç şey bunlardır: bir-birinə qarşı insaflı olmaq, bir-birinə qarşı mehriban olmaq və bir-birinə paxıllıq etməmək.»[4]

***24.Allaha xatir dostluq və qardaşlıq etmək.***

55.Allahın Peyğəmbəri (s):«Uca Allaha xatir sevdiyin qardaşının üzünə baxmaq ibadətdir.»[5]

56.Allahın Peyğəmbəri (s):«Müsəlman şəxs İslamın xeyrini əldə etdikdən sonra Allaha görə əldə etdiyi dost kimi bir xeyir əldə etməyib.»[6]

57.İmam Əli (ə):«Allaha görə qardaşlıq etmək məhəbbəti saflaşdırır.»[7]

58.İmam Əli (ə):«Allaha görə dostluq edənlərin dostluqları davamlı olar, çünki həmin dostluğa səbəb olan amil həmişə mövcuddur.»[8]

59.İmam Əli (ə):«Allah yolunda qardaşlıq etməklə qardaşlıq bar verir.»[9]

***25.Dünyaya görə qardaş olmaq.***

60.İmam Əli (ə):«Dostluğu Allaha görə olmayan kəsdən çəkin. Çünki onun dostluğu alçaqlıq, onunla yoldaşlıq etmək nəhs və bərəkətsizdir.»[10]

61.İmam Əli (ə):«Kim Allaha görə qardaşlıq etsə xeyir görər və kim dünyaya görə qardaşlıq etsə məhrum qalar.»[11]

62.İmam Əli (ə):«Hansısa bir işə görə səninlə dostluq edən kəs həmin işə nail olduqdan sonra sənə arxa çevirər.»[12]

***26.Qardaşa olan məhəbbəti biruzə vermək.***

63. Allahın Peyğəmbəri (s):«Dost və ya qardaşınızı sevən zaman (məhəbbətinizi) ona biruzə verin.»[13]

---

[1] əl-İxtisas, səh.226
[2] əl-İxtisas, səh.31
[3] Biharul-Ənvar, c.78, səh.291, hədis 2
[4] Tuhəful- uqul, səh.322
[5] Biharul-Ənvar, c.74, səh.279, hədis 1
[6] Tənbihul-Xəvatir, c.2, səh.179
[7] Ğurərul-Hikəm, hədis 6191
[8] Ğurərul-Hikəm, hədis 1795
[9] Ğurərul-Hikəm, hədis 4225
[10] Ğurərul-Hikəm, hədis 8978
[11] Ğurərul-Hikəm, hədis 7776+7777
[12] Ğurərul-Hikəm, hədis 8552
[13] əl-Məhasin, c.1, səh.415, hədis 953

64. Əbul Bilad:«*Əbu Cəfərlə (İmam Baqir) (ə) Əbu Abdullah (İmam Sadiq (ə)) məsciddə oturmuşdular. Oradan bir kişi keçdi.* Əbu Cəfərlə (ə) oturanlardan biri dedi:«Vallah mən bu kişini çox istəyirəm.» Əbu Cəfər (ə) buyurdu:«Elə isə ona bildir. Çünki, məhəbbəti biruzə vermək dostluğu davamlı və bərqərar edər, hüsnü-rəğbət və ülfəti artırar.»[1]

***27.Qardaşı (din qardaşını) sevmək onun da qardaşını sevməsinin nişanəsidir.***

65.İmam Əli (ə):«Dostluq və məhəbbətləri qəlblərdən soruşun. Çünki qəlblər rüşvət qəbul etməyən şahidlərdir.»[2]

66.İmam Baqir (ə):«Qardaşının qəlbində sənə olan məhəbbətini, sənin öz qəlbində ona qarşı olan məhəbbətdən başa düş.»[3]

67.İmam Hadi (ə):«İncitdiyin kəsdə səfa-səmimiyyət axtarma və bədbinlik oxun ilə nişan aldığın kəsdən xeyirxahlıq umma. Çünki, sənin qəlbin başqalarına münasibətdə necədirsə başqalarının da qəlbi sənə qarşı elədir.»[4]

***28.Qardaşlarla əlaqəni kəsmək.***

68.İmam Əli (ə):«Qardaşınla əlaqəni kəsmək istəyəndə öz dostluğundan ona bir az qalıq saxla ki, bir gün həmin miqdar ona məlum olanda ona qayıtsın.» (Onun arxasınca bütün körpüləri uçurtma, onun qayıtması və yenidən birləşməsi üçün bir yer saxla.)[5]

69.İmam Əli (ə):«Birləşəndən sonra əlaqəni kəsmək, qardaşlıqdan sonra cəfakarlıq və dostluqdan sonra düşmənçilik necə də pisdir.»[6]

70.İmam Sadiq (ə):«Öz dostluq və məhəbbətini münasib yerə qoymayan kəs əlaqənin kəsilməsi təhlükəsi qarşısındadır.»[7]

***29.Qardaşlarla əlaqə yaratmaq***

71.İmam Əli (ə): Gərək qardaşının əlaqəni kəsmək imkanı sənin ona birləşmək imkanından çox olmasın. Həmçinin gərək onun pislik etmək qüdrəti sənin yaxşılıq etmək qüdrətindən artıq olmasın.»[8]

72. İmam Hüseyn (ə):«Əlaqə yaratmaqda ən güclü şəxs, onunla əlaqəsini kəsmiş şəxslə əlaqə yaradan şəxsdir.»[9]

***30.Qardaşların növləri.***

73.Allahın Peyğəmbəri (s): «Axirəzzamanda ən az tapılan şey etibarlı dost və ya halal bir dirhəm olacaq.»[1]

---

[1] Biharul-Ənvar, c.74, səh.181, hədis 1
[2] Ğurərul-Hikəm, hədis 5641
[3] Kəşful-ğümmə, c.2, səh.331
[4] Biharul-Ənvar, c.74, səh.181
[5] Nəhcül-Bəlağə,məktub 31
[6] Biharul-Ənvar, c.77, səh.210, hədis 1
[7] əl-Məhasin, c.1, səh.415, hədis 950
[8] Nəhcül-Bəlağə, məktub 31
[9] Biharul-Ənvar, c.78, səh.121, hədis 4

74.İmam Sadiq (ə):«Qardaşlar üç dəstədirlər: Biri yemək kimidir ki, ona həmişə ehtiyac var və o, ağıllı şəxsdir. İkincisi dərd kimidir və o, ağılsız şəxsdir. Üçüncüsü dərman kimidir və o, müdrik şəxsdir.»[2]

75.İmam Sadiq (ə):«Qardaşlar üç dəstədirlər: (Biri) canı ilə yoldaşlıq edən, digəri isə malı ilə kömək edən. Bu iki dəstə qardaşlığında düz və sadiqdir. Üçüncüsü isə səndən gündəlik dolanacağını alan şəxsdir. O səni az bir ləzzət və kef üçün istəyir. Ona etimad etmə![3]

### *31.Çəkinilməli qardaşlıq və dostluqlar*

76.İmam Əli (ə):«Ona dözməli olduğun kəs sənin qardaşın deyil.»[4]

77.İmam Əli (ə):«Sənin yaxşılıqlarını ört-basdır edib nöqsanlarını yayan kəslə qardaşlıq etmə.»[5]

78.İmam Baqir (ə):«Zəngin olanda səni sayan, yoxsullaşanda isə səni tərk edən kəs necə də pis qardaşdır.»[6]

79.İmam Baqir (ə):«Dörd nəfərlə - ağılsız, xəsis, qorxaq və yalançı ilə yoldaşlıq və qardaşlıq etmə!»[7]

80.İmam Sadiq (ə):«Səni tamah saldığı şeyə görə, yaxud nədənsə qorxduğu üçün və ya nəyəsə meyl saldığına görə yaxud da yeyib-içməyə görə istəyən kəslə qardaşlıq etməkdən uzaq ol və pərhizkarlarla qardaşlıq etmək axtarışında ol, hətta əgər onları axtarmaq üçün yerin dərinliklərinə daxil olmalı və ömrünü bu yolda sərf etməli olsan belə!»[8]

### *32.Köhnə qardaşlıqların qorunub saxlanılması*

81.Allahın Peyğəmbəri(s):«Uca Allah köhnə qardaşlıqların davam etməsini sevir. Buna görə də onu davam etdirin.»[9]

82.«İmam Əli (ə):«Hər şeyin təzəsini seç, qardaşların isə ən köhnəsini.»[10]

### *33.Həqiqi qardaşlıq.*

83.İmam Əli (ə):«Sənin həqiqi qardaşın xətandan keçən, ehtiyacını təmin edən, üzrünü qəbul edən, eyblərinin üstünü örtən, qorxunu səndən uzaqlaşdıran və arzunu yerinə yetirən kəsdir.»[11]

84.İmam Əli (ə):«Sənin qardaşın o kəsdir ki, çətinlik zamanı səni tək qoymasın, günah zamanı səndən xəbərsiz olmasın və bir şey soruşanda səni aldatmasın.»[1]

---

[1] Tuhəful-Uqul, səh.54
[2] Tuhəful-Uqul, səh.323
[3] Tuhəful-Uqul, səh.324
[4] Ğurərul-Hikəm, hədis 7503
[5] Ğurərul-Hikəm, hədis 1042
[6] əl-İrşad, c.2, səh.166
[7] əl-Xisal, səh.244, hədis 100
[8] Biharul-Ənvar, c.74, səh.282, hədis 3
[9] Kənzul-Ummal, hədis 24759
[10] Ğurərul-Hikəm, hədis 2461
[11] Ğurərul-Hikəm, hədis 3645

***34.Qardaş seçmək.***

85.İmam Əli (ə):«Hər səhvə görə qardaşlarından ayrılan kəsin dostları azalar.»[2]

86.İmam Sadiq (ə):«Ancaq heç bir eybi olmayan kəs ilə qardaşlıq edən şəxsin dostları az olar.»[3]

***35.Qardaşın xətasına dözmək.***

87.İmam Əli (ə):«Dostunun xətasına düşməninin yürüş etdiyi zamana görə döz.»[4]

88.İmam Əli (ə):«Xətalara dözmək dostların zinətidir.»[5]

89.İmam Əli (ə):«Dostun xətasına dözməyən kəs tək ölər.»[6]

***36.Qardaşların ən yaxşısı.***

90.Allahın Peyğəmbəri(s):«Sənin ən yaxşı qardaşın Allahın itaəti yolunda sənə kömək edən, Ona itaətsizlikdən saxlayan və sənə Onun razılığı olan şeyi əmr edəndir.»[7]

91.İmam Əli (ə):«Ən yaxşı qardaş öyüd-nəsihət verməkdə az güzəştə gedən kəsdir.»[8]

92.İmam Əli (ə):«Sənin ən yaxşı qardaşın sənə kömək edən, ondan yaxşısı sənə kifayət edən və sənə möhtac olanda səndən keçəndir.»[9]

93.İmam Əli (ə):«Ən yaxşı qardaş dostluğu Allaha görə olan kəsdir.»[10]

94.İmam Əli (ə):«Sənin ən yaxşı qardaşın o kəsdir ki, yaxşı işlər görməyə tələsir və səni də xeyirxahlığa çəkir, sənə yaxşı olmaq göstərişi verir və onun yerinə yetirilməsində sənə kömək edir.»[11]

95.İmam Əli (ə):«Sənin ən yaxşı qardaşın səni haqq yolda ən çox qəzəbləndirəndir.»[12]

96.İmam Əli (ə):«Qardaşların ən yaxşısı öz qardaşlarını başqalarına möhtac etməyən kəsdir.»[13]

97.İmam Sadiq (ə):«Qardaşlarımın ən sevimlisi eyblərimi mənə hədiyyə edən kəsdir.»[1]

---

[1] Biharul-Ənvar, c.77, səh.269, hədis 1
[2] Ğurərul-Hikəm, hədis 8166
[3] Əlamud-Din, səh.304
[4] Biharul-Ənvar, c.74, səh.166, hədis 29
[5] Ğurərul-Hikəm, hədis 752
[6] Ğurərul-Hikəm, hədis 9079
[7] Tənbihul-Xəvatir, c.2, səh.123
[8] Ğurərul-Hikəm, hədis 4978
[9] Ğurərul-Hikəm, hədis 4988
[10] Ğurərul-Hikəm, hədis 5017
[11] Ğurərul-Hikəm, hədis 5021
[12] Ğurərul-Hikəm, hədis 5009
[13] Ğurərul-Hikəm, hədis 4985

***37.Qardaşların ən pisi.***

98.İmam Əli (ə): «Ən pis qardaş insanın zəhmət və çətinliyə düşməsinə səbəb olan kəsdir.»[2]

99.Məani əl-Əxbar:«Əmirəl-mömininindən soruşdular ki: ən pis yoldaş kimdir?» Buyurdu:«Allaha qarşı itaətsizliyi sənin gözündə gözəl göstərən kəs!»[3]

***38.Qardaşları sınamaq.***

100.Allahın Peyğəmbəri(s):«Əgər qardaşında üç xislət görsən ona ümid bağla: həya, əmanətçilik, düzlük. Əgər bu üç xisləti görməsən ona ümid bağlama.»[4]

101.İmam Əli (ə):«Kim düzgün sınaqdan sonra özünə bir qardaş seçsə dostluğu davamlı və möhkəm olar. Kim sınaqsız özünə bir qardaş seçsə pislərlə yoldaşlıq etmək məcburiyyətində qalar.»[5]

102.İmam Sadiq (ə):«Qardaşlarınızı iki xislət ilə sınayın. Əgər həmin xislətlərə malik olsalar onlarla yoldaşlıq et və əks təqdirdə onlardan uzaqlaş, uzaqlaş, uzaqlaş! (həmin iki xislət bunlardır:) Namazı öz vaxtında qılmağa bağlılıq və qardaşlara çətin və rahat günlərdə yaxşılıq etmək.»[6]

***39.Qardaşlara yol göstərmək.***

103.Allahın Peyğəmbəri(s):«Mömin öz mömin qardaşının güzgüsüdür. (Qardaşı) yanında olmayanda onun yaxşılığını istəyər. O yanında olanda isə xoşagəlməz işləri ondan uzaqlaşdırar.»[7]

104.İmam Əli (ə):«Öz qardaşına gizlində öyüd-nəsihət verən kəs onu zinətləndirib, aşkar öyüd-nəsihət verən kəs isə onu bədnam və rüsvay edib.»[8]

105.İmam Sadiq (ə):«Qardaşını xoşagəlməz bir işə düçar görüb həmin işi ondan uzaqlaşdırmaq imkanı ola-ola belə etməyən kəs, şübhəsiz ki, ona xəyanət edib.»[9]

***40.Qardaşlara hörmət.***

106.Allahın Peyğəmbəri(s):«Ümmətimdən hansı bəndə öz din qardaşına mehribançılıq və məhəbbət göstərsə, Allah ona qulluq etmək üçün Cənnət qulluqçularından bir qulluqçu göndərər.»[10]

---

[1] Biharul-Ənvar, c.74, səh.282, hədis 4
[2] Nəhcül-Bəlağə, hikmət 479
[3] Məani əl-Əxbar, səh.198, hədis 4
[4] Kənzul-Ummal, hədis 24755
[5] Ğurərul-Hikəm, hədis 8921 və 8923
[6] əl-Kafi,c.2, səh.672,hədis 7
[7] Biharul-Ənvar, c.74, səh.233, hədis 29
[8] Biharul-Ənvar, c.74, səh.166, hədis 29
[9] Biharul-Ənvar, c.75, səh.65, hədis 2
[10] əl-Kafi, c.2, səh.206, hədis 4

107.İmam Sadiq (ə):«Yanına gələn müsəlman qardaşına ehtiram göstərən kəs əslində böyük Allaha hörmət göstərib.»[1]

### *41.Qardaşların ehtiyaclarını aradan qaldırmaq.*

108.İmam Əli (ə):«Sizlərdən hər biriniz qardaşının ehtiyacının olmasını bilən zaman (gərək) istəmək (ağız və ya əl açmaq) zəhmətini onun çiynindən götürsün.»[2]

109.İmam Sadiq (ə):«Nə qədər ki, mömin öz qardaşına kömək edir Allah da ona yardım edər.»[3]

110.İmam Sadiq (ə):«Kim öz mömin qardaşının bir ehtiyacını təmin etsə, Allah-taala Qiyamət günü onun yüz min ehtiyacını təmin edər.»[4]

111.İmam Sadiq (ə):«İnsanın qardaşına etimad etməsi üçün öz ehtiyacını ona deməsi kifayətdir.»[5]

### *42. Qardaşlığın qaydaları.*

112.Allahın Peyğəmbəri(s):«Sizlərdən biri kiminləsə qardaşlıq etmək istəyəndə gərək onun öz adını, atasının və qəbiləsinin adını, həmçinin onun yaşayış yerini soruşsun. Çünki bu iş, lazımı haqlardan və qardaşlığın səfa-səmimiyyətinə səbəb olan amillərdəndir. Əks təqdirdə bu dostluq ağılsızcasına olan bir dostluqdur.»[6]

113.Allahın Peyğəmbəri(s):«Qardaşınla gülərüz görüş.»[7]

114.Biharul-ənvar:«Allahın Peyğəmbəri (s) öz qardaşlarından birini üç gün görməyəndə onun halını xəbər alırdı. Əgər qardaşı şəhərdə olmasaydı ona dua edərdi, şəhərdə olsaydı görüşünə gedərdi və əgər xəstə olsaydı ona baş çəkərdi.»[8]

ιοοοοοοπ

---

[1] Biharul-Ənvar, c.74, səh.298, hədis 32
[2] Biharul-Ənvar, c.74, səh.166, hədis 29
[3] Biharul-Ənvar, c.74, səh.322, hədis 89
[4] Biharul-Ənvar, c.74, səh.89, hədis 90
[5] əl-Kafi, c.2, səh.198 hədis 8
[6] Biharul-Ənvar, c.74, səh.166, hədis 30
[7] Biharul-Ənvar, c.74, səh.171, hədis 38
[8] Biharul-Ənvar, c.16, səh.233, hədis 35

6

# Ədəb

***43.Ədəb***

115.İmam Əli (ə):«Ədəb insanın kamalıdır.»[1]

116.İmam Əli (ə):«Ey mömin! Sənin canının qiymət və dəyəri bu elm və ədəbdir.» Odur ki, bu iki şeyi əldə etməyə çalış! Çünki elm və ədəbin hər nə qədər artsa qədir-qiymətin də bir o qədər artar.»[2]

117.İmam Əli (ə):«Ədəb xislətlərin ən gözəlidir.»[3]

118.İmam Əli (ə):«Ataların övladları üçün qoyduqları ən yaxşı miras ədəbdir.»[4]

119.İmam Əli (ə):«İnsanlar qızıl-gümüşdənsə gözəl ədəbə daha çox möhtacdırlar.»[5]

120.İmam Əli (ə):«Gözəl ədəb ən üstün əsil-nəsəb və ən yüksək qohumluqdur.»[6]

121.İmam Əli (ə):«Ədəb öyrən! Çünki o, əsil-nəcabət şərəfinin zinətidir.»[7]

122.İmam Əli (ə):«Gözəl ədəb əsil-nəcabət şərəfini əvəz edir.»[8]

123.İmam Əli (ə):«Ədəbdən xeyirli şərəf yoxdur.»[9]

124.İmam Əli (ə):«Ədəbi olmayanın əsil-nəcabət şərəfi puç olar.»[10]

125.İmam Əli (ə):«Sizin zinətiniz ədəbdir.»[11]

126.İmam Əli (ə):«Ədəb kimi zinət yoxdur.»[12]

***44.Ədəb və ağıl.***

127.Allahın Peyğəmbəri(s):«Gözəl ədəb ağlın zinətidir.»[13]

128.İmam Əli (ə):«Hər şey ağla möhtacdır, ağıl isə ədəbə.»[14]

---

[1] Ğurərul-Hikəm, hədis 998
[2] Mişkatul-ənvar, səh. 135
[3] Ğurərul-Hikəm, hədis 967
[4] Ğurərul-Hikəm, hədis 5036
[5] Ğurərul-Hikəm, hədis 3590
[6] Ğurərul-Hikəm, hədis 4853
[7] Ğurərul-Hikəm, hədis 6096
[8] Biharul-Ənvar, c.75, səh.68, hədis 8
[9] Biharul-Ənvar, c.71, səh.428, hədis 78
[10] Tuhəful-Uqul, səh.96
[11] Nəhcüs-Səadə, c.2, səh.50
[12] Ğurərul-Hikəm, hədis 10466
[13] Biharul-Ənvar, c.77, səh.31, hədis 41
[14] Ğurərul-Hikəm, hədis 6911

129.İmam Əli (ə):«Ədəb insanda kökü ağıl olan ağac kimidir.»[1]

130.İmam Əli (ə):«Kimin ədəbi ağlını ötsə o, çoxlu qoyunlar arasında olan çoban kimidir.»[2]

131.İmam Hüseyn (ə):«Ağlı olmayanın ədəbi olmaz.»[3]

***45.Nəfsin ədəbləndirilmə və tərbiyəsi.***

132.İmam Əli (ə):«Nəfslərinizi tərbiyə etməyi öhdənizə götürün və onları adətlərin onlara hakim olmasından saxlayın.»[4]

133.İmam Əli (ə):«Özü-özünün müəllimi və tərbiyəçisi olan kəs camaata müəllim və tərbiyəçi olan şəxsdən daha təqdirəlayiqdir.[5]

***46.Ədəbin nəticəsi***

134.Tuhəful-uqul:«Allah-taala İsaya (ə) buyurdu:«Öz qəlbini (Məndən olan) qorxu ilə tərbiyə et.»[6]

135.Tənbihul-xəvatir:«İsa ibn Məryəmə (ə) dedilər:«Sənə kim ədəb öyrətdi?» Buyurdu:«Heç kəs mənə ədəb öyrətmədi, nadanlığın çirkinliyini gördüm və ondan uzaqlaşdım.»[7]

136.İmam Əli (ə):«Gözəl ədəb əxlaqın paklaşmasına səbəb olar.»[8]

137.İmam Əli (ə):«Kim ədəbə könül versə pislikləri azalar.»[9]

138.İmam Əli (ə):«Alimlərlə yoldaşlıq et ki, ədəbin gözəlləşsin və nəfsin paklaşsın.»[10]

139.İmam Əli (ə):«Ədəb zehnin itiliyinə səbəb olur.»[11]

140.İmam Əli (ə):«İnsanın elmi artanda ədəbi çoxalar və onda olan Allah qorxusu bir neçə dəfə artar.»[12]

***47. Ədəbin təfsiri***

141. İmam Əli (ə):«Özünü tərbiyə etməyin üçün başqalarında (görüb) bəyənmədiyin şeydən uzaqlaşmağın kifayətdir.»[13]

142.İmam Əli (ə):«Bəndənin ədəbi(ni göstərməsi) üçün nemət və ehtiyaclarında öz Allahından başqa heç kəsi şərik etməməsi kifayətdir.»[14]

---

[1] Ğurərul-Hikəm, hədis 2004
[2] Ğurərul-Hikəm, hədis 8886
[3] Biharul-Ənvar, c.78, səh.111, hədis 6
[4] Ğurərul-Hikəm, hədis 4522
[5] Biharul-Ənvar, c.2, səh.56, hədis 33
[6] Tuhəful-Uqul, səh.500
[7] Tənbihul-Xəvatir, c.1, səh.96
[8] Ğurərul-Hikəm, hədis 5520
[9] Ğurərul-Hikəm, hədis 8271
[10] Ğurərul-Hikəm, hədis 4786
[11] Ğurərul-Hikəm, hədis 4333
[12] Ğurərul-Hikəm, hədis 4174
[13] Biharul-Ənvar, c.70, səh.73, hədis 27
[14] Biharul-Ənvar, c.94, səh.94, hədis 12

143.İmam Sadiq (ə):«Atam məni üç şeylə tərbiyə etdi. . . . Mənə buyurdu: Oğul! Kim pis dostla yoldaşlıq etsə salamat qalmaz, kim danışığını cilovlamasa peşman olar və kim pis yerlərə daxil olsa töhmətə və bəd gümanlara hədəf olar.»[1]

***48.Ən yaxşı ədəb***

144.İmam Əli (ə):«Ən yaxşı ədəb insanın öz həddində qalması və həddini aşmamasıdır.»[2]

145.İmam Əli (ə):«Ən yaxşı ədəb səni xoşagəlməz (və haram) işlərdən saxlayandır.»[3]

146.İmam Əli (ə):«İstək və qorxu anında özünü saxlamaq ən yaxşı ədəblərdəndir.»[4]

***49.Övladı ədəbləndirməyə təşviq.***

147.Allahın Peyğəmbəri (s):«Övladlarınıza ehtiram göstərin və onları yaxşı tərbiyə edin (ki, həmin gözəl tərbiyə nəticəsində) bağışlanasınız.»[5]

148.İmam Əli (ə) İmam Həsənə (ə):«Yeniyetmənin qəlbi, səpilən hər bir şeyi qəbul edən boş yer kimidir. Buna görə də mən sənin qəlbin bərkiməmiş və zehnin (başqa şeylərlə) məşğul olmamış səni tərbiyə etməyə başladım.»[6]

149.İmam Sadiq (ə):«Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı oddan qoruyun…»[7] ayəsi nazil olanda camaat dedi:«Ey Allahın Peyğəmbəri! Özümüzü və ailəmizi necə qoruyaq?» Buyurdu: Özünüz xeyir iş görün, onu öz ailənizin də yadına salın və onları Allaha itaət əsasında tərbiyə edin.»[8]

150.İmam Rza (ə):«Uşağa göstəriş verin ki, sədəqəni hətta bir tikə çörək və ya bir ovuc şey olsa belə, öz əli ilə versin. Çünki Allah yolunda verilmiş şey, əgər təmiz niyyətlə yerinə yetirilmiş olsa, hətta az olsa belə, çox-çoxdur.»[9]

***50.Tərbiyənin forması.***

151.Allahın Peyğəmbəri (s):«Övladlarınıza yeddi yaşında namaz öyrədin, on yaşları tamam olandan sonra onları namazı tərk etmələrinə görə tənbeh edin və yataqlarını bir-birindən ayırın.»[10]

152.Allahın Peyğəmbəri(s):«Övlad yeddi il ağa, yeddi il qul və yeddi il vəzirdir. Əgər iyirmi bir yaşına kimi xislət və xasiyyətini bəyənsən (lap yaxşı), əks təqdirdə özbaşına burax. Çünki sən Allah-taalanın dərgahında üzrlüsən.»[11]

---

[1] Tuhəful-Uqul, səh.376
[2] Ğurərul-Hikəm, hədis 3241
[3] Ğurərul-Hikəm, hədis 3298
[4] Ğurərul-Hikəm, hədis 5932
[5] Biharul-Ənvar, c.104, səh.95, hədis 44
[6] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.16, səh.66
[7] Təhrim, ayə 6
[8] Müstədrəkul-Vəsail, c.12, səh.201, hədis 13882
[9] əl-Kafi, c.4, səh.4, hədis 10
[10] Kənzul-Ummal, hədis 45330
[11] Məkarimul-Əxlaq, c.1, səh.478, hədis 1649

153.İmam Sadiq (ə):«Uşağı on beş yaşından on altı yaşına kimi oruc tutmağa öyrəşdirmək lazımdır.»[1]

### *51.Tərbiyədə riayət olunması lazım olan nöqtələr.*

154.Biharul-Ənvar: Allahın Peyğəmbəri(s) əsəbi halda ədəb öyrətməyi qadağan edib.»[2]

155.İmam Əli (ə):«Yaxşı əməl sahibini mükafatlandırmaqla pis əməl sahibini pislikdən saxla.»[3]

156.İmam Əli (ə):«Yaxşıları islah etmək onlara ehtiram göstərməklə, pis əməl sahiblərini islah etmək isə cəzalandırmaqladır.»[4]

157.İmam Əli (ə):«Qardaşını ona yaxşılıq etməklə məzəmmət et və onun pisliyinə ona bəxşiş etməklə cavab ver.»[5]

158.İmam Əli (ə):«Pis əməl sahibini (və ya sənə pislik edəni) yaxşı əməlin ilə düzəlt və onu xoş və gözəl danışığınla xeyir və yaxşılığa istiqamətləndir.»[6]

159.Biharul-Ənvar:«Əbulhəsən Musanın (ə) yanında öz övladımdan şikəyətləndim. O Həzrət buyurdu: Onu vurma, ondan qısa bir müddət küs!»[7]

### *52.İlahi ədəb qaydalarına yiyələnmək*

160.İmam Əli (ə):«Kim böyük Allahın ədəb qaydalarına yiyələnsə (həmin ədəb o şəxsi ) əbədi qurtuluşa çatdırar.»[8]

161.İmam Əli (ə):«Allahın ədəb və tərbiyə qaydaları əsasında düzəlməyən kəs öz ədəbi əsasında (da) düzəlməz.»[9]

### *53.Allahın ədəbləndirməsi.*

162.İmam Əli (ə):«Bəla zalımın ədəblənmə amilidir.»[10]

163.İmam Səccad (ə):«Allahım! Məni öz cəzanla ədəbləndirmə və öz məkrinə düçar etmə.»[11]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.103, səh.162, hədis 6
[2] Biharul-Ənvar, c.79, səh.102, hədis 2
[3] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.18, səh. 410
[4] Biharul-Ənvar, c.78, səh.82, hədis 81
[5] Biharul-Ənvar, c.71, səh.427, hədis 76
[6] Ğurərul-Hikəm, hədis 2304
[7] Biharul-Ənvar, c.104, səh.99, hədis 74
[8] Biharul-Ənvar, c.92, səh.214, hədis 13
[9] Ğurərul-Hikəm, hədis 9001
[10] Biharul-Ənvar, c.81, səh.198, hədis 55
[11] İqbalul-əmal, c.1, səh.157

7

# Azan

***54.Azan***

164.Allahın Peyğəmbəri(s):«Bilal! Dur, bizə namazla rahatlıq bəxş et.»[1]

165.Allahın Peyğəmbəri(s):«Şeytan namaza də‘vət səsini eşidəndə qaçar.»[2]

166.Allahın Peyğəmbəri(s):«Göyün əhli yer sakinlərindən azan səsindən başqa bir şey eşitmirlər.»[3]

***55.Müəzzin (Azançı)***

167.Allahın Peyğəmbəri(s):«Müəzzinin günahları onun səsi çatan və gözü görən miqdarda bağışlanar. Və hər bir quru və yaş onu (sözlərini) təsdiqləyir və onun azanı ilə namaz qılanların sayı qədər onun üçün savab yazılır.»[4]

168.İmam Əli (ə):«Azanı gərək sizin ən fəsahətliniz desin və pişnamazlığı dini məsələləri ən yaxşı biləniniz etsin.»[5]

***56.Qulağa azan oxumaq.***

169.Allahın Peyğəmbəri (s):«Ey Əli! Dünyaya oğlun və ya qızın gələn zaman onun sağ qulağına azan, sol qulağına iqamə oxu. Belə olan halda Şeytan heç vaxt ona zərər-ziyan vurmaz.»[6]

170.İmam Sadiq (ə):«Əgər birinin xasiyyəti pisləşsə, onun qulağına azan oxuyun.»[7]

ιooooooπ

---

[1] Kənzul-Ummal,hədis 20954
[2] Kənzul-Ummal, hədis 20951
[3] Kənzul-Ummal, hədis20934
[4] Biharul-Ənvar, c.84, səh.104, hədis 2, əl-müqniə, səh.98
[5] Dəaimul-islam, c.1, səh.147
[6] Tuhəful-Uqul, səh.13
[7] Biharul-Ənvar, c.104, səh.122, hədis 61

8

# İncitmək

***57.İncitmək***

171.İmam Sadiq (ə):«And olsun Allaha ki, yaxşılar nicat tapdılar. Onların kim olmasını bilirsiniz? Onlar qarışqanı da incitməyən kəslərdir.»[1]

***58.Mömini incitmək***

**Quran :**

«Mömin kişiləri və qadınları etmədikləri bir işdən ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər.»[2]

**Hədis:**

172.Allahın Peyğəmbəri (s):«Mömini incidən şəxs şübhəsiz ki, məni incitmişdir.»[3]

173.Allahın Peyğəmbəri (s):«Kim möminə onu qorxudan baxışlarla baxsa, Allah Öz kölgəsindən başqa bir kölgə olmayacaq gündə onu qorxudar.»[4]

174.Allahın Peyğəmbəri (s):«Kim mömini kədərləndirsə və sonra dünyanı ona bağışlasa, bu işi onun günahının bağışlanmasına səbəb olmaz və bəxşişinin müqabilində ona savab verilməz.»[5]

175.İmam Sadiq (ə):«Uca Allah buyurub ki, Mənim mömin bəndəmi incidən şəxs Mənə qarşı müharibə e'lan etsin.»[6]

***59.İncitməmək***

176.Allahın Peyğəmbəri(s):«Camaatı incitmə! Çünki (başqalarını) incitməmək sənin özün üçün verdiyin sədəqədir.»[7]

177.İmam Sadiq (ə):«Kim camaatı incitməkdən əl çəksə onlardan bir əl çəkilər (onları incidənlərdən biri azalar), camaat isə çox əlləri ondan saxlayar.»[8]

---

[1] Təfsir əi-Qumi, c.2, səh.146
[2] Əhzab, ayə 58
[3] Biharul-Ənvar, c.67, səh.72, hədis 40
[4] Biharul-Ənvar, c.75, səh.150, hədis 13
[5] Biharul-Ənvar, c.75, səh.150, hədis 13
[6] əl-Kafi, c.2, səh.350, hədis 1
[7] Biharul-Ənvar, c.75, səh.54, hədis 19
[8] əl-Xisal, səh.17, hədis 60

9

# Əsir

***60.Əsir kimi təslim olmaq rəva deyil.***

178.İmam Əli (ə):«Kim ağır yaralanmadan əsir kimi təslim olsa, onun azad olunması üçün beytül-maldan fidyə (əsirin azad olunması üçün ödənilən mal) verilməməlidir. Əgər onun ailəsi istəsə onun fidyəsi öz malından ödənilməlidir.»[1]

179.İmam Sadiq (ə):«Allahın Peyğəmbəri (s) Əlini (ə) bəraəti[2] elan etmək üçün göndərəndə, onunla birlikdə bir dəstə də göndərdi və onlara belə buyurdu: Kim ağır yaralanmadan əsir kimi təslim olsa bizdən deyil.»[3]

***61.Əsirlə yaxşı rəftar etmək.***

**Qur'an:**

«Onlar öz iştahaları çəkdiyi, özləri yemək istədikləri halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər»[4]

«(Ya Peyğəmbər!) Əlinizdə olan əsirlərə de: Əgər Allah ürəklərinizdə bir yaxşılıq olmasını bilsə sizə sizdən alınandan daha yaxşısını verər və sizi bağışlayar. Allah bağışlayan və rəhm edəndir.»[5]

**Hədis:**

180.İmam Əli (ə):«Əsirə yemək vermək və onunla xoş davranmaq vacib haqlardandır, hətta onu sabah öldürməli olsan belə!»[6]

181.İmam Əli (ə) İbn Mülcəm onu yaraladıqdan sonra Həsən və Hüseynə (ə) buyurdu:«Bu əsiri zindana salın, ona yemək və su verin və əsirlikdə onunla xoş davranın.»[7]

182.İmam Sadiq (ə):«Əsirə yemək vermək onu əsir götürmüş şəxsin boynunda olan haqdır, hətta o sabah öldürülməli olsa belə! Əsirin kafir və qeyri-kafir olmasından asılı olmayaraq ona su və yemək verilməli (və kölgədə saxlanılmalıdır) və onunla mülayim davranılmalıdır.»[8]

---

[1] əl-Kafi, c.5, səh.34, hədis 3
[2] Müşriklərin Məkkəni tərk etmələri vaxtını
[3] əl-Kafi, c.5, səh.34, hədis2
[4] İnsan, ayə8
[5] Ənfal, ayə 70
[6] Vəsailuş-Şiə, c.11, səh.69, hədis 3
[7] Müstədrəkul-Vəsail, c.11, səh.78, hədis 12467
[8] əl-Kafi, c.5, səh.35, hədis 2

183.İmam Sadiq (ə):«Əli (ə) zindana salınan şəxsə müsəlmanların beytül-malından yemək verərdi.»[1]

**10**

# Bəlalar

***62. Bəlalar***

184.Allahın Peyğəmbəri(s):«Zirəkliyin bəlası özünü tərifləmək, şücaətin bəlası həddini aşmaq, güzəştin bəlası minnət, gözəlliyin bəlası qürur, ibadətin bəlası süstlük, danışmağın bəlası yalan, elmin bəlası unutqanlıq, səbrliliyin bəlası səfehlik, əsl-nəcabətliliyin bəlası öyünmək və səxavətliliyin bəlası israfdır.»[2]

185.Allahın Peyğəmbəri(s):«Dinin bəlası nəfsani istəklərdir.»[3]

186.İmam Əli (ə):«Hər şeyin bəlası var və elmin bəlası unutqanlıqdır. İbadətin bəlası riya, ağlın bəlası xudpəsəndlik, nəcabətliliyin bəlası təkəbbür, zirəkliyin bəlası özünü tərifləmək, əliaçıqlığın bəlası israf, həyanın bəlası acizlik, səbrliliyin bəlası xarlıq və güclülüyün bəlası pis danışmaq və pis rəftardır.»[4]

187.İmam Əli (ə):«Qorxu bəladır.»[5]

188.İmam Əli (ə):«Nəfsi istək ağılların bəlasıdır.»[6]

189.İmam Əli (ə):«İmanın bəlası şirkdir.»[7]

190.İmam Əli (ə):«Yəqinliyin bəlası şəkkdir.»[8]

191.İmam Əli (ə):«Nemətlərin bəlası nankorluq, naşükrlükdür.»[9]

192.İmam Əli (ə):«İtaətin bəlası itaətsizlikdir.»[10]

193.İmam Əli (ə):«Əsilzadəliyin bəlası təkəbbürdür.»[11]

194.İmam Əli (ə):«Ağıllılığın bəlası hiyləgərlikdir.»[12]

195.İmam Əli (ə):«İbadətin bəlası riyakarlıqdır.»[13]

196.İmam Əli (ə):«Səxavətin bəlası minnət qoymaqdır.»[14]

---

[1] Vəsailuş-Şiə, c.11, səh.69, hədis 2
[2] Kənzul-Ummal, hədis 44091
[3] Kənzul-Ummal, hədis44121
[4] Kənzul-Ummal, hədis 44226
[5] Ğurərul-Hikəm, hədis 89
[6] Ğurərul-Hikəm, hədis314
[7] Ğurərul-Hikəm, hədis3915
[8] Ğurərul-Hikəm, hədis3916
[9] Ğurərul-Hikəm, hədis3917
[10] Ğurərul-Hikəm, hədis3918
[11] Ğurərul-Hikəm, hədis3919
[12] Ğurərul-Hikəm, hədis3920
[13] Ğurərul-Hikəm, hədis3921
[14] Ğurərul-Hikəm, hədis3923

197.İmam Əli (ə):«Dinin bəlası bədgümanlıqdır.»[1]
198.İmam Əli (ə):«Ağlın bəlası nəfsi istəklərdir.»[2]
199.İmam Əli (ə):«Böyüklük və izzətin bəlası qəzavü-qədərin maneələridir.»[3]
200.İmam Əli (ə):«Nəfsin bəlası dünyaya vurğunluqdur.»[4]
201.İmam Əli (ə):«Məşvərətin bəlası nəzərləri bir-birinə vurmaqdır.»[5]
202.İmam Əli (ə):«Hakimlərin bəlası pis rəftardır.»[6]
203.İmam Əli (ə):«Vəzirlərin bəlası düşmənçilikdir.»[7]
204.İmam Əli (ə):«Alimlərin bəlası mənsəbpərəstlikdir.»[8]
205.İmam Əli (ə):«Rəhbərlərin (idarəçilərin) bəlası siyasi acizlikdir.»[9]
206.İmam Əli (ə):«Qoşunun bəlası öz başçısının əmrindən çıxmaqdır.»[10]
207.İmam Əli (ə):«Riyazətin (zahidliyin) bəlası adətin hakim olmasıdır.»[11]
208.İmam Əli (ə):«Rəiyyətin bəlası itaətsizlikdir.»[12]
209.İmam Əli (ə):«Pəhrizkarlığın bəlası qənaətin azlığıdır.»[13]
210.İmam Əli (ə):«Qazilərin bəlası tamahdır.»[14]
211.İmam Əli (ə):«Ədalətli hakimlərin bəlası pəhrizkarlığın azlığıdır.»[15]
212.İmam Əli (ə):«Şücaətli şəxsin bəlası uzaqgörənliyi və ehtiyatı əldən verməkdir.»[16]
213.İmam Əli (ə):«Güclünün bəlası düşməni zəif saymaqdır.»[17]
214.İmam Əli (ə):«Səbrliliyin bəlası xarlıqdır.»[18]
215.İmam Əli (ə):«Bəxşişin bəlası məəttəl etməkdir.»[19]
216.İmam Əli (ə):«Qənaətin bəlası xəsislikdir.»[20]
217.İmam Əli (ə):«Heybət və böyüklüyün bəlası zarafatdır.»[21]
218.İmam Əli (ə):«Axtarışın bəlası məqsədə çatmamaqdır.»[22]
219.İmam Əli (ə):«Ölkə idarəçiliyinin bəlası ölkəni himayə etməkdə aciz qalmaqdır.»[23]
220.İmam Əli (ə):«Əhd-peymanların bəlası onlara əməl etməməkdir.»[24]

---

[1] Ğurərul-Hikəm, hədis3924
[2] Ğurərul-Hikəm, hədis3925
[3] Ğurərul-Hikəm, hədis3922
[4] Ğurərul-Hikəm, hədis 3926
[5] Ğurərul-Hikəm, hədis3927
[6] Ğurərul-Hikəm, hədis3928
[7] Ğurərul-Hikəm, hədis3929
[8] Ğurərul-Hikəm, hədis3930
[9] Ğurərul-Hikəm, hədis3931
[10] Ğurərul-Hikəm, hədis3932
[11] Ğurərul-Hikəm, hədis3933
[12] Ğurərul-Hikəm, hədis3934
[13] Ğurərul-Hikəm, hədis3935
[14] Ğurərul-Hikəm, hədis3936
[15] Ğurərul-Hikəm, hədis3937
[16] Ğurərul-Hikəm, hədis3938
[17] Ğurərul-Hikəm, hədis3939
[18] Ğurərul-Hikəm, hədis3940
[19] Ğurərul-Hikəm, hədis3941
[20] Ğurərul-Hikəm, hədis3942
[21] Ğurərul-Hikəm, hədis3943
[22] Ğurərul-Hikəm, hədis3944
[23] Ğurərul-Hikəm, hədis3945
[24] Ğurərul-Hikəm, hədis3946

221.İmam Əli (ə):«Hakimiyyətin bəlası öyünməkdir.»[1]

222.İmam Əli (ə):«(Hədis və ya hər hansı bir sözü) nəql etməyin bəlası yalan nəql etməkdir.»[2]

223.İmam Əli (ə):«Elmin bəlası ona əməl etməməkdir.»[3]

224.İmam Əli (ə):«Əməlin bəlası niyyət saflığının olmamasıdır.»[4]

225.İmam Əli (ə):«Bağışlamağın (əliaçıqlığın) bəlası yoxsulluqdur.»[5]

226.İmam Əli (ə):«Xalq kütləsinin bəlası pis əməlli alimdir.»[6]

227.İmam Əli (ə):«Ədalətliliyin bəlası güclü zalımdır.»[7]

228.İmam Əli (ə):«Abadlığın bəlası zalım hakimdir.»[8]

229.İmam Əli (ə):«Qüdrətin bəlası yaxşılıq etməməkdir.»[9]

230.İmam Əli (ə):«Ağlın bəlası xudpəsəndlikdir.»[10]

231.İmam Əli (ə):«Sözün bəlası yalan danışmaqdır.»[11]

232.İmam Əli (ə):«İşlərin bəlası icraçıların acizliyidir.»[12]

233.İmam Əli (ə):«Arzuların bəlası əcəllərin çatmasıdır.»[13]

234.İmam Əli (ə):«Vəfalılığın bəlası əhdi pozmaqdır.»[14]

235.İmam Əli (ə):«Uzaqgörənliyin bəlası iş-işdən keçməsidir.»[15]

236.İmam Əli (ə):«Əmanətin bəlası xəyanətdir.»[16]

237.İmam Əli (ə):«Fəqihlərin (alimlərin ) bəlası pəhrizkarlıq etməməkdir.»[17]

238.İmam Əli (ə):«Bəxşişin bəlası yersiz xərcləməkdir.»[18]

239.İmam Əli (ə):«Dolanışığın bəlası tədbirsizlikdir.»[19]

240.İmam Əli (ə):«Sözün bəlası çox danışmaqdır.»[20]

241.İmam Əli (ə):«Zənginliyin bəlası xəsislikdir.»[21]

242.İmam Əli (ə):«Arzunun bəlası əcəldir.»[22]

243.İmam Əli (ə):«Yaxşılığın bəlası pis həmdərddir.»[23]

244.İmam Əli (ə):«Qüdrətin bəlası zülmkarlıq və itaətsizlikdir.»[24]

245.İmam Əli (ə):«Bütün bəlaların başı ləzzətlərə ( və eyş-işrətə) vurğunluqdur.»[25]

---

[1] Ğurərul-Hikəm, hədis3950
[2] Ğurərul-Hikəm, hədis3947
[3] Ğurərul-Hikəm, hədis3948
[4] Ğurərul-Hikəm, hədis3949
[5] Ğurərul-Hikəm, hədis3951
[6] Ğurərul-Hikəm, hədis3952
[7] Ğurərul-Hikəm, hədis3953
[8] Ğurərul-Hikəm, hədis3954
[9] Ğurərul-Hikəm, hədis3955
[10] Ğurərul-Hikəm, hədis3956
[11] Ğurərul-Hikəm, hədis3957
[12] Ğurərul-Hikəm, hədis3958
[13] Ğurərul-Hikəm, hədis3959
[14] Ğurərul-Hikəm, hədis3960
[15] Ğurərul-Hikəm, hədis3961
[16] Ğurərul-Hikəm, hədis3962
[17] Ğurərul-Hikəm, hədis3963
[18] Ğurərul-Hikəm, hədis3964
[19] Ğurərul-Hikəm, hədis3965
[20] Ğurərul-Hikəm, hədis3966
[21] Ğurərul-Hikəm, hədis3969
[22] Ğurərul-Hikəm, hədis3970
[23] Ğurərul-Hikəm, hədis3971
[24] Ğurərul-Hikəm, hədis3972
[25] Ğurərul-Hikəm, hədis5244

246.İmam Əli (ə):«Ağlın ən pis bəlası kibr və özünü böyük tutmaqdır.»[1]

# 11

# Yemək

***63.Yemək***

247.Allahın Peyğəmbəri (s):«Az yeyən şəxsin mədəsi sağlam qalar və o, qəlb saflığı tapar. Çox yeyən şəxsin mədəsi isə xəstə olar və qəlbi bərkiyər.»[2]

248.İmam Əli (ə):«Az yemək bir növ pəhrizkarlıq, çox yemək isə bir növ israf və həddi aşmaqdır.»[3]

***64.Çox yemək.***

249.Allahın Peyğəmbəri(s):«İnsan qarnından pis qab doldurmayıb.»[4]

250.Allahın Peyğəmbəri(s):«Qarnını dolduran şəxs göylərin və yerin ruhlar aləminə daxil olmaz.»[5]

251.Allahın Peyğəmbəri (s):«Çox yeməkdən çəkinin ki, o qəlbi bərkidər, bədən üzvlərini Allahın itaətində tənbəlləşdirər və himmətləri öyüd-nəsihət eşitməkdə kar edər.»[6]

252.İmam Əli (ə):«Yeməyi çox olanın sağlamlığı az olar və dolanışıq yükü çiyinlərinə ağırlıq edər.»[7]

253.İmam Əli (ə):«Aclıqla xəstəlik bir yerə sığışmaz.»[8]

254.İmam Sadiq (ə):«Mömінin qəlbi üçün çox yeməkdən ziyanlı bir şey yoxdur. Çox yemək iki şeyə səbəb olar: daşürəkliliyə və şəhvətin oyanmasına.»[9]

***65.Çox yeməyin ziyanları.***

255.İmam Əli (ə):«Zehnin itiliyi ilə çox yemək bir yerə sığışmaz.»[10]

256.İmam Əli (ə):«Qarın halal yeməklərlə dolu olsa belə, qəlb xeyir və məsləhətli şeyləri görməkdə kor olar.»[11]

---

[1] Ğurərul-Hikəm, hədis5752
[2] Tənbihul-Xəvatir, c.1, səh.46
[3] Müstədrəkul-Vəsail, c.16, səh.213, hədis 19634
[4] Tənbihul-Xəvatir, c.1, səh.100
[5] Tənbihul-Xəvatir, c.1, səh.100
[6] Biharul-Ənvar, c.77, səh.182, hədis 10.
[7] Ğurərul-Hikəm, hədis 8903
[8] Müstədrəkul-Vəsail, c.16, səh.222, hədis19652
[9] Müstədrəkul-Vəsail, c.12, səh.94, hədis 13615
[10] Müstədrəkul-Vəsail, c.16, səh.222, hədis 19652
[11] Ğurərul-Hikəm, hədis 4139

257.İmam Əli (ə):«Toxluq pəhrizkarlığı kor edər.»[1]

258.İmam Əli (ə):«Toxluq günahlar üçün necə də yaxşı yoldaşdır.»[2]

***66.Aclıq***

259.Allahın Peyğəmbəri(s):«Xoş o adamın halına ki, qarnı yeməkdən boşdur, aclıq çəkir və səbr edir. Belələri Qiyamət günü tox olacaq kimsələrdir.»[3]

260.Müstədrəkul-vəsail:«Me'rac hədisində deyilir: Həzrət Peyğəmbər (s) buyurub:«Pərvərdigara! Aclığın səmərəsi nədir?» Allah-taala buyurub:«Hikmət, qəlbin qorunması, Mənə yaxınlaşmaq, həmişəlik hüzn, camaata az zəhmət vermək, haqqı demək və asan və ya çətin yaşamaqdan qorxmamaq.»[4]

261.İmam Əli (ə):«Nəfsi cilovlamaq və adətləri pozmaq üçün aclıq necə də gözəl yoldaşdır.»[5]

262.İmam Hadi (ə):«Gecə oyaq qalmaq yuxunu ürəyə yatan edir, aclıq isə yeməyi ləzzətli edir.»[6]

***67.Yeməyin miqdarı.***

263.Allahın Peyğəmbəri (s):«Yeməyi iştahan olanda ye və hələ iştahan varkən yeməkdən əl götür.»[7]

264.İmam Rza (ə):«Kim sağlam, həmçinin arıq və çevik bədən sahibi olmaq istəyirsə axşam yeməyini azaltsın.»[8]

***68.Süfrə qaydaları.***

265.Allahın Peyğəmbəri(s):«Kim başqasının gözü qabağında yemək yesə və həmin şəxsi yeməyinə şərik etməsə, dərmanı olmayan bir dərdə düçar olar.»[9]

266.Allahın Peyğəmbəri(s):«Mömin öz ailəsinin istəyi ilə yemək yeyir, münafiqin ailəsi isə onun istəyi ilə yeyir.»[10]

267.İmam Əli (ə):«Kim yemək yeməyə və ya su içməyə başlayanda Allahın adını dilinə gətirsə və sonda Allaha şükr etsə, həmin yemək neməti barəsində ondan heç vaxt sual soruşulmaz.»[11]

268.İmam Əli (ə):«Yeməyinizi duzla başlayın. Çünki əgər camaat duzun faydalarının nə olmasını bilsəydi, onu təcrübədən keçmiş zərdabdan üstün tutardı.»[12]

---

[1] Ğurərul-Hikəm, hədis 659
[2] Ğurərul-Hikəm, hədis 9922
[3] Biharul-Ənvar, c.75, səh.462, hədis 17
[4] Biharul-Ənvar, c.77, səh.22, hədis 6
[5] Müstədrəkul-Vəsail, c.16, səh.214, hədis 19634
[6] Biharul-Ənvar, c.78, səh.369, hədis 4
[7] Biharul-Ənvar, c.62, səh.290
[8] Biharul-Ənvar, c.62, səh.324
[9] Tənbihul-Xəvatir, c.1, səh.47.
[10] Biharul-Ənvar, c.62, səh.291
[11] Vəsailuş-Şiə, c.16, səh.484, hədis 5
[12] Vəsailuş-Şiə, c.16, səh.520, hədis 3

269.İmam Əli (ə):«İsti yeməyi soyudun. Çünki Peyğəmbərin (s). qabağına isti yemək qoyulduqda o Həzrət buyurdu: Qoyun soyusun, Allah bizə od yedizdirmir, bərəkət soyuq yeməkdədir.»[1]

270.İmam Həsən (ə):«Süfrənin on iki qaydası var ki, hər bir müsəlman onları bilməlidir: Onların dördü vacib, dördü sünnə (müstəhəbb) dördü isə ədəbə riayət etməkdir. Vacib olan dördü: mərifət, razılıq, Allahın adını dilə gətirmək və şükr etmək; sünnə olan dördü: yeməkdən əvvəl əlləri yumaq, bədənin sol tərəfi üstündə oturmaq, üç barmaqla yemək və barmaqları yalamaq; ədəbə görə olanlar isə - qarşında olanı yemək, tikəni kiçik götürmək, yeməyi yaxşı çeynəmək və camaatın üzünə az baxmaqdan ibarətdir.»[2]

271.İmam Sadiq (ə):«Kim yeməkdən əvvəl və sonra əllərini yusa həmin yeməyin əvvəlində və axırında ona bərəkət verilər və nə qədər ki, sağdır rifah halında yaşayar və cismani xəstəlikdən amanda qalar.»[3]

272.İmam Sadiq (ə) Peyğəmbərin (s) qadağan etdiyi şeylər barəsində atalarından nəql etdiyi hədisində:«Peyğəmbər yeməyi və ya içməli şeyi üfürməkdən çəkindirib.»[4]

273.İmam Sadiq (ə):«Qablarınızı qapaqsız qoymayın. Çünki qabların ağzı örtülü olmayanda şeytan onlara ağız suyu atır və onların içindən istədiyini götürür.»[5]

274.İmamKazimdən (ə) alçaq adam barəsində sual soruşduqda o Həzrət buyurdu:«Küçədə-bazarda (bir şey) yeyən adam.»[6]

275.əl-İxtisas:«Nəql edilib ki: Süfrədə oturmağı uzadın. Çünki həmin müddət sizin ömrünüzdən hesab edilmir.»[7]

ιooooooπ

---

[1] əl-Kafi, c.6, səh.321, hədis 1
[2] Vəsailuş-Şiə, c.16, səh.539, hədis 1
[3] əl-Məhəccətul-bəyza, c.3, səh. 6
[4] Vəsailuş-Şiə, c.16, səh.518, hədis 1
[5] Müstədrəkul-Vəsail, c.8, səh.295, hədis 9485
[6] Vəsailuş-Şiə, c.116, səh.510, hədis 1
[7] əl-İxtisas, səh. 253

**12**

# Ülfət

***69. Ülfət***

**Qur'an:**

«O Allah ki, səni öz köməyi və möminlərin köməyi ilə möhkəmlətdi. Və onların ürəklərini bir-birinə ülfətlə bağladı. Əgər sən yer üzündə nə varsa hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi, çünki O , yenilməz qüvvət və hikmət sahibidir.»[1]

«Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi bir-birinə ülfətlə bağladı və Onun lütfü sayəsində bir-birinizlə qardaş oldunuz.»[2]

**Hədis:**

276.İmam Əli (ə):«Möhkəm dağları yerindən qoparmaq bir-birinə nifrət edən qəlbləri bir-birinə bağlamaqdan daha asandır.»[3]

277.İmam Sadiq (ə):«Yaxşı əməl sahibləri bir-birləri ilə rastlaşanda zahirdə bir-birlərinə məhəbbət göstərməsələr belə, onların qəlbləri yağış suyunun çayların suyu ilə qarışması kimi sürətlə bir-biri ilə üns tutarlar. Pis əməl sahibləri isə bir-birləri ilə qarşılaşanda zahirdə məhəbbət göstərsələr də qəlbləri bir-birilə üns tutmaqdan uzaqdır. Uzun bir müddət bir axurdan ot yesələr belə bir-birinə məhəbbət bəsləməkdən uzaq olan dördayaqlılar kimi.»[4]

***70.Başqaları ilə ünsiyyət yaradıb uyuşmayan şəxsdə xeyir yoxdur.***

278.Allahın Peyğəmbəri(s):«Sizin ən yaxşınız ən gözəl xasiyyətlinizdir, o kəsləriniz ki, özləri başqaları ilə ünsiyyət tuturlar, başqaları da onlarla ünsiyyət tuta bilir.»[5]

279.Allahın Peyğəmbəri (s):«Möminlərin ən yaxşısı, möminlərin ünsiyyət tuta bildikləri kəsdir. Başqaları ilə ünsiyyət yaratmayan və başqalarının da onunla ünsiyyət tuta bilmədiyi kəsdə heç bir xeyir yoxdur.»[6]

---

[1] Ənfal, ayə 62-63
[2] Ali-İmran, ayə 103
[3] Biharul-Ənvar, c.78, səh.11, hədis 70
[4] Tuhəful-Uqul, səh.373
[5] Tuhəful-Uqul, səh.45
[6] Biharul-Ənvar, c.75, səh.265, hədis 9

**13**

# Allah

***71.Allah***

***Quran:***

«Əgər onlardan «göyləri və yeri kim yaratmışdır?» deyə soruşsan,onlar mütləq «Allah!» deyə cavab verəcəklər.»[1]

***Hədis:***

280.İmam Əli (ə):«Allahın mənası yaradılmışların mat-məəttəl, heyran qaldıqları və pənah aparılan mə'buddur. Allah gözlərin görə bilmədiyi, xəyal və təsəvvürlərdən uzaq olan varlıqdır.»[2]

281.İmam Əli (ə):«Allah adı, Allah-taalanın adlarının ən böyüyüdür. Elə bir ad ki, Allahdan başqasına layiq deyil və bu ad heç bir məxluqa verilməz.»[3]

282.İmam Baqir (ə):«Allah o mə'buddur ki, yaradılmışlar Onun mahiyyətini başa düşməkdə, necəliyindən agah olmaqda mat-məəttəl və heyran qalıblar.»[4]

283.İmam Rza (ə):«Həqiqətən Allah-taalanın adını çəkmək Onun rübubiyyət və tovhidini bəyan etməkdir.»[5]

284.İmam Həsən Əskəri (ə):«Allah həmin o varlıqdır ki, bütün yaradılmışlar ehtiyac və çətinliklər zamanı, həmçinin Ondan başqa hər bir şeydən ümidini kəsən vaxt Ona pənah aparır.»[6]

ιoooooοπ

---

[1] Loğman, ayə25, Zumər, ayə38
[2] ət-Tovhid, səh.89, hədis2
[3] ət-Tovhid, səh.231, hədis 5
[4] ət-Tovhid, səh. 89, hədis 2
[5] Uyun əxbar-Rza (ə), c.2, səh. 93, hədis 1
[6] Biharul-Ənvar, c.3, səh.41, hədis16

**14**

# Hökmdarlıq

***72.Hökmdarlığın zəruriliyi.***

285.İmam Əli (ə) «Həkəmiyyət»[1] məsələsində buyurdu:«Bunlar deyirlər ki, hakimə ehtiyac yoxdur,[2] halbuki hakimiyyəti sayəsində möminin öz işini görməsi və günahkarın öz payını alması üçün hakimin olması zəruridir.»[3]

286.İmam Əli (ə):«İnsanları yalnız hökmdar – istər yaxşı əməl sahibi olsun, istərsə də pis əməl sahibi – düzəldə bilər.»[4]

287.İmam Əli (ə):«Tezliklə Müaviyə sizə hakim olacaq. Dedilər: Bəs onda onunla nə üçün vuruşuruq? Buyurdu: Camaata bir hakim lazımdır, istər yaxşı əməl sahibi olsun, istərsə də pis!»[5]

288.İmam Əli (ə) «Hökm ancaq Allaha məxsusdur!» deyən Həruriyyənin[6] cavabında buyurdu:«(Bəli, həqiqətən) hökm Allaha məxsusdur. Yerdə də hakimlər vardır. Amma onlar deyirlər:«Hökmdara ehtiyac yoxdur, halbuki insanların hökümətdən başqa bir çıxış yolu yoxdur ki, mömin onda öz işini görsün və günahkar və kafir öz payını alsın. Allah onun zamanında hər bir kəsi öz təyin edilmiş əcəlinə çatdırır.»[7]

289.İmam Əli (ə):«İnsanlara bir hökmdar gərəkdir istər yaxşı əməl sahibi olsun, istərsə də pis. Çünki onun hökuməti sayəsində imanlı şəxs öz işini (Allaha itaəti) görər və kafir öz payını alar. Allah hökumətin mövcudluğu ilə hər bir kəsi onun üçün təyin edilmiş əcəlinə çatdırar. Hökumətin vasitəsi ilə vergilər yığılar, düşmənlə müharibə aparılar, yollar əmin-amanlıq olar, zəifin haqqı güclüdən alınar, yaxşı əməl sahibi asayişdə olar və günahkardan amanda qalar.»[8]

290.İmam Əli (ə):«Yırtıcı şir zalım hökmdardan yaxşıdır, zalım hökmdar isə uzun müddətli fitnələrdən daha yaxşıdır.»[9]

---

[1] Süffeyn müharibəsində Müaviyə ilə Əmr ibn Asın məğlubiyyətdən can qurtarmaq üçün hiyləgərliklə döyüşən tərəflər arasında hər tərəfdən bir hakim təyin edilməsi
[2] Nəhcül-Bəlağədə mətnin əsli «hökm vermək ancaq Allaha məxsusdur şəklindədir»
[3] Nəhcus-səadə, c.2, səh.33
[4] Kənzul-Ummal, hədis 14286
[5] Kənzul-Ummal, hədis 14366
[6] Xəvaricin adıdır
[7] Kənzul-Ummal, hədis 31567
[8] Biharul-Ənvar, c.75, səh.358, hədis 72
[9] Biharul-Ənvar, c.75, səh.359, hədis 74

291.Əbulbəxtəri: «Bir kişi məscidə daxil olub dedi:«Hökm ancaq Allaha məxsusdur.» Başqa biri isə dedi:«Allahdan başqasının hökm etmək haqqı yoxdur.»Bu zaman Əli (ə) belə buyurdu:« (Əlbəttə,) hökm ancaq Allaha məxsusdur «həqiqətən Allahın vədi doğrudur. Məbada yəqinliyə çatmamış kəslər səni yelbeyinləşdirsin.» Siz bunların nə dediklərini bilmirsiniz. Onlar deyirlər ki: Hökumət lazım deyil. Ay camaat! Sizi(n vəziyyətinizi) hökmdardan başqa bir şey düzəltməz, istər yaxşı əməl sahibi olsun istərsə də pis! Dedilər:«Yaxşı əməl sahibi olan hakim barəsində dediyin düzdür, amma pis əməl sahibi olan hakim necə? Buyurdu:«Mömin öz işi ilə məşğul olar və günahkar öz bəhrəsini götürər, Allah təyin edilmiş əcəlləri çatdırar, yollarınızda əmin-amanlıq olar, bazarlarınız rövnəqlənər, vergiləriniz yığılar, düşmənlərinizlə vuruşular və güclüdən zəifin haqqı geri alınar.»[1]

### *73.Pis əməl sahiblərinin hökmdarılığı*

292.Allahın Peyğəmbəri(s):«Hökmdarlarınız yaxşılar və zənginləriniz səxavətlilər olanda və işləriniz məsləhət və məşvərət əsasında aparılan zaman yerin üstü sizin üçün onun altından yaxşıdır. Amma hakimləriniz pislər, zənginləriniz xəsislər olanda və işləriniz arvadlarınızın əllərinə düşən zaman yerin altı sizin üçün onun üstündən daha yaxşıdır.»[2]

### *74.Hökumətin dəyəri.*

293.İmam Əli (ə) çarığının bir tayını tikmək və yamamaqla məşğul olan zaman İbn Abbas gəlib dedi:«Hacılar toplaşıblar ki, sizdən bir söz eşitsinlər. O Həzrət buyurdu:«And olsun Allaha bu (çarıqların) ikisini sizə hakimlikdən çox sevirəm, bu istisna ilə ki, bir ilahi hədd icra etmiş olam və ya bir batili uzaqlaşdıram.»[3]

294.İmam Əli (ə) İbn Abbasa dedi:«Bu çarığın bir tayının dəyəri nə qədərdir? (İbn Abbas nəql edir ki,) dedim:«Dəyəri yoxdur. Buyurdu:«Allaha and olsun ki, bunu sizə hökmdarlıq etməkdən daha çox sevirəm, bu istisna ilə ki, bir haqqı bərqərar edəm və ya batili aradan götürəm.»[4]

295.İmam Əli (ə) İbn Abbasa yazdığı məktubunda : . . . Sonra:« Məbada sənin hakimlikdən payın mal əldə etmək və ya qəzəbini yatırmaq ola. Sənin ondan payın batili öldürmək və haqqı diriltmək olmalıdır.»[5]

---

[1] Kənzul-Ummal, hədis 31618
[2] Tuhəful-Uqul, səh.36
[3] əl-Mənaqibli-ibn Şəhr Aşub, c.2, səh.101
[4] Nəhcül-Bəlağə, xütbə 33
[5] Biharul-Ənvar, c.40, səh.328, hədis 10

1000000π

**15**

# Arzu

***75.Arzu***

296.Allahın Peyğəmbəri(s):«Mənim ümmətim üçün arzu rəhmətdir. Əgər arzu olmasaydı heç bir ana öz övladına süd verməzdi və heç bir bağban ağac əkməzdi.»[1]

297.İmam Əli (ə):«Arzu həmdəm dostdur.»[2]

298.Tənbihul-xəvatir:«İsa (ə) oturmuşdu və bir qoca kişi bel ilə yeri şumlayırdı. İsa (ə) dedi:«İlahi, (ümid və) arzunu ondan al. Elə həmin an o qoca beli kənara atdı və uzandı. Bir saat keçəndən sonra İsa dedi:« İlahi, arzunu ona qaytar. Qoca dərhal ayağa qalxdı və işləməyə başladı.»[3]

***76.Arzuların sonu yoxdur.***

299.Allahın Peyğəmbəri(s):«Sabah sağ qalmasını arzulayan kəs, əbədi yaşamağı arzulayır.»[4]

300.İmam Əli (ə):«Arzunun sonu yoxdur.»[5]

301.İmam Əli (ə):«Arzular bitib-tükənməzdir.»[6]

***77.Puç və batil arzulardan çəkindirmələr.***

***Qur'an:***

«Qoy kafirlər hələ yeyib-içsinlər, ləzzət alsınlar, arzuları-ümidləri başlarını qatsın, tezliklə biləcəklər.»[7]

***Hədis:***

302.İmam Əli (ə):«Puç və batil arzudan çəkinin. Çünki, çoxları sabahın arzusunda olub, amma sabaha çıxa bilməyib və çoxlarına gecənin əvvəlində qibtə edir, lakin axırında onun halına ağlayırlar.»[8]

303.İmam Əli (ə):«Arzu ilğım kimidir, onu görəni aldadır və ümid bağlayanı məyus edir.»[9]

---

[1] Biharul-Ənvar, c.77, səh.173, hədis 8
[2] Ğurərul-Hikəm, hədis 1042
[3] Tənbihul-Xəvatir, c.1, səh. 272
[4] Biharul-Ənvar, c.73, səh.168, hədis 31
[5] Ğurərul-Hikəm, hədis 1010
[6] Ğurərul-Hikəm, hədis 639
[7] Hicr, ayə 3
[8] Ğurərul-Hikəm, hədis 2572
[9] Ğurərul-Hikəm, hədis 1896

304.İmam Əli (ə):«Arzular bəsirətin gözlərini kor edir.»[1]

305.İmam Əli (ə):«Arzu şeytanın qafillərin qəlblərinə hakim olma amilidir.»[2]

306.İmam Əli (ə):«Arzunun nəticəsi işin puç olmasıdır.»[3]

307.İmam Əli (ə):«Arzı qəlbi unutqanlığa çəkir, yalan vəd verir, çoxlu qəflət və xəbərsizlik gətirir, əfsus və həsrətlə nəticələnir.»[4]

308.İmam Əli (ə):«Arzu ağlı aradan götürür, yalan vəd verir, qafilliyə həvəsləndirir, əfsus və həsrətlə nəticələnir. Odur ki, arzunu yalan hesab edin. Çünki o aldadandır və arzusu olan şəxs isə aldanmış və günahkar!»[5]

309.İmam Sadiq (ə):«Nə çox nemət ki, Allah onu bəndəyə arzulamadan verib. Nə çoxdur o kəslər ki, bir şeyin arzusunda olublar, amma onlar üçün başqa şey seçilib.»[6]

***78.Arzu və əcəl.***

310.Tənbihul-xəvatir:«Nəql edilib ki, Allahın Peyğəmbəri(s) üç dənə çubuq götürdü və onların birini öz qarşısında yerə batırdı, digərini öz kənarında, üçüncüsünü isə uzaqda basdırdı və sonra buyurdu:«Bilirsiniz bunlar nədir?» Dedilər:«Allah və Onun Peyğəmbəri daha yaxşı bilir.» Buyurdu:«Bu insandır, bu əcəl və o birisi isə arzudur. Adəm övladı onun arxasınca gedir, amma əcəl gəlib çatır və o, arzusuna çatmır.»[7]

311.İmam Əli (ə):«Əgər insan əcəli və onun insana tərəf tələsməsini görsə, arzuya nifrət edər.»[8]

312. İmam Əli (ə):«Arzu əcəli (insanın) yad(ın)dan çıxarar.»[9]

313. İmam Əli (ə):« (İnsana) ən yaxın şey əcəl və ölüm, ən uzaq şey isə arzudur.»[10]

314.İmam Əli (ə):«İnsanın əcəli çatmayınca onun nəfsi arzusuz olmaz.»[11]

315.İmam Əli (ə):«Bilin! Siz, arxasında əcəl olan arzunun mühasirəsindəsiniz. Buna görə də kim əcəli çatmamış arzu günündə iş görsə işi ona xeyir verər və əcəli ona ziyan vurmaz.»[12]

316. İmam Kazim (ə):«Əgər əcəllər (hər bir kəsin ömür müddəti) məlum olsa arzular rüsvay və bərbad olar.»[13]

---

[1] Ğurərul-Hikəm, hədis 1375
[2] Ğurərul-Hikəm, hədis 1828
[3] Ğurərul-Hikəm, hədis 4641
[4] Biharul-Ənvar, c.78, səh.35, hədis 117
[5] Biharul-Ənvar, c.77, səh.293, hədis 2
[6] Biharul-Ənvar, c.71, səh.152, hədis 55
[7] Tənbihul-Xəvatir, c.1, səh.272
[8] Biharul-Ənvar, c.73, səh.95, hədis 79
[9] Ğurərul-Hikəm, hədis 874
[10] Ğurərul-Hikəm, hədis 2920+2921
[11] Ğurərul-Hikəm, hədis 10844
[12] Biharul-Ənvar, c.77, səh.333,hədis 21
[13] Ə'lamud-Din, səh.305

***79.Uzun arzunun nəticələri***

317.əl-Kafi:«Allah Musaya xitab edərək buyurdu:«Ey Musa! Dünyada uzun arzular etmə ki, qəlbin bərkiyər və qəlbi bərk olan insan Məndən uzaqdır.»[1]

318.İmam Əli (ə):«Kimin arzusu uzun-uzadı olsa, əməli az və qısa olar.»[2]

319.İmam Əli (ə):«Uzun arzu axirəti insanın yadından çıxarır.»[3]

***80.Qısa arzu.***

320.Allahın Peyğəmbəri(s) İbn Məs’uda buyurdu:«Arzunu qısa et və səhər açılanda de:«Mən axşama çıxmayacağam və axşam düşəndə de:«Səhərə kimi sağ qalmayacağam. Dünyadan ayrılacağına ciddi hazırlaş və Allaha qovuşmağı sev.»[4]

321.İmam Əli (ə):«Dostlardan ayrılacağına, torpağın üstündə yatacağına, qarşısında hesab olacağına, özündən sonra yerdə qoyub getdiklərinin onun işinə yaramayacağına və qarşıya göndərdiklərinə möhtac olduğuna yəqin edən kəs arzunu qısa etməyə və əməl dairəsini uzun etməyə daha layiqdir.»[5]

322.İmam Baqir (ə):«Arzunu qısaltmaqla dünyadan ( axirət üçün) azuqə götür.»[6]

***81.Allahdan başqasına ümid bağlamaq olmaz***

323. «Allahın Peyğəmbəri(s):«Allah-taala: «Şübhəsiz Məndən başqasına ümid bağlamış hər bir möminin ümidini onu məyus etməklə qıraram.»[7]

324.İmam Əli (ə):«Kim insana ümid bağlasa ona tə’zim edib və onu böyük bilib.»[8]

ιοooooπ

[1] əl-Kafi, c.2, səh.329, hədis 1
[2] Biharul-Ənvar, c.77, səh.421, hədis 40
[3] əl-Kafi, c.2, səh.336, hədis 3
[4] Biharul-Ənvar, c.77, səh.101, hədis 1
[5] Biharul-Ənvar, c.73, səh.167, hədis 31
[6] Tuhəful-Uqul, səh.286
[7] səhifətur-Rza, səh.276, hədis 20
[8] Biharul-Ənvar, c.78, səh.79, hədis 61

**16**

# Ümmət

***82.Ümmət***

**Qur'an:**

«Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. Yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində Bəzi iman gətirən şəxslər vardır, lakin çox hissəsi haqq yoldan çıxanlardır.»[1]

**Hədis:**

325.Allahın Peyğəmbəri(s):«Mənim ümmətim bərəkətli bir ümmətdir. Onun əvvəlinin, yoxsa sonunun xeyir olması məlum deyil.»[2]

326.Allahın Peyğəmbəri(s):«Mənim bu ümmətim Haqqın rəhmət kölgəsində olan bir ümmətdir.»[3]

327.Allahın Peyğəmbəri(s):«Siz yetmişinci ümmətsiniz və Allah yanında onların ən yaxşı və ən əzizisiniz.»[4]

328.Allahın Peyğəmbəri(s):«Müjdə olsun bu ümmətə möhtərəmlik, dindarlıq, başı ucalıq, qələbə və yer üzündə qüdrət əldə etmək!»[5]

***83. Ümmətin yaxşıları.***

329.Allahın Peyğəmbəri(s):«Mənim ümmətimin ən yaxşıları onların dünyaya daha etinasızları və axirətə daha çox can atanları, axirət arzusunda olanlarıdır.»[6]

330.Allahın Peyğəmbəri (s):«Mənim ümmətimin ən yaxşısı cavanlığını Allaha itaətdə keçirmiş, öz nəfsini dünyanın ləzzətlərindən saxlayan və axirətə ürək bağlayan kəsdir. Həqiqətən Allahın ona verəcəyi mükafat Cənnətin ən yüksək dərəcələridir.»[7]

331.Allahın Peyğəmbəri (s):«Ümmətimin ən yaxşıları onlara qarşı ağılsızlıq ediləndə dözənlər, onlara qarşı zülm və cinayət törədiləndə bağışlayanlar və incidiləndə səbr edənlərdir.»[8]

---

[1] Ali-İmran, ayə 110
[2] Kənzul-Ummal, hədis 34451
[3] Kənzul-Ummal, hədis 34452
[4] Kənzul-Ummal, hədis 34462
[5] Kənzul-Ummal, hədis 34465
[6] Tənbihul-Xəvatir, c.2, səh.123
[7] Tənbihul-Xəvatir, c.2, səh.123
[8] Tənbihul-Xəvatir, c.2, səh.123

***84.Mö'tədil ümmət.***

**Qur'an:**

«Beləliklə də sizi orta bir ümmət (ümmətlərin ən yaxşısı) etdik ki, insanlara (insanların əməllərinə) şahid olasınız, Peyğəmbər də sizə şahid olsun.»[1]

**Hədis:**

332.İmam Əli (ə):«Allahın yaratdıqlarına şahidləri və Onun yer üzündəki dəlilləri bizik. Biz o kəslərik ki, Allah-taala buyurub:«Beləliklə də sizi orta bir ümmət etdik…»[2]

***85.Ümmətin xeyrinə olan şeylər.***

333.Allahın Peyğəmbəri(s):«Mənim ümmətim nə qədər ki, bir-birlərini sevir, əmanəti (sahibinə) qaytarır, haramdan çəkinir, qonağı əziz tutur, namaz qılır və zəkat verir həmişə xeyir içində olacaqdır.»[3]

334.Allahın Peyğəmbəri (s):«Nə qədər ki, bu ümmətin Quran oxuyanları hakimlərlə əlbir olmayıblar, alimləri yaramaz və günahkarlara bəraət qazandıraraq onları təmizə çıxarıb günahsız kimi təqdim etməyiblər, yaxşıları pislərinə kömək etməyiblər Allahın əli bu ümmətin üzərində olacaq və Onun himayəsi sayəsində yaşayacaq. Amma bu işləri görəndən sonra Allah öz qüdrət əlini onların başı üzərində götürəcək və zülmkarlarını onlara hakim edəcəkdir.»[4]

***86.İslam ümmətinin axirətdəki məqamı.***

335.Allahın Peyğəmbəri(s): «Qiyamət günü mənim bütün peyğəmbərlərdən çox davamçım olacaq.»[5]

336.Allahın Peyğəmbəri(s):«Cənnətdə yüz iyirmi cərgə var ki, onun səksən cərgəsi mənim ümmətimdir.»[6]

***87.Millətlərin İslam ümmətinə qarşı hücumu.***

337.Allahın Peyğəmbəri(s):«Tezliklə millətlər ac adamlar yemək kasasına hücum edən kimi sizə hücum edər.» Bu zaman bir nəfər soruşdu: «Bunun səbəbi həmin vaxt bizim sayımızın az olmağıdır?» Peyğəmbər buyurdu:«Əksinə, sayınız çox olar, amma sel üzərindəki köpük və çör-çöp kimi olarsınız, Allah sizin heybət və əzəmətinizi düşmənlərinizin qəlbindən çıxarar, sizin qəlblərinizə qüvvətsizlik və süstlük salar.» Bir nəfər soruşdu:«Ey Allahın Peyğəmbəri, qüvvətsizlik və süstlük nədir?» Buyurdu:«Dünya məhəbbəti və ölümü istəməmək.»[7]

---

[1] Bəqərə, ayə 143
[2] Nurus-Səqəleyn, c.1, səh.134, hədis 406
[3] Biharul-Ənvar, c.69, səh.394, hədis 77
[4] Tənbihul-Xəvatir, c.1, səh.84
[5] Biharul-Ənvar, c.7, səh.130, hədis 1
[6] Biharul-Ənvar, c.7, səh.130, hədis 3
[7] ət-Təşrif bil-minən, səh.307, hədis 428

338.Allahın Peyğəmbəri(s):«Mənim ümmətim dünyanı böyük bilən zaman Allah İslamın əzəmətini ondan alar.»[1]

### *88.Peyğəmbərin ümməti barəsindəki nigarançılığı.*

339.Allahın Peyğəmbəri(s):«Mən öz ümmətim üçün üç şeydən – hərislik və xəsisliyə boyun qoymaqdan, nəfsi istəklərə tabe olmaqdan və azğın başçıdan qorxuram.»[2]

340.Allahın Peyğəmbəri(s):«Ümmətim üçün üç şeydən – (Haqqı və ya haqq yolu) tanıyandan sonra azğınlığa düşməkdən, azdırıcı fitnələrdən, qarınqululuq və şəhvətpərəstlikdən qorxuram.»[3]

341.Allahın Peyğəmbəri(s):«Ümmətim barəsində hər şeydən çox narahatçılığa səbəb olan şey üçdür: alimin büdrəməsi, münafiqin Quran vasitəsi ilə mübahisə etməsi və sizin boyunlarınızı vuran dünya. Buna görə də özünüz barəsində dünyadan qorxun.»[4]

342.Allahın Peyğəmbəri(s):«Özümdən sonra ümmətim üçün ən çox qorxduğum şeylər bunlardır: haram qazanclar, gizlin şəhvət və sələm yemək.»[5]

343.Allahın Peyğəmbəri(s):«Ümmətim üçün qorxduğum ən qorxulu şey iki xislətdir: Nəfsi istəklərə tabe olmaq və uzun arzu. Çünki nəfsi istəklərə tabe olmaq insanı haqdan saxlayar və uzun arzu axirəti yaddan çıxardar.»[6]

344.Allahın Peyğəmbəri(s):«Düçar olmağınızdan qorxduğum ən qorxulu şey kiçik şirkdir.» Dedilər:«Ey Allahın Peyğəmbəri! Kiçik şirk nədir?» Buyurdu:«Riya.»[7]

345.Allahın Peyğəmbəri(s):«Ümmətim üçün qorxduğum ən dəhşətli şey dilli münafiqdir.»[8]

346.Allahın Peyğəmbəri(s):«Ümmətim üçün qorxduğum ən qorxulu şey dünya malının parlaqlığı və bolluğudur.»[9]

ιοooooπ

[1] Tənbihul-Xəvatir, c.1, səh.75
[2] Biharul-Ənvar, c.77, səh.161, hədis 178
[3] Əmali-Tusi, səh.157, hədis 263.
[4] əl-Xisal, səh.163, səh.214
[5] Biharul-Ənvar, c.73, səh.158, hədis 3
[6] Biharul-Ənvar, c.70, səh.75, hədis 3
[7] Biharul-Ənvar, c.72, səh.303, hədis 50
[8] Kənzul-Ummal, hədis 28969(=28968 və 28970)
[9] Nurus-Səqəleyn, c.4, səh.579, hədis 91

**17**

# İmamət

***89.İmamət***

**Qur'an:**

«Bu gün dininizi kamala yetirdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim.»[1]

**Hədis:**

347.İmam Əli (ə):«İmamət ümmətin (işlərinin) nizamıdır.»[2]

348.İmam Baqir (ə):«İslam beş sütun üzərində möhkəmlənib: namaz, zəkat, oruc, həcc və vilayət. Heç bir şeyə vilayət qədər də'vət olunmayıb.»[3]

349.İmam Sadiq (ə):«Əgər bəndələr Allah tərəfindən olmayan zalım rəhbəri rəhbər kimi qəbul etsələr Allah onların yerinə yetirdikləri yaxşı əməlləri qəbul etməyəcəkdir.»[4]

350.İmamKazim (ə):«İmamət nur və işıqdır, Allah-taalanın «Allaha, Onun Peyğəmbərinə və nazil etdiyimiz nura iman gətirin!»(ayəsində) buyurduğu nur! (İmam sonra) buyurdu: Nur həmin imamdır.»[5]

351.İmam Rza (ə):«Peyğəmbərin(s) ömrünün son ilində yerinə yetirilmiş vida həccində «Bu gün dininizi kamala yetirdim...» (ayəsi) nazil oldu. İmamət məsələsi dinin kamilliklərindəndir.»[6]

352.İmam Rza (ə):«İmamət İslamın boy atmaqda olan təməli və onun ucaldılmış qoludur.»[7]

353.İmam Rza (ə):«İmamət dinin cilovu, müsəlmanların işlərinin nizamı, dünyanın düzəlməsi və abadlığı, möminlərin izzət və başucalığıdır.»[8]

***90.İmamətin nübüvvətdən üstünlüyü.***

**Qur'an:**

«(Yadına sal ki,) İbrahimi öz Rəbbi bir neçə sözlə imtahana çəkdiyi zaman o Allahın əmrlərini tamamilə yerinə yetirdi. Belə olduqda Allah ona«səni insanlara imam təyin edəcəyəm» dedi.»[1]

---

[1] Maidə, ayə 3
[2] Ğurərul-Hikəm, hədis 1095
[3] əl-Kafi, c.2, səh.18, hədis 3
[4] Nurus-Səqəleyn, c.4, səh.104, hədis 130
[5] Nurus-Səqəleyn, c.5, səh.341, hədis 16
[6] Nurus-Səqəleyn, c.1, səh.589, hədis 33
[7] əl-Kafi, c.1, səh.200, hədis 1
[8] əl-Kafi, c.1, səh.200, hədis 1

**Hədis:**

354.İmam Sadiq (ə):«Allah-taala İbrahimi peyğəmbərliyə seçməmişdən qabaq onu bəndəliyə götürdü və onu risalət məqamına seçməmişdən qabaq nübüvvətə çatdırdı. Həmçinin onu dostluğa seçməmişdən qabaq öz rəsulu etdi və onu öz imamı etməmişdən qabaq öz dostu etdi. Bu məqamların hamısını onda toplayandan sonra buyurdu: Mən səni insanların imamı və başçısı təyin etdim.»[2]

***91.Höccətin (ilahi rəhbərin) zəruriliyi.***

***Höccət*** *(Allah tərəfindən təyin edilmiş ilahi rəhbərlərdir.Allah onları təyin etmişdir ki, Qiyamət günü insanlar bəhanə gətirib deməsinlər ki,dünyada bizə bir yol göstərən yox idi.)*

355.İmam Baqir (ə) və ya İmam Sadiq (ə):«Allah yer üzünü alimsiz qoymayıb və əgər belə olmasaydı haqq ilə batil bir-birindən seçilməzdi.»[3]

356.İmam Sadiq (ə):«Yer üzü yarandığı gündən heç vaxt insanların unutduqları haqqı dirçəldən, hər şeyi bilən höccətsiz qalmayıb. (İmam Sadiq (ə)) sonra bu ayəni oxudu:«Öz ağızları ilə Allahın nurunu söndürmək istəyirlər...»[4]

***92. Höccət tanınmış imamdır.***

357.İmam Sadiq (ə):«Allahın yaratdıqlarına höccəti tanınmış imamsız bərqərar olmaz.»[5] [6]

***93.Bəzən höccət qorxu içində və ya naməlum olur.***

358.İmam Əli (ə):«Bəli, elədir! Yer üzü Allahın yaratdıqlarına höccətlərini bərqərar edən kəsdən istər aşkar və məhşur olsun, istərsə də qorxu içində və naməlum – boş olmur ki, Allahın dəlil və sübutları aradan getməsin.»[7]

359.İmam Baqir (ə):«Yer üzü imamsız – istər aşkar olsun və ya gizlin qalmır.»[8]

***94.İmam olmasa yer üzü bir-birinə dəyər.***

360.İmam Sadiq (ə):«Əgər yer üzü imamsız qalsaydı bir-birinə dəyər, dağılardı.»[9]

---

[1] Bəqərə, ayə 124

[2] əl-Kafi, c.1, səh.175, hədis 2

[3] əl-Kafi, c.1, səh.178, hədis 5

[4] Biharul-Ənvar, c.23 səh.37, hədis 65

[5] əl-Kafi, c.1, səh.177, hədis 2

[6] Hədisin ərəbcə olan mətnində işlənmiş لم يعرف felinin fail əvəzləyicisi barəsində bir neçə ehtimal var: Allah , imam, haqq və batil. Amma biz bəhsin Adı ilə əlaqədar ikinci ehtimalı daha düzgün sayırıq. (tərcüməçi)

[7] Biharul-Ənvar, c.23, səh.46, hədis 91

[8] Biharul-Ənvar, c.23, səh.23, hədis 26

[9] əl-Kafi, c.1, səh.179, hədis 10

361.İmam Sadiq (ə):«Yer üzündə həmişə höccət mövcuddur. Çünki insanları höccətdən başqa bir şey islah etməz və yer üzünü ondan başqa bir şey abadlaşdırmaz.»[1]

***95.Hər bir ümmət öz imamı ilə çağrılacaqdır***

**Qur'an:**

«Elə bir gün ki, (Qiyamət günü) bütün insanları öz imamları ilə birlikdə çağıracağıq.»[2]

**Hədis:**

362.İmam Sadiq (ə):«Qiyamət günü …. Allah-taaladan nida gələr ki, kim dünya evində imama tabe olubsa, gərək onun arxasınca imamı aparılan yerə getsin. Həmin vaxt :«tabe olunmuşlar tabe olanlardan uzaqlaşacaq, üz döndərəcəklər.»[3]

***96.İmamı tanımaq.***

363.Allahın Peyğəmbəri(s):«Kim imamını tanımamış ölsə cahiliyyət ölümü ilə ölüb.»[4]

364.Allahın Peyğəmbəri(s):«Kim imamı olmadan ölsə cahiliyyət ölümü ilə ölüb.»[5]

365.İmam Hüseyndən (ə) Allahı tanımaq barəsində sual soruşularkən buyurmuşdur:«Hər bir zamanın insanlarının tabe olmalı imamı tanımaları (Allahı tanımalarına səbəb olar. Çünki Allahı tanımaqla onun tərəfindən olan mə'sum imamın tanınması arasında sıx bağlılıq mövcuddur).»[6]

366.İmam Sadiq (ə) «Kimə hikmət əta edilsə…. « (ayəsi) barəsində buyurmuşdur:« (Hikmət) Allaha tabe olmaq və imamı tanımaqdır.»[7]

367.İmam Sadiq (ə):«İmam Allah-taala ilə Onun yaratdıqları arasında olan bir bələdçidir. Onu tanıyan mömin, inkar edən isə kafirdir.»[8]

368.İmam Sadiq (ə):«Kim bizi tanımasa və bizi inkar da etməsə, o, Allahın ona vacib etdiyi hidayətə, yəni bizə tabe olmağın zəruriliyənə qayıdana kimi azğındır. Əgər o, azğınlıq halında ölsə Allah onunla özü istədiyi kimi rəftar edəcək.»[9]

***97.İmamətin şərtləri və imamın xüsusiyyətləri.***

**Quran:**

«Səbr etdiklərinə və bizim ayələrimizə və nişanələrimizə yəqinlikləri olduğu üçün Biz onlardan əmrimizlə haqq yolu göstərən rəhbərlər təyin etmişdik.»[10]

---

[1] Biharul-Ənvar, c.23, səh.51, hədis 101
[2] İsra, ayə 71
[3] Biharul-Ənvar, c.8, səh.10, hədis 3
[4] Biharul-Ənvar, c.23, səh.76, hədis 1
[5] Kənzul-Ummal, hədis 464
[6] Biharul-Ənvar, c.23, səh.83, hədis 22
[7] əl-Kafi, c.1, səh.185, hədis 11
[8] Biharul-Ənvar, c.23, səh.88, hədis 32
[9] əl-Kafi, c.1, səh.187, hədis 11
[10] Səcdə, ayə 24

«Doğru yola yönəldən kəs ardınca getməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs?»[1]

«Allah onu sizin üçün seçmiş, elm və bədəncə ona üstünlük vermişdir.»[2]

**Hədis:**

369.İmam Əli (ə):«Bu işi (imaməti) ancaq səbr əhli olan, gözüaçıq və işlərdən baş çıxaran kəs çiyinlərində çəkə bilər.»[3]

370.İmam Əli (ə):«İmam və rəhbər gərək haqq yolunda ağıllı fikrə, iti dilə və coşqun qəlbə malik olsun.»[4]

371.İmam Əli (ə):«Özünü camaatın rəhbəri etmiş kəs başqalarını öyrətməmişdən qabaq özünü öyrətməli və (başqalarını) söz ilə ədəbləndirməmişdən qabaq əməl ilə özünü ədəbləndirməlidir.»[5]

372.İmam Əli (ə):«Allahın əmrini ( ilahi hökmün icrasında) bac verməyən, geri çəkilməyən və (şəxsi) mənafe dalınca getməyən kəsdən başqa heç kəs icra və bərpa edə bilməz.»[6]

373.İmam Əli (ə):«İtaəti vacib olan imamın vilayətinin böyük sərhədləri bunlardır: Məlum olmalıdır ki , o səhvdən, büdrəmədən, biləkdən edilən günahdan,ümumiyyətlə bütün günahlardan – istər böyük olsun istərsə, də kiçik – uzaqdır, pak və müqəddəsdir.O, nə büdrəyər, nə səhv edər.O, dinin devrilməsinə heç cür qol qoymaz, heç vaxt əyyaşlıq və kef etməz, Allahın halal-haramına, Onun vaciblərinə, müstəhəbbilərinə və (digər) hökmlərində insanların ən biliklisidir,o heç kəsə möhtac deyil, amma başqaları ona möhtacdır, o insanların ən səxavətli və ən şücaətlisidir.»[7]

374.İmam Əli (ə):«Bildiniz ki, müsəlmanların namus, can, qənimət, hökumət və rəhbərlik işlərini xəsis adama tapşırmaq olmaz. Çünki o, onların mallarına həris olar. Həmçinin nadana tapşırmaq olmaz, çünki o da öz nadanlığı nəticəsində onları azdırar. Eləcə də rəhmsiz və zülmkara! Çünki o da öz rəhmsizliyi ilə müsəlmanları möhtac olduqları şeylərdən məhrum edər.[8] Malların bölüşdürülməsini ədalətsiz adama da tapşırmaq olmaz. Çünki o, bir dəstəyə bağışlayar, bir dəstəni isə məhrum edər.[9] Nə də qəzavət edəndə rüşvət alana ki, camaatın hüquqlarını tapdalayar və haqqı sahiblərinə çatdırmaqda səhlənkarlıq edər və nə də sünnəni tərk edən kəsə ki, ümməti məhvə aparar.»[10]

---

[1] Yunus, ayə 35
[2] Bəqərə, ayə 247
[3] Nəhcül-Bəlağənin şərhi, c.7, səh.36
[4] Ğurərul-Hikəm, hədis 11010
[5] Nəhcül-Bəlağə, hikmət 110
[6] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.18, səh.220 və 274
[7] Biharul-Ənvar, c.68, səh.389, hədis 39
[8] İbn Əbil Hədid bu ifadələrin şərhində yazır: «Çünki camaat rəhmsiz və zülmkar hökmdarlardan qorxduqları üçün ehtiyaclarını həll etmək üçün onlara müraciət etmirlər.» Mərhum Feyz həmin cümləəri belə tərcümə edib: ……ki, zülm və sitəm ilə müsəlmanları biçarə və dərdli edər.
[9] Mərhum Feyz bu cümlələri belə tərcümə edib: … nə də günlərin dəyişməsindən qorxan kimsəyə ki, bir dəstə ilə yoldaşlıq edərək digər bir dəstəni xar edir.
[10]Nəhcül-Bəlağə, xütbə 131

375.İmam Hüseyn (ə) küfəlilərə yazdığı məktubunda buyurmuşdur: «Öz canıma and olsun ki, imam və rəhbər yalnız o kəsdir ki, Allahın kitabı əsasında hökm çıxarır, ədaləti bərqərar edir, haqq dinə tabedir və Allah qarşısında nəfsini cilovlayır.»[1]

376.İmam Baqir (ə) imamın nişanəsinin izahında buyurmuşdur: «Halalzadə və gözəl tərbiyəyə malik olmalı və əyyaşlıqla məşğul olmamalıdır.»[2]

377.İmam Rza (ə) imamın xüsusiyyətləri barəsində buyurmuşdur: «İmam rəhbərlikdə bacarıqlı, siyasətdən və ölkənin idarəçiliyindən xəbərdar olmalıdır.»[3]

***98.Allahın haqq rəhbərlərə vacib etdiyi şeylər.***

378.İmam Əli (ə):«Allah məni öz yaratdıqlarının imam və başçısı etdi. Buna görə də mənə yeyib-içmək və geyimimdə yoxsullar kimi olmağımı əmr edib ki, yoxsul öz yoxsulluğunda mənimlə təsəlli tapsın, varlını öz zənginliyi azğınlıq və itaətsizliyə çəkməsin.»[4]

379.İmam Əli (ə):«Həqiqətən imama Allahın onun öhdəsinə qoyduğu şeylərdən başqa heç nə vacib deyil(və onlar ibarətdir): moizə və öyüd-nəsihət verməkdə səhlənkarlıq etməməli, xeyirxahlıq istiqamətində çalışmalı, sünnəni dirçəltməli, layiq olan kəslər barəsində Allahın müəyyənləşdirdiyi ilahi hədd və cəzaları icra etməli və (beytül-maldan olan) payları payı olan kəslərə çatdırmalıdır.»[5]

***99.İmamla ümmətin qarşılıqlı haqları.***

380.İmam Əli (ə):«İmam Allahın kitabı əsasında hökm çıxarmaq və əmanəti sahibinə qaytarmaq vəzifəsi daşıyır. O belə edəndən sonra camaatın vəzifəsi onun sözlərinə qulaq asmaq, əmrlərinə tabe olmaq və onları (hər hansı bir işə) çağıranda (çağırışına) cavab verməkdir.»[6]

381.İmam Əli (ə):«Hakimin vəzifəsi budur ki, hansısa bir fəzilət və üstünlük əldə edəndə və ya ona bir nemət veriləndə halı dəyişməsin, onun rəiyyətlə rəftarının dəyişməsinə səbəb olmasın. Allahın ona nəsib etdiyi nemətlər onun, Allah bəndələrinə yaxınlaşmasını və qardaşlarına mehribanlığını artırsın.

Bilin, sizin mənim boynumda olan haqqınız, müharibə istisna olmaqla sizdən heç bir sirr gizlətməməyim, hökm çıxarmaq istisna olmaqla, sizinlə məsləhətləşmədən bir iş görməməyim və haqlarınızı gecikdirməməyim (sizin haqq və bəxşişlərinizi vaxtında verməyimdir), onun çatdırılmasını ləngitməməyim və sizin hamınızı bərabər bilməyimdir. Beləliklə, mən belə

[1] əl-İrşad, c.2, səh.39
[2] əl-Kafi, c.1, səh.285, hədis 4
[3] əl-Kafi, c.1, səh.202, hədis 1
[4] Biharul-Ənvar, c.40, səh.336, hədis 17
[5] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.7, səh.167
[6] Kənzul- Ummal, hədis 14313

etdikdən sonra Allahın neməti sizə vacib olur və sizin mənə tabe olmağınız vacibdir.»[1]

***100.İmamlarınız sizin nümayəndələrinizdirlər.***

382.Allahın Peyğəmbəri(s):«Həqiqətən sizin imamlarınız Allah yanındakı nümayəndələrinizdir. Odur ki, din və namazınızda kimləri nümayəndə olaraq göndərdiyinizə diqqət edin.»[2]

383.Allahın Peyğəmbəri(s):«İmamlarınız sizi Allaha tərəf aparan bələdçilərinizdirlər. Buna görə də din və namazlarınızda kimə iqtida etməyinizə diqqət edin.»[3]

***101.Haqq imamdan başqasına tabe olmaq.***

384.İmam Baqir (ə):«Allah-taala buyurub:«İslam rəiyyətindən kim qeyri-ilahi zalım rəhbərin hakimiyyətini qəbul etsə, ona mütləq əzab verəcəyəm.»[4]

385.İmam Sadiq (ə):«Kim qeyri-ilahi rəhbəri imaməti Allah tərəfindən olan imamla şərik etsə Allaha şərik qoşub.»[5]

***102.Cəhənnəmə aparan rəhbərlər.***

**Qur'an:**

«Biz onları Cəhənnəmə çağıran rəhbərlər etdik»[6]

**Hədis:**

386.İmam Əli (ə):«Allah yanında ən pis adam özü azğın olduğu halda camaatı da azğınlığa salan zülümkar rəhbərdir. Çünki o əməl olunan sünnəni öldürür və tərk edilmiş və atılmış büd'əti diriIdir. Allahın Peyğəmbərinin belə buyurduğunu eşitmişəm :«Qiyamət günü zülmkar rəhbər bir arxa və hamisi olmadan gətiriləcək. Beləliklə, Cəhənnəm oduna atılacaq və orada dəyirman daşı kimi fırlanacaq. Sonra Cəhənnəmin dibində zəncirlənəcəkdir.»[7]

***103.İmamət iddiaçısı.***

387.İmam Baqir (ə) «Qiyamət günü Allaha qarşı yalan uydurub söyləyənlərin üzlərini qapqara görərsən» (ayəsi) barəsində buyurmuşdur:«O, imam olmadığı halda «mən imamam» deyən kəsdir.»[8]

388.İmam Sadiq (ə):«Layiq olmadığı halda imamət iddiası edən kəs kafirdir.»[9]

---

[1] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.17, səh.16
[2] Biharul-Ənvar, c.23, səh.30, hədis 46
[3] Biharul-Ənvar, c.23, səh.30, hədis 46
[4] əl-Kafi, c.1, səh.376, hədis 4
[5] əl-Kafi, c.1, səh.373, hədis 6
[6] Qəsəs, ayə 41
[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9, səh.261
[8] əl-Kafi, c.1 səh.372, hədis 1
[9] Biharul-Ənvar, c.25, səh.112, hədis 7

***104.Allah-taalaya itaət etməyən kəsə tabe olmaq olmaz.***

**Quran:**

«Onlar deyəcəklər:«Pərvərdigara! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar.»[1]

**Hədis:**

389.Allahın Peyğəmbəri(s):«Allaha itaət etməyən kəsə tabe olmaq olmaz.»[2]

390.Allahın Peyğəmbəri(s):«Ey Əli! Dörd şey insanın belini qırar: Özü Allaha itaət etmədiyi halda başqalarının ona itaət etdiyi rəhbər….»[3]

391.İmam Əli (ə):«Allahın Peyğəmbəri bir qoşun göndərdi və bir nəfəri onların başçısı təyin etdi. Qoşuna onun göstərişlərinə tabe olmağı və ona itaət etməyi tapşırdı. Həmin şəxs ocaq qalayıb qoşuna özlərini onun içinə atmaq göstərişi verdi. Onların bir dəstəsi oda girməkdən imtina edərək dedi:«Biz oddan qorxuruq. Başqa bir dəstə isə oda girmək qərarına gəldi. Bu xəbər Allahın Peyğəmbərinə çatdı.» O Həzrət buyurdu:«Əgər onlar oda daxil olsaydılar həmişə odda qalardılar. Sonra buyurdu:«Allaha itaətsizlik məsələsində heç kəsə tabe olmaq olmaz, bəlkə yaxşı işlərdə (əmrə) tabe olmaq lazımdır.»[4]

***105.Hər bir zalım rəhbərin qarşısında qiyam etmək vacibdir.***

392.Allahın Peyğəmbəri(s):«İslamın dəyirman daşı tezliklə hərəkətə gələcəkdir. Onda siz Quranın oxu ətrafında fırlanın. Hökmdarla Quranın bir-birinə qarşı vuruşmaları və bir-birindən ayrılmaları yaxındır. Tezliklə sizə elə şahlar hakim olacaqlar ki, sizə bir cür, özləri üçün isə başqa cür hökm edərlər. Əgər onlara tabe olsanız sizləri azdırarlar və əgər onlara qarşı itaətsizlik etsəniz sizi öldürərlər.»

Dedilər:«Ey Allahın Peyğəmbəri! Həmin zamanda nə edək? Buyurdu:«İsanın əshabı kimi olun.Onları oraq ilə doğradılar və dar ağacından asdılar. (Allahın) itaət(in)də ölmək günah içində yaşamaqdan daha yaxşıdır.»[5]

***106.Qiyamdan çəkinməyə səbəb olan amillər.***

393.İmam Baqir (ə):«Əgər imama kömək etmək üçün «Bədr» əhlinin sayı qədər adam toplaşsa, ona qiyam etmək və vəziyyəti dəyişdirmək vacibdir.»[6]

394.İmam Sadiq (ə):«Ey Sudeyr! And olsun Allaha, əgər şiələrimin sayı bu keçi balalarının sayı qədər olsaydı, oturmağı rəva bilməzdim. (Sudeyr deyir:) Biz endik və namaz qıldıq. Namaz qurtaranda keçi balalarına nəzər salıb onları saydım, on yeddi baş idilər.»[7]

---

[1] Əhzab, ayə 67
[2] Kənzul-Ummal, 14872
[3] əl-Xisal səh.206, hədis 24
[4] Tənbihul-Xəvatir, c.1, səh.51
[5] Əd-durrul-Mənsur, c.3, səh.125
[6] Biharul-Ənvar, c.100, səh.49, hədis 18
[7] əl-Kafi, c.2, səh.243, hədis 4

***107.İmamın seçilməsi.***

395.İmam Mehdi (ə) Sə'd ibn Abdullah Quminin «camaat nə üçün özü üçün imam seçə bilməz?» sualının cavabında buyurmuşdur:«Həmin imam saleh əməl sahibi olacaq, yoxsa pis əməl sahibi?» Dedim:«Saleh əməl sahibi.» Buyurdu:«Onu seçənlərin heç biri onun zehnindən nələr keçdiyini bilmədiyi üçün ola bilərmi ki, həmin şəxs pis əməl sahibi çıxsın?» Dedim:«Bəli.» Buyurdu:«Səbəb budur.»[1]

***108.Səqəleyn hədisi.***

396.Allahın Peyğəmbəri(s):«Mən sizin aranızda iki qiymətli şey qoydum. Nə qədər ki, onlardan möhkəm yapışacaqsınız, məndən sonra heç vaxt azmayacaqsınız. Onlardan biri digərindən daha böyük və üstündür. (Biri) Allahın kitabıdır ki, o göydən yerə uzanmış və birləşmiş ipdir. (İkincisi) mənim itrət və Əhli-Beytimdir. Bilin ki, bu iki şey, hovuzun kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birindən ayrılmaz.»[2]

***109.Əhli –beytə tabe olmağın vacibliyi.***

397.Allahın Peyğəmbəri(s):«Həqiqətən mənim Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən nicat tapar və ondan üz döndərən suda batıb boğular.»[3]

398.İmam Əli (ə):«Öz Peyğəmbərinizin Əhli-Beytinə baxın, onların yolu ilə gedin və arxalarınca hərəkət edin. Çünki onlar sizi heç vaxt doğru yoldan azdırmaz və heç bir həlakətə salmazlar. Əgər onlar otursalar, siz də oturun və dursalar siz də durun.»[4]

399.İmam Əli (ə):«Bilin! Məhəmmədin (s) Əhli-Beyti göydəki ulduzlar kimidir.Onlardan biri yox olanda digər bir ulduz zahir olar. Buna görə də sanki Allahın nemətləri sizin aranızda kamilləşib və O, arzu etdiyiniz şeyləri sizə verib.»[5]

400.İmam Əli (ə):«Bizik nübüvvət ağacı və risalətin nazil olma yeri, mələklərin get-gəl yeri, elm mədənləri və hikmət çeşmələri!»[6]

401.İmam Əli (ə):«Həqiqətən imamlar Allah tərəfindən insanların işlərini idarə edənlər və Onun bəndələri barəsində (əmrlərinin) icraçılarıdır. Cənnətə onları tanıyan və onların da tanıdıqları kəslərdən başqa heç kəs daxil olmaz və Cəhənnəmə yalnız onları inkar edən və onların da inkar etdikləri kəs daxil olar.»[7]

---

[1] Nurus-Səqəleyn, c.2, səh.76, hədis 283
[2] Biharul-Ənvar, c.23, səh.106, hədis 7
[3] Biharul-Ənvar, c.23, səh.105, hədis 3
[4] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.7, səh.76
[5] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.7, səh.84
[6] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.7, səh.218
[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9 səh.152

402.İmam Əli (ə):«Biz yolun ortasında olan söykənəcəyik. Geridə qalan özünü ona çatdırar və çox qabağa keçən ona tərəf qayıdar.»[1]

403.İmam Sadiq (ə) imamların vəziyyətləri və onların xüsusiyyətlərini açıqlayarkən buyurmuşdur:«Allah onları insanların həyatı (həyat amili), qaranlıqların çıraqları, söz açarları və İslamın sütunları edib.»[2]

***110.Əhli-Beytə qarşı özbaşına davranılmasının səbəbi.***

404.İmam Əli (ə):«Bizim nəsəbimiz üstün və Peyğəmbərlə (s) bağlılığımızın daha möhkəm olmasına baxmayaraq xilafət məsələsində bizimlə özbaşına və təcridedici rəftar edilməsinin səbəbi, xilafətin rəğbət bəslənilən və cazibəli olması idi. Bir dəstə həriscəsinə ondan yapışdı və bir dəstə (Əhli-Beyt) səxavətlə ondan keçdi. (Bizimlə onlar arasında) hakim Allahdır.»[3]

***111.Əhli-Beyt baxımından hökumətin fəlsəfəsi.***

405.İmam Əli (ə):«Allahım! Sən özün bilirsən ki, bizdən baş verənlər nə qüdrət əldə etmək üçün aparılan rəqabətə görə idi, nə də dünya malından bir şey əldə etmək üçün. Əksinə, biz Sənin zülmə məruz qalmış bəndələrinin əmin-amanlıq və rahatlıq tapmalarını və icra edilməyən hədd və hökmlərinin yenidən icra edilməsi üçün Sənin dininin nişanələrini öz yerinə qaytarmaq və Sənin vilayətlərində abadlığı üzə çıxarmaq istəyirdik.»[4]

***112.Parçalanma qorxusu.***

406.İmam Əli (ə):«And olsun Allaha əgər müsəlmanların pərakəndə olmaları, küfrə qayıtmaları və dində nöqsan yaranması qorxusu olmasaydı, imkanımız olan qədər mövcud şəraiti dəyişdirərdik.»[5]

***113. On iki imam.***

407.Allahın Peyğəmbəri(s):«Nə qədər ki, camaata on iki kişi hakimdir, onların işləri qaydasında olar….. Onların hamısı Qüreyşdəndir.»[6]

408.Allahın Peyğəmbəri(s):«Mənim canişinlərimin sayı Musanın tayfa başçılarının sayı qədərdir.»[7]

***114.İmamın elmi.***

409.İmam Sadiq (ə):«Əli (ə) alim idi və elm irsi olaraq keçir. Alim öləndən sonra mütləq onun elmini və ya Allahın istədiyini bilən bir nəfər qalır.»[8]

---

[1] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.18, səh.273,
[2] əl-Kafi, c.1, səh.204, Hədis 2
[3] Nəhcül-Bəlağə, xütbə 162
[4] Nəhcül-Bəlağə, xütbə 131
[5] Əmali-Mufid, səh.155, hədis 6
[6] Səhih-Müslim, hədis 1821
[7] Kənzul-Ummal, hədis 14971
[8] əl-Kafi, c.1, səh.221, hədis 1

410.İmam Sadiq (ə):«And olsun Allaha mən Allahın kitabını əvvəldən axıra kimi elə bilirəm, sanki o mənim ovcumdadır. Quranda göy və yerin, keçmiş və gələcəyin xəbəri vardır. Allah-taala buyurub:«Quranda hər bir şeyin bəyan və izahı vardır.[1]»[2]

411.İmam Rza (ə):«Allah-taala bəndələrinin işlərinin idarəsi üçün birini seçəndə ona könül genişliyi verər, qəlbinə hikmət çeşmələri cari edər və ona elm və bilik ilham edər ki, ondan sonra heç bir sualda aciz və doğru yolu tapmaqda məəttəl qalmasın.»[3]

ιοοοοοοπ

[1] Nəhl surəsinin 89-cu ayəsinə işarədir.
[2] əl-Kafi, c.1, səh.229, hədis 4
[3] əl-Kafi, c.1, səh.202, hədis 1

18

# İmam Əli

***115.İmam Əlini (ə) sevmək və sevməmək.***

412.Allahın Peyğəmbəri(s):«Atəş odunu yediyi kimi Əlini sevmək də günahları yeyir.»[1]

413.Allahın Peyğəmbəri(s):«Möminin əməl dəftərinin başlıq və sərlövhəsi Əli ibn əbu Talibin məhəbbətidir.»[2]

414.Allahın Peyğəmbəri(s):«Allah Əli eşqini bir möminin qəlbində möhkəmləndirsə və həmin halda onun ayağı büdrəsə (ondan bir xəta baş versə də) Qiyamət günü sirat üzərində onun qədəmini möhkəm saxlayar.»[3]

415.Allahın Peyğəmbəri(s):«Səni yalnız mömin sevər və sənə yalnız münafiq ədavət bəsləyər.»[4]

***116.Əli yaxşı əməl sahiblərinin imam və rəhbəridir.***

416.Allahın Peyğəmbəri(s):«Əli yaxşı əməl sahiblərinin rəhbəri və pis əməl sahiblərini öldürəndir. Kim ona yardım etsə, onun özünə də yardım edilər və onu tək qoyan köməksiz qalar.»[5]

417.Allahın Peyğəmbəri(s):«Mənə Əli barəsində vəhy olub ki, o müsəlmanların ağası, pəhrizkarların imamı və üzü ağların rəhbəridir.»[6]

418.Allahın Peyğəmbəri(s):«Həqiqətən Allah-taala mənə Əli ibn əbu Talib barəsində Bəzi tapşırıqlar verdi, mən dedim:«Pərvərdigara, onu mənə aydınlaşdır.» Buyurdu:«Eşit! Həqiqətən Əli hidayət bayrağı, Mənim dostlarımın rəhbəridir və Mənə itaət edənlərin işıq saçanıdır. O Mənim pəhrizkarlara yoldaş etdiyim kəlmədir. Onu sevən Məni sevib və ona itaət edən Mənə itaət edib.»[7]

***117.Əli mənim canişinimdir.***

419.Allahın Peyğəmbəri(s):«Ey Bəni-Haşim! Həqiqətən mənim ailəm arasında qardaşım, vəsim, vəzirim və canişinim Əli ibn əbu Talibdir. O mənim borcumu ödəyir və və'dimi yerinə yetirir.»[8]

---

[1] Kənzul-Ummal, hədis 33021
[2] Kənzul-Ummal, hədis 32900
[3] Kənzul-Ummal, hədis 33022
[4] Kənzul-Ummal, hədis 32878
[5] Kənzul-Ummal, hədis 32909
[6] Tarixi-Dəməşq, İmam Əlinin (ə)tərcümeyi-halı, c.2, səh.258, hədis 775
[7] Nurus-Səqəleyn, c.5, səh.73, hədis 74
[8] Əmali-Tusi, səh.602, hədis 1244

420.Allahın Peyğəmbəri(s) Əliyə işarə edərək buyurmuşdur:«Bu mənim sizin aranızda qardaşım, vəsim və canişinimdir. Onun əmrlərini eşidin və tabe olun.»[1]

***118.Mən kimn mövlasıyamsa, Əli də onun mövlasıdır.***

421.Allahın Peyğəmbəri(s):«Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.»[2]

422.Allahın Peyğəmbəri(s):«Əli məndəndir, mən Əlidən. O, hər bir möminin vəli və başçısıdır.»[3]

423.Əbdurrəhman ibn əbi Leyla:«Ruhbədə (Kufədə) Əlini camaata belə and verdirən gördüm ki: Sizi and verirəm Allaha, əgər sizdən kimsə Qədir-Xum günü Allahın Peyğəmbərinin(s) «mən kimin mövlasıyamsa Əli onun mövlasıdır» kəlamını eşidibsə durub şəhadət versin. Əbdurrəhman deyir: «Bədr iştirakçılarından olan on iki nəfər – sanki onlar bir-bir indi də gözüm önündədirlər – durub dedilər:«Biz şəhadət veririk ki, Qədir günü Allahın Peyğəmbərinin(s) belə buyurduğunu eşitmişik ki:«Mən möminlərdən daha layiqli deyiləm?….» Biz dedik: Əlbəttə, ey Allahın Peyğəmbəri.» Peyğəmbər buyurdu:«Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır. Pərvərdigara! Onu sevəni sev və onunla düşmənçilik edənlə düşmən ol.»[4]

***119.Əli haqq və Qur'anladir.***

424.Allahın Peyğəmbəri(s):«Əli haqq ilədir və haqq Əli ilə və o harada olsa haqq onun ətrafına fırlanar.»[5]

425.Allahın Peyğəmbəri(s):«Əli hara üz çevirsə haqq onunladır.»[6]

426.Allahın Peyğəmbəri(s):«Əli Quran ilə və Quran Əli ilədir və onlar hovuzun (Kövsər hovuzunun) kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birlərindən ayrılmazlar.»[7]

427.Allahın Peyğəmbəri(s):«Əli haqq və Quran ilədir. Haqq və Quran Əli ilə və hovuzun kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birindən ayrılmazlar.»[8]

***120.Əli Peyğəmbərin elminin qapısıdır.***

428.Allahın Peyğəmbəri(s):«Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır.»[9]

429.Allahın Peyğəmbəri(s):«Mən hikmət evi, Əli onun qapısıdır.»[10]

---

[1] Kənzul-Ummal, hədis 36419
[2] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.366, hədis 461
[3] Kənzul-Ummal, hədis 32938
[4] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.11, hədis 506
[5] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.2,səh.297
[6] əl-Kafi, c.1, səh.294, hədis 1
[7] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.124, hədis 125
[8] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.124, hədis 125 (Hər ikisi haşiyədədir)
[9] Kənzul-Ummal, hədis 32979
[10] Kənzul-Ummal, hədis 32889

430.Allahın Peyğəmbəri(s):«Məndən sonra ümmətimin qəzavət işinə ən yaxşı bələd olanı və ən elmlisi Əlidir.»[1]

***121.Mən və Əli bir ağacdanıq.***

431.Allahın Peyğəmbəri(s):«Mənimlə Əli bir ağacdanıq, digər insanlar isə müxtəlif ağaclardan.»[2]

432.Allahın Peyğəmbəri(s) Əliyə (ə) buyurub:«Sən həm dünyada və həm də axirətdə mənim qardaşımsan.»[3]

433.Allahın Peyğəmbəri(s):«Əli məndəndir və mən ondan.»[4]

434.Allahın Peyğəmbəri(s):«Əli mənim üçün bədənimdəki başım kimidir.»[5]

435.Allahın Peyğəmbəri(s):«Həqiqətən Əlinin əti mənim ətimdən və qanı mənim qanımdandır.»[6]

436.Cabir:«Allahın Peyğəmbəri (s) ərəfədə idi və Əli onun qarşısında durmuşdu. Peyğəmbər buyurdu:«Ey Əli! Yaxın gəl və əlinini mənim əlimə qoy. Ey Əli! Səninlə mən bir ağacdan yaradılmışıq. Mən həmin ağacın kökü, sən onun gövdəsi, Həsənlə Hüseyn onun budaqlarıdır. Kim onun budaqlarından asılsa Allah onu Cənnətə daxil edər.»[7]

***122.Müxtəlif hədislər.***

437.Allahın Peyğəmbəri (s) Əliyə (ə):«Səninlə mənim məqamım Harunla Musanın məqamı kimidir, bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur.»[8]

438.Allahın Peyğəmbəri(s) yanında hakimlik və ya xilafətdən söhbət düşən zaman buyurmuşdur:«Əgər onu Əliyə həvalə etsəniz görərsiniz ki, Əli yol göstərən və yolu tapmış bir şəxsdir və sizi doğru yol ilə aparır.»[9]

439.Allahın Peyğəmbəri(s):«Kim Adəmin elmini, Nuhun sayıqlığını, İbrahimin səbrini, Yəhya ibn Zəkəriyyanın pəhrizkarlığını və Musa ibn İmranın qəzəbini görmək istəyirsə Əli ibn əbu Talibə baxsın.»[10]

440.Allahın Peyğəmbəri(s):«Əli möminlərin ağasıdır.»[11]

441.Allahın Peyğəmbəri(s):«Əli dinin sütunudur.»[12]

442.Allahın Peyğəmbəri(s):«Həqiqətən Əlini incidən məni incidib.»[13]

---

[1] Əmali-Səduq, səh.440, hədis 20
[2] Kənzul-Ummal, hədis 32943
[3] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.105, hədis 145
[4] Sünən İbn Macə, hədis 119
[5] Kənzul-Ummal, hədis 32914
[6] Kənzul-Ummal, hədis 32936
[7] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.129, hədis 179
[8] Kənzul-Ummal, hədis 32881
[9] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.69, hədis 1110
[10] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.280, hədis 804
[11] əl-Kafi, c.1, səh.294, hədis 1
[12] əl-Kafi, c.1, səh.294, hədis 1
[13] Biharul-Ənvar, c.5, səh.69, hədis 1

443.Allahın Peyğəmbəri(s):«Əli möminlərin başçısıdır, mal və sərvət isə münafiqlərin.»[1]

444.Allahın Peyğəmbəri(s):«Əlinin bu ümmətin boynunda olan haqqı, atanın övladının boynunda olan haqqı kimidir.»[2]

445.Allahın Peyğəmbəri(s):«Əli ibn əbu Talib mənim sirdaşımdır.»[3]

446.Allahın Peyğəmbəri(s):«Qiyamət günü nicat tapanlar Əli və onun şiələridirlər.»[4]

447.Allahın Peyğəmbəri(s):«Əlini yada salmaq ibadətdir.»[5]

448.Allahın Peyğəmbəri(s):« Əli insanların ən yaxşısıdır» deməyən kəs kafir olub.»[6]

***123.Həqiqətən mən….***

449.İmam Əli (ə):«Həqiqətən mən sizi sizdən qabaq özüm yerinə yetirdiyim itaətdən başqa bir şeyə vadar etmir və sizdən qabaq özüm çəkindiyim günahdan başqa bir günahdan çəkindirmirəm.»[7]

450.İmam Əli (ə):«Ay camaat! Həqiqətən mən sizin aranızda fironun adamları arasında olan Harun, həmçinin Bəni İsrailin arasında olan Hittə qapısı və Nuhun qövmü arasında Nuhun gəmisi kimiyəm. Mənəm ən böyük «xəbər» və ən böyük doğruçu. Tezliklə vəd olunduğunuz şeyi görəcəksiniz.»[8]

451.İmam Əli (ə):«Həqiqətən mən heç vaxt müharibə və cihad meydanından qaçmamışam və mənimlə döyüşə kim gəlibsə yeri onun qanı ilə doydurmuşam.»[9]

***124.Mənəm…….***

452.İmam Əli (ə):«Mənəm dünyanı xar və heç sayan!»[10]

453.İmam Əli (ə):«Mən Allahın Peyğəmbərinin mehriban yoldaş və yardımçısıyam.Mənəm İslamda öncül, bütləri sındıran, kafirlərlə vuruşan və din düşmənlərini məhv edən!»[11]

454.İmam Əli (ə):«Mən hidayət bayrağı, pəhrizkarlıq mağarası, səxavət məkanı, bəxşiş və comərdlik dəryası və ağıl dağıyam.»[12]

455.İmam Əli (ə):«Mən Allah tərəfindən Cənnətlə Cəhənnəmi bölüşdürənəm. Mənim bölüşdürdüyüm miqdardan başqa heç kəs ona daxil olmaz. Mənəm «böyük ayıran» (haqq ilə batili bir-birindən ayıran), mənəm

---

[1] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.260, hədis 778
[2] Biharul-Ənvar, c.36, səh.5, hədis 1
[3] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.311, hədis 815
[4] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.348, hədis 851
[5] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2,səh.408, hədis 907
[6] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.2, səh.444, hədis 954
[7] Ğurərul-Hikəm, hədis 3781
[8] Tənbihul-Xəvatir, c.2, səh.41
[9] Nurus-Səqəleyn, c.2, səh.139, hədis 37
[10] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.202, hədis 1253
[11] Ğurərul-Hikəm, hədis 3761
[12] Nəhcus-Səadə, c.2, səh.79

özümdən sonrakı insanların imam və rəhbəri və məndən qabaq olmuş kəs tərəfindən onu əda edən.»[1]

456.İmam Əli (ə):«Mən Allahın elmiyəm. Mən Allahın xəbərdar qəlbi, Onun natiq dili, gözü və tərəfiyəm. Mən Allahın əliyəm.»[2]

457.İmam Əli (ə):«Mən yol göstərənəm; mən yolu tapmışam; mən yetim və yoxsulların atasıyam; mən dul qadınların başçısıyam; mən bütün zəiflərin arxa və pənahıyam, mən qorxu və vahimə içində olan hər bir kəsin pənahgahıyam; mən möminlərin Cənnətə aparan bələdçiləriyəm; mən Allahın ən möhkəm ipi və təqva kəlməsiyəm; mən Allahın gözü , doğruçu dili və əliyəm.»[3]

458.İmam Əli (ə):«Mən Qiyamət günü Allah qarşısında şikayət üçün dizlərini yerə vuran ilk kəsəm.»[4]

459.İmam Əli (ə):«Mən İslamı qəbul edən ilk şəxsəm.»[5]

460.İmam Əli (ə):«Mən Peyğəmbərlə (s) namaz qılan ilk şəxsəm.»[6]

### *125.İmam Əlinin elmi.*

461.İmam Əli (ə) xalq xəlifə kimi onunla bey‘ət etdikdən sonra oxuduğu xütbədə buyurmuşdur:«Camaat! Nə qədər ki, məni itirməmisiniz, soruşun, məndən sual soruşun! Çünki birincilərin və sonuncuların elmi məndədir. And olsun Allaha, əgər məhkəmə kürsüsündə otursam Tövratın davamçıları arasında onların Tövratları əsasında hökm çıxararam və ... sonra buyurdu:«Məni itirməmişdən qabaq məndən soruşun. Toxumu yaran və insanı yaradan Allaha and olsun ki, əgər Quran ayəsindən soruşsanız sizə onun nə vaxt kimin barəsində nazil olmasını deyərəm.»[7]

462.İmam Əli (ə):«Sinəmdə elə gizli elm var ki, əgər onu aşkar etsəm dərin quyuya sallanmış vedrənin ipləri kimi titrəyərsiniz.»[8]

### *126.İmam Əlinin məzlumiyyəti (zülmə məruz qalması).*

463.İmam Əli (ə):«Mən Allahın Peyğəmbəri(s) vəfat edən zamandan həmişə zülmə məruz qalmışam.»[9]

464.İmam Əli (ə):«Mənim gördüklərimi (qarşılaşdığım çətinlikləri) heç kəs görməyib.»[10]

465.İmam Əli (ə):«Mən elə bilirdim ki, vali camaata zülm edir, amma indi camaat valiyə zülm edir.»[11]

---

[1] əl-Kafi, c.1, səh.198, hədis 3
[2] ət-Tovhid, səh.164, hədis 1
[3] ət-Tovhid, səh.164, hədis 3
[4] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.3, səh.178, hədis 1215
[5] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.47, hədis 85
[6] Tarixi-Dəməşq, Əlinin (ə) tərcümeyi halı, c.1, səh.47, hədis 84
[7] əl-İrşad, c.1, səh.35
[8] Nəhcus-Səadə, c.1, səh.42
[9] Nəhcus-Səadə, c.2, səh.448
[10] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.4, səh.103
[11] Kənzul-Ummal, hədis 36541

466.İmam Əliyə (ə) «sən bu işə (xilafətə) hərissən» deyildikdə o Həzrət buyurmuşdur:«And olsun Allaha siz daha hərissiniz. Siz ondan daha uzaqsınız (ona layiq deyilsiniz) və mən daha haqlı və daha yaxınam (mən ona daha layiqəm və ya Peyğəmbərə qohumluq baxımından daha yaxınam). Həqiqətən mən öz haqqımı tələb etdim və siz mənim ona çatmağıma mane olursunuz...İlahi! Mən Qüreyşə və onlara yardım edənlərə qarşı Səndən kömək istəyirəm. Çünki onlar mənim qohumluq əlaqələrimi kəsdilər, mənim yüksək məqamımı aşağı hesab etdilər və mənə məxsus olan şeyə görə mənimlə vuruşmaq üçün əlbir oldular.»[1]

467.İmam Əli (ə):«Allahın Peyğəmbəri(s) buyurub:«Əgər sən olmasaydın məndən sonra möminlər tanınmazdılar.»[2]

468.İmam Əli (ə):«And olsun Allaha gecəni səhərə kimi dəvətikanının üstündə oyaq qalmaq və zəncirlərlə çiyinlərimdən bağlanaraq çəkilmək mənə Qiyamət günü Allaha və Onun Peyğəmbərinə zalım kimi qovuşmaqdan daha xoşdur.......

And olsun Allaha, əgər yeddi iqlimi göylərin altında olan şeylərlə birlikdə mənə versələr ki, qarışqanın ağzından arpanın qabığını almaqla Allaha qarşı itaətsizlik edim, etmərəm!»[3]

469.İmam Əli (ə):«Həqiqətən mən sizin aranızda qaranlıqda olan çıraq kimiyəm ki, onun ətrafına gələn onun nurundan faydalanar.»[4]

470.İmam Əli (ə):«Allah-taalanın məndən böyük nişanəsi yoxdur; Allahın məndən «böyük xəbər»i yoxdur.»[5]

471.İmam Əli (ə):«Haqq mənə göstərilən zamandan bəri heç vaxt onun barəsində şəkk etməmişəm.»[6]

ιooooooπ

---

[1] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9, səh.305
[2] Kənzul-Ummal, hədis 36477
[3] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.11, səh.245
[4] Ğurərul-Hikəm, hədis 3883
[5] Nurus-Səqəleyn, c.5 səh.491, hədis 5
[6] Ğurərul-Hikəm, hədis 9482

**19**

# İmamların anası – Fatimə

***127.Həzrət Fatimənin adları***

472.Allahın Peyğəmbəri(s):«Qızım ona görə Fatimə adlanıb ki, Allah-taala onu və onu sevənləri oddan (Cəhənnəmdən) uzaq edib.»[1]

473.İmam Sadiq (ə):«Fatimənin Allah yanında doqquz adı var: Fatimə, Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Rəziyyə, Mərziyyə, Mühəddisə, Zəhra.»[2]

474.Umarə:«İmam Sadiqdən (ə) soruşdum ki: Fatiməni nə üçün «Zəhra» (parlaq) adlandırıblar?» Buyurdu:«Çünki o mehrabda dayananda onun nuru səma əhlinə, ulduzların yerdə olanlar üçün saçması kimi saçırdı.»[3]

***128.Fatimə mənim bədənimin bir parçasıdır.***

475.Allahın Peyğəmbəri(s):«Fatimə mənim bədənimin bir parçasıdır. Onu sevindirən məni sevindirib və onu qəmləndirən məni qəmləndirib. Fatimə mənim üçün ən əziz şəxsdir.»[4]

476.Allahın Peyğəmbəri(s):«Həqiqətən Fatimə mənim bədənimin bir parçasıdır. O mənim gözümün nuru və qəlbimin meyvəsidir. Onu qəmləndirən məni də qəmləndirir və onu şad edən məni də şad edir. O mənim Əhli-Beytimdən mənə qovuşan ilk şəxsdir.»[5]

***129.Fatimə dünya xanımlarının xanımıdır***

477.Allahın Peyğəmbəri(s):«Qızım Fatimə dünya xanımlarının xanımıdır.»[6]

478.Allahın Peyğəmbəri(s):«Fatimə Cənnət xanımlarının xanımıdır.»[7]

479.Allahın Peyğəmbəri(s):«Qızım Fatimə dünyanın – yaradılışın əvvəlindən sonuna kimi – bütün qadınlarının xanımıdır.»[8]

***130.Fatimə qəzəblənəndə Allah da qəzəblənir.***

---

[1] Əmali-Tusi, səh.300
[2] Əmali-Səduq, səh.474, hədis 18
[3] Məani əl-Əxbar, səh.64, hədis 15
[4] Biharul-Ənvar, c.43, səh.23, hədis 17
[5] Əmali-Səduq, səh.394, hədis 18
[6] Biharul-Ənvar, 43, səh.22, hədis 13
[7] Musnəd əhməd ibn Hənbəl, c.3,səh.80
[8] Nurus-Səqəleyn, c.1, səh.338, hədis 135

480.Allahın Peyğəmbəri(s) Fatimə əleyhəs-səlama buyurub:«Allah sənin qəzəbinlə qəzəblənir və sənin sevincinlə şad olur.»[1]

***131.Həzrət Fatimənin müsibəti.***

481.İmam Əli (ə) Fatimə əleyhəs-səlamı torpağa tapşırarkən buyurmuşdur:«Salam olsun sənə ey Allahın Peyğəmbəri! Mənim tərəfimdən və kənarında uyuyan və sənə (başqalarından) daha tez çatan qızından! Ey Allahın Peyğəmbəri, qızının kədərləndirici ayrılığından səbrim tükəndi və güc və taqətimi əldən verdim. Amma sənin böyük kədər yaradan ayrılığın və səni itirmənin böyük müsibəti belə bir vaxtda mənim təsəlli amilimdir. Çünki başının mənim sinəmdə olduğu, mənim qucağımda can verdiyin və öz əlimlə başını qəbrinin daşı üzərinə qoyduğum anları heç vaxt unutmaram. Biz hamımız Allah tərəfindənik və Ona tərəf qayıdacağıq. Budur (mənə tapşırdığın əmanət) geri qaytarıldı və girov alındı. Amma bundan sonra, Allah mənim üçün sənin olduğun diyarı seçincəyə qədər, mənim (sizin ayrılığınız üçün olan) qəm-kədərim daimi olacaq, gecələrim oyaqlıqla keçəcək. Tezliklə qızın səni ümmətinin və bir-birləri ilə əlbir olanların ona olan zülmlərindən və haqqını qəsb etmələrindən xəbərdar edəcək. Bütün baş verənləri ondan soruş və vəziyyət barəsindəki xəbərlərin hamısını ondan xəbər al. Bu zülmlər baş verərkən sənin getməyindən elə də çox zaman keçməmişdi və xatirələrin itməmişdi. Salam olsun sizə, bezikmək deyil vida salamı! Buna görə də əgər sizin yanınızdan getsəm, bu, bezikmək və məhəbbətin olmaması demək deyil.Əgər qalsam, bu, Allahın səbr edənlərə vəd etdikləri barəsində pis gümanda olmağımdan deyil.»[2]

ιoooooπ

[1] Kənzul-Ummal, hədis 37725
[2] Nəhcül-Bəlağə, xütbə 202

**20**

# İmam Həsən Müctəba

***132.O Həzrətin imamətinin bəyanı***

482.İmam Baqir (ə):«Əmirəl-möminin salavatullah əleyh, vəfatı yaxınlaşanda oğlu Həsənə (ə) buyurdu:«Yaxın gəl, Allahın Peyğəmbərinin(s) mənə dediyi sirri sənə deyim və mənə tapşırdığı əmanəti sənə tapşırım. O sonra həmin işi gördü.»[1]

***133.Həsən məndəndir, mən ondan.***

483.Allahın Peyğəmbəri(s):«Həsən məndəndir və mən ondanam. Hər kim onu sevsə Allah onu sevər. Həsənlə Hüseyn mənim nəvələrimdirlər.»[2]

484.Allahın Peyğəmbəri(s):«Allahım, mən onları sevirəm. Sən də həm onları, həm də onları sevənləri sev.»[3]

***134.İmam Həsənin fəzilətləri.***

485.İmam Səccad (ə):«Həsən ibn Əli ibn əbu Talib (ə) öz zəmanəsinin ən abid, zahid və fəzilətli insanı olub. Həccə gedəndə piyada və bəzən ayaqyalın gedərdi. Nə vaxt ölümdən söhbət düşərdisə ağlayardı. Nə vaxt qəbrdən söz düşərdisə ağlayardı. Nə vaxt Qiyamətdən söz düşərdisə ağlayardı. Siratdan keçməkdən danışılanda ağlayardı. Allahın ədalət məhkəməsində cavab verməkdən söz düşəndə elə ah-nalə edərdi ki, özündən gedərdi. Namaza başlayanda bədəni Rəbbinin qarşısında titrəyərdi. Cənnət və Cəhənnəmdən söhbət düşəndə ilan çalmış adam kimi qıvrılardı, Allahdan Cənnəti istəyərək oddan Ona pənah aparardı.»[4]

486.Əhməd ibn əl-Müəddəb «əl-Funun» kitabında və İbn Mehdi «Nuzhətul-əbsar»da deyir:«Bir gün Həsən ibn Əli (ə) yerdə oturub qarşılarında olan tikə çörəkləri götürüb yeyən bir neçə yoxsulun yanından keçirdi. Onlar o Həzrətə təklif edib dedilər: Ey Allah Peyğəmbərinin nəvəsi, buyurun bizimlə yemək yeyin.» Ravi deyir:«Həzrət miniyindən düşüb dedi:«Allah təkəbbür sahiblərini sevmir. Sonra onlarla yemək yeməyə başladı və sonda onların hamısı doydular

---

[1] əl-Kafi, c.1, səh.298, hədis 2

[2] Biharul-Ənvar, c.43, səh.306, hədis 66

[3] Kənzul-Ummal, hədis 37640

[4] Əmali-Səduq, səh.150, hədis 8

və o Həzrətin bərəkətindən həmin çörəklərdən heç nə azalmadı. Həsən (ə) sonra həmin yoxsulları özü qonaq çağırdı və onlara yemək və geyim verdi.»[1]

487.Şam əhalisindən olan bir nəfər nəql edir ki:«Mədinə şəhərinə daxil oldum. Bir nəfərin gözəlliyi məni özünə cəlb etdi. Onun kim olmasını soruşdum. Dedilər ki, Həsən ibn Əlidir. Şamlı kişi deyir:«Mən Əliyə belə bir oğlu olduğu üçün həsəd apardım. Sonra onun yanına gedib dedim:«Sən əbu Talibin oğlusan?» Buyurdu:«Mən onun nəvəsiyəm.» Dedim:«Lənət olsun sənə və sənin atana, Lənət olsun sənə və atana!» Şamlı kişi deyir:«Amma o susdu, mənə cavab vermədi. O Həzrət sonra buyurdu: «Deyəsən qəribsən? Əgər minik istəsən verərik, bəxşiş istəsən əta edərik, kömək istəsən edərik.» Həmin şəxs deyir:«Mən ondan elə bir halda ayrıldım ki, o mənim yanımda yer üzünün ən sevimli adamı idi.»[2]

ιooooooπ

[1] əl-Mənaqib, İbn Şəhr Aşub, c.4, səh.23

[2] Muxtəsər tarixi Dəməşq, c.7, səh.26

**21**

# İmam Hüseyn

***135.İmam Hüseynin dünyaya gəlməsi.***

488.Fatimə əleyhəs-səlam:«Hüseyni (ə) dünyaya gətirdikdən sonra Allahın Peyğəmbəri(s) yanıma gəldi. Uşağı sarı parçaya bükülmüş halda o Həzrətə verdim. Peyğəmbər sarı parçanı açıb kənara atdı və ağ parça götürüb Hüseyni ona bükdü. Sonra buyurdu:«Tut ey Fatimə, o, imam və imam oğludur! O onun nəslindən dünyaya gələcək doqquz imamın atasıdır ki, onların doqquzuncusu «Qaimdir.»[1]

489.İmam Səccad (ə):«Hüseyn (ə) dünyaya gələndə Allah-taala Cəbrailə vəhy etdi ki, Məhəmmədin oğlu olub, onun yanına get, onu təbrik et və ona de ki, Əli sənin üçün Harun Musaya olan kimidir. Odur ki, uşağa Harunun oğlunun adını qoy. Cəbrail (ə) yerə endi və Allah tərəfindən Peyğəmbəri təbrik etdi və sonra dedi:«Allah-taala sənə uşağa Harunun oğlunun adını qoymağı əmr edir.» Peyğəmbər soruşdu:«Harunun oğlunun adı nə olub?» Cəbrail (ə) dedi:«Şubəyr.» Peyğəmbər buyurdu:«Mənim dilim ərəb dilidir.» Cəbrail (ə) dedi:«Uşağın adını Hüseyn qoy.»[2]

***136.O Həzrətin imaməti***

490.İmam Həsən (ə):«Mənim vəfatımdan və ruhum bədənimdən çıxandan sonra Hüseyn ibn Əli (ə) imamdır. Onun Peyğəmbərin varisi olması Allahın yanında kitabda (Lövhi-məhfuzda və ya Quranda, yaxud da vəsiyyətnamədə) yazılıb və Allah-taala bu varisliyi onun ata.anasından olan varisliyə artırıb. Çünki Allah bilir ki, siz onun yaratdıqlarının ən yaxşısısınız. Buna görə də sizin aranızdan Məhəmmədi (s) seçdi və Məhəmməd (s) Əlini (ə) və Əli məni imamətə seçdi və mən Hüseyni seçdim.»[3]

***137.Hüseyn məndəndir və mən Hüseyndənəm.***

491.Allahın Peyğəmbəri(s):«Hüseynə gəldikdə, o məndəndir. O mənim oğlum və balamdır. O qardaşından sonra insanların ən yaxşısıdır. O müsəlmanların imamı, möminlərin başçısı, aləmlərin Rəbbinin xəlifəsi, kömək istəyənlərin köməyi, pənah axtaranların pənahı və Allahın bütün yaratdıqları üçün höccətidir. O, Cənnət cavanlarının başçısı və ümmətin nicat qapısıdır.

[1] Kifayətul-əsər, səh.194
[2] İləluş-Şəraye, səh.137, hədis 5
[3] əl-Kafi, c.1, səh.301, hədis 2

Onun əmri mənim əmrim və ona tabe olmaq mənə tabe olmaqdır. Kim ona itaət etsə məndəndir və kim ona qarşı itaətsizlik etsə məndən deyil.»[1]

492.Bəra ibn Azib:«Allahın Peyğəmbərini (s) gördüm ki, Hüseyni dalına mindirib və belə deyir:«İlahi! Mən onu sevirəm, onu Sən də sev.»[2]

493.Səid ibn əbi Raşid Yə'la Amiridən nəql edir ki: O, Allahın Peyğəmbərinin (s) də'vət olunduğu qonaqlığa gedərkən o Həzrətlə yoldaş olub. Peyğəmbər (s) qabaqda gedirmiş və Hüseyn uşaqlarla oynamaqla məşğul imiş. Peyğəmbər (s) onu tutmaq istəyir. Amma uşaq o tərəf bu tərəfə qaçır. Peyğəmbər (s) onunla zarafat etməyə və onu güldürməyə başlayır və nəhayət Hüseyni tutur, əlinin birini onun boynunun arxasına, digərini isə çənəsinin altına qoyur, onun ağzından öpə-öpə :«Hüseyn məndəndir və mən Hüseyndənəm. Allah Hüseyni sevəni sevsin. Hüseyn nəvələrimdən biridir.»[3]

494.İbn Abbas:«Allahın Peyğəmbəri(s) Hüseyn ibn Əlini (ə) öz çiyninə mindirmişdi. Bir nəfər dedi:«Oğulcan, nə yaxşı miniyə minmisən? Peyğəmbər (s) buyurdu:«O özü necə gözəl süvaridir!»[4]

***138.İmam Hüseynin(ə) fəzilətləri.***

495.Allahın Peyğəmbəri(s):«Kim yer üzünün göy əhli yanında ən sevimli şəxsinə baxmaq istəyirsə, Hüseynə baxsın.»[5]

496.İmam Hüseyn (ə):«Allahın Peyğəmbərinin (s) yanına getdim. İbn Ubey Kə'b onun yanında idi. Allahın Peyğəmbəri (s) mənə dedi:«Xoş gəlmisən, ey əba Abdullah! Ey göylərin və yerlərin zinəti və bəzəyi! Ubey Peyğəmbərə dedi:«Ey Allahın Peyğəmbəri! Necə ola bilər ki, sizdən başqası göylər və yerlərin zinəti olsun?!» Peyğəmbər (ə) buyurdu:«Ey Ubey, məni haqq olaraq peyğəmbər göndərənə and olsun ki, Hüseyn ibn Əlinin göylərdəki məqam və dərəcəsi yerdəki məqamından daha üstündür. Allah-taalanın ərşinin sağ tərəfində yazılıb ki: (Hüseyn) hidayət çırağı və nicat gəmisi, yorulmaz, izzətli, fəxr olunmalı, yol göstərən imam və (qiymətli) azuqədir.»[6]

497.İmam Hüseyn (ə) Aşura günündəki kəlamlarının birində buyurmuşdur:«Bilin! Bu haramzadə oğlu haramzadə məni iki yol arasında qoyub: qılınc və zillət! Zillətə qatlaşmaq bizdən çox-çox uzaqdır. Allah, Onun Peyğəmbəri, möminlər, (bizim tərbiyə olunduğumuz) pak ətəklər, qeyrətli qəlblər, alicənab ruhlar qəbul etməzlər ki, biz alçaq bir başçıya təslim olmağı şərəfli ölümdən üstün tutaq!»[7]

---

[1] Əmali-Səduq, səh.101
[2] Biharul-Ənvar, c.43, səh.264, hədis 16
[3] əl-Müstədrək əla əs-səhiheyn, c.2, səh.177
[4] Sünən Tirmizi, c.5, səh.661, hədis 3784
[5] Mənaqib ibn Şəhr Aşub, c.4, səh.73
[6] Uyun əxbar Rza (ə) , c.1, səh.59, hədis 29
[7] əl-Luhuf, səh.97

498.İmam Hüseyn (ə) Aşura günündəki kəlamlarının digər birində buyurmuşdur:«And olsun Allaha ki, nə sizə zillət əli uzadacağam və nə də əsirlər, kölələr kimi qaçacağam.»[1]

499.İmam Səccad (ə):«İmam Hüseynin (ə) əli ilə sağ qulağına işarə edib belə buyurduğunu eşitdim ki:«Əgər bir nəfər mənim bu qulağıma söysə və digər qulağıma üzr istədiyini bildirsə mən onun üzrünü qəbul edərəm. Çünki Əmirəl-möminin Əli ibn əbu Talib (ə) mənə babam Peyğəmbərdən (s) belə eştdiyini nəql edib ki:«Üzrü – istər yetərli olsun istərsə də yetərsiz – qəbul etməyən kəs Kövsər hovuzunun yanına daxil olmayacaq.»[2]

500.Hüzeyfə ibn Yəman:«Peyğəmbərin Hüseynin Əlindən tutub belə buyurduğunu eşitdim ki: Ay camaat! Bu Hüseyn ibn Əlidir. Onu tanıyın. Canım (qüdrət) əlində olana and olsun ki, həm o, həm onu sevənlər və həm də onu sevənləri sevənlər Cənnətdədirlər.»[3]

501.Şueyb ibn Əbdurrəhman Xuzai:«Təff (Kərbəla) günü Hüseyn ibn Əlinin kürəyində nəyinsə izi qalmışdı. Zeynəlabidindən (ə) bu barədə soruşduqda O Həzrət buyurdu:«O, Hüseynin (ə) başsız qadınlar, yetimlər və fəqirlərə kürəyində daşıdığı kisələrin yeridir.»[4]

502.Seyyid ibn Tavus «Luhuf» kitabında hədisin ravisindən nəql edir ki: Həmin vaxt Hüseyn (ə) düşməni təkbətək mübarizəyə çağırır, meydana çıxan hər bir kəsi öldürürdü. Belə ki, onlardan çoxlu sayda adam məhv etdi. O Həzrət mübarizə zamanı belə buyururdu:

*Ölüm xarlığı qəbul etməkdən daha yaxşıdır*

*Xarlıq Cəhənnəm oduna daxil olmaqdan daha yaxşıdır.»*

Ravilərdən biri deyir:«And olsun Allaha övladları, ailə üzvləri və yoldaşlarının hamısı öldürülüb məğlub olmuş elə bir şəxs görməmişəm ki, Hüseyn kimi sakit və soyuqqanlı olsun. Düşmənin qoşunu mühasirə dairəsini sıxırdı, amma o, öz qılıncı ilə onlara hücum edirdi. Onlar da o Həzrətin qarşısından keçi sürüsü hücuma keçən canavarın qarşısından qaçan kimi qaçırdılar. O, düşmənin otuz min nəfərlik qoşununa hücum edir və onları milçək kimi dağıdırdı. Sonra:

لا حول و لا قوة إلاّ بالله العليّ العظيم deyib öz yerinə qayıdırdı.»[5]

[1] əl-İrşad, səh.235

[2] Ehqaqul-həqq, 11, k: 431

[3] Əmali-Səduq, səh.478, hədis 4

[4] Mənaqib Şəhr ibn Aşub, c.4, səh.66

[5]əl-Luhuf, səh.170

**22**

# İmam Səccad

***139.O Həzrətin imaməti***

*503.*İmam Baqir (ə):«Elə ki, Hüseyn ibn Əlinin (ə) şəhadəti yaxınlaşdı, böyük qızı Fatimə binti Hüseyni (ə) çağırdı ona bağlı bir yazı və açıq bir vəsiyyətnamə verdi. Əli ibn Hüseyn elə qarın ağrısına düçar olmuşdu ki, sağ qalmasını güman etmirdilər. Fatimə həmin yazını Əli ibn Hüseynə (ə) verdi. And olsun Allaha ki, həmin yazı sonra bizə çatdı. …. And olsun Allaha ki, Adəm yaranandan dünyanın sonuna kimi Adəm övladlarının ehtiyacı olan hər bir şey həmin yazıda mövcuddur.»[1]

***140.İmam Zeynəlabidinin(ə) məqamı.***

504.Allahın Peyğəmbəri(s):«Qiyamət günü bir carçı car çəkəcək ki:«Hardadır Zeynəlabidin( yəni abidlərin zinəti) ? Mən onda görəcəm ki, oğlum Əli ibn Hüseyn ibn Əli ibn əbu Talib (qabağa çıxmaq üçün) sıraları yarır.»[2]

505.İmam Baqir (ə):«O (yəni imam Zeynəlabidin (ə)) Mədinənin yüz yoxsul ailəsinə başçılıq edirdi və yetimlərin, yoxsulların və aciz şəxslərin, həmçinin zavallı fəqirlərin onun süfrəsində oturmalarını sevərdi. O öz əli ilə onlara yemək gətirərdi və əgər onlardan ailəli olanı olsaydı, Həzrət öz yeməyindən onun ailəsi üçün aparardı. Yediyi hər bir yeməkdən əvvəl sədəqə verər, ondan sonra yeyərdi.»[3]

506.İmam Baqir (ə):«Əli ibn Hüseyn öz malını iki dəfə Allah ilə böldü.»[4]

507.İmam Sadiq (ə):«Atam buyurardı ki:«Əli ibn Hüseyn namaz qılanda ağac gövdəsinə oxşayırdı, küləyin tərpətdiyi hissələr istisna olmaqla qətiyyən tərpənməzdi.»[5]

508.Təbərsi «Ə’lamul-vəra» kitabında:«Əli ibn Hüseynin (ə) kənizlərindən biri onun əlinə su tökürdü. Aftafa onun əlindən düşdü və o Həzrətin üzünü yaraladı. Əli ibn Hüseyn başını ona tərəf qaldırdı. Kəniz dedi:«Allah-taala buyurur:«qəzəbini udanlar…» Həzrət dedi:«Qəzəbimi uddum.»Kəniz dedi:

---

[1] əl-Kafi, c.1, səh.303, hədis 1
[2] Biharul-Ənvar, c.46, səh.3, hədis 1
[3] Mənqib ibn Şəhr Aşub, c.4, səh.154
[4] Hilyətul-övliya, c.3, səh.140
[5] əl-Kafi, c.3, səh.300, hədis 4

«insanların günahlarından keçən...» Həzrət buyurdu:«Səni bağışladım.» Kəniz dedi:«Allah yaxşılıq edənləri sevər»[1] Həzrət buyurdu:«Get, səni Allah yolunda azad etdim.»[2]

509.Məhəmməd ibn Təlhə Şafii «Mətalibul-səuul» kitabında:«Əli ibn Hüseyn öz otağında namaz qılmaqla məşğul idi və səcdə halında olarkən otaqda yanğın baş verdi. Evdə olanlar fəryad qoparıb «ey Allahın Peyğəmbərinin balası, ey Allahın Peyğəmbərinin balası, od, od!» deyirdilər. Amma Həzrət səcdə halında qalmaqda idi və nəhayət od söndü. Sonra ona dedilər:«Oda əhəmiyyət verməməyinizin səbəbi nə idi?» Buyurdu:«Axirət odu.»[3]

510.Əbu Nəim «Hilyətul-övliya» kitabında:«Əli ibn Hüseyn bir dəstə adamla oturmuşdu. Birdən öz evindən kiminsə ölümündən xəbər verən bir arvad səsi eşitdi. Durub öz evinə getdi və sonra həmin məclisə qayıtdı. Orada olanlar dedilər:« Nəsə bir hadisə baş vermişdi? Buyurdu:« Bəli. Həmin dəstə o Həzrətə baş sağlığı verdi və onun səbrliliyindən heyrətləndi.» O Həzrət buyurdu:«Biz bir nəsilik ki, sevdiyimiz işlərdə Allaha itaətkar və təslimik, xoşagəlməz işlərdə Ona şükr edən!»[4]

ιοooooπ

[1] Ali-İmran, ayə 134
[2] E’lamul-vəra, səh.256
[3] Mətalibus-suul, səh.77
[4] Hilytul-övliya, c.3, səh.138

## 23

# İmam Məhəmməd Baqir

***141.O Həzrətin imaməti***

511.Kifayətul-əsər:«Əli ibn Hüseyn (ə) o Həzrətin ölümü ilə nəticələnən ölüm yatağına düşdükdə oğulları Məhəmməd, Həsən, Abdullah, Ömər, Zeyd və Hüseyni bir yerə yığdı və Məhəmmədi öz canişin və vəsisi təyin edərək ona Baqir künyəsi verdi, qardaşlarının başçılığını ona tapşırdı.»[1]

***142.Elm və hikməti yaran.***

512.Allahın Peyğəmbəri(s) Cabir ibn Abdullah Ənsariyə xitab edərək buyurmuşdur:«Cabir! Sən o qədər yaşayacaqsan ki, Tövratda Baqir kimi təqdim edilən oğlum Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn əbu Talibi görəcəksən. Onunla görüşən zaman ona mənim salamımı çatdır.»[2]

513.İmam Baqir (ə):«Batilin öz qarnına aldığı haqq məni köməyə çağırdı və mən batilin böyürünü yardım və haqqı onun qarnının pərdələrinin arasından çıxartdım. Ondan sonra gizlin və örtülü olan haqq aşkar oldu və yayıldı.»[3]

514.Əli ibn İbrahim atasından nəql edir ki:«Ətraf bölgələrin şiələrindən bir dəstə imam Baqirdən (ə) onun yanına daxil olmaq üçün icazə istədilər. Həzrət onları qəbul etdi. Onlar həmin məclisdə otuz min məsələ soruşdular və on yaşı olan əbu Cəfər onların hamısına cavab verdi.»[4]

***143. İmam Baqirin fəzilətləri.***

515.İmam Sadiq (ə):«Atam (ə) Allahı çox zikr edərdi. Onunla yol gedəndə həmişə zikr dediyini görürdüm. Onunla nə vaxt yemək yeyirdimsə görürdüm ki, zikr deyir. Camaatla söhbət edirdi, amma bu onu Allahı zikr etməkdən saxlamırdı. Görürdüm ki, dili damağına yapışıb və «la ilahə illəllah» deyir. O bizi bir yerə yığardı və günəş çıxan zaman zikr deməyimizi buyurardı. Bizim Quran oxuya bilənimizə Quran oxumaq göstərişi verərdi. Quran oxuya bilməyənlərə isə göstəriş verərdi ki, zikr desinlər.»[5]

516.İmam Sadiq (ə):«İmam Baqir (ə) insanların ən gözəl səslisi idi.»[6]

517.Süleyman ibn Qurəm:«əbu Cəfər Məhəmməd ibn Əli bizə beş yüz, altı yüz dirhəmdən min dirhəmə kimi hədiyyə və bəxşiş verərdi və o qardaşlarına, görüşə

---

[1] Kifayətul-Əsər, səh.239
[2] Biharul-Ənvar, c.46, səh.223, hədis 1
[3] Rəbiul-əbrar, c.2, səh.603
[4] əl-Kafi, c.1, səh.496, hədis 7
[5] əl-Kafi, c.2, səh.499, hədis 1
[6] əl-Kafi, c.2, səh.616, hədis 11

gələnlərə, kömək arzusu və ümidi ilə onun yanına gələnlərə hədiyyə verməkdən yorulmazdı.»[1]

24

# İmam Cəfər Sadiq

***144.O Həzrətin imaməti.***

518.Allahın Peyğəmbəri(s):« Oğlum Cəfər ibn Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn əbu Talib dünyaya gələndə onu Sadiq adlandırın.»[2]

519.Məhəmməd ibn Müslim:«Əbu Cəfər Məhəmməd ibn Əli ibn Baqirin (ə) yanında idim. Oğlu Cəfər gəlib daxil oldu. O kəkilli idi, əlində bir çubuq var idi və onunla oynayırdı. Baqir (ə) onu tutub möhkəm sinəsinə sıxdı. Sonra buyurdu:«Atam-anam sənə fəda olsun ki, oyun-oyuncaq əhli deyilsən.» Daha sonra mənə buyurdu:«Ey Məhəmməd! Məndən sonra sənin imamın budur. Ona tabe ol və onun elmindən bəhrələn. And olsun Allaha ki, o Allahın Peyğəmbərinin(s) vəsf etdiyi Sadiqdir. Həqiqətən onun şiələri dünya və axirətdə qalibdirlər.»[3]

***145.O Həzrətin əxlaqı və gözəl davranışları.***

520.Məhəmməd ibn Ziyad Əzdi:«Mədinənin alimi Malik ibn Ənəsin belə dediyini eşitdim ki: Cəfər ibn Məhəmməd Sadiqin (ə) yanına gedirdim və o Həzrət mənim üçün mütəkkə qoyur, mənə ehtiram göstərir və deyirdi: Malik! Mən səni çox istəyirəm. Mən həmin sözdən şad olurdum və Allaha şükr edirdim. Malik deyirdi: O Həzrət həmişə bu üç haldan birində idi:  ya oruc olurdu, ya namaz qılardı, ya da zikr deyərdi. O, böyük abidlərdən və Allahdan qorxan zahidlərin ən əzəmətlilərindən idi. Çoxlu hədis deyərdi, onunla oturmaq insana xoş gəlirdi və o, bəhrələnməli adam idi.»[4]

521.Hişam ibn Salim:«Elə ki hava qaralırdı və axşamdan bir az keçirdi İmam Sadiq (ə) içərisində çörək, ət və dirhəm olan bir dağarcıq götürüb çiyninə qoyaraq Mədinənin möhtac adamlarına aparar və onları həmin adamların arasında bölərdi. Onlar o Həzrəti tanımırdılar. İmam Sadiq vəfat edəndən sonra həmin köməklər kəsildi və Mədinənin yoxsulları başa düşdülər ki, həmin şəxs imam Sadiq (ə) olub.»[5]

---

[1] əl-İrşad, səh.266
[2] əl-Xəraic-vəl-cəraih, c.1, səh.268, hədis 12
[3] Biharul-Ənvar, c.47, səh.15, hədis 12
[4] Biharul-Ənvar, c.47, səh.16, hədis 1
[5] əl-Kafi, c.4, səh.8, hədis 1

522.Müəlla ibn Xunəys: Əbu Abdullah (ə) bir gecə narın yağış yağarkən Bəni Saidənin eyvanına getmək məqsədi ilə evindən çıxdı. Mən o Həzrətin arxasınca düşdüm. Birdən onun əlindən yerə bir şey düşdü və imam dedi:«Bismillah, Allahım onu bizə qaytar.» Mən özümü ona çatdırıb salam verdim. Dedi: «Müəlla sənsən?» Dedim:«Bəli, sənə fəda olum.» Buyurdu:«Əlinlə axtar və bir şey tapsan onu mənə ver.» Mən çörək tikələri tapdım və onları o Həzrətə vermək üçün onun yanına apardım. Gördüm ki, çiynində bir çörək dağarcığı var. Dedim:«Sizə fəda olum, icazə verirsiniz onu mən götürüm?» Buyurdu:«Xeyr, bu işə mən özüm daha layiqəm, amma mənimlə gəl.» Müəlla deyir: «Bəni Saidənin eyvanına çatdıq. Gördük ki, orada bir dəstə adam yatıb. Həzrət onların hər birinin paltarının altına bir-iki tikə çörək qoydu və nəhayət axırıncı adama çatdı. Sonra qayıtdıq. Mən dedim:«Sənə fəda olum, bunlar haqqı tanıyırlar (sizin imamətinizə etiqadları var)?»Buyurdu:«Əgər tanısaydılar, onlara un da verərdik.»[1]

523.Əbu Əmr Şeybani:«İmam Sadiqi (ə) əlində bir bel, əynində qalın bir paltar öz bostanında işləyən gördüm. Onun kürəyindən tər axırdı.» Dedim: «Fəda olum, icazə verin sizin yerinizə mən işləyim.» Buyurdu:« Mən kişinin öz yaşayışını təmin etmək üçün günəşin istisində əziyyət çəkməsini sevirəm.»[2]

ιooooooπ

[1] Səvabul-Əmal, səh.183, hədis2
[2] əl-Kafi, c.5, səh.76, hədis 13

25

# İmam Musa Kazim

***146.O Həzrətin imaməti***

524.İmam Sadiq (ə) Səfvan Cəmmalın bu məqama (imamət məqamına) malik olan şəxs barəsindəki sualının cavabında buyurmuşdur:«Bu məqamın sahibi əbəs və puç işlərlə məşğul olmaz. Bu vaxt hələ uşaq olan Musa ibn Cəfər daxil oldu. Onun yanında bir dişi Məkkə keçisi var idi. O həmin keçiyə «Rəbbinə səcdə et» deyirdi. Əbu Abdullah onu tutub qucaqladı və buyurdu: Atam-anam buna fəda olsun ki, bihudə və qəflətə səbəb olan işlərin əhli deyil.»[1]

***147.İmam zindanda***

525.Səubani:«Əbulhəsən Musa ibn Cəfər on ildən artıq hər gün günəş çıxandan sonra səcdəyə gedirdi və səcdəsi günortaya kimi çəkirdi.» Səubani deyir:«Bəzən Harun imam Kazim (ə) saxlanılan zindan görünən dama çıxır və o Həzrəti səcdə halında görürdü. Bir dəfə Harun Rəbiə dedi:«O nə paltardır ki, mən onu hər gün orada görürəm?» Rəbi dedi:«Ey əmirəl-möminin, o paltar deyil, Musa ibn Cəfərdir, hər gün günəş çıxandan günortaya kimi səcdədə olur.» Rəbi deyir:«Harun mənə dedi: Doğrudan da o, Bəni Haşimin rahiblərindəndir.» Mən dedim:«Bəs nə üçün onu zindana salaraq meydanı ona daraltmısan?» Dedi:«Heyf ki, bundan başqa bir çarə yoxdur.»[2]

526.Əli ibn Suveyd:« Mən zindanda olan Əbulhəsən Musaya (ə) bir məktub yazıb ondan həm halını, həm də çoxlu məsələlər soruşdum. Bir neçə ay mənə cavab vermədi. Sonra mənə belə bir cavab yazdı:« Bağışlayan və mehriban Allahın adı ilə..... Və sonra: Sən elə bir şəxssən ki, Allah sənə Məhəmməd Əhli-Beyti yanında məqam verib və səni, əziz tutmağını istədiyi dinini sevənlərdən edib.... .»[3]

***148.İmam Kazimın fəzilətləri.***

527.Əl-İrşad:«Rəvayət olunub ki, Həzrət Kazim (ə) çox dua edər və buyurardı:« Allahım, Səndən ölüm zamanı rahatlıq və hesab aparılarkən əfv və bəxşiş diləyirəm.» O, bu cümləni təkrar edərdi. O Həzrətin dualarından biri belə idi:«Sənin bəndənin günahı böyük, Sənin tərəfindən olan əfv və bağışlama isə gözəldir.» O Həzrət, Allahın qorxusundan elə ağlayardı ki, saqqalı göz yaşından

---

[1] əl-Mənaqib, İbn Şəhr Aşub, c.4, səh.317
[2] Uyunu əxbari Rza (ə) , c.1, səh.95
[3] Biharul-Ənvar, c.78, səh.329, hədis 7

islanardı. Ailə və qohumlarına o Həzrətdən çox qayğı göstərən yox idi. Axşamlar Mədininin yoxsullarına baş çəkər, özü ilə dirhəm, dinar, un və xurma dolu zənbil aparar və onların qapılarının ağzına qoyardı. Onlar həmin pul və malların kimin tərəfindən olmasını başa düşməzdilər.»[1]

528.Həsən ibn Məhəmməd ibn Yəhya Ələvi:«Babam mənə nəql edib ki: Musa ibn Cəfərə çox ibadət etdiyi üçün «saleh bəndə» deyirdilər. Bizim alimlərimiz nəql ediblər ki, o, gecənin əvvəlində Peyğəmbərin (s) məscidinə gedərək səcdəyə qapılıb, səcdədə belə deyirmiş:«Mənim günahım böyükdür, Sənin bağışlamağın gözəldir ey çəkinilməyə layiq olan və bağışlayan!» O bu cümləni səhərə kimi təkrar edərmiş. Musa ibn Cəfər səxavətli və alicənab bir insan olub. Kiminsə onun barəsində xoşagəlməz sözlər deməsini eşitsəydi, ona içində min dinar olan kisə göndərərdi.»[2]

ιooooooπ

---

[1] əl-İrşad, səh.296

[2] Bağdadın tarixi, c.13, sə 27

**26**

# İmam Rza

***149.O Həzrətin imaməti***

529. Əbdürrəhman ibn Həccac:«Əbülhəsən Musa ibn Cəfər (ə) öz oğlu Əlini (ə) öz canişini təyin etdi, onun üçün vəsiyyətnamə yazdı və Mədinənin tanınmış şəxsiyyətlərindən altmış nəfəri şahid tutdu.»[1]

***150.İmamın vəli-əhdiliyi qəbul etməyə məcbur edilməsi***

530.Əbasəlt Hərəvi:«Məmun imam Rzaya (ə) dedi:«Ey Allahın Peyğəmbərinin oğlu!. . . Mən belə məsləhət gördüm ki, özümü xilafətdən kənara çəkim, onu sənə tapşırım və səninlə bey‘ət edim.» Həzrət Rza (ə) buyurdu:«Əgər bu xilafət sənindirsə və onu sənə Allah veribsə Allahın sənin əyninə geyindirdiyi libası çıxarıb başqasına verməyin rəva deyil və əgər xilafət sənin deyilsə, sənin olmayan şeyi mənə vermək haqqın yoxdur.» Məmun dedi:«Ey Allahın Peyğəmbərinin övladı! Sən bu işi qəbul etməlisən.» İmam buyurdu:«Mən öz razılığımla bu işi heç vaxt qəbul etməyəcəyəm..... Sən istəyirsən ki, bu işin ilə camaat «Əli ibn Musa dünyaya arxa çevirməmişdi, əksinə dünya ona arxa çevirmişdi, məgər görmürsünüz ki, xilafət tamahı ilə vəli-əhdliyi necə qəbul etdi?!» desin. Məmun əsəbləşdi və dedi:«. . And olsun Allaha, əgər vəli-əhdliyi qəbul etməsən onu sənə məcbur qəbul etdirəcəyəm. Əgər onu qəbul etsən, heç, yoxsa boynunu vurduracağam.»[2]

***151.İmam Rzanın (ə)fəzilətləri***

531.Hərəvi: «Darus-Sərəxs»in giriş qapısına, Həzrət Rzanın zindana salınmış olduğu və zəncirlə bağlandığı yerə getdim. Zindanın gözətçisindən o Həzrətin hüzuruna getmək üçün icazə istədim. O dedi:«Onunla görüşə bilməzsiniz.» Soruşdum ki:«Nə üçün?» Dedi: «Çünki o, bəzən gecə-gündüz ərzində min rəkət namaz qılır. Yalnız günün əvvəlində, günortadan qabaq və gün batana yaxın bir müddət namaz qılmır. Həmin vaxt da öz səccadəsində oturub Allahı ilə razü-niyaz edir.» Hərəvi deyir: «Zindanın gözətçisinə dedim:«Ondan xahiş et, həmin vaxtlarda görüşünə getməyimə icazə versin. O mənim üçün icazə aldı və mən o Həzrətin hüzuruna getdim. Gördüm ki, öz səccadəsində oturub fikirləşir.»[3]

---

[1] Biharul-Ənvar, c.49, səh.17, hədis 15
[2] Uyunu əxbari-Rza (ə),c.2, səh.139, hədis 3
[3] Biharul-Ənvar, c.49, səh.91, hədis 5

532.İbrahim ibn Abbas:«Mən imam Rzanın (ə) heç vaxt kiməsə acı bir söz deməsini və ya kiminsə sözü qurtarmamış sözünü kəsməsini görmədim. Əgər kiminsə istəyini yerinə yetirmək imkanı olsaydı heç vaxt onu əli boş qaytarmazdı. Heç vaxt kiminsə yanında ayağını uzatmazdı. Yanında adam olanda söykənməzdi. Heç vaxt qulam və xidmətçilərindən birinə xoşagəlməz bir söz deməsini eşitmədim. Heç vaxt tüfürməsini və ya güləndə qəhqəhə çəkdiyini görmədim, gülüşü təbəssüm idi. Süfrəsini açanda qulam və xidmətçilərini, hətta qapıçı (və) mehtərini özü ilə süfrəyə əyləşdirərdi.»[1]

ıooooooπ

---

[1] Uyunu əxbari -Rza (ə) , c.2, səh.184, səh.7

## 27

# İmam Cavad

***152.O Həzrətin imaməti***

533.Abdullah ibn Cəfər:«Mən Səfvan ibn Yəhya ilə imam Rzanın (ə) hüzuruna getdim. Hələ üç yaşı olan əbu Cəfər (orada) dayanmışdı. Dedim:«Allah bizi sizə fəda etsin! Allah eləməmiş, əgər sizin başınıza bir iş gəlsə sizdən sonra (imam) kim olacaq?» O Həzrət imam Cavada işarə edərək buyurdu:«Bu oğlum.» Abdullah ibn Cəfər deyir: Mən dedim:«O, bu yaşda?!» Buyurdu:«Bəli, o, bu yaşda. Allah-taala iki yaşlı İsa ilə dəlil-sübut gətirdi.»[1]

534.Yəhya Sən'ani:«Məkkədə imam Rzanın (ə) yanına getdim. Gördüm ki, o Həzrət bananın qabığını soyub əbu Cəfərin (ə) (imam Cavadın) ağzına qoyur. Dedim:«Qurban olum, sizin əziz övladınız elə budur?» Buyurdu:«Bəli. O elə bir uşaqdır ki, İslamda bizim şiələrimiz üçün ondan bərəkətli bir uşaq doğulmayıb.»[2]

***153.İmam Cavadın(ə) fəzilətləri.***

535.Allahın Peyğəmbəri(s) Abdullah ibn Məsudun Hüseynin (ə) nəslindən olan imamlar barəsindəki sualının cavabında buyurmuşdur:«...Və Əlinin (Rzanın) nəslindən onun oğlu tərifllənmiş Məhəmməd dünyaya gələcək və insanların yaradılış baxımından ən pakı və ən xoş əxlaqlısı olacaqdır.»[3]

536.Abdullah ibn Səid:«Məhəmməd ibn Əli ibn Ömər ibn Tənuxi mənə dedi:«Məhəmməd ibn Əlini öküz ilə söhbət edən gördüm. Öküz də başını tərpədirdi.» Dedim:«Yox (bu qəbul deyil), göstəriş ver öküz səninlə söhbət etsin.» Həzrət buyurdu:«Bizə quşların dili öyrədilib və bizə hər bir şey verilib.» Sonra (öküzə xitab edərək) buyurdu:«La ilahə illəllah vəhdəhu la şərikə ləh de.» Və öküzün başına əl çəkdi. Həmin vaxt öküz dedi:«La ilahə illəllah vəhdəhu la şərikə ləh.»[4]

537.Əli ibn Həssan Vasiti:«İsfahanda düzəldilmiş və bəzi hissələri gümüşdən olan bir aləti özümlə götürdüm və dedim ki, onu mövlam əbu Cəfərə hədiyyə edərəm. Həzrət hamının cavabını verdikdən və onlar dağlışdıqdan sonra, özü də durub getdi. Mən onun arxasınca yola düşdüm və yolda cənab Müvəffəq ilə rastlaşdım. Ona dedim ki, əbu Cəfərdən mənə, hüzuruna getmək

---

[1] Biharul-Ənvar, c.50, səh.35, hədis 23
[2] əl-Kafi, c.6, səh.360, hədis 3
[3] Kifayətul-Əsər, səh.84
[4] Dəlailul-İmamə, səh.211

üçün icazə al. Sonra, o Həzrətin hüzuruna getdim və salam verdim. Çöhrəsində narazılıq əlaməti olan halda salamımın cavabını verdi və əyləşdi. Həzrətə yaxınlaşdım və qolumda olanı onun qarşısında qoydum. Qəzəblə mənə baxdı və sonra sağ və sola nəzər salıb buyurdu:«Allah məni bu işlər üçün yaratmayıb. Mənim oynamaqla nə işim var?!» Mən o Həzrətdən üzr istədim. O məni bağışladı və mən həmin aləti götürüb çölə çıxdım.»[1]

538.Zeydi məzhəbindən olan Qasim ibn Əbdürrəhman deyir:«Mən Bağdada getdim və ora çatanda camaatın qaçıb nəyəsə baxaraq dayandığını gördüm.» Soruşdum:«Nə olub?» Dedilər: «Rzanın oğludur.» Dedim:«Mən onu görməliyəm.» O dişi (və ya erkək) bir qatırın üstündə göründü. Öz-özümə dedim:«Allah Lənət etsin imamət etiqadı sahiblərinə ki, Allahın bu kişinin itaətini vacib etməsini deyirlər.» O mənə tərəf dönüb dedi:«Ey Qasim ibn Əbdürrəhman:«Məgər biz özümüzdən olan (adi) bir adamamı tabe olacağıq?! Onda biz haqq yoldan azmış və dəlilik etmiş olarıq.» (Qəmər surəsi /24) Mən öz-özümə dedim:«Vallah o cadugərdir.» Yenə mənə tərəf dönüb dedi:«məgər içərimizdən vəhy yalnız onamı nazil olmuşdur?! Xeyr, o, yalançının, lovğanın biridir.» (Qəmər surəsi /25) Qasim deyir: «Mən qayıtdım və imamətə etiqad bəslədim və şəhadət verdim ki, o Allahın yaratdıqlarına qarşı dəlil və höccətidir və ona etiqad bəslədim.»[2]

ιoooooπ

[1] Dəlailul-İmamə, səh.212

[2] Kəşful-Ğummə, c.3, səh.153

28

# İmam Hadi

***154.O Həzrətin imaməti***

539.İmam Cavad (ə):«Məndən sonra imam, oğlum Əlidir, onun sözü mənim sözümdür və ona tabe olmaq mənə tabe olmaqdır. Ondan sonra imamət onun oğlu Həsənə çatır.»[1]

***155.İmam Hadinin fəzilətləri***

540.Kitabul-vahidə: Qardaşım Hüseyn ibn Məhəmməd mənə nəql edərək dedi:«Bir dostum var idi və o, Bəğanın və ya Vəsifin (tərəddüd məndəndir) uşaqlarının müəllimi idi. O mənə dedi:«əmir xəlifənin sarayından qayıdarkən mənə dedi: əmirəl-möminin bu gün İbn Rza deyilən bu şəxsi zindana saldı və onu Əli ibn Kərkərə tapşırdı. Onun belə deməsini eşitdim ki:«Mən Allah yanında Salehin dəvəsindən də əzizəm, «evinizdə daha üç gün yaşayıb kef çəkin. Bu yalan çıxmayacaq bir vəddir.» Həzrətin bu ayə və sözdən məqsədinin nə olmasını başa düşmədim. Dostum dedi:«əmirimə dedim:Allah izzətini artırsın, o hədələyib. Görərsən üç gündən sonra bir hadisə baş verəcək.»

Həmin günün səhərisi xəlifə İbn Rzanı azad etdi və ondan üzr istədi. Üçüncü gün Yağiz, Yəğlun və Tamiş bir dəstə adamla xəlifəyə qarşı üsyan etdilər, onu öldürdülər və oğlu Müstənsiri onun yerində oturtdular.»[2]

541.Kəşful-ğummə:«İsfahan əhalisindən bir dəstə, o cümlədən Əbulabbas Əhməd ibn Nəsr və əbu Cəfər Məhəmməd ibn Ələviyyə nəql edirlər ki:«İsfahanda Əbdürrəhman adında bir şiə kişi var idi. Ondan soruşdular ki:«Nə üçün camaatın içində başqasına deyil məhz ƏliyyənNəqinin imamətinə etiqad bəsləyirsən?»Dedi: «Buna mənim rastlaşdığım bir iş səbəb oldu. Mən yoxsul, eyni zamanda çox danışan və cürətli bir şəxs idim. Bir il İsfahan əhalisi məni bir dəstə adamla birlikdə xəlifənin sarayına şikayətə göndərdi. Xəlifənin yanında ikən Əli ibn Məhəmməd ibn Rzanın çağırılması göstərişi verildi. Orada olanlardan birinə dedim:«Çağırılan şəxs kimdir?» Dedi:«O, ələvidir və rafizilər onun imamətinə etiqad bəsləyirlər.» Sonra dedi:«Məncə Mütəvəkkil onu öldürmək üçün çağırtdırıb.» Dedim:«Mən bu şəxsin necə adam olmasını görməyincə yerimdən tərpənən deyiləm.» O, at ilə gəldi. Camaat yolun sağ və sol tərəflərində sıraya düzülmüşdü və ona baxırdı. Məhəbbəti qəlbimə düşdü. Buna görə də qəlbimdə dua edirdim ki:«Allah Mütəvəkkilin şərrini ondan uzaq

---

[1] Biharul-Ənvar, c.50, səh.118, hədis 1

[2] Biharul-Ənvar, , c.50, səh.189, hədis 1

etsin.» O camaatın arası ilə hərəkət edirdi. Gözünü atının yalına dikmişdi və ətrafa baxmırdı. Mən dayanmadan ona dua edirdim. Mənə çatanda üzünü mənə tutub dedi:«Allah sənin duanı qəbul etdi və sənə uzun ömür bağışladı, mal-dövlətini və övladını artırdı.» Həmin hadisədən sonra biz İsfahana qayıtdıq. Allah mənə o qədər sərvət verdi ki, evimin qapısını içində milyonlarla dirhəm dəyəri olan şeylər olduğu halda bağlayıram və (hələ) bu, evdən kənarda olan sərvətimdən əlavədir. On övlad da qismətim olub. Ömrümdən də yetmiş neçə il keçir. Əvvəlimdən xəbəri olan və Allahın mənim barəmdəki duasını qəbul etdiyi kəsin imamətinə etiqad bəsləməyimin səbəbi budur.»[1]

ιοοοοοοπ

[1] Kəşful-Ğummə, c.3, səh.179

# 29

# İmam Həsən Əskəri

***156.O Həzrətin imaməti***

542.İmam Hadi (ə):« Məndən sonra imam Həsəndir və Həsəndən sonra oğlu Qaim – yer üzünü zülm və sitəmlə dolduğu kimi ədalət və insaf ilə dolduran!»[1]

***157.İmam Əskərinin(ə) fəzilətləri.***

543.Məhəmməd ibn İsmail:«Əbu Məhəmməd (imam Əskəri) (ə) zindanda olan zaman Abbasilər, həmçinin Saleh ibn Əli və Əhli-Beytə etiqadı olmayanlardan bir dəstə Saleh ibn Vəsifin yanına gedib dedilər ki:«Ona qarşı qətiyyətli ol və ona macal vermə.» Saleh onlara dedi:«Ona daha nə edim? Tapa bildiyim ən pis iki adamı onun üzərinə qoymuşam, amma o iki nəfər (o Həzrətin rəftarını görərək) tamamilə ibadət və namaz əhli olublar.»[2]

544.Əbulqasim Kufi «ət-Təbdil» kitabında deyir:«öz əsrinin filosofu olan İshaq Kindi Quranda olan təzadları bir yerə toplamaq qərarına gəldi və bu məqsədlə evində oturub bu işlə məşğul olmağa başladı. Bir gün onun şagirdlərindən biri imam Həsən Əskərinin (ə) hüzuruna getdi. İmam ona dedi:«Sizin aranızda ağıllı-kamallı bir adam tapılmır ki, ustadınız Kindini başladığı və Qurana girişdiyi işdən saxlasın?» Kindinin şagirdi dedi:«Biz onun şagirdlərindənik. Bu və ya digər məsələlərdə ona necə e‘tiraz edə bilərik?» İmam Əskəri (ə) buyurdu:«Dediyim işi görə bilərsən?» O dedi:«Bəli.» Həzrət buyurdu:«Onun yanına get, onunla isti münasibətlər qur və özünü gördüyü işdə ona kömək etmək istəyən şəxs kimi göstər. Onunla ünsiyyət yaratdıqdan sonra de ki, qarşıma bir sual çıxıb və onu səndən soruşmaq istəyirəm. O da deyəcək ki, soruş. Onda ona de:«Əgər bu Quranı buyuran sənin yanına gəlsə, ola bilərmi ki, onun dediklərindən məqsədi sənin öz zənnin ilə ondan başa düşdüyün mənalardan fərqli olsun? Onda Kindi cavab verəcək ki:«Bəli, ola bilər.» Çünki o (yəni Kindi) çox düşüncəli və başadüşən adamdır. Həmin şəxs Kindinin yanına getdi və mehribançılıqla ona yaxınlaşdı və sonra həmin sualı ondan soruşdu. Kindi dedi:«Sualını bir də təkrar et. Həmin şəxs sualını bir də təkrar etdi. Kindi özü-özlüyündə fikrə daldı və bu işi həm dilçilik və həm də ağıl baxımından mümkün saydı. Sonra şagirdinə dedi:« Səni and verirəm, de görüm bu sualı hardan öyrənmisən?» Şagirdi dedi:«Zehnimdən keçdi və səndən soruşdum.» Kindi dedi:«Belə sual heç vaxt sənin kimilərinin zehnindən keçə

---

[1] Biharul-Ənvar, c.50, səh.239, hədis 4

[2] Biharul-Ənvar, c.50, səh.308, hədis 6

bilməz və sən və sənin kimilər belə bir məqama çata bilməzsiniz? De görüm bu sualı haradan götürmüsən?» Şagird dedi:«əbu Məhəmməd mənə buyurdu ki, səndən bu sualı soruşum.» Kindi dedi:«İndi həqiqəti dedin. Belə sual yalnız bu ailədən çıxar.» O sonra od istədi və topladıqlarının hamısını yandırdı.»[1]

ιοοοοοοπ

[1] Mənaqib, İbn Şəhr Aşub, c.4, səh.424

**30**

# İmam Mehdi

***158. İmamın adları***

545.İmam Baqir (ə) «Haqsız yerə öldürülən məzlum şəxsin sahibinə bir ixtiyar verdik. (Şəriətin bu hökmləri ilə) artıq ona kömək olunmuşdur»[1] ayəsinin təfsirində buyurmuşdur:«Allah (İslam Peyğəmbərini) Əhməd, Məhəmməd və Mahmud, İsanı Məsih adlandırdığı kimi, Mehdini Mənsur (kömək olunmuş) adlandırmışdır.»[2]

546.İmam Sadiq (ə) o Həzrətdən Mehdiyə Qaim adı verilməsi barəsində sual soruşularkən buyurmuşdur:«Çünki o hər bir gizli işə istiqamətləndirilir.»[3]

***159. O Həzrətin imamətinin dəlili.***

547.İmam Əskəri (ə) o Həzrətdən sonra olacaq ilahi höccət və imam barəsindəki suala cavab verərkən buyurmuşdur:«Oğlum Məhəmməd.Məndən sonra imam və höccət odur. Kim onu tanımadan ölsə cahiliyyət ölüsü kimi ölüb. Bilin! Onun qeybə çəkilməsi olacaqdır. Nadanlar bu barədə sərgərdan qalarlar və batil əhli məhvə düçar olarlar. (Onun zühuru üçün) vaxt təyin edənlər yalan deyərlər. O həmin qeybdən sonra zühur edər. Sanki mən Nəcəfdə onun başı üzərində dalğalanan ağ bayraqları görürəm.»[4]

***160.Mehdi müjdəsi***

548.Allahın Peyğəmbəri (s):«Müjdə olsun sənə ey Fatimə ki, Mehdi səndəndir.»[5]

549.Allahın Peyğəmbəri (s):«Mehdi mənim nəvələrimdən biridir ki, üzü ay kimi nurludur.»[6]

550.Allahın Peyğəmbəri (s):«Yer üzü zülm və düşmənçiliklə dolmayınca Qiyamət bərpa olmayacaq. Həmin vaxt mənim Əhli-Beytimdən biri qiyam edəcək və o, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi ədalətlə dolduracaq.»[7]

---

[1] İsra, ayə 33
[2] Biharul-Ənvar, c.51, sə 30, hədis 8
[3] əl-Ğeybə, Tusi, səh.471, hədis 489
[4] Biharul-Ənvar, c.51, səh.160, hədis 7
[5] Kənzul-Ummal, hədis 34208
[6] Kənzul-Ummal, hədis 38666
[7] Kənzul-Ummal, hədis 38691

551.Allahın Peyğəmbəri (s):«Mənim Əhli-Beytimdən bir kişi hakim olacaq ki, onun adı mənim adımla birdir. Əgər dünyadan ancaq bir gün də qalmış olsa, Allah həmin günü, o hakimiyyəti öz əlinə alana kimi uzadacaqdır.»[1]

552.İmam Əli (ə):«Mehdi bizdəndir, Fatimənin nəslindən.»[2]

553.İmam Baqir (ə):«Qiyam edəndə Kəbəyə söykənəcək və üç yüz on üç kişi onun ətrafında dövrə vuracaq. Deyəcəyi ilk kəlmə, bu ayə olacaq:«əgər imanınız olsa «bəqiyyətullah» sizin üçün daha xeyirlidir.» Sonra buyuracaq:«Mən «bəqiyyətullah»am, Onun sizin üzərinizdə olan höccət və canişini.» Ona salam göndərən hər bir kəs belə deyər:«Salam olsun sənə ey Allahın yer üzündə qalanı!»[3]

***161.İmam Mehdinin iki dəfə qeybə çəkilməsi.***

554.İmam Sadiq (ə):«Qaim iki dəfə qeybə çəkilər: Bir dəfə qısa və bir dəfə uzun müddətli. Birinci dəfə qeybə çəkiləndə onun yerini ancaq o Həzrətin xas şiələri bilərlər. İkinci qeybdə isə onun yerindən o Həzrətin din yoldaşlarının xaslarından başqa heç kəsin xəbəri olmaz.»[4]

***162.İmam qeybdə olan zamanda dindarlığın çətin olması.***

555.Allahın Peyğəmbəri (s):«Məni haqq olaraq müjdəçi kimi göndərənə and olsun ki, o qeybdə olanda onun imam olması əqidəsində möhkəm duranlar qırmızı kükürddən də az tapılarlar.»[5]

556.İmam Sadiq (ə):«Həqiqətən bu işin sahibi (imam Zaman) qeybə çəkilər. Həmin zamanda dini saxlamaq dəvətikanını əl ilə yuxarıdan aşağı qopartmaqdan da asan olar.» O Həzrət sonra bir az sükut etdi və buyurdu:«Həqiqətən bu işin sahibi qeybə çəkiləcək. Odur ki, gərək bəndə Allahdan qorxsun və öz dinindən yapışsın.»[6]

***163. İmam qeybdə olan zaman dua etmək***

557.İmam Sadiq (ə) İbn Sənana xitab edərək buyurmuşdur: «Tezliklə şəkk və tərəddüdə düşəcəksiniz, aydın nişanə və yol göstərən imamsız qalacaqsınız. Həmin şəkk və tərəddüddən «Ğəriq» duasının oxuyandan başqa heç kəs qurtula bilməyəcək.» (İbn Sənan nəql edir ki,) dedim:«Ğəriq» duası necədir? Buyurdu: Deyirsən:

يا اللهُ يا رحمانُ يا رحيمُ يا مُقَلِّبَ القُلُوبِ ثَبِّتْ قَلْبِي عَلي دِينِك

«Ey Allah! Ey Bağışlayan! Ey mehriban! Ey qəlbləri haldan hala salan! Mənim qəlbimi öz dinində möhkəm et!» Mən dedim:

---

[1] Kənzul-Ummal, hədis 38661

[2] Kənzul-Ummal, hədis 39675

[3] Nurus-Səqəleyn, c.2, səh.392, hədis 194

[4] Biharul-Ənvar, c.52, səh.155, hədis 10

[5] Kəmalud-din, c.1, səh.288, hədis 7

[6] əl-Ğeybə, Nömani, səh.169, hədis 11

يا اللهُ يا رحمانُ يا رحيمُ يا مُقَلِّبَ القُلُوبِ وَ الأَبْصارِ ثَبِّتْ قَلْبِي عَلي دِينِكَ» «Ey Allah! Ey Bağışlayan! Ey mehriban! Ey qəlbləri və düşüncələri haldan hala salan! Mənim qəlbimi öz dinində möhkəm et!» Buyurdu:«Əlbəttə, ki, Allah-taala qəlb və düşüncələri haldan hala salandır. Amma sən mən deyən kimi de:«

«يا اللهُ يا رحمانُ يا رحيمُ يا مُقَلِّبَ القُلُوبِ ثَبِّتْ قَلْبِي عَلي دِينِكَ»

«Ey Allah! Ey Bağışlayan! Ey mehriban! Ey qəlbləri haldan hala salan! Mənim qəlbimi öz dinində möhkəm et!»[1]

***164.Fərəc[2] intizarı çəkmək***

558.Allahın Peyğəmbəri (s):«Mənim ümmətimin ən üstün işi fərəc intizarında olmaq və Allahdan onun baş verməsini istəməkdir.»[3]

559.İmam Səccad (ə):«Fərəc intizarını çəkməyin özü ən böyük qurtuluşlardandır.»[4]

560.İmam Sadiq (ə):«Kim bu iş sahibinin (imam Zamanın zühurunun) intizarını çəkən halda ölsə, Qaimlə birlikdə onun xeyməsində olmuş kimidir. Xeyr! Bəlkə hətta Allahın Peyğəmbərinin (s) kənarında qılınc çalan şəxs kimidir.»[5]

561.İmamKazim (ə):«Fərəc intizarında olmağın özü bir növ açılışdır.»[6]

***165.İnsanları ümidsizlik bürüdükdən sonra Qaimin zühur etməsi.***

562.İmam Sadiq (ə):«And olsun Allaha ki, bu iş (imamın zühuru) sizlər tamamilə ümidsizləşdikdən, xeyr, and olsun Allaha (sizin yaxşılarınızla pisləriniz) bir-birindən seçiləndən sonra sorağınıza gələcəkdir.»[7]

563.İmam Rza (ə):«Həqiqətən fərəc ümidsizlikdən sonra gələr.»[8]

***166.Zühur üçün vaxt təyin edənlər yalançıdırlar.***

564.İmam Baqir (ə) Fuzeylin «zühurun vaxtı müəyyənləşdirilib?» sualının cavabında buyurmuşdur:«Vaxt qoyanlar yalan deyiblər, vaxt qoyanlar yalan deyiblər, vaxt qoyanlar yalan deyiblər!»[9]

***167.Qeybə çəkilmənin səbəbi***

---

[1] Biharul-Ənvar, c.52, səh.149, hədis: 73
[2] Kəlmənin lüğəti mənası hüzn, kədər, məyusluqdan sonra gələn sevinc, şadlıq və yaxşı əhvaldır. Amma hədislərdə on ikinci imamın zühurunun zamanına işarə olaraq işlədilir.
[3] Biharul-Ənvar, c.52, səh.122, hədis 2
[4] Biharul-Ənvar, c.52, səh.122, hədis 4
[5] Biharul-Ənvar, c.52, səh.146, hədis 69
[6] əl-Ğeybə, Tusi, səh.459, hədis 471
[7] Biharul-Ənvar, c.52, səh.111, hədis 20
[8] Biharul-Ənvar, c.52, səh.110, hədis 17
[9] əl-Ğeybə, Tusi, səh.426, hədis 9

565.Allahın Peyğəmbəri (s):«O uşağın qeybə çəkilməsindən başqa çarə yoxdur.» Soruşdular:«Nə üçün, ey Allahın Peyğəmbəri? Buyurdu: «Öldürülməkdən qorxusu vardır.»[1]

566.İmam Sadiq (ə) qeybə çəkilmənin səbəbi barəsindəki sualın cavabında buyurmuşdur:«Sizə faş etmək icazəmiz olmayan səbəbə görə.»

Abdullah ibn Fuzeyl nəql edir ki, dedim:«Bəs onda qeybə çəkilməyin fayda və hikməti nədir? Buyurdu:«Onun qeybə çəkilməsinin hikməti ondan qabaqkı ilahi höccətlərin qeybə çəkilmələrinin hikmətidir. Onun hikməti ancaq onun zühurundan sonra məlum olacaq…Qeybə çəkilmək Allahdan (Onun işlərindən) olan bir iş, Allahın sirlərindən biri və Allahın qeyblərindəndir. Allahın hikmət sahibi olmasını bildikdən sonra Onun bütün işlərinin hikmət əsasında olmasını anlayırıq, hətta onların hikmətlərinin sirləri bizə məlum olmasa belə!»[2]

567.İmam Sadiq (ə):«Qaim (ə) Allahın əmanətləri çıxana (yəni kafirlərin belindən möminlər doğulana) kimi əsla zühur etməz. Beləliklə, onlar çıxandan sonra Qaim Allahın düşmənlərinə qalib gələr və onları öldürər.»[3]

568.İmam Sadiq (ə):«Bu iş ( Qaimin (ə) qiyamı) bütün dəstə və qruplar xalqa hakim olduqdan sonra baş verəcək ki, heç kəs «əgər biz hakim olsaydıq ədaləti bərqərar edərdik» deyə bilməsin. Bundan sonra haqq və ədaləti bərqərar edən Qaim qiyam edəcək.»[4]

569.İmamKazim (ə):«Əgər sizin aranızda «Bədr» əhlinin sayı qədər (həqiqi mömin) olmuş olsaydı, bizim Qaimimiz qiyam edərdi.»[5]

### *168.İmam qeybdə olan zaman insanların ondan bəhrələnməsi*

570.İmam Mehdi (ə):«Mən qeybdə olan zaman məndən bəhrələnmək günəş buludun arxasında gözlərdən gizlin olanda ondan bəhrələnmək kimidir. Ulduzlar göy əhlinin əmin-amanlıq amili olduğu kimi mən də yer əhlinin əmin-amanlıq amiliyəm.[6]

### *169.Zühurun əlamətləri*

571.İmam Əli (ə):«Xətib həlakətə düçar olanda, zəmanənin imamı gözlərdən gizlinə çəkiləndə və bir dəstə qəlblər şad, bir dəstə qəlblər isə qəmgin olanda arzusu olanlar məhv olar, dağılanlar bir-birlərindən ayrılar və sayları az – üç yüz nəfər və ya çox olan möminlər qalarlar. Həmin möminlərin kənarında «Bədr» günü Allahın Peyğəmbərinin (s) kənarında döyüşmüş, öldürülməmiş və ölməmiş bir dəstə döyüşər.»[7]

572.İmam Sadiq (ə):«Allah möminlər üçün Qaimin (ə) qiyamının Bəzi nişanələrini sayıb.» Məhəmməd ibn Müslim nəql edir ki, mən dedim:«Allah

---

[1] Biharul-Ənvar, c.52, səh.90, hədis 1
[2] Kəmalud-Din, səh.482, hədis 11
[3] İləluş-Şəraye, səh.147, hədis 2
[4] əl-Ğeybə, Nömani, səh.274, hədis 53
[5] Mişkatul-Ənvar, səh.63
[6] Biharul-Ənvar, c.52, səh.92, hədis 7
[7] Biharul-Ənvar, c.52, səh.137, hədis 42

məni sizə fəda etsin, həmin nişanələr hansılardır?» Buyurdu:«Allah-taalanın bu kəlamı:«Biz sizi (mömінləri Qaimin qiyamından qabaq) bir az qorxu, bir az aclıq, bir az da mal , can və məhsul qıtlığı ilə imtahan edərik. Səbr edən şəxslərə müjdə ver.»[1]

573.İmam Mehdi (ə) Əli ibn Məhzyarın « ağam,bu iş (zühur) nə vaxt olacaq?» sualının cavabında buyurmuşdur:«Məkkənin yolları sizin üzünüzə bağlanan zaman.»[2]

***170.Zühur zamanı***

574.İmam Əli (ə):«Bir carçı səmadan «həqiqətən haqq Məhəmməd Əhli-Beyti ilədir!» deyə fəryad qoparanda Mehdi camaatın dilinə düşəcək. Onlar onun məhəbbət piyalələrini başlarına çəkəcəklər və dillərində onu yada salmaqdan və onun adından başqa bir şey olmaz.»[3]

575.İmam Baqir (ə):«Əgər camaat Qaim qiyam edən zaman necə qırğınlar edəcəyini bilsəydi, şübhəsiz ki, onların çoxu onu görmək istərdi... Hətta insanların çoxu deyər:«O Məhəmmədin Əhli-Beytindən deyil, əgər Məhəmmədin Əhli-Beytindən olsaydı rəhm edərdi.»[4]

576.İmam Baqir (ə):«Qaim yeni hökm, yeni kitab və yeni qəzavət (onların həqiqətini) gətirəcək. Ərəblərə qarşı sərt olacaq. İşi ancaq qılınc ilə olacaq. Heç kəsə tövbə etdirməyəcək və Allah yolunda heç bir qınayanın töhmətinə əhəmiyyət verməyəcək.»[5]

577.İmam Sadiq (ə):«Bizim Qaimimiz qiyam edəndə Allah şiələrimizin qulaq və gözlərini elə iti edəcək ki, onlarla Qaim arasında qasid olmayacaq. Durduğu yerdən şiələrlə danışacaq və onlar onun sözlərini eşidəcək, onu görəcəklər.»[6]

578.İmam Sadiq (ə):«Ərəblərin az bir hissəsi Qaim (ə) ilə birlikdə qiyam edəcəklər.» Dedilər:«Ərəblərin çoxu özünü o Həzrətin yardımçısı hesab edir?» Buyrdu:«İnsanlar gərək saflaşsınlar, yaxşısı ilə pisi bir-birindən ayrılsın, xəlbirlənsinlər. Onların çoxu xəlbirdən töküləcək.»[7]

579.İmam Sadiq (ə):«Qaim (ə) qiyam edəndə o Həzrətin nəslindən olması güman edilənlər onun dəstəsindən çıxacaqlar, aya və günəşə pərəstiş edənə oxşayanlar isə onun dəstəsinə qoşulacaqlar.»[8]

***171. Dünya imam Mehdinin zühurundan sonra***

580.Allahın Peyğəmbəri (s):«Ümmətimin sonuncusunun içində Mehdi qiyam edəcək. Allah ona yağış əta edəcək, yer otunu bitirəcək, malı tam və

---

[1] Nurus-Səqələyn, c.1, səh.314, hədis 23
[2] Nurus-Səqələyn, c.5, səh.461, hədis 4
[3] ət-Təşrif bil minən, səh.129, hədis 136
[4] əl-Ğeybə, Nömani, səh.204, hədis 6
[5] əl-Ğeybə, Nömani,səh.317, hədis 1
[6] əl-Kafi, c.8, səh.241, hədis 329
[7] əl-Ğeybə, Nömani, səh.204, hədis 6
[8] əl-Ğeybə, Nömani, səh.317, hədis 1

kamil şəkildə verəcək, heyvan və dördayaqlılar artacaq və ümmət başıuca və əzəmətli olacaq.»[1]

581.İmam Səccad (ə):«Bizim Qaimimiz qiyam edəndə Allah bəlanı bizim şiələrimizdən götürəcək, onların qəlblərini dəmir parçası kimi (möhkəm və qorxmaz) edəcək və onların hər birinə qırx kişinin gücünü verəcək. Onlar dünyanın ağa və başçısı olacaqlar.»[2]

582.İmam Baqir (ə):«Qaim qiyam edəndə hər bir kinli düşmənə imanı təqdim edəcək. Əgər (həmin düşmən) səmimi qəlbdən iman gətirməsə boynu vurulacaq və ya bu günkü zimmə əhli (qeyri-müsəlmanlar) kimi cizyə (vergi) verəcək. Və həmin şəxslərin belinə qayış bağlayacaq və onları şəhərlərdən ətrafa və kəndlərə köçürəcəkdir.»[3]

ιoooooπ

---

[1] Kənzul-Ummal, hədis 38700

[2] Mişkatul-ənvar, səh.79

[3] əl-Kafi, c.8, səh.227, hədis 288

## 31

# İman

***172.İman və İslam***

**Quran:**

«Bədəvi ərəblər dedilər:«Biz iman gətirdik.» De:«Siz iman gətirmədiniz. Ancaq İslamı qəbul etdik deyin. İman hələ ki, sizin qəlblərinizə daxil olmamışdır.»[1]

**Hədis:**

583.İmam Baqir (ə):«İman iqrar və əməl etməkdir, İslam isə əməlsiz iqrar etməkdir.»[2]

584.İmam Sadiq (ə):«İman qəlblərdə yerləşir. İslam isə nigah, irs və qanın qorunmasının bağlı olduğu şeydir.»[3]

***173.İmanın həqiqəti***

585.Allahın Peyğəmbəri (s):«İman iddia və arzu ilə deyildir. O, qəlbdə xalis olan və əməlin təsdiqlədiyi şeydir.»[4]

586.Allahın Peyğəmbəri (s):«İman qəlb ilə tanımaq, dil ilə iqrar etmək və bədən üzvləri ilə əməl etməkdir.»[5]

587.Allahın Peyğəmbəri (s):«İman səbr və güzəştdir.»[6]

588.Allahın Peyğəmbəri (s):«Hər bir şeyin həqiqəti var. Heç bir bəndə ona çatan şeyin çatmamasının qeyri-mümkünlüyünü, həmçinin ona çatmayan şeyin çatmasının qeyri-mümkünlüyünü bilməyincə həqiqətə çatmaz.»[7]

589.Allahın Peyğəmbəri (s):«Bəndə Allaha görə qəzəblənib Allaha görə sevinməyincə imanın həqiqətinə çatmaz. Belə olan zaman o imanın həqiqətinə layiq olub.»[8]

590.Allahın Peyğəmbəri (s):«Heç bir bəndə özü üçün istədiyi xeyri başqa insanlar üçün də istəməyincə mömin deyil.»[9]

591.İmam Əli (ə):«İman əməli (Allaha görə) saflaşdırmaqdır.»[10]

---

[1] Hucurat, ayə 14
[2] Tuhəful-Uqul, səh.297
[3] əl-Kafi, c.2, səh.26, hədis 3
[4] Biharul-Ənvar, c.69, səh.72, hədis 26
[5] Kənzul-Ummal, hədis 2
[6] Kənzul-Ummal, hədis 57
[7] Kənzul-Ummal, hədis 12
[8] Kənzul-Ummal, hədis 99
[9] Kənzul-Ummal, hədis 95
[10] Ğurərul-Hikəm, hədis 873

592.İmam Əli (ə):«İman çətinlik və giriftarçılıq zamanı səbrlilik, rahatlıq və nemət içində olan zaman isə şükr etməkdir.»[1]

593.İmam Əli (ə):«İmanın başı düzlük və doğruçuluqdur.»[2]

594.İmam Əli (ə):«Heç bir bəndənin imanı onun, Allahın yanında olanlara inam və etimadı öz əlində olanlardan çox olmayınca düz deyil.»[3]

595.İmam Sadiq (ə):«Həqiqi imanın əlamətlərindən biri sənin haqqı – hətta öz ziyanına olsa belə – batildən, hətta öz xeyrinə olsa belə – üstün tutmağındır.»[4]

***174.İman və əməl***

596.Allahın Peyğəmbəri (s):«İman ilə əməl bir ipə bağlanmış iki qardaşdırlar. Allah onların birini digəri olmadan qəbul etmir.»[5]

597.Allahın Peyğəmbəri (s):«Mürciə»ni – (yəni) «iman əməlsiz sözdür» deyənləri yetmiş peyğəmbər Lənətləyib.»[6]

598.İmam Əli (ə):«Əgər iman təkcə söz olsaydı oruc, namaz, halal və haram nazil olmazdı.»[7]

599.Mə‘sum (ə):«İman başdan ayağa əməldir. Söz Allahın vacibliyini öz kitabında bəyan etdiyi əməlin bir hissəsidir.»[8]

***175.İman və günahlar***

600.Allahın Peyğəmbəri (s):«Heç bir yaxşılıq kafiri küfründən çıxarmadığı kimi heç bir günah mömini imanından çıxarmaz.»[9]

601.Allahın Peyğəmbəri (s):«Kim xalis və saf niyyətlə «لا اله الا الله» «la ilahə illəllah» (Allahdan başqa bir tanrı yoxdur) desə Cənnətə daxil olar.» Deyildi:«Onu necə xalisləşdirmək olar?» Buyurdu:«Onu Allahın haram buyurduqlarından saxlamaqla.»[10]

602.Allahın Peyğəmbəri (s):«لا اله الا الله» kəlməsi onu deyən üçün həmişə onu yüngül hesab etmək istisna olmaqla xeyirli olar. Onun yüngül sayılması günahkarlığın aşkar olması, çirkin sayılmaması və aradan qaldırılması fikrinə düşülməməsidir.»[11]

603.İmamKazim (ə) «böyük günahlar imanın aradan getməsinə səbəb olur?» sualının cavabında buyurmuşdur:«Bəli, hətta böyük olmayan günahlar

---

[1] Ğurərul-Hikəm, hədis 1350
[2] Ğurərul-Hikəm, hədis 5222
[3] Biharul-Ənvar, c.103,səh.37, hədis 79
[4] Biharul-Ənvar, c.70, səh.106, hədis 2
[5] Kənzul-Ummal, hədis 59
[6] Kənzul-Ummal, 637
[7] Biharul-Ənvar, c.69, səh.19, hədis 2
[8] əl-Kafi, c.2, səh.38, hədis 7
[9] Kənzul-Ummal, 1333
[10] Kənzul-Ummal, 205
[11] Kənzul-Ummal, hədis 223

(da imanın aradan getməsinə səbəb olur)! Allahın Peyğəmbəri (s) buyurub:«Zinakar mömin olan halda zina, oğru iman halında oğurluq etmir.»[1]

### *176.İmanı kamilləşdirən amillər*

604.Allahın Peyğəmbəri (s):«Üç şeyə malik şəxsin . Allah yolunda heç bir qınayanın töhmətindən qorxmayanın, özünün heç bir işində riyakarlıq etməyənin və biri dünyaya, digəri isə axirətə aid olan təqdim olunmuş iki şeydən axirət işini dünyadan üstün tutan şəxsin imanı kamildir.»[2]

605.Allahın Peyğəmbəri (s):«Bəndə özü üçün sevdiyi şeyi qardaşı üçün də sevməyincə, zarafat və ciddiliyində Allahdan qorxmayınca imanın kamilliyinə çatmaz.»[3]

606.Allahın Peyğəmbəri (s):«Bəndədə beş xislət olmayınca onun Allaha olan imanı kamilləşməz:«Allaha təvəkkül etmək, Allahın əmrinə boyun əymək, Allahın qəzavü-qədərinə razı olmaq və Allahın göndərdiyi bəlaya səbr etmək. Kim Allah yolunda sevsə, Allah yolunda nifrət bəsləsə, Allaha xatir versə və Allaha görə əsirgəsə imanı kamal həddinə çatdırıb.»[4]

607.İmam Əli (ə):«Sizin imanı daha kamil olanınız əxlaqı daha gözəl olanınızdır.»[5]

608.İmam Əli (ə):«Hər kimdə üç şey olsa imanı kamildir: Ağıl, səbr və elm.»[6]

609.İmam Əli (ə):«Bəndə Allahın sevdiyini sevməyincə və Allahın sevmədiyinə nifrət bəsləməyincə imanı kamilləşməz.»[7]

610.İmam Sadiq(ə):«Üç xislət olmayınca heç bir bəndə imanını kamilləşdirə bilməz: Dini dərk etmək, maliyə məsələlərini düzgün proqramlaşdırmaq və bəla və çətinliklər müqabilində səbr.»[8]

### *177.İmanın artması*

**Quran:**

«Allahın ayələri onlara oxunanda (həmin ayələr) imanlarını daha da artırar»[9]

*Həmçinin müraciət edin: Bəqərə 26; Kəhf 13, 14; Əhzab 22; Fəth 4; Mücadilə 22.*

**Hədis:**

611.İmam Əli (ə):«İman qəlbdə bir ağ nöqtə kimidir ki, iman artdıqca həmin ağ nöqtə də böyüyər və iman kamilləşəndə qəlbin hamısı ağarar.»[10]

---

[1] Biharul-Ənvar, c.77, səh.177, hədis 10
[2] Kənzul-Ummal, hədis 43247
[3] Kənzul-Ummal, hədis 106
[4] Biharul-Ənvar, c.77, səh.177, hədis 10
[5] Biharul-Ənvar, c.71, səh.387, hədis 34
[6] Ğurərul-Hikəm, hədis 4658
[7] Ğurərul-Hikəm, hədis 10849
[8] Biharul-Ənvar, c.78, səh.239, hədis 78
[9] Ənfal, ayə 2
[10] Kənzul-Ummal, hədis 1734

***178.İmanın dərəcələri***

612.Allahın Peyğəmbəri (s):«İmanın ən üstünü Allahın hər yerdə səninlə olmasını bilməyindir.»[1]

613 Allahın Peyğəmbəri (s):«İmanın ən üstünü səbr və güzəştdir.»[2]

614.Allahın Peyğəmbəri (s):«İmanın yetmiş neçə qolu var. Onların ən üstünü «لا اله الا الله» deməк, ən aşağısı isə əziyyətə səbəb olan şeyləri camaatın yolundan qaldırmaqdır. Həya da imanın bir qoludur.»[3]

615.İmam Əli (ə):«İmanın ən üstünü (Allah barəsində) yəqinliyin gözəl şəkildə olmasıdır.»[4]

616.İmam Sadiq (ə):«İman on pilləsi olan və pillələri biri digərindən sonra qət edilən nərdivan kimidir. Buna görə də ikinci pillədəkilərdən tutmuş onuncu pillədə olanlara kimi heç kəs birinci pillədə olana «sən bir şey deyilsən» deməməlidir. (Yəni hətta onuncu pillədə olsa da özündən aşağıdakına belə söz deməməlidir. ) Özündən aşağı pillədə olanı yerə salma ki, səndən yuxarıda olan da səni salar. Birinin səndən bir pillə aşağıda olmasını görəndə mehribanlıq və mülayimliklə onu özünə tərəf yuxarı çək, onun çiyninə qüdrətindən artıq yük qoyma ki, onu sındırarsan. Kim mömini sındırsa, gərək onun sınığını müalicə etsin.»[5]

617.İmam Sadiq (ə):«Allah imanı yeddi hissəyə bölüb: yaxşılıq, düzlük və doğruçuluq, yəqinlik, razılıq, vəfadarlıq, elm və səbr.»[6]

***179.İmanın sütunları***

618.Allahın Peyğəmbəri (s):«İman on şeydədir: tanımaq, (Allaha) itaət, elm, əməl, pəhrizkarlıq, çalışqanlıq, səbr, yəqinlik, razılıq, (Allah qarşısında) təslim olmaq. Bu on sütundan hər hansı biri çatmasa imanın nəzmi pozular.»[7]

619.İmam Əli (ə):«İman dörd sütun üzərində möhkəmlənib: Allaha təvəkkül, işləri Allaha həvalə etmək, Allahın əmrinə boyun qoymaq, Allahın qəzavü-qədərinə razı olmaq.»[8]

620.İmam Əli (ə):«İffətlilik və kifayət edəcək miqdara razı olmaq, imanın sütunlarındandır.»[9]

***180.İmanın ən möhkəm halqaları***

621.Allahın Peyğəmbəri (s):«İmanın ən möhkəm halqaları Allahı sahib və hami bilmək, Allaha görə sevmək və nifrət bəsləməkdir.»[10]

622.Allahın Peyğəmbəri (s):«Ən möhkəm tutacaq təqva kəlməsidir.»[11]

***181.Möhkəm iman, müvəqqəti və qeyri-sabit iman***

---

[1] Kənzul-Ummal, hədis 66
[2] Kənzul-Ummal, hədis 74
[3] Kənzul-Ummal, hədis 52
[4] Ğurərul-Hikəm, hədis 2992
[5] əl-Kafi, c.2, səh.45, hədis 2
[6] əl-Kafi, c.2, səh.42, hədis 1
[7] Biharul-Ənvar, c.69, səh.175, hədis 28
[8] Biharul-Ənvar, c.78, səh.63, hədis 154
[9] Ğurərul-Hikəm, hədis 4838
[10] Kənzul-Ummal, hədis 43525
[11] Tənbihul-Xəvatir, c.2, səh.33

623.İmam Əli (ə):«İmanın bir hissəsi qəlblərdə möhkəm və sabitdir. Digər bir hissəsi isə məlum zamana (ölümə) kimi qəlblərlə sinələr arasında müvəqqəti və qeyri-sabitdir.»[1]

### 182.İmanın möhkəmlənmə amilləri

624.İmam Sadiq (ə) bəndədə imanın möhkəmlənməsinə səbəb olan amillər barəsindəki sualın cavabında buyurmuşdur:«İmanı qəlbdə möhkəmləndirən pəhrizkarlıq, onu qəlbdən çıxaran isə tamah və hərislikdir.»[2]

625.İmam Sadiq (ə):«Möminin imanı ancaq əməli ilə möhkəmlənər və əməl imanın bir hissəsidir.»[3]

### 183.İmanın tamını dadmaq

626.Allahın Peyğəmbəri (s):«İmanın tamını üç şeyə malik olan şəxs dadıb: heç bir şeyi Allahdan və onun Peyğəmbərindən çox sevməyən kəs, odda yandırılmağı dinindən əl çəkməkdən daha yaxşı sayan kəs və Allaha görə dostluq və düşmənçilik edən kəs.»[4]

627.İmam Əli (ə):«Bəndə istər doğru, istərsə də zarafat ilə yalan deməyi tərk etməyincə imanın tamını dadmaz.»[5]

628.İmam Əli (ə):«Heç bir bəndə ona çatan şeyin çatmamasının qeyri-mümkünlüyünü, həmçinin ona çatmayan şeyin çatmasının qeyri-mümkünlüyünü, eləcə də xeyir və ziyanın ancaq və ancaq Allah-taalanın əlində olmasını bilməyincə imanın tamını dadmaz.»[6]

629.İmam Əli (ə):«İnsanda üç xislət olmayınca imanın tamını dadmaz: dini bilik, bəlalar qarşısında səbr və məişət işlərində düzgün proqram.»[7]

### 183.İmanın şirinliyini dadmamaq

630.Allahın Peyğəmbəri (s):«Kimin ən çox fikir və təlaşı nəfsi istəklərə çatmaq olsa imanın şirinliyi onun qəlbindən çəkilib çıxarılar.»[8]

631.İmam Sadiq (ə):«Qəlbləriniz dünyadan üz çevirməyincə onlara imanın şirinliyini dadmaq haram edilib.»[9]

### 185.İmanı aradan aparan amillər

632.Allahın Peyğəmbəri (s):«Küfrün ən azı insanın qardaşından bir söz eşidərək həmin sözü onu rüsvay etmək üçün yadında saxlamasıdır. Onların yaxşılıqda payları yoxdur.»[10]

---

[1] Nəhcül-Bəlağə, xütbə 189
[2] əl-Xisal, səh.9,hədis 29
[3] əl-Kafi, c.2, səh.38, hədis 6
[4] Kənzul-Ummal, hədis 72
[5] Biharul-Ənvar, c.72, səh.249, hədis 14
[6] əl-Kafi, c.2, səh.58, hədis 7
[7] Biharul-Ənvar, c.71, səh.85, hədis 29
[8] Tənbihul-Xəvatir, c.2, hədis 116
[9] əl-Kafi, c.2, səh.128, hədis 2
[10] Biharul-Ənvar, c.77, səh.193, hədis 11

633.İmam Sadiq (ə):«Şübhəsiz ki, bəndə hamısı bir-birinə oxşayan və məlum olan beş iş səbəbindən imandan çıxmış olur: küfr, şirk, azğınlıq, pozğunluq, böyük günahlar etmək.»[1]

### *186.İmanla bir araya sığmayan şeylər*

634.Allahın Peyğəmbəri (s):«İki xislət var ki, onlar mömində bir yerə toplaşmaz: xəsislik və ruzi barəsində pis gümanda olmaq.»[2]

635.Allahın Peyğəmbəri (s):«Mömində iki xislət olmaz: hərislik və pis xasiyyətlilik.»[3]

636.Allahın Peyğəmbəri (s):«Mömin hər bir xislətə adət edər , amma yalançılıq və xəyanətə adət etməz.»[4]

637.İmam Sadiq (ə):«Altı şey mömində olmaz: ruzisizlik (və ya xeyirsizlik), həsəd, tərslik, yalan, (başqalarının haqqına) təcavüz edərək zor işlətmək.»[5]

### *187. Möminin hörməti*

638.Allahın Peyğəmbəri (s):«Allah-taala buyurub: İzzət və cəlalıma and olsun ki, mömin bəndəmdən sevimli bir varlıq yaratmamışam.»[6]

639.Allahın Peyğəmbəri (s):«Mömin Allah dərgahında Onun ən yaxın mələklərindən də hörmətlidir.»[7]

640.İmam Sadiq (ə):«Möminin hörməti Kəbədən də artıqdır.»[8]

### *188.Möminlər bir bədən kimidirlər*

641.Allahın Peyğəmbəri (s):«Möminlər bir-birlərini sevmək, qarşılıqlı mehribançılıq və məhəbbət baxımından bir bədən kimidirlər. Onun bir üzvi ağrıyanda digər üzvləri yuxusuzluq və qızdırma bürüyər.»[9]

642.Allahın Peyğəmbəri (s):«Möminlərin qanları bərabərdir, onlar başqaları müqabilində əlbirdirlər və əgər onların ən aşağısı (düşmənə) pənah versə digərləri həmin pənaha hörmət qoyarlar.»[10]

### *189.Mömin kimdir?*

**Quran:**

«Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman imanları daha da artar, onlar ancaq öz Rəbbinə təvəkkül edərlər.* O kəslər ki, namaz qılar və verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər.* Onlar həqiqi möminlərdir. Onların öz Rəbbi

---

[1] Tuhəful-Uqul, səh.330
[2] Biharul-Ənvar, c.77, səh.171, hədis 8
[3] Biharul-Ənvar, c.77, səh.173, hədis 8
[4] Tuhəful-Uqul, səh.55
[5] Tuhəful-Uqul, səh.377
[6] Biharul-Ənvar, c.71, səh.158, hədis 75
[7] Kənzul-Ummal, hədis 821
[8] əl-Xisal, səh.27, hədis 95
[9] Musnəd İbn Hənbəl, c.6, səh.379, hədis 18408
[10] Kənzul-Ummal, hədis 402

yanında dərəcələri vardır. Onları bağışlanma və tükənməz, gözəl ruzi gözləyir.»[1]

*Həmçinin müraciət edin: Tovbə 71; Yusuf 106; Muminun 1-11; Qəsəs 52-55; Səcdə 15-19; Şura 35.39; Fəth 29; Bəyyinə 5, 7-8.*

**Hədis:**

643.Allahın Peyğəmbəri (s):«Mömin elə yumşaq və mülayimdir ki, sən onun axmaq olmasını zənn edərsən.»[2]

644.Allahın Peyğəmbəri (s):«Mömin camaatın öz mal və canını etibar etdiyi kəsdir.»[3]

645.Allahın Peyğəmbəri (s):«Mömin o kəsdir ki, nəfsi onun əlindən əziyyətdədir, camaat isə asayiş və rahatlıqda!»[4]

646.Allahın Peyğəmbəri (s):«Mömin salamı əvvəl verər, münafiq isə «gərək mənə salam versinlər» deyər.»[5]

647.Allahın Peyğəmbəri (s):«Mömin ünsiyyət qurur və onunla ünsiyyət qurulur. Ünsiyyət qurmayan və ünsiyyət qurulmayan kəsdə xeyir-bərəkət yoxdur. İnsanların ən yaxşısı camaat üçün daha xeyirli olan kəsdir.»[6]

648.Allahın Peyğəmbəri (s):«Özünün yaxşı işinə sevinən və pis işindən narahat olan kəs mömindir.»[7]

649.Allahın Peyğəmbəri (s) möminin vəsfində buyurmuşdur:«Hərəkət və rəftarları mülayim və mehribandır, görüşü şirin... Hər bir şeyin ən üstününü axtarır, xislətlərin ən dəyərlisini…Nifrət bəslədiyi kəsə zülm etmir və sevdiyi şəxsə görə günaha batmır. Xərci azdır, çox kömək və yardım edir...İşi çox yaxşı yerinə yetirir, sanki onu özü üçün görür. Gözləri aşağı baxır. Bağışlayan əli var, bir şey istəyəni boş geri qaytarmır. Sözünü ölçüb-biçir və dilini lal edir... Batili, hətta dostundan qəbul etmir və haqqı, hətta düşmənindən olsa belə inkar etmir. Elmi ancaq bilməyə görə öyrənir və biliyi yalnız əməl etməyə görə əldə edir... Dünyapərəstlərlə rəftar edəndə onların ən zirəngi, axirət axtaranlarla olanda onların ən pəhrizkarıdır.»[8]

650.İmam Əli (ə):«Möminin sevinci üzündə, kədəri qəlbindədir. Sinəsi hər şeydən genişdir (çox hövsələli və geniş ürəklidir). Nəfsi isə hər şeydən xardır. Özünü yuxarı tutmağı sevmir və şan-şöhrətə nifrət bəsləyir. Qəm-kədəri uzun, himmət və çalışqanlığı yüksəkdir... Sükutu çoxdur və vaxtı boş keçmir. Şükr edən və səbrlidir. Fikrə dalıb və (başqaları ilə) dostluğunda möhkəm olmağa hərisdir. Mülayim və mehribandır. İradəsi çaxmaq daşından da möhkəmdir, amma bununla belə quldan da həqir və xardır.»[9]

---

[1] Ənfal, ayə 2-4
[2] Kənzul-Ummal, hədis 690
[3] Kənzul-Ummal, hədis 739
[4] Kənzul-Ummal, hədis 752
[5] Kənzul-Ummal, hədis 778
[6] Kənzul-Ummal, hədis 679
[7] Kənzul-Ummal, hədis 700
[8] Biharul-Ənvar, c.67, səh.310, hədis 45
[9] Biharul-Ənvar, c.69, səh.410, hədis 127

651.İmam Əli (ə):«Mömin şadlıq və asayiş zamanı şükr edən, bəla və çətinlik zamanı səbrli , naz-nemət içində olan zaman isə qorxu içindədir.»[1]

652.İmam Əli (ə):«Mömin sadə qəlbli (hiylə-kələksiz) və alicənabdır. Öz nəfsindən arxayındır və həmişə qorxu (Allah qorxusu) və qəm içindədir.»[2]

653.İmam Əli (ə):«Mömin öz qəlbini alçaq şeylərdən təmizləmiş kəsdir.»[3]

654.İmam Əli (ə):«Mömin öz dinini dünyası ilə təmizləyn kəsdir. Günahkar o şəxsdir ki, dünyasını dini ilə qoruyur.»[4]

655.İmam Səccad (ə):«Mömin salamat olmaq üçün sükut edir və faydalanmaq üçün danışır.»[5]

656.İmam Sadiq (ə):«Mömin yaxşı və xərci-zəhməti az olan bir yardımçıdır. Yaşayışını yaxşı idarə edir və bir dəlikdən iki dəfə sancılmır.»[6]

657.İmam Sadiq (ə):«Mömin dində qüvvətli, yumşaqlıqda uzaqgörəndir. İmanı yəqinliklədir. (Dini) başa düşməyə həris, doğru yolu getməkdə şövqlüdür... İş və çətinliklərinin olmasına baxmayaraq namazını tərk etmir.»[7]

658.İmam Sadiq (ə):«Mömin o kəsdir ki, gəliri halal və pak, əxlaqı gözəl, batini sağlam və düz olsun, malının artığını (ehtiyacı olanlara) paylasın və çox danışmaqdan çəkinsin.»[8]

659.İmam Rza (ə):«Mömində üç xasiyyət olmayınca o mömin deyil: bir xüsusiyyət Allahından, bir xüsusiyyət Peyğəmbərindən (s) və bir xüsusiyyət Allahın vəlisindən (ə). Rəbbinin xüsusiyyəti sirri örtülü saxlamaq, Peyğəmbərinin (s) xüsusiyyəti xalqla mülayimlik və Allahın vəlisinin xüsusiyyəti çətinlik və sıxıntılarda səbrli olmaqdır.»[9]

### *190. Möminin möhkəmliyi*

660.İmam Baqir (ə):«Mömin dağdan da möhkəmdir. Dağdan bir şey azalar, amma möminin dinindən bir şey azalmaz.»[10]

661.İmam Sadiq (ə):«Mömin dəmir parçasından da möhkəmdir. Dəmir parçası oda qoyulanda dəyişir, amma mömin dəfələrlə öldürülsə də qəlbində dəyişiklik yaranmır.»[11]

### *191.Hər şeyin möminin qarşısında tə'zim etməsi*

662.İmam Sadiq (ə):«Mömin o kəsdir ki, hər bir şey ondan qorxur. Çünki o Allahın dinində qüdrətli və izzət sahibidir, heç nədən qorxmur və bu onun nişanəsidir.»[1]

---

[1] Ğurərul-Hikəm, hədis 1743
[2] Ğurərul-Hikəm, hədis 1901
[3] Ğurərul-Hikəm, hədis 1956
[4] Ğurərul-Hikəm, hədis 2160
[5] əl-Kafi, c.2, səh.231, hədis 3
[6] əl-Kafi,c.2, səh.241, hədis 38
[7] əl-Kafi,c.2, səh.231, hədis 4
[8] əl-Kafi, c.2, səh.235, hədis 18
[9] Tuhəful-Uqul, səh.442
[10] əl-Kafi, c.2, səh.241, hədis 37
[11] Biharul-Ənvar, c.67, səh.303, hədis 34

663.İmam Sadiq (ə):«Hər şey hətta yerin həşərat, sürünən və yırtıcıları və göyün quşları möminin qarşısında təslimdirlər.»[2]

***192.Möminlər azdırlar***

664.İmam Əli (ə):«Allah yer üzünü insanların ehtiyaclarından xəbərdar olan və nicat, qurtuluş yolunda elm öyrənən kəsdən boş qoymayıb. Əlbəttə, onların sayı azdır. Allah bunu (keçmiş) peyğəmbərlərin ümmətlərinin içində aydınlaşdırıb və onları gələcək nəsillər üçün nümunə edib. Məsələn, Nuhun qövmü barəsində: «Onunla birlikdə çox az adam iman gətirdi.»[3]

665.İmam Sadiq (ə):«Mömin qadın mömin kişidən, mömin kişi isə qırmızı kibritdən də az tapılandır. Sizlərdən hansınız qırmızı kibrit görmüsünüz?!»[4]

***193.Möminin əlamətləri***

666.İmam Səccad (ə):«Möminin beş əlaməti var: xəlvət və təklikdə olanda pəhrizkar olmaq, yoxsulluq zamanı sədəqə vermək, bəlalar müqabilində səbrlilik, qəzəblənəndə həlimlik və qorxu olmasına baxmayaraq doğruçuluq.»[5]

667.İmam Sadiq (ə) «möminin mömin olması nə ilə bilinir?» sualının cavabında buyurmuşdur:«Allah qarşısında təslim olması və düçar olduğu sevinc və kədərlə razılaşması ilə.»[6]

***194.Möminlərin ən yaxşısı***

668.İmam Əli (ə):«Möminlərin ən yaxşısı can, ailə və malını (Allah yolunda) daha çox təqdim edəndir.»[7]

669.İmam Əli (ə):«Möminlərdən o şəxsin imanı daha üstündür ki, verdiyi və aldığı, qəzəb və sevinci Allaha görədir.»[8]

***Görməyə-görməyə peyğəmbərə iman gətirənin fəziləti***

670.Allahın Peyğəmbəri (s):«Məni görən şəxsin iman gətirməsi təəccüblü deyil, bəlkə əksinə, yazılı vərəqləri görüb əvvəlindən axırına kimi ona iman gətirənlərin iman gətirmələri təəccüblüdür.»[9]

671. Allahın Peyğəmbəri(s):« Qardaşlarımı nə vaxt görəcəyəm?» Soruşdular:«Məgər biz sizin qardaşlarınız deyilik?» Buyurdu:«Siz mənim səhabələrimsiniz, mənim qardaşlarım mənə görmədən iman gətirən kəslərdir. Onları görmək şövqündəyəm.»[10]

---

[1] Biharul-Ənvar, c.67, səh.305, hədis 36
[2] Biharul-Ənvar, c.67, səh.71, hədis 33
[3] Nurus-Səqəleyn, c.2, səh.358, hədis 90
[4] əl-Kafi, c.2, səh.242, hədis 1
[5] Biharul-Ənvar, c.67, səh.293, hədis 15
[6] Biharul-Ənvar, c.72, səh.336, hədis 24
[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid,c.18, səh.41
[8] Ğurərul-Hikəm, hədis 3278
[9] Kənzul-Ummal, hədis 34582
[10] Kənzul-Ummal, hədis 34583

## 32

# Əmanətdarlıq

***196.Əmanətdarlıq***

**Quran:**

«O kəslər ki, əmanətlərinə və əhdlərinə əməl edirlər.»[1]

**Hədis:**

672.İmam Əli (ə):«İmanın ən üstünü əmanətdarlıq, ən pis xislət isə xəyanətkarlıqdır.»[2]

673.İmam Baqir (ə):«Üç şey var ki, Allah onlar barəsində heç kəsə istədiyi kimi davranmaq icazəsi verməyib: əmanəti yaxşı və pis əməl sahibi olmasından asılı olmayaraq sahibinə qaytarmaq, həm yaxşı və həm də pis əməl sahibi ilə olan əhd-peymana vəfalı olmaq, yaxşı və pis əməl sahibi olmasından asılı olmayaraq ata-anaya yaxşılıq etmək.»[3]

674.İmam Sadiq (ə):«Əmanətdarlıq zənginlikdir.»[4]

***197.Əmanəti hər halda qaytarmaq vacibdir***

675.İmam Əli (ə):«Sənə etibar edib əmanət tapşıran şəxsə xəyanət etmə, hətta o sənə xəyanət etmiş olsa belə.Onun sirrini faş etmə, hətta əgər o sənin sirrini faş etmiş olsa belə.»[5]

676.İmam Sadiq (ə):«Allahdan qorxun və əmanəti sizə etibar edən şəxsə qaytarın. Hətta Əmirəl-mömininin (ə) qatili mənə bir əmanət tapşırsa əmanəti mütləq ona qaytararam.»[6]

677.İmam Sadiq (ə):«Əmanəti (sahibinə) qaytarın, hətta Hüseyn ibn Əlinin (ə) qatili olsa belə.»[7]

***198.Əmanətdar olmayanın imanı yoxdur***

678.Allahın Peyğəmbəri (s):«Əmanətdar olmayanın imanı yoxdur.»[8]

---

[1] Muminun, ayə 8
[2] Ğurərul-Hikəm, hədis 2905+2906
[3] əl-Kafi, c.2, səh.162, hədis 15
[4] Tənbihul-Xəvatir, c.1, səh.12
[5] Biharul-Ənvar, c.77, səh.208, hədis 1
[6] Əmali-Səduq, səh.204, hədis 5
[7] Əmali-Səduq, səh.204, hədis4
[8] Biharul-Ənvar, c.72, səh.198, hədis 26

679.Allahın Peyğəmbəri (s):«Əmanəti əhəmiyyətsiz sayaraq bu səbəbdən onu zay edən kəs bizdən deyil.»[1]

***199.Əmanətin nəticələri***

680.Loğman (ə):«Oğlum! əmanəti (sahibinə) qaytar ki, dünya və axirətin salamat olsun. Əmanətdar ol ki, zəngin olasan.»[2]

681.Allahın Peyğəmbəri (s):«Əmanətdarlıq zənginlik gətirir, (əmanətə) xəyanət yoxsulluq.»[3]

682.İmam Əli (ə):«Əmanətdarlıq güclənən zaman düzlük artar.»[4]

***200.Əmanət tapşırılmamalı kəslər***

683.Allahın Peyğəmbəri (s):«Allah e'tibarsız şəxsə əmanət tapşıran kəsin zamini deyil. Çünki Allah insanı e'tibarsız şəxsə əmanət tapşırmaqdan çəkindirib.»[5]

684.İmam Baqir (ə):«E'tibarlı və əmanətdar adam sənə xəyanət etməyib, bəlkə sən xainə əmanət tapşırmısan.»[6]

685.İmam Sadiq (ə):«Mənim üçün xainə əmanət tapşırmaqla əmanəti qorumayıb zay edən kəsə əmanət tapşırmaq arasında heç bir fərq yoxdur.»[7]

ιoooooπ

---

[1] Biharul-Ənvar, c.75, səh.172, hədis 13
[2] Məani-Əxbar, səh.253, hədis 1
[3] Biharul-Ənvar, c.75, səh.114, hədis 6
[4] Ğurərul-Hikəm, hədis 4053
[5] Biharul-Ənvar, c.103, səh.179, hədis 3
[6] ət-Təhzib, c.7, səh.232, hədis 1013
[7] əl-Kafi, c.5, səh.301, hədis 4

**33**

# Sığınacaq vermək

***201.Sığınacaq***

686.Allahın Peyğəmbəri (s):«Səndən öz canı üçün pənah və sığınacaq istəyəni öldürmə.»[1]

687.Allahın Peyğəmbəri (s):«Mən birinin canına pənah və sığınacaq verib sonra onu öldürən kəsdən uzaq və bizaram, hətta əgər öldürülən kafir olsa belə.»[2]

***202.Əhd-peymana vəfa etmək***

688.İmam Əli (ə):«Əhd-peymanların mıxlarını möhkəm edin.»[3]

689.İmam Əli (ə) Malik Əştərlə olan əhdnaməsində buyurmuşdur:«Əgər düşməninlə əhd-peyman bağlasan və ya ona pənah və aman libası geydirsən, əhdinə vəfa et və verdiyin pənah ilə peymanına riayət et, özünü verdiyin pənah və sığınacağa sipər et. Çünki insanlar ziddiyyətli istəklər və fikir ayrılığına malik olmalarına baxmayaraq, Allahın vacib buyurduqları içərisində əhdə vəfalı olmağı uca tutmaq kimi heç nə barəsində tam yekdil deyildirlər.»[4]

***203.Əhd-peyman və pənahlara hörmətlə yanaşmaq***

690.Allahın Peyğəmbəri (s):«Mənim ümmətimin ən aşağı məqam sahibi onların hamısı tərəfindən pənah və sığınacaq verə bilər.»[5]

691.Allahın Peyğəmbəri (s):«Müsəlmanlar qardaşdırlar, qanları bərabərdir, onların ən aşağı məqama malik olanı pənah verə bilər. Onlar yadlar qarşısında əlbir və müttəfiqdirlər.»[6]

ıooooooπ

---

[1] Kənzul-Ummal, hədis 10909
[2] Kənzul-Ummal, hədis 10930
[3] Nəhcül-Bəlağə, hikmət 155
[4] Nəhcül-Bəlağə, məktub 53
[5] Kənzul-Ummal, hədis 10932
[6] Biharul-Ənvar, c.100, səh.46, hədis 6

# 34

# Ünsiyyət

***204.Ünsiyyət***

692.İmam Əli (ə):«Haqdan başqa heç nə ilə ünsiyyətdə olub isinişmə və batildən başqa heç nədən üz döndərmə.»[1]

693.İmam Sadiq (ə):«Üç şey ünsiyyət və həmdəmlik amilidir: ailəsi ilə yola gedən arvad, saleh övlad və səmimi dost.»[2]

694.İmam Rza (ə):«Çox ünsiyyətdə olmaq heybət və əzəməti aradan aparar.»[3]

***205. Allahla ünsiyyətdə olmaq***

695.Allahın Peyğəmbəri (s):«Kim günah xarlığından itaət başucalığı ilə çıxsa, Allah yoldaş və həmdəmsiz onun həmdəmi olar və mal və sərvətsiz ona kömək edər.»[4]

696.İmam Əli (ə):« Kim camaatdan uzaqlaşsa, Allah ilə ünsiyyət tapar.»[5]

697.İmam Sadiq (ə):«Allah hər bir mömünin imanını onun həmdəm və qəlb rahatlığı (amili) edər.Belə ki, əgər dağın zirvəsində olsa, təklik hiss etməsin.»[6]

698.İmam Əskəri (ə):«Allahla ünsiyyətdə olan kəs camaatla həmdəm olmaz.»[7]

ιoooooπ

---

[1] Ğurərul-Hikəm, hədis 10303
[2] Biharul-Ənvar, c.78, səh.231, hədis 25
[3] Ə'lamud-Din, səh.307
[4] Biharul-Ənvar, c.75, səh.359, hədis 74
[5] Ğurərul-Hikəm, hədis 8644
[6] Biharul-Ənvar, c.70, səh.111, hədis 14
[7] əd-Dürrə əl-Bahirə, səh. 43

## 35

# İnsan

***206.İnsanın kəramət və əzəməti***

**Quran:**

«Biz, Adəm övladını şərəfli və hörmətli etdik, onları quruda və suda (münasib miniklərə) mindirdik, onlara gözəl və pak şeylərdən ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan üstün etdik.»[1]

**Hədis:**

699.Allahın Peyğəmbəri (s):«Allah yanında heç nə Adəm övladından hörmətli deyil.» Soruşdular:«Ey Allahın Peyğəmbəri, hətta mələklər?» Buyurdu:«Mələklər günəş və ay kimi məcburdurlar.»[2]

700.Allahın Peyğəmbəri (s):«İnsandan başqa heç nə öz tayından min dəfə üstün deyil.»[3]

701.İmam Sadiq (ə) Abdullah ibn Sənanın «mələklər üstündür yoxsa insan?» sualının cavabında buyurmuşdur: Əmirəl-möminin Əli ibn əbu Talib (ə) buyurmuşdur:«Allah mələklərdə ağıl qoyub, nəfsi istəklər qoymayıb, heyvanlarda nəfsi istəklər qoyub ağıl qoymayıb. Adəm övladında isə onların hər ikisini qoyub. Odur ki, ağlı nəfsi istəklərinə qalib gələn kəs mələklərdən də yaxşıdır, nəfsi istəkləri ağlına qalib gələn kəs isə heyvanlardan da pisdir.»[4]

***207.İnsanın yaranmasının fəlsəfəsi***

**Quran:**

«Mən cinləri və insanları Mənə ibadət etmələrindən başqa bir şey üçün yaratmamışam.»[5]

«Əgər Rəbbin istəsəydi bütün insanları tək bir ümmət edərdi. Lakin onlar Rəbbinin rəhm etdiyi və bunun üçün yaratdığı kəslər istisna olmaqla, həmişə müxtəlif olacaqlar.»[6]

**Hədis:**

702.İmam Əli (ə):«Allahdan qorxmağa əmr edilmisiniz və (Allaha) itaət etmək üçün yaradılmısınız.»[7]

---

[1] İsra, ayə 70
[2] Kənzul-Ummal, hədis 34621
[3] Kənzul-Ummal, hədis 34615
[4] Biharul-Ənvar, c.60, səh. 299, hədis 5
[5] Zariyat, ayə 56
[6] Hud, ayə 118, 119
[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.3, səh.108

703.İmam Hüseyn (ə):«Camaat! Allah-taala bəndələri yaratmışdır ki, Onu tanısınlar, Onu tanıyandan sonra Ona ibadət etsinlər və Ona ibadət etdikdən sonra başqasına ibadət etməyə ehtiyacları olmasın.» Bir nəfər dedi:«Ey Allahın Peyğəmbərinin oğlu! Atam-anam sənə fəda olsun, Allahı tanımaq nədir?» Buyurdu:«(Allahı) tanımaq hər bir zəmanənin insanlarının itaəti vacib olan öz imamını tanımasıdır.»[1]

704.İmam Sadiq (ə) dinsiz bir şəxsin «Allah yaratdıqlarına ehtiyacı olmaya-olmaya, onları yaratmağa məcbur olmadığı, bizi oyuncaq etmək Ona yaraşmadığı halda məxluqatı nə üçün yaratdı?» sualının cavabında buyurmuşdur:«O, məxluqatı öz hikmətini göstərmək, öz elmini yerinə yetirmək və öz tədbirini (həyata) keçirmək üçün yaratdı.»[2]

705.İmam Sadiq (ə) «Onlar hələ də ixtilafdadırlar, Rəbbinin mərhəmət etdiyi kəslər istisnadır. Onları bunun üçün yaratmışdır» ayəsinin təfsirində buyurmuşdur:«Allah onları yaratdı ki, Onun rəhm və mərhəmətinə səbəb olan iş görsünlər və onlara rəhm etsin.»[3]

### *208.İnsanın zəif və acizliyi*

**Quran:**

«İnsan zəif yaradılmışdır.»[4]

**Hədis:**

706.İmam Əli (ə):«Yazıq Adəm övladı! Əcəli məxfi, xəstəliyi gizli, əməlləri isə yazılıb. Ağcaqanad incidir, boğazda qalan qurtum onu əldən salır və tər onu iyləndirir!»[5]

### *209.İnsanlıq meyarı*

707.İmam Əli (ə):«İnsan(ın dəyəri) onun iki kiçik üzvü – qəlb və dili ilədir. Vuruşanda qəlbi ilə vuruşsun və danışanda aydın və yetərli danışsın.»[6]

ɩooooooπ

---

[1] Biharul-Ənvar, c.23, səh.83, hədis 22
[2] Biharul-Ənvar, c.10, səh.167, hədis 2
[3] Nurus-Səqəleyn, c.2, səh.404, hədis 250
[4] Nisa, ayə 28
[5] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid,c.20, səh.62
[6] Ğurərul-Hikəm, hədis 2089

**36**

# Xəsislik

***210.Xəsislik***

**Quran:**

«O kəslər ki, özləri xəsislik edir, başqalarını da xəsisliyə əmr edirlər və Allahın öz lütfündən onlara bəxş etdiyi nemətləri gizlədirlər. Biz kafirlər üçün alçaldıcı əzab hazırlamışıq.»[1]

«Bilin, sizi (malınızı) Allah yolunda sərf etməyə də'vət edirlər. Sizdən Bəziləri xəsislik edirlər. Kim xəsislik etsə, özünə xəsislik edib. Çünki Allah ehtiyacsız, siz isə möhtaclarsınız. Əgər üz döndərsəniz O, sizin yerinizə əsla sizin kimi olmayan bir qövm gətirər.»[2]

*Həmçinin müraciət edin: Nisa 53; İsra 100; Hədid 24; Qələm 12.*

**Hədis*:***

708.İmam Əli (ə):«Xəsislik bütün nöqsanların pis cəhətlərini əhatə edib və o, (xəsis şəxsi) hər bir pisliyə tərəf çəkən bir cilovdur.»[3]

709.İmam Əli (ə):«Xəsislik ardır.»[4]

710.İmam Əli (ə):«Xəsislik yoxsulluq kürküdür.»[5]

711.İmam Əli (ə):«Əlində olana xəsislik etmək Tanrı barəsində bədgümanlıqdır.»[6]

712. İmam Əli (ə):«Malında xəsislik edən kəs xar, dinində xəsislik edən kəs isə başıuca olar.»[7]

713.İmam Həsən (ə) atasının ondan «paxıllıq» barəsindəki sualının cavabında buyurmuşdur:«Paxıllıq – əlində olanı şərəf amili sanmaq, (Allah yolunda) xərclənəni isə tələf olub bada getmiş güman etməkdir.»[8]

714.İmam Sadiq (ə):«Paxıl Allahın haqqını verməyən və (malını) Allah-taalanın yolundan başqa yolda xərcləyəndir.»[9]

715.İmam Sadiq (ə):«Paxıllıq xəsislikdən daha pisdir. Çünki xəsis öz əlində olana xəsislik edir. Paxıl isə həm başqalarının əlində olana və həm də öz malına

---

[1] Nisa, ayə 37
[2] Muhəmməd, ayə 38
[3] Biharul-Ənvar, c.73, səh.307, hədis 36
[4] Nəhcül-Bəlağə, hikmət3
[5] Biharul-Ənvar, c.77, səh.238, hədis 1
[6] Ğurərul-Hikəm, hədis 1258
[7] Ğurərul-Hikəm, hədis 7921,7922
[8] Biharul-Ənvar, c.73, səh.305, hədis 23
[9] Biharul-Ənvar, c.73, səh.305, hədis25

xəsislik edir. O yerə kimi ki, camaatın əlində gördüyü hər bir şeyin halal və ya haram yolla onun olmasını arzulayır. Allahın onun ruzisi etdiyindən nə doyur və nə də bəhrələnir.»[1]

716.İmam Rza (ə):«Xəsislik abrı bada verir.»[2]

717.İmam Hadi (ə):«Xəsislik ən məzəmmət olunmuş xislətdir.»[3]

### *211.Xəsis*

718.Allahın Peyğəmbəri (s):«İnsanların içərisində ən az rahatlığı olanı xəsisdir.»[4]

719.İmam Əli (ə):«Xəsis öz varislərinin xəzinədarıdır.»[5]

720.İmam Əli (ə):«Xəsislik öz yoldaşını xar, ondan uzaqlaşanı isə möhtərəm edir.»[6]

721.İmam Əli (ə):«Xəsisin heç bir dostu olmaz.»[7]

722.İmam Əli (ə):«Xəsisə təəccüb edirəm ki, ondan qaçan yoxsulluğu özünə tərəf çəkir və axtardığı zənginlik və sərvəti əldən çıxarır. O, dünyada yoxsullar kimi yaşayır, axirətdə isə onunla zənginlər kimi hesab çəkiləcəkdir.»[8]

723. İmam Əli (ə):«Sənin xəsis adama ehtiyacın buzdan[9] da soyuqdur.»[10]

724.İmam Sadiq (ə):«Xəsislər camaatın zəngin olmasını hamıdan çox arzulasınlar. Çünki camaat zənginləşsə xəsislərin var-dövlətindən gözlərini çəkəcəklər.»[11]

725.İmam Sadiq (ə):«Xəsisin xəsis olmasına onun öz Allahına qarşı pis gümanda olması kifayətdir. Əvəz veriləcəyinə yəqinliyi olan şəxs bol-bol bağışlayar.»[12]

### *212.Həqiqi xəsis*

726.Allahın Peyğəmbəri (s):«Əsl xəsis öz malının vacib olan zəkatını ödəməkdən boyun qaçıran, qohum əqrəbasına bəxşiş etməyən və bundan başqa yerlərdə bol-bol xərcləyən şəxsdir.»[13]

727.Allahın Peyğəmbəri (s):«Əsl xəsis o şəxsdir ki, onun yanında mənim adım çəkilir, amma o, mənə salavat göndərmir.»[14]

---

[1] Tuhəful-Uqul, səh.371-372
[2] Biharul-Ənvar, c.78, səh.357, hədis12
[3] Biharul-Ənvar, c.72, səh.199, hədis 27
[4] Biharul-Ənvar, c.73, səh.300, hədis 2
[5] Ğurərul-Hikəm, hədis 464
[6] Ğurərul-Hikəm, hədis 1409
[7] Ğurərul-Hikəm, hədis 7473
[8] Biharul-Ənvar, c.72, səh.199, hədis 28
[9] hədisin əslində «zəmhərir» kəlməsindən istifadə edilib ki, onun mənası «çox soyuq» kimi ifadə edilir-
[10] Biharul-Ənvar, c.78, səh.31, hədis 99
[11] Əmali-Səduq, səh.316, hədis 8
[12] Biharul-Ənvar, c.73, səh.307, hədis 35
[13] Məani əl-Əxbar, səh.245, hədis 4
[14] Biharul-Ənvar, c.73, səh.306, hədis 28

***213.İnsanların ən xəsisi….***

728.Allahın Peyğəmbəri (s):«İnsanların ən xəsisi Allahın vacib etdiyini ödəməyə xəsislik edən kəsdir.»[1]

729.Allahın Peyğəmbəri (s):«İnsanların ən xəsisi salam verməkdə xəsislik edən kəsdir.»[2]

730.İmam Əli (ə):«İnsanların ən xəsisi öz malını özünə əsirgəyən və varisləri üçün qoyub gedən kəsdir.»[3]

731.İmam Əli (ə):«Camaatın əlində olandan gözünü çəkmək bağışlamaqdan üstündür.»[4]

732.İmam Sadiq (ə):«Əmirəl-möminin (ə) bir kişiyə beş dəvə yükü xurma göndərdi......Bir nəfər Əmirəl-mömininə (ə) dedi:«Vallah filankəs səndən (bu qədər) istəməyib, beş dəvə yükünün əvəzinə ona bir dəvə yükü bəsdir.» Əmirəl-möminin (ə) ona dedi:«Allah möminlərin arasında sənin kimilərini çoxaltmasın! Mən bağışlayıram, sən xəsislik edirsən?»[5]

***214.Xəsisliyin nişanəsi***

733.İmam Əli (ə):«Bəhanə gətirmək xəsisliyn nişanəsidir.»[6]

734.İmam Əli (ə):«Xəsis üzr və bəhanə gətirməyə can atar.»[7]

ιοοοοοπ

---

[1] Biharul-Ənvar, c.73, səh.300, hədis 2
[2] Biharul-Ənvar, c.76, səh.4, hədis 11
[3] Ğurərul-Hikəm, hədis 3253
[4] Ğurərul-Hikəm, hədis 3537
[5] Vəsailuş-Şiə, c.6, səh.318, hədis 1
[6] Biharul-Ənvar, c.77, səh.209, hədis 1
[7] Ğurərul-Hikəm, hədis 1275

**37**

# Bid’ət

***215.Bid’ət qoymaq***

735.Allahın Peyğəmbəri (s):«Ən pis iş yeni ortaya çıxan və əvvəlcə misli görünməmiş işdir. Bilin! Hər bir bid’ət azğınlıqdır. Bilin! Hər bir azğınlığın sonu oddur.»[1]

736.Allahın Peyğəmbəri (s):«Məbada bid’ət bir sünnə yaradasan. Çünki əgər bəndə pis bir sünnə və adətin təməlini qoysa, onun günahı və ona əməl edənin günahı onun boynunadır.»[2]

737.İmam Əli (ə):«Qoyulan hər bir bid’ətə görə bir sünnə tərk edildi. Bid’ətlərdən çəkinin və aydın yolu tutun! Ən yaxşı iş keçmişi olan işdir. Onların ən pisi isə yeni yaranan və keçmişi olmayandır.»[3]

738.İmam Əli (ə):«Bid’ətlər kimi heç nə dini viran və məhv etməyib.»[4]

***216.Bid’ət qoyanlar***

739.Allahın Peyğəmbəri (s):«Bid’ət qoyanlar insanların və yaradılmışların ən pisidir.»[5]

740.Allahın Peyğəmbəri (s):«Bid’ət qoyanlar od əhlinin itləridir.»[6]

***217.Bid’ətin mənası***

741.İmam Əli (ə):«Bid’ət qoyanlar Allahın əmri, Onun Kitabı və Peyğəmbəri ilə müxalifət edərək öz rə‘y və nəfsi istəkləri əsasında əməl edənlərdir, hərçənd ki, bələlərinin sayı çoxdur.»[7]

742.İmam Sadiq (ə):«Aralarında daha savadlı və alim ola-ola camaatı özünə tərəf çağıran kəs azğın bid’ətçidir.»[8]

***218.Bid’ət qoyandan üz döndərmək***

743.Allahın Peyğəmbəri (s):«Kim nifrət və ədavətlə bid’ət qoyandan üz döndərsə Allah onun qəlbini rahatlıq və imanla doldurar.»[1]

---

[1] Əmali-Mufid, səh.188, hədis 14
[2] Biharul-Ənvar, c.77, səh.104, hədis 1
[3] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9, səh.93
[4] Biharul-Ənvar, c.78, səh.92, hədis 98
[5] Kənzul-Ummal, hədis 1095, 1126
[6] Kənzul-Ummal, hədis1125
[7] Kənzul-Ummal, hədis44216
[8] Tuhəful-Uqul, səh.375

744.Allahın Peyğəmbəri (s):«Bidət qoyan şəxsin üzünə təbəssüm edən kəs öz dininin məhv edilməsinə kömək edib.»[2]

***219.Bid'ət qoyan və ibadət***

745.Allahın Peyğəmbəri (s):«Şeytan bid'ətə əməl edən şəxsi ibadətlə tək qoyar və ona itaətkarlıq hissi və göz yaşları verər.»[3]

***220.Bid'ət qoyanların əməllərinin batil olması***

746.Allahın Peyğəmbəri (s):«Sünnəyə əsaslanan az əməl bid'ətlə olan çox əməldən daha yaxşıdır.»[4]

747.Allahın Peyğəmbəri (s):«Allah bid'ət qoyanın tövbəsini qəbul etməz.»[5]

***221.Bid'ət yaranan zaman alimlərin vəzifəsi***

748.Allahın Peyğəmbəri (s):«Ümmətimin arasında bid'ətlər yaranan zaman alim öz elmini üzə çıxarmalıdır. Kim belə etməsə, Allahın Lənəti olsun ona!»[6]

---

[1] Kənzul-Ummal, hədis 5599
[2] Biharul-Ənvar, c.47, səh.217, hədis 4
[3] Biharul-Ənvar, c.72, səh.216, hədis 8
[4] Əmali-Tusi, səh.385, hədis 838
[5] Biharul-Ənvar, c.72, səh.216, hədis 8
[6] əl-Kafi, c.1, səh.54, hədis 2

**38**

# İsrafçılıq

***222.İsrafçılıq***

**Quran:**

«Qohum-əqrəba, yoxsul və müsafirlərin haqqını ver və heç cür israf etmə! Həqiqətən israfçılar şeytanlarla qardaşdırlar və şeytan Rəbbinə qarşı nankor idi.»[1]

**Hədis:**

749.İmam Əli (ə):«Səxavətli ol, amma israfçı olma; qənaətçi ol, amma bərk olma!»[2]

750.İmam Əli (ə):«İsrafçılıq yoxsulluğun başlanğıcıdır.»[3]

751.İmam Əli (ə):«İsrafçılıq müflisliklə yoldaşdır.»[4]

752.İmam Əli (ə):«İsrafçılıqla öyünən kəs yoxsulluqla xar olar.»[5]

753.İmam Sadiq (ə) «israfçılıq etmə» ayəsi barəsində buyurmuşdur:«Allahın itaətindən qeyri yolda bir şey xərcləyən kəs israfçı, xeyir və yaxşı yolda xərcləyən isə qənaətçidir.»[6]

754.İmam Sadiq (ə) əbu Bəsirin «israfçılıq etmə» ayəsi barəsindəki sualının cavabında buyurmuşdur:«İnsan öz malını tələf edir və əliboş qalır.» əbu Bəsir dedi:«Deməli halal malda da israfçılıq ola bilər?» İmam (ə) buyurdu:«Bəli.»[7]

ιooooooπ

---

[1] İsra, ayə 26, 27
[2] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.18, səh.150
[3] Ğurərul-Hikəm, hədis 890
[4] Ğurərul-Hikəm, hədis 1043
[5] Ğurərul-Hikəm, hədis 9057
[6] Təfsir əl-Əyyaşi, c.2, səh.288, hədis 53
[7] Təfsir əl-Əyyaşi, c.2, səh.288, hədis54

# 39

# Yaxşılıq

***223.*****Yaxşılıq**

**Qur'an*:***

«Yaxşılıq və pəhrizkarlıqda əlbir olun, günah və təcavüzkarlıqda köməkləşməyin və Allahdan qorxun. O, ağır cəza verəndir.»[1]

**Hədis:**

755.Allahın Peyğəmbəri (s):«Ömrü yalnız yaxşılıq artırar.»[2]

756.Allahın Peyğəmbəri (s):«Yaxşılığın mükafatı digər yaxşı işlərin hamısından tez çatır və zülm və başqalarına qarşı həddi aşmağın cəzası (insanı) digər pis işlərdən daha tez yaxalayır.»[3]

757.Allahın Peyğəmbəri (s):«Üç şey – qəlbin səxavətliliyi, danışığın gözəlliyi və əziyyətlər müqabilində səbrlilik yaxşılığın qapılarındandır.»[4]

758.İmam Baqir (ə):«Dörd şey yaxşılığın xəzinələrindəndir: Ehtiyacı gizli saxlamaq, sədəqəni gizli vermək, ağrını gizlətmək və müsibəti gizlətmək.»[5]

***224.Yaxşılığın nişanəsi***

759.Allahın Peyğəmbəri (s):«Yaxşılıq edənin on nişanəsi var: O, Allaha görə sevər, Allaha görə düşmənçilik edər, Allaha görə yoldaş olar, Allaha görə ayrılar, Allaha görə qəzəblənər, Allaha görə razı və məmnun olar, Allaha görə iş görər. Allahı axtarar, Allahın qarşısında itaətkar, qorxan, çəkinən, pak, səmimi, həyalı və özünə nəzarət edən olar və Allaha görə ehsan və yaxşılıq edər.»[6]

***225.Kamil yaxşılıq***

760.Allahın Peyğəmbəri (s):«Əsl yaxşılıq odur ki, gizlində də aşkarda gördüyün işi görəsən.»[7]

ιooooooπ

---

[1] Maidə, ayə 2
[2] Biharul-Ənvar, c.77, səh.166, hədis 3
[3] əl-Xisal, səh.110, hədis 81
[4] Tuhəful-Uqul, səh.8
[5] Tuhəful-Uqul, səh.295
[6] Tuhəful-Uqul, səh.21
[7] Kənzul-Ummal, hədis 5265

## 40

# Bərzəx

***226.Bərzəx***

«Onların arxalarında dirilib duracaqları günə (Qiyamətə) kimi Bərzəx vardır.»[1]

*Həmçinin müraciət et: Ali-İmran 169-171; Mu'minun 99; Ğafir 11.*

**Hədis:**

761.İmam Sadiq (ə):«Vallah, sizin üçün Bərzəxdən qorxuram.» (Ravi deyir:) Dedim:«Bərzəx nədir?» Buyurdu:«Qəbir – ölümdən Qiyamətə kimi!»[2]

***227.Möminlərin rühları Bərzəxdə***

**Quran:**

«Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzi yeyirlər.»[3]

762.İmam Sadiq (ə):«Möminlərin ruhları Cənnətdə otaqlardadırlar. Oranın yeməklərindən yeyir, içməlilərindən içirlər. Bir-birilərinin görüşünə gedir və «Pərvərdigara! Bizə vəd etdiklərini həyata keçirmək üçün Qiyaməti bərqərar et!» deyirlər.»[4]

***228.Kafirlərin ruhları Bərzəxdə***

763.İmam Sadiq (ə):«Kafirlərin ruhları Cəhənnəm odunun içindədir. Onları odun qarşısına gətirərlər və onlar «Pərvərdigara! Qiyaməti bərqərar etmə, bizə vəd etdiklərini həyata keçirmə və bizim birincimizi sonuncumuza yoldaş etmə!» deyərlər.»[5]

ιoooooοπ

---

[1] Mu'minun, ayə 100
[2] Nurus-Səqəleyn, c.3, səh.554, hədis 124
[3] Ali-İmran, ayə 169
[4] əl-Məhasin, c.1, səh.285, hədis 562
[5] Biharul-Ənvar, c.6, səh.270, hədis 127

## 41

# Bərəkət

***229.Bərəkət***

**Quran:**

«O, harada oluramsa olum, məni bərəkətli edib və mənə nə qədər ki, diriyəm namaz qılmağı və zəkatı tövsiyə edib.»[1]

**Hədis:**

764.İmam Sadiq (ə) «O, harda oluramsa olum, məni bərəkətli edib» ayəsinin təfsirində buyurmuşdur:« (Bərəkətlidən məqsəd) çox xeyir və fayda verəndir.»[2]

***230.Bərəkət gətirən və bərəkəti aradan aparan şeylər***

**Quran:**

«Əgər o məmləkətlərin əhalisi iman gətirib təqvalı olsaydılar, göyün və yerin bərəkətlərini üzlərinə açardıq. Lakin onlar peyğəmbərləri təkzib etdilər. Biz də əməllərinin cəzası olaraq onları yaxaladıq.»[3]

**Hədis:**

765.Allahın Peyğəmbəri (s):«Yeməklərinizi ölçün, çəkin! Həqiqətən bərəkət (ağırlığı) çəkilmiş yeməkdədir.»[4]

766.Allahın Peyğəmbəri (s):«Bərəkət on hissədir. Onun doqquz hissəsi ticarətdə, bir hissəsi isə heyvandarlıqdadır.»[5]

767.Allahın Peyğəmbəri (s):«Dörd şey var ki, onlardan hansı biri evə daxil olsa onu viran edər və bərəkətlə abadlaşmaz: Xəyanət, oğurluq, şərab içmək və zina.»[6]

768. İmam Əli (ə):«Ədalətlə bərəkətlər qat-qat artır.»[7]

769.İmam Əli (ə):«Cinayətlər aşkar şəkildə ediləndə bərəkətlər aradan gedər.»[8]

---

[1] Məryəm, ayə 31
[2] əl-Kafi, c.2, səh.165, hədis 11
[3] Ə’raf, ayə 96
[4] Kənzul-Ummal, hədis 9434
[5] Biharul-Ənvar, c.103, səh.5, hədis 13
[6] Biharul-Ənvar, c.79, səh.19, hədis 4
[7] Ğurərul-Hikəm, hədis 4211
[8] Ğurərul-Hikəm, hədis 4030

1000000π

**42**

# Güləruzlülük

***231. Gülərüzlülük***

770.Allahın Peyğəmbəri (s):«Gülərüzlülük kini təmizləyir.»[1]

771.Allahın Peyğəmbəri (s):«Qardaşınla gülərüz görüş.»[2]

772.Allahın Peyğəmbəri (s):«Siz heç vaxt insanların hamısına öz malınızla fayda verə bilməzsiniz. Buna görə də onlarla (heç olmasa) açıq və gülər üzlə görüşün.»[3]

773.İmam Əli (ə):«Gülərüzlülük dostluq kəməndidir.»[4]

774.İmam Əli (ə):«Gülərüzlülük azad insanın xislətidir.»[5]

775.İmam Əli (ə):«Gülərüzlülük məhəbbət kəndiridir.»[6]

776.İmam Əli (ə):«Möminin sevinci üzündə, qüdrəti dinində, kədəri qəlbindədir.»[7]

777.İmam Əli (ə):«Gülərüzlülüyün sənin alicənablığın və nəfsinin kəramətinin nişanəsidir.»[8]

778.İmam Əli (ə):«Qardaşlarınızla görüşən zaman bir-birinizə əl verin, onlara gülərüzlülük və təbəssüm göstərin ki, ayrılarkən günahlarınız tökülsün.»[9]

779.İmam Əli (ə):«İnsanların, dostlarının ürəklərini ələ almaları və düşmənlərinin qəlbindən kinləri təmizləmək üçün ən yaxşı vasitə onlarla qarşılaşanda gülərüzlü olmaları, yanlarında olmayanda halları ilə maraqlanmaları və yanlarında olanda təbəssüm etmələridir.»[10]

---

[1] əl-Kafi, c.2, səh.103, hədis 6
[2] əl-Kafi, c.2, səh.103, hədis3
[3] əl-Kafi, c.2, səh.103, hədis1
[4] Biharul-Ənvar, c.69, səh.409, hədis 12
[5] Ğurərul-Hikəm, hədis 656
[6] Ğurərul-Hikəm, hədis 5546
[7] Ğurərul-Hikəm, hədis 3454
[8] Ğurərul-Hikəm, hədis 4453
[9] Biharul-Ənvar, c.76, səh.20, hədis 3
[10] Biharul-Ənvar, c.78, səh.57, hədis 124

43

# Bəsirət

***232. Bəsirət***

**Quran:**

«Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvanlar kimi, hətta onlardan da azğındırlar. Onlar həmin qafillərdir.»[1]

780.Allahın Peyğəmbəri (s):«Kor, gözü görməyən deyil, (həqiqi) kor–bəsirət gözü kor olandır.»[2]

781.İmam Əli (ə):«Bəsirət gözü kor olan zaman gözün baxmasının faydası yoxdur.»[3]

782.İmam Əli (ə):«Bəsirətli eşidərək düşünən, baxaraq görən, ibrətlərdən bəhrələnən, sonra aydın yolları qət edən və beləliklə uçurumlara düşməkdən çəkinən şəxsdir.»[4]

783.İmam Əli (ə):«Görmək baxmaqla deyil. Çünki gözlər bə‘zən sahiblərini aldadırlar. Lakin ağıl ondan nəsihət istəyəni aldatmır.»[5]

784.İmam Əli (ə):«Gözü itirmək bəsirəti itirməkdən asandır.»[6]

785.İmam Əli (ə):«İnsanların ən bəsirətlisi öz eyblərini görən və öz günahlarından əl çəkən şəxsdir.»[7]

ιooooooπ

[1] Ə'raf, ayə 179
[2] Kənzul-Ummal, hədis 1220
[3] Ğurərul-Hikəm, hədis 9972
[4] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9 səh.158
[5] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.19 səh.173
[6] Ğurərul-Hikəm, hədis 6536
[7] Ğurərul-Hikəm, hədis 3061

## 44

# Batil

***233.Batil***

**Quran:**

«Haqq gəldi və batil yox oldu. Həqiqətən batil yoxluğa məhkumdur.»[1]

«Xeyr, Biz haqqı batilin üzərinə salarıq, beləliklə onu yox edər və batil məhv olar. Vəsf etdiklərinizə görə vay olsun sizə!»[2]

**Hədis:**

786.İmam Əli (ə):«Batil hiyləgər və aldadıcıdır.»[3]

787.İmam Əli (ə):«Batili mütləq parçalayaram ki, haqq onun böyründən çıxsın.»[4]

788.İmam Əli (ə):«Haqq – Cənnət yoludur, batil od yolu və hər bir yolun üzərində (dayanıb ona) də‘vət edən var.»[5]

789.İmam Əli (ə):«Batilə kömək edən kəs haqqa zülm edib.»[6]

***234.Haqqı batildən seçmək***

790.İmam Əli (ə):«Bilin!Haqq ilə batil arasında yalnız dörd barmaq fasilə var……Batil «eşitdim» deməyin, haqq isə «gördüm» deməyindir.»[7]

***235.Haqq ilə batilin bir-birinə qarışması***

**Quran:**

«Haqqa batil donu geyindirməyin və bilə-bilə haqqı gizlətməyin.»[8]

**Hədis:**

791.İmam Əli (ə):«Əgər batil haqq ilə qarışmasa o, haqq axtaranlara gizli qalmaz. Əgər haqq batil ilə qarışmasa onun düşmənlərinin dili kəsilər. Lakin bir ovuc ondan və bir ovuc da bundan götürülür. (Beləliklə hərəsindən bir az götürülməklə haqq ilə batil bir-birinə qarışır və nəticədə şübhə meydana çıxır.)»[9]

---

[1] İsra, ayə 81
[2] Ənbiya, ayə 18
[3] Ğurərul-Hikəm, hədis 549
[4] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.2, səh.185
[5] Nəhcus-Səadə, c.3 səh.291
[6] Ğurərul-Hikəm, hədis 6041
[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9, səh.72
[8] Bəqərə, ayə 42
[9] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.3, səh.240

792.İmam Əli (ə):«Nə çox azğınlıq ki, mis dirhəm gümüş üzlüklə bəzəndiyi kimi Allahın kitabından bir ayə ilə bəzənib.»[1]

***236.Batilin haqq olmasına yəqinliyin olmaması***

793.İmam Sadiq (ə):«Allah batili haqq kimi tanıtmaz. Allah haqqı mömininin qəlbində şəkk-şübhə edilməyən batil kimi göstərməz. Allah batili haqq ilə mübarizə aparan kafirin qəlbində şəkk-şübhə edilməyən haqq kimi göstərməz. Əgər belə etməsəydi, haqq batildən seçilməzdi.»[2]

794.İmam Sadiq (ə):«Qəlb heç vaxt haqqın batil və batilin haqq olmasına yəqinlik tapmaz.»[3]

ιooooooπ

---

[1] Ğurərul-Hikəm, hədis 6969

[2] Biharul-Ənvar, c.5, səh.303, hədis 12

[3] Təfsir əl-Əyyaşi, c.2, səh.53, hədis 39

**45**

# Nifrət

***237.Allahın ən çox nifrət etdiyi kəslər***

795.Allahın Peyğəmbəri (s):«Allah zinakar qocaya, zalım varlıya, lovğa yoxsula və həyasız dilənçiyə nifrət edir. Həmçinin bağışlayıb minnət qoyanı mükafatsız qoyacaq.Yalançı və üzlü təkəbbürlüyə nifrət edir.»[1]

796.Allahın Peyğəmbəri (s):«Allah-taala dünyaya elmi olub, axirətə nadan olan hər bir kəsə nifrət edir.»[2]

797.Allahın Peyğəmbəri (s):«Allah-taala bazarlarda dözümsüzlük edən, gecə ölü kimi düşən, gündüz uzunqulaq kimi olan, dünya işindən xəbərdar, axirətə isə nadan olan kobud həqirə nifrət edir.»[3]

798.Allahın Peyğəmbəri (s):«Allah-taala evində hücuma məruz qalıb vuruşmayan kəsə nifrət edir.»[4]

799.İmam Əli (ə):«Eyb və nöqsan sifətlərdən pak olan Allah günahdan qorxmayan həyasız adama nifrət edir.»[5]

800.İmam Əli (ə):«Allahın Peyğəmbəri (s) buyurardı: Allah qardaşlarına üzünü turşudan kəsə nifrət edir.»[6]

801.İmam Baqir (ə):«Allah, pis ağızlı söyüş söyənə nifrət edir.»[7]

***238.Allah yanında ən mənfur şəxs***

802.Allahın Peyğəmbəri (s):«Allah yanında üç nəfər hamıdan mənfurdur: Axşam heç namaz qılmamasına baxmayaraq gündüz çox yatan kəs, çox yeyən və yemək yeyən zaman Allahın adını çəkməyən və (qurtarandan sonra) Ona şükr etməyən kəs və səbəb olmadan çox gülən kəs.»[8]

803.Allahın Peyğəmbəri (s):«Allahın yanında insanların ən mənfuru üç nəfərdir: Hərəmdə (Məkkədə) yolunu azan, İslamda cahiliyyət dövrünün adətini qoymaq istəyən və haqsız yerə birini öldürmək üçün onu təqib edən.»[9]

---

[1] Tuhəful-Uqul, səh.42
[2] Kənzul-Ummal,hədis 28982
[3] Kənzul-Ummal,hədis43679
[4] Uyun Əxbar ər-Rza, c.2, səh.28, hədis 24
[5] Ğurərul-Hikəm, hədis 3437
[6] Mustədrəkul-Vəsail, c.8, səh.321, hədis 9552
[7] Biharul-Ənvar, c.78, səh.176, hədis 38
[8] Kənzul-Ummal, hədis 21431
[9] Kənzul-Ummal, hədis 43833

804.Allahın Peyğəmbəri (s):«Allah yanında sizin ən mənfurunuz xəbərçilik edənləriniz, qardaşlar arasında ayrılıq salanlarınız və günahsız şəxslərdə səhv və xəta axtaranlarınızdır.»[1]

805.Allahın Peyğəmbəri (s):«Allah-taalanın yanında yaradılmışların ən mənfuru məmurların görüşünə gedən alimdir.»[2]

806.Allahın Peyğəmbəri (s):«Qiyamət günü mənim yanımda sizin ən mənfurunuz və mənə ən yad olanınız çox danışan, boşboğaz və «mütəfəyhiq» kəslərdir.» Dedilər:«Ey Allahın Peyğəmbəri, «mütəfəyhiq» kimlərdir?» Buyurdu:«Təkəbbürlülər.»[3]

807.İmam Əli (ə):«Allah yanında ən mənfur kəs başqalarının dalınca pis sözlər danışaraq qeybət edən kəsdir.»[4]

808.İmam Əli (ə):«Eyb və nöqsan sifətlərdən pak olan Allahın yanında bəndələrin ən mənfuru bütün dərdi-qəmi qarınquluruq və şəhvətpərəstlik olan kəsdir.»[5]

809.İmam Əli (ə):«Allah-taalanın yanında yaradılmışların ən mənfuru nadan şəxsdir.»[6]

810.İmam Əli (ə):«Allahın yanında Onun yaratdıqlarının ən mənfuru o kəsdir ki, ordan-burdan elm toplayar, amma fitnə zülmətlərində qəflətə düçar olar, sülh və sakitliyin məziyyətlərini görməz, özü kimiləri onu alim adlandırar halbuki, tam bir gününü belə elmə həsr etməyib.»[7]

811.İmam Əli (ə):«Eyb və nöqsan sifətlərdən pak olan Allahın yanında bəndələrin ən mənfuru zor işlədən alimdir.»[8]

812.İmam Baqir (ə):«Musa (ə) dedi:«Pərvərdigara, bəndələrindən Sənin yanında ən mənfuru kimdir?» Buyurdu:«Gecə ölü kimi düşüb gündüz bekar olan!»[9]

813.İmam Sadiq (ə):«Allahın yaratdıqlarının ən mənfuru camaatın dilindən qorxduğu bəndədir.»[10]

### *239.Allah yanında mənfur olan işlər*

814.Allahın Peyğəmbəri (s):«Allah yanında hər şeydən mənfur dolu qarındır.»[11]

815.İmam Baqir (ə):«Allahın Peyğəmbəri (s) Cəbrailə dedi:«Allah-taalanın yanında hara daha mənfurdur?» Cəbrail buyurdu:«Bazarlar. Və bazar əhlinin ən mənfuru bazara hamıdan tez gedib hamıdan gec çıxan şəxsdir.»[1]

---

[1] Biharul-Ənvar, c.71, səh.383, hədis 17
[2] Kənzul-Ummal, hədis 28985
[3] Kənzul-Ummal, hədis 5184
[4] Ğurərul-Hikəm, hədis 3128
[5] Ğurərul-Hikəm, hədis 3294
[6] Ğurərul-Hikəm, hədis 3259
[7] Kənzul-Ummal, hədis 4422
[8] Ğurərul-Hikəm, hədis 3164
[9] Biharul-Ənvar, c.76, səh.180, hədis 8
[10] əl-Kafi, c.2, səh.323, hədis 4
[11] Uyun Əxbar ər-Rza, c.2, səh.36, hədis 89

816.İmam Sadiq (ə):«Allah çox yatmağa və çox bekar olmağa nifrət edir.»[2]

817.İmam Sadiq (ə):«Allah üç şeyə nifrət edir:«Gecə oyaq olmadan gündüz yatmağa, səbəbsiz gülməyə və tox halda yemək yeməyə.»[3]

818.İmam Sadiq (ə):«Xəs'əmdən bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi:«Allah-taalanın yanında hansı əməl daha mənfurdur?» Peyğəmbər buyurdu:«Allaha şərik qoşmaq.» Kişi dedi:«Daha nə?» Buyurdu:«Qohumlarla əlaqəni kəsmək.» Kişi dedi:«Sonra nə?» Peyğəmbər buyurdu:«Pis işə əmr edərək yaxşı əməldən çəkindirmək.»[4]

819.İmam Rza (ə):«Allah hay-küyə, malı bada verməyə və çox ağız açmağa nifrət edir.»[5]

***240.Nifrət və düşmənçilik***

820.Allahın Peyğəmbəri (s):«Keçmiş ümmətlərin xəstəliyi – düşmənçilik və həsəd sizə sirayət edib.»[6]

821.İmam Sadiq (ə):«Üç şey – ikiüzlülük, zülmkarlıq və xudpəsəndlik nifrət və düşmənçiliyə səbəb olur.»[7]

ιοοοοοοπ

[1] Biharul-Ənvar, c.84, səh.4, hədis 76
[2] Biharul-Ənvar, c.76, səh.180, hədis 10
[3] əl-Xisal, səh.89, hədis 25
[4] əl-Kafi, c.24 səh.290, hədis 4
[5] Biharul-Ənvar, c.78, səh.335, hədis 16
[6] Məani əl-Əxbar, səh.367, hədis 1
[7] Tuhəful-Uqul, səh.316

**46**

# Zülm, zorakılıq və itaətsizlik

***241. Zülm, zorakılıq və itaətsizlik***

**Quran:**

«Elə ki, Allah onları xilas etdi, yer üzündə haqsız yerə zülm, zorakılıq və itaətsizlik etmələrini görərsən. Ey insanlar! Bu zülm, zorakılıq və itaətsizlik sizin öz ziyanınızadır, (siz) dünya həyatının xeyri(ni istəyirsiniz). Dünya həyatında bir faydalanma, ləzzət vardır. Sonra sizin dönüşünüz Bizə tərəf olacaqdır. Daha sonra sizi etdiklərinizdən xəbərdar edəcəyik.»[1]

«Və (Allah) zinadan, çirkin (əməl)lərdən və zülm, zorakılıq və itaətsizlikdən çəkindirir. Sizə öyüd verir ki, bəlkə öyüd qəbul edən oldunuz.»[2]

822.Allahın Peyğəmbəri (s):«Zorakılığın cəzası insanı digər çirkin işlərin hamısından tez yaxalayır.»[3]

823.İmam Əli (ə):«İtaətsizlik və təcavüzkarlıq qılıncı çəkən şəxs həmin qılıncla öldürülər.»[4]

824.İmam Əli (ə):«Zorakılıq neməti aradan aparır.»[5]

825.İmam Əli (ə):«İtəatsizlik viran və məhvə səbəb olur.»[6]

826.İmam Əli (ə):«Zorakılıq və itaətsizlikdən çəkin. Çünki zorakılıq (insanı) çox tez torpağa sərər və zarakılıq işlədəni ibrətə çevirər.»[7]

827.İmam Əli (ə):«İtaətsizlik itaətsizləri oda tərəf çəkir.»[8]

828.İmam Sadiq (ə):«Diqqətli ol, ağzından heç vaxt, hətta özünün və qohumlarının qüdrəti ilə öyünsən belə, zorakı söz çıxmasın.»[9]

***242.Zorakı və itaət etməyən şəxs***

829.İmam Sadiq (ə) «kim itaətsizlik etmədən və həddi aşmadan məcbur olsa» ayəsinin təfsirində buyurmuşdur:«İtaətsiz, imamına qarşı qiyam etmiş şəxsdir.»[10]

---

[1] Yunus, ayə 23
[2] Nəhl, ayə 90
[3] əl-Kafi, c.2, səh.327, hədis 1
[4] Nəhcüs-Səadə, c.1, səh.52
[5] Ğurərul-Hikəm, hədis 382
[6] Ğurərul-Hikəm, hədis 795
[7] Ğurərul-Hikəm, hədis 2657
[8] əl-Kafi, c.2, səh.327, hədis 4
[9] əl-Kafi, c.2, səh.327, hədis 3
[10] Məani əl-Əxbar, səh.213, hədis 1

***243.İtaət etməyən  yağı müsəlmanlarla vuruşmaq***

**Quran:**

«Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onların biri digərinə qarşı həddi aşaraq təcavüzkarlıq etsə, həddi aşanla Allahın əmrinə qayıdana kimi vuruşun. Beləliklə, əgər (Allahın əmrinə qayıtsa) onların aralarında ədalətli sülh bərqərar edin və ədalətli olun ki, Allah ədalətliləri sevir.»[1]

**Hədis:**

830.İmam Əli (ə):«Döyüş iki cürdür: Müşriklərlə döyüş. Onlar müsəlman olmayınca və ya xarlıqla cizyə verməyincə buraxılmırlar. Bir də haqq yoldan dönmüşlərlə döyüş. Allahın əmrinə qayıdana və ona tabe olana və ya öldürülənə kimi onların qarşısında durmaq lazımdır.»[2]

831.İmam Əli (ə):«İtaətsizlik əhli və yağılarla müşriklərlə olan kimi tam şiddətlə vuruşmaq, onlara qarşı qiblə əhlinin (müsəlmanların) bütün imkan və bacarığından istifadə etmək və ələ keçirən zaman onları müşriklər kimi əsir götürmək lazımdır.»[3]

***244.Müsəlmanların imamı ilə aşkarcasına düşmənçilik edən şəxsin öldürülməsinin caiz olması***

832.İmam Sadiq (ə) «Nasibi»lər[4] barəsində buyurmuşdur:«Əgər sizdən bir nəfərin onların əli ilə öldürülməsindən qorxmasaydım, çünki sizin bir nəfəriniz onların min nəfərindən yaxşıdır, onları öldürməyinizi əmr edərdim.Lakin bu işin icazəsi imama həvalə edilib.»[5]

833.İmam Rza (ə):«Təqiyyə edilməli yerdə qatil və ya yağıdan başqa heç bir kafiri öldürmək caiz deyil.  Belə olan halda əgər canın təhlükəyə düşməsə, onu (qatil və ya yağını) öldürə bilərsən.»[6]

ιοοοοοπ

---

[1] Hucurat, ayə 9

[2] Vəsailuş-Şiə, c.11, səh.18, hədis 3

[3] Müstədrəkül-Vəsail, c.11, səh.65, hədis 12438

[4] Əmirəl-möminin Əli (ə) ilə düşmən olan bir firqənin adıdır-

[5] Vəsailuş-Şiə, c.11, səh.60, hədis 2

[6] Vəsailuş-Şiə, c.11, səh.35, hədis 10

**47**

# Ağlamaq

***245.Allah qorxusundan ağlamaq***

**Quran:**

«Rəhman Allahın ayələri onlara oxunan zaman ağlayaraq səcdəyə düşürdülər.»[1]

«Onlar üzüqoylu düşüb ağlayırlar və itaətkarlıqları artır.»[2]

**Hədis:**

834.Allahın Peyğəmbəri (s):«Xoş o üzün halına ki, etdiyi və heç kəsin xəbəri olmayan günahına görə Allah qorxusundan ağlayan halda Allah ona baxır.»[3]

835.Allahın Peyğəmbəri (s) «Vida həcci»nin xütbəsində buyurmuşdur: «Kimin gözü Allah qorxusundan yaş töksə, onun göz yaşının hər bir damcısı üçün əməl tərəzisinə Ühüd dağı boyda mükafat qoyarlar.»[4]

836.Allahın Peyğəmbəri (s):«Allahın ərşinin kölgəsindən başqa ayrı bir kölgənin olmayacağı gün yeddi nəfər Onun ərşinin kölgəsində olar: ............ və gizlində Allah-taalanı xatırlayan və Allah qorxusundan gözlərindən yaş axan şəxs.»[5]

837.Allahın Peyğəmbəri (s):«Kimin gözündən Allah qorxusundan bir milçək boyda yaş çıxsa, Allah «böyük qorxu» günündə onu qorxusuz edər.»[6]

838.İmam Əli (ə):«Gözlərin ağlaması və qəlblərin qorxması adı uca olan Allahın rəhminin nişanəsidir. Bu ikisini özünüzdə tapan zaman dua etməyi qənimət bilin.»[7]

839.İmam Əli (ə):«Allah qorxusundan ağlamaq rəhmətin açarıdır».[8]

840.İmam Əli (ə):«Allah qorxusundan ağlamaq qəlbi nuranilaşdirir və günaha adət etməkdən qoruyur.»[9]

841.İmam Səccad (ə):«Heç bir damcı Allah yanında bu iki damcıdan – Allah yolunda tökülmüş qan damcısından və gecə yarısı Allaha görə tökülən

---

[1] Məryəm, ayə 58
[2] İsra, ayə 109
[3] Biharul-Ənvar, c.93, səh.331, hədis 15
[4] Biharul-Ənvar, c.93, səh.335, hədis 25
[5] Biharul-Ənvar, c.84, səh.2, hədis 71
[6] Biharul-Ənvar, c.93, səh.336, hədis 30
[7] Məkarimul-Əxlaq, c.2, səh.96, hədis 10
[8] Ğurərul-Hikəm, hədis 2051
[9] Ğurərul-Hikəm, hədis 2016

göz yaşı damcısından əziz deyil.»[1]

842.İmam Baqir (ə):«Qiyamət günü üç gözdən – Allah yolunda gecə yatmamış gözdən, Allah qorxusundan ağlamış gözdən və Allahın haram buyurduqlarına baxmamış gözdən başqa bütün gözlər ağlayacaq.»[2]

843.İmam Sadiq (ə):«Əgər ağlamağın gəlmirsə də, özünü ağlamağa vur. Əgər gözündən milçəyin başı boyda yaş çıxsa, xoş halına!»[3]

844.İmam Sadiq (ə):«Göz yaşlarından başqa hər bir şeyin ölçü və çəkisi var. Çünki bir damcı göz yaşı alov dəryasını söndürür. Əgər göz öz yaşında batsa, həmin üzə heç bir yoxsulluq və həqirlik tozu qonmaz. Əgər göz yaşları axsa, Allah həmin üzü oda haram edər. Əgər ağlayan bir ümmətin arasında ağlasa, həmin ümmətin hamısına rəhm olunar.»[4]

***246.Gözün (yaşının) quruması***

845.Allahın Peyğəmbəri (s):«Bədbəxtliyin əlamətlərindən biri gözün (yaşının) qurumasıdır.»[5]

846.İmam Əli (ə):«Göz yaşları yalnız qəlbin daşlığı səbəbindən quruyur və qəlblər yalnız günahların çoxluğundan daşlaşır.»[6]

ιoooooπ

---

[1] Biharul-Ənvar, c.69, səh.378, hədis 31
[2] Biharul-Ənvar, c.7, səh.195, hədis 62
[3] İddətud-dai, səh.161
[4] Biharul-Ənvar, c.93, səh.331, hədis 14
[5] Biharul-Ənvar, c.70, səh.52, hədis 11
[6] Biharul-Ənvar, c.73, səh.354, hədis 60

# 48

# Şəhər

***247.Pak şəhər***

**Qur'an:**

«Pak şəhər və bağışlayan Rəbb.»[1]

«Onlar ilə bərəkət verdiyimiz abadlıqlar arasında bir-birinə birləşik abadlıqlar və onlarda məlum yol müəyyənləşdirmişik. Odur ki, gecələri və gündüzləri həmin şəhər və kəndlərdə qorxusuz gəzib dolanın.»[2]

*Həmçinin müraciət et: Ənbiya 71, 81; Muminun 50; Qəsəs 29, 30; Naziat 16; Bələd 1, 2; Tin 1-3.*

***248.Böyük şəhərlərdə yaşayın***

847.İmam Əli (ə) Haris Həmdaniyə yazdığı məktubda buyurmuşdur:«Böyük şəhərlərdə məskunlaş. Çünki onlar müsəlmanların bir yerə toplaşdıqları məkandır. İnsanları nadan və kobud olan yerlərdən uzaqlaş.»[3]

***249.Şəhərlərin ən yaxşısı***

848.İmam Əli (ə):«Sənin üçün bir şəhər digərindən üstün deyil. Şəhərlərin ən yaxşısı səni öz çiyinlərində aparandır (rifah və asayiş ilə yaşadığın şəhərdir).»[4]

***250.Bütün şəhərlərin əhalisinin zəruri ehtiyacı***

849.İmam Sadiq (ə):«Bütün şəhərlərin əhalisinin öz dünya və axirət işlərində müraciət etmələri üçün üç şeyə ehtiyacı var və əgər həmin şeylərə malik olmasalar nadanlıq və intizamsızlığa düçar olacaqlar: savadlı və təqvalı fəqihə, yaxşı və itaət edilən başçı və hakimə, mahir və etibarlı həkimə.»[5]

ιοooooοπ

[1] Səba, ayə 15
[2] Səba, ayə 18
[3] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.18, səh.42
[4] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.20, səh.90
[5] Tuhəful-Uqul, səh.321

49

# Bəlağət

***251.Bəlağət***

850.İmam Əli (ə):«Bəlağət odur ki, danışılması səlist, başa düşülməsi isə asan olsun.»[1]

851.İmam Əli (ə):«Bəlağət odur ki, cavab verməkdə kütlük etməyəsən, məqsədini çatdırasan və söz oxun hədəfdən yayınmasın.»[2]

852.İmam Əli (ə):«Bəzən bəlağətdə yalnız müxtəsər söyləmək ilə kifayətlənilir.»[3]

853.İmam Sadiq (ə):«Bəlağət dilin itiliyi və çoxlu boşboğazlıq etməklə deyil, əksinə, bəlağət – mənanı çatdırmaq və düzgün dəlil-sübut gətirməkdir.»[4]

854.İmam Sadiq (ə):«Bəlağət üç şeydə – nəzərdə tutulan mənaya yaxınlaşmaqda, artıq sözlərdən uzaqlaşmaqda, az və qısa ifadələrlə çox məna çatdırmaqdadır.»[5]

***252.Ən bəlağətli söz***

855.İmam Əli (ə):«Ən bəlağətli söz məqsədi rahatlıqla çatdıran və müxtəsərliyi gözəl olan sözdür.»[6]

856.İmam Əli (ə):«Ən gözəl kəlam gözəl quruluşla zinətlənmiş və həm alimin, həm də avamın başa düşdüyü kəlamdır.»[7]

***253.Bəlağətlilik və söz oynatmaq***

857.Allahın Peyğəmbəri (s):«Allah inək kimi öz dili ilə oynayan (söz oynadan) bəlağətli şəxsə nifrət edir.»[8]

ιooooooπ

---

[1] Ğurərul-Hikəm, hədis 1881
[2] Ğurərul-Hikəm, hədis 2150
[3] Ğurərul-Hikəm, hədis 6666
[4] Tuhəful-Uqul, səh.312
[5] Tuhəful-Uqul, səh.317
[6] Ğurərul-Hikəm, hədis 312
[7] Ğurərul-Hikəm, hədis 3304
[8] Kənzul-Ummal, hədis 7919

**50**

# Təbliğat

***254.Təbliğatın əhəmiyyəti***

**Qur’an:**

«Möminlərin hamısının (cihada) getmələri rəva və caiz deyil. Bəs nə üçün hər tayfadan bir dəstə getmir ki, (başqa bir dəstə) dərin elm əldə etmək üçün (qalsın,) tayfaları onların yanına qayıtdığı zaman onları (Allahın əzabı ilə) qorxutsun. Bəlkə, onlar (Allahın əzabından) çəkinsinlər.»[1]

**Hədis:**

858.Allahın Peyğəmbəri (s):«Agah olun, mən bu sözü təkrar edirəm:«Bilin! Namaz qılın, zəkat verin, əmr be məruf (yaxşı işlərə də‘vət edin) və nəhy əz münkər edin (pis işlərdən çəkindirin). Bilin ki, əmr be məruf və nəhy əz münkərin əsası onun mənim sözümlə nəticələnməsidir. Onu burada olmayana çatdırın, həmin şəxsə onu qəbul etməsini əmr edin və ona qarşı çıxmaqdan çəkindirin. Çünki o, Allah tərəfindən olan bir göstərişdir.»[2]

859.Allahın Peyğəmbəri (s):«Ey Əli! Əgər Allah sənin əlinlə bir insanı hidayət etsə, bu sənin üçün günəşin üzərinə işıq saçdığı hər bir şeydən daha yaxşıdır.»[3]

860.Allahın Peyğəmbəri (s):«Allahı camaata sevdirin ki, Allah da sizi sevsin.»[4]

861.Allahın Peyğəmbəri (s):«Kimin əli ilə bir nəfər İslamı qəbul etsə,Cənnət ona vacib olacaqdır.»[5]

862.Allahın Peyğəmbəri (s):«Doğru yola də‘vət edən hər bir kəsə, ona tabe olanların mükafatlarından bir şey azaldılmadan, onların mükafatlarının misli veriləcəkdir.»[6]

863.Allahın Peyğəmbəri (s):«Ümmətimin ən yaxşısı bəndələri Allah-taalaya tərəf də‘vət edən və onları Onunla dostlaşdırandır.»[7]

864.Şərif ibn Sabiq Tiflisi Həmmad Səmdəridən nəql edir ki, İmam Sadiqə (ə) dedim:«Mən müşriklərin şəhərlərinə gedirəm. Bəzi dostlarım deyirlər:«Əgər

---

[1] Tovbə, ayə 122
[2] əl-İhticac, c.1, səh.157, hədis 32
[3] Müstədrəkus-Səhiheyn, c.2, səh.691, hədis 6537
[4] əl-Möcəm əl-Kəbir, c.8, səh.91, hədis 7461
[5] əl-Möcəm əl-Kəbir, c.17, səh, 285, hədis 786
[6] əl-Müvəttə, c.1, səh.218, hədis 41
[7] Kənzul-Ummal, hədis 28779

orada ölsəniz məhşərdə onlarla birlikdə olacaqsınız?» Həmmad deyir:«İmam Sadiq (ə) mənə buyurdu:«Ey Həmmad, orada olanda bizim məsələmizi (imamətimizi) xatırlayır və (camaatı) ona tərəf də‘vət edirsən?» Həmmad deyir: Dedim: «Bəli.» İmam Sadiq (ə) buyurdu:«Bu şəhərlərdə – İslam şəhərlərində – olanda necə bizim məsələmizi xatırlayır və ona də‘vət edirsən?» Həmmad deyir: Dedim:«Xeyr!» İmam mənə buyurdu:«Əgər sən orada (müşriklərin şəhərlərində) ölsən təkbaşına bir ümmət kimi məhşərə gələcəksən və sənin nurun səndən qabaqda hərəkət edəcək.»[1]

***255.Təbliğatçıya vacib olan şeylər***

**1.Dərin dini elm**

865.Allahın Peyğəmbəri (s):«Allah-taalanın dininə yalnız onun bütün cəhətlərindən xəbərdar olan şəxs kömək edər.»[2]

**2.Əhli-Beytin kəlamına əsaslanmaq**

866.Əbdüssalam ibn Saleh Hərəvi:«İmam Rzanın (ə) belə buyurduğunu eşitdim ki: Allah bizim işimizi dirçəldən bəndəyə rəhmət etsin! Dedim:«Sizin işinizi necə dirçəltsin? İmam buyurdu:«Bizim elmimizi öyrənib camaata öyrətsin. Əgər insanlar bizim kəlamlarımızın gözəlliyini bilsəydilər, bizə tabe olar, arxamızca gələrdilər.»[3]

**3.İxlas (niyyət saflığı)**

**Qur’an:**

«Mən bunun (risalətin təbliğinin) müqabilində sizdən heç bir muzd istəmirəm. Mənim muzdum yalnız aləmlərin Rəbbinin öhdəsinədir.»[4]

**Hədis:**

867.Allahın Peyğəmbəri (s):«Allah xütbə oxumuş hər bir bəndədən onun həmin xütbədə məqsədinin nə olmasını soruşacaq.»[5]

**4.Şücaət**

«O kəslər ki, Allahın tapşırıqlarını çatdırırlar, Ondan qorxurlar və Allahdan başqa heç kəsdən qorxmurlar. Allah hesab çəkməyə kifayətdir.»[6]

868.Allahın Peyğəmbəri (s):«Haqqı de və Allah yolunda heç bir qınayanın töhmətindən qorxma.»[7]

869.Allahın Peyğəmbəri (s):«Məbada camaatdan qorxmaq sizlərdən haqqı görmüş və ya şahid olmuş kəsin haqqı deməsinə mane olsun. Çünki haqqı demək və ya «böyük işi» (axirəti) xatırlamaq nə ölümü yaxınlaşdırır, nə də ruzini uzaqlaşdırır.»[8]

---

[1] Əmali-Tusi, səh.46, hədis 54
[2] əl-Firdovs, c.1, səh.234, hədis 897
[3] Məani əl-Əxbar, səh.180, hədis 1
[4] Şuəra, ayə 145
[5] əz-Zöhd, İbn Hənbəl, səh.391
[6] Əhzab, ayə 39
[7] Hilyətul-övliya, c.1, səh.241
[8] Musnəd İbn Hənbəl, c.4, səh.102, hədis 11474

**5.Doğruluq**

870.Misbahuş-şəriət kitabında İmam Sadiqin (ə) belə buyurması nəql olunub ki:«Ən gözəl öyüd sözün, doğruluğun sərhəddini və əməlin, ixlasın hüdudlarını aşmamasıdır.»[1]

871.Əmr ibn əbu Miqdam:«İmam Baqir (ə) ilk dəfə onun hüzuruna daxil olarkən mənə belə buyurdu:«Danışmamışdan qabaq doğruluğu öyrənin.»[2]

**6.Mülayimlik**

872.Allahın Peyğəmbəri (s):«Asanlaşdırın çətinləşdirməyin, rahatlaşdırın nifrət yaratmayın!»[3]

873.Allahın Peyğəmbəri (s):«Risalətin təbliğinə məmur olunduğum kimi camaatla mülayim olmağa da əmr olunmuşam.»[4]

874.İmam Sadiq (ə) Ömər ibn Hənzələyə xitab edərək buyurmuşdur:«Ey Ömər, bizim şiələrimizin çiyinlərinə (ağır) yük qoymayın və onlarla mülayim davranın. Çünki insanlar onların çiyinlərinə qoyulanları götürmürlər.»[5]

**7.Nəsihət**

**Qur'an:**

«Rəbbimin risalət və tapşırıqlarını sizə çatdırıram. Mən sizin üçün inanılmış bir nəsihətçiyəm.»[6]

**Hədis:**

875.İmam Əli (ə) Həzrət Peyğəmbərin fəzilətlərini bəyan edərkən buyurmuşdur:«(Allah) onu sərgərdanlıqda azdıqları və fitnədə qərq olduqları bir zamanda göndərdi…..Peyğəmbər (s) nəsihət verməyi son həddinə çatdırdı və doğru yolda hərəkət etdi və (camaatı) hikmət və gözəl öyüdlərə də'vət etdi.»[7]

**8.Qəlb ilə dilin bir olması**

876.İmam Əli (ə) o Həzrətə məxsus hikmətlərdə buyurmuşdur:«Söz qəlbdən gələndə qəlbə yatar, dildən çıxanda isə qulaqlardan o tərəfə keçməz.»[8]

**9.Əməl ilə təbliğ**

877.İmam Sadiq (ə):«Camaatı dilinizdən ayrı şeylə yaxşılığa də'vət edin ki, sizdə çalışqanlıq, doğruluq və pəhrizkarlıq görsünlər.»[9]

878.İmam Sadiq (ə):«Allah rəhmət etsin o qövmə ki, çıraq və nur (hidayət) mənbəyidirlər və insanları əməlləri və var gücləri ilə bizə tərəf də'vət edirlər.»[10]

---

[1] Misbahuş-Şəriət, səh.395
[2] əl-Kafi, c.2, səh.104, hədis 4
[3] səhih Buxari, c.5, səh.2269, hədis 5774
[4] Tuhəful-Uqul, səh.48
[5] əl-Kafi, c.8, səh.335, hədis 522
[6] Ə'raf, ayə 68
[7] Nəhcül-Bəlağə, xütbə: 95
[8] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.20, səh.287, hikmət 279
[9] əl-Kafi, c.2, səh.105, hədis 10
[10] Tuhəful-Uqul, səh.301

**51**

# Sınaq

***256.Sınaq***

**Qur'an:**

«Biz sizi xeyir və şərlə sınağa çəkərik.»[1]

**Hədis:**

879.İmam Sadiq (ə):«Baş verən hər bir çətinlik və rahatlıqda Allahın məqsədi yalnız əta etmək və sınağa çəkməkdir.»[2]

880.İmam Sadiq (ə):«Allahın əmr və qadağalarında baş verən hər bir çətinlik və rahatlıqda Allah tərəfindən mütləq bir sınaq və hökm vardır.»[3]

***257.Sınağa çəkməyin fəlsəfəsi***

**Qur'an:**

«…Allahın sizin sinələrinizdə (qəlblərinizdə) olanı sınaması və sinələrinizdə olanı pak və xalis etməsi üçündür. Allah sinələrin sirlərindən agahdır.»[4]

«Əlbəttə, içərinizdəki mücahidləri və səbr edənləri ayırd edib bilmək üçün sizi sınayacaq və sizin xəbərlərinizi (sizin barənizdəki xəbərləri) yoxlayaraq araşdıracağıq.»[5]

«Hansınızın yaxşı əməl sahibi olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur!»[6]

**Hədis:**

881.İmam Əli (ə):«Allah-taala insanların batinini aşkar etdi. Allah onların gizli sirlərindən və örtülü batinlərindən xəbərsiz deyildi. Lakin, (bunu) onların hansının yaxşı işlər görmələrini sınamaq üçün etdi. (Belə etdi ki,) savab (yaxşı əməlin) mükafat(ı) və əzab (pis əməlin) cəza(sı) olsun!»[7]

882.İmam Əli (ə):«İmtahan və sınaq hər nə qədər böyük olsa, savab və mükafat da bir o qədər çox olar. Məgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın keçmişdəkiləri, Adəmin (s) zamanından bu dünyanın insanlarının son nəfərinə kimi (hamını) heç bir ziyan və xeyir gətirməyən, görməyən və

---

[1] Ənbiya 35

[2] ət-Tovhid, səh.354, hədis 1

[3] ət-Tovhid, səh.354, hədis3

[4] Ali-İmran, ayə 154

[5] Muhəmməd, ayə 31

[6] Mulk, ayə 2

[7] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.9, səh6 84

eşitməyən daşlarla sınamasını və həmin daşları insanlar üçün bərqərar etdiyi özünün möhtərəm evinə çevirdiyini görmürsünüzmi...?!

Allah, bəndələrini müxtəlif çətinliklərlə sınayır, müxtəlif zəhmət və çalışqanlıqlarla bəndəliyə vadar edir, cürbəcür xoşagəlməz şeylərlə imtahana çəkir ki, onların qəlbindən təkəbbürü çıxarsın, onları təvazökar etsin və bunu öz lütf və bəxşişinə tərəf açılmış qapılar və əfv edərək bağışlaması üçün vasitələr etsin.»[1]

883.İmam Əli (ə):«Həqiqətən siz bir-birinizə qarışacaq və (sonra) xəlbirdən keçiriləcəksiniz ki, aşağıda olan üzə çıxsın və yuxarıda olan alta getsin, geridə qalanlar qabağa keçsinlər və qabağa keçənlər geridə qalsınlar.»[2]

884.İmam Əli (ə):«Sərvət və rifaha sevinmə və yoxsulluq və çətinliyə görə kədərlənmə. Çünki qızıl od ilə əriyərək saflaşır, mömin isə bəla və çətinliklə!»[3]

### *258.Möminin sınağının çətinliyi*

**Qur’an:**

«(Siz mö’minlər,) sizdən əvvəl köçmüş kəslərin başlarına gələnlər hələ sizin başınıza gəlməmiş Cənnətə daxil olacağınızı güman edirsiniz?! Onlara ziyanlar dəydi, sarsıntı və narahatçılıq keçirdilər, o yerə kimi ki, Allahın elçisi və onunla birgə olan möminlər «Allahın köməyi və yardımı nə vaxt yetişəcək?» deyirdilər. (Dedik:) «Bilin, Allahın köməyi həqiqətən yaxındır»[4]

**Hədis:**

885.İmam Əli (ə):«Bəla pərhizkar möminə yağışın (yağış suyunun təpənin başından) yerin alçaq hissələrinə çatmasından da tez çatır.»[5]

886.İmam Sadiq (ə):«İnsanların ən çox bəla çətinliyinə düçar olanı peyğəmbərlərdir. Peyğəmbərlərdən sonra onların canişin və davamçıları və daha sonra sıra ilə kim daha yaxındırsa daha çox!»[6]

887.İmam Sadiq (ə) «mömin cüzam, ala və bu kimi xəstəliklərə tutularmı?» sualının cavabında buyurmuşdur:«Məgər bəla mömindən başqası üçün yazılıb?!»

### *259.Pis əməllərin insanın bəla ilə qarşılaşmasındakı rolu*

**Qur’an:**

«Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandıqlarınızın ucbatındandır və (Allah) onların çoxundan keçir.»[7]

**Hədis:**

888.Allahın Peyğəmbəri (s):«Allah-taala Əyyuba dedi:«Mənim yanımda, sənə bəla gəlməsinə səbəb olan günahının nə olmasını bilirsən? Əyyub

---

[1] Nəhcül-Bəlağənin şərhi, İbn Əbil Hədid, c.13, səh.156
[2] Biharul-Ənvar, c.5, səh.218, hədis 12
[3] Ğurərul-Hikəm, hədis 10394
[4] Bəqərə, ayə 214
[5] Biharul-Ənvar, c.67, səh.222, hədis 29
[6] əl-Kafi, c.2, səh6 252, hədis 1
[7] Şura, ayə 30

dedi:«Xeyr.» Allah-taala buyurdu:«Sənin Fir'onun yanına gedərək onunla iki kəlmə yumşaq və mülayim danışmağın.»[1]

***260.Bəlaya düçar olmayan şəxs Allahın qəzəbinə gəlib***

889.Allahın Peyğəmbəri (s):«Allah cism və malına bəla gəlməyən şeytansifətli şəxsə nifrət edir.»[2]

890.İmam Səccad (ə):«Mən insanın dünyada sağlam olmasını və ona heç bir müsibətin gəlməməsini sevmirəm.»[3]

***261.Bəla neməti***

891.Allahın Peyğəmbəri (s):«Ana öz övladını süd ilə qidalandırdığı kimi Allah da öz mömin bəndəsini bəla və çətinliklə qidalandırır.»[4]

892.Allahın Peyğəmbəri (s):«Allah bir qövmün xeyir və yaxşılığını istəyəndə onları bəlaya düçar edər.»[5]

893.İmam Baqir (ə):«Evin kişisi səfərdən hədiyyə gətirməklə ailəsinə nəvaziş göstərdiyi kimi Allah da mömini bəla və çətinliklə nəvaziş edir. Həkim xəstəni (pəhriz yazıb bəzi yeməklərdən) çəkindirdiyi kimi, Allah da mömini dünyadan çəkindirir.»[6]

894.İmam Kazim (ə):«Siz bəlanı nemət, asayiş və rifahı isə müsibət hesab etməyincə əsla mömin olmazsınız. Çünki bəla və çətinliyə səbr etmək asayiş və rahatlıq içərisində qəflətdə olmaqdan daha dəyərli və üstündür.»[7]

895.İmam Əskəri (ə):«Elə bir çətinlik və bəla yoxdur ki, Allah tərəfindən onu bir nemət əhatə etməmiş olsun.»[8]

***262.Bəla və qəflət yuxusundan oyanmaq***

**Qur'an:**

«Biz Fir'onun adamlarını qıtlıq, quraqlıq və məhsul çatışmazlığına düçar etdik ki, bəlkə düşünüb ibrət alsınlar.»[9]

**Hədis:**

896.İmam Əli (ə) istisqa[10] namazı qılmağa gedərkən buyurmuşdur:«Allahın bəndələri günah və pis əməllərlə məşğul olan zaman Allah onları məhsul qıtlığı, bərəkətin kəsilməsi və xeyir xəzinələrinin qapılarının bağlanmasına düçar edir ki, tövbə edən tövbə etsin, günahkar günahdan əl götürsün, öyüd alan öyüd alsın və (günahdan) çəkindirilən əl saxlasın.»[11]

---

[1] əl-Dəəvat, səh.123, hədis 304
[2] Biharul-Ənvar, c.81, səh.174, hədis 11
[3] Biharul-Ənvar, c.81, səh.176, hədis 14
[4] Biharul-Ənvar, c.81, səh.195, hədis 52
[5] Camiul-Əxbar, səh.310, hədis 855
[6] əl-Kafi, c.2, səh.255, hədis 17
[7] Camiul-Əxbar, səh.313, hədis 870
[8] Biharul-Ənvar, c.78, səh.255, hədis 17
[9] Ə'raf, ayə 130
[10] Yağış istəmək üçün qılınan namaz
[11] Nəhcül-Bəlağə, xütbə 143

897.İmam Sadiq (ə):«Ola bilməz ki, mömin qırx gecəni arxada qoysun, amma öyüd alması üçün onu qəmləndirən bir hadisə ilə qarşılaşmasın.»[1]

898.İmam Sadiq (ə):«Allah bir bəndənin xeyrini istəyəndə həmin bəndə bir günah edərsə, bu günahın ardınca onu bəlaya düçar edər ki, istiğfar etməyi onun yadına salsın. Allah bir bəndə üçün şər istəyəndə isə həmin bəndə günah edərsə, günahının ardınca ona nemət əta edər ki, istiğfar etməyi onun yadından çıxarsın və o, günahını davam etdirsin. Bu, Allahın kəlamıdır:«Onları tədricən özlərinin də bilmədikləri yerdən yaxalayarıq.» Yəni günah edən zaman onlara nemət vermək vasitəsi ilə yaxalayarıq.»[2]

### *263.Bəla vasitəsi ilə günahların təmizlənməsi*

899.İmam Əli (ə):«Şükr olsun Allaha ki, bizim ardıcıllarımızın bəla və çətinliyə düçar olmalarını dünyada onların günahlarının təmizlənmə amili edib ki, həmin bəla və çətinliklər vasitəsi ilə itaətləri sağlam qalsın və onun mükafatına layiq olsunlar.»[3]

900.İmam Əli (ə):«Allah-taala bu dünyada cəzalandırdığı mömin bəndəni Qiyamət günü bir daha cəzalandırmaqdan daha həlim, daha ulu, səxavətli və daha kəramətlidir (yəni Allah-taala bu sifətlərə malik olduğu üçün həmin bəndəni Qiyamətdə bir daha cəzalandırmaz).»[4]

901.İmam Baqir (ə):«Allah-taala bir bəndəyə hörmət etmək istəyəndə həmin bəndənin günahları olsa onu xəstəliyə düçar edər. Əgər belə etməsə, yoxsulluq və ehtiyaca düçar edər və əgər bunu da etməsə canını alan zaman onu çətinliyə salar. Amma bir bəndəni xar və hörmətsiz etmək istəsə və onun Allahın yanında yaxşı işləri olmuş olsa ona sağlam can verər. Əgər belə etməsə onun yaşayışını rahat və rifah içərisində edər və əgər bunu da etməsə ölümü onun üçün asanlaşdırar.»[5]

### *264.Bəla eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın məhəbbətinin nişanəsidir*

902.əl-Kafi:«Sudeyr imam Sadiqin (ə) hüzurunda idi. Həzrət buyurdu:«Allah bir bəndəni sevəndə onu bəlaya qərq edər. Ey Sudeyr! Həm biz həm də siz gecə-gündüzümüzü bəla ilə keçiririk.»[6]

903.İmam Sadiq (ə):«Allah-taala bir qövm və ya bəndəni sevən zaman onun başına bəla yağışı yağdırır. Beləliklə, onlar bir bəladan çıxmamış digər bir bəlaya düçar olarlar.»[7]

### *265.Bəla iman miqdarında olar*

---

[1] Biharul-Ənvar, c.67, səh.211, hədis 14
[2] Biharul-Ənvar, c.67, səh.229, hədis 41
[3] Biharul-Ənvar, c.67, səh.232,hədis 48
[4] Biharul-Ənvar, c.81, səh.179, hədis 25
[5] Ə'lamud-Din, səh.433
[6] əl-Kafi, c.2, səh.253, hədis 6
[7] Biharul-Ənvar, c.82, səh.236, hədis 32

904.İmam Baqir (ə):«Bəndənin imanı nə qədər artsa onun yaşayışı daha da ağırlaşar və çətinləşər.»[1]

905.İmam Baqir (ə):«İnsan Allaha olan məhəbbətinin miqdarında bəlaya düçar olar.»[2]

906.İmam Sadiq (ə):«Əlinin (ə) kitabında deyilir: Həqiqətən mömin yaxşı işlərinin miqdarında bəlaya düçar olar. Buna görə də kimin dini düzgün və əməli gözəldirsə bəlası daha ağırdır. Çünki Allah-taala dünyanı mömininin mükafatı və kafirin cəzası təyin etməyib. Kimin dini süst və əməli zəifdirsə bəlası azdır.»[3]

907.İmam Kazim (ə):«Mömin tərəzinin iki gözü kimidir ki, imanı nə qədər artsa, bəlası da çoxalar və nəhayət günahdan pak ətək ilə Allah-taala ilə görüşər.»[4]

***266.Bəndənin bəla ilə çatdığı məqamlar***

908.İmam Sadiq (ə):«Həqiqətən Cənnətdə bir dərəcə var ki, ona (dünyada) bədəni bəlaya düçar olmuş bəndə istisna olmaqla, heç bir bəndə çatmaz.»[5]

909.İmam Sadiq (ə):«Bəndənin Allah yanında bir məqam və dərəcəsi var ki, ona bu iki yoldan – var-dövlətinin əlindən çıxması və ya cisminə bir bəla gəlməsindən başqa heç nə ilə çata bilməz.»[6]

***267.Mömininin bəlaya düçar olması onun öz xeyrinədir***

910.İmam Sadiq (ə):«Allahın Musaya (ə) göndərdiyi vəhylərdən birində belə buyrulur ki: Elə bir məxluq yaratmamışam ki, o Mənim dərgahımda mömin bəndəmdən əziz olsun. Onu bəlaya düçar edirəmsə, (bu) onun üçün daha yaxşı və daha xeyirli olduğuna görədir. Ona can sağlığı bəxş edirəmsə, (deməli bu) onun üçün daha yaxşıdır. Onun əlindən alıb məhrum edirəmsə, bu onun üçün daha yaxşıdır. Mən, nəyin bəndəmi islah edərək düzəltməsini daha yaxşı bilirəm. Buna görə də gərək mənim bəlama səbrli, nemətlərimə şükr edən və hökmlərimə razı olsun ki, onu özümün ən doğru bəndələrimin sırasında yazım.»[7]

***268.Bəndələrin ən çətin sınaqları***

911.İmam Əli (ə):«Allah heç kəsi ona möhlət vermək kimi bir şeylə sınamayıb.»[8]

---

[1] Camiul-Əxbar, səh.314, hədis 874
[2] Biharul-Ənvar, c.67, səh.236, hədis 54
[3] Biharul-Ənvar, c.67, səh.222, hədis 29
[4] Biharul-Ənvar, c.67, səh.242, hədis 82
[5] Biharul-Ənvar, c.67, səh.212, hədis 16
[6] əl-Kafi, c.2, səh.257, hədis 23
[7] Biharul-Ənvar, c.72, səh.331, hədis 14
[8] Biharul-Ənvar, c.73, səh.383, hədis 8

912.İmam Əli (ə):«Yoxsulluq bəladır. Yoxsulluqdan daha pisi bədənin xəstə olmasıdır. Ondan da pisi qəlbin (mə‘nəvi baxımdan) xəstə olmasıdır.»[1]

913.İmam Sadiq (ə):«Allah, bəndələri malını bağışlamaqdan çətin bir şeylə sınamayıb.»[2]

914.İmam Sadiq (ə):«Üç şey var ki, kim onlardan birinə düçar olsa ölümü arzulasın: Bir-birinin ardınca gələn yoxsulluq, rüsvayçı məhrumluq və qalib gəlmiş düşmən.»[3]

### *269.Çətinlikdən sonra asanlıq*

915.İmam Əli (ə):« Bəlanın sonunda açılış (işlərin düyünlərinin açılması) hasil olur.»[4]

916.İmam Sadiq (ə):« Bəla üstündən bəla gələn zaman bəladan qurtuluş hasil olar.»[5]

### *270.Bəla zamanı dua etmək*

**Qur’an:**

«O kəslər ki, başlarına bir müsibət gələn zaman «biz Allahınıq və Ona tərəf qayıdacağıq» deyərlər.»[6]

917.İmam Əli (ə):«Hər bir çətinlik və müşkül zamanı «Uca və böyük Allahdan başqa bir güc və qüdrət yoxdur» de. (Belə deyəndə) həmin çətinlik aradan qalxır.»[7]

918.İmam Rza (ə):«Atamı yuxuda gördüm və o buyurdu:«Oğul! Çətinlik içərisində olan zaman «ya Rauf, ya Rəhim» cümləsini çox de. Yuxuda gördüyün aşkarda gördüyün kimidir (yəni bu dediklərimi yuxu sanma, aşkar kimi qəbul et).»[8]

### *271.Bəlaya düçar olmuş şəxsi görən zaman dua etmək*

919.Allahın Peyğəmbəri (s):«Bəlaya düçar olmuş insanları görən zaman Allaha şükr edin, amma elə yox ki onlar eşitsinlər.Çünki (əgər eşitsələr) narahat olarlar.»[9]

920.İmam Baqir (ə):«Bəlaya düçar olmuş adam görəndə onun eşitmədiyi şəkildə üç dəfə de: Şükr və həmd olsun O Allaha ki, məni sənin düçar olduğun bəlaya düçar etməyib. Əgər istəsəydi məni də belə edə bilərdi.» (İmam sonra) buyurdu:« Kim bu cümləni desə heç vaxt həmin bəlaya düçar olmaz.»[10]

---

[1] Əmali-Tusi, səh.146, hədis 240
[2] əl-Xisal səh.8, hədis 27
[3] Tuhəful-Uqul, səh.318
[4] Biharul-Ənvar, c.78, səh6 12, hədis 70
[5] Tuhəful-Uqul, səh.357
[6] Bəqərə, ayə 156
[7] Biharul-Ənvar, c.77, səh.270, hədis 1
[8] Məhcud-Dəəvat, səh.333
[9] Biharul-Ənvar, c.71, səh.34, hədis 18
[10] Biharul-Ənvar, c.71, səh.34, hədis 15

52

# Böhtan

***272.Böhtan***

**Qur’an:**

«Mömin kişiləri və qadınları etmədikləri bir işdən ötrü incidənlər, şübhəsiz ki, üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər.»[1]

*Həmçinin müraciət et: İsra 36; Nur 12-15; Hucurat 12*

**Hədis:**

921.Allahın Peyğəmbəri (s):«Kim mömin kişiyə və ya qadına böhtan atsa, yaxud onun barəsində onda olmayan şeyi desə, Allah Qiyamət günü onu həmin şəxs barəsindəki sözünü geri götürənə kimi bir od təpənin üstündə saxlayar.»[2]

922.İmam Əli (ə):«Böhtan atmaq kimi həyasızlıq və abırsızlıq yoxdur.»[3]

923. İmam Əli (ə):«Günahsız adama böhtan atmaq səmadan da böyükdür.»[4]

924.İmam Səccad (ə):«Kim camaatda olan eyb barəsində danışsa, camaat onda olmayan eybi ona aid edər.»[5]

925.İmam Sadiq (ə) müdriklərin birindən nəql edərək buyurmuşdur:«Günahsız adama böhtan atmaq möhkəm dağlardan da ağırdır.»[6]

ιooooooπ

---

[1] Əhzab, ayə 58

[2] Biharul-Ənvar, c.75, səh.194, hədis 5

[3] Ğurərul-Hikəm, hədis 10455

[4] Biharul-Ənvar, c.78, səh.194, hədis 99

[5] Biharul-Ənvar, c.78, səh.160, hədis 21

[6] Biharul-Ənvar, c.75, səh.194, hədis 3

53

# Mübahilə[1]

***273.Mübahilə***

**Qur’an:**

«Sənə göndərilən bilikdən sonra kim onun barəsində (İsa (ə) haqqında) səninlə mübahisə etsə, de: Gəlin biz də oğlanlarımızı siz də oğlanlarınızı, biz də qadınlarımızı siz də qadınlarınızı, biz də özümüzü siz, də özünüzü çağıraq. Sonra (Allaha) yalvarıb yalançılara Allahın Lənət etməsini diləyək.»[2]

**Hədis:**

926.İmam Sadiq (ə) Əbulabbasa mübahilə barəsində belə buyurmuşdur: «Ovcunu onun ovcuna qoyub deyirsən:«Allahım! Əgər filankəs haqqı inkar, yaxud batili iqrar edirsə onu səma bəlasına və ya öz tərəfindən olan bir əzaba düçar et. Ona yetmiş dəfə nifrin və qarğış et.»[3]

927.İmam Sadiq (ə):«Nəcran xaçpərəstləri öz başçı, canişin və….. ilə Peyğəmbərin (s) yanına gəlib dedilər:«Bizi nəyə də‘vət edirsən?» Peyğəmbər buyurdu:«Allahdan başqa bir tanrının olmamasına, mənim Allahın elçisi olmağıma və İsanın Allahın yeyib-içən və ifrazat xaric olan…. yaradılmış bir bəndəsi olmasına şəhadət verməyə…….Buna görə də mənimlə mübahilə edin! Əgər mən doğru danışanamsa Lənət və nifrin sizi tutacaq və əgər yalançı olsam Lənət və nifrin məni tutacaq.» Dedilər:«Ədalətli qərardır. Sonra mübahilə üçün vaxt təyin etdilər.»

Onlar evlərinə qayıdandan sonra böyükləri dedi:«Əgər o, mübahiləyə öz qövmü ilə gəlsə onunla mübahilə edərik. Çünki əgər belə olsa, o, peyğəmbər deyil. Amma mübahiləyə yalnız ailəsi ilə gəlsə onunla mübahilə etmərik. Çünki əgər ailəsini təhlükəyə atırsa deməli doğrudan da düz deyir. Səhər açılandan sonra Peyğəmbərin (s) yanına gəldilər. Gördülər ki, Əmirəl-möminin, Fatimə, Həsən və Hüseyn onun yanındadırlar. Onlar qorxdular və Peyğəmbərə (s) dedilər:«Səninlə razılaşırıq, bizi mübahilə etməkdə üzürlü bil.» Beləliklə, Allahın Peyğəmbəri (s) cizyə əsasında onlarla razılaşdı və onlar dağılışıb getdilər.»[4]

ιοοοοοοπ

---

[1] İki tərəfin bir-birinə nifrin və qarğış etməsi

[2] Ali-İmran, ayə 61

[3] əl-Kafi, c.2, səh.514, hədis 4

[4] Nurus-Səqəleyn, c.1, səh.347, hədis 157

54

# Bey‘ət

***274.Bey’ət***

**Qur’an:**

«Sənə bey‘ət edənlər şübhəsiz ki, Allaha bey‘ət edirlər. Allahın (qüdrət) əli onların əllərinin üstündədir. Kim (bey’əti) pozsa, ancaq öz əleyhinə pozmuşdur. Kim Allah ilə bağladığı bey’ətə vəfalı olsa, tezliklə Allah ona böyük bir mükafat verər.»[1]

«Allahla əhd bağladığınız zaman ona vəfalı olun və andlarınızı möhkəmləndirdikdən sonra onları pozmayın.»[2]

**Hədis:**

928.Əli ibn İbrahim:«Həqiqətən Allah möminlərdən razı oldu»[3] ayəsi «rizvan» (razılıq) bey’əti barəsində nazil oldu və bey’ət edənlərlə şərt kəsdi ki, Peyğəmbərin işlərinə irad tutmasın və onun əmrlərindən boyun qaçırmasınlar. Allah-taala «rizvan» (bey’əti) ayəsi nazil olduqdan sonra buyurdu:«Səninlə bey‘ət edənlər…..»[4]

929.Sələmə ibn əl-Əkvə «Hüdeybiyyə günü Peyğəmbərlə hansı işə görə bey’ət etdiniz?» sualının cavabında deyib:«Ölümə görə!»[5]

***275.Qadınların bey’əti***

**Qur’an:**

«Ya Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkləri, övladlarını öldürməyəcəkləri, özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı, bəyənilən işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə bey’ət etmək üçün yanına gəldikləri zaman onların bey’ətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən Allah bağışlayan və rəhm edəndir.»[6]

**Hədis:**

930.İmam Cavad (ə):«Allahın Peyğəmbərinin qadınlarla bey’əti belə idi ki, o Həzrət əlini içində su olan bir qabın içinə qoyub sonra çıxarardı və qadınlar

---

[1] Fəth, ayə 10
[2] Nəhl, ayə 91
[3] Fəth, ayə 18
[4] Təfsir Qumi, c.2, səh.315
[5] səhih-Müslim, hədis 1760
[6] Mumtəhinə, ayə 12

Allaha olan imanlarını (dildə) iqrar və aşkar etməklə, Onun peyğəmbərini təsdiqləməklə əllərini həmin qabın içinə salardılar.»[1]

***276.Bey'əti pozmaq***

931.Allahın Peyğəmbəri (s):«Allah üç nəfərlə danışmayacaq …. (Onlardan biri də) öz imam və rəhbəri ilə dünyəvi məqsədlər üçün bey'ət edən şəxs. Əgər (imamı onun) istəyini yerinə yetirsə əhdinə vəfa edir, yerinə yetirməsə isə əl çəkir.»[2]

932.İmam Əli (ə):«Həqiqətən Bərzəx aləmində Həsinə adında bir şəhər var. Məndən həmin şəhərdə nə olmasını soruşmaq istəmirsiniz?» Dedilər:«Ey Əmirəl-möminin, o şəhərdə nə var?» Buyurdu:«Bey'ətlərini pozanların əlləri!»[3]

933.İmam Rza (ə):«Bey'ətini pozan şəxs pis hadisədən amanda deyil.»[4]

***277.Müsəlmanların imam Əli ilə bey'əti***

934.İmam Əli (ə):«Camaat! Siz məndən əvvəlkilərlə bey'ət olunduğu kimi mənimlə də bey'ət etdiniz. İnsanlar bey'ət edəndən qabaq azad və ixtiyar sahibidirlər. (Amma bey'ət etdikdən sonra mənə tabe olmaq məcburiyyətindədirlər.)»[5]

935.İmam Əli (ə) «Təlhə və Zübeyr ilə nə üçün vuruşurdun?» sualının cavabında buyurmuşdur:«Çünki mənimlə olan bey'əti pozdular və mənə tabe olan möminləri öldürdülər.»[6]

936.İmam Əli (ə):«Mənə bey'ət etmək üçün gölməçənin ətrafına toplaşan susuz dəvələr kimi şövqlə ətrafıma toplaşdınız.»[7]

ιοοοοοοπ

---

[1] Tuhəful-Uqul, səh.457
[2] əl-Xisal səh.107, hədis 70
[3] Biharul-Ənvar, c.67, səh.186, hədis 7
[4] Biharul-Ənvar, c.67, səh.186, hədis 4
[5] əl-İrşad, c.1, səh.243
[6] Nəhcüs-Səadə, c.1, səh.375
[7] əl-İrşad, c.1, səh.260

**55**

# Ticarət

***278.Ticarət***

**Qur'an:**

«Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən ticarət istisna olmaqla bir-birinizin mallarını haqsız yerə yeməyin və bir-birinizi öldürməyin. Həqiqətən Allah sizə qarşı mərhəmətlidir.»[1]

**Hədis:**

937.İmam Əli (ə):«Ticarət işləri ilə məşğul olun ki, ticarət sizi başqalarının malından ehtiyacsız edir. Allah-taala düz olan peşə sahibini sevir.»[2]

938.İmam Sadiq (ə):«Ticarət etmək ağlı artırar.»[3]

***279.Ticarət etməmək***

939.İmam Sadiq (ə):«Ticarət etməmək ağlı zəiflədir.»[4]

940.İmam Sadiq (ə) geyim alveri ilə məşğul olan Məaz ibn Kəsir «mənim özümə görə sərvətim var və bazardan çıxmaq qərarına gəlmişəm» dedikdə buyurmuşdur: «Belə olan halda nəzərin etibardan düşəcək və heç bir işdə səndən kömək istənilməyəcək.»[5]

***280.Ticarətin qayda və şərtləri***

941.Allahın Peyğəmbəri (s):«Alver edən şəxs beş işdən - sələmdən, and içməkdən, malın eybini gizlətməkdən, satanda tərifləməkdən və alanda pisləməkdən çəkinməli, əks təqdirdə (deyilənləri etməyəcəyi təqdirdə) alveri tərk etməlidir.»[6]

942.İmam Əli (ə):«Qorxaq tacir ruzidən məhrum qalar, cəsarətli tacirin ruzisi olar.»[7]

943.İmam Əli (ə):«Ey tacirlər! Ticarətin hökmlərini öyrənin sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin sonra ticarət edin!»[8]

---

[1] Nisa, ayə 29
[2] Vəsailuş-Şiə, c.12, səh.4, hədis 6
[3] əl-Kafi, c.5, səh.148, hədis 2
[4] əl-Kafi, c.5, səh.148, hədis 1
[5] əl-Kafi, c.5, səh.149, hədis 10
[6] Biharul-Ənvar, c.103, səh.95, hədis 18
[7] Kənzul-Ummal, hədis 9293
[8] əl-Kafi, c.5, səh.150, hədis 1

944.İmam Əli (ə):«Ey tacirlər! Qazanc və işə başlamamışdan Allahdan xeyir diləyin, alverdə sadə olmaqla Allahdan bərəkət axtarın, alıcılara yaxınlaşın, həlimlik zinəti ilə bəzənin, and içməkdən çəkinin, yalan deməkdən uzaqlaşın, zülm etmək və haqsızlıqdan qorxun, məzlumlarla insaf və ədalətli davranın, sələmin ətrafına fırlanmayın «və ölçü və çəkini kamil edin, camaatın haqqından bir şey kəsməyin və yer üzündə fəsad törədən olaraq dolaşmayın.»[1]

945.İmam Sadiq (ə):«Ticarət etmək istəyən hər bir şəxs öz dininin hökmlərini öyrənməlidir ki, halalı haramdan seçə bilsin. Öz dininin hökmlərini öyrənmədən ticarət edən şəxs şübhələr (halal –haramlığı məlum olmayan) bataqlığına yuvarlanar.»[2]

946.İmam Sadiq (ə):«Bir-biri ilə alver edən iki müsəlmandan biri peşman olub işin pozulmasını istəyən zaman qarşı tərəf onun xahişini qəbul etsə, Allah Qiyamət günü onun səhv və xətalarından keçər.»[3]

### *281.Çəkidə aldatmaq qadağandır*

**Qur'an:**

«Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslərin ki, özləri xalqdan bir şey alan zaman onu tam ölçüb alar, xalq üçün ölçdükdə və ya çəkdikdə isə onu əskildərlər.»[4]

*Həmçinin müraciət et:Ən'am 152;Hud 84, 85; Şuəra 181-183; ər-Rəhman 7-9*

**Hədis:**

947.Allahın Peyğəmbəri (s):«Çəkəndə (müştərinin xeyrinə) ağır çəkin.»[5]

948.İmam Sadiq (ə):«Tərəzi müştərinin xeyrinə ağır olmayınca müştərinin haqqı ödənilməyəcəkdir.»[6]

### *282.Tacirlərin sədəqə verməyə təşviq edilməsi*

949.Allahın Peyğəmbəri (s):«Ey tacirlər! Alver zamanı Şeytan və günah yanınızdadır. Odur ki, alış-verişinizi sədəqə ilə qarışdırın.»[7]

### *283.Alış-verişdə asanlıq yaratmaq*

950.Allahın Peyğəmbəri (s):«Allah rəhm etsin o bəndəyə ki, alış-verişdə, borcun verilməsi və alınmasında asanlıq yaradır.»[8]

951.İmam Əli (ə) mal satan bir kişiyə tövsiyə edərək buyurmuşdur: «Allahın Peyğəmbərinin (s) belə buyurmasını eşitdim: Güzəşt və asanlıq yaratmağın özü bir növ mənfəətdir.»[9]

---

[1] Biharul-Ənvar, c.78, səh.54, hədis 100
[2] Vəsailuş-Şiə, c.12, səh.283, hədis 4
[3] Vəsailuş-Şiə, c.12,səh.287, hədis 4
[4] Mütəffifin, ayə 1-3
[5] Kənzul-Ummal, hədis 9442
[6] əl-Kafi, c.5, səh.159, hədis 1
[7] Kənzul-Ummal, hədis 9440
[8] Kənzul-Ummal, hədis 9453
[9] Vəsailuş-Şiə, c.12, səh.288, hədis 4

***284.Çənə vurmaq***

952.Allahın Peyğəmbəri (s):«Ey Əli! Dörd şeydə çənə vurma: «Qurbanlığın, kəfənin və qulun alınmasında və Məkkə səfərinin kirayəsində.»[1]

953.İmam Baqir (ə):«Müştəri ilə çənə vur. Çünki çox pul versə də çənə vurmaq rahatlıq və xatircəmliyə səbəb olur. Alış-verişdə ziyana uğrayan nə tərifə layiqdir, nə də mükafata!»[2]

***285.Çənə vuranla çənə vurmayan arasında fərq qoymamaq***

954.İmam Sadiq (ə) malının üstünə müəyyən bir qiymət qoyub onu çənə vurmayan müştəriyə həmin qiymətə, malı həmin qiymətə almaq istəməyən buna görə də çənə vuran müştəriyə isə malı artıran şəxs barəsində buyurmuşdur:«Əgər hər ikisinə və üçüncü bir şəxsə (satanda) malı artırsa eybi yoxdur. Amma həmin miqdar malı o qiymətə almaqdan imtina edərək çənə vuran şəxsə belə edir, çənə vurmayana etməyirsə, mən bu cür işi bəyənmirəm.Əlbəttə, malın hamısını bir yerdə topdan satsa bu istisnadır.»[3]

***286.Möminin mömindən qazanc götürməsi***

955.İmam Sadiq (ə):«Möminin mömindən qazanc götürməsi sələmdir, bu istisna ilə ki, malı yüz dirhəmdən artıq qiymətə almış olsa, bu halda həmin malın qiymətinin üstünə gündəlik yeməyin miqdarı qədər artır. Yaxud da (mömin mömindən aldığı malı) ticarət etmək üçün almış olsun ki, onda onlardan qazanc götürmək olar. Amma (hər halda) bir-birinizlə mülayim və mehriban davranın.»[4]

956.İmam Sadiq (ə) möminin mömindən qazanc götürməsinin sələm olması barəsindəki rəvayətlə bağlı buyurmuşdur:«Bu haqqın hakim olduğu və biz əhl-beytin Qaim imamı qiyam edən zaman üçündür. Bu gün isə (həmin işi görməyin) eybi yoxdur.»[5]

***287.Yaramaz və pis əməlli tacirlər***

957.Allahın Peyğəmbəri (s):«Tacirlər yaramaz adamlardırlar.» (Peyğəmbərə) dedilər:«Ey Allahın Peyğəmbəri, məgər Allah alış-verişi halal etməyib?» Buyurdu:«Bəli, amma bu tayfa alver edən zaman yalan danışır və and içməklə günah edir.»[6]

958.Kənzül-ummal:«İmam Əli (ə) bazara gələr və öz yerində dayanıb buyurardı:«Salam olsun sizə ey bazar əhli! Allahdan qorxun və and içməyin! Çünki and içmək malı rövnəqləndirir və bərəkəti aradan aparır. Düz alıb düz verəni istisna olmaqla, tacirlər yaramaz adamlardır!»[7]

---

[1] əl-Xisal səh.245, hədis 103
[2] Vəsailuş-Şiə, c.12, səh.335, hədis 2
[3] əl-Kafi, c.5, səh.152, hədis 10
[4] əl-Kafi, c.5, səh.154, hədis 22
[5] Vəsailuş-Şiə, c.12, səh.294, hədis 4
[6] Kənzul-Ummal, hədis 9451
[7] Kənzul-Ummal, hədis10043

***288.Tacirin doğru danışmağı***

959.Allahın Peyğəmbəri (s):«Doğru danışan və doğru əməl sahibi olan müsəlman tacir Qiyamətdə şəhidlərlə bir yerdə olar.»[1]

960.Allahın Peyğəmbəri (s):«Doğru danışan tacir Qiyamətdə ərşin kölgəsinin altında olacaqdır.»[2]

961.Allahın Peyğəmbəri (s):«Allah üç nəfər(in üzün)ə baxmayacaq: «……öz malını yalandan tərifləyənə.»[3]

***289.And içməklə malı tərifləmək***

962.İmam Əli (ə):«Ey dəllallar! Az and için! Çünki bu iş malın satılmasına səbəb olsa da,(həqiqi) xeyir və mənfəəti aradan aparar.»[4]

963.İmam Sadiq (ə):«Allah-taala malını and içməklə satan şəxsə nifrət edər.»[5]

***290.Axirət ticarəti***

**Qur’an:**

«Ey iman gətirənlər! Sizə elə bir ticarət yolu göstərimmi ki, o sizi şiddətli əzabdan xilas etsin? (O bundan ibarətdir:) Allaha və Onun Peyğəmbərinə iman gətirin və Allah yolunda mal və canınızla cihad edin. Əgər bilsəniz, bu sizin üçün daha xeyirlidir.»[6]

**Hədis:**

964.Allahın Peyğəmbəri (s):«Gözün görən və qəlbinə yatan hər bir şeyi Allaha görə kənara qoy. Budur axirət ticarəti. Çünki Allah buyurub:«Sizdə olan tükənər, Allah dərgahında olan isə əbədidir.»[7]

965.Allahın Peyğəmbəri (s):«Dünya taciri özünü və malını təhlükəyə atır, axirət taciri isə qazanc və mənfəət götürür. Onun ilk qazancı nəfsi, ondan sonra isə uca Cənnət!»[8]

966.İmam Əli (ə):«Saleh əməl kimi ticarət, savab kimi qazanc yoxdur.»[9]

967.İmam Əli (ə):«Ən çox qazancı dünyanı verib axirəti alan şəxs əldə edib.»[10]

968.İmam Əli (ə):«Kim özünü Cənnətdən başqa bir qiymətə satsa dərdi-sərə düşüb.»[11]

---

[1] Kənzul-Ummal, hədis9216
[2] Kənzul-Ummal, hədis9218
[3] Biharul-Ənvar, c.75, səh.211, hədis 6
[4] əl-Kafi, c.5, səh.162, hədis 2
[5] Əmali-Səduq, səh.390, hədis 6
[6] Səff, ayə 10, 11
[7] Biharul-Ənvar, c.77, səh.106, hədis 1
[8] Tənbihul-Xəvatir, c.2, səh.120
[9] Biharul-Ənvar, c.69, səh.409, hədis 122
[10] Ğurərul-Hikəm, hədis 3076
[11] Ğurərul-Hikəm, hədis 3474

969.İmam Əli (ə):«Kim Allaha itaəti öz malı etsə, ticarət etmədən qazanclar ona tərəf gələr.»[1]

***291.Ticarət mömini Allahı zikr etməkdən və yada salmaqdan yayındırmır***

**Qur'an:**

«O kəslər ki, nə ticarət, nə alış veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən qorxarlar.»[2]

**Hədis:**

970.Fiqhur-Rza (ə) kitabında:«Qazanc və ticarətlə məşğul ikən namazın vaxtı çatan zaman alverin səni namazdan saxlamasın. Çünki Allah bəzilərini bu cür vəsf edərək tərifləyib:«O kəslər ki,….. yayındırmaz» Onlar tacir olublar. Amma namazın vaxtı çatan kimi qazanc və alverdən əl çəkərək namaza durardılar. Onların muzd və mükafatı ticarət etməyib namaz qılanlardan çox idi.»[3]

***292.Ticarət və din***

971.İmam Əli (ə):«Dinini öz dükanı etmiş şəxsin dinindən payı, elə həmin yediyidir.»[4]

972.İmam Əli (ə):«Axirət əməli ilə dünya (malı) axtaran şəxs öz məqsədindən daha da uzaqlaşar.»[5]

ιooooooπ

[1] Ğurərul-Hikəm, hədis 8864
[2] Nur, ayə 37
[3] Biharul-Ənvar, c.103, səh.100, hədis 40
[4] Tuhəful-Uqul, səh.223
[5] Ğurərul-Hikəm, hədis 7901

**56**

# Tövbə

***293.Tövbə***

***Qur'an:***

«Bəndələrinin tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur.»[1]

973.Allahın Peyğəmbəri (s):«Tövbə keçmişdə olanların üstünü örtür.»[2]

974.Allahın Peyğəmbəri (s):«Günahından tövbə etmiş şəxs günah etməmiş şəxs kimidir.»[3]

975.İmam Əli (ə):«Tövbə günahları təmizləyər və qəlbi yuyar.»[4]

***294.Tövbə edənin məqamı***

**Qur'an**

«Allah tövbə edənləri və pak olanları sevir.»[5]

**Hədis:**

976.Allahın Peyğəmbəri (s):«Allah yanında tövbə etmiş mömin kişi və mömin qadından sevimli heç nə yoxdur.»[6]

977.Allahın Peyğəmbəri (s):«Adəm övladının hamısı səhv və xəta edir, xəta edənlərin ən yaxşısı tövbə edənlərdir.»[7]

978.Allahın Peyğəmbəri (s):«Həqiqətən Allahın öz bəndəsinin tövbə etməsindən sevinci uşağı olmayanın uşağı olduqda, bir şey itirən kəsin itirdiyini tapdıqda və susuz şəxsin su tapan zaman duyduğu sevincdən çoxdur.»[8]

***295.Tövbə edənlər***

***Qur'an:***

«Tövbə, ibadət və şükr-səna edənlər, oruc tutanlar, ruku və səcdə edənlər….»[9]

---

[1] Şura, ayə 25
[2] Müstədrəkul-Vəsail, c.12, səh.129, hədis 13706
[3] Kənzul-Ummal, hədis 10174
[4] Ğurərul-Hikəm, hədis 1355
[5] Bəqərə, ayə 222
[6] Biharul-Ənvar, c.6, səh.21, hədis 15
[7] Əd-durrul-Mənsur, c.1, səh.626
[8] Kənzul-Ummal, hədis 10165
[9] Tovbə, ayə 112

**Hədis:**

979.Allahın Peyğəmbəri (s):«Tövbə etmiş şəxsin dörd nişanəsi var: əməli yalnız Allaha görə xalisləşdirmək, batili tərk etmək, haqqa bağlılıq və yaxşılığa hərislik.»[1]

980.İmam Əli (ə) tövbə edənlərin vəsfində buyurmuşdur:«Günah ağaclarını göz və qəlblərinin qabağında basdırıblar və onları peşmançılıq suyu ilə suvarıblar. Bu ağaclar onlara salamatlıq barı verib və arxasınca razılıq və kəramət gətirib.»[2]

981.İmam Səccad (ə) münacatlarının birində: «Bizi o kəslərdən et ki, ...... nəfsi istəklərin od pərdəsini tövbə yaşı tökməklə kəsiblər və nadanlıq qablarını həyat suyunun zülalı ilə yuyublar.»[3]

### *296.Tövbənin qəbul olunması*

**Qur'an:**

«Bəndələrinin tövbəsini qəbul edən, günahları bağışlayan....Odur»[4]

**Hədis:**

982.İmam Əli (ə): «Tövbə (etmək uğuru) verilmiş şəxs onun qəbul edilməsindən məhrum edilməz və istiğfar (etmək uğuru) verilmiş şəxs isə bağışlanmaqdan məhrum qalmaz!»[5]

### *297.Tövbə nə vaxt qəbul edilir?*

**Qur'an:**

«Günah işlər görməkdə davam edərək ölüm yetişən anda «mən indi tövbə etdim» deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz.»[6]

**Hədis:**

983.Allahın Peyğəmbəri (s):«Kim (əzabı) müşahidə etməmişdən qabaq tövbə etsə, Allah onun tövbəsini qəbul edər.»[7]

984.İmam Baqir (ə) əli ilə boğazına işarə edərək buyurmuşdur:«Can bura çatanda alim və bilənin tövbəsi (tövbə etməyə bir yolu) yoxdur, amma nadanın var.»[8]

985.İmam Rza (ə) «Allah-taala nə üçün Fir'onu iman gətirməsinə və Onun birliyini iqrar etməsinə baxmayaraq suda batırdı?» sualının cavabında buyurmuşdur:«Çünki o əzabı müşahidə edən zaman iman gətirdi, əzabı müşahidə edən zaman iman gətirmək isə qəbul edilməz.»[9]

---

[1] Tuhəful-Uqul, səh.20
[2] Biharul-Ənvar, c.78, səh.72, hədis 38
[3] Biharul-Ənvar, c.94, səh.127, hədis 19
[4] Şura, ayə 25
[5] Biharul-Ənvar, c.69, səh.410, hədis 124
[6] Nisa, ayə 18
[7] əl-Kafi, c.2, səh.440, hədis 2
[8] əl-Kafi, c.2, səh.440,hədis 3
[9] Biharul-Ənvar, c.6,səh.23,hədis 25

***298.Peşman olmaq bir növ tövbədir***

986.Allahın Peyğəmbəri (s):«Peşmançılıq tövbədir.»[1]

987.İmam Əli (ə):«Günahdan peşman olmaq istiğfardır.»[2]

988.İmam Əli (ə):«Qəlbin peşman olması günahın üstünü örtər.»[3]

***299.Səmimi etiraf***

**Qur'an:**

«Digər bir dəstə günahını etiraf etdi ki, onlar yaxşı bir əməl ilə pis bir əməli bir-birinə qarışdırmışlar. Ola bilər ki, Allah onların tövbələrini qəbul etsin.»[4]

**Hədis:**

989.İmam Əli (ə):«Öz günahını etiraf edən günahkar, öz əməli ilə öyünən itaətkardan daha yaxışıdır.»[5]

990.İmam Baqir (ə):«Vallah, günahı etiraf edən şəxsdən başqa heç kəs ondan qurtulmaz.»[6]

991.İmam Baqir (ə):«Vallah, Allah-taala insanlardan yalnız iki şey – nemətlərini daha da artırmaq üçün onlara görə şükr etmələrini və günahlarını bağışlamaq üçün günahlarını e'tiraf etmələrini istəyib.»[7]

***300.Tövbənin sütunları***

**Qur'an:**

«Hər kəs zülmündən sonra tövbə etsə və özünü düzəltsə Allah onun tövbəsini qəbul edər. Həqiqətən Allah bağışlayan və rəhm edəndir.»[8]

«Şübhəsiz ki, Mən tövbə edib iman gətirəni və yaxşı işlər görüb sonra doğru yolu tutanı çox bağışlayanam.»[9]

**Hədis:**

992.İmam Əli (ə):«Tövbə dörd sütun - qəlbdə peşmançılıq (keçirmək), dil ilə bağışlanma istəmək, bədən üzvləri ilə əməl etmək və (günaha) qayıtmamaq qərarı üzərində dayanmışdır.»[10]

993.əl-Kafi:«Nəx'ə tayfasının böyüklərindən biri olan Vəhəb ibn Əbdi Rəbbih deyir:«İmam Baqirə (ə) dedim:«Mən Həccacın zamanından indiyə kimi vali olmuşam, mənim tövbəm qəbul olar?» Həzrət susdu. Mən sözümü bir də təkrar etdim. Həzrət buyurdu:«Xeyr, yalnız bu istisna ilə (tövbən qəbul ola bilər) ki, hər bir haqq sahibinin haqqını özünə qaytarasan.»[11]

---

[1] Kənzul-Ummal, hədis 10301
[2] Mustədrəkul-Vəsail, c.12, səh.118, hədis 13674
[3] Mustədrəkul-Vəsail, c.12, səh.118, hədis 13674
[4] Tovbə, ayə 102
[5] Ğurərul-Hikəm, hədis 6334
[6] Biharul-Ənvar, c.6, səh.36, hədis 56
[7] əl-Kafi, c.2, səh.426, hədis 2
[8] Maidə, ayə 39
[9] Ta-ha, ayə 82
[10] Biharul-Ənvar, c.78, səh.81, hədis 74
[11] əl-Kafi, c.2, səh.331, hədis 3

***301.Tövbənin növləri***

994.Allahın Peyğəmbəri (s):«Hər bir günah üçün (ona uyğun) bir (tərzdə) tövbə et, gizli günah üçün gizli tövbə və aşkar günah üçün aşkar tövbə!»[1]

***302.Səmimi və xalis niyyətlə tövbə***

**Qur'an:**

«Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən və xalis niyyətlə tövbə edin.»[2]

**Hədis:**

995.Allahın Peyğəmbəri (s):«Səmimi-qəlbdən və xalis niyyətlə edilmiş tövbə etdiyin günahdan peşman olmağın, Allahdan bağışlanma diləməyin və bir də heç vaxt ona qayıtmamağındır.»[3]

996.İmam Hadi (ə) səmimi-qəlbdən edilmiş xalis tövbə barəsindəki sualın cavabında buyurmuşdur:«Səmimi və xalis tövbə batinin zahir kimi və (hətta) ondan da yaxşı olmasıdır.»[4]

***303.Tövbəni təxirə salmaq, gecikdirmək***

997.İmam Əli (ə):«Günah edən zaman tövbə ilə onun məhvinə tələs.[5]

998.İmam Əli (ə):«Tövbə işini sabaha saxlayan kəs ölümün hücumu ilə çox böyük təhlükə qarşısındadır.»[6]

999.İmam Cavad (ə):«Tövbəni təxirə salmaq aldanmaq və qəflətdir, bu gün-sabah etmək isə çaşqınlıq və məəttəlçilik!»[7]

***304.Tövbədən daha asan…***

1000.İsa Məsih (ə):«Camaata borclu olmayan kəs, borclu olub borcunu vaxtında qaytaran kəsdən də daha rahat və qəmi azdır. Həmçinin günah etməyən kəs, günah edib hətta səmimi qəlbdən xalis tövbə edən və Allaha tərəf qayıdandan daha rahat və xatircəmdir.»[8]

1001.İmam Əli (ə):«Günah etməmək tövbə(nin qəbul olunmasını) istəməkdən daha asandır.»[9]

***305.Allah-taalanın tövbə edən şəxsin eyblərinin üstünü örtməsi***

1002.İmam Əli (ə):«Kim (Allaha tərəf) qayıtsa Allah da ona (tərəf) qayıdar və onun bədən üzvlərinə və yerin hər bir parçasına onun abrını qorumaq,

---

[1] Biharul-Ənvar, c.77, səh.127, hədis 33
[2] Təhrim, ayə 8
[3] Kənzul-Ummal, hədis 10302
[4] Biharul-Ənvar, c.6, səh.22, hədis 20
[5] Biharul-Ənvar, c.77, səh.208, hədis 32
[6] Müstədrəkul-Vəsail, c.12, səh.130, hədis 13707
[7] Tuhəful-Uqul, səh.456
[8] Tuhəful-Uqul, səh.392
[9] Biharul-Ənvar, c.73, səh.364, hədis 96

eyblərinin üstünü örtmək və əməlləri qoruyan mələklərin onun barəsində yazdıqları günahların onların yadlarından çıxarılması əmr edilər.»[1]

### *306.Pis əməllərin yaxşı əməllərə çevrilməsi*

**Qur'an:**

«Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayan və rəhm edəndir.»[2]

**Hədis:**

1003.İmam Sadiq (ə):«Allah-taala Davud peyğəmbərə (əla nəbiyyina və alihi və əleyhis-səlam) vəhy etdi ki:«Ey Davud! Mömin bəndəm günah etsə və sonra həmin günahdan üz döndərərək tövbə etsə və onu xatırlayan zaman Məndən həya etsə onu bağışlayar, həmin günahı əməlləri qoruyub saxlayan mələklərin yadından çıxarar və onu yaxşılığa çevirərəm. Mənim bu işdən heç bir çəkinəcəyim yoxdur. Çünki Mən mehribanların ən mehribanıyam.»[3]

### *307.Allahın əvəzinə hökm çıxarmaq*

1004.Allahın Peyğəmbəri (s):«Ümmətimdən vay o kəslərə ki, Allahın əvəzinə hökm çıxarırlar. O kəslər ki deyirlər:«Filankəs Cənnətlikdir, filanikəs Cəhənnəmlik.»[4]

1005.Allahın Peyğəmbəri (s):«Günlərin birində bir kişi dedi:«Vallah, Allah filankəsi bağışlamayacaq.» Onda Allah-taala buyurdu:«Bu kimdir ki, Mənim filankəsi bağışlamayacağıma and içir? Mən həmin şəxsi bağışladım və ikincinin (saleh) əməlini «Allah filankəsi bağışlamayacaq» dediyinə görə batil və puç etdim.»[5]

ıooooooπ

---

[1] Biharul-Ənvar, c.6, səh.28, hədis 32
[2] Furqan, ayə 70
[3] Biharul-Ənvar, c.6, səh.28, hədis 30
[4] Kənzul-Ummal, hədis 7902
[5] Vəsailuş-Şiə, c.11, səh.267, hədis 13

# 57

# Töhmət

***308.Töhmət***

1006.İmam Sadiq (ə):«Mömin öz (mömin) qardaşına töhmət vuran zaman iman onun qəlbində duz suda əridiyi kimi əriyər.»[1]

1007.İmam Sadiq (ə):«Kim öz din qardaşına töhmət vursa, onların arasında hörmət qalmaz.»[2]

***309.Töhmətə səbəb olan yerlərə getmək qadağandır***

1008.Allahın Peyğəmbəri (s):«Töhmətə ən layiqli şəxs töhmətli adamlarla yoldaşlıq edən kəsdir.»[3]

1009.İmam Əli (ə):«Töhmətə səbəb olan və barəsində pis gümanlar edilən məclislər(ə getmək)dən çəkin. Çünki pis dost öz yoldaşını aldadır.»[4]

1010.İmam Əli (ə):«Töhmətə səbəb olan yerlərdə dayanan kəs onun barəsində pis gümana düşən şəxsi məzəmmət etməməli, qınamamalıdır.»[5]

1011.İmam Əli (ə):«Pis yerlərə get-gəl edən şəxs pis güman və töhmətə məruz qalar.»[6]

ιοοοοοοπ

---

[1] əl-Kafi, c.2 səh.361, hədis 1
[2] əl-Kafi, c.2 səh.361, hədis 2
[3] Əmali-Səduq , səh.28, hədis 4
[4] Biharul-Ənvar, c.75, səh.90, hədis 2
[5] Biharul-Ənvar, c.75, səh.90, hədis 4
[6] Biharul-Ənvar, c.75, səh.91, hədis 8

# 58

# Savab

***310.Savab***

1012.İmam Əli (ə):«Sənin əməlinin savabı əməlin özündən üstündür.»[1]

1013.İmam Əli (ə):«Axirətin savab və mükafatı dünyanın əziyyət və çətinliklərini yaddan çıxarır.»[2]

1014.İmam Əli (ə):«Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah bəndələrini öz qəzəb və əzabından saxlamaq və öz Cənnətinə tərəf sövq etmək məqsədi ilə Ona itaət edənlər üçün savab və mükafat, Ona itaətsizlik edənlər üçün isə cəza müəyyənləşdirdi.»[3]

1015.İmam Əli (ə):«Əməlin savabı onun əziyyət və zəhməti qədərdir.»[4]

***311.Ən böyük savab***

1016.İmam Əli (ə):«Ən böyük savab insafın savabıdır.»[5]

1017.İmam Əli (ə):«Cihadın savabı ən üstün savabdır.»[6]

1018.İmam Əli (ə):«İki şeyin – əfv etmək və ədalətin savabının- ölçülməsi və çəkilməsi qeyri mümkündür.»[7]

***312.»Filan işin savabı var» eşidən kəs***

1019.İmam Baqir (ə):«Kim Allahın (hansısa) bir əməlin yerinə yetirilməsinə savab verməsini eşitsə və o savabı əldə etmək üçün həmin işi yerinə yetirsə, hədis o eşitdiyi kimi olmasa da, ona həmin savab veriləcəkdir.»[8]

ιοοοοοοπ

---

[1] Ğurərul-Hikəm, hədis 4688
[2] Ğurərul-Hikəm, hədis 4692
[3] Nəhcül-Bəlağə, hikmət 368
[4] Ğurərul-Hikəm, hədis 4690
[5] Ğurərul-Hikəm, hədis 3387
[6] Ğurərul-Hikəm, hədis 4695
[7] Ğurərul-Hikəm, hədis 5769
[8] əl-Kafi, c.2, səh.87, hədis 2

## 59

# İnqilab

***313.Şərqdə Mehdinin zühurundan qabaq İslam inqilabının olması***

1020.İmam Əli (ə):«Şərqdə camaat qiyam edəcək və Mehdinin hakimiyyətinə şərait yaradacaq.»[1]

1021.Abdullah:«Peyğəmbərin yanında oturmuşduq və Qureyşdən olan bir neçə gənc oradan keçdi. Peyğəmbərin rəngi dəyişdi. Dedik:«Ey Allahın Peyğəmbəri! Biz həmişə sizin üzünüzdə xoşagəlməz və narahatedici bir hal görürük.» Buyurdu:«Biz elə bir ailəyik ki, Allah bizim üçün dünyanın yerinə axirəti seçib. Məndən sonra mənim bu Əhli-Beytim bəla, didərginlik və sürgünə düçar olacaq, o vaxta kimi ki, burdan – əli ilə şərqə işarə etdi – bir qövm qara bayraqlarla qiyam edəcək. Onlar haqqı tələb edərlər, amma haqq, onlara verilməz. Onlar bir daha haqqı tələb edərlər, amma yenə də onlara verməzlər. Sonra döyüş və müqavimətə əl atarlar və nəhayət onların istədiklərini verərlər. Amma onlar onu mənim Əhli-Beytimdən dünyanı azğınlıq və ədalətsizliklə dolduğu kimi ədalətlə dolduran bir kişiyə verənə kimi qəbul etməzlər. Kim həmin qövmü görsə hətta qarın üzərində sürünməklə olsa belə onlara birləşsin.»[2]

***314.Əcəmlərin inqilabda rolu***

1022.Allahın Peyğəmbəri (s) (ərəblərə xitab edərək) farslar barəsində buyurmuşdur:«Siz Qur’anın nazil olmasının üstündə onlarla vuruşdunuz. Dünya sona çatmamış, onlar da Qur’anın tə’vili üstündə sizinlə vuruşarlar.»[3]

1023.Allahın Peyğəmbəri (s):«Mütləq əmr be məruf və nəhy əz münkər edin. Yoxsa Allah əcəmi sizin üstünüzə göndərəcək. Onlar sizin boyunlarınızı vuracaq, qənimətlərinizi yeyəcək və qorxmaz şirlər olacaqlar.»[4]

1024.İmam Əli (ə):«Sanki əcəmi Kufə məscidində çadır qurmuş və Qur’anı camaata nazil olduğu kimi öyrədən görürəm.»[5]

---

[1] Kənzul-Ummal, hədis 38657
[2] ət-Təşrif bil-minən, səh.314, hədis 445
[3] Biharul-Ənvar, c.67, səh.174, hədis 7
[4] ət-Təşrif bil-minən, səh.95, hədis 59
[5] əl-Ğeybə, Nömani, səh.318, hədis 5

***315.Qum şəhərindən inqilab***

1025.İmam Sadiq (ə):«Elə bir dövr gələcək ki, Qum şəhəri və onun əhalisi digər insanlara dəlil olacaq. Həmin dövr bizim Qaimimizin (ə) qeybə çəkilməsindən Onun zühuruna kimi olacaq dövrdür. Əgər belə olmasaydı yer öz əhlini udardı. Mələklər bəlaları Qum şəhərindən və onun əhalisindən uzaqlaşdıracaqlar. Hansı zalım onlar barədə pis fikrə düşsə, zalımları məhv edən onu məhv edəcək.»[1]

1026.İmam Sadiq (ə) Əffan Bəsriyə buyurmuşdur:«Bilirsən, nə üçün «Qum» deyiblər?» (Əffan deyir ki,) Ərz etdim:«Allah, onun Peyğəmbəri və siz daha yaxşı bilirsiniz.» Buyurdu:«Qumu ona görə Qum adlandırıblar ki, oranın əhalisi Məhəmməd Əhli-Beytinin Qaiminin (salavatullah əleyh) ətrafına toplaşacaq, onunla birgə qiyam edəcək və onun yolunda müqavimət göstərib köməyinə çatacaq.»[2]

1027.İmam Kazim (ə):«Qum əhalisindən bir kişi insanları haqqa də‘vət edəcək və onun ətrafına dəmir parçaları tək insanlar toplaşacaq. Tufanlardan titrəməyəcək, vuruşmaqdan usanmayacaq və qorxu-hürkü bilməyəcəklər. Onlar Allaha təvəkkül edərlər və (gözəl) aqibət də pərhizkarlarındır.»[3]

1028.Biharul-ənvar:«Şiələrdən biri deyir:«İmam Sadiqin (ə) yanında oturmuşduq və o Həzrət «onlardan birincisinin vaxtı gələndə üstlərinə bəndələrimizdən bir dəstə güclü cəngavərlər göndərdik. Onlar hətta evlərinin içində belə vuruşdular və bu vəd artıq yerinə yetirildi» ayəsini oxudu. Dedik:«Sənə fəda olaq, bunlar kimlərdir?» Üç dəfə buyurdu:«And olsun Allaha, onlar Qum əhlidirlər!»[4]

ιoooooοπ

---

[1] Biharul-Ənvar, c.60, səh.213, hədis 22
[2] Biharul-Ənvar, c.60, səh.216, hədis 38
[3] Biharul-Ənvar, c.60, səh.216, hədis 37
[4] Biharul-Ənvar, c.60, səh.216, hədis 40

**60**

# Cəbr *(Alın yazısı)*[1]

***316.Cəbrin səhv olması***

1029.İmam Əli (ə) cəbrin səhv olması barədə buyurmuşdur:«Əgər belə olsaydı, onda savab və cəza, (yaxşı işlər görməyə) əmr (etmək) və (pis işlərdən) çəkindirmək və çirkin əməllərdən çəkindirmək əbəs işə çevrilərdi. Vəd və təhdid mənasını itirər, pis əməl sahibi qınanmaz və xeyir  əməl sahibi təşviq edilməzdi. Hətta, yaxşı əməl sahibi məzəmmətə bəd əməl sahibindən, çirkin əməl sahibi isə savab və mükafata yaxşı əməl sahibindən daha layiq olardı. Cəbr əqidəsi bütpərəstlərin və Rəhman olan Allahın düşmənlərinin sözüdür.»[2]

1030.İmam Sadiq (ə):«Səbəbinə görə bəndəni qınaya bildiyin hər bir şey onun öz işi, bəndəni səbəbinə görə qınaya bilmədiyin hər şey Allahın işidir. Allah-taala bəndəsinə:«Nə üçün itaətsizlik etdin? Nə üçün günah etdin? Nə üçün şərab içdin? Nə üçün zina etdin?» buyurur.Deməli bunlar bəndənin işidir. Lakin Allah bəndəyə «Nə üçün xəstələndin? Nə üçün boyun qısadır? Nə üçün dərin ağdır? Nə üçün dərin qaradır?» demir. Çünki bu işlər Allah-taalanın işləridir.»[3]

1031.İmam Kazim (ə):«Günahlar barəsində yalnız üç fərziyyə mövcuddur: Onlar ya Allah tərəfindəndir (Əlbəttə, bu belə deyil). Belə olan halda, Allaha bəndəni etmədiyi şeyə görə əzab vermək yaraşmaz. Yaxud, həm Allah və həm də bəndənin – hər ikisinin tərəfindəndir (Əlbəttə, belə də deyil). Bu halda da, güclü şərikin zəif şərikinə zülm etməsi rəva deyil. Yaxud da bəndənin özü tərəfindəndir (Əlbəttə, bu belədir). Belə olduqda, Allah onu bağışlasa öz böyüklük və comərdliyinə görə bağışlamış, cəza versə bəndənin öz günahına görə cəzalandırmışdır.»[4]

***317.Nə cəbr, nə də təfviz!***[5]

1032.İmam Baqir və imam Sadiq (ə):«Allah yaratdıqlarına qarşı o qədər mehribandır ki, onları günah işlərə məcbur edib, sonra onlara buna görə əzab verməz. Həmçinin, Allah o qədər qüdrətlidir ki, Onun bir şeyi istəməsi və

---

[1] Cəbrdən məqsəd icbar və məcburiyyətdir. Bu kəlmə İslam maarifi ensiklopediyasında həmin mənada azadlığın antonimi kimi termin şəklində işlədilir.

[2] Biharul-Ənvar, c.5, səh.13, hədis 19

[3] Biharul-Ənvar, c.5, səh.59, hədis 109

[4] Biharul-Ənvar, c.78, səh.323, hədis 23

[5] Təfviz də İslam maarifi terminlərindən biridir və mənası bəndənin işlərinin tam şəkildə onun özünə həvalə edilməsidir.

həmin şeyin olmaması qeyri-mümkündür.» Rəvayəti nəql edən deyir: O Həzrətdən soruşdular:«Məgər cəbr və qədər (ixtiyar ilə təfviz) arasında üçüncü bir dərəcə var?» Buyurdu:«Bəli! Yerlə göy arasındakı fəzadan da geniş olan bir dərəcə!»[1]

1033.İmam Sadiq (ə) Müfəzzəl ibn Ömər tərəfindən nəql olunan bir rəvayətdə buyurur:«Nə cəbrdir, nə təfviz, bunların ikisinin arasında olan bir işdir.» Soruşdum:«Bu iki işin arasındakı iş nədir?» Buyurdu:«Məsələn, sən günah edən bir kişini görürsən və onu həmin işdən çəkindirirsən. Ancaq, həmin şəxs bunu qəbul etmir, sən onu özbaşına buraxırsan və həmin günahı edir. Deməli, sənin yasaqlarını saymadığına görə onu özbaşına buraxdığın üçün ona günah etməyi əmr etdiyini demək olmaz!»[2]

### *318.Allah yaxşılıqlara daha çox layiqdir*

1034.İmam Rza (ə):«Allah-taala buyurdu:«Ey Adəm övladı! Sən Mənim istəyimlə istəyir, vacib etdiklərimi Mənim nemətlərimlə Mənim üçün yerinə yetirir, Mənim qüdrətimlə Mənə qarşı itaətsizlik və günah etməyə qadir olursan. Mən səni eşidən və görən yaratdım. Mən yaxşı işlərinə səndən daha layiqəm və sən pisliklərə daha çox layiqsən.»[3]

### *319.Cəbrilər və Qədərilər*[4]

1035.İmam Sadiq (ə):«Kim Allahın öz bəndələrini günah işlərə məcbur etməsini və ya onların boynuna güclərindən artıq vəzifə qoymasını düşünsə, beləsinin kəsdiyindən yeməyin, şəhadətini qəbul etməyin, arxasında namaz qılmayın və zəkatdan ona bir şey verməyin.»[5]

ιoooooπ

---

[1] ət-Tovhid, səh.360, hədis 3
[2] Biharul-Ənvar, c.5, səh.17, hədis 27
[3] Biharul-Ənvar, c.5, səh.4, hədis 3
[4] Qəzavü-qədəri inkar edərək hər bir kəsin öz əməlində azad olmasını deyən firqə.
[5] Biharul-Ənvar, c.5, səh.11, hədis 17

**61**

# Qəddarlıq

***320.Qəddarlığın pislənilməsi və qəddarların sifəti***

1036.Allahın Peyğəmbəri (s):«La ilahə illəllah» deməkdən boyun qaçıran hər kəs haqqa qarşı çıxan qəddardır.»[1]

1037.Allahın Peyğəmbəri (s):«Qiyamətdə qəddarlar və təkəbbürlülər məhşərə qarışqa şəklində gələcəklər və Allah yanında xar, dəyərsiz olduqları üçün camaat onları tapdayıb əzəcək.»[2]

1038.İmam Əli (ə):«Zorba təbiətli adamın əməli pak və öyünməli deyil.»[3]

1039.İmam Əli (ə):«Mənimlə zorba adamlarla danışılan kimi danışmayın və məndən tez əsəbləşən hakimlərdən çəkinilən kimi çəkinməyin. Mənimlə süni rəftar etməyin.»[4]

1040.İmam Sadiq (ə):«Qiyamət günü Allaha ən uzaq insanlar qəddarlar olacaq.»[5]

***321.Qəddarların aqibətlərinin pis olması***

1041.İmam Əli (ə):«Kim qəddarlıq etsə sındırılar.»[6]

1042.İmam Əli (ə):«Kim qəddarlıq etsə Allah onu xar edib alçaldar.»[7]

1043.İmam Əli (ə):«Allahın bəndələrinə qarşı qəddarlıqdan çəkin. Çünki, Allah qəddarlıq yolunu tutan hər kəsi sındırar.»[8]

ıooooooπ

---

1 ət-Tovhid, səh.22, hədis 9
2 Tənbihul-Xəvatir, c.1, səh.199
3 Ğurərul-Hikəm, hədis 10587
4 Nəhcül-Bəlağə, xütbə 216
5 Vəsailuş-Şiə, c.11, səh.304, hədis 7
6 Ğurərul-Hikəm, hədis 7697
7 Ğurərul-Hikəm, hədis 8471
8 Ğurərul-Hikəm, hədis 2695

62

# Qorxaqlıq

***322.Qorxaqlıq***

1044.İmam Əli (ə):«Qorxaqlıq çatışmazlıqdır.»[1]

1045.İmam Əli (ə):«Qorxaqlıq, hərislik və simiclik eyb və nöqsan kimi sifətlərdən pak, uzaq olan Allaha qarşı bədgümanlıqdan yaranan pis xislətlərdir.»[2]

1046.İmam Əli (ə):«Qorxaqlıqdan uzaq olun ki, o, ar və nöqsandır.»[3]

1047.İmam Əli (ə):«Çox qorxaq olmaq ruhun acizliyi və yəqinin süstlüyündəndir.»[4]

1048.İmam Həsən (ə) «qorxaqlıq nədir?» sualının cavabında: «Dosta qarşı cəsarətli olmaq və düşmənin qabağından qaçmaq.»[5]

***323.Qorxaq və müharibə***

1049.Allahın Peyğəmbəri (s): «Qorxağın iki əcr və savabı var.»[6]

1050.İmam Əli (ə):«Tez qaçacağına görə qorxağın müharibəyə getməsi rəva deyil. Əksinə, nə ilə vuruşmaq istəməsinə baxmalı və onu başqasının ixtiyarına verməlidir. Belə olan halda həmin döyüşçünün əcr və savabı qədər savab qazanar və onun (döyüşçünün) əcrindən də heç nə azaldılmaz.»[7]

ιooooooπ

---

[1] Nəhcül-Bəlağə, hikmət 3
[2] Ğurərul-Hikəm, hədis 1837
[3] Ğurərul-Hikəm, hədis 2582
[4] Ğurərul-Hikəm, hədis 5773
[5] Tuhəful-Uqul, səh.225
[6] Kənzul-Ummal, hədis 11298
[7] Biharul-Ənvar, c.100, səh.49, hədis 16

**63**

# Mübahisə

***324.Pislənilmiş mübahisə***

**Qur'an:**

«İnsanların bəzisi heç bir elmi olmadan Allah barədə mübahisə edir və inadkar şeytana tabe olur.»[1]

«Allahın ayələri barədə yalnız kafirlər mübahisə edərlər. Odur ki, onların şəhərlərdə gəzib-dolaşması səni aldatmasın.»[2]

*Həmçinin müraciət et: Ali-İmran 66; Ə'raf 71; Ənfal 6; Kəhf 54, 56; Məryəm 97; Həcc 8, 9, 68; Furqan 50; Şura 35; Zuxruf 57.*

**Hədis:**

1051.Allahın Peyğəmbəri (s):«Mübahisə və höcətləşməyə arxalananlardan başqa heç bir qövm yolunu azmadı.»[3]

1052.İmam Əli (ə):«Mübahisə etməkdən çəkinin. Çünki, mübahisə (insana) şəkk və tərəddüd gətirər.»[4]

***325.Gözəl və bəyənilən mübahisə***

**Qur'an:**

«İnsanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna də'vət et, onlarla ən gözəl şəkildə mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyandır.»[5]

**Hədis:**

1053.Allahın Peyğəmbəri (s):«Bizik, Allahın dinində mübahisə edənlər!»[6]

1054.İmam Əskəri (ə):«İmam Sadiqin (ə) hüzurunda söz dində mübahisə etmək, Peyğəmbərin (s) və mə'sum imamların (ə) (müsəlmanları) bu işdən çəkindirmələrindən düşür. Həzrəti Sadiq (ə):«Mübahisə etmək bütünlüklə pislənilməyib, gözəl olmayan üsulla mübahisə etmək qınanıb.»[7]

---

[1] Həcc, ayə 3
[2] Mu'min, ayə 4
[3] Biharul-Ənvar, c.2, səh.138, hədis 52
[4] əl-Xisal səh.615, hədis 10
[5] Nəhl, ayə 125
[6] Biharul-Ənvar, c.2, səh.125, hədis 1
[7] Biharul-Ənvar, c.2, səh.125, hədis 2

# 64

# Təcrübə

***326.Təcrübə***

1055.İmam Əli (ə):«Təcrübələr qazanılan elmlərdir.»[1]

1056.İmam Əlinin (ə) əziz oğluna tövsiyyəsindən: «Qəlbin daşlaşmamış və fikrin (başqa şeylərə) məşğul olmamış sənə ədəb öyrətməyə başladım ki, möhkəm düşüncənlə təcrübə edənlərin axtarıb sınaqdan keçirdikləri şeyə üz tutasan və beləliklə, də, axtarmağın əziyyəti sənin üzərindən götürülsün və təcrübə etməkdən azad olasan.»[2]

1057.İmam Əli (ə):«İşləri təcrübədən çıxarmayan aldanar.»[3]

1058.İmam Əli (ə):«Kim düzgün təcrübə öyrənsə ölüm-itimlərdən salamat çıxar, təcrübələrdən ehtiyacsız olmağa çalışansa işlərin sonunu görməz.»[4]

1059.İmam Əli (ə):«İnsanın ədəbləndirilməsi və tənbehi üçün təcrübələr kifayət edər.»[5]

1060.İmam Əli (ə):«İnsanın fikir və düşüncəsi onun təcrübəsi qədərdir.»[6]

1061.İmam Sadiq (ə):« …..Təcrübəsi az olan özbaşına şəxs heç vaxt heç yerdə rəhbərliyə tamah salmamalıdır.»[7]

***327.Təcrübə və ağıl***

1062.İmam Əli (ə):«Ağıl elm və təcrübə ilə artan şüurdur.»[8]

1063. İmam Əli (ə):«Ağıl təcrübələri yığıb qorumaqdır.»[9]

ιοooooοπ

---

[1] Ğurərul-Hikəm, hədis 1036
[2] Tuhəful-Uqul, səh.70
[3] Biharul-Ənvar, c.77, səh.420, hədis 40
[4] Ğurərul-Hikəm, hədis 8040-8680
[5] Ğurərul-Hikəm, hədis 7016
[6] Ğurərul-Hikəm, hədis 5426
[7] əl-Xisal səh.434, hədis 20
[8] Ğurərul-Hikəm, hədis 1717
[9] Ğurərul-Hikəm, hədis 673

**65**

# Dözümsüzlük edib fəryad qoparmaq

***328.Dözümsüzlük edib fəryad qoparmaqdan çəkindirmək***

**Qur'an:**

«Həqiqətən insan çox səbrsiz və dözümsüz yaradılmışdır. Ona bir pislik üz verəndə dözümsüzlük edərək fəryad qoparar. Ona bir xeyir nəsib olduqda isə xəsislik edər.»[1]

**Hədis:**

1064.Allahın Peyğəmbəri (s):«Allah iki səsə- müsibət vaxtı qoparılan vay-şivən, şadlıq zamanı isə çal-çağıra- nifrət edir:«[2]

1065.İmam Əli (ə):«Dözümsüzlük edib fəryad qoparmaqdan çəkin. Çünki, o ümidi kəsər, işi zəiflədər və qəm-qüssə gətirər. Bil ki, iki çıxış yolu var: Ya çətinliyin çarəsi var və onun çarəsini tapmaq lazımdır, ya da ki, çarəsi yoxdur və onda da, səbr etmək lazımdır.»[3]

1066.İmam Əli (ə):«Dözümsüzlük edərək fəryad qoparmağa səbrlə qalib gəlin. Çünki, dözümsüzlük edərək fəryad qoparmaq əcri aradan aparar və müsibəti daha da böyüdər.»[4]

1067.İmam Əlinin (ə) Süffeyn döyüşündə ölənlərə görə qadınların fəryad və şivən qoparmalarını eşidərkən buyurduqlarından:«Qadınlarınız eşitdiyim bu ağlaşma səsi ilə sizlərə hakim olub? Nə üçün onların bu nalə və fəryadlarının qarşısını almırsınız?»[5]

1068.İmam Baqir (ə):«Dözümsüzlüyün ən pisi vay-şivən etmək, başa və sinəyə vurmaq, saçı yolmaqdır. Ağı deyən şəxs səbrliliyi tərk etmişdir.»[6]

1069.İmam Kazim (ə):«Müsibət səbr edən üçün bir, dözümsüzlük edən üçün isə ikidir.»[7]

---

[1] Məaric, ayə 19-21
[2] Tuhəful-Uqul, səh.40
[3] Biharul-Ənvar, c.82, səh.144, hədis 29
[4] Ğurərul-Hikəm, hədis 2527
[5] Nəhcül-Bəlağə, hikmət 322
[6] Müsəkkinul-Fuad, səh.99
[7] Tuhəful-Uqul, səh.414

66

# Əvəz

***329.Əvəz***

**Qur'an:**

«Göylərdə və yerdə olanların hamısı Allahındır ki, O, pislik edənlərə əməllərinin cəzasını versin, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandırsın.»[1]

**Hədis:**

1070.İmam Əli (ə):«Hər bir insan etdiyini görəcək və əməlinin əvəzini alacaqdır.»[2]

***330.Yaxşı əməl sahiblərinin mükafatı***

«O, ən yetkin dövrünə çatdıqda ona hikmət və elm verdik. Biz yaxşı işlər görənləri belə mükafatlandırırıq.»[3]

«Biz ona xitab etdik:Ey İbrahim, sən yuxunu gerçəkləşdirdin. Biz yaxşı işlər görənləri belə mükafatlandırırıq.»[4]

***331.Günahkarların cəzası***

**Qur'an:**

«Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə güzəranı çətinləşər………Biz həddi aşanları və Rəbbinin ayələrinə iman gətirməyənləri də belə cəzalandırırıq. Axirət əzabı isə şübhəsiz ki, daha şiddətli və daha davamlıdır.»[5]

«Həqiqətən, buzova pərəstiş etmiş kəslər tezliklə öz Rəbbinin qəzəbinə düçar olacaq və dünya həyatında zəlil və xar olacaqlar. Biz yalan uyduranları belə cəzalandırırıq.»[6]

«Onların altlarında Cəhənnəm odundan yataq və başlarının üstündə (elə həmin oddan) örtüklər vardır. Biz zalımları belə cəzalandırırıq.»[7]

---

[1] Nəcm, ayə 31
[2] Ğurərul-Hikəm, hədis 6918
[3] Yusif, ayə 22
[4] Saffat, ayə 104, 105
[5] Ta-ha, ayə 124, 127
[6] Ə'raf, ayə 152
[7] Ə'raf, ayə 41

**67**

# Arayıb axtarmaq[1]

***332.Camaatın eyblərini arayıb-axtarmaq qadağandır***

**Qur'an:**

«Ey iman gətirənlər! Zənn və gümanların çoxundan çəkinin. Çünki gümanların bəzisi günahdır. (Bir-birinizin eybini, sirrini) Arayıb-axtarmayın, bir-birinizin qeybətini etməyin. Məgər sizdən kimsə ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Həmin işə ikrahla baxdınız. Allahdan qorxun. Həqiqətən Allah tövbələri qəbul edən və mehribandır.»[2]

**Hədis:**

1071.Allahın Peyğəmbəri (s):«Zənn və gümandan uzaq olun. Çünki, güman ən yalan sözdür. Camaatın sözlərinə qulaq asmayın və onların nöqsanlarını arayıb-axtarmayın.»[3]

1072.Allahın Peyğəmbəri (s):«Mənə camaatın qəlbini yarıb və onların batinlərini açmaq əmr olunmayıb.»[4]

1073.Allahın Peyğəmbəri (s):«Müsəlmanların səhv və xətalarını axtarmayın. Çünki, kim qardaşının xətalarını arayıb-axtarsa, Allah həmin şəxsin səhv və xətalarını axtarar. Allah da, eyblərini aradığı kimsəni hətta, öz evinin içində olsa belə rüsvay edər.»[5]

1074.Allahın Peyğəmbəri (s):«Əxlaqsız qadından kimlərin onunla pozğun iş görməsini soruşmayın. Çünki, beləsi rahatlıqla pozğunluq etdiyi kimi günahsız müsəlmanı da rahatlıqla bədnam edər.»[6]

1075.İmam Sadiq (ə):«İnsanların dinini təftiş edib araşdırma ki, dostsuz qalarsan!»[7]

1076.Saur əl-Kəndi:«Ömər ibn Xəttab Mədinədə gecə gəzintisinə çıxmışdı. Evlərin birindən bir kişinin mahnı oxuduğunu eşitdi. Evin hasarına çıxıb dedi:«Ey Allahın düşməni! Elə bilirsən, Allah sən günahkarın (eyblərinin) üstünü örtəcək?!» Həmin kişi dedi:«Ey möminlərin rəhbəri! Sən də mənim

---

[1] Əsas mətndə bu başlığın adı ərəbcə «təcəssüs»dür-Bunun mənası gizli şeylərdən danışmaq və işlərin batinini araşdırmaqdır və adətən mənfi araşdırmalar mənasını daşıyır.

[2] Hucurat, ayə 12

[3] Səhih-Müslim, hədis 2563

[4] Kənzul-Ummal, hədis 31597, 15035

[5] Əl-Kafi, c.2, səh.355, hədis 5

[6] Təhzibul-Ehkam, c.10, səh.48, hədis 177

[7] Biharul-Ənvar, c.78, səh.253, hədis 109

barəmdə artıq danışma! Əgər mən bir günah etmişəmsə, sən üç günah törətmisən:

Allah-Taala «(eybləri) arayıb axtarmamağı» buyursa da, sən araşdırırsan. Həmçinin buyurub ki, «evlərə qapılardan daxil olun», amma sən hasarın üstünə çıxmısan. Allah-taala «Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməməyi» buyursa da, sən mənim evimə icazəsiz daxil olmusan.» Ömər dedi:«Əgər səni bağışlasam bu işlərdən əl çəkərsənmi?» Həmin kişi dedi:«Bəli.» Ömər onu bağışladı və mənzilindən çıxıb onu rahat buraxdı.»[1]

### ***333.Müharibə zamanı casusluğun rəva olması***

1077.İmam Rza (ə):«Allahın Peyğəmbəri (s) qoşun göndərərkən onun başçısı haqda pis gümanda olanda, özünün inandığı adamlardan birini casus kimi onunla birgə göndərərdi.»[2]

### ***334.Casusun hökmü***

1078.İmam Sadiq (ə):«Casus və xəbərçini ələ keçirdikdə öldürmək lazımdır.»[3]

### ***335.Zahir əsasında hökm çıxarılan məqamlar***

1079.İmam Sadiq (ə):«İnsanlar gərək beş halda: qəyyumluq, evlilik, irs, heyvanın kəsilməsi və şahid durmaqda zahiri hökmə əməl etsinlər. Əgər şəxsin zahiri düz və inanmağa əsas verən olsa, onun şahid durması caizdir və batini araşdırılmamalıdır.»[4]

ιoooooπ

---

[1] Kənzul-Ummal, hədis 8827
[2] Vəsailuş-Şiə, c.11, səh.44, hədis 4
[3] Müstədrəkül-Vəsail, c.11, səh.98, hədis 12518
[4] Vəsailuş-Şiə, c.18, səh.213, hədis 1

68

# Məclis

***336.Məclislərin ən şərəflisi***

1080.Allahın Peyğəmbəri (s):«Hər şeyin şərəf və hörməti var, oturuşların ən şərəflisi isə üzü qibləyə olanıdır.»[1]

1081.İmam Sadiq (ə):«Allahın Peyğəmbəri (s) çox vaxt üzü qibləyə oturardı.»[2]

***337.Məclisdə riayət olunmalı şey***

**Qur'an:**

«Ey iman gətirənlər! Sizə «məclislərdə yer verın» deyildiyi zaman yer verın ki, Allah da sizə genişlik versin. «Qalxın» deyiləndə də qalxın!»[3]

**Hədis:**

1082.Allahın Peyğəmbəri (s):«Oturduğun yerdə həyasızlıq və ədəbsizlik etmə ki, bunun nəticəsində camaat sənin pis əxlaqından qaçmalı olsun. Yanında biri oturan zamansa başqası ilə pıçıldaşma.»[4]

1083.İmam Əli (ə) Peyğəmbəri (s) vəsf edərkən buyurmuşdur: «Heç vaxt görmədik ki, o Həzrət yanında oturanın qarşısında ayaqlarını uzatsın.»[5]

1084.İmam Baqir (ə):«Sizlərdən biri qardaşının evinə gedən zaman ev sahibinin dediyi yerdə otursun. Çünki, ev sahibi öz evinin quruluşunu qonaqdan daha yaxşı bilir.»[6]

1085.İmam Sadiq (ə):«Peyğəmbər (s) bir evə gedəndə məclisin ən aşağı yerində oturardı.»[7]

***338.Məclisin başı***

1086.İmam Əli (ə):«Məclisin başında yalnız üç xislətə malik olan şəxs – sual soruşulanda cavab verən, başqaları danışa bilməyəndə danışa bilən və məclisdəkilərin xeyrinə olan fikir söyləyən oturmalıdır. Bu xislətlərə malik olmayan və məclisin başında oturan şəxs axmaqdır.»[8]

---

[1] Biharul-Ənvar, c.75, səh.469, hədis 4
[2] Məkarimul-Əxlaq, c.1, səh.66, hədis 72
[3] Mücadilə, ayə 11
[4] Biharul-Ənvar, c.84, səh.354, hədis 2
[5] Biharul-Ənvar, c.16, səh.236, hədis 35
[6] Qurbul-İsnad, səh.69, hədis 222
[7] Məkarimul-Əxlaq, c.1, səh.66, hədis 71
[8] Biharul-Ənvar, c.78, səh.304, hədis 1

1087.İmam Əli (ə):«Məclisin ən yuxarı yerinə tələsmə. Çünki, yuxarı çəkildiyın yer, aşağı endirildiyin yerdən daha yaxşıdır.»[1]

***339.İştirak edilməsi qadağan olunmuş məclislər***

**Qur'an:**

«Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdikdə onlar başqa bir söhbətə başlamayana qədər onlarla bir yerdə əyləşməyin.»[2]

**Hədis:**

1088.İmam Əli (ə):«Şərab içilən süfrədə oturmayın. Çünki, bəndə ölümünün nə vaxt çatacağını bilmir.»[3]

1089.İmam Əli (ə):«Keçidlərdə oturmaqdan çəkin!»[4]

1090.İmam Əli (ə):«Allaha və axirət gününə imanı olan şəxs şübhə yaradan yerdə durmamalıdır.»[5]

1091.İmam Sadiq (ə) «kitabda sizə nazil etmişdir ki…..» ayəsi barəsində buyurduqlarından: «Məqsəd budur ki, kimsə haqqı inkar və təkzib edib, imamlar barədə pis sözlər danışsa, (və elə ki, bunu eşitdiniz) kim olmasından asılı olmayaraq onun yanından dur və onunla oturma.»[6]

1092.İmam Sadiq (ə):«Möminin Allaha qarşı günah və itaətsizlik edildiyi və onun bu vəziyyəti dəyişdirə bilmədiyi məclisdə oturması rəva deyil.»[7]

***340.Məclislər əmanətdir***

1093.Allahın Peyğəmbəri (s):«Məclislər əmanətdir və qardaşının sirrini faş etmək xəyanətdir. Bu işdən çəkin və yaxın qohumlarla əyləşməkdən (qohumluq təsübkeşliyindən) uzaq ol.»[8]

***341.Allah zikr olunan məclislərdə iştiraka təşviq***

1094.Allahın Peyğəmbəri (s):«Cənnət bağlarında gəzişin.» Dedilər:«Ey Allahın Peyğəmbəri! Cənnətin bağları nədir?» Buyurdu:«Allahın zikr olunduğu məclislər.»[9]

1095.Allahın Peyğəmbəri (s):«Məclislər üç qismdir: xeyri çox olan, sağlam və ölü. Xeyri çox olan məclis Allahın zikr olunduğu məclisdir. Sağlam məclis sakit məclisdir. Ölü məclis isə onda batil işlərin görüldüyü məclisdir.»[10]

1096.İmam Əli (ə):«Allah zikr olunan məclislərdə iştirak et!»[11]

---

[1] Ğurərul-Hikəm, hədis 10283
[2] Nisa, ayə 140
[3] Biharul-Ənvar, c.10, səh.98, hədis 1
[4] Əmali-Tusi , səh.8, hədis 8
[5] əl-Kafi, c.2, səh.378, hədis 10
[6] əl-Kafi, c.2, səh.377, hədis 8
[7] əl-Kafi, c.2, səh.374, hədis 1
[8] Biharul-Ənvar, c.77, səh.89, hədis 3
[9] Biharul-Ənvar, c.93, səh.163, hədis 42
[10] Nüzhətun-Nazir, səh.20, hədis 49
[11] Biharul-Ənvar, c.75, səh.465, hədis 6

1097.İmam Sadiqin (ə) Fuzeylə buyurduqlarından: «Bir-birinizlə oturub söhbət edirsiniz?» Dedim: «Bəli, sənə fəda olum.» Buyurdu:«Mən o məclisləri sevirəm. Ey Fuzeyl! Bizim işimizi diri saxlayın. Bizim işimizi dirçəldənə Allahın rəhməti olsun! Ey Fuzeyl! Hər kim bizi yada salıb xatırlasa və ya kimin yanında xatırlansaq və onun gözündən milçəyin qanadı boyda yaş çıxsa Allahın Peyğəmbəri (s) onun günahlarını hətta dənizin köpüklərindən çox olsa belə bağışlar.»[1]

***342.Məclisdən duranda Allahı zikr etməyə təşviq***

1098.Allahın Peyğəmbəri (s):«Oturmağın kəffarəsi «Allahım! Sən pak və qüsursuzsan! Həmd-səna Sənə məxsusdur! Səndən başqa bir tanrı yoxdur! Ey mənim Rəbbim, bağışla və əfv et məni!» deməkdir.»[2]

1099.İmam Sadiq (ə):«Peyğəmbər məclisdən qalxan zaman, hətta orada az oturmuş olsaydı belə iyirmi beş dəfə istiğfar edib Allahdan bağışlanmasını diləndi.»[3]

ιοοοοοοπ

[1] Qurbul-Əsnad, səh.36, hədis 117
[2] Biharul-Ənvar, c.75, səh.467, hədis 17
[3] əl-Kafi, c.2, səh.504, hədis 4

69

# Yoldaşlıq

***343.Kiminlə yoldaşlıq edək?***

1100.Loğman (ə):«Oğul! Alimlərlə otur-dur və onlarla diz-dizə otur! Çünki, Allah yerə göyün yağması ilə həyat bəxş etdiyi kimi qəlbləri də hikmət nuru ilə dirildir.»[1]

1101.Allahın Peyğəmbəri (s):«İsanın (ə) həvariləri dedilər:« Ey Allahın ruhu! Kiminlə yoldaşlıq edək?» Buyurdu:«Elə insanla yoldaşlıq edin ki, onu görmək Allahı yadınıza salsın, söhbəti elminizi artırsın və əməli sizi axirətə həvəsləndirsin.»[2]

1102.Allahın Peyğəmbəri (s):«Yalnız alimlərin hüzurunda oturun ki, onlar sizi beş şeydən beş şeyə –şəkk və tərəddüddən əminliyə, riyakarlıqdan saf niyyətə, dünyaya rəğbətdən dünyadan qaçmağa, təkəbbürdən təvazökarlığa və hiyləgərlikdən xeyirxahlığa- də‘vət edərlər.»[3]

1103.Allahın Peyğəmbəri (s):«Yoxsul təbiətli olun və yoxsulları sevin, onlarla oturun və onlara kömək edin. Varlılarla yoldaşlıqdan çəkinin, onlara rəhm edin və mallarından gözünüzü çəkin.»[4]

1104.İmam Əli (ə):«Alimlərlə otur ki, elmin artsın, tərbiyə və ədəbin gözəlləşsin, ruhun paklaşsın.»[5]

1105.İmam Əli (ə):«Müdriklərə yoldaş ol ki, ağlın kamilləşsin, ruhun ucalsın və nadanlıq səndən köçüb getsin.»[6]

1106.İmam Əli (ə):«Yoxsullarla otur ki, (Allaha) şükr etməyin artsın.»[7]

1107.İmam Səccad (ə):«Pak insanlarla oturub-durmaq düzlük və təmizliyə də‘vətdir.»[8]

***344.Yoldaşın haqqı***

1108.İmam Səccad (ə):«Oturub-durduğun yoldaşının haqqı: onunla mülayim və mehriban olmağın, danışan zaman onunla insafla davranmağın, yerindən yalnız onun icazəsi ilə durmağın, sənin yanında başqa birisi oturanda

---

[1] Biharul-Ənvar, c.1, səh.204, hədis 22
[2] Tuhəful-Uqul, səh.44
[3] Biharul-Ənvar, c.74, səh.188, hədis 18
[4] Tənbihul-Xəvatir, c.1, səh.120
[5] Ğurərul-Hikəm, hədis 4786
[6] Ğurərul-Hikəm, hədis 4787
[7] Ğurərul-Hikəm, hədis 4723
[8] Biharul-Ənvar, c.78, səh.141, hədis 35

sənin icazən olmadan durub gedə bilməsi, xətalarını unutmağın, yaxşılıqlarını yadda saxlamağın və ona yalnız xeyirli və yaxşı şeyləri deməyindir.»[1]

***345.Nalayiq yoldaşlar***

1109.Allahın Peyğəmbəri (s):«Üç şəxslə yoldaşlıq etmək qəlbi öldürər: nanəciblə yoldaşlıq etmək, qadınlarla söhbətləşmək və varlılarla oturub-durmaq.»[2]

1110.Allahın Peyğəmbəri (s):«Ölülərlə yoldaşlıq etməkdən çəkinin.» Dedilər:«Ey Allahın Peyğəmbəri, həmin ölülər kimlərdir?» Buyurdu:«Var-dövləti onu məst edən varlı.»[3]

1111.İmam Əli (ə):«Nəfsinin istəklərinin ardınca gedənlərlə yoldaşlıq etmək imanın unudulması və şeytanın (insanın yanında) hazır olmasına səbəb olar.»[4]

1112.İmam Sadiq (ə):«Bidət yaradanlarla dostluq və yoldaşlıq etməyin ki, camaatın gözündə siz də onlardan biri olarsınız.»[5]

1113.İmam Sadiq (ə):«Hökmdarlar və dünyapərəstlərlə yoldaşlıq etməkdən çəkinin. Bu iş sizin dininizi aradan aparar, nifaq və ikiüzlülük gətirər. Bu, ağır və dərmanı olmayan bir dərddir. Həmçinin, daşqəlblilik yaradar və təvazökarlığı aradan aparar. Öz taylarınızla və (cəmiyyətdə) orta təbəqədən olan insanlarla yoldaşlıq edin ki, cəvahir mə‘dənlərini onların arasında taparsınız.»[6]

ιoooooπ

[1] əl-Xisal səh.569, hədis 1
[2] əl-Xisal səh.87, hədis 20
[3] Tənbihul-Xəvatir, c.2, səh.32
[4] Nəhcül-Bəlağə, xütbə 86
[5] əl-Kafi, c.2, səh.375, hədis 3
[6] Müstədrəkul-Vəsail, c.8, səh.337, hədis 9595

**70**

# Camaat

***346.Allahın əli camaatladır***

1114.Allahın Peyğəmbəri (s):«Ey insanlar! Birliyə, bütövlüyə üz tutun və parçalanmaqdan çəkinin.»[1]

1115.Allahın Peyğəmbəri (s):«Allahın əli toplumun başı üzərindədir. Toplumdan bir nəfər ayrılanda şeytan onu canavar sürüdən ayrılmış qoyunu oğurladığı kimi oğurlayar.»[2]

1116.Allahın Peyğəmbəri (s):«Allahın əli camaatladır.»[3]

1117.Allahın Peyğəmbəri (s):«Camaat və birlik rəhmət, təfriqə və parçalanma isə əzabdır.»[4]

***347.Camaatın mənası***

1118.Allahın Peyğəmbəri (s) («Sənin ümmətinin camaatı nədir?» sualının cavabında): «Hətta on nəfər olmuş olsalar belə, haqq olanlar»[5]

1119.İmam Əli (ə) («Sünnə, bidət, camaat və təfriqə»nin mənası barədə sualın cavabında): «And olsun Allaha, sünnə həmin Məhəmmədin sünnəsi, bidət ona zidd olan şeydir. And olsun Allaha, camaat hətta az olsalar belə haqq əhli ilə birlikdə olmaq, təfriqə isə hətta çox olsalar belə batil əhli ilə əlbir olmaqdır.»[6]

ιoooooπ

[1] Kənzul-Ummal, hədis 1028
[2] Kənzul-Ummal, hədis 1032
[3] Kənzul-Ummal, hədis 20241
[4] Kənzul-Ummal, hədis20242
[5] Məani əl-Əxbar, səh.154, hədis 2
[6] Kənzul-Ummal, hədis1644

71

# Cümə

***348.Cümə günü***

**Qur'an:**

«And olsun şəhadət verənə və şəhadət verilənə.»[1]

***Hədis:***

1120.Allahın Peyğəmbəri (s):«Cümə günü günlərin ağasıdır və o Allah-taalanın yanında Qurban və Fitr günündən də hörmətlidir.»[2]

1121.İmam Əli (ə):«Hər cümə günü öz ailə üzvlərinizə bir az təzə meyvə nübar edin ki, cümənin gəlməsindən sevinsinlər.»[3]

1122.İmam Baqir (ə):« Həm xeyir, həm də şər cümə günü ikiqat artar.»[4]

1123.İmam Baqir (ə):«Cümə günü sədəqə(nin savabı) ikiqat artar. Çünki, cümə günü digər günlərdən üstündür.[5]

1124.İmam Sadiq (ə) (həmin ayənin təfsirindən): «Şəhadət verən cümə günü, şəhadət verilən isə Ərəfə günüdür.»[6]

***349.Cümə qüsulu***

1125.Allahın Peyğəmbəri (s):«Ey Əli! İnsanlar hər yeddi gündən bir özlərini yumalıdır. Buna görə də, hətta onun suyunu tədarük görmək üçün gününün yeməyini satıb ac qalmalı olsan belə hər cümə qüsl et! Çünki, cümə qüslundan üstün olan bir müstəhəb əməl yoxdur.»[7]

ιοοοοοοπ

---

[1] Buruc, ayə 3
[2] Biharul-Ənvar, c.89, səh.267, hədis 5
[3] Biharul-Ənvar, c.104, səh.73, hədis 24
[4] Biharul-Ənvar, c.89, səh.283, hədis 28
[5] Səvabul-Ə'mal, səh.220, hədis 1
[6] Məani əl-Əxbar, səh.299, hədis 18
[7] Biharul-Ənvar, c.81, səh.129, hədis 18

## 72

# Gözəllik

***350.Allah gözəldir və gözəlliyi sevir***

**Qur'an:**

«De: Allahın öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur? De: Bunlar, dünyada iman gətirən üçündür, Qiyamət günündə isə yalnız möminlərə məxsusdur.»[1]

**Hədis:**

1126.Allahın Peyğəmbəri (s):«Allah-taala gözəldir və gözəlliyi sevir. Nemətinin nişanəsini bəndəsində görməyi də sevir. O, yoxsulluğa və özünü yoxsul göstərməyə nifrət edir.»[2]

1127.Allahın Peyğəmbəri (s):«Allah-taala möminin öz qardaşlarının yanına səliqəli və bəzənmiş halda getməsini sevir.»[3]

1128.Allahın Peyğəmbəri (s):«Sizin hər biriniz bığ və burnunun tükünü bir az qısaltmalı və özünə baxmalıdır. Çünki, bu işlər gözəlliyi daha da artırır.»[4]

1129.İmam Sadiq (ə):«Gözəl paltar geyin. Çünki Allah gözəldir və gözəlliyi sevir. Amma, gərək halaldan olsun.»[5]

***351.Gözəl üz***

1130.Allahın Peyğəmbəri (s):«Gözəlliyin bəlası qürurdur.»[6]

1131.Allahın Peyğəmbəri (s):«Mömin kişiyə verilmiş ən yaxşı şey gözəl əxlaqdır. İnsana verilmiş ən pis şey isə gözəl üzdə pis qəlbin olmasıdır.»[7]

1132.Allahın Peyğəmbəri (s):«Xeyir və yaxşılığı üzü gözəl olanlarda axtarın. Çünki,onların etdikləri gözəllikdə daha gözəldir.»[8]

1133.İmam Əli (ə):«Möminin üzünün gözəlliyi Allahın ona olan hüsn-rəğbətindəndir.»[9]

---

[1] Ə'raf, ayə 32
[2] Kənzul-Ummal, hədis 17166
[3] Məkarimul-Əxlaq, c.1, səh.85, hədis 1
[4] Qurbul-İsnad, səh.67, hədis 215
[5] Vəsailuş-Şiə, c.3, səh.340, hədis 4
[6] Biharul-Ənvar, c.77, səh.59, hədis 3
[7] Kənzul-Ummal, hədis 5170
[8] Uyun əxbar Rza (ə), c.2, səh.74, hədis 344
[9] Ğurərul-Hikəm, hədis 4848

***352.Saça dəyər vermək***

1134.Allahın Peyğəmbəri (s):«Gözəl saç ilahi örtükdür. Buna görə, də onu qiymətləndirin.»[1]

1135.Allahın Peyğəmbəri (s):«Saçını uzadan ona yaxşı qulluq etməlidir, əks halda onu qısaltsın.»[2]

***353.Batini gözəllik***

1136.Allahın Peyğəmbəri (s):«Gözəllik dildədir.»[3]

1137.Allahın Peyğəmbəri (s):«Ağıldan gözəl gözəllik yoxdur.»[4]

1138.Allahın Peyğəmbəri (s):«Sağlamlıqdan gözəl paltar yoxdur.»[5]

1139.İmam Əli (ə):«Allah-taala qadının çöhrəsini (və gözəlliyini) onun üzündə, kişinin çöhrəsini (və gözəlliyini) isə onun dilində qoyub.»[6]

1140.İmam Əskəri (ə):«Üzün gözəlliyi zahirin gözəlliyi, ağlın gözəlliyi isə batinin gözəlliyidir.»[7]

ιoooooοπ

---

[1] Vəsailuş-Şiə, c.1,səh.432, hədis 2
[2] Vəsailuş-Şiə, c.1,səh.432, hədis 1
[3] Tuhəful-Uqul, səh.37
[4] Nəhcus-səadə, c.1, səh.51
[5] Biharul-Ənvar, c.77, səh.381, hədis 5
[6] Biharul-Ənvar, c.71, səh.293, hədis 63
[7] Əlamud-Din, səh.313

## 73

# Cənabət

***354.Cənabət***

**Qur’an:**

«Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəkləriniz də daxil olmaqla yuyun, başınızı və ayaqlarınızı topuqlarınıza qədər məsh edin. Əgər cünub olsanız (cinsi əlaqədə olmuşsunuzsa,) özünüzü pak edin.»[1]

**Hədis:**

1141.İmam Əli (ə):«Müsəlman cünub halında yatmaz və yatağına yalnız pak gedər. Əgər su tapmasa torpaqla təyəmmüm etsin.»[2]

1142.İmam Baqir (ə):«Cənabətli şəxs bir şey yemək və içmək istəsə əl-üzünü yusun, ağzını su ilə yaxalasın, sonra yeyib-içsin.»[3]

ιooooooπ

---

[1] Maidə, ayə 6
[2] Vəsailuş-Şiə, c.1,səh.501, hədis 3
[3] Vəsailuş-Şiə, c.1,səh.495, hədis1

**74**

# Ordu

***355.Ordu***

1143.İmam Əlinin (ə) Malik Əştəri Misirə hakim təyin etdiyi fərmanından: «Ordu Allahın izni ilə xalqın qalası, valilərin zinəti, dinin qüdrət və izzət mənbəyi, əmin-amanlıq vasitəsidir. Xalq yalnız ordu mövcud olduqda öz ayağı üstə dayanar.»[1]

1144.İmam Əlinin (ə) həmin fərmanından: «Səninçün ordu başçılarının ən seçilmişi o şəxs olmalıdır ki, başqalarına əl tutsun, özlərini və qoyub gəldikləri ailələrini yaxşı təmin etmələri, nəticədə hamılıqla cihadda və düşmənlə mübarizədə yekdil olmaları üçün əlində olanı onlara versin. Çünki, sənin onlarla mehriban olmağın onların qəlblərini sənə qarşı mehriban edər...…Onların arzularını yerinə yetir, onları həmişə tərifləyərək qiymətləndir, çətinlik çəkənlərin zəhmətlərini qeyd et. Yaxşı işlərini çox xatırlamaq Allahın istəyi ilə igidlərini qaldıracaq və iradəsi süst olan qorxaqları təşviq edəcəkdir.»[2]

1145.İmam Əli (ə):«Öz ordusuna kömək etməkdən əl çəkən şəxs düşmənlərinə kömək edib.»[3]

1146.İmam Əli (ə):«Ordunun bəlası başçılara itaətsizlikdir.»[4]

***356.Allahın orduları***

**Qur’an:**

«Göylərdəki və yerdəki ordular Allaha məxsusdur. Allah bilən və hikmət sahibidir.»[5]

«Rəbbinin ordularını özündən başqası bilməz.»[6]

«Əgər siz Peyğəmbərə kömək etmirsinizsə, ona mütləq Allah kömək etmişdir……O vaxt Allah ona bir rahatlıq nazil etmiş, onu sizin görmədiyiniz ordularla gücləndirmişdi.»[7]

---

[1] Nəhcül-Bəlağə, məktub 53
[2] Nəhcül-Bəlağə, məktub 53
[3] Ğurərul-Hikəm, hədis 8329
[4] Ğurərul-Hikəm, hədis 3932
[5] Fəth, ayə 4, 7
[6] Muddəssir, ayə 31
[7] Tovbə, ayə 40

75

# Cənnət

***357. Cənnət***

**Qur'an:**

«Rəbbiniz tərəfindən bağışlanmanıza, genişliyi səmalar və yer qədər olan və təqvalılar üçün hazırlanmış Cənnətə tələsin.»[1]

**Hədis:**

1147.İmam Əli (ə):«Bilin! Mən Cənnət kimi elə bir yer görmədim ki, onu axtaran yuxuya dalsın və Cəhənnəm kimisini də görmədim ki, ondan qaçan yuxuya gedib uyusun.»[2]

1148. İmam Əli (ə):«Cənnət ən üstün məramdır.»[3]

1149. İmam Əli (ə):«Cənnət əmin-amanlıq və rahatlıq sarayıdır.»[4]

***358. Sizin canlarınızın Cənnətdən başqa qiyməti yoxdur.***

**Qur'an:**

«Həqiqətən, Allah-taala möminlərin canlarını və mallarını (satın) aldı ki, (əvəzində) onlara Cənnət nəsib olsun.» [5]

**Hədis:**

1150. İmam Əli (ə):«Həqiqətən sizin canlarınızın qiyməti (dəyəri) Cənnətdən başqa bir şey deyil: Onu Cənnətdən başqa heç nəyə satmayın.»[6]

***359. Cənnətin qiyməti***

1151. İmam Əli (ə):«Cənnətin qiyməti saleh və yaxşı əməldir»[7]

1152. İmam Əli (ə):«Cənnətin qiyməti qəlbdən dünya məhəbbətini silməkdir.»[8]

1153. İmam Sadiq (ə):«Cənnətin qiyməti «la ilahə illallah» sözüdür.»[9]

***360. Cənnətə daxil olmağın şərtləri.***

---

[1] Ali-İmran, ayə 133
[2] Nəhcül-Bəlağə, xütbə 28
[3] Ğurərul-Hikəm, hədis 1024
[4] Ğurərul-Hikəm, hədis 397
[5] Tövbə, ayə 111
[6] Biharul-Ənvar, c.78, səh.13, hədis71
[7] Ğurərul-Hikəm, hədis 4698
[8] Ğurərul-Hikəm, hədis 4700
[9] ət-Tovhid, səh.21, hədis13

**Qur'an:**

«Əgər mömin olan hər bir kişi və ya qadın saleh əməllər yerinə yetirsə, Cənnətə daxil olacaq və onlara xurmanın çərdəyi qədər də zülm edilməyəcək.»[1]

«Bu həmin Cənnətdir ki, onu təqvalı bəndələrimizə miras verəcəyik.»[2]

**Hədis:**

1154. Allahın Peyğəmbəri (s):«Ümmətim daha çox iki şeyə görə Cənnətə daxil olacaq: ilahi təqva və gözəl əxlaq.» [3]

1155. Allahın Peyğəmbəri (s):«Üç şey var ki, onlarla Allahın dərgahına gedən kəs istədiyi qapıdan Cənnətə daxil olacaq: gözəl əxlaqı olan, gizlində və aşkarda Allahdan qorxan, haqq onun tərəfində olsa belə mübahisəni tərk edən şəxs.»[4]

1156. Allahın Peyğəmbəri (s):«Hər biriniz Cənnətə daxil olmaq istəyirmi?» Ərz etdilər: «Bəli, ey Allahın Rəsulu.» Peyğəmbər buyurdu:«Arzularınızı qısaldın, ölüm anını gözlərinizin önünə gətirin və Allahdan Allaha layiq olduğu kimi həya edin.»[5]

1157. Allahın Peyğəmbəri (s):«Kim dəvənin iki sağımı arasındakı vaxt qədər olsa belə Allah yolunda cihad edərsə, Cənnətə daxil olar.»[6]

1158. İmam Sadiq (ə):«Üç əməl var ki, hər kəs onlardan birini yerinə yetirsə Allah-taala Cənnəti ona vacib edər: kasıb vaxtında ehsan etmək, hamı ilə gözəl rəftar etmək, insaflı olmaq.»[7]

### *361. Cənnət çətinliklərlə bürünübdür.*

**Qur'an:**

«Elə düşünürsünüz ki, Allah-taala sizin aranızdan cihad edən və dözümlü olanları məlum etməmiş Cənnətə daxil olacaqsınız?»[8]

**Hədis:**

1159. İmam Əli (ə):«Cənnət çətinliklər və məhrumiyyətlərlə qazanılır.»[9]

1160. İman Bağır (ə):«Cənnət çətinliklər və səbrlə əhatə olunub. Dünyada çətinliklərə səbr edən Cənnətə daxil olar. Cəhənnəm ləzzətlər və nəfsin istəklərinin əhatəsindədir, ləzzətlərin və nəfsin istəklərinin ardınca gedən Cəhənnəmə gedər.»[10]

1161. İmam Rza (ə):«Cənnəti istəyən və eyni halda çətinliklərə səbr etməyən hər kəs sözsüz ki, özünü ələ salmışdır.»[11]

---

[1] Nisa, ayə 124
[2] Məryəm, ayə 63.
[3] əl-Kafi, c.2, səh.100, hədis 6.
[4] əl-Kafi, c.2, səh.300, hədis 2.
[5] Tənbihul-Xəvatir, c.1, səh.273.
[6] Mostədrəkul-Vəsail, c.2, səh.122, hədis 1604
[7] əl-Kafi, c.2, səh.103, hədis 2
[8] Ali-İmran, ayə 142
[9] Ğurərul-Hikəm, hədis 4204
[10] əl-Kafi, c.2, səh.89, hədis 7
[11] Biharul-Ənvar, c.78, səh.356, hədis 11

***362. Cənnət onlara vacib olan kəslər.***

1162. Peyğəmbər (s):«Kim mənə dilini və şəhvətini saxlamağı zəmanət verərsə, mən ona Cənnəti zəmanət verərəm.» [1]

1163. Allahın Peyğəmbəri (s):«Mənim üçün altı şeyi öhdənizə alın, sizin Cənnətə daxil olmağınızı öhdəmə götürüm. Yalan danışmayın, vədinizə xilaf çıxmayın, sizə əmin olana xəyanət etməyin, gözlərinizi (harama) baxmaqdan çəkindirin, şəhvətinizi cilovlayın, əllərinizi və dillərinizi saxlayın.» [2]

***363. Cənnət onlara haram olan kəslər.***

**Qur'an:**

«Həqiqətən, Allaha şərik qoşana Allah-taala Cənnəti haram etmişdir və onun yeri Cəhənnəmdir.»[3]

**Hədis:**

1164. Allahın Peyğəmbəri (s):«Üç şəxsə Cənnət haramdır: (Allaha) minnət qoyana, qeybət edənə, şərab içənə.»[4]

1165. Allahın Peyğəmbəri (s):«Hiyləgər və xəyanətkar Cənnətə daxil olmaz.»[5]

1166. Allahın Peyğəmbəri (s):«Xalqa rəhbər olan kimsə xalqa xəyanət edib hiylə işlədərsə Allah-taala Cənnəti ona haram edər»[6].

***364. Cənnətin qapıları.***

**Qur'an:**

«Qapıları onların üzünə açıq olan əbədi Cənnətlər.»[7]

**Hədis:**

1167. Allahın Peyğəmbəri (s):«Həqiqətən, Cənnətin qapıları qılıncların kölgəsindədir.»[8]

1168. İmam Əli (ə):«Cənnətin səkkiz qapısı var; bir qapısından peyğəmbərlər və siddiqlər (haqq sözü danışanlar), digərindən şəhidlər və əməli saleh insanlar daxil olacaq. Digər beş qapıdan isə bizim şiələr və bizi sevənlər, qalan bir qapıdan Allahın vahidliyinə şəhadət verən və qəlblərində biz Əhli-Beytə qarşı zərrə qədər düşmənçiliyi olmayan müsəlmanlar Cənnətə keçəcəklər.» [9]

***365. Cənnətin dərəcələri.***

**Qur'an:**

---

[1] Məani-Əxbar, səh.411, hədis 99
[2] Əmali-Səduq, səh.82, hədis 2
[3] Maidə, ayə 72
[4] əz-Zohdəl Hüseyin ibn Səid, səh.9, hədis17
[5] Kənzul-Ummal, hədis43777.
[6] Tənbihul-Xəvatir, c.2, səh.227
[7] Sad, ayə 72.
[8] Əddurul-Mənsur, c.1, səh.597
[9] əl-Xisal, səh.408, hədis 6.

«Onun yanına imanla gələn və xeyir əməllər görənlər ali dərəcələrə sahibdir.»[1]

**Hədis:**

1169. Allahın Peyğəmbəri (s):«Cənnətdə elə bir dərəcə və məqam var ki, ona yalnız ədalətli rəhbər, qohumları ilə çox əlaqə saxlayan (sileyi-rəhm edən) və səbrli böyük ailə sahibi yetişəcək.»[2]

1170. İmam Əli (ə) Cənnəti vəsf edərək buyurub : «Cənnətin bir-birindən üstün dərəcələri və bir-birindən fərqlənən mənzilləri var.»[3]

1171. İmam Əli (ə):«Bizim şiələrin mənzilləri Cənnət əhlinə sizin səmada gördüyünüz ulduzlar kimi görünəcək.»[4]

1172. İmam Səccad (ə):«Həmişə Qur'an oxu, çünki, Allah-taala Cənnəti yaratdı və Qur'anın ayələri qədər ona dərəcələr verdi. Hər kim Qur'an oxuyarsa, Qur'an ona deyər:«Oxu və yuxarı qalx.» Bu şəxslər Cənnətə daxil olanda yalnız peyğəmbərlər və siddiqlər onlardan ali mərtəbədə olar.»[5]

1173. İmam Sadiq (ə):«Cənnət əhlindən (imkan cəhətdən) ən aşağı səviyyədə olan şəxsin vəziyyəti elədir ki, əgər bütün insanlar və cinlər onun qonağı olub, süfrəsindən yeyib-içsələr verdiyi təamdan heç nə azalmaz.»[6]

### *366. Cənnətə daxil olan birinci şəxs.*

1174. Allahın Peyğəmbəri (s):«Allahın yaratdıqlarından Cənnətə hamıdan əvvəl daxil olanlar yoxsullardır.»[7]

1175. Allahın Peyğəmbəri (s):«Cənnətə daxil olan birinci şəxs şəhid və öz Rəbbinə yaxşı (ixlasla) ibadət edən kimsədir.»[8]

1176. Allahın Peyğəmbəri (s):«Cənnətə daxil olan ilk dörd nəfər mən, sən, Həsən və Hüseyndir.»[9]

1177. İmam Baqir (ə):«Cənnət əhli arasında Cənnətə birinci daxil olanlar xeyir əməl sahibləridir.»[10]

### *367. Cənnət əhli.*

1178. Allahın Peyğəmbəri (s):«Sizə Cənnət əhlindən xəbər verimmi? (Cənnət əhli həmən) Məğlubiyyətə uğrayan acizlərdir.»[11]

1179. Allahın Peyğəmbəri (s):«Cənnət əhlinin bədənlərinin tükü az, üzləri tüksüz və gözlərinə sürmə çəkilmişdir. Cavanlıqları heç vaxt aradan getmir, paltarları heç vaxt köhnəlmir.»[1]

---

[1] Taha, ayə 75
[2] əl-Xisal, səh.93, hədis 39
[3] Nəhcül-Bəlağə, xütbə 85
[4] Ğurərul-Hikəm, hədis 3514
[5] Biharul-Ənvar, c.8, səh.133, hədis39
[6] Biharul-Ənvar, c.8, səh.120, hədis 11
[7] Kənzul-Ummal, hədis 16636
[8] Tənbihul-Xəvatir, c.1, səh.57
[9] əl-Mocəmul kəbir, c.1, səh.319, hədis 950
[10] Əmali-Səduq, səh.210, hədis 5
[11] Kənzul-Ummal, hədis 39338

1180. İmam Əli (ə):«Həqiqətən, hər bir sakit təbiətli, vüqarlı və xoş xasiyyətli mömin Cənnət əhlidir.»[2]

***368. Cənnətin geniş olması.***

1181. Allahın Peyğəmbəri (s):«Dəvə öz sahibindən qaçdığı kimi, Allahın itaətindən qaçanlardan başqa, hamınız Cənnətə daxil olacaqsınız.»[3]

1182. İmam Səccad (ə):«Ey bizim şiələrimiz, Cənnət gec, ya tez mütləq sizə nəsib olacaq, amma onun dərəcələrinə yetişmək üçün bir-birinizlə yarışın.»[4]

ιooooooπ

---

[1] Kənzul-Ummal, hədis 39310
[2] Ğurərul-Hikəm, hədis 3400
[3] Kənzul-Ummal, hədis10221
[4] Biharul-Ənvar, c.74, səh.308, hədis 61

## 76

# Divanəlik

***369. Divanəliyin növləri*.**

1183. Allahın Peyğəmbəri (s):«Gənclik divanəliyin bir budağıdır.»[1]

1184. İmam Əli (ə):«Əsəbilik divanəliyin bir növüdür, çünki əsəbi adam peşman olar. Əgər peşman olmursa divanəliyi yerindədir.»[2]

1185. İmam Sadiq (ə):«Verilən sualların hamısına cavab verən şəxs divanədir.»[3]

***370. Həqiqi divanə.***

1186. Mişkatul-Ənvar kitabından:«Peyğəmbər (s) bir ruhi xəstənin yanından keçərkən soruşur:«Ona nə olub?» Dedilər ki, divanədir. Peyğəmbər (s):«Xeyr! Ona müsibət üz verib, divanə dünyanı axirətdən üstün tutandır.»[4]

1187. Həmin kitabdan:«Peyğəmbər (s) səhabələrlə oturmuşdu və bir kişi onların yanından keçib getdi. Səhabələrdən biri dedi:«Bu kişi divanədir» Həzrət (s) buyurdu: «Xeyr, ona müsibət üz veribdir. Divanə, öz gəncliyini Allahdan qeyrisinə itaətdə hədər edən kişi və ya qadındır.»[5]

1188. Cabir ibn Əbdullah Ənsari:«Peyğəmbər (s) epilepsiyaya tutulmuş bir kişi ilə qarşılaşdıqda… buyurdu:«Bu divanə deyil. Sizə həqiqi divanədən xəbər verimmi?»… Buyurdu:«Həqiqi divanə təkəbbürlə yol gedən və özündən razı halda çiyinlərini tərpədəndir, (qürur və təkəbbürə işarədir). O divanə, bu isə xəstədir.»[6]

---

[1] əl-İxtisas, səh.343
[2] Nəhcül-Bəlağə, hikmət 255
[3] Məani-Əxbar, səh.238, hədis2
[4] Mişkatul-Ənvar, səh.270
[5] Mişkatul-Ənvar, səh.169
[6] Məani-Əxbar, səh.237, hədis1

**77**

# Cihad (1)

***Kiçik cihad. (Cihadi əsğər)***

***371. Cihad.***

**Qur’an:**

«Ey Peyğəmbər! Kafirlər və münafiqlərlə cihad et. Onlara qarşı amansız ol. Onların yeri Cəhənnəmdir və necə də pis aqibətdir.» [1]

«De: «Əgər sizin atalarınız və övladlarınız…. sizinçün Allahdan, peyğəmbərindən və Allah yolunda cihad etməkdən daha əzizdirsə, onda Allahın əmri gəlincəyə qədər ləngiyin. Allah fasiqləri doğru yola yönəltməz.»[2]

**Hədis:**

1189. Allahın Peyğəmbəri (s):«Cihad etməyən və ya cihad arzusunda olmadan bu dünyadan köçən şəxs müəyyən mənada münafiq hökmündə ölmüşdür.» [3]

1190. Mustədrikul-vəsail kitabından:«Bir kişi Allaha ibadət etmək üçün dağa çıxır, ailəsi isə onu peyğəmbərin (s) yanına gətirir. Peyğəmbər bu işi ona qadağan edib buyurur:«Əgər müsəlman cihad meydanında bir gün səbr edərsə, bu onunçün qırx il ibadətdən daha yaxşıdır.»[4]

1191. İmam Əli (ə):«Cihad Allah-taalanın özünün məxsus övliyaları üçün açdığı Cənnət qapılarından biridir. Cihad təqva libası, Allahın möhkəm zirehi və Onun yenilməz qalxanıdır.»[5]

1192. İmam Əli (ə):«Cihad dinin sütunu və xoşbəxt insanların işıqlı yoludur.»[6]

1193. İmam Əli (ə):«Allah-taala cihadı vacib etdi. Ona əzəmət verib qələbə rəmzi və özünə yavər etdi. Allaha and olsun, dünyanın və dinin işi cihaddan başqa heç bir şeylə düzəlməz.» [7]

1194. İmam Əli (ə):«Cihad İslamdan sonra ən şərəfli əməldir. Cihad dinin davamlılığının mayasıdır. Cihadın izzət və güc-qüdrət gətirməklə yanaşı böyük

---

[1] Təhrim, ayə 9
[2] Tövbə, ayə 24
[3] Səhihe-Müslim, c.3, səh.1517, hədis 1910
[4] Mostədrəkul vəsail, c.11, səh.21, hədis 12324
[5] Nəhcül-Bəlağə, xütbə 27
[6] Ğurərul-Hikəm, hədis 1346.
[7] Vəsailəş şiə, c.11, səh.9, hədis15.

əcri də var. Cihad yürüş etməkdir. Onda yaxşılıqlar və savab da var, şəhadətə çatdıqdan sonra gələn Cənnət müjdəsi də.» [1]

1195. İmam Sadiq (ə):«Cihad vacib əməllərdən sonra ən üstün işdir.»[2]

### *372. Mücahid*

**Qur'an:**

«Heç bir əziyyət və zərər çəkmədən cihaddan boyun qaçıran möminlər, Allah yolunda cihad edənlərlə bərabər deyillər.» [3]

**Hədis:**

1196. Allahın Peyğəmbəri (s):«Bütün bəndələrin əməlləri Allah yolunda (cihad edən) mücahidlərin yanında dimdiyində dəryadan bir qədər su götürən qaranquşa bənzər.» [4]

1197. Allahın Peyğəmbəri (s):«Qılınclar Cənnətin açarlarıdır.»[5]

1198. İmam Əli (ə):«Səmanın qapıları mücahidlərin üzünə açıqdır.» [6]

### *373. Mücahidlərə kömək etmək və onları incitməyin məzəmməti.*

1199. Allahın Peyğəmbəri (s):«Döyüşçünü bir iynə və ya sapla təchiz edən şəxsin Allah-taala keçmiş və gələcək günahlarını bağışlar.»[7]

1200. Allahın Peyğəmbəri (s):«Döyüşçünün məktubunu mənzil başına çatdıran hər kəs bir qulu azad etmiş insan və döyüşçünün cihadının «savab» qapısında onun şəriki mislindədir.»[8]

1201. Allahın Peyğəmbəri (s):«Allah yolunda cihad edən mücahidləri incitməyin. Çünki, Allah-taala peyğəmbərlərə görə qəzəbləndiyi kimi, onlara görə də qəzəblənər. Peyğəmbərlərin dualarını qəbul etdiyi kimi onların da dualarını qəbul edər.»[9]

### *374. Əl, dil və qəlblə cihad əmri vermək.*

1202. Allahın Peyğəmbəri (s):«Kişinin belinə sarılmış qılıncla qıldığı namaz, qılıncsız qıldığı namazdan yeddi yüz dəfə üstündür.»[10]

1203. İmam Əli (ə):«Allah yolunda əllərinizlə cihad edin. Əgər bunu bacarmasanız, dillərinizlə cihad edin. Bunu da bacarmasınız qəlblərinizlə cihad edin.»[11]

1204. İmam Əli (ə):«Sizi Allaha and verirəm! Sizi Allaha and verirəm, mallarınız, canlarınız və dillərinizlə Allah yolunda cihad edin.»[1]

---

[1] Nurəl-Səqəleyn, c.1, səh.408, hədis154.
[2] Mişkatul-Ənvar, səh.154.
[3] Nisa, ayə 95.
[4] Kənzul-Ummal, hədis 10680
[5] Mostədrəkul vəsail, c.11, səh.13, hədis 12293
[6] Ğurərul-Hikəm, hədis 1347
[7] Mostədrəkul vəsail, c.11, səh.24, hədis 12333
[8] Vəsailuş-Şiə, c.11, səh.14, hədis 4
[9] Kənzul-Ummal, hədis 10664
[10] Kənzul-Ummal, hədis10791
[11] Biharul-Ənvar, c.100, səh.49, hədis23

***375. Cihadı tərk etmək.***

1205. Allahın Peyğəmbəri (s):«Allah-taala cihadı tərk edən şəxsin nəfsinə (canına) zillət libası geyindirər, həyatına yoxsulluğ gətirər və dinini yox edər. Allah-taala ümmətimin izzətini və qüdrətini atların nalları altında və nizələrin ucunda qərar vermişdir.»[2]

***376. Cihadın növləri.***

1206. İmam Əli (ə):«Cihad dörd hissəyə bölünür: əmr be məruf (yaxşı işlərə də‘vət); nəhy əz munkər (pis işlərdən çəkindirmək); döyüş meydanında mətanətli və dözümlü olmaq; günah edənlərlə mübarizə aparmaq.»[3]

***377. Sərhədlərin mühafizəsi.***

**Qur'an:**

«Ey peyğəmbər! Kafirlərlə və münafiqlərlə cihad et və onlarla sərt davran. Onların yeri Cəhənnəmdir və bu necə də pis aqibətdir.»[4]

«Ey iman gətirənlər! Səbrli olun və başqalarını səbrli olmağa çağırın, döyüşlərdə müqavimət, şücaət göstərin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız.» [5]

**Hədis:**

1207. Allahın Peyğəmbəri (s):«Allah yolunda bir gün sərhəddi qorumaq, dünyadan və onda olan bütün şeylərdən yaxşıdır.» [6]

1208. Allahın Peyğəmbəri (s):«Ölümdən sonra hər bir əməl öz sahibini tərk edər, yalnız Allah yolunda sərhəddi qoruyan kimsənin əməlindən başqa. Onun əməli böyüyər və Qiyamət gününədək ruzisi verilər.» [7]

***378. Keşik çəkməyin fəziləti.***

1209. Allahın Peyğəmbəri (s):«Allah yolunda bir gecə keşik çəkmək min gecə-gündüz gecələri ibadət və gündüzləri oruc tutmaqla keçirməkdən üstündür.»[8]

1210. Allahın Peyğəmbəri (s):«İki göz Cəhənnəm odu görməyəcək: Allah xofundan ağlayan göz və Allah yolunda gecə vaxtı keşik çəkən göz.»[9]

---

[1] Nəhcül-Bəlağə, məktub 47
[2] Əmali-Səduq, səh.462, hədis 8
[3] əl-Xisal, səh.232, hədis 74
[4] Ənfal, ayə 60
[5] Ali-İmran, ayə 200
[6] Kənzul-Ummal, hədis 10508
[7] Kənzul-Ummal, hədis 10611
[8] Kənzul-Ummal, hədis 10730
[9] Sonən əl-Tərməzi, hədis 1369

**78**

# Cihad (2)

***Böyük cihad. Cihadi-əkbər***

***379. Cihadın növləri.***

1211. İmam Hüseyn(ə) «Cihad peyğəmbər sünnəsidir, yoxsa Allahın vacibatı?» sualına cavabında: «Cihad dörd növdür. Onların ikisi (ilahi) fərz (vacib), biri yalnız (ilahi) fərzlə (vaciblə birgə) olan sünnə, digəri isə (yalnız) sünnədir. Vacib olan iki cihad bunlardır: 1) İnsanın öz nəfsinin Allaha qarşı itaətsizliyini cilovlamaq üçün nəfsi ilə cihadı. Bu ən böyük cihaddır. 2) Sizinlə həmsərhəd olan kafirlərlə cihaddır. Bu da fərzdir. 3) Vaciblə birgə əməl olunan sünnət–bütün ümmətə vacib olan düşmən ilə cihaddır. Ümmət bu cihadı tərk etsə onlara əzab nazil olar və bu əzab bütün ümməti bürüyər. Həmin bu cihad imam üçün sünnədir, yəni, imam yalnız ümmətlə birgə düşmənə qarşı cihad edər. 4) Yalnız sünnə olan cihad, Peyğəmbərin (s) sünnəsini bərpa və həyatda tətbiq edərək qoruyub saxlamaqdır. Bu yolda səy göstərmək ən yaxşı əməldir, çünki Peyğəmbərin (s) sünnəsini diriltmək deməkdir.

Peyğəmbər (s) buyurmuşdur ki, sünnəsi və yaxşılıq qanununu bərqərar edən şəxsin mükafatını o Həzrətin (s) özü verəcəkdir. Bu sünnəyə əməl edənlərin özlərinin savabından heç bir şey əskilməyəcəyi halda həmin şəxs Qiyamət gününədək bu sünnəyə əməl edənlərin savabından faydalanacaq.»[1]

1212. İmam Əli (ə):«Qadının cihadı ərinə yaxşı qulluq etməkdir.»[2]

***380. Nəfs ilə cihada həvəsləndirmək***

1213. Allahın Peyğəmbəri (s):«Mücahid – Allaha xatir öz nəfsi ilə cihad edəndir.»[3]

1214. İmam Əli (ə):«Nəfsə qarşı cihad Cənnətin mehriyyəsidir.»[4]

1215. İmam Əli (ə):«Nəfsi istəklərin baş qaldıranda nəfsini cilovla və şübhələr yaranarkən nəfsini Allahın kitabına tərəf yönəlt.» [5]

1216. İmam Kazim (ə):«Nəfsin istəklərindən özünü çəkindirmək üçün nəfsinlə mübarizə apar. Çünki, nəfsinlə mübarizə düşməninlə mübarizə qədər sənə vacibdir.»[6]

***381. Böyük cihad (cihadi-əkbər).***

---

[1] Tuhəful-Uqul, səh.243

[2] əl-Xisal, səh.620, hədis 10

[3] Kənzul-Ummal, hədis11261

[4] Ğurərul-Hikəm, hədis 4755

[5] Ğurərul-Hikəm, hədis 5406

[6] Tuhəful-Uqul, səh.399

1217. İmam Əli (ə):«Peyğəmbər (s) qoşunu müharibəyə göndərir. Qoşun müharibədən qayıdanda o Həzrət (s) :«Xoş gəldin deyirəm, cihadi-əsğəri (kiçik cihadı) yerinə yetirənlərə. Ancaq, böyük cihad hələ də onların öhdəsində qalmaqdadır.» Ərz edirlər:«Ey Allahın Rəsulu, böyük cihad nədir?» Həzrət (s) buyurdu:«Nəfsə qarşı cihaddır.» İmam (ə):«Ən üstün cihad, insanın iki yanının ortasında gizlənmiş nəfsi ilə cihaddır.»[1]

1218. İmam Əli (ə):«Ən üstün cihad nəfsani istəklərlə mübarizə və nəfsi dünya ləzzətlərindən çəkindirməkdir.»[2]

1219. İmam Baqir (ə):«Cihad kimi (böyük) fəzilət, nəfsin istəklərilə mübarizə kimi cihad yoxdur.» [3]

### *382. Nəfslə mübarizənin üsulu.*

1220. İmam Əli (ə):«İnsan öz düşməni ilə mübarizə apardığı kimi, sən də öz nəfsinlə mübarizə apar və rəqib öz rəqibinə qalib gəldiyi tək, sən də öz nəfsinə qalib gəl. Çünki, insanların ən güclüsü öz nəfsinə qalib gələnidir.»[4]

1221. İmam Əli (ə):«Nəfsinizlə amansız döyüşərək onun cilovunu öz əlinizə alın.»[5]

### *383. Mübarizənin səmərəsi.*

1222. Allahın Peyğəmbəri (s):«Mübarizə ilə pis adətlərə qalib gəlmək olar.»[6]

1223. Allahın Peyğəmbəri (s):«Öz nəfsani istəklərinizlə mübarizə aparın ki, qəlblərinizi hikmət bürüsün.»[7]

1224. Allahın Peyğəmbəri (s):«Az yemək və içməklə öz nəfsinizlə cihada çıxın ki, mələklər başlarınız üzərinə kölgə salsın və şeytan sizdən qaçsın.»[8]

1225. İmam Əli (ə):«Öz nəfsi istəklərinlə döyüş, qəzəbinə üstün gəl və nəfsin paklaşana qədər özünün pis adətlərinə qarşı çıx ki, əqlin kamala yetişsin və Rəbbinin mükafatından tam faydalana biləsən.»[9]

1226. İmam Əli (ə):«Nəfslə döyüş və nəfsi saxlamaq dərəcələri (mənəvi məqamları) yüksəldər, yaxşılıqları ikiqat artırar.»[10]

1227. İmam Əli (ə):«Nəfs mübarizə ilə islah olunar.»[11]

---

[1] Məani-Əxbar, səh.160, hədis1
[2] Ğurərul-Hikəm, hədis 3232
[3] Tohəful-Uqul, səh.286
[4] Ğurərul-Hikəm, hədis 4761
[5] Ğurərul-Hikəm, hədis 2489
[6] Tənbihul-Xəvatir, c.2, səh.119
[7] Tənbihul-Xəvatir, c.2, səh.122
[8] Tənbihul-Xəvatir, c.2, səh.122
[9] Ğurərul-Hikəm, hədis 4760
[10] Ğurərul-Hikəm, hədis 5407
[11] Ğurərul-Hikəm, hədis 4319

**79**

# Cihad (3)

***384. Allaha itaətdə çalışqanlıq.***

1228. İmam Əli (ə):«Həmişə çalışqan, zəhmətkeş və hazır olun.»[1]

1229. İmam Əli (ə):«Allahın itaətinə yalnız səy göstərmək və var gücü ilə çalışmaqla  nail olmaq olar.»[2]

1230. İmam Sadiq (ə):«Bilin ki, Allahla bəndələr arasında, onların (bəndələrin) itaətindən başqa heç şey, nə müqərrəb (Allah dərgahına yaxın olan) mələk, nə də mürsəl peyğəmbər vasitə ola bilməz. Buna görə, Allaha itaət etməyə çalışın.»[3]

***385. Ən çalışqan insanlar***

1231. Allahın Peyğəmbəri (s):«Ən çalışqan insanlar günahları tərk edən insanlardır.» [4]

1232. Allahın Peyğəmbəri (s):«Ən üstün cihad budur ki, insan sübhü heç kəsə zülm etməmək niyyəti ilə açsın.»[5]

1233. İmam Baqir (ə) «Mən əməlimdə zəif bir insanam, az namaz qılıb oruc tutsam da, çalışıram ki, ancaq halal yemək yeyim və yalnız halalımla (cinsi) yaxınlıq edim» deyən şəxsin cavabında buyurub: «Qarnını və ayıb yerini qorumaqdan üstün cihad nə ola bilər?!»[6]

ιοοοοοοπ

---

[1] Nəhcül-Bəlağə, xütbə 230
[2] Ğurərul-Hikəm, hədis 6009
[3] əl-Kafi, c.8, səh.7, hədis 11
[4] Əmaliyi-Səduq, səh.28, hədis4
[5] əl-Məhasin, c.1, səh.456, hədis 1053
[6] əl-Məhasin, c.1, səh.455, hədis 1052

# 80

# Nadanlıq

***386. Nadanlıq.***

1234. İmam Əli (ə):«Nadanlıq  ən böyük dərddir.»[1]

1235. İmam Əli (ə):«Nadanlıq  dirilərin ölümü və bədbəxtliyin əbədiyyətidir.»[2]

1236. İmam Əli (ə):«Nadanlıq hər şeyi puç edər.»[3]

1237. İmam Əli (ə):«Nadanlıq bütün pisliklərin köküdür.»[4]

1238. İmam Əli (ə):«Hərislik, qarınqululuq və simiclik cahilliyin nəticəsidir.»[5]

1239. İmam Əskəri (ə):«Nadanlıq insanın düşmənidir.»[6]

***387. Nadan.***

1240. Allahın Peyğəmbəri (s):«Allaha itaətsizlik edən kəs, xoşsifət və mənsəb sahibi olsa belə, nadandır.»[7]

1241. Allahın Peyğəmbəri (s):«Nadanın xüsusiyyətləri bunlardır: Onunla münasibətdə olan hər insana zülm edər, əlinin altında olanlara əl qaldırar, özündən yüksəkdə olanlara qarşı itaətsizlik edər, düşünmədən söz danışar.» [8]

1242. İmam Əli (ə):«Nadanın öz eyb və nöqsanından xəbəri olmaz, xeyrini istəyənin nəsihətini isə qəbul etməz.»[9]

1243. İmam Əli (ə):«Nadan zahirən diri olsa da, ölüdür.»[10]

1244. İmam Əli (ə):«Nadan öz nəfsi istəklərinə və batil düşüncələrinə aldanan kimsədir.»[11]

1245. İmam Əli (ə):«Elə bir cahil tapmazsan ki, öz işlərində ifrata, ya yüngüllüyə varmasın.»[12]

---

[1] Ğurərul-Hikəm, hədis 820
[2] Ğurərul-Hikəm, hədis 1464
[3] Ğurərul-Hikəm, hədis 930
[4] Ğurərul-Hikəm, hədis 819
[5] Ğurərul-Hikəm, hədis 1694
[6] Əddurətul-Bahirə, səh.44
[7] Biharul-Ənvar, c.1, səh.160, hədis39
[8] Tuhəful-Uqul, səh.29
[9] Ğurərul-Hikəm, hədis 1809
[10] Ğurərul-Hikəm, hədis 1125
[11] Ğurərul-Hikəm, hədis 1285
[12] Nəhcül-Bəlağə, hikmət 70

1246. İmam Əli (ə):«Həqiqətən, nadan o kəsdir ki, nəfsi istəkləri onu özünə qul etmişdir.»[1]

1247. İmam Əli (ə):«Nadan öz nəfsinin quludur.» [2]

1248. İmam Əli (ə):«Nadanın işi ziyana, elmi isə azğınlığa səbəb olar.»[3]

1249. İmam Əli (ə):«Nadan, məlumatı olmadığı bir şeydə özünü alim hesab edəndir. O, hər məsələdə öz rə‘yi və nəzəri ilə kifayətlənər. Daim alimlərdən uzaq gəzər, onların eybindən danışar və onlara irad tutar. Öz əleyhdarlarının səhv yolda olduqlarını düşünər və başa düşmədiyi şeyi batil hesab edər. Qarşısına çıxan bir mətləbdən anlayışı olmayanda onu inkar edər, yalan hesab edər və öz nadanlığı ucbatından deyər:«Mən belə bir şey tanımıram və güman etmirəm ki, belə bir şey ola bilər. Haradadır həmin şey?» Öz nəzərinə və rəyinə arxalanar, halbuki öz nadanlığından xəbəri yoxdur! Nadanlığına görə daim öz cahilliyindən bəhrələnərək, haqqı inkar edər. Nadanlıqdan səfil qalaraq bilik qazanmaq əvəzinə təkəbbür göstərər.»[4]

1250. İmam Sadiq (ə):«Nadanın xasiyyətlərindən biri də budur ki, mətləbə axıradək qulaq asmamış cavab verər, öz həmsöhbətinin məqsədini başa düşməmiş ona e‘tirazını bildirər və (mətləbi) dərk etməmiş hökm verər.»[5]

1251. İmam Hadi (ə):«Nadan öz dilinin əsiridir.»[6]

### *388. Ən nadan insan.*

1252. İmam Əli (ə):«Ən nadan insan odur ki, bir yaltaq ona gözəl tariflər söyləyərək, pisi yaxşı və xeyirxahı düşmən kimi qələmə verən zaman onun sözlərinə aldana.»[7]

1253. İmam Əli (ə):«Nadanlığın zirvəsi insanın öz nadanlığı ilə fəxr etməsidir.»[8]

1254. İmam Əli (ə):«Ən böyük nadanlıq insanın öz məqam və şənindən agah olmamasıdır.» [9]

### *389. Nadanlıq üçün bu yetər*

1255. İmam Əli (ə):«Ona qadağan edilmiş işi yerinə yetirməsi insana nadanlıq üçün kifayətdir.»[10]

1256. İmam Əli (ə):«Sənin nadanlığın üçün öz biliyinlə fəxr etməyin yetər.»[11]

---

[1] Ğurərul-Hikəm, hədis 3864
[2] Ğurərul-Hikəm, hədis 449
[3] Ğurərul-Hikəm, hədis 6327
[4] Tuhəful-Uqul, səh.73
[5] Əlaməd-Din, səh.303
[6] Əddurətul-Bahirə, səh.41
[7] Ğurərul-Hikəm, hədis 3262
[8] Ğurərul-Hikəm, hədis 6371
[9] Ğurərul-Hikəm, hədis 2936
[10] Mətalbus-Suul, səh.55
[11] Əmaliyət-Tusi, səh.56, hədis78

1257. İmam Əli (ə):«İnsanın nadanlığından ötrü öz hədd və imkanını bilməməsi bəs edər.»[1]

1258. İmam Əli (ə):«Hər bildiyin şeyi danışma, bu nadanlığın nişanəsidir.»[2]

1259. İmam Sadiq (ə):«Alimlik üçün Allahdan qorxmağın kifayət edər, nadanlıq üçünsə Allahın əzabından qafil olmağın kifayət edər.»[3]

### *390. Nadanlığın mənası.*

1260. Allahın Peyğəmbəri (s):«Hər bildiyin şeyi bəyan etmək nadanlıqdandır.»[4]

1261. İmam Əli (ə):«Dünyadan gördüyün bu qədər əziyyətlərə rəğmən qəlbini dünyaya bağlamağın nadanlıqdır.» [5]

1262. İmam Əli (ə):«Mümkün olmayan bir şeyi arzulamaq nadanlıqdır.»[6]

1263. İmam Həsən (ə) nadanlığın izahı haqda atasının sualına cavabında buyurub: «Nadanlıq, yetişməmiş fürsətin üstünə cummaq və cavab verməkdən imtina etməkdir.»[7]

1264. İmam Sadiq (ə):«Nadanlıq üç şeydədir: dostu dəyişməkdə, dəlil-sübut olmadan e'tiraz etməkdə, əhəmiyyətsiz şeylər barədə sorğu və araşdırmaqda.»[8]

1265. İmam Əskəri (ə):«Təəccüblənmədən gülmək nadanlığın nişanəsidir.»[9]

### *391. İnsan bilmədiyi şeyin düşmənidir*

1266. İmam Əli (ə):«İnsanlar bilmədikləri şeyin düşmənidir.»[10]

1267. İmam Əli (ə):«Hər bir kəs bilmədiyi şeyi pisləyər.»[11]

1268. İmam Əli (ə):«Mən dörd söz söylədim və Allah-taala ayə nazil etməklə mənim sözlərimi təsdiq etdi… Dedim ki, «insan bilmədiyi şeyin düşmənidir.» Allah-taala bu ayəni nazil etdi:«Elmləri çatmadığı şeyi yalan sanarlar.»[12]

1269. İmam Əli (ə):«Bilmədiyiniz şeyə düşmən kəsilməyin, çünki elmin əksəriyyəti sizin bilmədiyiniz şeylərdədir.»[13]

---

[1] Ğurərul-Hikəm, hədis 7054
[2] Ğurərul-Hikəm, hədis 10187
[3] Biharul-Ənvar, c.70, səh.379, hədis2
[4] Tənbihul-Xəvatir, c.2, səh.122
[5] Nəhcül-Bəlağə, hikmət 384
[6] Ğurərul-Hikəm, hədis 5384
[7] Məani-Əxbar, səh.401, hədis 62
[8] Tuhəful-Uqul, səh.317
[9] Tuhəful-Uqul, səh.487
[10] Mətalbus-Suul, səh.57
[11] Kəşfül-Ğummə, c.3, səh.137
[12] Əmali-Tusi, səh.494, hədis1082
[13] Ğurərul-Hikəm, hədis 10246

**81**

# Cəhənnəm

**Qur’an:**

«Həqiqətən Cəhənnəm puşquda dayanıb və (itaətdən) boyun qaçıranların yeridir.»[1]

**Hədis:**

1270. İmam Əli (ə):«Cəhənnəm odunun kükrəyən alovundan, yandırıb-yaxan hərarətindən və daim təzələnən əzabından qorxun.»[2]

1271. İmam Əli (ə) (Cəhənnəmi təsvir edərkən): «Elə bir alovdur ki, qaynayıb coşan şölələri bərk sancar, yandıran dilləri qəzəbli, sönməyi gec və uzaqdır, alovlu hərarəti hər şeyi bürüyür və qorxusu dəhşətəsalandır.»[3]

***393. Cəhənnəm alovunun odunu.***

**Qur’an:**

«Bu işi görə bilməsəniz – heç vaxt da görə bilməzsiniz- qorxun, kafirlər üçün hazırlanmış, odunu insanlar və daşlar olan Cəhənnəm atəşindən.»[4]
«Ancaq, haqqdan uzaq olanlar Cəhənnəmin odunu olacaqlar» [5]

***394. Cəhənnəm zəncirləri və qandalları.***

**Qur’an:**

«Onu tutun və zəncirləyin, sonra Cəhənnəm atəşinə aparın. Onu yetmiş zirə uzunluğu olan zəncirə çəkin.»[6]

**Hədis:**

1272. İmam Sadiq (ə) (Cəbrayılın (ə) Allahın Peyğəmbərinə (s) söylədiklərindən): «Əgər yetmiş zirə uzunluğunda olan bu zəncirin bir həlqəsi yer üzünə qoyulsa, dünya onun istiliyindən əriyər.» [7]

***395. Cəhənnəm əhlinin libasları***

---

[1] Nəbə, ayə 21, 22
[2] Ğurərul-Hikəm, hədis 2620
[3] Ğurərul-Hikəm, hədis 9995
[4] Bəqərə, ayə 4
[5] Cin, ayə 15
[6] Haqqə, ayə 30-32
[7] Biharul-Ənvar, c.8, səh.280, hədis1

1273. İmam Sadiq (ə): («Cəbrayılın (ə) Allahın Peyğəmbərinə(s) söylədiklərindən): «Əgər Cəhənnəm əhlinin libaslarından birini göylə yer arasında assalar, dünya əhalisinin hamısı onun iyindən ölər.»[1]

***396. Cəhənnəm əhlinin yeməyi***

**Qur'an:**

«Cəhənnəm əhlinin zəridən (quru tikan) başqa yeməyi yoxdur. Bu yemək nə kökəldir, nə də aclığı aradan aparır.» [2]

«Həmin gün onun orada heç bir dostu olmayacaq. Onun yeməyi Cəhənnəm əhlinin çirkindən başqa bir şey deyil.»[3]

**Hədis:**

1274. Allahın Peyğəmbəri (s):«Əgər Cəhənnəm əhlinin çirkindən bir vedrə dünyanın şərqinə töksələr, onun təsirindən dünyanın qərbində olanların beyinləri qaynamağa başlayar.»[4]

1275. İmam Sadiq (ə): (Cəbrayılın (ə) Allahın Peyğəmbərinə (s) söylədiklərindən): «Əgər zərin (quru tikan) bir damcısı dünya əhalisinin içməli suyuna düşsə bütün insanlar onun iyindən ölər.»[5]

***397. Cəhənnəm əhlinin içdikləri şeylər.***

**Qur'an:**

«Və orada zəqqum (qaynar su) içəcəksiniz. Təşnə dəvələr içən kimi.» [6]

**Hədis:**

1276. İmam Əli (ə):«Zəqqum və quru tikan Cəhənnəm əhlinin qarnında qaynayan su kimi qaynamağa başlayanda onlar su istəyərlər. Bu zaman onlara ğəssaq (Cəhənnəm əhlinin bədənindən axan çirk və qan) və sədid (çirk və irin) verərlər. Onlar əziyyətlə onu qurtum-qurtum içərlər və hər tərəfdən ölüm onları haqlayar, amma ölməzlər.»[7]

***398. Cəhənnəmə birinci daxil olan şəxs***

1277. Peyğəmbər (s):«Cəhənnəmə birinci daxil olan ədalətlə hökm çıxarmayan qüdrətli hökmdar, sərvətinin haqqını (xümsu, zəkatı) ödəməyən var-dövlət sahibi, təkəbbürlü yoxsul olar.»[8]

***399. Ən az əzab çəkən Cəhənnəm əhli.***

1278. Allahın Peyğəmbəri (s):«Əzabı ən az olan Cəhənnəm əhlinin ayaqlarında alovdan ayaqqabı olar və onun hərarətindən beyinləri qaynayar.»[9]

---

[1] Biharul-Ənvar, c.8, səh.13, hədis2
[2] Ğaşiyə, ayə 6, 7
[3] Haqqə, ayə 35, 36
[4] Əmali Tusi, səh.533, hədis 1162
[5] Biharul-Ənvar, c.8, səh.280, hədis 1
[6] Vaqiə, ayə 54, 55
[7] Biharul-Ənvar, c.8, səh.302, hədis 58
[8] Uyunul Əxbarul Reza (ə), c.2, səh.28, hədis 20
[9] Kənzul-Ummal, hədis 39507

***400. Ən şiddətli əzab çəkən Cəhənnəm əhli.***

1279. Allahın Peyğəmbəri (s):«Qiyamət günü ən şiddətli əzabı dadacaq kəs, elmindən fayda görməyən alimdir.»[1]

1280. Allahın Peyğəmbəri (s):«Qiyamət günü ən şiddətli əzabı dadan şəxs peyğəmbər qatili, ya peyğəmbərin əli ilə öldürülən, xalqı (haqq) yolundan azdıran rəhbər və heykəltəraş olacaq.»[2]

1281. İmam Əli (ə):«Ən şiddətli cəza, yaxşılığın müqabilində pislik edən şəxsə çatacaq.»[3]

1282. İmam Əli (ə):«Qiyamət günü ən şiddətli əzabı Allahın qəzavü-qədərinə qəzəblənən və narazılıq edən şəxs görəcək.»[4]

***401. Təkəbbürlülərin dərəsi.***

1283. İmam Sadiq (ə):«Cəhənnəmdə təkəbbürlülər üçün bir dərə var, onun adına «səqər» deyərlər. Həmin dərə istiliyin şiddətindən Allaha şikayət edir və bir qədər nəfəs almaq üçün izn istəyir. Dərə nəfəs alan kimi, Cəhənnəmi alov bürüyür.»[5]

***402. Cəhənnəmdə əbədi qalanlar.***

1284. İmam Kazim (ə):«Allah-taala kafirlər, münkirlər (Allahın varlığını inkar edənlər), yolunu azanlar və müşriklərdən başqa heç kəsi əbədi odda saxlamayacaq. Böyük günahlardan çəkinən möminlər, kiçik günahlarına görə sorğu-sual olunmayacaqlar.»[6]

***403. Cəhənnəmdən çıxarılan kəslər.***

1285. Allahın Peyğəmbəri (s):«Qəlbində zərrə qədər imanı olan kəs Cəhənnəm odundan çıxarılacaq.»[7]

1286. İmam Baqir (ə):«İnsanların bir qismi Cəhənnəm odunda yanar və əriyəndən (saflaşandan) sonra şəfaət onların dadına yetişər.» [8]

***404. Cəhənnəmdə əbədi qalmağın səbəbi.***

1287. İmam Sadiq (ə):«Cəhənnəm əhlinin Cəhənnəmdə əbədi qalmasının səbəbi budur ki, dünyada əbədi qalacaqları halda daim Allaha itaətsizlik edəcəklərini niyyət etmişdilər. Cənnət əhlinin Cənnətdə əbədi qalmasının səbəbi isə dünyada əbədi qalsalar həmişə Allahın itaətində olacaqlarını niyyət

---

[1] Kənzul-Ummal, hədis 28977
[2] Əddurul-Mənsur, c.1, səh.178
[3] Ğurərul-Hikəm, hədis 3217
[4] Ğurərul-Hikəm, hədis 3225
[5] əl-Kafi, c.2, səh.310, hədis 10
[6] ət-Tovhid, səh.407, hədis 5
[7] Kənzul-Ummal, hədis 284
[8] əl-Zohd lil Hüseyin ibn Səid, səh.96, hədis 260

etmələridir. Beləliklə, hər iki tayfanın əbədiliyi onların niyyətinə görədir.» Həmin vaxt Həzrət (ə) bu ayəni oxudu:«De ki, hər kəs öz şakiləsinə uyğun əməl edir» Buyurdu:«Yəni, öz niyyətinə uyğun.»[1]

---

[1] əl-Kafi, c.2, səh.85, hədis 5

# 82

# Cavab

***405. Cavab.***

1288. İmam Əli (ə): Cavablar qarışıq və çox olarsa, doğru cavab gizli qalar.»[1]

1289. İmam Əli (ə):«Bəzən dilli dilavərlər də cavab verməkdə aciz qalarlar.» [2]

1290. İmam Əli (ə):«Cavab verməkdə tələsən şəxs, doğru cavabı tapmaz.»[3]

1291. İmam Əli (ə):«Doğru cavab fəzilət və elmin nişanələrindəndir.»[4]

1292. İmam Əli (ə):«Tündməzaclığı kənara qoy, səbəbini fikirləş, özünü boş və mənasız sözlərdən saxla ki, xətalardan amanda qalasan.»[5]

1293. İmam Əli (ə):«Cahilin müqabilində səbr və təmkin göstərsən, şübhəsiz ki, ona ən yaxşı cavabı vermiş olarsan.» [6]

1294. İmam Əli (ə):«Çox sözlər var ki, onların cavabı sükutdur.»[7]

1295. İmam Sadiq (ə):«Hər suala cavab verən şəxs ağılsızdır.»[8]

ιooooooπ

---

[1] Nəhcul Bəlağə, hikmət 243
[2] Ğurərul-Hikəm, hədis 5378
[3] Ğurərul-Hikəm, hədis 8640
[4] Ğurərul-Hikəm, hədis 9417
[5] Ğurərul-Hikəm, hədis 5136
[6] Ğurərul-Hikəm, hədis 4104
[7] Ğurərul-Hikəm, hədis 5303
[8] Məani-Əxbar, səh.238, hədis 2

**83**

# Səxavət

***406. Səxavət.***

1296. İmam Əli (ə):«Əldə etdiyin hər şeyi bəxşiş et ki, hörmətin olsun.»[1]

1297. İmam Əli (ə):«Səxavət insanı əleyhdarlarına da sevdirər, simiclik isə hətta, övladlarında da ona qarşı nifrət oyadar.» [2]

1298. İmam Əli (ə):«Səxavət alicənablıqdan irəli gəlir.»[3]

1299. İmam Əli (ə):«Səxavət əsl başucalığıdır.»[4]

1300. İmam Hüseyn (ə):«Səxavətli olan ağa olar.» [5]

***407. Ən böyük səxavət***

1301. Allahın Peyğəmbəri (s):«Ən səxavətli insan öz canını və malını Allah yolunda bəxş edəndir.» [6]

1302. İmam Əli (ə):«Ən böyük səxavət yoxsul vaxtı bəxşiş etməkdir.» [7]

1303. İmam Hüseyn (ə):«Ən səxavətli insan, ona ümid bəsləməyənə bəxşiş edəndir.»[8]

***408. Səxavətli insanın xüsusiyyəti.***

1304. İmam Sadiq (ə):«Səxavətli insanın üç xüsusiyyəti var: Varlı və kasıb vaxtında öz malından bəxşiş edər, mustəhəqqə (yəni, şəriət baxımından yardım düşən şəxsə) bəxşiş edər və yaxşılığının müqabilində ona edilən təşəkkürü bəxşiş etdiyi şeydən daha üstün və qiymətli bilər.»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 4716
[2] Ğurərul-Hikəm, hədis 4729
[3] əl-İrşad, c.1, səh.303
[4] Ğurərul-Hikəm, hədis 330
[5] Kəşful-Qummə, c.2, səh.242
[6] Nəvaderul-Ravəndi, səh.20
[7] Ğurərul-Hikəm, hədis 3185
[8] Kəşful-Qummə, c.2, səh.242
[9] Biharul-Ənvar, c.78, səh.231, hədis27

**84**

# Qonşu

***409. Yaxşı qonşuluq.***

**Qur'an:**

«Allaha ibadət edin və Ona şərik qoşmayın. Atanıza, ananıza, qohumlarınıza, yetimlərə, binəvalara, yaxın və uzaq qonşularınıza və ünsiyyətdə olduğunuz adamlara yaxşılıq edin.»[1]

**Hədis:**

1305.Allahın Peyğəmbəri (s):«Qonşuya hörmət, anaya hörmət kimidir.»[2]

1306. İmam Əlinin (ə) dünyasını dəyişərkən buyurduqlarından: «Sizi Allaha and verirəm. Sizi Allaha and verirəm qonşularınızla mehriban olun. Onlarla mehriban olmağınız Peyğəmbərinizin (s) tövsiyyəsidir. O Həzrət (s) qonşular barədə o qədər tövsiyə edirdi ki, elə güman etdik ki, onları varis təyin edəcək.» [3]

1307. İmam Sadiq (ə):«Yaxşı qonşuluq evləri abad, ömürləri uzun edər.» [4]

1308. İmam Kazim (ə):«Yaxşı qonşuluq, qonşuya əziyyət verməmək deyil. Əslində, yaxşı qonşuluq qonşunun verdiyi əziyyətin müqabilində səbr etməkdir.»[5]

***410. Qonşuya əziyyət vermək.***

1309. Allahın Peyğəmbəri (s):«Allaha və Qiyamət gününə iman gətirən hər bir şəxs qonşusuna əziyyət verməz.» [6]

1310. İmam Rza (ə):«Qonşusu özünü onun şərrindən amanda hiss etməyən kimsə bizdən deyil.» [7]

***411. Qonşunun hal-əhvalı ilə maraqlanmaq.***

1311. İmam Əli (ə): «Qonşunun hal-əhvalı ilə maraqlanmaq yaxşı qonşuluğun əlamətlərindəndir.»[8]

1312. İmam Baqir (ə): «Allahın Peyğəmbəri (s) buyurub:«Qonşusu ac olduğu halda gecə tox qarınla yatan kəs, mənə iman gətirməmişdir.» Həmçinin

---

[1] Nisa, ayə 36
[2] Məkaremul-Əxlaq, c.1, səh.274, hədis 834
[3] Nəhcül-Bəlağə, məktub 47
[4] əl-Kafi, c.2, səh.667, hədis 8
[5] Tuhəful-Uqul, səh.409
[6] əl-Kafi, c.2, səh.667, hədis 8
[7] Əyunul Əxbarul Reza (ə), c.2, səh.24, hədis2
[8] Tuhəful-Uqul, səh.85

buyurub:«Aralarında ac olduğu halda gecəni səhərə çıxan hər bir abadlığın əhalisinə Allah-taala Qiyamət günü rəhmət nəzəri ilə baxmayacaq.» [1]

### *412. Qonşunun haqqı*

1313. Allahın Peyğəmbərinin (s) qonşunun haqqı barəsində buyurduqlarından: «Əgər qonşu səndən kömək istəsə kömək et, borc istəsə borc ver, sənə ehtiyacı olsa ehtiyacını aradan götür. Başına bir müsibət gəlibsə ona ürək-dirək ver, könlünü al, bir xeyir işi olanda onu təbrik edib gözaydınlığı ver, xəstələnsə ona baş çək, halı ilə maraqlan, dünyadan köçəndə dəfnində iştirak et. Evini onun evindən hündür tikmə ki, ona tərəf gələn hava axınının qarşısını alasan,amma özü icazə verərsə eybi yoxdur. Meyvə alanda onun üçün hədiyyə göndər, əgər bunu etməsən, meyvəni evinə gizli apar. Öz övladının əlinə meyvə verib bayıra çıxarma ki, qonşunun övladı onun əlində meyvəni görüb narahat olar. Qazanda bişirdiyin xörəyin iyi və tüstüsü ilə qonşunu narahat etmə, əgər bunu bacarmasan, onda yeməkdən bir qədər ona göndər.» [2]

### *413. Qonşuluğun sərhədləri.*

1314. İmam Əli (ə):«Məscidin hərimi (hüdudları) 40 zirədir, mənzildən hər dörd tərəfə 40 ev də qonşu sayılır.» [3]

ιooooooπ

[1] əl-Kafi, c.2, səh.668, hədis 14
[2] Musəkkinul-Fyəad, səh.105
[3] əl- Xisal, səh.544, hədis 20

**85**

# Məhəbbət

***414. Dostluq bir növ qohumluqdur.***

1315. İmam Əli (ə):«Dostluq qazanılan qohumluqdur.»[1]

1316. İmam Əli (ə):«Qohumluğun dostluğa daha çox ehtiyacı var, nəinki dostluğun qohumluğa.»[2]

***415. Dostluq yaradan səbəblər.***

1317. İmam Əli (ə):«Üç xasiyyət dostluğu çəkib gətirər: gözəl əxlaq, mehribanlıq və təvazökarlıq.» [3]

1318. İmam Sadiq (ə):«Üç şey dostluq yaradar; dindarlıq, təvazökarlıq və səxavət.»[4]

***416. Dostluğa layiq olmayanlar.***

**Qur'an:**

«Allaha və Qiyamət gününə inanan elə bir camaat tapmazsan ki, Allaha və Onun peyğəmbərinə qarşı çıxanlara məhəbbət bəsləsin. Hərçənd, bu müxaliflər onların ataları, ya övladları və ya qardaşları və yaxud həmqəbilələri olsalar belə. Onlardır, Allah-taalanın qəlblərində iman (həqiqətin) həkk etdiyi.»[5]

**Hədis:**

1319. İmam Əli (ə):«Avam insanın dostluğu dağılan buluda və səhrada gözdən itən ilğıma bənzər.»[6]

1320. İmam Əli (ə):«Bədəməl insanların dostluq ipləri, hər bir başqa dostluqdan daha tez qırılar.»[7]

1321. İmam Əli (ə):«Məbada, Allahın düşmənləri ilə dostluq edəsən, ya da qəlbini Allahın dostlarından qeyrisinə bağlayasan. Çünki, Qiyamət günü hər kəs sevdiyi insanlarla birgə məhşər ayağına çəkiləcək.»[8]

---

[1] Tuhəful-Uqul, səh.97
[2] Nəhcül-Bəlağə, hikmət 308
[3] Ğurərul-Hikəm, hədis 4684
[4] Tuhəful-Uqul, səh.316
[5] Mücadilə , ayə 22
[6]Ğurərul-Hikəm, hədis 9872
[7] Ğurərul-Hikəm, hədis 3124
[8] Ğurərul-Hikəm, hədis 2703

***417. Məhəbbət tanımağın qarşısını alar.***

1322. Allahın Peyğəmbəri (s):«Bir şeyə məhəbbətin səni kor və kar edər.»[1]

1323. İmam Əli (ə):«Aşiqin gözü məşuqun eyblərini görməyə kor, qulağı onun pislikləri barədə eşitməyə kardır.»[2]

***418. Məhəbbətin nişanəsi.***

1324. İmam Əli (ə):«Səni sevən kəs, (səni) pisliklərdən çəkindirər.»[3]

1325. İmam Əli (ə):«Hər kəsin sevdiyi şey onun dilinin əzbəri olar.»[4]

***419. Möminlərin Allaha böyük məhəbbəti***

**Qur'an:**

«De: Əgər sizin atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, qohum-əqrəbanız, qazandığınız mal-dövlətiniz, kasadlığından qorxduğunuz ticarət və xoşunuza gələn evləriniz sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihad etməkdən daha əzizdirsə, onda Allahın əmrini gözləyin. Allah fasiqləri doğru yola yönəltməz.»[5]

«Bəzi insanlar (bəzilərini) Allaha tay bilir və onları Allahı sevdikləri qədər sevirlər. Amma möminlər Allahı daha çox sevirlər. Zülm edənlər Allahın əzabını görəndə bütün güc-qüdrətin yalnız Allaha məxsus olduğunu və hər an Allahın əzabının çox ağır olduğunu  dərk edirlər.»[6]

**Hədis:**

1326. İmam Hüseyn (ə) duada: «Ey Allahım, Səndən başqa bir kimsəni sevməsinlər deyə Öz dostlarının qəlbindən başqalarının məhəbbətini çıxaran Sənsən, … Səni itirən nəyi tapmışdır? Səni tapan nəyi itirmişdir? Sənin əvəzinə başqası ilə razı olan zərər edib uduzmuşdur.»[7]

1327. İmam Sadiq (ə):«İnsanın Allaha olan imanı yalnız o zaman xalis olar ki, Allahı özündən, ata-anasından, övladından, zövcəsindən, malından və bütün camaatdan daha çox sevsin.»[8]

1328. İmam Sadiq (ə):«Qəlb–Allahın hərəmidir. Allahın hərəmində Allahdan qeyrisinə yer vermə.»[9]

1329 İmam Sadiq (ə): «(Allaha) Məhəbbət (Allahdan olan) qorxudan üstündür.»[10]

***420. İlahi məhəbbətin amilləri.***

---

[1] Əvaliul-Lali, c.1, səh.290, hədis 149
[2] Ğurərul-Hikəm, hədis 6314
[3] Ğurərul-Hikəm, hədis 7718
[4] Ğurərul-Hikəm, hədis 7851
[5] Tövbə, ayə 24
[6] Bəqərə, ayə 165
[7] Biharul-Ənvar, c.98, səh.226, hədis 3
[8] Biharul-Ənvar, c.70, səh.25, hədis 25
[9] Cami-Əxbar, səh.518, hədis 1468
[10] əl-Kafi, c.8, səh.129, hədis 98

1330. «İrşadul qulub»:Merac hədisində nəql olunur ki, «Ey Məhəmməd! Mənə görə biri-birinə məhəbbət bəsləyənlərin Mənim məhəbbətimə haqları var. Mənə görə öz aralarında mehriban olanların Mənim məhəbbətimə haqları var. Mənə görə biri-biri ilə əlaqə yaradanların Mənim məhəbbətimə haqları var. Mənə təvəkkül edənlərin mənim məhəbbətimə haqları var. Mənim məhəbbətimin nə bir nişanəsi, nə sonu, nə həddi var. Onlar üçün bir nişanə ucaltsam, bir nişanə də endirərəm.»[1]

1331. İmam Sadiq (ə):«Allah-taala buyurmuşdur:«Bəndəm Mənim məhəbbətimi onun üçün vacib etdiyim əməllər qədər heç bir digər sevimli vasitə ilə qazana bilməz.»[2]

1332. İmam Sadiq (ə):«Mömin dünyadan kənar duran zaman ali məqama yüksələr, Allah məhəbbətinin şirinliyini dadar və dünyapərəstlərin nəzərində divanə kimi tanınar. Halbuki, Allah məhəbbətinin şirinliyi onların (möminlərin) vücudu ilə qarışmışdır və buna görə qəlblərini Allahdan başqa heç bir şeyə bağlamamışlar.»[3]

### *421. Allahın sevdiyi bəndələr*

**Qur'an:**

«Həqiqətən, Allah yaxşı əməl sahiblərini sevir.»[4]

«Həqiqətən, Allah tövbə edənləri və pak olanları sevər.»[5]

«Bəli, kim əhdinə vəfalı olsa və Allahdan qorxsa... Həqiqətən, Allah təqvalıları (Allahdan qorxanları) sevər.»[6]

«Həqiqətən, Allah dözümlüləri sevər.»[7]

«Həqiqətən, Allah təvəkkül edənləri sevər.»[8]

«Allah-taala ədalətli olanları sevər.»[9]

«Həqiqətən, Allah-taala qurğuşunla hörülmüş divar kimi sıraya düzülərək Allah yolunda cihad edən kəsləri sevər.» [10]

**Hədis:**

1333. Allahın Peyğəmbəri (s):«Allah həyalı, təmkinli, namuslu və iradəli insanı sevər.»[11]

1334. İmam Səccad (ə):«Allah hər bir kədərli qəlbi və hər şükr edən bəndəni sevər.»[12]

---

[1] İrşadul-Qulub, səh.199
[2] əl-Kafi, c.2, səh.82, hədis 5
[3] əl-Kafi, c.2, səh.130, hədis 10
[4] Bəqərə, ayə 195
[5] Bəqərə, ayə 222
[6] Ali-İmran, ayə 76
[7] Ali-İmran, ayə 146
[8] Ali-İmran, ayə 159
[9] Maidə, ayə 42
[10] Səf, ayə 4.
[11] əl-Kafi, c.2, səh.112, hədis 8
[12] əl-Kafi, c.2, səh.99, hədis 30

1335. İmam Baqir (ə):«Allah-taala dilinə pis sözlər gətirmədən camaatla zarafat edən, tovhid əqidəsində olan, səbri öz vücudunun zinətinə çevirən və namaz qılmaqla fəxr edən kimsəni sevər.»[1]

### *422. Allahın sevmədiyi kəslər*

**Qur'an:**

«Sizinlə müharibə edən kəslərlə, siz Allah yolunda müharibə edin, amma (Allahın qoyduğu) həddi aşmayın. Allah həddini aşanları sevməz.» [2]

«Allah fəsad törədənləri sevməz.»[3]

«Həqiqətən, Allah israf edənləri sevməz.»[4]

«Həqiqətən, Allah təkəbbürlüləri sevməz.»[5]

### *423. Allahın ən çox sevdiyi insanlar*

1336. Allahın Peyğəmbəri (s):«Allahın ən sevimli bəndələri insanlar üçün daha xeyirli olanlar və Allahın haqqını yerinə yetirməyə daha çox çalışanlar, həmişə xeyir işlər görmək və yaxşılıq etmək istəyənlərdir.»[6]

1337. İmam Sadiq (ə):«Allahın ən çox sevdiyi insan doğru danışan, namazında və Allahın ona vacib etdiyi əməllərdə diqqətli olan və əmanəti sahibinə qaytarandır.»[7]

### *424. Allah məhəbbətinin nişanələri.*

**Qur'an:**

«(Ey Peyğəmbər) De: Əgər Allahı sevirsinizsə mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mehribandır.»[8]

**Hədis:**

1338. İmam Əli (ə):«Allah-taala bəndəni sevən zaman ibadət məhəbbətini onun qəlbinə salar.»[9]

1339. İmam Sadiq (ə):«Allahın məhəbbətini hiss etdiyindən sevinən bəndə gərək Allahın əmrinə itaət etsin və bizə tabe olsun. Məgər Allahın öz Peyğəmbərinə «De: Əgər Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və…» buyurduğunu eşitməmisən?»[10]

### *425. Allah yanında bəndənin məqamının meyarı*

---

[1] əl-Məhasen, c.1, səh.456, hədis 1056
[2] Bəqərə, ayə 190
[3] Maidə, ayə 64
[4] Ənam, ayə 141
[5] Nəhl, ayə 23
[6] Tuhəful-Uqul, səh.49
[7] Əmalie-Səduq, səh.243, hədis 8
[8] Ali-İmran, ayə 31
[9] Ğurərul-Hikəm, hədis 4066
[10] əl-Kafi, c.8, səh.14, hədis 1

1340. İmam Sadiq (ə):«Allah yanında öz məqamını bilmək istəyən kəs, Allahın onun yanında məqamına baxsın. Çünki, bəndənin Allah yanında məqamı, Allahın bəndənin qəlbində olan məqamı qədərdir.»[1]

***426. İnsanda ilahi məhəbbətin nişanəsi***

1341. Allahın Peyğəmbəri (s):«İnsanda Allah məhəbbətinin nişanəsi daim Allahı zikr etmək istəyi və Allaha məhəbbətin olmamasının əlaməti Allahı zikr etməkdən xoşu gəlməməsidir.»[2]

1342. İmam Sadiq (ə):«Allah-taala Musa peyğəmbərə (s) vəhy nazil etdi: Gecə düşdükdə ibadətimdən qafil olub yuxuya gedən kəs, əgər Məni sevdiyini güman edərsə, yalan söyləmişdir. Məgər aşiq öz sevgilisi ilə bir xəlvətə çəkilmək istəməzmi?!»[3]

***427. Ən ali məqam***

1343. Allahın Peyğəmbəri (s):«Bəndəm vacib buyurulanları yerinə yetirmək qədər heç bir digər sevimli vasitələrlə Mənim məhəbbətimi qazana bilməz. Bəndəm müstəhəb əməllər vasitəsilə Mənim məhəbbətimə o dərəcədə zəmin yaradar ki, mənim məhbubuma çevrilər. Elə ki, onu sevdim dönüb onun eşidən qulağı, görən gözü, danışan dili, qüvvətli əli və yeriyən ayağı olaram. Məni çağıran zaman ona cavab verər, Məndən nə istəsə ona bəxşiş edərəm.»[4]

***428. Allah məhəbbəti ilə dünya məhəbbətinin bir yerə sığmaması***

1344. Allahın Peyğəmbəri (s):«Dünya məhəbbəti ilə Allah məhəbbəti heç vaxt bir qəlbdə cəm ola bilməz.»[5]

1345. İmam Sadiq (ə):«And olsun Allaha, dünyanı sevən və bizdən (Əhli-Beytdən) qeyrisinin məhəbbətinə qəlbində yer verən kəs, Allahı sevməmişdir.»[6]

***429. Allah məhəbbətinin yaranmasına həvəsləndirmək***

1346. Allahın Peyğəmbəri (s): «Allah-taala Davuda (s.ə) buyurdu:«Məni sev və xəlq etdiklərimə Məni sevdir.» Davud (ə) ərz etdi:«Ey Rəbbim! Mən ki, Səni sevirəm, amma yaratdıqlarına Səni necə sevdirim». Buyurdu:«Onlara bəxş etdiyim nemətləri yadlarına sal. Yaxşılıqlarımı yadlarına salsan Məni sevərlər.»[7]

***430. Allaha xatir sevmək***

---

[1] Biharul-Ənvar, c.71, səh.156, hədis 74
[2] Kənzul-Ummal, hədis 1776
[3] Əmali Səduq, səh.292, hədis 1
[4] əl-Məhasin, c.1, səh.454, hədis 1047
[5] Tənbihul-Xəvatir, c.2, səh.122
[6] əl-Kafi, c.8, səh.129, hədis 98
[7] Qəsəsul-Ənbiya, səh.205, hədis 266

1347. Allahın Peyğəmbəri (s):«İşlərin ən yaxşısı Allaha xatir dost və Allaha xatir düşmən olmaqdır.»[1]

1348. Allahın Peyğəmbəri (s) öz səhabələrindən birinə buyurmuşdur: «Ey Allahın bəndəsi! Allaha xatir sev və Allaha xatir nifrət bəslə, Allaha xatir dostluq et və Allaha xatir düşmənçilik et. Çünki, Allahın məhəbbətini bunlardan qeyri vasitələrlə qazanmaq mümkün deyil. İnsan belə etməsə, nə qədər çox namaz qılıb oruc tutsa da, imanın ləzzətini dada bilməz. Bu gün insanların bir-biri ilə dostluğu, qardaşlığı daha çox dünyaya görədir. Dünya naminə dostluq, dünyaya görə də düşmənçilik edirlər.»[2]

1349. İmam Sadiq (ə):«İki mömin bir-birilə gürüşəndə onların (mömin) qardaşına daha çox məhəbbət bəsləyəni daha üstündür.»[3]

1350. İmam Sadiq (ə):«Dinə xatir dostluq və düşmənçilik etməyənin dini yoxdur.»[4]

1351. İmam Cavad (ə):«Allah-taala peyğəmbərlərindən birinə vəhy etdi:«Dünya məhəbbətini qəlbindən silməyin tezliklə sənə rahatlıq gətirər və qəlbini Mənə bağlamağın səni Mənim yanımda əziz edər. Ancaq, mənə xatir bir kəslə düşmənçilik edib Mənə xatir bir kəslə dostluq etmisənmi?.»[5]

### *431. Peyğəmbəri (s) və onun Əhli-Beytini (ə) sevmək*

1352. Allahın Peyğəmbəri (s):«Məni özündən, Əhli-Beytimi (ə) öz ailəsindən, övladlarımı öz övladlarından, mənim canımı öz canından daha çox sevən kəsdən başqa heç bir bəndənin imanı yoxdur.»[6]

1353. Allahın Peyğəmbəri (s):«Allahı, sizə bəxş etdiyi nemətlərə xatir sevin. Məni Allaha xatir və mənim Əhli-Beytimi (ə) mənə xatir sevin».[7]

1354. Allahın Peyğəmbəri (s):«Məni və Əhli-Beytimi (ə) sevən kəs, gərək Allahın birinci nemətinə görə şükr etsin.» Ərz etdilər:«Birinci nemət nədir?» Buyurdu:«Pak mövlud (halalzadəlik). Bizi, dünyaya pak gələnlərdən (halalzadələrdən) başqa kimsə sevməz.»[8]

1355. «Əd-Dəavat» kitabından:«Bir gün günorta vaxtı Haris Həmadani Əmirəl-mömininin (ə) yanına gəlir. Həzrət (ə) soruşur:«Səni bura nə gətirmişdir?» Haris deyir:«And olsun Allaha, məni bura sənə olan məhəbbət gətirmişdir.» Həzrət (ə) :«Əgər doğru deyirsənsə məni üç yerdə mütləq görəcəksən:Ruhun bədənindən çıxan zaman, sirat körpüsündə və kövsər hovuzunun kənarında.»[9]

---

[1] Kənzul-Ummal, hədis 24638
[2] İləlul-Şəraye, səh.140, hədis 1
[3] əl-Məhasen, c.1, səh.411, hədis 937
[4] əl-Kafi, c.2, səh.127, hədis 16
[5] Tuhəful-Uqul, səh.455
[6] İləlul-Şəraye, səh.140, hədis 3
[7] İləlul-Şəraye, səh.140, hədis 3
[8] Muşkatul-Ənvar, səh.81
[9] Əd-Dəvat, səh.249, hədis 699

1356. İmam Baqir (ə) «möhkəm bir ipdən tutmuşdur» ayəsi barədə buyurub:«Möhkəm ip biz Əhli-Beytin (ə) məhəbbətidir.»[1]

### ***432. Əhli-Beytə (ə) məhəbbətin şərti***

1357. İmam Baqir (ə):«Allaha and olsun, Allah tərəfindən bizə bəraət yoxdur, Allahla bizim aramızda qohumluq yoxdur. Bizim Allaha qarşı bir höccətimiz yoxdur və itaətdən başqa, Allaha heç bir digər vasitə ilə yaxınlaşmırıq. Buna görə, sizlərdən kim Allaha itaət edərsə, bizim imamətimizin ona xeyri olar və kim Allahın itaətindən boyun qaçırarsa, imamətimizin ona xeyri olmaz. Vay olsun sizlərə, aldanmayın! Vay olsun sizlərə, aldanmayın!»[2]

### ***433. Bəla imamətlə birlikdədir***

1358. İmam Əli (ə):«Əgər dağ məni sevsə ovulub dağılar.»[3]

1359. «Əmaliye Tusi»:«Bir kişi İmam Baqirin (ə) yanına gəlib dedi:«Allaha and olsun, mən, siz Əhli-Beyti (ə) sevirəm». Həzrət (ə) buyurdu:«Onda, bəladan qorunmaq üçün əyninə bir libas geyin. Çünki, Allaha and olsun, bəla və çətinlik bizə və bizim ardıcıllarımıza tərəf dərədə axan seldən daha sürətlə hərəkət edər. Bəla bizdən (Əhli-Beytdən) başlayıb sonra sizə yetişər və rahatlıq da bizdən başlayar, sonra sizə çatar.»[4]

### **434. İnsan sevdiyi kəslə birgədir**

1360.Allahın Peyğəmbəri (s):«İnsan sevdiyi kəslə bir yerdədir.»[5]

1361. «Kənzul Ummal»:«Bir kişi Allahın Rəsulundan (s) Qiyamət barəsində soruşdu. Həzrət (s) buyurdu:«O gün üçün nə hazırlıq görmüsən?» Ərz etdi:«Allaha və Onun Rəsuluna məhəbbətdən başqa elə bir əhəmiyyətli şey hazırlamamışam.» Həzrət (s) buyurdu:«Bəs, sən sevdiyin kəslə birlikdəsən?»[6]

ιooooooπ

[1] Nur-əl-Səqəleyn, c.1, səh.263, hədis 1054

[2] Vəsailuş-Şiə, c.11, səh.185, hədis 4

[3] Nəhcül-Bəlağə, hikmət 111

[4] Əmali-Tusi, səh.154, hədis 255

[5] Kənzul-Ummal, hədis 24684(=24685)

[6] Kənzul-Ummal, hədis 25553

## 86

# Həbs

***436. Həbslərinə icazə verilənlər.***

1362. İmam Əli (ə):«Fasiq (günah edən) alimləri, savadsız həkimləri və kirayə haqqı ödəməyən kirayəçiləri həbs etmək İmama vacibdir.»[1]

1363. İmam Əli (ə):«Qadın mürtəd olarsa öldürülməz, ömürlük həbsə məhkum olunar.»[2]

1364. «Üsuli Kafi» kitabından:«Əmirəl-möminin (ə) üç nəfərdən başqa heç kəsi zindana layiq bilməmişdir: yetimin malını yeyən və ya onun malını qəsb edən kişi, yaxud əmanətə xəyanət edən.» [3]

***436. Zəmanət olunmuş gəlib çıxanədək zaminin həbsi***

1365. İmam Sadiq (ə):«Başqasının canına zamin duran kişini Əmirəl-mömininin (ə) yanına gətirirlər. Həzrət (ə) onu həbs edir və buyurur:«Dostunu (zamin durduğun kəsi) tapıb bura gətir.» [4]

***437. Ömürlük həbsə məhkum olunanlar***

1366. İmam Baqir (ə): -Bir kişi bir nəfərə başqasını qətlə yetirməyi əmr edir və o, həmin şəxsi qətlə yetirir. Həzrət (ə) bunların hökmü olaraq buyurur- «Qatil öldürülməli, qətlə əmr verən ölənədək zindanda qalmalıdır.»[5]

1367. İmam Sadiq (ə):«Üç nəfərdən başqa heç kəs, ömürlük həbsə məhkum olunmaz: birisini başqası tərəfindən öldürülənədək tutub-saxlayan şəxs; mürtəd olan (öz dinindən dönən) qadın, əli və ayağı kəsilmiş oğru.»[6]

***438. Həddi icra etdikdən (cəza verdikdən) sonra həbsdə saxlamaq və həqiqətin aydınlaşması***

1368. İmam Əli (ə):«İmam kiməsə cəza verdikdən sonra onu həbs edərsə, bu zülm olar.»[7]

1369. İmam Əli (ə):«Həqiqəti bildikdən sonra həbs etmək zülmdür.»[8]

---

[1] Mən lə yəhzuruhul-fəqih, c.3, səh.31, hədis 3266
[2] Təhzib-ul-Əhkam, c.10, səh.142, hədis 569
[3] əl-Kafi, c.7, səh.263, hədis 21
[4] Vəsailuş-Şiə, c13, səh.156, hədis 1
[5] əl-Kafi, c.7, səh.285, hədis 1
[6] Mən lə yəhzuruhul-fəqih, c.3, səh.31, hədis 3264
[7] Təhzib-ul-Əhkam, c.6, səh.314, hədis 870
[8] Mustədrəkul-Vəsail, c.17, səh.403, hədis 21672

***439. Məhbusun hüquqları***

1370. «Dəaimul İslam»: «İmam Əli (ə) hər cümə günü məhbuslarla görüşərdi. Cəzası olanı cəzalandırar, cəzası olmayanı azad edərdi.»[1]

1371. İmam Sadiq (ə):«İmam, borcunu ödəmədiyinə görə həbsə düşmuş məhbusları cümə və bayram günləri namaz qılmaq, görüşmək üçün bir neçə məmurun nəzarəti altında həbsxanadan kənara buraxmalı, namaz və görüş qurtardıqdan sonra onları yenidən həbsxanaya qaytarmalıdır.»[2]

***440. Müttəhimin həbsi***

1372. İmam Əli (ə):«Qətldə ittiham olunmaqdan başqa, heç bir ittiham üçün həbs yoxdur.»[3]

1373. Bəhz ibn Həkim babasından nəql edir: «Allahın Peyğəmbəri (s) ittiham olunan bir şəxsi həbs etmişdir.»[4]

ιοοοοοοπ

---

[1] Dəaimul-İslam, c2, səh.443, hədis 1544

[2] Mən lə yəhzuruhul-Fəqih, c.3, səh.31, hədis 3265

[3] Mustədrəkul-Vəsail, c17, səh.403, hədis21672

[4] Sunəne əbi Davud, hədis 3630

**87**

# Hicab

***441. Hicab.***

**Qur'an:**

«Ey Peyğəmbər! Öz zövcələrinə, qızlarına və möminlərin zövcələrinə de ki, örtüklərlə örtünsünlər. Bu onların (iffətli, abırlı kimi) tanınması və (başqaları tərəfindən) əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayan və mehribandır.»[1]

**Hədis:**

1374. İmam Əlinin (ə) oğlu Həsənə (ə) buyurduqlarından: «Gözləri naməhrəmləri görməsin deyə, qadınları pərdə arxasında saxla. Çünki, nə qədər çox pərdə arxasında qalsalar, sənə və onlara bir o qədər yaxşıdır. Onların kənara çıxması əmin olmadığın kişiləri onların olduğu yerə gətirməyindən daha pis deyil. Əgər bacarsan elə et ki, onlar səndən başqa heç bir kişi tanımasınlar.»[2]

1375. İmam Əli (ə):«Buludlu və yağışlı bir gündə peyğəmbərlə Bəqi qəbristanlığında oturmuşduq, Oradan ulağa minmiş bir qadın keçərkən birdən ulağın ayağı calaya düşdü və qadın yıxıldı. Peyğəmbər (s) dərhal üzünü yana çevirdi. Orada olan səhabələr ərz etdilər:«Ey Allahın Rəsulu! O qadının (çadrasının altında) şalvarı var.» Peyğəmbər (s) üç dəfə buyurdu:«Ey Allahım! Şalvar geyinən qadınları bağışla. Ey insanlar, şalvar geyinin ki, şalvar sizi ən çox örtən paltardır və qadınlarınızı kənara çıxan zaman şalvarla qoruyun.»[3]

1376. İmam Əli (ə):«Qadının qorunması onu daha şad, gözəlliyini daha davamlı edər.»[4]

ιoooooπ

---

[1] Əhzab, ayə 59
[2] Tuhəful-Uqul, səh.86
[3] Tənbihul-Xəvatir, c.2, səh.78
[4] Ğurərul-Hikəm, hədis 5820

**88**

# Həcc

***442. Həcc.***

**Qur’an:**

«Allah-taala bu evin ziyarətini Həccə getməyə qüdrəti olan şəxslərə vacib etmişdir.»[1]

Camaatı Həccə çağır ki, piyada ya dəvələrin üstündə uzaq yerlərdən sənin yanına gəlsinlər.» [2]

**Hədis**:

1377. İmam Əlinin (ə) dünyadan köçərkən etdiyi vəsiyyətindən: «Sizi Allaha and verirəm! Sizi Allaha and verirəm! Rəbbinizin evinin haqqına riayət edin. Nə qədər ki, sağsınız Həcci nəzərinizdən çıxarmayın. Əgər Həcc tərk olunarsa, sizlərə möhlət verilməyəcək.»[3]

1378. İmam Əli (ə:«Həcc hər bir zəifin cihadıdır.»[4]

1379. İmam Əli (ə):«Həcc yolunda xərclənən bir dirhəm (onun savabı) min dirhəmə bərabərdir.»[5]

1380. İmam Əli (ə):«Həcc və ümrə zəvvarı Allahın qonağıdır və Allah ona bağışlanmağı hədiyyə edər.»[6]

***443. Həccin fəlsəfəsi***

1381. İmam Əli (ə):«Allah-taala insanların qibləsi olan öz evinin ziyarətini sizə vacib etdi. Onlar (suya daxil olan) heyvanlar tək oraya daxil olar və (öz yuvalarına qayıdan) göyərçinlər kimi oraya üz tutarlar. Allah-taala o evi xalq üçün Öz əzəməti qarşısında itaət, Öz qüdrətinə və izzətinin e‘tirafının nişanəsi etmişdir.»[7]

1382. İmam Səccad (ə):«Həcc və ümrəni yerinə yetirin ki, bədənləriniz sağlam olsun, ruziniz artsın, imanınız güclənsin, xalqın və öz evinizin xərcini təmin edə biləsiniz.»[8]

1383. İmam Baqır (ə):«Həcc qəlblərə rahatlıq bəxş edər.» [1]

---

[1] Ali-İmran, ayə 97
[2] Həcc, ayə 27
[3] Nəhcül-Bəlağə, məktub 27
[4] əl-Xisal, səh.620, hədis 10
[5] əl-Xisal, səh.628, hədis 10
[6] əl-Xisal, səh.635, hədis 10
[7] Nəhcül-Bəlağə, xütbə 1
[8] Səvabul-Əmal, səh.70, hədis10

1384.İmam Sadiq (ə):«Allah-taala bu evin vasitəsilə öz yaratdıqlarını ibadətə vadar etmişdir ki, orada olmaları ilə onların itaətini sınağa çəksin. Buna gürə, onları öz həreminin ehtiramını saxlamağa və onu ziyarət etməyə həvəsləndirmiş, oranı peyğəmbərlər məkanı, namaz qılanların qibləsi etmişdir. Bu ev, Allahın Cənnət və razılığın bir budağı, sonu bağışlanmaq olan, kamal təməli üzərində qurulan və əzəmətin mərkəzi olan bir yoldur.»[2]

1385. İmam Sadiq (ə):«Allah yanında can atılan yer qədər əziz bir məkan yoxdur. Çünki, orada hər bir təkəbbürlü və itaətdən boyun qaçıran xar və zəlil olar.»[3]

1386.İmam Rza (ə):«Həcc nəyə görə əmr olunmuşdur?» soruşulduqda cavabında deyilməlidir:«Bunun səbəbi Allaha yaxınlaşmaq və ondan (nemətlərin) artımını istəmək, eləcə də, dini məsələlərdən agah olmaq və İmamların (ə.s.) xəbərlərini hər tərəfə, hər yana çatdırmaqdır.»[4]

### *444. Həcc yoxsulluğu aradan götürər*

1387. Allahın Peyğəmbəri (s):«Həcc yoxsulluğu aradan götürər.»[5]

1388. İmam Sadiq (ə):«Hər kim üç dəfə Həcci yerinə yetirərsə heç vaxt yoxsulluğun üzünü görməz»[6].

1389. İmam Sadiq (ə):«Bu evin davamlı ziyarəti qədər tez var-dövlət gətirən və yoxsulluğu aradan götürən, ikinci bir şey görmədim»[7].

1390. İmam Sadiq (ə)- «Mən, hər il özümü Həccə getməyə və ya ailəmdən bir nəfəri öz xərcimlə Həccə göndərməyə hazırlamışam» deyə müraciət edən İshaq ibn Əmmara- «Bu qərarında ciddisən?» deyə soruşdu. İshaq ərz edir:«Bəli.» İmam buyurur:«Bu işi görsən, var-dövlətinin artacağına əmin ol və sənə imkanlı olmağın müjdəsini verirəm.»[8]

### *445. Həcci tamamlayan və kamilləşdirən şey*

**Qur'an:**

«Həcci və ümrəni Allah üçün kamil yerinə yetirin»[9]

**Hədis:**

1391. İmam Əli (ə):«Allahın evinin ziyarətinə getsəniz, Allahın Peyğəmbərini (s) ziyarət etməklə həccinizi kamala yetirin ki, Peyğəmbərin (s) ziyarətini tərk etmək, ona zülm etmək deməkdir. Sizə bu iş əmr olunmuşdur və öz həccinizi ziyarəti, haqqı Allah tərəfindən sizə lazım buyurulmuş qəbirləri

---

[1] Əmali-Tusi, səh.296
[2] Əmali-Səduq, səh.493, hədis 4, Ət-tohid, səh.253, hədis4
[3] Biharul-Ənvar, c.9, səh.45, hədis 34
[4] Uyune Əxbare-Reza, c.2, səh.119, hədis1
[5] Tuhəful-Uqul, səh.7
[6] əl-Xisal səh.117, hədis101
[7] Əmali-Tusi, səh.694, hədis1478
[8] Səvabul-Əmal, səh.70, hədis4
[9] Bəqərə, ayə 196

ziyarət etməklə Həccinizi kamala çatdırın və bu qəbirlərin yanında Allahdan ruzi diləyin»[1]

1392. İmam Baqir (ə):«Həcc, imam ilə görüşməklə kamala yetər.»[2]

1393. İmam Baqir (ə):«Xalqa, gəlib bu qəbrlərin ətrafına dolanmağa, sonra yanımıza gəlib bizə olan məhəbbət və vilayətlərini, bizə havadar olduqlarını bildirməyə əmr olunmuşdur.»[3]

***446. Həcci tərk etməyin aqibəti***

1394. Allahın Peyğəmbəri (s):«Əgər bir şəxs, ölüm gəlib onu haqlayanadək müxtəlif bəhanələrlə Həccdən boyun qaçırarsa, Qiyamət günü Allah-taala onu yəhudi ya xristian kimi dirildər.» [4]

1395. İmam Əli (ə):«Dünyəvi çətinliyə, ehtiyaca görə həcci tərk edənin ehtiyacı və çətinliyi hacıları görənədək (yəni hacılar Həccdən qayıdana qədər) aradan getməz.»[5]

***447. Həccə son qoymaq***

**Qur'an:**

«Allah-taala Kəbəni, Beytul-Haramı (hörmətli evi) insanlar üçün (mə'nəvi və maddi) dayaq və pənah yeri etdi.»[6]

1396. İmam Sadiq (ə)- Əbdürrəhman adlı bir nəfər «Bəzi adamlar deyirlər ki, əgər bir dəfə Həccə gedən şəxs (təkrar olaraq Həccə getməyin əvəzinə) sədəqə versə, ya qohumlarına baş çəkib, kömək etsə bu daha yaxşı iş görmüş olar.» deyə ərz etdikdə- «Yalan deyirlər. Əgər xalq bu cür etsə, Allahın evi boş qalar. Həqiqətən Allah-taala bu evi insanların işlərinin (mə'nəvi və maddi) dayağı və pənahı etmişdir.»- deyə buyurmuşdur.»[7]

***448. Həqiqi Hacı azdır***

1397. Əbdürrəhman ibn Kəsir:«İmam Sadiqlə (ə) Həccə getmişdik. Yoldan keçəndə, o Həzrət (ə) bir dağa qalxıb yüksəklikdən camaata baxdı və buyurdu:«Nə çox hay-küy, nə az hacı var!» [8]

***449. Həccin qaydası***

**Qur'an:**

«Həccin müəyyən ayları vardır. Bu aylarda Həcci yerinə yetirən kəs (bilsin ki) Həcc əsnasında bir yatağa baş qoymaq, günah və münaqişə etmək olmaz.»[9]

**Hədis:**

---

[1] əl-Xisal səh.616, hədis10
[2] Uyune Əxbare-Reza, c.2, səh.262, hədis29
[3] Uyune Əxbare-Reza, səh.262, hədis30
[4] Biharul-Ənvar, c.7, səh.58, hədis3
[5] Səvabul-Əmal, səh.281, hədis1
[6] Maidə, ayə 97
[7] İləluş-Şəraye, səh.452, hədis1
[8] Biharul-Ənvar, c.27, səh.181, hədis30
[9] Bəqərə, ayə 197

1398. İmam Baqir (ə):«Bu evi ziyarət edən kəsdə üç xislət olmasa ziyarətin heç bir dəyəri yoxdur: Günahlardan çəkindirən Allah xofu, qəzəbini cilovlayan helmi (təmkinliyi), yol və söhbət yoldaşı ilə mehriban rəftarı» [1]

### *450. Ehram bağlamaq qaydası*

1399. Allahın Peyğəmbəri (s):«Haram pulla Həccə gedən şəxs «Ləbbeyk Allahummə ləbbeyk» deyəndə Allah-taala ona buyurar «la ləbbeykə və la səədeykə» (Həccin özünə qalsın.)[2]

1400. İmam Sadiq (ə):«Həcc iki növdür: Allaha xatir həcc və camaata xatir həcc. Allaha xatir həcci yerinə yetirənə Allah-taala Cənnəti mükafat verər, camaata xatir həccə gedənin Qiyamət günü mükafatı və savabı həmin camaatın öhdəsinə olar»[3]

1401. Malik ibn Ənəs:«Bir il İmam Sadiqlə (ə) Həccə getmişdik. O Həzrətin (ə) atı ehram bağlanan yerdə dayananda, Həzrət (ə) hər nə qədər «ləbbeyk» deməyə çalışsa da, sanki səsi boğazında qurumuşdu və az qalırdı atından yerə yıxılsın. Ərz etdim:«Ey Allahın Peyğəmbərinin (s) oğlu «ləbbeyk» de. Gərək deyəsən.» Buyurdu:«Ey Əbu Amirin oğlu! Allahın cavabımda «lə ləbbeykə və la səədeykə» deyəcəyindən qorxduğum halda necə cürət edib, «ləbbeyk Allahummə ləbbeyk deyim?» [4]

1402. İmam Rza (ə):«Xalqa ehram bağlamaq Allahın hərəminə və əmin-amanlıq sahəsinə daxil olmamışdan qabaq qəlblərində xuşu (mütilik) halının yaranması, qəlbin dünya işlərindən, onun zinətlərindən və ləzzətlərindən təmizlənməsindən ötrü əmr olunmuşdur. Bu halda onlar ciddi və çalışqan, məqsədləri Allaha qovuşmaq olmalı və bütün vücudları ilə Ona üz tutmalıdırlar.»[5]

### *451. Həcc yolunda ölən şəxsin savabı*

1403. İmam Sadiq (ə):«Kimsə Məkkə yolunda və ya qayıdarkən vəfat edərsə, Qiyamət günü «böyük qorxudan» amanda olacaq.»[6]

1404. İmam Sadiq (ə):«Ehram halında ölən şəxsi Allah-taala «ləbbeyk» deyən halda dirildər.»[7]

### *452. Qeybə çəkilmiş İmamın (ə.f.) Həcc mərasimində olması*

1405. İmam Sadiq (ə):«Xalq öz İmamını (ə.f.) itirər. O Həzrət (ə.f.) isə Həcc mərasimində olar və xalqı görər, lakin onlar o Həzrəti (ə.f.) görməzlər.»[8]

---

[1] əl-Xisal, səh.148, hədis180
[2] əd-Durrul-Mənsur, c.2, səh.63
[3] Səvabul-Əmal, səh.74, hədis16
[4] əl-Xisal, səh.167, hədis219, İləluş-Şərayə səh.235, hədis4
[5] Vəsailuş-Şiə, c.9, səh.3, hədis54
[6] əl-Kafi, c.4, səh.263, hədis4
[7] Biharul-Ənvar, c.7, səh.302, hədis56
[8] Kəmalud-Din, səh.364, hədis33

ιοοοοοοπ

**89**

# Höccət[1]

***453. Höccət***

**Qur'an:**

«Biz heç bir xalqa Peyğəmbər göndərməmiş, onlara əzab vermərik.»[2]

«Hər həlak olan dəlillə həlak olsun və hər sağ qalan dəlillə sağ qalsın deyə»[3]

**Hədis:**

1406. İmam Əli (ə):«Höccət sahibi olan qüvvə, qüdrətə sahib qüvvədən daha böyükdür.»[4]

1407. İmam Əli (ə):«Doğru danışanın dəlil-sübutu güclü olar.»[5]

1408. İmam Baqir (ə) «Allahın bəndələr üzərində olan höccəti» barədə suala cavabında: «Höccət budur ki, (insanlar) bildikləri şeyi desinlər və bilmədikləri şeylər haqda fikir söyləməkdən çəkinsinlər.»[6]

1409. İmam Sadiq (ə):«Allah-taala insanlara bəxş etdiyi və tanıtdırdığı şeylərin vasitəsilə onlara höccəti bəyan etmişdir.»[7]

1410. İmam Sadiq (ə):«Şəkk və güman əsasında iş görənin işi puç və hədərdir. Çünki, Allahın höccəti aydın-aşkardır.»[8]

***453. Aydın höccət Allaha məxsusdur***

**Qur'an:**

«Ey Peyğəmbər! De ki, aydın höccət Allaha məxsusdur. Əgər istəsə hamınızı doğru yola yönəldərdi.»[9]

**Hədis:**

1411. İmam Sadiq (ə) -»De, aydın höccət Allaha məxsusdur» ayəsinin şəhrində:«Allah-taala Qiyamət günü bəndəyə buyurar:«Ey mənim bəndəm! Sən bilirdinmi?» Əgər «Bəli» deyə cavab versə Allah-taala ona buyurar:«Bildiyin şeyə əməl etdinmi? «Bilmirdim» deyə cavab versə Allah buyurar:«Bəs niyə

---

[1] Höccət – həqiqəti bəyan edən dəlil, əsas
[2] İsra, ayə 15
[3] Ənfal, ayə 42
[4] Ğurərul-Hikəm, hədis 6781
[5] Ğirarul-Hikəm, hədis 8482
[6] Ət-Tovhid, səh.459, hədis27
[7] Ət-Tovhid, səh.410, hədis2
[8] əl-Kafi, c.2, səh.400, hədis8
[9] Ə'nam, ayə 149

öyrənmədin ki, biləsən və əməl edəsən?» O (bəndə) öz cavabını alar və məhkum olunar. Budur, qəti və aydın höccət.»[1]

1412. İmam Sadiq (ə):«Allahın höccəti yaradılmışlardan əvvəl olub, yaradılanlarla birgədir və məxluqatdan sonra da olacaqdır.»[2]

***455. Ən qəti və ən aydın höccət***

**Qur'an:**

«Müjdə verən və (əzabla) qorxudan peyğəmbərləri göndərdik ki, sonra xalqın Allaha qarşı bir bəhanə yeri qalmasın, Allah yenilməz və hikmətlidir.»[3]

**Hədis:**

1413. İmam Əli (ə):«Ey insanlar! Uca Allahın yer üzündə peyğəmbərimiz Məhəmməddən (s) daha möhkəm höccəti və kitabı Qur'andan daha aydın hikməti yoxdur.»[4]

1414. İmam Əli (ə):«Allah-taalanın yer üzündə kitabından daha aydın və qəti höccəti, hikməti yoxdur.»[5]

ιοooooπ

[1] Biharul-Ənvar, c.2, səh.29, hədis10
[2] əl-Kafi, c.1, səh.177, hədis4
[3] Nisa, ayə 1165
[4] Ğurərul-Hikəm, hədis 11004
[5] Nəhcüs-Suadə, c.1, səh.347

**90**

# Hədis

***456. Hədis***

1415. Allahın Peyğəmbəri (s):«Ümmətimə sünnənin bərpa olunması və bidətin çat verib dağılmasına səbəb olan hədis söyləyən kəsə Cənnət nəsib olar.»[1]

1416. İmam Baqir (ə):«Həqiqətən, bizim hədis və kəlamlarımız qəlbləri dirildər»[2]

1417. İmam Baqir (ə):«Doğru danışan şəxsdən bir hədis öyrənməyin, sənin üçün bütün dünyadan yaxşıdır.»[3]

1418. İmam Sadiq (ə):«Xalqın bizim (Əhli-Beytin) yanımızda olan məqam və yerini bizdən rəvayət etdikləri hədislərin qədərindən bilin.»[4]

***457. Mühəddis (Hədis nəql edən)***

1419. «Əmali Səduq»:«Peyğəmbər (s) üç dəfə buyurdu:«Ey Allahım! Mənim canişinlərimi bağışla!» Ərz etdilər:«Ey Allahın Rəsulu! Sənin canişinlərin kimlərdir?» Buyurdu:«Onlar, mənim hədis və sünnəmi təbliğ edənlər, onları mənim ümmətimə öyrədənlərdir.» [5]

1420. İmam Sadiq (ə):«Hədis rəvayət edən və dində fəqih, məlumatlı olan şəxs dindən agah olmayan və hədis söyləməyən min abiddən yaxşıdır.»[6]

***458. Qırx hədis əzbərləyənin savabı***

1421. Allahın Peyğəmbəri (s):«Ümmətimin dini üçün faydalı olan qırx hədis əzbərləyən şəxs Allah-taala Qiyamət günü qəbirdən fəgih və alim kimi qaldırar» [7]

***459. Hədisi dərk etmək***

1422. İmam Əli (ə):«Sizə hədisi dərk etməyi tövsiyə edirəm, rəvayət etməyi yox!» [8]

---

[1] Biharul-Ənvar, c.2, səh.152, hədis43
[2] Biharul-Ənvar, c.2, səh.144, hədis5
[3] Əmali-Mufid, səh.42, hədis10
[4] Biharul-Ənvar, c.2, səh.150, hədis24
[5] Əmali-Səduq, səh.152, hədis4
[6] Biharul-Ənvar, c.2, səh.145, hədis9
[7] Biharul-Ənvar, c.2, səh.156, hədis10
[8] Kənzul-Fəvaid, c.2, səh.31

1423. İmam Əli (ə):«Ağılsızların məqsədi (rəvayəti) nəql etmək, alimlərin məqsədi isə onu dərk etməkdir.» [1]

1424. İmam Sadiq (ə):«Sənin bir hədisi dərk etməyin, min hədisi (dərk etmədən) nəql etməyindən yaxşıdır»[2]

***460. Allahın Peyğəmbəri (s) barədə yalan söyləməkdən çəkindirmək***

1425. Allahın Peyğəmbəri (s):«Mənim barəmdə bilərəkdən yalan danışanın yeri oddur.»[3]

1426. Allahın Peyğəmbəri (s):«Kimsənin demədiyim sözü mənim adıma çıxması ən böyük günahlardandır.» [4]

***461. Yalan olması məlum olmayan sözü sanmaqdan çəkindirmək***

1427. Allahın peyğəmbəri (s):«Məndən bir hədis eşidib onu inkar edən şəxsdən Qiyamət günü haqqımı tələb edəcəyəm. Buna görə, mənim barəmdə mənasını bilmədiyiniz bir hədis eşitdiyiniz zaman deyin:«Allah daha yaxşı bilir.» [5]

***462. Hədisin doğruluğu və Qur'anla uyğunluğu***

1428. Allahın Peyğəmbəri (s):«Mənim hədisimi Allahın kitabı ilə tutuşdurun. Əgər ona uyğun olarsa, həmin hədis məndəndir və onu mən söyləmişəm.»[6]

1429. İmam Sadiq (ə):«Qur'ana uyğun olmayan hər bir hədis batildir.»[7]

**463. Hədisin doğruluğu və fitrətə uyğunluğu.**

1430. İmam Baqir (ə):«Əgər Ali Məhəmməddən (Allahın salamı onlara olsun) sizə bir hədis çatan zaman qəlbləriniz yumşalarsa və ona qarşı doğmalıq hissi keçirərsinizsə, həmin hədisi qəbul edin. Əgər hədis qəlblərinizi hürkütsə və könlünüzə yad olsa, onu Allaha, peyğəmbərə və Məhəmməd (ə) nəslindən olan bir alimə tapşırın.»[8]

***464. Hədisin doğruluğu və haqqa uyğunluğu***

1431. Allahın Peyğəmbəri (s):«Məndən sizə çatan hər bir hədis, əgər haqqa uyğun olarsa, onu mən demişəm və əgər haqqa uyğun gəlməsə, onu mən deməmişəm. Çünki, mən heç vaxt haqqdan qeyri bir söz danışmıram.»[9]

---

[1] Biharul-Ənvar, c.2, səh.160, hədis13
[2] Məani-Əxbar, səh.2, hədis3
[3] Əmali-Tusi, səh.227, hədis398
[4] Kənzul-Ummal, hədis 29255
[5] Biharul-Ənvar, c.2, səh.212, hədis114
[6] Kənzul-Ummal, hədis 907
[7] əl-Kafi, c.1, səh.69, hədis4
[8] Biharul-Ənvar, c.2, səh.189, hədis21
[9] Məani-Əxbar, səh.390, hədis30

***465. Hədisin mənasını nəql etməyin caiz olması***

1432. Allahın Peyğəmbəri (s):«Mənasını düzgün çatdırırsa hədisin sözlərinin yerini dəyişməyin eybi yoxdur.»[1]

1433. Məhəmməd ibn Müslim:«İmam Sadiqə (ə) ərz etdim:«Sizdən bir hədis eşidirəm və onu (sözlərini) azaldır və artırıram.» Həzrət (ə) buyurdu:«Mənasını (doğru) çatdırdığın halda, eybi yoxdur.»[2]

***466. Hədisin nəqlində nəyə riayət olnumalıdır***

1434. Allahın Peyğəmbəri (s):«Ümmətimə, mənim hədislərimdən yalnız onların idrakı qəbul edə bildiyini söyləyin.» [3]

1435. İmam Əli (ə):«İstəyirsizmi ki, Allah və Onun peyğəmbəri yalançı sayılmasın?!» Onda camaatın başa düşdüyü hədisləri söyləyin və onlara dərk edə bilmədikləri, inkar etdikləri şeyləri söyləməkdən çəkinin. (Əks halda, hədisi inkar edəcəklər və onun inkarı Allahı, peyğəmbəri və imamı yalançı hesab etmək kimidir)» [4]

***467. Bəzi hədisləri dərk etmək və onlara tab gətirməyin çətinliyi***

1436. İmam Sadiq (ə):«Həqiqətən, bizim hədisimiz çətin və çox ağırdır. Ona, müqərrəb mələkdən, mursəl peyğəmbərdən, Allah-taala qəlbini imanla sınamış bəndədən və alınmaz şəhərdən başqa heç kəs tab gətirə bilməz»

Əmr deyir:«Hədisin rəvayətçisi Şueybə dedim:«Ey Əbəl-Həsən, «alınmaz şəhərin» mənası nədir? Dedi:«Mən də imam Sadiqdən (ə) bunu soruşduqda Həzrət (ə) «O, geniş və dəyanətli qəlbdir» deyə buyurdu.»[5]

***468. Qur'an ilə sünnənin əhatəliliyi***

1437. Əbu Usamə:«İmam Sadiqin (ə) xidmətində idim. Müğeyriyyədən[6] də bir kişi orada idi. O, İmamdan (ə) sünnə haqda soruşdu. İmam (ə) buyurdu:«İnsanların ehtiyacı olduğu elə bir şey yoxdur ki, onun barəsində Allah və peyğəmbəri tərəfindən bir sünnə (göstəriş) verilməsin. Əgər belə olmasaydı Allah-taala gətirdiyi höccətlərlə bizə höccətləri təqdim etməzdi. Müğeyriyyədən olan kişi soruşdu:«Allah-taala bizə höccəti nə ilə göstərmişdir?» İmam Sadiq (ə) buyurdu:«Allah-taala buyurduğu «Bu gün sizin dininizi sizin üçün kamil etdim və sizə olan nemətimi tamamladım» sözlərilə.» [7]

***469. Mütəşabih[8] hədislər***

1438. İmam Rza (ə):«Qur'anda olduğu kimi bizim xəbərlərdə də (hədislərdə) möhkəm və mütəşabih hədislər vardır. Bizim mütəşabih xəbərlərimizi onun

---

[1] Kənzul-Ummal, hədis 29179
[2] Biharul-Ənvar, c.2, səh.164, hədis24
[3] Kənzul-Ummal, hədis 29284
[4] Biharul-Ənvar, c.2, səh.77, hədis60
[5] Məani-Əxbar, səh.189, hədis1
[6] Müğeyriyyə – bir məzhəbin adıdır
[7] Biharul-Ənvar, c.2, səh.169, hədis3
[8] Motaşabeh – məna baxımından müxtəlif yozumları olan hədislər

möhkəmlərinə uyğunlaşdırın və onun möhkəmlərinə diqqət yetirmədən, mütəşabihlərə tabe olmayın ki, yolunuzu azarsınız.»[1]

**91**

# Həddlər

***470. Hər şeyin həddi var***

1439. İmam Baqir (ə):«Allah-taala hər şeyə bir hədd və sərhədd, sərhəddi göstərmək üçün isə bir nişanə qoymuşdur. Bu həddi (sərhəddi) keçən şəxs üçün cəza (hədd) təyin etmişdir.» [2]

***471. Hüdud və cəzaların uzaqlaşdırılması***

1440. Allahın peyğəmbəri (s):«Bacardığınız qədər hədd və cəza tətbiqini müsəlmanlardan uzaqlaşdırın. Əgər müsəlman üçün bir çıxış və sığınacaq yeri tapsanız, onu azad buraxın. Çünki, imamın bağışlamaqda səhvə yol verməsi, səhvən cəzalandırmağından daha yaxşıdır» [3]

1441. Allahın Peyğəmbəri (s):«Cəzaları şübhələrlə uzaqlaşdırın.» (yəni, şəxsin cinayətkar olmasında tərəddüd, şübhə yarandıqda cəzanı (həddi) icra etməkdən çəkinin.)» [4]

***472. Cəzaların icra olunması***

1442. Allahın Peyğəmbəri (s):«İlahi cəzalardan birini (bir həddi) icra etmək, ilahi məmləkətlərə 40 gecə yağış yağmasından daha yaxşıdır.»[5]

1443. Allahın Peyğəmbəri (s):«Yer üzündə bir (ilahi) cəzanın həyata keçirilməsi 60 il ibadətdən daha pakdır.» [6]

1444. İmam Sadiq (s):«Öz tayfa və qəbiləsinin adlı-sanlı nəslindən olan bir qadını oğurluq etdiyinə görə Peyğəmbərin yanına gətirdilər. Allahın Peyğəmbəri (s) əmr verdi ki, onun əlini kəssinlən. Qureyşdən bir dəstə adam Peyğəmbərin yanına gəlib ərz etdi:«Ey Allahın Rəsulu! Kiçik bir xətaya görə, onun kimi böyük nəsildən olan bir qadının əlini kəsirsən?»

Buyurdu:«Bəli. Sizin ata-babalarınız belə işlərə görə məhv oldular. Onlar cəzanı və hüdudu yalnız çarəsizlərə qarşı tətbiq edirdilər. Öz güclüləri və kübarlarıyla heç bir işləri yox idi. Buna görə də, məhv oldular.» [1]

---

[1] Uyune Əxbare Reza (ə), c.1, səh.290, hədis39
[2] əl-Kafi, c.1, səh.59, hədis2
[3] Kənzul-Ummal, hədis 12971
[4] Mən lə yəhzuruhul-fəqih, c.4, səh.74, hədis5146
[5] Kənzul-Ummal, hədis 14599
[6] Mustədrəkul-Vəsail, c.18, səh.9, hədis21843

***473. Cəzada nə vasitəçilik, nə zəmanət[2], nə də and qəbul olunar***

1445. Allahın Peyğəmbəri (s):«Öz vasitəçiliyi ilə ilahi cəzanın icra olunmasına mane olan kəs, vasitəçiliyini geri götürənə qədər həmişə Allahın qəzəbi altında olacaq.» [3]

1446. Allahın Peyğəmbəri (s):«Cəzalandırmada (həddə) nə vasitəçilik, nə zəmanət və nə də, and qəbul olunur.» [4]

1447. İmam Əli (ə):«Cəzanın heç bir növündə zəmanət yoxdur.» [5]

1448. «Müstədrəkül-vəsail»:«İmam Sadiq (ə) atasından, ata-babasından, Peyğəmbərdən (s) nəql edir ki, o Həzrət cəzalandırmada (hüdudda) şəfaləti qadağan etmişdir. İmam (ə) buyurur:«Hər kəs ilahi cəzalardan birinin icra olunmaması üçün vasitəçilik etsə və cəzaların ləğv olunmasına çalışsa, Allah-taala Qiyamət günü ona əzab verər.» [6]

***474. Cəzanın təxirə salmağın qadağan olması***

1449. İmam Baqir (ə):«Bir kişinin zina etdiyi barədə üç nəfər şəhadət verdi. Əmirəl-möminin (ə) buyurdu:«Dördüncü şahid haradadır?» Dedilər:«İndi gəlir» Həzrət (ə) buyurdu:«Bu üç nəfərə hədd vurun (cəzalandırın). Çünki, cəza bir an da olsun, təxirə salınmamalıdır.» [7]

***475. Həddi aşmağın qadağan olması***

**Qur’an:**

«Bunlar Allahın hüdudlarıdır. Onları aşmayın. Allahın hüdudlarından kənara çıxanlar, Əlbəttə, zalımlardır.» [8]

**1410. Hədis:**

1450. Allahın Peyğəmbəri (s):«(Qiyamət günü) Hökmündə bir şallaq az cəza (hədd) təyin edən hakimi gətirərlər. O deyər:«Ey Allahım! Sənin bəndələrinə ürəyim yandığı üçün belə etmişəm». Allah-taala ona buyurar:«Məgər sən onlara Məndən daha ürəyi yanansan?» Bu vaxt əmr verilər ki, onu oda atsınlar. Sonra bir şallaq çox vuranı gətirərlər. O da deyər:«Onları günahlardan çəkindirmək üçün bir şallaq çox vurmuşam. Onun da oda atılmasına əmr verilər.» [9]

---

[1] Mustədrəkul-Vəsail, səh.7, hədis21834

[2] Zəmanət – yəni, cəzalandırılmış şəxs üçün zamin durmaq

[3] Kənzul-Ummal, hədis 43837

[4] Mən la yəhzuruhul-fəqih, c.4, səh.74, hədis5146

[5] Mustədrihul-Vəsail, c.13, səh.439, hədis15846

[6] Mustədrəkul-Vəsail, c.8, səh.24, hədis21901

[7] əl-Kafi, c.7, səh.210, hədis4

[8] Bəqərə, ayə 229

[9] Mustədrəkul-Vəsail, c.8, səh.37, hədis21948

1451. İmam Baqir (ə):«Əmirəl-möminin (ə) Qəmbərə əmr etdi ki, bir kişiyə şallaq (həddə) vursun. Qəmbər əsəbindən üç şallaq çox vurur. Əli (ə) Qəmbərə üç şallaq vurmaqla onu qisas edir.» [1]

***476. Günahın paklanmasında cəzanın icrasının rolu***

1452. Allahın Peyğəmbəri (s):«Günah edən şəxsə, həmin günahın cəzası tətbiq olunarsa, bu onun kəffarəsidir.»[2]

1453. İmam Əli (ə):«Allah-taala bu dünyada mömin bəndəyə cəza verərsə, Qiyamət günü onu yenidən cəzalandırmaqdan daha rəhimli və daha böyükdür.» [3]

***477. Cəzalandırılmış şəxsi təhqir etməyin qadağan olması***

1454. «Tənbihul-xəvatir»:«Allahın Peyğəmbəri (s) bir zinakar kişini daşqalaq etdi.» Bir nəfər öz dostuna dedi:«O, it kimi öldü.» Allahın Peyğəmbəri (s) həmin bu iki nəfərlə murdar bir leşin yanından keçəndə onlara buyurdu:«Dişlərinizlə bu leşdən bir tikə qoparın.» Ərz etdilər:«Ey Allahın Rəsulu! Allahın salamı olsun sənə, leşi dişimizə götürək?» Buyurdu:«Qardaşınızdan qopardığınız tikə bu leşdən daha üfunətlidir»[4]

1455. Əbdürrəhman ibn Əbi Leyla:«Əli (ə) bir kişiyə cəza (hədd) tətbiq etdi. Xalq həmin şəxsə təhqiramiz sözlər deyib Lənətləməyə başladı. Əli (ə) buyurdu:«O, öz günahına görə daha sorğu-sual olunmayacaq.»[5]

***478. Cəzalandırılmış (şallaq vurulmuş) şəxs üçüncü dəfə qətlə yetirilməlidir***

1456. İmam Kazim (ə):«Böyük günah etdiklərinə görə iki dəfə cəzalandırılmış (şallaq vurulmuş) şəxslər üçüncü dəfə öldürülməlidir»[6]

***479. Təzir[7]***

1457. Həmmad ibn Osman:«İmam Sadiqdən (ə) təzir barədə soruşdum. Buyurdu:«Həddən bir qədər azdır.» Ərz etdim:«Səksən şallaqdan azdır?» Buyurdu:«Qulun cəzası (hədd) olan qırx şallaqdan azdır.» Ərz etdim:«Nə qədərdir?» Buyurdu:«O hakimin nəzərindən asılıdır, şəxsin təqsirini (cinayəti) və bədəninin qüdrətini nəzərə almalıdır.»[8]

---

[1] əl-Kafi, c.7, səh.260, hədis1
[2] Kənzul-Ummal, hədis 12964
[3] Tuhəful-Uqul, səh.214
[4] Tənbihul-Xəvatir, c.1, səh.116
[5] Kənzul-Ummal, hədis 14002
[6] əl-Kafi, c.7, səh.191, hədis2
[7] Təzir – cəzanın bir növüdür. Təzirdə tərbiyələndirmək məqsədi ilə şallaq vurular.
[8] İləluş-Şəraye, səh.538, hədis4

1458. İmam Sadiq (ə) -»Təzirin həddi nə qədərdir?» sualının cavabında- «On şallaqdan, iyirmi şallağa qədər.»[1]

ιοοοοοοπ

[1] əl-Kafi, c.7, səh.240, hədis1

92

# Müharibə

***480. Müharibə.***

1459. İmam Əli (ə):«Çox müharibə var ki, faydası sülhdən daha çoxdur.»[1]

1460.İmam Əli (ə):«Mübahisə və ziddiyyət müharibə yaradar.»[2]

1461. İmam Əli (ə):«İnadkarlıq müharibələrin mənşəyidir.»[3]

1462. İmam Hüseyn (ə):«Bilin ki, müharibənin şərri tez gələn, tamahı pis və nifrət doğurandır. Özünü müharibəyə hazırlayan, onun silah-sursatını tədarük görən kəs, müharibə başlamamış öz bədənini onun yaraları ilə incitməsə müharibədə qalib gəlmişdir. Amma, əlverişli fürsət və müharibə zamanı yetişməmiş, həmçinin özünün hərbi qüdrətindən xəbərsiz müharibəyə başlayan kəs, ordusuna heç bir fayda verməz və özünü də həlak edər.»[4]

***481. Düşmənə qəfildən hücum etmək.***

1463. İmam Əli (ə):«Bax! Mən gecə və gündüz, aşkarda və gizlində sizi bu xalq ilə müharibəyə çağıraraq dedim:«Onlar sizə hücum etməmiş, siz onların üzərinə həmlə edin. Çünki, Allaha and olsun, heç bir xalqla onların öz torpaqlarının içərilərində elə bir müharibə olmayıb ki, onlar bu müharibədə xar olmasınlar.»[5]

***482. Müharibəyə başlamazdan əvvəl nəyə riayət etmək lazımdır***

1464. Allahın peyğəmbəri (s) buyurur:«Xalqla yaxşı rəftar edin və onlara fürsət verin. Haqqa də‘vət etməmiş onlara hücum çəkməyin. Çünki, yer üzünün şəhərlər və çadırlarında yaşayan insanlarını mənim yanıma müsəlman (kimi) gətirməyinizi qadın və övladlarını (əsir kimi) tutub yanıma gətirib kişilərini öldürməyinizdən daha çox xoşlayıram.»[6]

1465. İmam Əli (ə) Siffeyn döyüşündə buyurmuşdur:«Allaha and olsun, müharibəni bir gün də olsun təxirə salmağım, yalnız onların mənə qoşulmaları, mənim vasitəmlə hidayət olmaları və sayəmdə rahatlıq tapmalarına ümid

---

[1] Ğurərul-Hikəm, hədis 5320
[2] Ğurərul-Hikəm, hədis 705
[3] Ğurərul-Hikəm, səh.406
[4] Şərhe Nəhcül-Bəlağə, c.3, səh.186
[5] Nəhcül-Bəlağə, xütbə 27
[6] Kənzul-Ummal, hədis 11300

etdiyim üçün olmuşdur.Bu, mənə onları, yollarını azmış halda öldürməkdən daha xoşdur.»[1]

### *483. Ordunun kəşfiyyatçıları*

1466. İmam Əli (ə) Ziyad ibni Nəzrə tapşırığında buyurur:«Bil ki, kəşfiyyatçılar ordunun gözü, kəşfiyyatçıların gözü isə onların gözətçiləridir. Öz vətəninin sərhədlərini aşıb düşməninə yaxınlaşan zaman dərhal hər tərəfə – dərələrə, meşələrə, puşqu yerlərinə və hər güşəyə – gözətçilər qoy ki, düşmən sizə pusqu qurub qəfildən hücum etməsin.»[2]

### *484. Hərbi təlimlər*

1467.Allahın Peyğəmbəri(s):«Elçiləri və girovları öldürməyin.»[3]

1468.İmam Əli (ə):«Zirehliləri ön cərgədə, zirehsizləri isə arxa cərgələrdə yerləşdirin. Dişlərinizi bir-birinə sıxın, bu (düşmənin) qılıncla başdan vurduğu zərbəsinin təsirini azaldar. Nizələrin ətrafında əyilib-düzəlin. Belə etsəniz nizələrin qabağını daha yaxşı boşalda bilərsiniz. Gözlərinizi aşağı salın ki, bu qəlblərinizə daha çox qüvvə və rahatlıq bəxş edər. Səslərinizi çıxarmayın ki, bu qorxu və zəifliyin aradan getməsinə daha çox təsir edər.» [4]

1469. İmam Əli (ə):«Düşmən döyüşə başlamamış onunla vuruşmayın. Çünki, həmd olsun Allaha ki, sizin höccətiniz var. Onlara müharibəni başlamağa fürsət verməyiniz isə, sizin onlara qarşı başqa bir höccətinizdir. Əgər Allahın izni ilə düşmən məğlub olarsa, qacanları öldürməyin. Əsirlərə bədən xəsarəti yetirməyin, qadınları əziyyətlə və incitməklə təhrik etməyin.»[5]

1470. İmam Əli (ə):«Allahın Peyğəmbəri (s) müşriklərin şəhərlərini zəhərləməyi qadağan etmişdir.»[6]

1471. İmam Səccad (ə) buyurur:«Əgər yeriməyə gücü olmayan kimsəni əsir götürmüsənsə və aparmağa bir vasitən yoxdursa, onu öldürməyib azad burax. Çünki, İmamın onun barəsində hökmünü bilmirsən.»[7]

### *485. Müharibə hiylədir*

1472. Allahın Peyğəmbəri (s):«Fikrinə gələn hər şeyi de, çünki müharibə hiylədir.»[8]

### *486. Müharibədən qaçmağın qadağan olması*

**Qur‘an:**

«Döyüş sursatları üçün geri qayıdanlardan və başqa bir dəstəyə köməyə gedənlərdən başqa, düşmənə arxa çevirənlər Allahın qəzəbinə gələrlər.

---

[1] Nəhcül-Bəlağə, xütbə 55
[2] Tuhəful-Uqul, səh.191
[3] Qurbul-İrşad, səh.131, hədis456
[4] Nəhcül-Bəlağə, xütbə 124
[5] Nəhcül-Bəlağə, məktub 12
[6] əl-Kafi, c.5, səh.28, hədis2
[7] İləluş-Şərayi, səh.565, hədis1
[8] Kənzul-Ummal, hədis 10892

Onların yeri necə də pis yer olan Cəhənnəmdir.»[1]

**Hədis:**

1473. «İmam Əli (ə) Siffeyn müharibəsində öz səhabələrinə xitabən buyurur:«Dalbadal yürüş edin və qaçmaqdan həya edin, çünki döyüş meydanından qaçmaq gələcək nəsillərə və gələcək dövrlərə əbədi qalan rüsvayçılıqdır. Könül razılığı ilə vuruşun, şad və rahat ruhiyyə ilə ölümə doğru addım atın»[2].

1474. İmam Sadiq (ə):«Müharibədə iki kişinin qadağından qaçanın işi, qaçmaq hesab olunar. Əgər müharibədə üç nəfərin qabağından qaçarsa, bu qaçmaq sayılmaz.»[3]

1475. İmam Rza (ə):«Allah-taala cihad meydanından qaçmağı haram etmişdir. Çünki, bu dinin zəifləməsinə, peyğəmbərlər və ədalətli rəhbərlərə (ə) hörmətsizliyə səbəb olar.»[4]

### *487. Müharibədə müxtəlif növ silahlardan istifadə etmək*

**Qur'an:**

«Onların müqabilində bacardığınız qədər qüvvə toplayın.»[5]

**Hədis:**

1476. Həfs ibn Ğiyas: «İmam Sadiqdən (ə) soruşdum:«Əhalisi müharibə edən şəhərdə müsəlman qadın, uşaq, qoca, əsirlər və tacirlər olduğu halda ora su buraxıb od vurmaq və ya əhalisini öldürmək məqsədi ilə onu mancanağa tutmaq olarmı?» Həzrət (ə) buyurur:«Onlara qarşı bu işləri görmək lazımdır və həmin şəxslərin (müsəlmanların) olmasına görə müharibə edən şəhərin əhalisindən əl çəkmək olmaz. Onlara görə müsəlmanların boynunda nə bir diyə[6] var, nə də kəffarə.»[7]

### *488. Dəniz qüvvələri*

1477. Allahın Peyğəmbəri (s):«Dəniz döyüşlərində şəhid olanlar Allah yanında yerüstü müharibə şəhidlərindən üstündürlər.»[8]

### *489. Qadınların müharibədə iştirakı*

1478. İmam Baqir (ə), yaxud İmam Sadiq (ə):«Allahın Rəsulu (s) yaralıları müalicə etmək üçün qadınları da özü ilə müharibəyə apardı. Qənimətdən onlar arasında heç bir şey bölüşdürməsə də, onlara bəxşişlər verdi.»[9]

ιοοοοοοπ

---

[1] Ənfal, ayə 16

[2] Nəhcüs-Suadə, c.2, səh.232

[3] əl-Kafi, c.5, səh.34, hədis1

[4] Uyune Əxbare Reza, c.2, səh.92, hədis1

[5] Ənfal, ayə 60

[6] Diyə – qan bahasıdır

[7] əl-Kafi, c.5, səh.28, hədis6

[8] Kənzul-Ummal, hədis 11108

[9] əl-Kafi, c.5, səh.45, hədis8

**93**

# Müharib[1]

***490. Müharib***

**Qur'an:**

«Allah və Onun Rəsulu ilə müharibə edənlərin, yer üzündə fəsad törətməyə çalışanların cəzası öldürülmək ya dar ağacından asılmaq, ya əlləri və ayaqları biri soldan, biri də sağdan kəsilmək, yaxud da öz vətənlərindən sürgün olunmaqdır.»[2]

**Hədis:**

1479. Allahın Peyğəmbəri (s):«Başqalarının üzərinə qılınc çəkənin qanı hədərdir.»[3]

1480. İmam Əli (ə):«Oğru müharibi (yəni, əlində silah oğurluqla məşğul olan kəsi) öldür və narahat olma, onun qanı mənim boynumadır.»[4]

1481. «Dəaimul-İslam»:«Əmirəl-mömininin yanına bir müharib gətirdilər. O Həzrət (ə) müharibi diri-diri dar ağacından asmağı əmr etdi. Bunun üçün üzü qibləyə bir (dar) ağacı qurdu və həmin müharibi arxası ağaca, üzü isə camaata və qibləyə tərəf dar ağacından asdı. Onun cəsədi üç gün dar ağacından asılı qaldı. Üç gündən sonra onu aşağı salmağı əmr etdi və namazını qılıb dəfn etdi.»[5]

1482. İmam Baqir (ə):«Gecə vaxtı özü ilə silah gəzdirən kəs müharibdir, yalnız heç bir şəkk-şübhə yeri olmayan şəxsdən başqa.»[6]

1483. İmam Sadiq (ə) müharibin sürgun olunması barədə sualın cavabında buyurub: «Şəhərdən sürgün edilər.Əmirəl-möminin (ə) iki kişini Kufədən başqa yerə sürgün etdi.»[7]

---

[1] Müharib – Allaha, peyğəmbərə, imama və möminlərə qarşı vuruşan şəxsdir
[2] Maidə, ayə 33
[3] Mustədrikul-Vəsail, c.1, səh.99, hədis12521
[4] əl-Məhasin, c.2, səh.107, hədis1289
[5] Dəaimul-İslam, c.2, səh.477, hədis1713
[6] əl-Kafi, c.7, səh.246, hədis6
[7] Mustədrikul-Vəsail, c.18, səh.159, hədis22384

**94**

# Azadlıq və azadəlik[1]

1484. İmam Sadiq (ə):«Hər kəsdə bu beş xislətdən biri olmasa, onda çox xeyir-bərəkət olmaz: vəfa, tədbirlilik, abır-həya, xoş xasiyyət, əvvəlki dörd xisləti özündə birləşdirən azadəlik.»[2]

***492. Bütün insanlar azaddır***

1485. İmam Əli (ə) :«Ey insanlar! Adəmdən nə bir qul törənib, nə də bir kəniz. Bütün insanlar azaddır.»[3]

1486. İmam Əli (ə):«Başqalarına qul olma, Allah-taala səni azad yaradıb.»[4]

1487. İmam Sadiq (ə):«Azadə hər bir halda azadədir. Ona bəla və çətinlik üz verən zaman səbr edər. Əgər başına müsibətlər yağsa da, əsirliyə düşsə də, məğlub olsa da, rahatlığını əldən verib çətinliyə, yoxsulluğa düçar olsa da bütün bunların heç biri onu sındırmaz. Əmin Siddiq Yusif kimi! (Allahın salamı ona olsun). Onu qul da etdilər, məğlub da oldu, əsir də götürüldü, amma bunların heç biri onun azadəliyinə xələl yetirmədi.»[5]

***493. Azad insanın xasiyyəti***

1488. İmam Əli (ə): «Gülərüzlülük azədə insanın xislətidir.»[6]

1489. İmam Əli (ə): «Həya və iffət imanın xislətlərindəndir. Bunun ikisi də azadələrin təbiəti və yaxşı insanların xasiyyətidir.»[7]

1490. İmam Əli (ə): «Qane olan qul azaddır, tamahkar azad isə qul.»[8]

---

[1] Azadəlik – ürəyi genişlik, alicənablıq, səmimiyyət
[2] əl-Xisal, səh.284
[3] Nəhcüs-Suadə, c.1, səh.198
[4] Nəhcül-Bəlağə, məktub 31
[5] əl-Kafi, c.2, səh.89, hədis6
[6] Ğurərul-Hikəm, hədis 467
[7] Ğurərul-Hikəm, hədis 3605
[8] Ğurərul-Hikəm, hədis 413

**95**

# Hərislik

***494. Hərislik***

1491. İmam Əli (ə) (Hərislik nədir?-sualının cavabında) «Çoxu əldən verməklə azı əldə etmək.»[1]

1492. İmam Əli (ə): «Hərislik əbədi əziyyətdir.»[2]

1493. İmam Əli (ə): «Hərislik mərdliyə ləkə gətirər.»[3]

1494. İmam Əli (ə): «Hərislik dərdin miniyidir.»[4]

***495. Həris***

1495.İmam Əli (ə) – «Hansı zəlillik daha pisdir? – sualına cavab olaraq buyurur:«Dünyaya hərislik.»[5]

1496. İmam Əli (ə) :«Həris əsarətin buxovlarından heç vaxt xilas ola bilməyən çarəsiz bir əsirdir.»[6]

1497. İmam Əli (ə):«Ruzi bölünmüşdür, həris isə məhrumdur.»[7]

1498. İmam Əli (ə):«Həris bütün dünyaya malik olsa belə möhtacdır.»[8]

1499. İmam Əli (ə): «Həris olan kimsə özünü bədbəxtlik və əziyyət uçurumuna atmışdır.»[9]

1500. İmam Əli (ə): «Həris qane olmaz.»[10]

1501. İmam Əli (ə): «Hərislik ruzini artırmaz, əksinə məqamı və qədir-qiyməti yerə vurar.»[11]

1502. İmam Hüseyn (ə): «Nə iffət ruziyə mane olar, nə də hərislik ruzini artırar. Çünki ruzi bölünmüşdür və mütləq əcəldir. Hərislik etmək isə günah istəməkdir.»[12]

---

[1] Biharul-Ənvar, c.73, səh.167, hədis31
[2] Ğurərul-Hikəm, hədis 982
[3] Ğurərul-Hikəm, hədis 1107
[4] Ğurərul-Hikəm, hədis 280
[5] Əmali-Səduq, səh.322, hədis4
[6] Ğurərul-Hikəm, hədis 1370
[7] Ğurərul-Hikəm, hədis 96
[8] Ğurərul-Hikəm, hədis 1753
[9] Ğurərul-Hikəm, hədis 7723
[10] Ğurərul-Hikəm, hədis 365
[11] Ğurərul-Hikəm, hədis 1877
[12] Əlamud-Din, səh.428

1503. İmam Baqir (ə): «Dünya hərisi olan kimsənin hekayəti barama (ipək) qurdunun hekayətidir. Öz üzərinə nə qədər çox ipək toxuyursa, bir o qədər onun piledən çıxmaq imkanı azalar və nəticədə qəm-qüssədən ölər.»[1]

1504. İmam Sadiq (ə):«Əmirəl-möminin (ə) buyururdu:«Ey Adəm övladı! Əgər dünyadan, sənə kifayət etdiyi qədərini istəsən, dünyanın ən azı bir şeyi sənə bəs edər. Ancaq kifayət etdiyindən çoxunu istəsən, bütün dünya da sənə bəs etməz.»[2]

***496. Hərisliyin kökü***

1505. Allahın Peyğəmbəri (s):«Ey Əli! Bil ki, qorxaqlığın, simiclik və hərisliyin təbiəti birdir və onların kökü (Allaha) bədgüman olmaqdır.»[3]

1506. İmam Əli (ə):«Həqiqətən, Adəm övladı ona qadağan olunmuş şeyə hərisdir.»[4]

1507. İmam Əli (ə):«Çox hərisliyin və xəsisliyin bünövrəsi Allaha şəkk və az etimad etmək üzərində qurulmuşdur.»[5]

1508. İmam Əli (ə):«Çox hərislik gözüdoymazlıqdan və dinin zəifliyindən irəli gəlir.»[6]

ιooooooπ

[1] əl-Kafi, c.2, səh.316, hədis7
[2] əl-Kafi, səh.138, hədis6
[3] İləluş-Şəraye, səh.559, hədis1
[4] Kənzul-Ummal, hədis 44095
[5] Ğurərul-Hikəm, hədis 6195
[6] Ğurərul-Hikəm, hədis 5772

## 96

# Haram

***497. Haramlardan çəkinmək***

1509. İmam Əli (ə):«Əgər kəramət və alicənablıq istəyirsənsə, haramlardan uzaqlaş.»[1]

1510. İmam Əli (ə):«Ən gözəl əxlaqi xüsusiyyət haramlardan çəkinməkdir.»[2]

1511. İmam Əli (ə):«Əgər Allah-taala nalayiq işləri qadağan etməsəydi, belə ağıllı insan yenə də onlardan çəkinməliydi.»[3]

***498. Haram yemək***

1512. Allahın Peyğəmbəri (s):«Haram yeyərək ibadət etmək qumun və ya başqa sözlə desək, suyun üzərində bina tikməyə bənzəyir.»[4]

1513. Allahın peyğəmbəri (s):«Bir tikə haramdan imtina etmək Allaha iki min rirət müstəhəbb namaz qılmaqdan daha xoş gəlir.»[5]

1514. İmam Baqir (ə):«İnsan haram mal əldə edərsə, nə onun həcci, nə ümrəsi, nə də sileyi-rəhmi qəbul olunmaz, hətta onun evlənməyinə və ailə həyatına da pis tə‘sir göstərər.»[6]

1515. İmam Sadiq (ə) «etdikləri əməlləri araşdıracağıq və hamısını toz zərrələri kimi küləyə sovuracağıq» ayəsi haqda buyurur:«Allaha and olsun, onların əməlləri Misir kətanından ağ olsa da, haramla üz-üzə gələndə ondan imtina etməzdilər.»[7]

***499. Haram iş görməyə imkanı olduğu halda onu tərk edənin savabı***

1516. Peyğəmbər (s):«Haram qadın və ya kəniz ilə yaxınlıq etmək imkanı yaranan zaman Allah qorxusundan bu işdən çəkinənə Allah-taala Cəhənnəm odunu haram edər, (Qiyamət günü) böyük qorxudan amanda saxlayar və Cənnətə daxil edər.»[8]

---

[1] Ğurərul-Hikəm, hədis 4069
[2] Ğurərul-Hikəm, hədis 9382
[3] Ğurərul-Hikəm, hədis 7595
[4] İddətud-Dai, səh.141
[5] Tənbihul-Xəvatir, c.2, səh.120
[6] Əmali-Tusi, səh.680 , hədis1447
[7] əl-Kafi, c.2, səh.81 , hədis5
[8] Səvabul-Əmal, səh.334 , hədis1

1517. Allahın Peyğəmbəri (s) :«Haram bir iş görməyə imkanı olan şəxs yalnız Allahdan qorxduğuna görə bu işdən imtina edərsə, əvəzində Allah-taala ona axirətdən əvvəl, elə bu dünyada daha yaxşısını bəxş edər.»[1]

1518. İmam Kazim (ə):«Süffə əhli Peyğəmbərin (s) qonağı idilər. Onlar öz ev-eşiklərini tərk edib Mədinəyə hicrət etmişdilər. Allahın Peyğəmbəri (s) dörd yüz nəfər olan həmin kişiləri məscidin həyatində yerləşdirmişdi. O Həzrət (s) hər səhər və axşam onların yanına gedib salam verirdi. Bir gün onların yanına gələndə görür ki, biri ayaqqabısını yamayır, digəri paltarına yamaq vurur, bir dəstəsi də paltarlarının bitini təmizləyir.

Allahın Rəsulu (s) hər gün onlara bir müd[2] xurma verirdi. Onların arasından bir kişi qalxıb ərz etdi:«Ey Allahın Rəsulu! Bizə verdiyin xurma mədəmizi yandırdı». Allahın Peyğəmbəri (s) buyurdu:«Bilin ki, əgər dünyanı sizə yedizdirə bilsəydim, bu işi görərdim. Amma məndən sonra sizlərdən sağ qalanlar səhər və axşam doyunca yemək yeyəcəklər. Hər biriniz səhər bir köynək, axşam başqasını geyinəcək və evlərinizi Kəbə evi kimi ucaldıb, bəzəyəcəksiniz».

Bir kişi qalxıb dedi:«Ey Allahın Rəsulu! Mən belə günün arzusundayam! O gün nə vaxt gələcək?» Buyurdu:«Sizin bu gününüz həmin zamandan daha yaxşıdır. Əgər siz qarınlarınızı halalla doldursanız, çox güman ki, onu haramla da doldurarsınız.»[3].

ιοooooπ

[1] Kənzul-Ummal, hədis 43113
[2] Müd – çəki ölçü vahididir – 750 qrama bərabərdir
[3] Mustədrikul-Vəsail, c.2, səh.56 , hədis13499

# 97

# Peşə

***500. Peşə***

1519. Allahın Peyğəmbəri (s):«Allah-taala mömin, öz peşəsinin ustası olan və işləyən bəndəni sevir.»[1]

1520. «Əl-xisal»:«Allahın Rəsulu (s) bir kimsəyə baxanda və ondan xoşu gələndə buyurardı:«Peşəsi də varmı?» Əgər «xeyr» desəydilər buyurardı:«Gözümdən düşdü» Ərz edərdilər:«Niyə, ey Allahın Rəsulu?» Buyurardı:«Əgər möminin bir peşəsi və məşğuliyyəti olmazsa öz dinini dolanışıq vasitəsinə çevirəcək»[2].

1521. İmam Əli (ə):«Ticarətlə məşğul olun ki, sizi xalqın malından ehtiyacsız edər və Allah-taala peşəkar, işində düz olan bəndəni sevər»[3].

1522. «Müstədrəkul-Vəsail»:«İmam Sadiq (ə) səhabələrin birindən peşəsi barəsində soruşdu. Səhabə ərz etdi ki, «sənə fəda olum, mən ticarətdən kənara çəkilmişəm». Buyurdu:«Niyə?» Ərz etdi:«Bu işin baş verməsini (sizin hökumətinizin qurulmasını) gözləyirəm.» 0 Həzrət (ə) buyurdu:«Bu sizdən gözlənilməyən bir hərəkətdir, (çünki) sərvətiniz əldən gedir. Ticarətdən əl çəkmə, Allahın fəzilət və bərəkətini axtar, dükanını aç, mallarını doldur, işini genişləndir və Allahdan ruzi istə.»[4]

***501.Allahın hizbi***

**Qur'an:**

« Allah, Onun peyğəmbəri və möminlərlə dostluq edən kəs bilsin ki, Allahın hizbi qalibdir.»[5]

**Hədis:**

1523. İmam Əli (ə):«Allahın qalib hizbindən olmaq istəyirsənmi? Böyük Allahdan qorx və bütün işlərini yaxşı gör. Çünki, Allah-taala təqvalılar və əməli saleh insanlarla birgədir.»[6]

1524. İmam Sadiq (ə):«Biz və bizim şiələr Allahın hizbiyik, Allahın hizbi isə qalibdir.»[1]

---

[1] Kənzul-Ummal, hədis 9199

[2] Camiul-Əxbar, səh.390, hədis1084

[3] əl-Xisal, səh.621, hədis10

[4] Mustədrəkul-Vəsail, c.13, səh.10, hədis 14578

[5] Maidə, ayə 56

[6]Ğurərul-Hikəm, hədis 2828

*502. Şeytanın hizbi*

**Qur’an:**

«Şeytan onlara qalib gəlmiş və Allahın adını yadlarından çıxarmışdır. Onlar şeytanın hizbindəndir. Bilin ki, şeytanın hizbi ziyana uğrayanlardır.»[2]

**Hədis:**

1525. İmam Əli (ə):«Ey insanlar! Bütün fitnə-fəsadlar yalnız sizin öz nəfsani istəklərinizə tabe olmağınızdan başlayır… Əgər haqq xalis və yekdil olsaydı heç bir ixtilaf meydana gəlməzdi. Amma bir az haqqdan və bir ovuc da batildən götürülüb bir-biri ilə qarışdırılıb. Şeytan burada öz dostlarına qalib gəlir. Ancaq, Allahın ehsan və lütfü əvvəlcədən hallarına şamil olanlar nicat taparlar.» [3]

1526. İmam Əlinin (ə) münafiqləri təsvir etdiyi xütbəsindən:«Onlar şeytan dəstəsi və Cəhənnəm alovunun şöləsidir. Onlar şeytanın qoşunudur. Bilin ki, şeytana tabe olanlar məğlublar və ziyana uğrayanlardır.»[4]

ιooooooπ

---

[1] ət-Tohid,səh.166, , hədis1

[2] Mücadilə, ayə 19

[3] əl-Kafi, c1, səh.54, hədis 1

[4] Nəhcül-Bəlağə, xütbə 194

**98**

# Uzaqgörənlik

***503. Uzaqgörənlik***

1527. İmam Əli (ə):«Uzaqgörənlik zirəklikdir.»[1]

1528. İmam Əli (ə):«Uzaqgörən şəxs ehtiyatlı, uzaqgörənliyi tərk edən isə qorxusuz olar.»[2]

1529. İmam Sadiq (ə):«Uzaqgörənlik gümanın çırağıdır.»[3]

***504. Nəticəni düşünmək***

1530. İmam Əli (ə):«Kim sonunu düşünmədən işə başlayarsa, özünü çətinliklərin təhlükəsinə atar.»[4]

1531. İmam Əli (ə):«İşə başlamamış (nəticəni) düşünmək, səni peşmançılıqdan amanda saxlar.»[5]

1532. İmam Əli (ə):«İnsanların ən ağıllısı, onların aqibəti ən çox düşünənidir.»[6]

***505. Uzaqgörənlik və qərar qəbulu***

1533. İmam Əli (ə):«Qələbə uzaqgörənlik və güclü iradə ilə qazanılar.»[7]

1534. İmam Əli (ə):«Uzaqgörənlik olmayan əzm və qərarda xeyir yoxdur.»[8]

***506. Uzaqgörənliyin izahı***

1535. İmam Əli (ə):«Uzaqgörənlik aqibəti düşünmək və müdriklərlə məsləhətləşməkdir.» [9]

1536. İmam Əli (ə):«Uzaqgörənliyin kökü, şübhə yarananda dayanmaqdır.»[10]

1537. İmam Əli (ə):«Sınamamış e‘timad etmək, uzaqgörənliyə ziddir.»[1]

---

[1] Biharul-Ənvar, c.71,səh.339, hədis 8
[2] Ğurərul-Hikəm, hədis (7913 və 7914).
[3] Tuhəful-Uqul, səh.356
[4] Tuhəful-Uqul, səh.90
[5] Uyunul Əxbarel Reza (ə), c2, səh.54, hədis 204
[6] Ğurərul-Hikəm, hədis 3367
[7] Əvali əla, c1, səh.292, hədis 164
[8] Ğurərul-Hikəm, hədis 10682
[9] Ğurərul-Hikəm, hədis 1915
[10] Tuhəful-Uqul, səh.214

***507. Uzaqgörən***

1538. İmam Əli (ə):«Uzaqgörən şəxs odur ki, dünyanın aldadıcı mənzərəsi onu axirət naminə çalışmaqdan çəkindirməsin.» [2]

1539. İmam Əli (ə):«Uzaqgörən şəxs özünə yaxşı dost seçər. Çünki, insana öz dostu ilə qiymət verilir.»[3]

1540. İmam Əli (ə):«Uzaqgörən şəxs odur ki, nemət və var-dövlət onu axirət üçün çalışmaqdan saxlamasın.» [4]

1541. İmam Əli (ə) :«Uzaqgörən şəxs odur ki, qəzəbin şö‘ləlalri şaxə qalxanda cəza verməyi tə‘xirə salsın və ilkin fürsətdə yaxşılığın əvəzini (yaxşılıqla) ödəməyə tələssin.» [5]

***507. Ən uzaqgörən insan***

1542. Allahın Peyğəmbəri (s):«Ən uzaqgörən insan, hamıdan çox öz qəzəbinə qalib gələndir.» [6]

1543. Allahın Peyğəmbəri (s): «Sizin aranızda ən zirəyiniz ölümü başqalarından daha çox yad edən və ən uzaqgörəniniz ona daha çox hazır olanınızdır.»[7]

1544. İmam Əli (ə): «Sizin ən uzaqgörəniniz ən təqvalınızdır.»[8]

ιοοοοοοπ

---

[1] Ğurərul-Hikəm, hədis 1514
[2] Ğurərul-Hikəm, hədis 1984
[3] Ğurərul-Hikəm, hədis 2026
[4] Ğurərul-Hikəm, hədis 1878
[5] Ğurərul-Hikəm, hədis 2179
[6] Əmali-Səduq, səh.28, hədis 4
[7] Əlamud-Din, səh.333
[8] Ğurərul-Hikəm, hədis 2832

**99**

# Qəm

***509. Qəm***

1545. Məsih (ə) :«Çox qəmli olanın bədəni xəstə olar.»[1]

1546. İmam Əli (ə):«Qəm-kədər qocalığın yarısıdır.» [2]

1547. İmam Əli (ə):«Qəm bədəni əridər.» [3]

1548. İmam Sadiq (ə):«Xəstəliklər bədənin naxoşluğu olduğu kimi, qəm-qüssələr də qəlbin naxoşluğudur.» [4]

***510. Qəm gətirən amillər***

1549. Allahın Peyğəmbəri (s):«Gözü xalqın əlində olan kəsin qəm-qüssəsi uzun və təəssüfü çox olar.» [5]

1550. Allahın Peyğəmbəri (s):«Nə çoxdur özündən sonra uzun qəm-qüssə qoyan bir anlıq keçici istək və ləzzətlər.» [6]

1551. İmam Əli (ə):«Kim ziyan vurmaq qüdrəti olmadığı şəxsə qəzəblənsə, qəmi uzun və özünə əzab vermiş olar.»[7]

1552. İmam Əli (ə):«Həsəd çəkən şəxs qədər məzluma daha çox oxşayan zalım görmədim. Onun canı yorğun, qəlbi narahat və qəm-qüssəsi daimidir.» [8]

1553. İmam Əli (ə):«Əməlində səhlənkarlıq edən qəm-qüssəyə düçar olar.» [9]

1554. İmam Əli (ə):«Hövsələsizlik etməkdən çəkin ki, o ümüdü kəsər, əməli zəiflədər və qəm gətirər.»[10]

***511. Qəm-qüssəni aparan amillər***

**Qur’an:**

«Bilin ki, Allahın dostlarına qorxu yoxdur və onlar qəmli olmazlar.» [11]

---

[1] Əmali-Səduq, səh.436, hədis 3
[2] Tuhəful-Uqul, səh.214
[3] Ğurərul-Hikəm, hədis 1039
[4] Əd-Dəvat, səh.118, hədis 276
[5] Əlamud-Din, səh.294
[6] Əmali-Tusi, səh.533, hədis 1162
[7] Tuhəful-Uqul, səh.99
[8] Biharul-Ənvar, c.73, səh.256, hədis 29
[9] Nəhcül-Bəlağə, hikmət 127
[10] Dəaimul-İslam, c1, səh.223
[11] Yunis, ayə 62

**Hədis:**

1555. Allahın Peyğəmbəri (s): «Allah öz hikmət və lütfünə əsasən rahatlığı və şadlığı yəqinlik və razılıqda, qəm-qüssəni şəkkdə və (Allahdan) narazı olmaqda qərar verdi.» [1]

1556. Allahın Peyğəmbəri (s):«Ey insanlar! Dünya qəm sarayıdır, şadlıq sarayı deyil. Çətinlik sarayıdır, rahatlıq sarayı deyil. Beləliklə, onu tanıyan şəxs ümidlə şad və çətinliklə qəmgin olmaz.»[2]

1557. Allahın Peyğəmbəri (s):«La hövlə və la qüvvətə illa billah» cümləsi doxsan doqquz dərdə şəfadır ki, onların ən sadəsi qəm-qüssədir.» [3]

1558. İbni Abbas: «Allahın Rəsulunun (s) sözündən sonra, heç bir sözdən Əli ibn Əbutalibin (ə) mənə yazdığı məktub qədər bəhrələnmədim. O mənə yazmışdı: (Allaha həmd etdikdən sonra buyurdu) «İnsan, çata bilmədiyi bir şeyə çatmadığına görə qəmlənir və çatması mümkün olmayan bir şeyə çatdığına görə sevinir. Öz axirətindən bir şeyə çatanda şad ol və öz axirətindən bir şeyi əldən verməyinə qəmlən. Öz dünyandan bir şeyə yetişəndə sevinmə və ondan bir şeyi itirməyinə kədərlənmə. Öz qəm-qüssəndən, ölümdən sonra üçün istifadə et. Vəssəlam.» [4]

1559. İmam Əli (ə): «Yəqinlik qəm-qüssəni necə də gözəl yox edir.»[5]

1560. İmam Əli (ə): «Paltarları yumaq qəm-qüssəni aparar.» [6]

1561. İmam Sadiq (ə):«Əgər hər şey qəzavü-qədərə bağlıdırsa, onda qəm-qüssə nəyə lazım?» [7]

1562. İmam Sadiq (ə):«Peyğəmbərlərdən biri Allahın dərgahına qəm-qüssədən şikayət etdi. Allahdan ona əmr gəldi ki, üzüm yesin.» [8]

1563. İmam Sadiq (ə):«Hər kəs özündə qəm-qüssə hiss etsə və bunun səbəbini bilməsə başını yusun.» [9]

### *512. Zahirən dəlili olmayan şadlıq və qüssənin səbəbi*

1564. Əbu Bəsir:«Şiələrdən biri ilə İmam Sadiqin (ə) yanına gəldik. O Həzrətə (ə) ərz etdim:«Sənə fəda olum, ey Allah Rəsulunun övladı! Mən (bəzən) səbəbini bilmədən qəmgin və qüssəli oluram! İmam Sadiq (ə) buyurdu:«O qəm və şadlıq bizdən sizə yetişir. Əgər bizə bir qüssə və ya şadlıq üz verərsə sizə də çatar. Çünki, biz (Əhli-Beyt) və sizlər Allahın nurundanıq.»[10]

1565. «Biharul-ənvar» kitabından:«Rəvayət edirlər ki, Alimdən (ə) soruşdular:«Bir nəfər səbəbini bilmədən qəmgin olur? Buyurdu:«Əgər ona qəm

[1] Tuhəful-Uqul, səh.6
[2] Əlamud-Din, səh.343
[3] Qorobul-Əsnad, səh.76, hədis 244
[4] Mətalebus-Suul, səh.55
[5] Biharul-Ənvar, c.77, səh.211, hədis 1
[6] əl-Xisal, səh.612, hədis 10
[7] Əmali-Səduq, səh.16, hədis 5
[8] əl-Məhasin, c.2, səh.362, hədis 2262
[9] Əd-Dəvat, səh.120, hədis 284
[10] İləlul-Şəraye, səh.93, hədis 2

yetişsə bilsin ki, qardaşının qəm-qüssəsi var. Eləcə də, səbəbsiz yerə şad olsa da bu cürdür. Buna görə, qardaşların haqlarını yerinə yetirməkdə Allahdan kömək diləyirik.» [1]

***513. Bəyənilən qəm-qüssə***

1566. Allahın Peyğəmbəri (s) :«Allah-taalaya uzun qəm-qüssə kimi (Allahın bəyəndiyi) bir şeylə ibadət olunmayıb.»[2]

1567. İmam Səccad (ə) :«Allah-taala qəmli qəlbləri sevər.» [3]

1568. İmam Sadiq (ə) :«Mömin səhərini, axşamını qəm-qüssə ilə keçirər və bundan başqa onun üçün xeyirli, məsləhətli bir şey yoxdur.» [4]

1569. İmam Sadiq (ə) :«Bizdən ötrü narahatlıq keçirən və bizə yetişən zülmə görə qəmli olan kimsənin nəfəs çəkməyi (Allaha) təsbih və bizə görə qəmlənməyi ibadətdir.» [5]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.74, səh.227, hədis 20
[2] Məkarimul-Əxlaq, c.2, səh.367
[3] əl-Kafi, c.2, səh.99, hədis 30
[4] Əd-Dəvat, səh.287, hədis 18
[5] əl-Kafi, c.2, səh.226, hədis 16

## 100

# Hesab-kitab

***514. Hesab-kitab***

1570. Allahın Peyğəmbəri (s) :«Agah olun! İndi siz elə bir gündə yaşayırsınız ki, əməl vaxtıdır və burada hesab-kitab yoxdur. Tezliklə elə bir günə çatacaqsınız ki, orada hər şeyin hesabı sorulacaq və əməl olmayacaq.» [1]

1571. İmam Əli (ə) :«Haqq-hesaba yetişmək cəzadan əvvəldir, mükafat isə haqq-hesabdan sonra.»[2]

***515. Nəfsin sorğu-sualına həvəsləndirmək***

**Qur'an:**

«Ey iman gətirənlər! Allahdan qorxun və hər kəs öz sabahı üçün nə hazırladığına baxsın. Allahdan qorxun ki, Allah etdikləriniz əməllərdən agahdır.» [3]

**Hədis:**

1572. Allahın Peyğəmbəri (s) :«Sizdən haqq-hesab soruşulmamış nəfsinizdən haqq-hesab çəkin, sizləri (əməllərinizi) ölçməmişdən əvvəl öz nəfsinizi tərəziyə qoyun və o böyük haqq-hesab gününə hazırlaşın.» [4]

1573. İmam Əli (ə) :«Öz nəfslərinizi hesab-kitabla (ipilə) bağlayın və ona (nəfsə) qarşı çıxmaqla cilovunu öz əlinizə keçirin.» [5]

1574. İmam Səccad (ə) :«Ey Adəm övladı! Özün-özünə vaiz olduğun və öz nəfsinin sorğu-sual etdiyin vaxta qədər həmişə xeyir-bərəkət içində yaşayacaqsan.»[6]

1575. İmam Kazim (ə) :«Hər gün öz nəfsinin hesabına yetişməyən kəs bizdən deyil. Hər kəs baxsın, əgər yaxşı bir əməl edibsə, ondan daha çoxunu əməl etmək üçün Allahdan uğur diləsin və buna görə Allaha şükr etsin. Əgər bir pis iş görübsə, Allahdan bağışlanmağını istəsin və tövbə etsin.»[7]

---

[1] Əlaməd-Din, səh.345
[2] Ğurərul-Hikəm, hədis 380
[3] Həşr, ayə 18.
[4] Biharul-Ənvar, c70, səh.73, hədis 26
[5] Ğurərul-Hikəm, hədis 6794
[6] Tuhəful-Uqul, səh.280
[7] əl-Extesas, səh.26

***516. Nəfsi sorğu-sual etməyin səmərəsi***

1576. İmam Əli (ə) :«Öz nəfsini sorğu-sual edən şəxs öz eyblərindən agah olar, günahlarını başa düşər, (yaxşılıq etməklə) onların əvəzini ödəyər və eyblərini aradan götürər.» [1]

1577. İmam Əli (ə) :«Öz nəfsinin hesabına yetişən şəxs mənfəət götürər, amma ondan (nəfsindən) qafil olan ziyana uğrayar və hər kəs qorxarsa, amanda qalar.» [2]

1578. İmam Əli (ə) :«Öz nəfsinin hesabına yetişən şəxs xoşbəxt olar.»[3]

***517. İnsandan soruşulan ilk şey***

1579. Allahın Peyğəmbəri (s):«Bəndədən soruşulacaq ilk şey biz Əhli-Beytin məhəbbəti olacaq.»[4]

1580. İmam Sadiq (ə) :«Bəndə Allah-taala qarşısında dayanan zaman ondan soruşulacaq birinci sual vacib namazlar, vacib zəkat, vacib oruc, vacib həcc və biz Əhli-Beytin vilayəti barədə olacaq. Əgər bizim vilayətimiz və məhəbbətimizi e‘tiraf edərək bu dünyadan gedərsə namazı, orucu, zəkatı və həcci qəbul olunacaq.»[5]

***518. Barəsində sorğu-sual olmayacaq şey***

1581. Allahın Peyğəmbəri (s):«Qiyamət günü, Allah yolunda sərf olunan nemətlərdən başqa hər bir nemət barədə sorğu-sual olacaq.»[6]

1582. İmam Əli (ə) :«Hər kəs, xörək yeyən vaxt Allahın adını çəkərsə, heç vaxt o təamın neməti barədə sorğu-sual olunmayacaq.» [7]

1583. İmam Baqir (ə) :«Bəndə üç şey barədə sorğu-suala çəkilməyəcək: özünün örtünməyi üçün istifadə etdiyi bir tikə parça, aclığını aradan götürmək üçün yediyi bir tikə çörək və onu isti-soyuqdan qoruyan ev.» [8]

***519. Barəsində sorğu-sual olunacaq şey***

1584. Allahın Peyğəmbəri (s) :«Qiyamət günü bəndə dörd şey barədə sorğu-sual olunmayınca öz yerindən bir addım belə tərpənməyəcək: ömrünü nəyə sərf etməyi barədə, cavanlığını hansı yolda başa vurması haqda, malını hansı yolla qazanması və hansı yolda xərclədiyi və biz Əhli-Beytin məhəbbəti barədə.» [9]

---

[1] Ğurərul-Hikəm, hədis 8927
[2] Biharul-Ənvar, c70, səh.73, hədis 27
[3] Mustədrəkul-Vəsail, c12, səh.154, hədis 13761
[4] Uyunul əxbarul Reza (ə), c2, səh.62, hədis 258
[5] Əmali-Səduq, səh.212, hədis 10
[6] Biharul-Ənvar, c7, səh.261, hədis 10
[7] Əmali-Səduq, səh.246, hədis 13
[8] Nurəs-Səqəleyn, c5, səh.665, hədis 26
[9] əl-Xisal, səh.253, hədis 125

1585. İmam Sadiq (ə): - «O gün nemət barədə sorğu-sual ediləcəksiniz» ayəsi haqda- «Bu ümmət Allah-taalanın ona bəxş etdiyi Allahın Rəsulunun vücudu (s) və sonra onun Əhli-Beytinin (ə) vücudunun neməti barədə sorğu-sual olunacaq.»[1]

### *520. Qiyamət gününün hesabını asanlaşdıran şey*

1586. Allahın Peyğəmbəri (s) :«Sənə verilən hər bir şeyə qənaət et ki, səninlə haqq-hesab olunanda işin asan olsun.»[2]

1587. Allahın Peyğəmbəri (s) :«Əxlaqını gözəl et ki, Allah-taala sənin hesabını yüngül etsin.»[3]

1588. İmam Sadiq (ə) :«Sileyi rəhm Qiyamət gününün hesabını asanlaşdırar.» Sonra bu ayəni oxudu:«O kəslər ki, Allah-taala birləşməyinə əmr verdiyi şeyləri birləşdirir, öz Rəbblərindən qorxur və (Qiyamət günündə) hesabın çətinliyindən ürəklərində xof vardır.» [4]

### *521. İnsan kütlələri haqq-hesab günündə*

1589. İmam Əli (ə) :«Qiyamət günü camaat bir neçə dəstəyə bölünər:«Onların bəziləri qısa müddətdə haqq-hesab olunar və şad halda öz ailələrinin yanına qayıdarlar. Bəziləri (vücudlarında) dünyavi çirkabdan heç bir şey olmadığına görə haqq-hesab olunmadan Cənnətə daxil olar. Burda dünya çirkabına bulaşan orada haqq-hesaba çəkiləcək. Bəziləri də xurma çərdəyinin arxasının çalası və xurma ilə çərdəyi arasında olan nazik qabıq barədə (yəni, əməllərinin ən xırda cüziyyatı xüsusunda) sorğu-sual olunacaq və şö‘lələnən əzab alovuna düşəcəklər.»[5]

### *522. Haqq-hesabın çətin və sərt olması*

1590. İmam Sadiq (ə) «Hesab gününün çətinliyindən qorxurlar» ayəsi barədə buyurub:«Yaxşılıq və pisliklərinin dəqiq, hərtərəfli hesabı aparılacaq.»[6]

### *523. Hesabları asan olan kəslər*

**Qur’an:**

«Əməl naməsi sağ əlinə verilən kəsin hesabı asan olacaqdır.»[7]

**Hədis:**

1591. İmam Baqir (ə):«Allahın Rəsulu (s) buyurdu:«Haqq-hesabı aparılan şəxs əzab çəkəcək.» Bir nəfər o Həzrətə (s) ərz etdi:«Ey Allahın Rəsulu! Bəs, Allah-taalanın bu sözü necə olsun:«….haqq-hesabları asan olacaq.» Allahın

---

[1] Biharul-Ənvar, c7, səh.272, hədis 39
[2] Əlamud-Din, səh.344
[3] Biharul-Ənvar, c.71, səh.383, hədis 20
[4] Biharul-Ənvar, c.74, səh.102, hədis 54
[5] əl-İhticac, c.7, səh.572, hədis 137
[6] Biharul-Ənvar, c.7, səh.266, hədis 26
[7] İnşiqaq, ayə7-8

Peyğəmbəri (s) buyurdu: «Bu təqdim etmək və vərəqləməkdir.» (Sorğu-sual deyil.)[1]

### *524. Sorğu-sual olunmadan Cənnətə gedənlər*

**Qur'an:**

«De! Ey iman gətirən bəndələr! Öz Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edən kəslər üçün yaxşı mükafat vardır. Allahın yeri genişdir. Səbr edənlərin mükafatı hesabsız və bütünlüklə veriləcək»[2]

**Hədis:**

1592. Allahın Peyğəmbəri (s):«Allah-taala buyurur:«Ey Mənim yolumda vuruşan və Mənim yolumda öldürülən, əziyyət çəkən və Mənim yolumda cihad edən bəndələrim, Cənnətə daxil olun.» Sonra onlar əzab görmədən və sorğu-sualsız Cənnətə daxil olarlar.»[3]

1593. İmam Səccad (ə) :«Allah-taala Qiyamət günü bütün insanları toplayanda carçının səsi eşidiləcək:«Hanı səbr edənlər, sorğu-sualsız hamılıqla Cənnətə daxil olsunlar… «Mələklər onlara deyərlər:«Siz kimsiniz?» Deyərlər:«Səbr edənlərik.» Mələklər soruşarlar:«Siz nəyə səbr etmisiniz.» Cavab verərlər: «Allaha itaət yolunda və günahlardan çəkinməkdə səbr etmişik.»[4]

1594. İmam Səccad (ə):«Allah-taala Qiyamət günü bütün insanları birincidən axırıncı nəfərədək bir yerdə cəm etdiyi zaman carçı qalxıb hamının eşidə biləcəyi səslə qışqırar: «Hanı, Allaha xatir məhəbbət bəsləyənlər?» Bu vaxt camaatın içindən bir dəstə insan ayağa qalxar. Onlara deyilər:«Sorğu-sualsız Cənnətə daxil olun.»[5]

1595. İmam Sadiq (ə) :«Qiyamət günü xalqın içindən bir dəstə insan qalxıb Cənnətin qapısına gələcək və qapını döyəcək. Onlardan soruşacaqlar. «Siz kimsiniz?» Deyəcəklər:«Biz yoxsullarıq.» Deyiləcək:«Sorğu-sual olmamış cənnətə daxil olmaq istəyirsiniz?» Cavab verərlər:«Bizə bir şey vermişdiniz ki, onun barəsində də sorğu-sual edəsiniz?» Sonra Allah-taala buyurar:«Doğru deyirlər, Cənnətə daxil olun.»[6]

1596. İmam Sadiq (ə):«Allahın Rəsulu (s) buyurdu:«Əməl namələri açılan və tərəzilər qurulan zaman bəla görənlər üçün tərəzilər qurulmaz və əməl namələri açılmaz.» Sonra bu ayəni oxudu:«Həqiqətən, səbr edənlərin mükafatı bütünlüklə veriləcək…»[7]

### *525. Sorğu-sual olunmadan Cəhənnəmə daxil olanlar*

---

[1] Məani-Əxbar, səh.262, hədis 1
[2] Zümər, ayə 10
[3] Kənzul-Ummal, hədis 16635
[4] Biharul-Ənvar, c.82, səh.138, hədis 22
[5] Usuli Kafi, c.2, səh.126, hədis 8
[6] Usuli Kafi, c.2, səh.264, hədis 19
[7] Nurus-Səqəleyn, c.4, səh.481, hədis 28

1597. Allahın Peyğəmbəri (s) :«Allah-taala yalnız Allaha şərik qoşanlardan bütün insanlarla hesab çəkəcək. Qiyamət günü onların sorğu-sual olunmadan Cəhənnəmə atılmaları əmr olunacaq.»[1]

1598. Allahın Peyğəmbəri (s):«Altı dəstə, altı xasiyyətə görə sorğu-sualsız Cəhənnəmə gedəcək.» Ərz olundu:«Ey Allahın Rəsulu! Allahın salamı olsun sənə, onlar kimlərdir?» Buyurdu:«Əmirlər (rəhbərlər) zülm etdiklərinə görə, ərəblər (qəbilə və nəsil) təəssübkeşliyinə görə, mülkədarlar təkəbbürə görə, tacirlər xəyanətə görə, kəndlilər cahilliyə görə və alimlər paxıllıqlarına görə.»[2]

1599. İmam Sadiq (ə) :«Üç nəfəri Allah-taala sorğu-sualsız Cəhənnəmə aparacaq:Yolunu azmış və zalım rəhbəri, yalan danışan taciri və zinakar qocanı.»[3]

ιοοοοοοπ

[1] Uyunul Əxbari Reza(ə), c.2, səh.34, hədis 66
[2] Tənbihul-Xəvatir, c.1, səh.127
[3] əl-Xisal, səh.80, hədis 1

# 101

# Paxıllıq

***526. Paxıllıq***

**Qur'an:**

«Paxılın həsəd çəkən zaman şərrindən və zərərindən (Allaha pənah aparıram).»[1]

**Hədis:**

1600. Allahın Peyğəmbəri (s) :«Allah-taala Musa ibn İmrana (ə) buyurmuşdur:«Həqiqətən, paxıl olan şəxs mənim nemətlərimdən narahat və bəndələrim üçün böldüyüm qismətə e'tiraz edəndir.»[2]

1601. İmam Əli (ə) :«Paxıllıq ruhun zindanıdır.»[3]

1602. İmam Əli (ə) :«Paxıllıq ən pis xəstəlikdir.»[4]

1603. İmam Əli (ə) :«Paxıllıq alçaqlıqların başıdır.»[5]

1604. İmam Əli (ə) :«Afərin paxıllığa! Nə ədalətli peşədir! Hamıdan əvvəl öz sahibini öldürər.»[6]

1605. İmam Əli(ə):«Paxıllığın səmərəsi dünya və axirətdə bədbəxtlikdir.»[7]

1606. İmam Əli (ə) :«Paxıl paxıllığını çəkdiyi şəxsin nemətini itirməsini özü üçün nemət bilər.»[8]

1607.İmam Əli (ə) :«Məzluma paxıl qədər bənzəyən zalım görmədim. Onun canı yorğun, qəlbi narahat və qəmi daimidir.»[9]

1608. İmam Əli (ə) :«Paxılın (öz paxıllığından) çəkdiyi ona bəsdir.»[10]

1609. İmam Əli (ə) :«Paxıl çox təssüflənər və günahları ikiqat artar.»[11]

1610. İmam Əli (ə) :«Paxıl ağalıq etməz.»[12]

---

[1] Fələq, ayə 5
[2] əl-Kafi, c2, səh.307, hədis 6
[3] Gurərul-Hikəm, hədis 372. 332. 5242
[4] Gurərul-Hikəm, hədis 332
[5] Gurərul-Hikəm, hədis 5242
[6] Şərhi Nəhcül-Bəlağə, c.1, səh.316
[7] Gurərul-Hikəm, hədis 4632
[8] Gurərul-Hikəm, hədis 1832
[9] Biharul-Ənvar, c.73, səh.256, hədis 29
[10] Mustədrəkul-Vəsail, c12, səh.17, hədis 13388
[11] Gurərul-Hikəm, hədis 1520
[12] Gurərul-Hikəm, hədis 1017

***527. Hər bir dövlətlinin paxıllığını çəkərlər***

1611. Allahın Peyğəmbəri (s):«Öz ehtiyaclarınızı ödəməkdə məxfilikdən kömək alın, çünki, hər bir nemət sahibinə həsəd apararlar.»[1]

**528. Paxıllıq və iman.**

1612. İmam Baqir (ə) :«Alov odunu yediyi kimi, paxıllıq da imanı yeyər.»[2]

1613. İmam Sadiq (ə) : «Bir-birinizə paxıllıq etməkdən çəkinin, çünki, küfrün kökü paxıllıqdır.»[3]

**529. Paxılın nişanəsi.**

1614. İmam Sadiq (ə) :«Loğman öz oğluna dedi: Paxılın üç nişanəsi var: Adamın dalınca qeybət edər, üz-üzə olanda yaltaqlanar və başqalarının çətinliklərinə şad olar.»[4]

ιοοοοοοπ

[1] Şərhe Nəhcül-Bəlağə, c.1, səh.306
[2] əl-Kafi, c.2, səh.306, hədis 1
[3] əl-Kafi, c.8, səh.8, hədis 1
[4] əl-Xisal, səh.121, hədis 113

# 102

# Həsrət

***530. Ən çox həsrət çəkən insan***

**Qur’an:**

«Onları işin (artıq) başa çatdığı və yenidən qəflətdə və imansız olacaqları həsrət günü ilə qorxut.» [1]

«… heç kəs deməsin ki, çox təəssüf, Allahın işində səhlənkar və məsxərə edənlərdən olmuşam.»[2]

«….zalımın əllərini dişləyərək:«ey kaş, mən də peyğəmbərin getdiyi yolla gedəydim.» deyəcəyi gün…»[3]

**Hədis:**

1615. Allahın Peyğəmbəri (s):«Qiyamət günü hamıdan çox peşman olan öz axirətini başqasının dünyası üçün satmış kimsədir.»[4]

1616. İmam Əli (ə):«Qiyamət günü ən dərin təəssüf rəva bilinməyən (haram) yolla mal toplayıb başqasına miras qoyub gedən və varisin də həmin malı sübhan olan Allahın yolunda məsrəf etdiyinə görə Cənnətə daxil olan, özü isə Cəhənnəmə düşən kişinin təəssüfüdür.»[5]

1617. İmam Sadiq (ə) :«Qiyamət günü ən çox təəssüflənəcək insan (dünyada) ədalətdən danışan, özü isə başqaları ilə ədalətlə rəftar etməyəndir.»[6]

---

[1] Məryəm, ayə 39
[2] Zumər, ayə 56
[3] Furqan, ayə 27
[4] Kənzul-Ummal, hədis 14936
[5] Nəhcül-Bəlağə, hikmət 429
[6] Əmali-Tusi, səh.663, hədis 1386

# 103

# Yaxşılıq

***531. Yaxşılıq***

1618. Allahın Peyğəmbəri (s) :«Yaxşılığı qəlbin nuru, üzün zinəti və işin qüvvəsi, günahı isə qəlbin qarası, işin zəifliyi və üzün eybəcərliyi gördüm.»[1]

**532. Yaxşılıqların dəfələrlə artması.**

**Qur’an:**

«Hər kəs bir yaxşı iş görərsə, ona on dəfə artıq mükafat verərlər. Hər kəs bir pis iş görərsə, o qədər də cəza görər və onlara zülm olunmaz.»[2]

**Hədis:**

1619. İmam Səccad (ə) :«Vay o kəsin halına ki, onun birləri onlarına qalib gələ.» İmamın (ə) məqsədi budur ki, pislik bir dəfə kimi, yaxşılıq isə onqat hesablanır.»[3]

1620. İmam Sadiq (ə) :«Mömin bir yaxşı iş görərsə, Allah-taala onun hər yaxşı əməlini yeddi yüz dəfə artırar və bu Allah-taalanın kəlamıdır ki, «Allah-taala istədiyi kəs üçün artırar.»[4]

ιοοοοοοπ

[1] Kənzul-Ummal, hədis 44084
[2] Ənam, ayə 160
[3] Tuhəful-Uqul, səh.271
[4] Biharul-Ənvar, c.71, səh.247, hədis 7

**104**

# Yaxşılıq etmək

***533. Yaxşılıq etmək***

**Qur'an:**

«Həqiqətən, Allah-taala ədalətli olmağı, yaxşılığı, qohum-əqrəbaya bəxşiş verməyi əmr və çirkinlikləri, pislik və zülmü qadağan edir. O, sizə nəsihət verir ki, bəlkə nəsihət alasınız.»[1]

**Hədis:**

1621. Allahın Peyğəmbəri (s) :«Qəlblərin xəmiri onlara yaxşılıq edən kəsə məhəbbət və pislik edənə qarşı düşmənçilik və nifrətlə yoğrulmuşdur.»[2]

1622. İmam Əli (ə):«Yaxşılıq etmək sənin işin olsun ki, bu ən yaxşı əkin və ən xeyir gətirən maldır.»[3]

1623. İmam Əli (ə) :«Bəndələrə yaxşılıq etmək o biri dünya üçün nə gözəl azuqədir.»[4]

1624. İmam Əli (ə) :«Zəkat yaxşılıq etməyin qələbəsidir.»[5]

1625. İmam Əli (ə) :«Çox yaxşılıq edən kəsi dostları və qardaşları sevərlər.»[6]

1626. İmam Əli (ə) :«Yaxşılıq etməklə qəlblər ələ alınar.»[7]

***534. Pislik edənə yaxşılıq etmək***

1627. Allahın Peyğəmbəri (s) :«Sənə pislik edənə yaxşılıq et.»[8]

1628. İmam Əli (ə) :«Sənin öz düşmən və bədxahlarına yaxşılıq etməyin onlara pislik etməyindən daha tə'sirlidir və onların islah olunmasına səbəb olar.»[9]

***535. Yaxşılığın izahı***

1629. «Nurus-Səqəleyn» kitabında «O kəs ki, üzünü ixlasla Allaha tərəf tuta və ehsan edə…» ayəsi haqda rəvayət olunur ki, Peyğəmbərdən (s) yaxşılıq və

---

[1] Nəhl, ayə 90
[2] Tuhəful-Uqul, səh.37
[3] Ğurərul-Hikəm, hədis 6112
[4] Ğurərul-Hikəm, hədis 9912
[5] Ğurərul-Hikəm, hədis 5450
[6] Ğurərul-Hikəm, hədis 8473
[7] Ğurərul-Hikəm, hədis 3439
[8] Kənzul-Fəvayed, c.2, səh.31
[9] Ğurərul-Hikəm, hədis 3637

ehsan barəsində soruşduqda buyurub:«Ehsan budur ki, Allaha sanki onu görürmüş kimi ibadət edəsən. Çünki, sən Onu görmürsənsə də, O, səni görür.»[1]

***536. Yaxşılıq edən kəs özünə yaxşılıq etmişdir***

**Qur'an:**

«Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq edirsiniz, əgər pislik etsəniz, özünüzə pislik edirsiniz.» [2]

**Hədis:**

1630. İmam Əli (ə) :«Əgər yaxşılıq etsən, özünə hörmət qoyub özünə yaxşılıq etmisən, əgər pislik etsən özünü xar etmiş, özünə zərər yetirmisən.»[3]

**537. Müşriklərin yaxşılıqlarının nəticəsi.**

1631. Salman ibn Amir Zəbbi:«Ərz etdim:«Ey Allahın Rəsulu! Atam qonaqpərvər və qonşucanlı, əhdinə vəfalı və çətinliklərdə əl tutan olub. Bunların ona xeyri varmı? Allahın Peyğəmbəri (s) soruşdu:«O müşrik olaraq öldu?» Ərz etdim:«Bəli.» Buyurdu:«Bunların ona bir xeyri olmaz. Ancaq, bu işlərə görə ondan sonra qalan övlad və nəvələri heç vaxt çətinlik, zəlillik və möhtaclıq görməyəcəklər.»[4]

ιoooooοπ

[1] Nurus-Səqəleyn, c.1, səh.553, hədis 579
[2] İsra, ayə 7
[3] Ğurərul-Hikəm, hədis (3808+3809)
[4] Kənzul-Ummal, hədis 16489

## 105

# Hafizə

***538. Hafizə***

1632. İmam Sadiq (ə) (Mufəzzəlin hədisində): «Heç düşünmüsənmi ki, insanın bütün bu xüsusiyyətlər arasında təkcə hafizə qüvvəsi olmasaydı onun halı və güzəranı necə olardı? Əgər (insan) öz xeyirli və zərərli işlərini, alacaqlarını və verəcəklərini, görəcəklərini və eşidəcəklərini hafizəsində saxlamasaydı, onun işlərində, həyatında və təcrübələrində necə qarışıqlıq yaranardı… Əgər bir yolu dəfələrlə getsəydi, yenə də onu itirərdi. Ömrü boyu dərs oxusaydı, heç bir elmi yadda saxlaya bilməz, bir dinə e‘tiqad etməz, bir təcrübədən bəhrələnməzdi. Olub-keçənlərdən bir ibrət götürməz, ümumiyyətlə birdəfəlik insanlıqdan çıxmağa layiq olardı.»[1]

***539. Uşaq yaşlarından əzbərləmək***

1633. Allahın Peyğəmbəri (s): «…Uşaqlıqda öyrənənin misalı daşa həkk olunan yazıya, yaşlı vaxtı öyrənənin hekayəti su üzərində yazı yazanın hekayətinə bənzər.»[2]

**540. Hafizəni artıran şeylər.**

1634. Allahın Peyğəmbəri (s): «Üç şey unutqanlığı aradan götürər və hafizəni artırar: Qur‘an oxumaq, dişləri fırçalamaq və oruc tutmaq.»[3]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.3, səh.80
[2] Kənzul-Ummal, hədis 29336
[3] Biharul-Ənvar, c.62, səh.266, hədis39

**106**

# Kin bəsləmək

***541. Kin bəsləmək***

1635. İmam Əli (ə) : «Kin bəsləmək eyblərin ən pisidir»[1]

1636. İmam Əli (ə) : «Kin qəzəb gətirər.»[2]

1637. İmam Əli (ə) : «Kin bəsləmək, paxıl adamların xislətidir.»[3]

1638. İmam Əli (ə) : «Kin bəsləmək elə bir oddur ki, (ona) qalib gəlməkdən başqa heç bir şeylə söndürülməz.»[4]

1639. İmam Əli (ə) : «Kin bəsləmək fitnə və narahatlıqların səbəbidir.»[5]

1640. İmam Əli (ə) : «Kinli adamın canı əzabda və qəmi ikiqat çoxdur.»[6]

1641. İmam Əli (ə) : «Kin saxlayan dostluğa sadiq deyil.»[7]

1642. İmam Hadi (ə) : «Məzəmmət və gileylənmək qəlbdə kin saxlamaqdan daha yaxşıdır.»[8]

1643. İmam Əskəri (ə) : «Ən az rahatlığı olan insan, kin bəsləyən şəxsdir.»[9]

***542. Kin mömininin qəlbində çox qalmaz***

1644. İmam Sadiq (ə): «Kin mömininin qəlbində oturaq halda olduğu vaxtacan qalar, elə ki ayağa qalxdı, kin də onun qəlbindən galxar.»[10]

ıooooooπ

---

[1] Ğurərul-Hikəm, hədis 966
[2] Ğurərul-Hikəm, hədis 530
[3] Ğurərul-Hikəm, hədis 422
[4] Ğurərul-Hikəm, hədis2203
[5] Ğurərul-Hikəm, hədis 5522
[6] Ğurərul-Hikəm, hədis 1962
[7] Ğurərul-Hikəm, hədis10436
[8] Biharul-Ənvar, c.78, səh.369, hədis 4
[9] Tuhəful-Uqul, səh.488
[10] Tuhəful-Uqul, səh.310

**107**

# Təhqir

***543. Xalqı xar hesab etməyin qadağan olunması***

1645. Loğman (ə) övladına xitabən: «Oğlum! Heç kəsi köhnə libas geydiyinə görə xar hesab etmə, çünki, sənin və onun da Rəbbi birdir.»[1]

1646. Allahın Peyğəmbəri (s) : Sizlərdən heç kim Allahın bəndələrindən kimsəni xar və dəyərsiz saymamalıdır. Çünki onlardan hansı birinin Allahın dostu və vəlisi olduğunu bilmirsiniz.»[2]

1647. İmam Sadiq (ə) : «Hər kəs yoxsul mömini təhqir etsə, bu təhqirdən əl çəkənədək Allah-taala həmin şəxsi daim xar edər və onu özünə düşmən bilər.»[3]

***544. Möminə qarşı təhqirdən çəkindirmək***

1648. Allahın Peyğəmbəri (s) : «Hər kəs mömin qadın və kişini yoxsulluğa yaxud da malının azlığına görə xar və təhqir edərsə, Allah-taala Qiyamət günü onu camaat arasında nümayiş və sonra da rüsvay edər.»[4]

1649. Allahın Peyğəmbəri (s) :«Heç bir müsəlmanı alçaldıb təhqir etmə. Çünki onların ən kiçiyi də Allah yanında böyükdür.»[5]

1650. Allahın Peyğəmbəri (s):«Adəm övladının pis olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər.»[6]

1651. İmam Sadiq (ə) :«Allah-taala buyurur:«Hər kəs Mənim dostlarımdan birini xar hesab edərsə, mənimlə müharibəyə hazırlaşmışdır və Mən öz dostlarımın köməyinə ən tez çatanam.»[7]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.72, səh.47, hədis 57
[2] Biharul-Ənvar, c.75, səh.147, hədis 21
[3] ət-Təmhis, səh.50, hədis 89
[4] Biharul-Ənvar, c.72, səh.44, hədis 52
[5] Tənbihul-Xəvatir, c.1, səh.31
[6] Tənbihul-Xəvatir, c.2, səh.122
[7] əl-Kafi, c.2, səh.351, hədis 5

108

# Haqq

***545. Haqq***

**Qur'an:**

«Biz haqqı batilin başına çırparıq ki, onu para-para etsin. Batil məhv olub aradan gedəndir.  Allaha aid etdiyiniz şeylərə görə vay olsun sizlərə.»[1]

**Hədis:**

1652. İmam Əli (ə) :«Haqq ən güclü dayaqdır.»[2]

1653. İmam Əli (ə) :«Agah olun! Haqq sahiblərinin, onları minərək cilovlarını öz əllərinə aldığı ram olunmuş miniklərdir. Sonra bu miniklər öz suvarilərini sakitcə və təmkinlə geniş bir kölgəliyə çatdırdılar.»[3]

1654. İmam Əli (ə) :«Hər kəs haqqdan qeyri bir izzət axtararsa zillətə düşər və kim haqqa inadkarlıq edərsə xar olar.»[4]

1655. İmam Əli (ə) :«Haqqa qarşı çıxan elə bir batil yoxdur ki, haqq ona qalib gəlməsin. Allah-taala da buyurmuşdur ki, «əslində haqqı batilin başına çırparıq ki, onu para-para etsin…»[5]

1656. İmam Sadiq (ə) :«İzzət və hörmət odur ki, haqqla üz-üzə gələndə onun qarşısında baş əyəsən.»[6]

***546. Haqqın ağırlığı***

**Qur'an:**

«Biz sizin üçün haqqı gətirdik, amma çoxunuz haqqı xoşlamırsınız.»[7]

**Hədis:**

1657. İmam Əli (ə) :«Həqiqətən, haqq ağır, amma safdır. Batilsə yüngül və asan olsa da, öldürəndir.»[8]

1658. İmam Baqir (ə):«Atam Əli ibn Hüseynin (ə) vəfat anı çatanda, məni bağrına basıb buyurdu:«Oğlum! Mən indi sənə atamın dünyadan köçərkən mənə

---

[1] Ənbiya, ayə 18
[2] Ğurərul-Hikəm, hədis 716
[3] Nəhcül-Səadə, c.3, səh.294
[4] Tuhəful-Uqul, səh.95
[5] Biharul-Ənvar, c.5, səh.305, hədis 24
[6] Biharul-Ənvar, c78, səh.228, hədis 105
[7] Zuxruf, ayə 78
[8] Nəhcül-Bəlağə, hikmət 376

etdiyi tövsiyyəni tövsiyyə edirəm. Atam həmin şeylərin də ona öz atasının tövsiyyə etdiyini buyurmuşdur:«Oğlum, hərçənd acı olsa da, haqqa səbr et.»[1]

### *547. Özünə ziyan olsa da haqqı deməyin gərəkliliyi*

1659. Allahın Peyğəmbəri (s) :«Ən təqvali insan onun xeyrinə və ya ziyanına olmasından asılı olmayaraq haqqı deyəndir.»[2]

1660. İmam Əli(ə):«Həzrət Rəsulun (s) qılınclarından birinin dəstəyində belə yazılmışdır:«Haqqı de, hərçənd özünə qarşı olsa da.»[3]

1661. İmam Əli(ə):«Allah yanında ən üstün insan odur ki, haqq onunçün zərərli və qüssəli, batilsə mənfəətli və artımlı olsa da, haqqa əməl etməyi batilə əməl etməkdən çox sevsin.»[4]

1662. İmam Kazim (ə) :«Sənin məhvinə səbəb olsa da haqqı de. Çünki, sənin nicatın ondadır… və batildən imtina et, hərçənd sənin nicatın onda olsa belə. Çünki, (əslində) sənin məhvin ondadır»[5]

### *548. Şad və qəzəbli halda haqqı demək*

1663. Allahın Peyğəmbəri (s) :«Ehey! Məbada kimsə haqqı bilə və xalqın qorxusundan onu deməyə. Bilin ki, ən üstün cihad zalım və yolunu azmış rəhbərin qarşısında deyilən haqq sözüdür.»[6]

1664. İmam Əlinin (ə) oğlu Hüseynə (ə) tövsiyyələrindən:«Sənə dövlətli və yoxsul vaxtında Allahdan qorxmağı, şad və qəzəbli olanda da haqqı deməyi tövsiyə edirəm.»[7]

### *549. Haqqı qəbul etmək*

1665. Allahın Peyğəmbəri (s) :«Haqqı sənə gətirən hər bir kəsdən- istər kiçik olsun, istərsə də böyük sənin düşmənin olmuş olsa belə, qəbul et. Batili də kiçik və böyüklüyündən asılı olmayaraq hər kim demiş olsa da özünə qaytar, hərçənd dostun olmuş olsa belə.»[8]

### *550. Haqqı tanımağın meyarı*

1666. İmam Əli (ə) :«Haqq şəxsiyyətlərlə tanınmır. Haqqın özünü tanı ki, onun yolçularını da tanıyasan.»[9]

### *551. Haqq ikitərəflidir*

1667. İmam Əli (ə):«Haqqın dairəsi təsvirdə və sözdə ən geniş şey, amma əməldə dairələrin ən darısqalıdır. Heç kimsə, onun da üzərində kiminsə haqqı

---

[1] Biharul-Ənvar, c.70, səh.184, hədis 52
[2] Əmali-Səduq, səh.27, hədis 9
[3] Biharul-Ənvar, c.74, səh.157, hədis 2
[4] Nəhcül-Bəlağə, xütbə 125
[5] Tuhəful-Uqul, səh.408
[6] Kənzul-Ummal, hədis 43588
[7] Tuhəful-Uqul, səh.88
[8] Kənzul-Ummal, hədis 43152
[9] Məcməül-Bəyan, c.1, səh.211.

olmasa, haqqa sahib deyil. Onun üzərində də onun başqası üzərində haqqı olanından qeyri bir haqq yoxdur. Əgər kimsənin haqqa sahib olması, ancaq onun üzərində heç bir haqq olmaması lazım olsaydı, bu yalnız Pak olan Allah olardı.»[1]

1668. İmam Əli (ə) :«Bir kəsin haqqına riayət və hörmət olunması, haqqın ona tətbiqinə mane olmaz.» [2]

ιooooooπ

[1] Nəhcül-Bəlağə, xütbə 216.
[2] Ğurərul-Hikəm, hədis 10328.

**109**

# Hüquq

***552. Allah-taalanın haqqı***

1669. Allahın Peyğəmbəri(s) :«Allah-taalanın (həmd olsun Onun izzəti-cəlalına) haqqı bəndələrin yerinə yetirə biləcəklərindən daha böyükdür. Allahın nemətləri bəndələrin saya biləcəklərindən daha çoxdur. Lakin, siz öz gecə-gündüzünüzü tövbə ilə açın.»[1]

1670. İmam Əli (ə): «Pak və müqəddəs Allahın bəndələr üzərində qoyduğu haqqı bəndələrin Ona itaət etməsidir. Bunun müqabilindəsə fəzl və lütfü ilə onlar üçün öz mükafatını dəfələrlə artırmağı onların haqqı etmişdir.»[2]

***553.İnsanların hüququnu üstün tutmaq***

1671. İmam Əli (ə): «Pak və müqəddəs Allah insanların haqqını öz haqqından üstün tutmuşdur. Belə ki, hər kəs Allah bəndələrinin hüququna riayət edərsə, bu Allahın hüququna riayət etməklə nəticələnər.»[3]

***554. Ən mühüm hüquq***

1672. İmam Əli (ə): «Allah-taalanın vacib buyurduğu hüquqların arasında ən mühüm hüquq, rəhbərin xalq üzərində və xalqın rəhbər üzərində olan haqqıdır.»[4]

***555. Qardaşların hüququ***

1673. İmam Baqir (ə): «Mömininin mömin üzərində olan haqqı budur ki, onu doyuzdursun, çılpaq əynini geyindirsin, qəm-qüssəsini dağıtsın, borcunu ödəsin və ölümündən sonra zövcəsinə və övladlarına himayədarlıq etsin.»[5]

1674. İmam Sadiq (ə): «Öz dinini dəyərli bilən şəxs öz qardaşlarının hüququnu da dəyərli bilər. Allahın dinini yüngül sayan, öz qardaşlarına da əhəmiyyət verməz.»[6]

1675. İmam Sadiq (ə) :«Allah-taalaya mömininin haqqını yerinə

---

[1] Mənarimül-Əxlaq, c.2, səh.365, hədis 2661
[2] Nəhcül-Bəlağə, xütbə 216
[3] Ğürərul-Hikəm, hədis 4780
[4] Nəhcül-Bəlağə, xütbə 216
[5] Üsuli-Kafi, c.2, səh.169, hədis 1
[6] Biharul-Ənvar, c.74, səh.278, hədis 13

yetirməkdən daha üstün bir şeylə ibadət olunmayıb.»[1]

1676. İmam Sadiq (ə): «Möminin mömin üzərində yeddi haqqı var. Allah-taala bu haqları möminə vacib etmişdir. Bunların barəsində mömindən sorğu-sual edəcəkdir: mömin mömini öz gözündə böyük tutmalı, qəlbində onu sevməli, öz malı, pulu ilə ona kömək etməli, özü üçün bəyəndiyini onun üçün də bəyənməli, onun qeybətini haram bilməli, xəstə vaxtında ona baş çəkməli, dəfnində iştirak etməli və ölümündən sonra onu yalnız yaxşı xatirələrlə yad etməlidir.»[2]

1677. İmam Sadiq (ə) möminin haqqı barədə sualın cavabında buyurub: «Möminin mömin üzərində yetmiş haqqı var, mən sənə yalnız yeddi haqqı söyləyirəm: O ac olduğu halda sən doyunca yemə, o çılpaq olduğu halda sən geyinmə, ona yol göstərən ol….»[3]

1678. İmam Sadiq (ə)- möminin mömin üzərində olan haqlarını bəyan edərkən: «Həmin haqların ən kiçiyi budur ki, özün üçün istədiyini onun üçün də istəyəsən və özünə rəva bilmədiyini ona da rəva bilməyəsən.»[4]

1679. İmam Əsgəri (ə): «Qardaşlarının hüquqları ilə daha yaxından tanış olan və onlara riayət etməyə daha çox çalışan şəxs Allah yanında daha hörmətlidir.»[5]

ιooooooπ

[1] Üsuli-Kafi, c.2, səh.170, hədis 4
[2] əl-Xisal, səh.351, hədis 27
[3] əl-Kafi, c.2, səh.174, hədis 14
[4] əl-Kafi, c.2, səh.169, hədis 2
[5] əl-Ehtecac c.2, səh.517, hədis 340

**110**

# Möhtəkirlik[1]

***556. Möhtəkirlik***

1680. Allahın Peyğəmbəri (s) :«Xəyanətkarlardan başqa heç kəs möhtəkirlik etməz.»[2]

1681. Allahın Peyğəmbəri (s) :«Günahkardan başqa kimsə möhtəkirliyə əl atmaz.»[3]

1682. İmam Əli (ə): «Möhtəkirlik məhrumiyyətə səbəb olar.»[4]

1683. İmam Əli (ə): «Möhtəkirlik yaramaz adamların xasiyyətidir.»[5]

1684. İmam Əli (ə): «Möhtəkirlik alçaqlıqdır.»[6]

1685. İmam Əli (ə): «Möhtəkirlik əziyyət miniyidir.»[7]

1686.İmam Əli (ə): «Möhtəkirlik üçün özünü əziyyətə atmaq səfehlərin xislətlərindəndir.»[8]

1687. İmam Əlinin (ə) Malik Əştəri Misirə vali təyin etdiyi fərmanından: «Bütün bunlarla yanaşı bil ki, onların çoxu- tacirlər və sənətkarlar- alverdə həddindən artıq amansızdırlar və xoşagəlməz xəsislikləri var. Onlar daha çox xeyir götürmək məqsədilə möhtəkirlik edər və onlara öz istədikləri kimi baha qiymət qoyarlar. Bu da xalq kütləsi üçün zərərli, rəhbərlər üçünsə eyb və rüsvayçılıqdır. Buna görə, möhtəkirliyin qarşısını al, çünki Allahın Rəsulu (s) onu qadağan etmişdir.»[9]

1688. İmam Əli (ə): «Xalqa ziyan gətirən və qiymətləri qaldıran hər hansı möhtəkirlikdə xeyir-bərəkət yoxdur.»[10]

1689. İmam Sadiq (ə) : «Allah-taala (buğda...) dənənin neməti ilə öz bəndələrinə yaxşılıq etdi və biti onun balasına çevirdi. Əgər belə olmasaydı, başçılar onu da qızıl-gümüş kimi toplayardılar.»[11]

---

[1] Möhtəkirlik – camaatın çox ehtiyacı olduğu məhsulu, ya malı baha qiymətə satmaq məqsədi ilə toplayıb saxlamaq

[2] Kənzul-Ummal, hədis 9738

[3] Kənzul-Ummal, hədis 9723

[4] Ğürərul-Hikəm, hədis 256

[5] Ğürərul-Hikəm, hədis 607

[6] Ğürərul-Hikəm, hədis 112

[7] əl-Kafi, c.8, səh.19, hədis4

[8] Ğürərul-Hikəm, hədis 9349

[9] Nəhcül-Baləğə, məktub 53

[10] Müstədrəkul-Vəsail, c.103, səh.274, hədis 15337

[11] Biharul-Ənvar, c.103, səh.87, hədis3

***557 Möhtəkir***

1690. Allahın Peyğəmbəri (s): «Möhtəkir Allahın rəhmətindən uzaqdır.»[1]

1691. Allahın Peyğəmbəri (s): «Bizim bazarda möhtəkirliyə əl atan, Allahın kitabını inkar edən kimidir.»[2]

1692. Allahın Peyğəmbəri (s): « Möhtəkir necə də pis bəndədir! Əgər Allah-taala qiymətləri aşağı salarsa o, qəmlənər və əgər qiymətləri qaldırarsa şadlanar.»[3]

1693. Allahın Peyğəmbəri (s): «Möhtəkirlərlə adam öldürənlər Cəhənnəmdə bir cərgədə və bir dərəcədədirlər.»[4]

1694. Allahın Peyğəmbəri (s): «Hər kəs qida məhsulunu bahalaşma ümidi ilə qırx gün saxlasa Allahdan bezar olmuşdur və Allah da ondan bezardır.»[5]

1695. Allahın Peyğəmbəri (s): «Hər kəs qida məhsulunu alıb müsəlmanlara baha qiymətə satmaq üçün qırx gün saxlasa və qırx gündən sonra satıb onun bütün gəlirini sədəqə versə də, onun günahının kəffarəsi olmayacaq.»[6]

1696. İmam Əli (ə) : «Möhtəkir öz nemətindən məhrumdur.»[7]

1697. İmam Əli (ə): «Xəsis möhtəkir eləsi üçün (varisə) yığır ki, ona təşəkkür etməyəcək və eləsinə (axirətdə Allaha tərəf) doğru gedir ki, onun üzrünü qəbul etməyəcək.»[8]

ιοooooοπ

---

[1] Biharul-Ənvar, c.62, səh. 292
[2] Kənzul-Ummal, hədis 9717
[3] Kənzul-Ummal, hədis 9715
[4] Kənzul-Ummal, hədis 9739
[5] Biharul-Ənvar, c.2, səh. 292
[6] Əmali-Tusi, səh.676 , hədis 1427
[7] Ğürərul-Hikəm, hədis 465
[8] Ğurərul-Hikəm, hədis 1842

# 111

# Hikmət

***558 Hikmət***

**Qur’an:**

«(Allah) İstədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş olunubsa, ona çoxlu xeyir verilmişdir və ağıl sahiblərindən başqa heç kəs nəsihət qəbul etməz.»[1]

1698. Məsih (ə): «Həqiqətən hikmət hər bir qəlbin işığıdır.»[2]

1699. Loğmanın (ə) oğluna nəsihətlərindən: «Oğlum! Hikmət öyrən ki, hörmətli olasan! Çünki hikmət dinə yönəldər, qulu azad insanların müqabilində şərafətli, yoxsulu dövlətlilərdən daha uca edər, kiçiyi böyükdən qabağa salar.»[3]

1700. Allahın Peyğəmbəri (s): «Möminin bir hikmətli söz eşitməyi, bir ilin ibadətindən üstündür.»[4]

1701. Allahın Peyğəmbəri (s): «Hikmət sahibi peyğəmbərliyə yaxındır.»[5]

1702.İmam Əli (ə):«Hikmət – müdriklərin gülzarı və aqillərin seyrəngahıdır.»[6]

1703. İmam Əli (ə): «Hikmət – qəlbdə bitən və dildə bar verən bir ağacdır.»[7]

1704. İmam Əli (ə): «Hər kəs hikmətinə görə tanınarsa, gözlər ona vüqarlı və əzəmətli nəzərlərlə baxar.»[8]

***559. Hikmət möminin itirdiyidir***

1705. İmam Əli (ə): «Hikmət möminin itirdiyidir, onu müşrikin yanında olsa belə axtarın! Çünki siz ona daha layiqsiniz və daha çox haqqınız çatır.»[9]

1706. İmam Əli (ə): «Hikmət möminin itirdiyidir.Onu münafiqlərdən də olsa öyrənin.»[10]

***560. Hikmət sahibinə yaraşmayan işlər***

---

[1] Bəqərə, ayə 269
[2] Biharul-Ənvar, c.14 səh.316, hədis17
[3] Biharul-Ənvar, c.13, səh.432, hədis24
[4] Biharul-Ənvar. c.77, səh.172, hədis8
[5] Kənzul-Ummal, hədis 44123
[6] Gurərul-Hikəm, 1715
[7] Gurərul-Hikəm, hədis1992
[8] Tühəful-Uqul, səh.97
[9] Əmali-Tusi, səh.625, hədis1290
[10] Nəhcül-Bəlağə, hikmət 80

1707. İmam Əli (ə): «Öz ehtiyacını hikmətli olmayan şəxsə bildirən hikmət sahibi deyil.»[1]

1708. İmam Əli (ə): «Bir şəxslə yaxşı rəftar etməkdən başqa çarəsi olmayan onunla yaxşı davranmasa, hikmətdə heç bir payı olmaz.»[2]

### *561. Hikmətin izahı*

1709. İmam Əli (ə): «Hikmətin ilk addımı ləzzətləri tərk etmək, son addımı isə fani olan hər bir şeyi özünə düşmən bilməkdir.»[3]

1710. İmam Əli (ə): «Özündən yuxarıda olan şəxslə münaqişə etməməyin və tabeçiliyində olan şəxsi zəlil saymamağın, gücün çatmadığı işə baş qoşmamağın, dilin ürəyinin, sözün əməlinin əksinə olmamağı, bilmədiyin şey barədə danışmamağın, iş sənə tərəf üz tutan zaman onu tərk etməməyin və səndən üz döndərən zaman ardınca getməyin hikmətdəndir.»[4]

1711. İmam Baqirin (ə) Əbu Bəsirin «Hər kəsə hikmət verilərsə....»ayəsi haqda sualına cavabından:Hikmət dedikdə məqsəd Allahın əmrinə itaət etmək və imamı tanımaqdır.»[5]

1712. İmam Sadiq (ə): «Həqiqətən, hikmət dini tanımaqdan və dərk etməkdən ibarətdir. Sizlərdən kim dində fəqih və dərrakəli olarsa, o hikmət sahibidir.»[6]

1713. İmam Kazim (ə): «Loğmana dedilər: «Sənin hikmətinin özəyi nədir?» Dedi: «Bildiyim şey barədə soruşmaram və mənə aid olmayan şey üçün özümü zəhmətə salmaram.»[7]

### *562. Hikmətin əsası*

1714. Allahın Peyğəmbəri (s): «Hikmətin əsası Allahdan qorxmaqdır.»[8]

1715. Allahın Peyğəmbəri (s): «Sözlərin ən yaxşısı Allahı yad etmək və hikmətin əsası Allaha itaətdir.» [9]

1716. Allahın Peyğəmbəri (s): «Yaxşı rəftar etmək hikmətin zirvəsidir.»[10]

1717. İmam Əli (ə):«Haqqa bağlılıq və haqqa  yoldaş olan kəsə itaət etmək hikmətin əsasıdır.»[11]

### *563. Hikmət gətirən şeylər*

1718. İmam Əli (ə): «Şəhvətinə və nəfsi istəklərinə qalib gələn, hikmətin kamillik dərəcəsinə çatacaq.»[1]

---

[1] Ğurərul-Hikəm, hədis 7499
[2] Tuhəful-Uqul, səh.217
[3] Gurərul-Hikəm, hədis 9452
[4] Gurərul-Hikəm, hədis 9450
[5] Biharul-Ənvar, c.1, səh.251,  hədis 22
[6] Biharul-Ənvar, c.1, səh.251, hədis 25
[7] Biharul-Ənvar, c.13,  səh.417, hədis10
[8] Kənzul-Ummal, hədis  5873
[9] Əmali-Səduq, səh.394, hədis1
[10] Kənzul-Ummal, hədis 5444
[11] Ğurərul-Hikəm, hədis 5258

1719. İmam Əli (ə): «Hikmət günahdan çəkinməkdən başqa heç bir yolla əldə olunmaz.»[2]

1720. İmam Sadiq (ə): «Hər kəs dünyaya arxa çevirsə, Allah onun qəlbində hikməti möhkəmlədər və dilini onunla dilləndirər.»[3]

### *564. Hikmət əldə etməyə mane olanlar*

1721. Allahın Peyğəmbəri (s): «Mə‘də boş olan vaxt qəlb hikməti qəbul edər. Mə‘də dolu olanda qəlb hikməti çölə atar.»[4]

1722. İmam Əli (ə): «Şəhvətlə hikmət bir yerə sığmaz»[5]

1723. İmam Sadiq (ə): «Qəzəb hikmət sahibinin qəlbini korlar. Öz qəzəbinə nəzarət edə bilməyən şəxs, öz ağlına da nəzarət edə bilməz.»[6]

1724. İmam Kazim (ə): «Həqiqətən, əkin daş üzərində deyil, yumşaq torpaqda əmələ gələr. Hikmət də belədir, təvazökar qəlblərdə abad olar, özündənrazı və təkəbbürlü qəlbdə isə yetişməz. Çünki Allah təvazökarlığı ağıl üçün bir vasitə qoyub.»[7]

1725. İmam Hadi (ə): «Hikmət, fəsadlı canlarda təsirli və faydalı olmaz.»[8]

### *565. Hikmətin nəticəsi*

1726. İmam Əli(ə): «Hər kimin qəlbində hikmət yer taparsa ibrətgötürən olar.»[9]

1727. İmam Sadiq (ə): «Hikmətin barəsində çox düşünmək ağlı səmərəli edər.»[10]

### *566. Hikməti qorumaq*

1728. İmam Əli (ə): «Müdriklər hikməti əhli olmayanların ixtiyarına verəndə onu pozdular.»[11]

1729. İmam Kazim (ə):«Hikməti nadanların ixtiyarına verməyin ki, ona zülm etmiş olarsınız. Hikməti hikmət əhlindən də əsirgəməyin ki, ona da zülm etmiş olarsınız.»[12]

---

[1] Ğurərul-Hikəm, hədis2272
[2] Ğurərul-Hikəm, hədis10916
[3] əl-Kafi, c.2, səh.128, hədis1
[4] Tənbihul-Xəvatir, c.2, səh.119
[5] Ğurərul-Hikəm, hədis 10573
[6] Biharul-Ənvar, c.78, səh.255, hədis129
[7] Biharul-Ənvar, c.78, səh. 312, hədis1
[8] Biharul-Ənvar, c.78, səh.370, hədis4
[9] Ğurərul-Hikəm, hədis 8706
[10] Biharul-Ənvar, c.87, səh.247, hədis73
[11] Qisəsul-Ənbiya, səh.160, hədis176
[12] Biharul-Ənvar, c.87, səh.303, hədis1

**112**

# And içmək

***567. Pak və müqəddəs Allaha and içməyin qadağan olunması***

**Qur'an:**

«Yaxşılıq etməkdən, təqvalı olmaqdan, xalq arasında barışıq yaratmaqdan kənar durmanız üçün Allahı öz and yerinizə çevirməyin. Allah eşidən və biləndir.»[1]

**Hədis:**

1730. İmam Sadiq (ə):«Allaha, doğru da olsa, yalan da olsa and içməyin. Çünki Allah-taala buyurmuşdur:«Allahı öz andlarınıza vasitə etməyin.»[2]

***568. Yalan and içmədən çəkinmək***

1731. «Səvabul-əmal» kitabından:«Allah-taala buyurmuşdur:«Mən öz rəhmətimi yalandan and içən şəxsə şamil etmərəm.»[3]

1732. Allahın Peyğəmbəri(s):«Yalandan and içməkdən çəkinin. Çünki bu iş evləri sakinsiz qoyar.»[4]

1733. İmam Sadiq (ə):«Hər kəs yalan olduğunu bildiyi halda and içsə Allaha qarşı müharibəyə qalxmışdır.»[5]

1734. İmam Sadiq (ə):«Məcburən yalandan and içmək özündən sonra qalan övladlara yoxsulluq gətirər.»[6]

***569. Zalıma and içdirməyin yolu***

1735. İmam Əli (ə) :«Zalıma and içdirmək istəyəndə, ona «Mən Allahın qüvvət və qüdrətindən uzaq olum» dedizdirərək and içirdin. Çünki əgər yalandan buna and içmiş olsa çox tez bir zamanda öz cəzasına çatar. Ancaq, «And olsun Allaha, Ondan başqa Allah yoxdur» desə Allah cəza verməyə tələsməz. Çünki Allah-taalanı vahidliyi ilə mədh etmişdir.»[7]

---

[1] Bəqərə, ayə 224
[2] əl-Kafi, c.7, səh.434, hədis 1
[3] Səvabul-Əmal, səh.261, hədis 2
[4] Səvabul-Əmal, səh.270, hədis 3
[5] Səvabul-Əmal, səh.269, hədis 1.
[6] Biharul-Ənvar, c.104, səh.209, hədis 19
[7] Nəhcül-Bəlağə, hikmət 253

## 113

# Halal

***570. Halal***

**Qur'an:**

«Səndən hansı şeylərin halal olduğunu soruşurlar. De ki, sizə pak şeylər halal olunmuşdur.»[1]

«Ey insanlar! Yer üzündə halal və pak olan şeylərdən yeyin və şeytanın ardınca getməyin. O, sizin açıq-aşkar düşməninizdir.»[2]

**Hədis:**

1736. İmam Əli (ə):«Sənə halaldan istifadə etməyi, ailənə yaxşılıq etməyi və bütün hallarda Allahı yad etməyi tövsiyə edirəm.»[3]

***571. Halal malı əldə etməyin çətinliyi***

1737. İmam Sadiq (ə):«Qılınc vurmaq halal mal əldə etməkdən asandır.»[4]

***572. Möminin öz razılığı olmadan onun malından istifadə etmək halal deyil***

1738. Allahın Peyğəmbəri (s) :«Heç kəsə, qardaşının razılığı olmadan onun malından heç nə halal deyil.»[5]

ιοooooοπ

[1] Maidə, ayə 4
[2] Bəqərə, ayə 168
[3] Ğürərul-Hikəm, hədis 6131
[4] Üsulu-Kafi, c.5, səh.161, hədis 1
[5] Kənzul-Ummal, hədis 30345

**114**

# Dözümlülük

***573. Dözümlülük***

1739. Allahın Peyğəmbəri (s) :«Dözümlü insan peyğəmbərliyə yaxındır.»[1]

1740. İmam Əli (ə):«Dözümlülük ağlın kamilliyidir.»[2]

1741. İmam Əli (ə):«Dözümlülük möminin işinin nizama düşməsinin səbəbidir.»[3]

1742. İmam Əli (ə):«Kişinin gözəlliyi onun dözümlülüyü ilə ölçülür.»[4]

1743. İmam Əli (ə):«Əgər dözümlü deyilsənsə də, özünü dözümlü kimi göstər. Çünki özünü başqa insanlara bənzədib, sonunda onlardan birinə çevrilməyən çox az adam tapılar.»[5]

1744. İmam Əli (ə):«Dözümlü o kəsdir ki, öz qardaşlarına qarşı dözümlü olsun.»[6]

1745. İmam Rza (ə):«İnsan dözümlü olmayınca, abid olmaz.»[7]

***574. Dözüm gətirən şeylər***

1746. İmam Əli (ə):«Ağlın artması ilə dözümlülük də artar.»[8]

1747. İmam Əli (ə):«Sənə dözümlü olmağı tövsiyə edirəm, çünki o, elmin səmərəsidir.»[9]

1748. İmam Əli (ə):«Dözümlülüklə vüqar yüksək əzm və iradədən doğulmuş iki əkizdir.»[10]

***575.Dözümlülüyün səmərələri***

1749. İmam Əli (ə) :«Dözümlü olan, ağalıq edər.»[11]

1750. İmam Əli(ə):«Düşməninə qarşı dözüm göstərən, ona qalib gələr»[12]

---

[1] Biharul-Ənvar, c.43, səh.70, hədis 61
[2] Ğürərul-Hikəm, hədis 1055
[3] Ğürərul-Hikəm, hədis 1055
[4] Ğürərul-Hikəm, hədis 1055
[5] Nəhcül-Bəlağə, hikmət 207
[6] Ğurərul-Hikəm, hədis 1111
[7] əl-Kafi, c.2, səh.111
[8] Ğurərul-Hikəm, hədis 4274
[9] Ğurərul-Hikəm, hədis 6084
[10] Nəhcül-Bəlağə, hikmət 460
[11] Biharul-Ənvar, c.77, səh.208, hədis 1
[12] Kənzul-Fəvaid, c.1, səh.319

1751. İmam Əli (ə) :«Dözümlü şəxsin bu xasiyyətindən götürdüyü ilk bəhrə, nadanın müqabilində xalqın onun köməyinə gəlməsidir.»[1]

1752. İmam Əli (ə):«Qəzəbin şiddətli vaxtında dözüm göstərmək, insanı Allahın qəzəbindən amanda saxlar.»[2]

1753. İmam Sadiq (ə) :«Köməklik üçün dözümlülük kifayət edər.»[3]

***576. Dözümlülüyün izahı***

1754. İmam Həsən (ə) (*dözümlülüyün mənası haqda sualın cavabında):* «Dözümlülük qəzəbi boğmaq və nəfsi saxlamaqdır.»[4]

***577. Qəzəbli olanda dözümlülük***

1755. Loğman (ə) :«Dözümlü şəxs qəzəbli vaxtından qeyri bir halda tanınmaz.»[5]

1756. İmam Əli (ə) – ən dözümlü şəxs barədə sualın cavabında *:*«Qəzəblənməyən kimsədir.»[6]

1757. İmam Səccad (ə) :«Mənim o insandan xoşum gəlir ki, qəzəbləndiyi vaxtı səbr onu haqlasın.»[7]

ιοooooπ

[1] Məani-Əxbar, səh.319, hədis 896
[2] Ğurərul-Hikəm, hədis 1776
[3] əl-Kafi, c.2, səh.112, hədis 6
[4] Biharul-Ənvar, c78, səh.102
[5] Biharul-Ənvar, c.78, səh.102
[6] Əmali-Səduq, səh.322, hədis 4
[7] əl-Kafi, c.2, səh.112, hədis 3

**115**

# Axmaqlıq

***578. Axmaqlıq***

1758. İmam Əli (ə) :«Axmaqlıq, ən pis xəstəlikdir.»[1]

1759. İmam Əli (ə) :«Ən pis yoxsulluq axmaqlıqdır.»[2]

1760. İmam Əli (ə) :«Axmağın özü özünə vurduğu ziyanı, düşmən öz düşməninə vurmaz.»[3]

***579. Axmağın sifətləri***

1761. Məsih (ə) *«Axmaq kimdir?» sualının cavabında:* «İnadkar, özündənrazı, bütün fəzilətlərin özündə olduğunu zənn edən, heç kəsi özündən üstün bilməyən, bütün hüquqların onunçün olduğunu düşünən və başqalarının onun üzərində olan heç bir haqqını tanımayandır. Bu elə axmaqlıqdır ki, onun dərdinə heç bir əlac yoxdur.»[4]

1762. İmam Əli (ə) :«Kim başqalarının eyblərini görüb onları yaramaz hesab edir, sonra isə həmin eyibləri özündə bəyənirsə, həqiqi axmaq odur.»[5]

1763. İmam Əli (ə) :«Kişinin axmaqlığı üç şeydən tanınar: mənasız (sözlər) danışmaqdan, ondan soruşulmayan suala cavab verməkdən və işlərində qorxmazlıq və cəsarətdən.»[6]

1764. İmam Əli (ə) :«Axmağın nişanələrindən biri budur ki, hər an bir rəngə düşər.»[7]

1765. İmam Əli (ə):«Xalqın sənin üçün dedikləri hər bir şeyi rədd etməyə çalışma. Axmaqlığı göstərməkçün elə bu kifayətdir.»[8]

***580. Axmaqla yoldaşlıq etmək***

1766. İmam Səccadın (ə) öz alicənab oğlu Həzrət Baqirə (ə) tövsiyyələrindən: «Oğlum! Axmaqla oturub-durmaqdan və ya yoldaşlıq etməkdən çəkin, ondan uzaqlaş və onunla həmsöhbət olma. Çünki ağılsız adam istər yanında olsun, istərsə də başqa yerdə, alçaq və şəxsiyyətsizdir. Söhbətə

---

[1] Ğurərul-Hikəm, hədis 687
[2] Ğurərul-Hikəm, hədis 2849
[3] Nəhcus-Səadə, c.3, səh.225
[4] əl-İxtisas, səh.221
[5] Nəhcül-Bəlağə, hikmət 349
[6] Ğurərul-Hikəm, hədis 4542
[7] Ğurərul-Hikəm, hədis 9445
[8] Ğurərul-Hikəm, hədis 10251

başlasa axmaqlığı onu rüsvay edər və nə vaxt sakit qalsa, bu onun söz danışmaq qüdrətinin olmamasına görə olar. Əgər bir iş görərsə onu xarab edər, öhdəsinə bir məsuliyyət götürsə onu yarıtmaz. Nə öz elmi onun dadına yetər, nə də başqalarının biliyi ona fayda verər. Onun xeyrini istəyən insanın sözünə qulaq asmaz. Onunla oturub duranın əlindən rahatlığı olmaz, anası ölümünü istəyər. Zövcəsi onu itirməyi, qonşusu qonşuluqdan getməsini və yoldaşı onunla yoldaşlıqdan xilas olmasını arzulayar. Əgər məclisin ən kiçik şəxsi olsa, özündən yüksək şəxsləri əziyyətə salar. Məclisin ən böyük şəxsi olarsa tabeliyində olanları fəsada və pozğunluğa çəkər.»[1]

1767. İmam Sadiq (ə) :«Hər kəs axmaqla dostluq etməkdən uzaqlaşmasa, tezliklə onun əxlaqını və xasiyyətini özünə götürər.»[2]

### *571. Ən axmaq insan*

1768. İmam Əli (ə):«Ən axmaq insan özünü hamıdan ağıllı biləndir.»[3]

1769. İmam Əli (ə) :«Ən ağılsız insan odur ki, yaxşılıq etmədən (eyni halda) təşəkkür gözləsin, pislik edərək (əvəzində) yaxşı mükafat umsun.»[4]

1770. İmam Əli (ə) :«Ən axmaq insan odur ki, özündə də olduğu halda başqaların eybini yaramaz hesab edir.»[5]

### *582. Axmağın cavabı*

1771. İmam Əli (ə) :«Axmağın müqabilində susmaq, ona cavab verməkdən yaxşıdır.»[6]

ιoooooπ

---

[1] Əmali-Tusi, səh. 613, hədis 268
[2] Əmali-Saduq, səh.222
[3] Ğurərul-Hikəm, hədis 3089
[4] Ğurərul-Hikəm, hədis 3283
[5] Ğurərul-Hikəm, hədis 3343
[6] Ğurərul-Hikəm, hədis 1160

# 116

# Hamam

***573. Hamam***

1772. İmam Əli (ə):«Hamam nə gözəl saraydır: (Cəhənnəmdəki) Odu yada salar və çirki (bədəndən) aparar.»[1]

1773. İmam Səccad (ə) :«Üç şey insanı kökəldər, üç şey isə arıqladar. Kökəldən üç şey bunlardır: hamama çox getmək, xoş ətir iyləmək və yumşaq paltar geymək. Arıqladan üç şeysə budur: çox yumurta, balıq və yetişməmiş xurma yemək.»[2]

1774. İmam Sadiq (ə):«Üç şey bədəni korlayar və çox öldürücü təsir göstərər:«Axşamdan qalmış bozbaşı yemək, tox qarına hamama getmək və yaşlı qadınlarla cinsi əlaqədə olmaq.»[3]

1775. İmam Sadiq (ə) :«Mə‘dəndə az bir şey olanda hamama get ki, hərarət onu aşağı yatırsın. Bu sənin bədəninin qüvvətlənməsi üçün daha yaxşıdır. Tox qarına da hamama getmə.»[4]

1776. İmam Kazim (ə):«Bir gündən bir hamama getmək insanı kökəldər. Hər gün hamama getmək isə böyrəklərin yağını əridər.»[5]

ιooooooπ

---

[1]Mən la yəhzuru-Fəqih, c.1, səh.115, hədis 237

[2] əl-Xilas, səh.155, hədis194

[3] Biharul-Ənvar, c.76, səh.75, hədis19

[4] Biharul-Ənvar, c.76, səh.75

[5] Məkarimul-Əxlaq, c.1, səh.125, hədis 298

**117**

# Ehtiyac

***584. Ehtiyac***

1777. İmam Əli (ə) :«Hər kimə yaxşılıq etsən onun ağası olarsan. Hər kimə ehtiyac əlini uzatsan onun əsiri olarsan. Hər kəsdən ehtiyacsız olsan onunla həmtay olarsan.»[1]

1778. İmam Əli (ə): «Hər kəsə ehtiyacın olsa, onun yanında xar olarsan.»[2]

***585. Ehtiyacların ödənilməsi***

1779. Allahın Peyğəmbəri (s) :«Öz qardaşına kömək etmək və xeyir vermək üçün çalışan şəxsə Allah yolunda mübarizə edənlərin savabı yazılacaq.»[3]

1780. Allahın Peyğəmbəri (s):«Öz mömin qardaşının bir ehtiyacını ödəyən kəs, bütün ömrünü Allaha ibadətlə keçirən bəndə kimidir.»[4]

1781.İmam Sadiq (ə):«Hər kəs Allah rizasına öz müsəlman qardaşının ehtiyacını ödəmək üçün çalışarsa, Allah-taala ona min-min xeyir əməlin savabını yazar.»[5]

1782. İmam Sadiq (ə) :«Hər kəs öz mömin, müsəlman qardaşının ehtiyacını aradan götürməyə sə'y göstərərsə, qardaşının ehtiyacının fikrində olduğu vaxtadək Allah-taala onun öz ehtiyacının götürülməsini lütf edər.»[6]

1783. İmam Sadiq (ə):«Allah-taala buyurmuşdur:Camaat mənim ailəmdir. Onlardan mənim yanımda ən sevimliləri camaatla daha mehriban olanları və onların ehtiyaclarının ödənilməsi naminə daha çox çalışanlarıdır.»[7]

1784. İmam Sadiq (ə) :«Öz qardaşının ehtiyacını aradan götürmək yolunda addım atan kimsə Səfa ilə Mərva arasında sə'y edən şəxs kimidir.»[8]

1785. İmam Sadiq (ə) :«Hər kəs öz mömin qardaşının bir ehtiyacını ödəyərsə, Allah-taala Qiyamət günü onun yüz min ehtiyacını ödəyər ki, onların da birincisi Cənnətdir.»[9]

---

[1] Məkarimul-Əxlaq, səh.126, hədis303
[2] əl-Xisal, səh.420, hədis14
[3] Ğurərul-Hikəm, hədis 8610
[4] Əmali-Tusi, səh.481, hədis1051
[5] əl-Kafi, c.2, səh.197, hədis6
[6] Əmali-Tusi, səh.197, hədis 147
[7] əl-Kafi, c.2, səh.199, hədis 10
[8] Tuhəful-Uqul, səh.303
[9] əl-Kafi, c.2, səh.193, hədis 1

1786. İmam Sadiq (ə):«Möminin ehtiyacını ödəmək, hər birinə yüz min (dirhəm, ya dinar) xərclədiyin iyirmi həccdən Allah yanında daha sevimlidir.»[1]

### *586. Qardaşının ehtiyacını ödəməkdən imtina edən*

1787. İmam Baqir (ə):«Bir müsəlman başqa bir müsəlmanla görüşmək və ya bir hacət istəmək üçün onun mənzilinə getsə və ondan içəri daxil olmaq üçün izn istəsə, o da evdə olduğu halda çölə çıxmasa, onlar bir-biri ilə görüşən vaxtadək ev sahibi daim Allahın Lənəti altında olar.»[2]

1788. İmam Sadiq (ə):«Hər kəsə mömin qardaşı yoxsul vaxtında öz ehtiyacını söyləsə və o özü, yaxud da başqasının vasitəsilə onun ehtiyacını ödəyə biləcəyi halda bu işi görməsə Allah-taala Qiyamət günü onu əlləri boynunun arxasında bağlı halda qəbirdən qaldırar və bəndələrin sorğu-sualını qurtaranadək həmin vəziyyətdə saxlar.»[3]

1789. İmam Sadiq (ə):«Bizim qardaşlardan biri ehtiyac əlini şiələrdən birinə tərəf uzatsa, o da kömək etməyə qadir olduğu halda öz köməyini əsirgəsə, Allah-taala onu bizim düşmənlərimizdən birinin ehtiyacını ödəməyə mübtəla edər və bu səbəbdən də Qiyamət günü əzaba düçar olar.»[4]

1790. İmam Sadiq (ə):«Hər bir mömin, möhtac mömin qardaşını özünün malından məhrum edərsə, Allaha and olsun ki, Cənnət yeməyinin ləzzətini dadmaz və möhürlənmiş xalis (Cənnət) şərabı nuş etməz.»[5]

### *587. Ehtiyacları ödəməyə tələsmək*

1791. İmam Səccad (ə):«Hər kəs öz ehtiyac əlini mənə tərəf uzadan zaman, onun ehtiyacını və çətinliyini aradan götürməyə tələsərəm. Çünki qorxuram iş işdən keçə və mənim köməyimin artıq ona heç bir faydası olmaya.»[6]

### *588. Dilək diləməyin qaydaları*

1792. İmam Əli (ə):«Allahım! Məni, xəlq etdiklərindən pis adamların heç birinə möhtac etmə! Əgər məni möhtac edirsənsə, onlardan ən xoşxasiyyətli və ən səxavətlisi, mənim ehtiyacımı şirin dillə və mənə daha az minnət qoymaqla aradan götürənə, möhtac et!»[7]

1793. İmam Səccad (ə)  onun hüzurunda «Allahım! Məni öz bəndələrinə möhtac etmə!» deyə ərz edən şəxsə buyurdu: «Belə deyil, çünki insanlar bir-birinə möhtacdırlar. Sən belə de: Allahım! Məni yaratdıqların arasında pis adamlara möhtac etmə!»[8]

---

[1] əl-Kafi, c.2, səh.193, hədis4
[2]əl-Kafi, c.2, səh.365, hədis4
[3] Biharul-Ənvar, c.74, səh.287, hədis13
[4]Səvabul-Əmal, səh.297, hədis 1
[5] Səvabul-Əmal, səh.286, hədis2
[6] Uyune Əxbare Rza (ə) c.2, səh.179, hədis 2
[7] Biharul-Ənvar, c.78, səh.56, hədis111
[8] Tuhəful-Uqul, səh.278

1794. İmam Baqir (ə):«Təzə varlanmışa möhtac olan kimsənin hekayəti, əfi ilanın ağzında olan bir dirhəmin hekayətidir. Həm sənin ona ehtiyacın var, həm də əfi ilandan səni təhlükə gözləyir.»[1]

ιooooooπ

[1] Tuhəful-Uqul, səh.294

# 118

# Ehtiyat

***589. Öz dinin üçün ehtiyat et***

1795. İmam Əli (ə):«Sənin qardaşın, sənin dinindir. Belə isə, bacardığın qədər, öz dinindən muğayat ol.»[1]

1796. İmam Sadiq (ə):«Öz dinində uzaqgörən və ehtiyatlı ol.»[2]

1797. İmam Sadiq (ə):«Sənin üçün mümkün olan bütün işlərdə ehtiyatlı ol.»[3]

---

[1] Əmali-Tusi, səh.110, hədis 1686

[2] Biharul-Ənvar, c.2, səh.259, hədis 9

[3] Biharul-Ənvar, c.2, səh.260, hədis 11

## 119

# Həyat

***590. Həyat***

1798. İmam Əli (ə):«Bilin ki, həyatdan başqa, elə bir şey yoxdur ki, sahibi ondan doyub yorulmasın. Çünki ölümdə öz rahatlığını görmür.»[1]

***591. Su və həyat***

**Qur'an:**

«Hər bir canlını sudan yaratdıq.»[2]

**Hədis:**

1799. İmam Sadiq (ə):«Suyun dadı həyatdır.»[3]

***592. Həyatdan daha yaxşı olanlar***

1800. İmam Əskəri (ə):«Həyatdan daha yaxşısı odur ki, onu əldən verən zaman öz həyatından bezəsən. Ölümdən daha pisi odur ki, ona məruz qalanda ölümü arzulayasan.»[4]

***593. Həqiqi həyat***

1801. İmam Əli (ə):«Dindarlıqdan başqa həyat, əminliyi əldən verməkdən başqa ölüm yoxdur.»[5]

1802. İmam Əli (ə) :«Tovhid (təkallahlılıq) cana həyat bəxş edəndir.»[6]

---

[1] Nəhcül-Bəlağə, xütbə 133
[2] Ənbiya, ayə 30
[3] Tuhəful-Uqul, səh.370
[4] Tuhəful-Uqul, səh.489
[5] əl-İrşad, c.1, səh.296
[6] Ğurərul-Hikəm, hədis 540

ιοοοοοοπ

# 120

# Heyvanat aləmi

***594. Heyvanların hüququ***

1803. «Biharul-ənvar» kitabından:«Allahın Rəsulu (s) dizində sarıq və belində yük olan bir dişi dəvəni görüb soruşur:«Bu dəvənin sahibi hardadır? Ona deyin ki, Qiyamət günü bu dəvənin ondan öz haqqını tələb etməyinə hazırlaşsın.»[1]

1804. Allahın Peyğəmbəri (s):«Allah-taala mehribanlıq göstərməyi sevir və onu yerinə yetirməyə kömək edər. Belə isə, arıq heyvanları mindiyiniz zaman onları öz mənzillərinə gətirin. Quru və otsuz torpaqdan tez keçib-gedin və yaşıllıq, otluq olarsa heyvanları buraxın ki, orada istirahət etsinlər.»[2]

1805. Allahın Peyğəmbəri (s):«Sağlam heyvanlara minin və onları sağlam saxlayın. Küçələrdə, bazarlarda onlardan öz xütbələriniz və söhbətləriniz üçün kürsü kimi istifadə etməyin. Nə çoxdur, öz suvarisindən daha xeyirli olan və Allah-taalanı daha çox yad edən miniklər.»[3]

1806. Allahın Peyğəmbəri (s):«Heyvanın öz sahibi üzərində altı haqqı vardır: onun belindən düşən zaman ona ot versin, suyun yanından keçəndə onu suvarsın, səbəbsiz yerə onu vurmasın, gücündən artıq yükləməsin, qüvvəsi çatmadığı məsafədə yola aparmasın, həddindən artıq müddətdə onun belində qalmasın.»[4]

1807. Allahın Peyğəmbəri (s):«Heyvanların üzündən vurmayın, çünki onlar Allaha həmd və təsbih deyirlər.»[5]

1808. Allahın Peyğəmbəri (s):«Əxlaqsız qadın su quyusu başında hürən və az qala susuzluqdan ölən bir it görür. Bu qadın ayaqqabısını sıxarır, üz örtüyünü açıb ayaqqabını ona bağlayır və quyudan it üçün su çıxarır. Bu əmələ görə Allah-taala onun günahlarını bağışlayır.»[6]

1809. Allahın Peyğəmbəri (s):«Hər bir heyvan – istər quş olsun, ya qeyrisi əgər haqsız yerə öldürülərsə, Qiyamət gunu öz qatilindən şikayət edəcək.»[7]

1810. Allahın Peyğəmbəri (s):«Hər kəs səbəbsiz yerə bir sərçəni öldürsə, həmin sərçə Qiyamət günü Allah dərgahına onun əlindən nalə çəkib

---

[1] Biharul-Ənvar, c.7, səh.276, hədis 50
[2] əl-Kafi, c.2, səh.120, hədis 12
[3] Kənzul-Ummal, hədis 24957
[4] Mustədrəkul-Vəsail, c.8, səh.258, hədis 9393
[5] əl-Kafi, c.6, səh.538, hədis 4
[6] Kənzul-Ummal, hədis 43116
[7] Kənzul-Ummal, hədis 39968

deyəcək:«Ey mənim Rəbbim! Filankəs məni istifadə üçün deyil, səbəbsiz yerə öldürdü.»[1]

1811. Allahın Peyğəmbəri (s):«Əgər heyvanlara etdiyiniz zülmlər bağışlanarsa, günahlarınızın əksəriyyəti bağışlanmışdır.»[2]

1812. Allahın Peyğəmbəri (s):«Allah-taalanın sənin ixtiyarına verdiyi bu dilsiz-ağızsız heyvana görə Allahdan qorxmursan? Bu dilsiz heyvan onu ac saxlamağından və əziyyət verməyindən mənə şikayət etdi.»[3]

1813. Allahın Peyğəmbəri (s):«Heyvanı müslə edənə (diri-diri heyvanın qulağını, dilini və burnunu kəsmək) Allah Lənət etsin.»[4]

1814. İbn Abbas nəql edir:«Allahın Rəsulu (s) əziyyət verən heyvandan başqa, hər bir canlını öldürməyi qadağan etmişdir.»[5]

1815. İmam Sadiq (ə):«Bir qadın pişiyi susuzluqdan ölənədək bağlı saxladığına görə əzaba məruz qaldı.»[6]

ιoooooπ

[1] Kənzul-Ummal, hədis 39971
[2] Kənzul-Ummal, hədis 24973
[3] Kənzul-Ummal, hədis 24982
[4] Kənzul-Ummal, hədis 24971
[5] Kənzul-Ummal, hədis 39981
[6] Məkarimul-Əxlaq, c.1, səh.280 , hədis864

**121**

# Həya

***595. Həya***

1816. İmam Əli (ə):«Həya hər gözəlliyə və yaxşılığa çatmaq üçün vasitədir.»[1]

1817. İmam Əli (ə):«Həya bütün yaxşılıqların açarıdır.»[2]

1818. İmam Əli (ə):«İnsanların ən ağıllısı onların ən həyalısıdır.»[3]

1819. İmam Əli (ə) :«Həya pisliyə mane olar.»[4]

1820. İmam Əli (ə):«Həya iffətliliyin səbəbidir.»[5]

***596. Həya və iman***

1821. Allahın Peyğəmbəri (s):«Hər dinin öz təbiəti vardır, İslamın təbiəti də həyadır.»[6]

1822. İmam Sadiq (ə) :«Həyası olmayanın imanı yoxdur.»[7]

***597. Həyanın qınanıldığı hallar***

1823. Allahın Peyğəmbəri (s):«Həya iki növdür: əqldən doğan həya və ağılsızlıqdan törəyən həya. Əqlin həyası elmdir, axmaqlığın həyası isə cahillik.»[8]

1824. İmam Əli (ə):«Utancaqlıq məhrumiyyətə yaxındır.»[9]

1825. İmam Əli (ə):«Utancaqlıq ruzinin yolunda maneədir.»[10]

1826. İmam Əli (ə):«Kim haqqı deməyə utanırsa axmaqdır.»[11]

***598. Həyasızlığın nəticəsi***

1827. Allahın Peyğəmbəri (s):«Peyğəmbərlərin (ə) misallarından xalq arasında bu sözdən başqa bir şey qalmayıb:Həyan olmasa, istədiyin hər işi et.»[1]

---

[1] Biharul-Ənvar, c.77, səh.211 , hədis1
[2] Ğurərul-Hikəm, hədis 340
[3] Ğurərul-Hikəm, hədis 2900
[4] Ğurərul-Hikəm, hədis 1393
[5] Ğurərul-Hikəm, hədis 5527
[6] Kənzul-Ummal, hədis 5757
[7] əl-Kafi, c.2, səh.106 , hədis5
[8] Biharul-Ənvar, c.77, səh.149 , hədis75
[9] Ğurərul-Hikəm, hədis 6714
[10] Ğurərul-Hikəm, hədis 274
[11] Ğurərul-Hikəm, hədis 8650

1828. İmam Əli (ə):«Xalqdan həya etməyən kəs, Sübhan olan Allahdan da həya etməz.»[2]

1829. Allahın Peyğəmbəri (s):«Allahdan öz yaxşı qonşularından həya etdiyin kimi həya et. Çünki Allahdan həya etmək əminliyi artırar.»[3]

1830. Allahın Peyğəmbəri (s):«Hər biriniz gecə və gündüz sizin kənarınızda olan iki mehriban qonşudan həya etdiyiniz kimi, özünüzlə birgə olan iki mələkdən də həya etməlisiniz.»[4]

1831. İmam Kazim (ə):«Aşkarda insanlardan həya etdiyiniz kimi, gizlində də Allahdan həya edin.»[5]

***600. Həyanın zirvəsi***

1832. İmam Əli (ə):«Həyanın zirvəsi, insanın özü- özündən həya etməsidir.»[6]

ιoooooοπ

---

[1] Uyune Əxbare Rza (ə), c. 2, səh.95, hədis207
[2] Ğurərul-Hikəm, hədis 9071
[3] Biharul-Ənvar, c.78, səh.200, hədis28
[4] Kənzul-Ummal, hədis 5751
[5] Tuhəful-Uqul, səh.394
[6] Ğurərul-Hikəm, hədis 6369

**122**

# Aqibət

***601. Aqibət***

1833. Allahın Peyğəmbəri (s):«Mömin həmişə aqibətinin pis olmasının qorxusu içindədir. Ruhu bədənindən çıxana və ölüm mələyi qarşısında zahir olan anadək Allahın razılığına, bağışlanmasına qovuşduğuna əminliyi olmur.»[1]

1834. Allahın Peyğəmbəri (s):«Bə‘zən insan uzun müddət Cənnət əhlinin işini yerinə yetirir, amma axırı Cəhənnəm əhlinin aqibəti olur.»[2]

1835. Allahın Peyğəmbəri (s):«Kimsənin işinin aqibəti sizə məlum olmayınca, ondan (yaxşı əməllərindən) heyrətə gəlməyin. Çünki insan ömrünün böyük hissəsini, ya bir müddətini yaxşı işlər görməklə keçirir və bu halda dünyadan köçərsə Cənnətə getmiş olar. Ancaq, (görürsən) insan birdən dəyişir və nalayiq işlər görməyə başlayır.»[3]

***602. Yaxşı sonluğun səbəbləri***

1836. İmam Əli (ə):«Allah-taalanın səni pis aqibətdən qorumasını istəyirsənsə, bil ki, sənə yetişən hər xeyir Allahın lütfündən və uğurundandır. Sənə yetişən hər pisliyə görə isə (bil ki,) Allah sənə möhlət və fürsət vermişdir. Onun sənə qarşı olan səbr və güzəştindən qorx.»[4]

1837. İmam Sadiq (ə) bir nəfərə xitabən: «Əgər əməlinin xeyirli sonluqla başa çatmasını və ölüm anında ən yaxşı əməllərinlə dünyadan köçməyini istəyirsənsə, Allahın haqqını qoru. Belə ki, Onun verdiyi nemətləri günah yolda xərcləmə, sənə qarşı göstərdiyi səbrə görə qürurlanıb, qafil olma. Bizi (Əhli-Beyti) yaxşı sözlərlə yad edən, ya bizim məhəbbətimizdən danışan bir kəs görəndə, ona hörmət et.»[5]

ıooooooπ

---

[1] Biharul-Ənvar, c.71, səh.366, hədis13
[2] Kənzul-Ummal, hədis 545
[3] Kənzul-Ummal, hədis 589
[4] Biharul-Ənvar, c.70, səh.392, hədis60
[5] Uyune Əxbare Rza (ə), c.2, səh.4, hədis8

# 123

# Xidmət etmək

***603. Xidmət etmək***

1838. Allahın Peyğəmbəri (s):«Bir dəstə müsəlmana xidmət edən hər müsəlmana Allah-taala Cənnətdə onların sayı qədər xidmətçi verər.»[1]

1839. Allahın Peyğəmbəri (s):«Mömінin mömin qardaşına xidmət etməyi elə bir məqamdır ki, fəzilət və savabı onun mislindən (yəni, qarşılıqlı xidmətindən) başqa heç bir şeylə əldə olunmaz.»[2]

1840. İmam Sadiq (ə):«Möminlər bir-birinin xidmətçiləridir.» (Cəmil deyir) Ərz etdim:«Necə bir-birlərinin xidmətçiləri olurlar?» Buyurdu:«Bir-birilərinə xeyir verirlər.»[3]

1841. İmam Sadiq (ə):«Qardaşına xidmət et! Amma əgər səni məcburi xidmətə və biyara götürsə, ona xidmət etmə.»[4]

ιοooooπ

---

[1] əl-Kafi, c.2, səh.207, hədis1
[2] Müstədrikul-Vəsail, c.12, səh.429, hədis14524
[3] əl-Kafi, c.2, səh.167, hədis9
[4] əl-İxtisas, səh.243

124

# Xəvaric

***604. Mariginlər***

**Qur’an:**

«De:Sizə əməllərində ən çox ziyana uğrayan insanları tanıtdırımmı? Onlar yaxşı iş gördüklərini güman etdikləri halda, dünyadakı sə‘yləri puç olan kimsələrdir.»[1]

**Hədis:**

1842. «Kənzul-Ummal» kitabından:«Allahın Peyğəmbəri (s) Hüneyn (müharibəsi) günü qızıl külçələri bölürdü. Yoldan bir kişi gəlib dedi:«Ey Məhəmməd, ədalətli ol! Allahın Peyğəmbəri (s) buyurdu:«Vay olsun sənə! Əgər mən ədalətli deyiləmsə, bəs onda ədalətli kimdir? (Yaxud buyurdu:) Məndən sonra ədaləti kimdə tapacaqsınız?» Bu vaxt buyurdu:«Tezliklə buna bənzər insanlar gələcəklər. Onlar Allahın kitabına düşmən olduqları halda onu tələb edəcəklər. Allahın kitabını oxuyarlar, amma (oxuduqları) hülqumlarından aşağı getməz. Başları qırxıq olar. Onlar baş qaldıran zaman boyunlarını vurun.»[2]

1843. İmam Əli (ə) (Bir nəfər yuxarıda xatırlanan ayəni o Həzrətin (ə) hüzurunda oxuyanda buyurdu):«Xəvaric bu kəslərdəndir.»[3]

1844. İmam Əli (ə):«Allahın Rəsulundan (s) eşitdim ki, axirəz-zamanda azyaşlı, quşbeyin bir camaat baş qaldırar. Sözlərin ən yaxşılarını danışar, sizdən çox namaz qılarlar, Qur‘an oxuyarlar. Amma, onların imanı hülqumlarından aşağı getməz. Ox kamandan çıxan kimi onlar da dindən çıxacaqlar. Onları öldürün.»[4]

***605. Xəvaric öldürüləndən sonra***

1845. İmam Əli (ə) xəvaricin cənazələrinin yanından keçərkən buyurdu: «Vay sizin halınıza, sizi aldadan sizə çox ziyan vurdu.» Ərz etdilər:«Ey Əmirəl-möminin! Onları kim aldatdı? Buyurdu:«Yoldan azdıran şeytan və pisliyə əmr edən nəfs xam arzularla onları aldatdı. Günah meydanını onlar üçün

---

[1] Kəhf, ayə 103, 104
[2] Kənzul-Ummal, hədis 31610
[3] Şərhe Nəhcül-Bəlağə, c.2, səh.278
[4] Şərhe Nəhcül-Bəlaqə, c.2, səh.267

genişləndirdi, onlara qələbə vədəsi verdi və bu vaxt onları alovun ağuşuna atdı.»[1]

1846. «Nəhcül-Bəlağə» kitabından:«Xəvaric öldürüləndən sonra Əmirəl-mömininə (ə) ərz etdilər:«Ey Əmirəl-möminin! Bu camaatın hamısı məhv oldu?.» Həzrət buyurdu:«Heç vaxt, Allaha and olsun, onlar kişilərin belində və qadınların rəhmlərindəki nütfələrdir. Onlardan bir budaq bitən kimi kəsilər və bu, onlardan bir dəstə yolkəsən və oğru törənib qalanadək davam edəcək.»[2]

1847. İmam Əli (ə):«Ey insanlar! Mən fitnənin gözünü çıxartdım və bunu onun (fitnənin) zülmət qaranlığı hər yeri bürüdüyü, quduzluğu və şiddəti son həddə çatdığı və məndən başqa onun qarşısını almağa heç kəsin cəsarəti çatmadığı bir vaxt etdim.»[3]

***606. İmamın özündən sonra xəvaricin öldürülməsini qadağan etməsi***

1848. İmam Əli (ə):«Məndən sonra xəvariclə döyüşməyin (onları öldürməyin). Çünki haqqı tələb edən və ona çatmayan, batil axtaran və onu əldə edən kimi deyildir.»[4]

ιοοοοοοπ

[1] Şərhe Nəhcül-Bəlağə, c.2, səh.235
[2] Nəhcül-Bəlağə, xütbə 60
[3] Nəhcül-Bəlağə, xütbə 93
[4]Nəhcül-Bəlağə, xütbə 61

## 125

# Ziyankarlıq

***607. Ziyankarlar***

1849. Allahın Peyğəmbəri (s):«Ziyankar öz axirətini abad etməkdən qafil olan kəsdir.»[1]

1850. Allahın Peyğəmbəri (s):«Ömrünü dünyanı qazanmağa sərf edən kəs, bu ticarətdə ziyan etmiş və uğuru əldən vermişdir.»[2]

***608. Dünya və axirətdə ziyana uğrayanlar***

**Qur'an:**

«İnsanların arasında elələri var ki, Allaha tərəddüdlə ibadət edirlər. Əgər ona bir xeyir yetişərsə qəlbi ondan rahatlıq tapar, əgər qarşıya bir imtahan çıxarsa ondan üz döndərər (və dəyişər). Dünya və axirətdə ziyana uğrayarlar və bu həmin açıq-aşkar ziyandır.»[3]

**Hədis:**

1851. İmam Əli (ə) «Kimin bədbəxtliyi daha çoxdur?» sualına cavabından: «Dünyanı dünyaya xatir tərk edən və buna görə dünyanı da əldən verən, axirətinə də ziyan vuran kişi. Bir də özünü göstərmək üçün ibadət edən, çalışan və oruc tutan kişi. Dünyanın xətrinə dünya ləzzətlərindən məhrum olub və özünə əziyyət vermiş bu şəxs, əgər bunları Allaha xatir etsəydi, Allahın mükafatına layiq olardı.»[4]

***609. Ən çox ziyana uğrayanlar***

**Qur'an:**

«De: Sizə (əməllərində) ən çox ziyana uğrayan insanlardan xəbər verimmi? Onlar yaxşı iş gördüklərini güman etdikləri halda, dünyadakı sə'yləri hədərə gedənlərdir.» [5]

**Hədis:**

1852.İmam Əli (ə):«Ticarətdə ən çox ziyana uğrayan və sə'ylərində hamıdan uğursuz kimsə odur ki, öz bədənini (dünya) malı axtarmaq üçün

---

[1] Tənbihul-Xəvatir, c.2 səh.118
[2] Tənbihul-Xəvatir, c.2, səh.119
[3] Həcc, ayə 11
[4] Tənbihul-Xəvatir, c.2, səh.95
[5] Kəhf, ayə 103, 104.

taqətdən sala və taleyin müqəddəratı onun üzünə gülməyə, o da peşmançılıq və həsrətlə dünyadan köçərək onun yükü ilə axirətə üz tuta»[1]

[1] Nəhcül-Bəlağə, hikmət 430

## 126

# Xuşu (təvazökarlıq)[1]

***610. Təvazökarlıq***

**Qur’an:**

«Məgər möminlər üçün öz qəlblərini Allahı yad etməklə xuşu (təvazö) halına salmalarının vaxtı gəlib çatmamışdırmı?»[2]

**Hədis:**

1853. «İrşadul-Qulub» kitabından:«Merac hədisində Allah-taaladan nəql olunur ki, yalnız Məni tanıyan və Mənim qarşımda xuşu edən bəndələrimin qarşısında bütün əşyalar təvazökar olarlar.»[3]

1854. İmam Əli (ə):«Təvazökarlıq dua üçün necə də gözəl köməkçidir.»[4]

1855. İmam Səccad (ə): duada buyurur: «Ey Allahım! Qane olmayan nəfsdən, doymaq bilməyən qarından, yumşaq və təvazökar olmayan qəlbdən Sənə pənah gətirirəm.»[5]

***611. Təvəzökarların sifətləri***

1856. Allahın Peyğəmbəri (s):«Təvazökar insanın dörd əlaməti var: gizlində və aşkarda Allahdan qorxmaq, yaxşı işlər görmək, Qiyamət gününü fikirləşmək və Allahla münacat etmək.»[6]

1857. İmam Əli (ə):«Qəlbi xuşu halında olanın bədən üzvləri də xuşu halında olar.»[7]

---

[1]Xuşu - qəlbin özünə məxsus bir halıdır. Allahdan başqa qəlbdən hər şeyi çıxartmaqla yaranan nurani-ruhani bir haldır.

[2] Hədid, ayə 16

[3] İrşadul-Qulub, səh.203

[4] Ğurərul-Hikəm, hədis 9945

[5] İqbalul-Əmal, c.1, səh.174

[6] Tuhəful-Uqul, səh.20

[7] Ğürərul-Hikəm, hədis 8172

## 127

# Xütbə

***612. Xütbə***

**Qur’an:**

«Onun hökmranlığını möhkəmləndirdik, ona hikmət və fəsahətli nitq qabiliyyəti bəxş etdik.»[1]

**Hədis:**

1858. Səd ibn İbrahim atasından nəql edir: «İki dəfə minbərdən xütbə söyləyən kəs İbrahim (ə) olub. Bu rumluların Lut peyğəmbəri (ə) əsir götürdükləri vaxt olub və İbrahim (ə) onlarla müharibə edərək o Həzrəti onların əlindən almışdır.»[2]

1859. Cabir:«Allahın Peyğəmbəri (s) xütbə söyləyəndə qoşunu düşmən həmləsinin təhlükəsindən agah edən qarovul əsgər kimi gözləri qızarar, səsi ucalar və qəzəbi kükrəyərdi.»[3]

1860. Əbu Umamə:«Peyğəmbər (ə) ordu başçısını müharibəyə göndərəndə buyurardı: Xütbəni qısa və sözünü az et.»[4]

1861. Əmmar ibn Yasir:«Allahın Peyğəmbəri (s) bizə xütbələrimizi müxtəsər söyləməyi əmr etmişdir.»[5]

1862. Cabir ibn Səmurət Səvaiyyi:«Allahın Rəsulu (s) cümə günləri moizəni çox uzatmaz, qısa sözlərlə bəyan edərdi.»[6]

ιooooooπ

---

[1] Sad, ayə 20
[2] Durrul-Mənsur, c.1, səh.282
[3] Kənzul-Ummal, hədis 17974
[4] Kənzul-Ummal, hədis 18126
[5] Sunəne əbi Davud, hədis 1106
[6] Sunəne əbi Davud, hədis 1107

**128**

# Xətt və xəttatlıq

***613. Xətt və xəttatlıq***

**Qur'an:**

«Sən Qur'andan qabaq heç bir kitab oxumamışdın və öz xəttinlə heç bir kitab yazmamışdın. Əgər belə olsaydı, batil əhli şəkkə düşərdi.»[1]

**Hədis:**

1863. Allahın Peyğəmbəri (s):«Mürəkkəbqabına liğə (sap) qoy, qələmi itilə, (Bismillahir rəhmanir rəhimdə) «ba» hərfini çək, «sin»i açıq yaz, «mim»i əyri yazma, Allahı gözəl yaz. Ər-rəhmanı bir qədər uzat, ər-rəhimi yaxşı yaz.»[2]

1864. Allahın Peyğəmbəri (s) «Yaxud elmdən bir nişanə» ayəsi[3] barədə:«Burada məqsəd xəttdir.»[4]

1865. Əta ibn Yəssar:«Peyğəmbərdən (s) xətt barədə soruşdular. Buyurdu:«Onu bir peyğəmbər təlim etdi və səhabələri öyrəndilər.»[5]

1866. İmam Əli (ə):«Xətt əlin dilidir.»[6]

1867. İmam Əli (ə) öz katibi Ubeydulla ibn Əbirafiyə xitabən :«Öz mürəkkəbqabına liqa (sap) qoy, qələminin ucunu uzununa itilə, xəttlər arasında fasilə saxla və hərfləri bir-birinə yaxın yaz. Belə yazsan xəttin gözəl olar.»[7]

1868. İmam Əli (ə):«Qələminin ucunu yar, lələyini qalın et və onu sağ tərəfdən kəs ki, xəttin qəşəng olsun.»[8]

ιοooooοπ

---

[1] Ənkəbut, ayə 48
[2] Əd-Durrul Mənsur, c.1, səh.28
[3] Əhqaf, ayə 4
[4] əd-Durrul Mənsur, c.7, səh.434
[5] əd-Durrul Mənsur, c.7, səh.434
[6] Ğurərul-Hikəm, hədis 2465
[7] Nəhcül-Bəlağə, hikmət 315
[8] Ğururəl-Hikəm, hədis 2465

**129**

# İxlas

***614. İxlas***

**Qur'an:**

«(Şeytan) Dedi:Sənin izzətinə and olsun ki, onların arasından Sənin seçilmiş və ixlasla ibadət edən bəndələrindən başqa hamısını azdıracam…»[1]

**Hədis:**

1869. İmam Əli (ə):«İxlas dinin ən yekun dərəcəsidir.»[2]

1870. İmam Əli (ə):«İxlas (Allaha) yaxın olan kəslərin ibadətidir.»[3]

1871. İmam Əli (ə) :«İxlas ibadətin ölçü və me'yarıdır.»[4]

1872. İmam Əli (ə) :«İxlas imanın zirvəsidir.»[5]

1873. İmam Əli (ə):«Nicat və xilas ixlasdadır.»[6]

1874. İmam Əli (ə) :«Xoş o kəsin halına ki, əməli və elmi, dostluğu və düşmənçiliyi, götürməyi və qoymağı, nitqi və sükutu, əməli və danışığı yalnız Allah üçün ola.»[7]

***615. İxlasın çətin olması***

1875. İmam Əli (ə):«Əməli xalisləşdirmək əməlin özünü yerinə yetirməkdən çətin, əməl edənlər üçünsə niyyəti fəsaddan və qarışıqdan təmizləmək uzunmüddətli cihaddan daha ağırdır.»[8]

1876. İmam Səccad (ə):«Əməl xalisləşənədək onda sabitqədəm olmaq əməlin özündən çətindir.»[9]

***616. İşin az, amma ixlasla olmasının kifayət etməsi***

1877. «əl-Kafi» kitabından: Allah-taalanın Musaya (ə) kəlamlarından:«Ey Musa! Mənə xatir görülən hər bir işin azı çox, Məndən qeyrisi üçün yerinə yetirilən işin çoxu azdır.»[10]

1878. Allahın Peyğəmbəri (s) :«Qəlbini xalis et, az iş sənə kifayət edər.»[11]

---

[1] Sad, ayə 82, 83
[2] Ğurürəl-Hikəm, hədis 727
[3] Ğurürəl-Hikəm, hədis 667
[4] Ğurürəl-Hikəm, hədis 859
[5] Ğurürəl-Hikəm, hədis 860
[6] Tənbihul-Xəvatir, c.2, səh.154
[7] Tuhəful-Uqul, səh.100
[8] Biharul-Ənvar, c.77, səh.288, hədis1
[9] əl-Kafi, c.2, səh.16 , hədis4
[10] əl-Kafi, c.8, səh.46 , hədis8
[11] Biharul-Ənvar, c.73, səh.175 , hədis15

130

# Müxlis[1]

1879. Allahın Peyğəmbəri (s) :«Yalnız öz elminə əməl edənlərindən başqa alimlərin hamısı məhv olar. Yalnız ixlasla əməl edənlərdən başqa, əməl edənlərin də hamısı məhv olar. İxlasla əməl edənlərin özü də təhlükədədirlər.»[2]

1880. İmam Sadiq (ə) Müfəzzəl ibni Saleha: «Həqiqətən, Allahın ixlasla əməl edən bəndələri vardır, Allah da öz xalis əcr və mükafatından onlara bəxş edər. Bunlar Qiyamət günü əməl dəftərləri boş (yazısız) olan kəslərdir. Onlar Allah qarşısında dayananda Allah-taala o əməl dəftərlərini onlarla Özü arasında olan sirlə doldurar» (Rəvayətçi deyir) Ərz etdim:«Ey mənim ağam, bu niyə belədir (yəni, əməl dəftərləri ağ və yazısızdır)?» Buyurdu:«Çünki Allah-taala onların şənini Özü ilə onların arasında olan əlaqəsini mühafizəçi mələklərin xəbərdar olmalarından daha uca etmişdir.»[3]

1881. Cəbrayıl (ə) Peyğəmbərin (s) ixlas barədə sualının cavabında buyurub:«Muxlis, o kəsdir ki, özü bir şeyi əldə etməyincə insanlardan heç nə istəməsin, həmin şeyi əldə edəndə razı olsun və o şeydən yanında bir qədər qalmış olsa başqalarına bəxş etsin. Çünki məxluqdan bir şey istəməyən, Allah üçün bəndəliyini e‘tiraf etmişdir. Öz məqsədinə çatıb razı olanda, Allahdan razı olmuşdur və Allah-taala da ondan razıdır. Özünə qalan şeydən Allaha xatir bəxş edəndə öz Rəbbinə e‘timad mərtəbəsinə yetişmişdir.»[4]

***618. Əməllərin qəbul olunmasında ixlasın rolu***

1882. Allahın Peyğəmbəri (s):«Bir iş görəndə onu yalnız Allah üçün gör. Çünki O, bəndələrin yalnız xalis əməllərini qəbul edir.»[5]

1883. İmam Sadiq (ə) :«Allah-taala buyurmuşdur:Mən ən yaxşı şərikəm. Öz əməlində mənə şərik gətirən kimsənin, yalnız xalis mənim üçün olanlardan başqa heç bir əməlini qəbul etmərəm.»[6]

[1] Muxlis – əməlini ixlasla, Allaha xatir yerinə yetirən şəxsdir
[2] Tənbihul-Xəvatir, c.2, səh.118
[3] İddətud-dai, səh.194
[4] Nurus-Səqəleyn, c.3, səh.15 , hədis50
[5] Biharul-Ənvar, c.77, səh.103 , hədis1
[6] Mustədrəkul-Vəsail, c.1, səh.100 , hədis87

**131**

# Xalis din

**Qur’an:**

«De:Mənə Allaha ibadət və dini xalis Onunçün etmək əmr olunmuşdur. Mənə ilk müsəlman olmaq buyurulmuşdur.»[1]

**Hədis:**

1884. Allahın Peyğəmbəri (s):«Haramlardan uzaqlaşmaq ixlasın kamilliyidir.»[2]

1885. İmam Sadiq (ə):«Kim ixlasla «Lə iləhə illəllah» desə Cənnətə gedər və onun ixlası bundan ibarətdir ki, «Lə iləhə illəllah» onu Allahın haram etdikləri şeylərdən çəkindirsin.»[3]

### *620. İxlasın həqiqəti*

1886. Allahın Peyğəmbəri (s):«Hər haqqın həqiqəti var. Bəndə də, Allah üçün etdiyi əməlin müqabilində təriflənib öyülməməsini istəməyənədək ixlasın həqiqətinə yetişməyəcək.»[4]

1887. İmam Əli (ə):«Xalis ibadət, insanın öz Rəbbindən başqa bir kimsəyə ümid bəsləməməsi və öz günahından başqa heç nədən qorxmamasıdır.»[5]

1888. İmam Sadiq (ə):«Xalis əməl odur ki, onu etdiyinə görə Allahdan başqa bir kəsin səni tərifləməsini istəməyəsən.»[6]

### *621. İxlas gətirən şey*

1889. İmam Əli (ə):«İxlasın səbəbi əminlikdir.»[7]

1890. İmam Əli (ə) : «(Yaranış və axirət haqda) Elmin meyvəsi əməlin ixlasla görülməsidir.»[8]

1891. İmam Əli (ə):«Arzularını azalt, əməllərin xalis olar.»[9]

1892. İmam Əli (ə):«İxlasın kökü, xalqın əlində olanlardan gözünü çəkməkdir.»[1]

---

[1] Zümər, ayə 11-12
[2] Kənzul-Ummal, hədis 44339
[3] Biharul-Ənvar, c.8, səh.359, hədis24
[4] Biharul-Ənvar, c.72, səh.304 , hədis51
[5] Ğurərul-Hikəm, hədis 2128
[6] əl-Kafi, c.2, səh.16, hədis 4
[7] Ğurərul-Hikəm, hədis 55382
[8] Ğurərul-Hikəm, hədis 4643.
[9] Ğurərul-Hikəm, hədis 6793.

***622. İxlasın nəticələri***

1893. Allahın Peyğəmbəri (s):«Əgər bəndə qırx sübh Allaha ixlasla ibadət edərsə, hikmət çeşmələri onun qəlbindən dilinə axar.»[2]

1894. Allahın Peyğəmbəri (s):«Allah-taala buyurur:Bəndəmin qəlbinə baxıb, Mənə ixlasla və Mənim razılığımı qazanmaq üçün ibadət etdiyini görəndə onun işlərinin nizamını və tədbirini öz öhdəmə götürərəm.»[3]

1895. İmam Əli (ə):«Niyyətini xalis edən kəs alçaqlıqdan uzaq olar.»[4]

1896. İmam Sadiq (ə):«Bütün əşyalar möminin müqabilində təvazökarlıq edər və onun heybətindən qorxar.» Sonra buyurdu:«Əgər Allah üçün ixlasla iş görərsə, Allah-taala hər şeyi, hətta yerin gəmirici və yırtıcı heyvanlarını, havadakı quşları ondan qorxudar.»[5]

ıooooooπ

[1] Ğurərul-Hikəm, hədis 3088

[2] Uyune Əxbare Rza (ə), c.2, səh.69 , hədis321

[3] Biharul-Ənvar, c.75, səh.136 , hədis16

[4] Ğurərul-Hikəm, hədis 8447

[5] Biharul-Ənvar, c.70, səh.248, hədis 21

**132**

# İxtilaf

***623. İnsanlar vahid ümmət olublar***

**Qur'an:**

«İnsanlar yalnız vahid bir ümmət idilər. Sonra aralarına ixtilaf düşdü. Əgər bundan əvvəl sənin Rəbbin tərəfindən bir söz (vədə) gəlməsəydi, ixtilafda olduqları şey haqda hökm verilmişdi.»[1]

**Hədis:**

1897.İmam Baqir (ə):«Nuhdan qabaq insanlar ilahi fitrət əsasında bir (vahid) ümmət idilər, nə hidayət olurdular, nə də yolunu azanlardan idilər. Sonra, Allah-taala Peyğəmbərləri göndərdi.»[2]

***624. İxtilafları kənara qoymağa həvəsləndirmək***

**Qur'an:**

«Hamılıqla Allahın ipindən yapışın, bir-birinizdən ayrılmayın. Allahın sizə bəxş etdiyi nemətləri yada salın ki, bir zaman siz düşmən olarkən O, qəlblərinizi bir-birinizə mehriban etdi və Onun bu nemətinə görə qardaş oldunuz.»[3]

1898. Allahın Peyğəmbəri (s) :«Öz peyğəmbərindən sonra, ixtilafa düçar olan elə bir ümmət olmadı ki, onların batilə uğrayanları haqq tərəfdarlarına qalib gəlməsin.»[4]

1899. İmam Əli (ə):«Cəmiyyətin əksəriyyəti ilə birgə olun. Çünki Allahın əli camaatladır. Bir-birinizdən ayrılmayın ki, sürüdən ayrı düşən qoyun canavara yem olduğu kimi insanlardan ayrı düşən də şeytana yem olar.»[5]

1900. İmam Əli (ə):«Allaha and olsun, zənnimcə, bu camaat tezliklə sizə qalib gələcək. Çünki onlar öz batil əqidələrində həmrəy və bir-biri ilə müttəfiqdir. Sizsə, öz haqq əqidənizdə təfriqəyə və parçalanmaya düçar olmusunuz.»[6]

1901. İmam Əli (ə):«Heç vaxt bir-birinə zidd iki də'vət olmayıb ki, onlardan ( həmin iki də'vətdən) biri azğınlığa tərəf olmasın.»[7]

---

[1] Yunis, ayə 19
[2] Nurus-Səqəleyn, c.1, səh.209, hədis784
[3] Ali-İmran, ayə 103
[4] Kənzul-Ummal, hədis 929
[5] Nəhcül-Bəlağə, xütbə 127
[6] Nəhcül-Bəlağə, xütbə 25
[7] Nəhcül-Bəlağə, hikmət 283

### *625. «Ümmətin ixtilafı rəhmətdir» kəlamının mənası*

1902. Məani-əxbar kitabından:«Əbdulmömin Ənsari İmam Sadiqə (ə) ərz etdi:«Bir dəstə insan rəvayət edir ki, Allahın Peyğəmbəri (s) buyurub:«Mənim ümmətimin ixtilafı rəhmətdir.» İmam (ə) buyurdu: «Doğru deyirlər» (Əbdulmömin deyir) Əzr etdim:«Əgər onların ixtilafı rəhmətdirsə, onda onların vəhdəti əzabdır?» Həzrət buyurdu:«Bu hədisin mənası sənin və onların başa düşdüyü kimi deyil. Əslində peyğəmbər Allahın bu «Niyə onların hər bir dəstəsindən müəyyən sayda camaat köçmür…» kəlamını nəzərdə tutmuşdur. Allah onlara əmr etdi ki, hər yerdən Peyğəmbərin (s) yanına gəlib dərs alsınlar, sonra öz xalqlarının yanına qayıtsınlar və öz biliklərini onlara öyrətsinlər. Peyğəmbərin (s) məqsədi ixtilaf dedikdə dində olan ixtilaf və parçalanma deyil, onların öz şəhərlərindən gəliş-gedişidir. Çünki din vahiddir.»[1]

### *626. Camaat və ayrılığın mənası*

1903. İmam Sadiq (ə):«Peyğəmbərdən (s) ümmətinin camaatı barədə soruşduqda buyurdu:«Mənim ümmətimin camaatı, hərçənd onlar az olsalar da, haqq tərəfdarlarıdır.»[2]

### *627. Təfriqə və ayrılığın səbəbi*

1904. İmam Əli (ə):«Siz bir-birinizin din qardaşısınız, sizin aranızda ayrılıq salanın batini çirkin və əxlaqi pisdir. Buna görə, bir-birinizin yükünü götürmür, xeyirxahlıq etmir və bir-birinizə səxavətli deyilsiniz, bəxşişlər vermirsiniz və məhəbbət bəsləmirsiniz.»[3]

1905. İmam Əli (ə):«Əgər cahil sükut etməyi seçsəydi, insanlar ixtilafa düçar olmazdı.»[4]

ιοοοοοοπ

[1] Məani əl-Əxbar, səh.157, hədis1
[2] Məani əl-Əxbar, səh.154, hədis1
[3] Nəhcül-Bəlağə, xütbə 113
[4] Biharul-Ənvar, c.78, səh.81, hədis75

# 133

# Yaradılış

***628. Yaradılışın mənşəyi***

1906. Allahın Peyğəmbəri (s) :«Hər şey sudan yaradılmışdır.»[1]

1907. Allahın Peyğəmbəri (s):«Allah-taala dünyanın səmasını ram edilmiş dalğadan yaratmışdır.»[2]

1908. Həbbeye Orəni:«Günlərin birində Həzrət Əlinin (ə) belə and içdiyini eşitdim:«And olsun səmanı tüstüdən Yaradana.»[3]

***629. Subhan olan Allahın ilk məxluqu***

1909. Allahın Peyğəmbəri (s) :«Allahın yaratdığı ilk şey qələmdir. Sonra ona əmr verdi və qələm yaranmalı olan hər bir şeyi yazdı.»[4]

1910. Allahın Peyğəmbəri (s):«Allah hər şeydən əvvəl əqli yaratdı.»[5]

1911. Allahın Peyğəmbəri (s):«Allah hər şeydən əvvəl mənim nurumu yaratdı.»[6]

1912. Allahın Peyğəmbəri (s):«Allah-taalanın yaratdığı ilk varlıq bizim ruhlarımız olub. Sonra onlara özünün tövhidini və tərifini söylətdirdi, daha sonra mələkləri yaratdı.»[7]

1913. Biharul-ənvar:«İmam Əlidən (ə) Allahın yaratdığı ilk məxluq haqda soruşduqda buyurdu:«Nuru yaratmışdır.»[8]

1914. İmam Baqir (ə):«Allah-taalanın birinci yaratdığı və sonradan bütün varlıqların mənşəyi olan şey su olub.»[9]

***630. Aləmin yaradılışı***

**Qur’an:**

«Məgər kafirlər düşünmürlərmi ki, səmalar və yer bir-birinə bağlı idi, biz onları açdıq və hər bir canlını sudan yaratdıq. Görəsən, bundan sonra da iman gətirməyəcəklərmi?»[1]

---

[1] Kənzul-Ummal, hədis 15119
[2] Kənzul-Ummal, hədis 1518
[3] Biharul-Ənvar, c.58, səh.104, hədis35
[4] Kənzul-Ummal, hədis 15115
[5] Biharul-Ənvar, c.1, səh.97, hədis8
[6] Biharul-Ənvar, c.1, səh.97, hədis7
[7] Uyune Əxbare Rza (ə), c.1, səh.262, hədis22
[8] Biharul-Ənvar, c.57, səh.73, hədis49
[9] Ət-Tovhid, səh.67, hədis20

1915. İmam Əli (ə):«Əşyaları əzəli bir maddədən və əbədi nümunələrdən yaratmadı. Əslində yaratdığını yaratdı, hüdudları (ölçülərini) təyin etdi, surət verdiyinə, surət verdi və surətlərini ən gözəl şəkildə yaratdı.»[2]

1916. İmam Baqir (ə):«Allah-taala varlıqları yaratdı, amma hansısa bir şeydən yox. Kim desə ki, Allah-taala varlıqları (hansısa bir) şeydən yaratdı, o, kafirdir.»[3]

### *631. Gözlərimizdən gizli olan aləmin təmtərağı və əzəməti*

1917. İmam Əli (ə):«Ey Pak olan Allah! Sənin yaratdıqlarından gördüklərim necə də əzəmətli və təmtəraqlıdır! Hər bir böyük, Sənin qüdrətin müqabilində necə də kiçikdir! Sənin mələkutundan gördüklərimiz necə də vahiməlidir! Bizim gördüklərimiz Sənin gözə görünməyən qüdrət və səltənətinin müqabilində necə də kiçikdir!»[4]

1918. İmam Baqir (ə):«Bəlkə elə fikirləşirsən ki, Allah-taala təkcə bu aləmi yaratmış və sizdən başqa bir bəşər xəlq etməmişdir? And olsun Allaha, O, min-min aləm və min-min Adəm yaratmışdır ki, sən o aləmlərin və Adəmlərin ən sonuncususan.»[5]

ιοοοοοοπ

[1] Ənbiya, ayə 30

[2] Nəhcül-Bəlağə, xütbə 163

[3] İləluş-Səraye, səh. 607 , hədis81

[4] Nəhcül-Bəlağə, xütbə 109

[5] Ət-Tovhid, səh.277, hədis2

**134**

# Yaradan

***632. Ağlın ehtimal olunan zərərin qarşısını almağa çağırışı***

1919. İmam Sadiq (ə) yaradılış və axirəti inkar edən Əbdülkərim ibn Əbilavcaya: «Əgər həqiqət sən dediyin kimidirsə –Əlbəttə, ki, belə deyil- biz də və sən də nicat tapmışıq. Əgər biz dediyimiz həqiqətdirsə, -Əlbəttə, bu elə həqiqətin özüdür- biz nicat tapmışıq, amma sən həlak olmusan.» Əbdülkərim üzünü yoldaşlarına tutub dedi:«Qəlbimdə bir yanğı və qüssə yaranıb, məni aparın.» Yoldaşları onu götürüb apardılar və Əbdulkərim dünyasını dəyişdi.»[1]

***633. Allahın vücudunun isbatı***

**1-Allahı fitrət yolu ilə tanımaq.**

**Qur'an:**

«Təkallahlılıqla dinə üz tut! Bu ilahi fitrətdir ki, Allah insanları onun əsasında yaratmışdır»[2]

**Hədis:**

1920. Allahın Peyğəmbəri (s):«Dünyaya gələn hər körpə fitrət əsasında doğulur. Yəni bilir ki, onu yaradan Allahdır. Allahın «əgər onlardan soruşsan səmaları və yeri yaradan kimdir, dərhal deyərlər: Allah» kəlamının mənası da budur.»[3]

1921. İmam Əskəri (ə) «Bişmillahir rəhmanir rəhimi» təfsir edərkən: «Ehtiyaclar və çətinliklər zamanı hər məxluqun ümidi Allahdan başqa hər şeydən kəsiləndə və bütün səbəblərdən, vasitələrdən əli üzüləndə Ona tərəf üz çevirər.»[4]

**2-Səbəb və nəticə qanunu.**

**Qur'an:**

«Məgər, onlar heç bir yaradıcı olmadan yaranmışlar, ya özləri özlərini yaradırlar? Ya səmaları və yeri yaradıblar? Xeyr, əslində onlar yəqinə yetişməyiblər.[5]

---

[1] Ət-Tovhid, səh. 298 , hədis6

[2] Rum, ayə 30

[3] ət-Tovhid, səh.331 , hədis9

[4] ət-Tovhid, səh.321 , hədis5

[5] Tur, ayə 35, 36

1922. «Ət-Tövhid»: «Şam alimlərindən biri İmam Baqirdən (ə) soruşur:«Bəs əşyanı bir şeydən və heç bir şeydən yaratdı? Həzrət buyurdu:«Əşyanı yaratdı, amma özündən qabaq mövcud olan şeydən yox. Əgər şeyi bir şeydən yaratmış olsaydı, heç vaxt onunla əşyanın arasında ayrılıq olmazdı, həmişə bu şey Allahla birgə olmuş olardı. Halbuki, Allah var idi və onunla birgə heç bir şey yox idi.»[1]

1923. İmam Sadiqin (ə) əbu Şakir Deysaninin «sənin Yaradanının olmasına dəlilin nədir?» sualına cavabından: «Özümün iki haldan xaric olmadığımı müəyyən etmişəm: ya mən özüm-özümü yaratmışam, ya başqa birisi məni yaratmışdır. Əgər mən özümü yaratmışamsa iki haldan xaric deyiləm: Ya mən olmuşam və sonra özümü yaratmışam, yaxud da, olmamışam və sonra özümü yaratmışam. Əgər, əvvəl olmuş və sonra özümü yaratmışamsa, bu halda yaradılışa ehtiyacım yoxdur. Əgər olmamışamsa, özün də bilirsən ki, olmayan şey bir şeyi yaratmaz. Beləliklə, üçüncü məna isbat olunur, yəni məni yaradan var. O da həmən aləmlərin Rəbbi olan Allahdır.» Əbu Şakir cavab verməyə söz tapmayıb ayağa qalxdı.»[2]

**3-Varlığın nişanələri.**

1924. «Nəhcül-Bəlağənin şərhi»:«Əmirəl-möminin (ə) gecə namazından sonra bu cümləni çox işlədərdi:«Şəhadət verirəm ki, səmalar, yer və onların arasında olanlar sənin vücuduna dəlalət edən nişanələr və də‘vət etdiyin şeyə şəhadət verən şahidlərdir. Sənin höccətini bəyan və Rəbbiliyinə şahidlik edən hər bir şey Sənin nemətlərinin əsərlərinin nişanı və Sənin özünə dəlalət edən tədbirinin əlamətləridir.»[3]

1925. İmam Əli (ə):«Ey, xilqət baxımından heç bir kəm- kəsiri olmayan, hər cəhətdən münasib qaranlıq bətnlərdə və iç-içə pərdələrdə vücuda gəlib mühafizə olunan insan! Sənin yaradılışın gilin şirəsindən başladı… Sonra bu məkandan əvvəllər görmədiyin və mənfəətini əldə etməyin yolunu bilmədiyin bir mühitə çıxarıldın. Ananın döşlərindən süd əmməyə kim səni yönəltdi? Ehtiyac vaxtı tələb və istək yerlərini kim sənə öyrətdi?»[4]

1926. İmam Baqir (ə): «Bu dünyada kor olan kəs, axirətdə də kordur» ayəsi barədə: «Bir kəsi ki, səmaların və yerin yaradılışı, gecə və gündüzün dəyişməsi, günəşlə ayın fırlanması və digər heyrətamiz nişanələr bütün bunların arxasında çox böyük bir iş olması həqiqətinə yönəltməyə, «axirətdə də kordur.» Buyurdu:«Yəni, görmədiyi şeyi müşahidə etməkdə kordur və yolu daha çox azmışdır.»[5]

1927. İmam Sadiq (ə):«Əgər qapının iki tayının birinin üzərində bir halqa olduğunu görəndə, o halqanın boş və mənasız yerə qoyulduğunumu zənn edərsən? Xeyir. Şübhəsiz ki, onun (halqanın) digər bir tayı ilə cütləşib,

---

[1] ət-Tovhid, səh.66 , hədis20
[2] ət-Tovhid, səh.290 , hədis10
[3] Nəhcül-Bəlağənin şərhi, c.20, səh.255
[4] Nəhcül-Bəlağə, xütbə 163
[5] Biharul-Ənvar, c.3, səh.28 , hədis2

bağlanması üçün hazırlandığını dərk edərsən. Buna görə, onun ikinci tayını hazırlayırsan ki, onların cəm olmasından bir mənfəət hasil olsun. Erkək heyvanın mövcudluğu da belədir. Sanki, o dişi fərd üçün hazırlanmış cütün bir tayıdır. Beləliklə, erkəklə dişi bir-biri ilə cütləşirlər, çünki nəslin davamiyyəti və qalması bundan asılıdır. Qırılsın, ümidsiz və bədbəxt olsunlar (maddipərəst) fəlsəfə iddiaçıları. Onların qəlblərinin gözü necə bu heyrətamiz aləmi görmür, hətta, bu aləmdə olan müdrikliyin, elm və məqsədin vucudunu inkar edirlər?»[1]

1928. İmam Sadiq (ə):«Ey Müfəzzəl! İnsanın vucudunda qoyulmuş yemək və yatmaq kimi işlər barəsində düşün… əgər insan bədən rahatlığı və qüvvəsinin bərpası üçün təlabatını (yalnız zehni surətdə) düşünərək (yəni orqanizmin öz tələbatı olmadan) yuxuya getməli olsaydı, bu işdə o qədər ağır tərpənib tənbəllik edərdi ki, nəticədə iş gəlib onun bədəninin taqətdən düşüb, məhv olmasına çatardı.»[2]

**4-Qərarların pozulması və iradələrin sındırılması.**

1929. «Biharul-Ənvar»:«İmam Əlidən (ə)soruşdular ki, Yaradanın varlığını sübut etmək üçün dəlil nədir?» Buyurdu:«Üç şey: halların dəyişməsi, bədən əzalarının təqətdən düşməsi, istək və arzuların pozulması.»[3]

1930. İmam Sadiq (ə) «Allahını nə ilə tanıdın?» sualının cavabında: «Qərarların qarışıb dolaşmasından, arzu və istəklərin pozulmasından. Qərara gəldim, qərarım dolaşığa düşüb həyata keçmədi və iradə göstərdim, iradəm pozulub aradan getdi.»[4]

***634. Təbiət və yaradılışın ona aid olunması***

1931. İmam Sadiq (ə): -Müfəzzəlin «Ey mənim ağam! Bəziləri deyirlər ki, yaradılış təbiətin işidir» sözünün cavabında- «Onlardan soruş ki, bu təbiətin elmi və belə işləri görməyə qüdrəti var, ya yox? Əgər desələr ki, bəli, elmi və qüdrəti var, belə olan surətdə Yaradanı sübut etmək üçün onlara nə mane olur (niyə belə xüsusiyyətləri olan Yaradanın mövcudluğunu təsdiq etmirlər)? Çünki təbiət Onun tərəfindən düzəlib-nizamlanıb və Onun məxluqudur. Əgər desələr ki, təbiət bu işləri kor-koranə, heç bir xəbəri və məqsədi olmadan yerinə yetirir, onda Onun işlərində bir nizam və hikmət göründüyündən (təbiətin) bu əməlin hikmətli bir Yaradanın işi olması məlum olar. Onların təbiət adlandırdığı şey, Allahın yaradılışda və varlıq aləmində icra etdiyi həmən qanundur.»[5]

ιooooooπ

[1] Biharul-Ənvar, c.3, səh.75
[2] Biharul-Ənvar, c.3, səh.78
[3] Biharul-Ənvar, c.3, səh. 55 , hədis29
[4] ət-Tovhid, səh.289 , hədis8
[5] Biharul-Ənvar, c.3, səh.67

**135**

# Əxlaq

***635.Gözəl əxlaq***

1932. Allahın Peyğəmbəri (ə):«İslam gözəl əxlaqdır.»[1]

1933. Allahın Peyğəmbəri (s):«Gözəl əxlaq dinin yarısıdır.»[2]

1934. İmam Əli (ə):«Gözəl əxlaq möminin kitabının sərlövhəsidir.»[3]

1935. İmam Əli (ə):«Gözəl xasiyyət bütün yaxşılıqların mənşəyidir.»[4]

1936. İmam Sadiq (ə):«Gözəl əxlaqdan ləzzətli həyat yoxdur.»[5]

***636. Gözəl əxlaqın səmərələri***

1937. Allahın Peyğəmbəri (s):«Bəndə, hərçənd ibadətdə zəif olsa da, özünün gözəl əxlaqı ilə axirətdə böyük dərəcələrə və ali məqamlara çatar.»[6]

1938. Allahın Peyğəmbəri (s):«Həqiqətən, xoşxasiyyət insan gündüzlər oruc tutan və gecələr ibadət edən kəsin savabına sahibdir.»[7]

1939. Allahın Peyğəmbəri (s):«Əməllər tərəzisində gözəl əxlaqdan ağır bir şey yoxdur.»[8]

1940. Allahın Peyğəmbəri (s):«Sizlərdən mənə ən sevimli və Qiyamət günü ən yaxın olan şəxs ən xoşxasiyyətliniz və ən çox təvazökar olanınızdır.»[9]

1941. Allahın Peyğəmbəri (s):«Əxlaqı daha gözəl olan möminin imanı daha kamildir.»[10]

***637. Gözəl əxlaqın mənası***

1942. İmam Əli (ə):«Gözəl əxlaq üç şeydədir: haram işlərdən uzaqlaşmaqda, halal dalınca getməkdə, ailənin asayişini və rifahını təmin etməkdə.»[11]

1943. İmam Əli (ə):«Salam vermək gözəl əxlaqdan irəli gəlir.»[1]

---

[1] Kənzul-Ummal, hədis 5225
[2] əl-Xisal, səh.30 , hədis106
[3] Biharul-Ənvar, c.71. səh.392 , hədis59
[4] Ğurərul-Hikəm, hədis 4857
[5] İləluş-Şəraye, səh.560, hədis1
[6] Məhcətul-Beyza, c.5, səh.93
[7] əl-Kafi c.2, səh.100 , hədis5
[8] Uyune Əxbare Rza. (ə) c.2, səh.37 , hədis98
[9] Biharul-Ənvar, c.71, səh.385 , hədis26
[10] Əmali-Tusi, səh.140 , hədis227
[11] Biharul-Ənvar, c.71, səh.394 , hədis63

1944. İmam Sadiq (ə) -hədd və gözəl əxlaqın mənası barədə verilən sualın cavabında: «Gözəl əxlaqlı insan yumşaq xasiyyətli, mehriban, danışığında saf və ədəbli olan, qardası ilə mehriban rəftar edən kəsdir.»[2]

***638. Ali əxlaqi sifətlər***

1945. Allahın Peyğəmbəri (s):«Allah-taala gözəl xasiyyətləri sevər və alçaq xasiyyətlərdən xoşlanmaz.»[3]

1946. İmam Əli (ə):«Sizə, əxlaqi kəramətləri kəsb etməyi tövsiyə edirəm. Çünki onlar yüksəliş və başıucalığın mənşəyidir. Pis xasiyyətlərdən uzaqlaşın, Çünki onlar şərəfli insanları alçaq edər, əzəmət və alicənablığı aradan götürər.»[4]

1947. İmam Əli (ə):«Əxlaqi kəramətləri əldə etmək yolunda ciddi və sabitqədəm olun.»[5]

***639. Əxlaqi kəramətlərin izahı.***

1948. Allahın Peyğəmbəri (s):«Həqiqətən, mən əxlaqi kəramətləri kamilliyə çatdırmaq üçün göndərilmişəm.»[6]

1949. İmam Sadiq (ə):«Allah-taala öz peyğəmbərinə (s) əxlaqi kəramətləri ilə imtiyaz verdi. Beləliklə, siz də özünüzü imtahan edin. Əgər bu xoş xasiyyətlərdən sizdə varsa, Allaha şükr edin və bu kəramətlərin artmasını diləyin.» Sonra onlardan onunu saydı:  əminlik, qənaət, səbr, şükr, dözümlülük, xoş xasiyyət, səxavət, qeyrət, şücaət, mərdlik.»[7]

1950. İmam Sadiq (ə) -əxlaqi kəramətlər barədə: «Sənə zülm edən kəsə güzəştə getmək. Səninlə əlaqəni kəsən şəxslə əlaqəni bərpa etmək. Səndən bir şeyi əsirgəyənə bəxşiş etmək. Haqqı danışmaq, hərçənd sənə zidd olsa da.»«[8]

***640. Ən gözəl əxlaqi kəramətlər.***

1951. İmam Əli (ə):«Ən gözəl əxlaqi kəramət isardır.»[9]

1952. İmam Əli (ə):«Ən yaxşı əxlaqi kəramət güclünün (intiqam almaqdan) güzəştə getməsi və özünün ehtiyacı olan şəxsin bəxşiş verməsidir.»[10]

1953. İmam Əli (ə):«Ən üstün kəramət və səxavət, neməti (bir kəsə) tamamlamaqdır.»[11]

***641. Gözəl əxlaqın nəticələri***

1954. Allahın Peyğəmbəri(s):«Gözəl əxlaq dostluq ipini möhkəmlədər.»[12]

---

[1] Ğurərul-Hikəm, hədis 3404
[2] Məani əl-Əxbar, səh.253 , hədis1
[3] Kənzul-Ummal, hədis 5225
[4] Biharul-Ənvar, c.78, səh.53 , hədis79
[5] Ğurərul-Hikəm, hədis 4712
[6] Kənzul-Ummal, hədis 5217
[7] Əmali-Səduq, səh.118 , hədis8
[8] Məani əl-Əxbar, səh.191 , hədis1
[9] Ğürərul-Hikəm, hədis 4953
[10] Ğurərul-Hikəm, hədis 3165
[11] Ğurərul-Hikəm, hədis 2983
[12] Biharul-Ənvar, c.77, səh.148 , hədis71

1955. İmam Əli (ə):«Əxlaqını gözəl et ki, Allah sənin hesabını asan etsin.»[1]

1956. İmam Sadiq (ə):«Gözəl əxlaq ruzini artırar.»[2]

1957. İmam Sadiq (ə):«Yaxşılıq etmək və gözəl əxlaq evləri abad, ömürləri uzun edər.»[3]

1958. İmam Sadiq (ə):«Günəş buzu əridən kimi, gözəl əxlaq da günahları əridər.»[4]

### *642. Pis əxlaq*

1959. Allahın Peyğəmbəri (s):«Pis əxlaq, bağışlanmayan günahdır.»[5]

1960. Allahın Peyğəmbəri(s):«Həqiqətən, bəndə özünün pis əxlaqına görə Cəhənnəmin ən aşağı dərəcəsinə enər.»[6]

1961. «Biharul-ənvar»:«Peyğəmbərə (s) ərz etdilər:«Filan qadın gündüzləri oruc tutur, gecələr ibadət edir, amma bədrəftardır. Qonşularına (acı) dili ilə əziyyət verir.» Həzrət buyurdu:«Onda bir xeyir yoxdur, o, Cəhənnəmlikdir.»[7]

1962. İmam Əli (ə):«Pis əxlaq ruzinin azalmasına və ruhun işgəncəyə məruz qalmasına səbəbdir.»[8]

1963. İmam Sadiq (ə):«Sirkə balı xarab etdiyi kimi, pis əxlaq da əməli xarab edər.»[9]

### *643. Pis əxlaqın aqibəti*

1964. İmam Əli (ə):«Pis əxlaq sahibinin ailəsi onun əlindən sıxıntıya düşüb bezar olar.»[10]

1965. İmam Əli (ə):«Hövsələsiz (və tündxasiyyət) olanın rahatlığı az olar.»[11]

1966. İmam Əli (ə):«Əxlaqı pis olanın ruzisi az olar.»[12]

1967. İmam Sadiq (ə) :«Ət, ət gətirər. Kim qırx gün ət yeməsə, əxlaqı pis olar.»[13]

### *644. Ən üstün əxlaq*

1968. İmam Əli (ə):«Ən çox ehtirama layiq olan xasiyyət səxavət, faydası daha əhatəli olan xasiyyət isə ədalətdir.»[14]

---

[1] Əmali əs-Səduq, səh.174, hədis 9
[2] Biharul-Ənvar, c.71, səh.396 , hədis77
[3] Biharul-Ənvar, səh.395 , hədis73
[4] əl-Kafi c.2, səh.100 , hədis 9 və7
[5] Məhcətul-Beyzə, c.5, səh 93
[6] Məhcətul-Beyzə, səh.93
[7] Biharul-Ənvar, c.71, səh.394 , hədis63
[8] Ğurərul-Hikəm, hədis 5639
[9] əl-Kafi, c.2, səh.321 , hədis1
[10] Ğurərul-Hikəm, hədis 8595
[11] Ğurərul-Hikəm, hədis 9192
[12] Ğurərul-Hikəm, hədis 8023
[13] əl-Kafi, c.6, səh.309 , hədis1
[14] Ğurərul-Hikəm, hədis 3219

1969. İmam Əli (ə):«Ən şərafətli xasiyyətlər təvazökarlıq, dözümlülük və mehribanlıqdır.»[1]

1970. İmam Baqir (ə) «ən üstün əxlaqi kəramət hansıdır?» sualının cavabında buyurub: «Səbr və səxavət.»[2]

### *645. Əxlaqi keyfiyyətlərin əlaqəliliyi*

1971. İmam Əli (ə):«Əgər kimsədə bir gözəl xasiyyət olarsa, ondan digər gözəl xasiyyətlərin də üzə çıxmasını gözləyin.»[3]

1972. İmam Sadiq (ə):«Gözəl əxlaqi xüsusiyyətlər bir-birinə bağlıdır.»[4]

ιοooooοπ

---

[1] Ğurərul-Hikəm, hədis 3223

[2] Biharul-Ənvar, c.36, səh.358 , hədis228

[3] Nəhcül-Bəlağə, hikmət 445

[4] Əmali-Tusi, səh.301 , hədis597

# 136

# Şərab

***646. Şərab***

1973. Allahın Peyğəmbəri (s):«Şərab və iman heç vaxt bir kəsin daxilində, ya qəlbində bir yerdə olmaz.» [1]

1974. Allahın Peyğəmbəri (s):«Şərab, pisliklərin və böyük günahların anasıdır.»[2]

1975. Allahın Peyğəmbəri (s):«Bütün pisliklər bir evə yığışıb və bu evin açarı şərab içməkdir.»[3]

***647. Şərabın haram edilməsinin səbəbi***

1976. İmam Əli (ə):«Allah-taala əqli qorumaq üçün şərabxorluğun tərk olunmasını vacib etdi.»[4]

1977. İmam Rza (ə):«Allah-taala şərabı haram etdi. Ona görə ki, şərab pozğunluq gətirər, şərab onu içənlərin əqlini dəyişdirir, onları Allahı inkar etməyə, Allaha və Onun peyğəmbərinə töhmət vurmağa, böhtan atmağa vadar edir. Eləcə də, şərab içənlər fəsad və qətl kimi (cinayət) əməllər törədirlər.»[5]

***648. Şərabxorluğun aqibəti***

1978. İmam Əli (ə):«Sərxoş, Allahın görüşünə bütpərəst kimi gələcək.»[6]

1979. İmam Əli (ə):«Məstedici içki içən hər bir kəsin qırx gecə və gündüz namazı qəbul olunmur.»[7]

***649. Şərabxorla rəftar tərzi***

1980. Allahın Peyğəmbəri (s):«Əgər şərabxor söz desə, onu təsdiq etməyin, elçiliyə gəlsə ona qız verməyin, xəstələnsə ona baş çəkməyin, ölsə dəfnində iştirak etməyin və ona əmanət tapşırmayın.» [8]

1981. Allahın Peyğəmbəri (s):«Şərabxor kükürdə bənzəyir. Ona yaxın

---

[1] Biharul-Ənvar, c.79, səh.152, hədis 46
[2]Kənzul-Ummal, hədis 13181
[3]Biharul-Ənvar, c.79, səh.148
[4] Nəhcül-Bəlağə, hikmət 445
[5] İyune Əxbare Rza (ə), c.2, səh.98 , hədis2
[6] əl-Xisal, səh.632
[7] əl-Xisal, səh.632
[8] Biharul-Ənvar, c.79, səh.127

getməyin ki, kükürd pis iy verdiyi kimi, o da sizi pis qoxulu edər.»[1]

***650. Şərabxorun qəbrdən (Qiyamət günü) qalxması***

1982. İmam Sadiq (ə):«Bu dünyada məstedici içkilər içən kəslər təşnə ölərlər, təşnə halında qəbrdən qalxar və təşnə halda da Cəhənnəmə gedərlər.»[2]

***651. Şərabxorluğu tərk etməyə həvəsləndirmək***

1983. Allahın Peyğəmbəri (s):«Hər kəs Allahdan qeyrisi üçün (də olsa) şərabxorluğu tərk edərsə, Allah-taala ona (Cənnətdə) pak və möhürlənmiş şərabdan içirdər». Əli (ə) ərz etdi:«Allahdan qeyrisi üçün?» Buyurdu:«Bəli, Allaha and olsun, özünü (sağlamlığını) qorumaq üçün.»[3]

***652. Şərab təsiri göstərən hər şeyin qadağan olunması***

1984. İmam Kazim (ə):«Allah-taala şərabı onun adına görə deyil, nəticələrinə görə haram etmişdir. Buna əsasən, şərabın nəticələrinə malik olan hər bir şey də şərabdır (hökmündədir).»[4]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.79, səh.150, hədis 64
[2] Səvabul-Əmal, səh.290 , hədis5
[3] Biharul-Ənvar, c.79, səh.150 , hədis64
[4] əl-Kafi, c.6, səh.412 , hədis2

**137**

# Qorxu

***653. Qorxu. (Allah qorxusu)***

1985. Allahın Peyğəmbəri (s):«Hikmətin başı Allah qorxusudur.»[1]

1986. Allahın Peyğəmbəri (s):«Hamıdan çox Allahdan qorxan kəs, Allah yanında ən ali məqam sahibi olan insandır.»[2]

1987. Allahın Peyğəmbəri (s):«Üç şey insana nicat verər: …və gizlində Allahdan sanki Onu görürmüş kimi qorxmaq. Çünki sən Onu görməsən də, O səni görür.»[3]

1988. Allahın Peyğəmbəri (s):«Allahı daha çox tanıyan, Allahdan daha çox qorxar.»[4]

1989. İmam Əli (ə):«Allah qorxusu, Allahı tanıyanların köynəyidir.»[5]

1990. İmam Səccad (ə):«Ey Adəm övladı! Allah qorxusu sənin altdan geydiyin paltar və qəm-qüssə üstdən geyindiyin geyim olanadək daim xeyir-bərəkət içində olacaqsan.»[6]

***654. Mömin iki qorxu arasında yaşayır***

1991. İmam Sadiq (ə):«Mömin iki qorxu arasında yaşayır: Keçmişdə etdiyi günaha görə qorxur və Allahın həmin günahları bağışlayıb bağışlamadığını bilmir. Eləcə də, qalan ömrünə görə qorxur və bilmir ki, bu müddətdə ölümə səbəb olan hansı gunahları edəcək. Beləliklə, mömin daim qorxu içindədir və qorxudan başqa heç nə onu islah etməz.»[7]

***655. Mömin qorxu və ümidlə yaşayır***

1992. Allahın Peyğəmbəri (s):«Əgər Allahın rəhmətinin ölçüsünü bilsəydiniz, ona arxalanıb az bir əməldən başqa heç nə etməzdiniz. Əgər Allahın qəzəbinin ölçüsünü bilsəydiniz, heç vaxt nicat tapmayacağınızı düşünərdiniz.»[8]

---

[1] Biharul-Ənvar, c.77, səh.133 , hədis43
[2] Biharul-Ənvar, c.77, səh.180 , hədis10
[3] Biharul-Ənvar, c.70, səh.7 , hədis5
[4] Biharul-Ənvar, səh. 393 , hədis64
[5] Ğurərul-Hikəm, hədis 664
[6] Əmali-Tusi, səh.115 , hədis176
[7]əl-Kafi, c.2, səh.71, hədis 12
[8] Kənzul-Ummal, hədis 5894

1993. İmam Sadiq (ə):«Allaha elə ümidvar ol ki, səndən günah etmək qorxusunu götürməsin və Allahdan elə qorx ki, səni Onun rəhmətindən məyus etməsin.»[1]

1994. İmam Sadiq (ə) :«Atam buyurardı:Elə bir mömin bəndə yoxdur ki, qəlbində iki nur olmasın: qorxu nuru və ümid nuru. Əgər onların hər ikisi tərəziyə qoyulsa, biri-digərindən ağır gəlməz.»[2]

### *656. Allahdan qorxanın əlamətləri*

1995. İmam Əli (ə) :«Öz Rəbbindən qorxan kəs zülm etməkdən çəkinər.»[3]

1996. İmam Sadiq (ə):«Bəndə, qorxan və ümidvar olmayınca mömin olmaz. Qorxu və ümid onu (xeyir) əmələ çəkməyincə, qorxan və ümidvar olmaz.»[4]

1997. İmam Sadiq (ə):«Qorxan kəs odur ki, qorxu onunçün danışan dil saxlamasın.»[5]

### *657.Qorxunun izahı*

1998. İmam Əli (ə):«Allahın zülmündən qorxmayın (Çünki o heç kəsə zülm etməz), özünüz özünüzə zülm etməkdən qorxun.»[6]

1999. İmam Əli (ə):«Öz günahından başqa heç nədən qorxma, öz Rəbbindən başqa heç kəsə ümid bağlama.»[7]

2000. İmam Əli (ə):«Allahdan qorxduğun zaman Ona tərəf qaçırsan, məxluqdan qorxduğun zamansa ondan qaçırsan.»[8]

### *658. Qorxunun nəticələri*

2001. Allahın Peyğəmbəri (s):«(Yolun təhlükəsindən və quldurlardan) Qorxan kəs gecə vaxtı hərəkət edər. Gecə hərəkət edən kəs mənzil başına çatar. Bilin ki, Allahın malları çox bahalıdır. Bilin ki, Allahın malı Cənnətdir.»[9]

2002. Allahın Peyğəmbəri (s):«Allah-taala buyurmuşdur:Öz izzəti cəlalıma and olsun, bəndəm üçün iki qorxunu və iki asayişi birlikdə yaratmaram. Beləliklə, əgər (bəndə) dünyada özünün Məndən amanda olduğunu bilsə, Qiyamət günü onu qorxudaram və əgər dünyada Məndən qorxarsa, Qiyamət günü ona asayiş bəxş edərəm.»[10]

2003. İmam Əli (ə):«Qorxu nəfsi günahlardan çəkindirər və onun itaətsizliyinin qarşısını alar.»[11]

2004. İmam Əli (ə) :«Qorxusu (və ehtiyatı) çox olan az ziyan görər.»[1]

---

[1] Biharul-Ənvar, c.70, səh.384 , hədis39
[2] əl-Kafi, c.2, səh.67 , hədis1
[3] Biharul-Ənvar, c.75, səh.309, hədis 3
[4] Biharul-Ənvar, c.70, səh.392, hədis 61
[5] Biharul-Ənvar, c.78, səh.244, hədis 54
[6] Ğurərul-Hikəm, hədis 10234
[7] Ğurərul-Hikəm, hədis 10161
[8] Ğurərul-Hikəm, hədis 4028
[9] Kənzul-Ummal, hədis 5885
[10] Biharul-Ənvar, c.70, səh.379, hədis 28
[11] Ğurərul-Hikəm, hədis 1987

2005. İmam Əli (ə):«Qorxunun meyvəsi asayişdir.»[2]

2006. İmam Həsən (ə):«Kim Allaha bəndəlik etsə, Allah bütün əşyaları onun bəndəsi edər.»[3]

2007. İmam Sadiq (ə):«Kim Allahdan qorxsa, Allah hər şeyi ondan qorxudar və kim Allahdan qorxmasa. Allah-taala onu hər şeydən qorxudar.»[4]

2008. İmam Hadi (ə):«Kim Allahdan qorxsa hamı ondan qorxar.»[5]

### *659. Allahdan qeyrisindən qorxmaqdan çəkindirmək*

2009. Allahın Peyğəmbəri (s):«Allahın Adəm övladına hökmran təyin etdiyi elə bir kəs olmayıb ki, Adəm övladı ondan qorxmasın. Əgər Adəm övladı Allahdan qeyrisindən qorxmasaydı, Allah-taala özündən başqa heç kəsi onun üzərində hakim təyin etməzdi. Adəm övladı ümid etdiyi kəsdən başqa heç kəsə tapşırılmadı. Əgər Adəm övladı Allahdan qeyrisinə ümid bəsləməsəydi, Allahdan başqa bir kəsə tapşırılmazdı.»[6]

2010. Allahın Peyğəmbəri (s):«Xoş o kəsin halına ki, Allah qorxusu onu insanlardan qorxmaqdan çəkindirmişdir.»[7]

2011. Allahın Peyğəmbəri (s):«Allah yolunda heç bir məzəmmət edənin danlağından ürəyinə qorxu salma.»[8]

### *660. Bir şeydən qorxanda münasib rəftar*

2012. İmam Əli (ə):«Bir işdən qorxan zaman özünü onun ağuşuna at. Çünki o işdən bərk qorxmaq, o işə başlamaqdan daha çətin və daha çox ziyanlıdır.»[9]

2013. İmam Əli (ə):«İşin çətinliyindən və ağırlığından qorxanda onun müqabilində dəyanət və əyilməzlik göstər ki, o iş sənə ram olsun. Hadisələr qarşısında çıxış yolu ara ki, işlərin sənə asan olsun.»[10]

### *661. Müxtəlif*

2014. İmam Əli (ə):«Heç kəsi qorxutmayan kəs, heç vaxt qorxmaz.»[11]

2015. İmam Sadiq (ə):«Qorxduğun bir yerə daxil olan zaman bu ayəni oxu:«Rəbbi ədxilni mudxələ sidqin vəəxricni muxrəcə siqgin vəcəl li min lədunkə sultanən nəsira.»[12] (Yəni, ey Rəbbim. Məni həqiqi girişdən daxil və həqiqi çıxış yerindən xaric et, öz tərəfindən mənim üçün bir qüdrətli köməkçi təyin et) Qorxduğun bir kəsi gördüyün zaman ayətəl -kürsü[13] oxu.»[1]

---

[1] Ğurərul-Hikəm, hədis 8036
[2] Ğurərul-Hikəm, hədis 4591
[3] Tənbihul-Xəvatir, c.2, səh.108
[4] əl-Kafi c.2, səh.68 , hədis3
[5] Biharul-Ənvar, c.77, səh.366 , hədis2
[6] Kənzul-Ummal, hədis 5909
[7] Biharul-Ənvar, c.77, səh.126 , hədis32
[8] əl-Xisal, səh.526 , hədis13
[9] Nəhcül-Bəlağə, hikmət 175
[10] Ğurərul-Hikəm, hədis 41108
[11] Ğurərul-Hikəm, hədis 8955
[12] İsra, ayə 80
[13] Bəqərə, ayə 255-257

2016. İmam Rza (ə):«Azda (günahda) Allahdan qorxmayan, çox (günahda) da Ondan qorxmaz.»[2]

ιooooooπ

[1] Biharul-Ənvar, c.76, səh.247, hədis 37
[2] Biharul-Ənvar, c.71, səh.174, hədis 10

# 138

# Xəyanət

***662. Xəyanət***

2017. Allahın Peyğəmbəri (s):«Sənə xəyanət edənə xəyanət etmə ki, sən də onun kimi olarsan.»[1]

2018. Allahın Peyğəmbəri (s):«Əmanətə xəyanət edən bizdən deyil.»[2]

2019. İmam Əli (ə):«Xəyanət ikiüzlülüyün mənşəyidir.»[3]

2020. İmam Sadiq (ə) :«Mömin, xəyanət və yalandan başqa, hər xasiyyəti götürə bilər.»[4]

2021. Müaviyyə ibn Əmmar:«İmam Sadiqə (ə) ərz etdim:«Mən bir nəfərə müəyyən məbləğ pulu əmanət verirəm, o isə, ona bir şey tapşırdığımı inkar edir. Bir müddət sonra o mənə mal tapşırır. Belə olan halda mən ona tapşırdığım (və mənə vermədiyi) pulun əvəzində bu malı özümə götürə bilərəmmi?» Buyurdu:«Xeyr. Bu xəyanətdir.»[5]

2022. Əbu Səmamə:«İmam Baqirin (ə) xidmətinə gəlib ərz etdim:Sənə qurban olum, mən Məkkənin yaxınlığına köçmək istəyirəm və mürciə[6] borcluyam, nə buyurursan?» Buyurdu:«Öz borcunu qaytar. Ehtiyatlı ol ki, boynunda borc qalmadan Rəbbinin görüşünə gedəsən. Çünki mömin xəyanət etməz.»[7]

***663. Xain və xəyanətin mənası***

2023. Allahın Peyğəmbəri (s):«Din qardaşının sirrini ifşa etmək xəyanətdir. Buna görə bu işdən uzaqlaş.»[8]

2024. Allahın Peyğəmbəri (s):«Xəyanətkarın dörd nişanəsi var: rəhman olan Allaha itaətsizlik etmək: qonşularına əziyyət vermək, hamıya nifrət etmək, özbaşına və asi adamlara qoşulmaq.»[9]

2025. İmam Əli (ə):«Xəyanətkar, özünü Allahdan qeyrisi ilə məşğul edən və bugünü dünənindən pis olandır.»[1]

---

[1] Biharul-Ənvar, c.103, səh.175, hədis 3
[2] Biharul-Ənvar, c.75, səh.172, hədis14
[3] Ğurərul-Hikəm, hədis 969
[4] əl-İxtisas, səh.231
[5] Nurus-Sədəleyn. c.2, səh.144 , hədis68
[6] Mür – İslam dinindən dönən və kafir hökmündə olan bir məzhəbdir.
[7] İləluş-Şəraye, səh.528, hədis 7
[8] Biharul-Ənvar, c.77, səh.89, hədis 3
[9] Tuhəful-Uqul, səh.22

2026. İmam Sadiq (ə):«Bizim dostların hər birindən onun din qardaşı hər hansı bir çətinliyi ilə əlaqədar kömək istəsə və o da ona kömək etmək üçün var qüvvəsi ilə çalışmasa, Allaha, peyğəmbərə və möminlərə xəyanət etmişdir.»[2]

2027. İmam Cavad (ə):«İnsanın xəyanətkarlığına, xainlərin əmanətini saxlaması kifayət edər.»[3]

***664. Xəyanətin zirvəsi***

2028. İmam Əli (ə):«Səmimi dosta xəyanət etmək və əhd-peymanları pozmaq xəyanətin zirvəsidir.»[4]

2029. İmam Əli (ə):«Ən pis  xəyanətlərdən biri, tapşırılan şeylərə xəyanət etməkdir.»[5]

2030. İmam Əli (ə):«Ən böyük xəyanət xalqın xəyanəti və ən pis hoqqabazlıq rəhbərlərin hoqqabazlığıdır.»[6]

ιoooooοπ

---

[1] Ğurərul-Hikəm, hədis 2013

[2] Biharul-Ənvar, c.75, səh.175, hədis 7

[3] Biharul-Ənvar, c.78, səh.364, hədis 4

[4] Ğurərul-Hikəm, hədis 6374

[5] Ğurərul-Hikəm, hədis 9310

[6] Nəhcül-Bəlağə, məktub 26

**139**

# Xeyir

***665. Yaxşılıq***

2031. Allahın Peyğəmbəri (s):«Yaxşılıq əkən tezliklə yaxşılıq biçər.»[1]

2032. İmam Əli (ə):«Xeyir əməl əbədi qalan qazanc, saf və təravətli meyvədir.»[2]

2033. İmam Əli (ə):«Xeyir ağacı əkən ondan ən şirin meyvələr dərər».[3]

2034. İmam Əli (ə):«Kim xeyirli bir iş görərsə, bu işin nəticəsi hamıdan əvvəl onun özünə yetişər.»[4]

2035. İmam Əli (ə):«Yaxşı iş, pis işdən asandır.»[5]

**666. Xeyirlərin toplusu**

2036. Allahın Peyğəmbəri (s):«Allahdan qorxmaq bütün xeyirlərin toplusudur.»[6]

2037. İmam Əli (ə):«Üç şey xeyirlərin cəmidir: nemət bəxş etmək, əhd-peymana sadiq olmaq və sileyi-rəhm.»[7]

2038. İmam Əli (ə):«Əbədi qalan şeylərə əməl etmək və yox olub aradan gedən şeyləri alçaq bilmək bütün xeyirlərin cəmidir.»[8]

2039. İmam Əli (ə):«Allaha xatir dostluq və Allaha xatir düşmənçilik etmək, Allaha xatir sevmək və Allaha xatir nifrət etmək bütün xeyirlərin cəmidir.»[9]

2040. İmam Səccad (ə):«Bütün xeyirləri, tamah gözünü xalqın mal-dövlətindən çəkməkdə gördüm.»[10]

2041. İmam Səccad (ə):«Bütün xeyir və yaxşılıqlar nəfsi saxlamaqdadır.»[11]

---

[1] Biharul-Ənvar, c.77, səh.76, hədis 3
[2] Ğurərul-Hikəm, hədis 6545
[3] Ğurərul-Hikəm, hədis 6442
[4] Ğurərul-Hikəm, hədis 8177
[5] Ğurərul-Hikəm, hədis 1199
[6] Tənbihul-Xəvatir, c.2, səh.122
[7] Ğurərul-Hikəm, hədis 4675
[8] Ğurərul-Hikəm, hədis 4735
[9] Ğurərul-Hikəm, hədis 4781
[10] Biharul-Ənvar, c.73, səh.171, hədis 10
[11] Tühəful -Uqul, səh.278.

***667. Dünya və axirət xeyirlərinə yetişməyin amilləri***

2042. Allahın Peyğəmbəri (s):«Dörd şey kimə verilərsə dünya və axirət xeyirləri ona verilmişdir: dözümlü bədən, Allahı zikr edən dil, şükr edən qəlb və ləyaqətli zövcə.»[1]

2043. İmam Əli (ə):«Dünya və axirətin xeyri əməli saleh insanlarla sirdaşlıq və dostluq etməkdə cəm olmuşdur.»[2]

2044. İmam Əli (ə) :«Kimdə üç xislət olarsa dünya və axirətin xeyirləri onun ruzisi olmuşdur. Bunlar Allahın qəzavü qədərinə razı olmaq, çətinlik və bəlada səbr göstərmək, rahatlıq və rifahda şükr etməkdir.» [3]

2045. İmam Əli (ə):«Sübhan olan Allah bəndəyə dünya və axirət xeyirlərindən hər bir şeyi, yalnız onun gözəl əxlaqına və pak niyyətinə görə bəxş etmişdir.»[4]

2046. İmam Əli (ə):«Kimə bu dörd xislət verilibsə dünya və axirətin xeyirləri ona verilmişdir: doğru danışmaq, əmanətdarlıq, bətnini haramdan qorumaq və gözəl əxlaq.»[5]

***668. Xeyrin izahı***

2047. İmam Əli (ə): «Mal-dövlətin və övladların çoxluğu xeyir və yaxşılıq demək deyil. Əslində, xeyir sənin dərin elmə və böyük səbrə malik olmağın, Rəbbinə ibadət etdiyinə görə xalq arasında başucalığın, xeyir iş gördüyün zaman Allaha şükr etməyin və pislik edəndə Rəbbindən bağışlanmağını diləməyindir.»[6]

2048. İmam Həsən (ə): «Onda heç bir şərr və pisliyin olmadığı xeyir, nemətlərə şükr etmək və çətinliklər qarşısında səbr göstərməkdir.»[7]

***669. Allah bəndənin xeyrini istədikdə...***

2049. Allahın Peyğəmbəri (s): «Allah bəndənin xeyrini istəyəndə onu dində fəqih və dərrakəli, dünyaya etinasız və öz eyblərini görən edər.»[8]

2050. Allahın Peyğəmbəri (s): «Allah bəndənin xeyrini istəyən zaman, onu yuxuda məzəmmət edər.»[9]

2051. Allahın Peyğəmbəri (s): «Allah bəndənin xeyrini istəyən zaman onu bala çəkər.» Dedilər:«Onu necə bala çəkər?» Buyurdu:«Ölümündən qabaq ona yaxşı bir iş görməyi nəsib edər və sonra onun canını alar.»[10]

---

[1] Mustədrəkul-Vəsail, c.2, səh.414, hədis 2338
[2] Biharul-Ənvar, c.74, səh.178, hədis 17
[3] Ğurərul-Hikəm, hədis 4670
[4] Ğurərul-Hikəm, hədis 9670
[5] Ğurərul-Hikəm, hədis 2142
[6] Nəhcül-Bəlağə, hikmət 94
[7] Tuhəful-Uqul, səh.234
[8] Biharul-Ənvar, c.77, səh.80, hədis3
[9] Kənzul-Ummal, hədis 30765
[10] Kənzul-Ummal, hədis 30763

2052. İmam Əli (ə): «Allah bəndənin xeyrini istədikdə ona qənaətcillik nemətini bəxş edər və zövcəsini ləyaqətli edər.»[1]

2053. İmam Sadiq (ə): «Allah bəndənin xeyrinin istəyən zaman, onun qəlbində ağ nöqtə yaradar. Bunun da nəticəsində qəlb haqqın tələbinə qalxıb dolanmağa başlayar. Bu zaman, o, yuvasına çatan quşdan da tez sizin əqidənizə qovuşar.»[2]

### *670. Allah bir xalqın xeyrini istəyən zaman...*

2054. Allahın Peyğəmbəri (s): «Allah bir xalqın xeyrini istəyən zaman onlarda dinini tanıyanların sayını artırıb cahillərinin sayını azaldar. Beləliklə, fəqih bir söz söyləyəndə özünə tərəfdar tapar və cahil bir söz deyən zaman məğlub olar.»[3]

2055. Allahın Peyğəmbəri (s): «Allah-taala bir xalqın yaşamasını və inkişafını istəyəndə onlara qənaətcillik və şərafət nemətini bəxş edər.»[4]

2056. Allahın Peyğəmbəri (s): «Allah-taala bir ailənin xeyrini istəyən zaman, onları (bu ailənin üzvlərini) dində agah və dərrakəli edər, kiçikləri böyüklərinə hörmətlə yanaşar, ailədə bir-birinə qarşı mülayim olmağı və nəvaziş göstərməyi, ailə xərclərində qənaətcilliyi və israf etməməyi onlara nəsib edər. Onları öz eyblərindən agah edər ki, nöqsanlarından əl çəkib tövbə etsinlər. Əgər Allah-taala bir ailənin xeyrini istəməsə onları öz başına buraxar.»[5]

### *671. Xeyir işlərdə tələsməyə təşviq*

2057. Allahın Peyğəmbəri (s) : «Xeyir işin qapısı bir kəsin üzünə açılan zaman, həmin şəxs əlinə düşən bu fürsətdən istifadə etməyə tələsməlidir. Çünki bu qapının nə vaxt onun üzünə bağlanacağını bilmir.»[6]

2058. Allahın Peyğəmbəri (s): «Allah-taala tez bir müddətdə həyata keçən xeyir işi sevər.»[7]

2059. İmam Əli (ə): «Xeyir işi tez yerinə yetirməyə tələsin ki, başqa bir işlə məşğul olduğunuza görə o (xeyir) işdən qalmayasız.»[8]

2060. İmam Sadiq (ə): «Atam buyurardı:«Elə ki, xeyirli bir işi görmək niyyətində oldun, onu yerinə yetirməyə tələs. Çünki başına nə gələcəyini bilmirsən.»[9]

2061. Allahın Peyğəmbəri (s): «Ən yaxşı işlər vacib əməllər, ən pis işlər isə bidətlərdir.»[10]

---

[1] Ğurərul-Hikəm, hədis 4115
[2] Biharul-Ənvar, c.78, səh.292, hədis 2
[3] Kənzul-Ummal, hədis 28692
[4] Əd-Durrul Mənsur, c.3, səh.270
[5] Kənzul-Ummal, hədis 28691
[6] Biharul-Ənvar, c.77, səh.165, hədis 2
[7] əl-Kafi, c. 2, səh.142, hədis 4
[8] əl-Xisal, səh.620, hədis 10
[9] əl-Kafi, c.2, səh.142, hədis 3
[10] əl-İxtisas, səh.342

2062. Allahın Peyğəmbəri (s): «İşlərin ən xeyirlisi aqibəti ən xeyirli olanlarıdır.» [1]

2063. İmam Əli (ə): «İşlərin ən yaxşısı, başlanğıcı asan, sonu xoşa gələn və nəticələri bəyənilən işlərdir.»[2]

2064. İmam Kazim (ə): «İşlərin ən yaxşısı onların orta həddə olanıdır.»[3]

***673.Kiçik xeyir əməli az hesab etməyin qadağan olunması***

2065. İmam Əli (ə) : «Xeyir işi yerinə yetirin və onların heç birini kiçik sanmayın. Çünki onun kiçiyi böyük, azı da çoxdur.»[4]

2066. İmam Sadiq (ə): «Heç vaxt yaxşı əməli kiçik sayma. Çünki sabah (Qiyamət günü) sən onu görəcəksən və o? səni şad edəcək.»

***674. Yaxşılıq və pislik meyarı***

2067. İmam Əli (ə): «Yaxşılıq və pislik yalnız insanlarla tanınar. Yaxşılığı tanımaq istəsən yaxşılıq et ki, onun əhlini tanıyasan. Pisliyi tanımaq istəsən pislik et, onda onun da əhlini tanıyarsan.»[5]

***675. Xeyirxahların sifətləri***

2068. «Biharul-Ənvar»: «Merac hədisində deyilir: «Ey Əhməd! Həqiqətən, xeyir və axirət əhli utancaq və çox həyalı insanlardır. Onların cahillikləri az, mənfəətləri çox, məkrləri azdır, insanlar onlardan əziyyət görməzlər. Özləri özlərinə görə əziyyət çəkərlər, danışıqları düşünülmüşdür, öz nəfslərinin hesabatını apararlar və onu (nəfslərini) məzəmmət edərlər. Gözləri yuxuya gedər, amma qəlbləri oyaq olar, gözləri ağlardır, qəlbləri Allahı xatırlamaqla məşğuldur, başqa insanlar qafillərdən hesab olunan zaman onlar Allahı xatırlayanlardan sayılar... Heç bir şey, bir an olsa belə, onları Allahı xatırlamaqdan saxlamaz. Onlar nə çox yemək, nə çox danışmaq, nə də çox geyinmək həvəskarıdır. İnsanlar onların yanında ölü, Allah onların nəzərində həmişə diri və qəyyumdur.»[6]

***676. Yaxşılıqdan daha yaxşı***

2069. İmam Əli (ə) : «Yaxşılıqdan, yalnız onun mükafatı daha yaxşıdır.»[7]

2070. İmam Sadiq (ə): «Doğru danışmaqdan daha yaxşı doğru danışandır. Yaxşılıqdan daha yaxşı yaxşılıq edəndir.»[8]

---

[1] Əmali Saduq, səh.395, hədis 1
[2] Ğurərul-Hikəm, hədis 5032
[3] Biharul-Ənvar, c.76, səh.292, hədis 16
[4] Nəhcül-Bəlağə, hikmət 422
[5]Biharul-Ənvar, c.71, səh.182, hədis 37
[5]Biharul-Ənvar, c.78, səh, 41, hədis 26
[6]Biharul-Ənvar, c.77, səh.24, hədis 6
[7] Ğurərul-Hikəm, hədis 7487
[8] Əmali-Tusi, səh.223, hədis 385

2071. İmam Hadi (ə): «Yaxşılıqdan daha yaxşısı yaxşılıq edəndir. Gözəllikdən daha gözəli gözəl danışandır. Elmdən daha yaxşısı elm sahibidir.»[1]

**677. Xeyir işə yol göstərməyin dəyəri.**

2072. Allahın Peyğəmbəri (s): «Xeyir işə yol göstərən, ona əməl edən şəxs kimidir.»[2]

2073. Allahın Peyğəmbəri (s): «Xeyir işə yol göstərənin əcri, ona əməl edənin əcri qədərdir.»[3]

ıooooooπ

[1] Biharul-Ənvar, c.78, səh.370, hədis 4
[2] Kənzul-Ummal, hədis 16052
[3] Səhih-Muslim, hədis 1893

**140**

# İstixarə (Allahdan xeyir diləmək)

***678. İstixarə***

2074. Allahın Peyğəmbəri (s): «Bir iş görmək niyyətində olan zaman yeddi dəfə Allahdan xeyir istə. Sonra bax, gör qəlbindən daha tez nə keçir və bil ki, xeyir ondadır, yəni ona əməl et.»[1]

2075. İmam Əli (ə): «Allahdan xeyir istəyən (istixarə edən) peşman olmaz.»[2]

2076. İmam Əli (ə): «Allahdan xeyir istə və belə etmədən heç bir işi seçmə! Çünki çox adam Allahdan xeyir istəmədən bir iş görüb və bu iş onların məhvinə səbəb olub.»[3]

2077. İmam Sadiq (ə): «Allahdan xeyir istəyən elə bir mömin bəndə olmayıb ki, Allahı onun qarşısına xoşagəlməz hadisə çıxartsa da, ona xeyir verməmiş olsun. (Çünki onun xeyri elə həmin hadisədədir).»[4]

2078. İmam Sadiq (ə) ibn Əbi Yəfurə Allahdan xeyir istəmək haqda buyurub: «Əvvəl Allahı böyüklük və əzəmətilə yad edib həmd-səna söyləyirsən, peyğəmbərə və onun Əhli-Beytinə (ə) salavat göndərdikdən sonra deyirsən: «Allahummə inni əsəlukə biənnəkə alimul-qeybi və şəhadətir-rəhmanir-rəhimi və əntə əllamül-quyub, əstə‘xirullahə və rəhmətihi (yəni, Ey Rəbbim, Sən qeybi və aşkarı bilənsən, rəhman və rəhimsən, Sən bütün sirləri bilənsən, Səndən ehtiyacımı diləyirəm. Allahdan rəhmətinin köməyi ilə xeyir istəyirəm.)»[5]

2079. İmam Sadiqin (ə) «bə‘zən bir işi görməyi qərara alıram. Onun barəsində Allahdan xeyir istəyirəm, amma fikrim bir nəticəyə çatmır.» deyən şəxsə cavabından: «Qur‘anı aç və gördüyün ilk ayəyə uyğun olaraq Allahın istəyi ilə əməl et.»[6]

2080. İmam Sadiq (ə): «İki rəkət namaz qıl və Allahdan xeyir istə. Çünki Allaha and olsun, Rəbbindən xeyir diləyən elə bir müsəlman olmayıb ki, Allah mütləq ona xeyir və yaxşılıq bəxş etməmiş olsun.»[7]

---

[1] Biharul-Ənvar, c.91, səh.265, hədis 19
[2] Ğurərul-Hikəm, hədis 9453
[3] Ğurərul-Hikəm, hədis 2346
[4] Biharul-Ənvar, c.91, səh.224, hədis 4
[5] Biharul-Ənvar c.91, səh.256, hədis 1
[6] Təhzibul-Ehkam, c.3, səh.310, hədis 960
[7] əl-Kafi, c.3, səh.470, hədis 1

# 141

# Camaatla mehriban davranmaq

***679. Camaatla mehriban davranmaq***

2081. Allahın Peyğəmbəri (s):«Rəbbim mənə vacibatları yerinə yetirməyə fərman verdiyi kimi, xalq ilə mehriban rəftar etməyimi də əmr etmişdir.»[1]

2082. Allahın Peyğəmbəri (s): «Xalqa mehribanlıq göstərmək imanın, onlarla yumşaq və xoşluqla rəftar etmək isə həyatın yarısıdır.»[2]

2083. Allahın Peyğəmbəri (s): «Kimdə üç şey olmasa onun heç bir əməli kamil olmaz. Bu onu Allaha itaətsizlikdən çəkindirən pəhrizkarlığ və mə‘nəvi paklıq, insanlarla mehriban davranmağına səbəb olan gözəl əxlaq və xoş xasiyyət, onunla cahil adamların nalayiq rəftarını özündən uzaqlaşdırdığı dözüm və helmdir.»[3]

2084. İmam Əli (ə): «Əqlin meyvəsi insanlarla mehriban davranmaqdır.»[4]

2085. İmam Əli (ə): «Dinin və dünyanın salamatlığı xalqla mehriban olmaqdır.»[5]

2086. İmam Əli (ə): «Öz düşmənləri ilə mehriban davranan kəs, müharibələrdən amanda olar.»[6]

2087. İmam Əli (ə): «Əgər xoşluqla rəftar etmək bir kəsi islah etmirsə, ağır cəza vermək onu düzəldər.»[7]

2088. İmam Əli (ə) öz səhabələrini məzəmmət edərkən: «Nə vaxta qədər sizinlə kürəyində yara olan cavan dəvələr və köhnəlmiş paltarlarla davranılan kimi ehtiyatla rəftar edəcəm?! Bir tərəfdən tikiləndə, o biri tərəfdən sökülən paltarlar kimi... Mən bilirəm, sizi nə islah edər, sizin əyriliyinizi və azğınlığınızı nə düzəldər. Amma mən sizin islah olunmanızı, özümü xarab etmək bahasına başa gəlməsini rəva bilmirəm.»[8]

---

[1] əl-Kafi, c.2, səh.117, hədis 4
[2] əl-Kafi, c.2, səh.117, hədis 5
[3] əl-Kafi, c.2, səh.116, hədis 1
[4] Ğurərul-Hikəm, hədis 4629
[5] Ğurərul-Hikəm, hədis 5610
[6] Ğurərul-Hikəm, hədis 85839
[7] Ğurərul-Hikəm, hədis 8202
[8] Nəhcül-Bəlağə, xütbə 69

**142**

# Dua

***670. Dua***

**Qur'an:**

«De:Əgər sizin duanız olmasa, Rəbbim sizə heç bir dəyər verməz, əslində siz təkzib etdiniz və tezliklə (əzab sizə) yaxın olacaq.»[1]

«Və sizin Rəbbiniz dedi: «Məni çağırın, sizə cavab verim. Mənə ibadət etməkdən boyun qaçıran kəslər tezliklə xar olmuş və ahu-zar edə-edə Cəhənnəmə daxil olacaqlar.»[2]

**Hədis:**

2089. Allahın Peyğəmbəri (s): «Dua ibadətin mayasıdır (şirəsidir) və dua etməklə heç kəs həlak olmaz.»[3]

2090. Allahın Peyğəmbəri (s) : «Dua möminin silahı, dinin sütunu, səmaların və yerin nurudur.»[4]

2091. Allahın Peyğəmbəri (s): «İnsanların ən acizi, dua etməkdə aciz olanıdır.»[5]

2092. Allahın Peyğəmbəri (s): «Ən üstün ibadət duadır. Allah-taala bəndəyə dua izni (və uğuru) verəndə rəhmət qapısını onun üzünə açar. Şübhəsiz ki, dua etməklə heç kəs həlak olmaz.»[6]

2093. İmam Əlinin (ə) İmam Həsənə (ə) vəsiyyətindən: «Bil ki, dünya və axirət aləminin xəzinələrinin sahibi olan Kəs, sənə Onu çağırmağa icazə və sənin duanı qəbul etməyə zəmanət vermişdir. Sənə əmr etmişdir ki, Onu çağırasan, O da bəxş etsin. O, mehriban və bağışlayandır. Səninlə özü arasında bir hicab qoymamış və səni bir vasitəçi gətirməyə vadar etməmişdir... Sonra öz xəzinələrinin və sərvətlərinin açarı olan duanı və Ondan (nemət) istəməyi sənin ixtiyarına vermişdir. Beləliklə, sən istədiyin vaxt dua etməklə Onun xəzinələrinin qapısını açarsan.»[7]

2094. İmam Əli (ə): «Dua rəhmət qapısının açarı və qaranlıqda (işıq saçan) çıraqdır.»[8]

---

[1] Furqan, ayə 77
[2] Ğafir, ayə 60
[3] Biharul-Ənvar, c.93, səh.300, hədis 37
[4] əl-Kafi, c.2, səh.468, hədis 1
[5] Əmali-Tusi, səh.89, hədis 136
[6] Tənbihul-Xəvatir, c.2, səh.237
[7] Biharul-Ənvar, c.77, səh.204, hədis1
[8] Biharul-Ənvar, c.93, səh.300, hədis 37

2095. İmam Əli (ə): «Yer üzündə Allahın ən çox sevdiyi iş duadır.»[1]

2096. İmam Əli (ə): «Dua möminin sipəridir.»[2]

2097. İmam Sadiq (ə): «Sənə dua etməyi tövsiyə edirəm. Çünki onda hər dərdin şəfası var.»[3]

2098. İmam Sadiq (ə): «Dua et və demə ki, iş işdən keçibdir (yəni, nə yazılıbsa o da olacaqdır). Həqiqətən, Allah dərgahında elə bir məqam və dərəcə var ki, ona duadan başqa heç bir vasitə ilə çatmaq olmaz.»[4]

2099. İmam Sadiq (ə): «Dua iti silahdan daha çox təsirlidir.»[5]

2100. İmam Rza (ə): «Peyğəmbərlərin silahından yapışın.!» Soruşdular: «Peyğəmbərlərin silahı nədir?» Buyurdu: «Dua.»[6]

### *681. Dua mütləq baş verəcək alın yazısını (qəza və qədəri) dəyişdirər*

2101. Allahın Peyğəmbəri (s): «Qəzanı (alın yazısını) duadan başqa heç nə qaytara bilməz.»[7]

2102. İmam Səccad (ə): «Dua insanı nazil olan və nazil olacaq bəladan qoruyar.»[8]

2103. İmam Kazim (ə): «Həmişə dua edin. Çünki Allah dərgahına dua edib, Ondan istəmək ilahi qəzavü-qədərdə yazılan və yalnız həyata keçməsi qalan bəlanı uzaqlaşdırar. Beləliklə, Allaha dua olunsa və Ondan istənilsə, Allah-taala bəlanı birdəfəlik geri qaytarar.»[9]

### *682. Dua müxtəlif bəlaları uzaqlaşdırar*

2104. Allahın Peyğəmbəri (s): «Bəla qapılarını dua ilə bağlayın.»[10]

2105. İmam Əli (ə): «Bəla dalğalarını dua ilə geri qaytarın. Başı bəlalar çəkmiş, bəladan canı boğazına yığılmış şəxsin duaya olan ehtiyacı asudə yaşayan, ancaq bəladan amanda olmayan şəxsdən çox deyil.»[11]

2106. İmam Sadiq (ə): «Hər kəs, ona bəla yetişə biləcəyindən narahat olarsa və bəlanın gəlişindən əvvəl dua edərsə, Allah-taala heç vaxt ona bəla göndərməz.»[12]

### *683. Dua ilə hadisələri qabaqlamaq*

**Qur’an:**

---

[1] əl-Kafi, c.2, səh.467, hədis 8
[2]əl-Kafi, c.2, səh.468, hədis 7
[3] Məkarimul-Əxlaq, c.2, səh.12, hədis 2008
[4] əl-Kafi, c.2, səh.466, hədis 3
[5] Biharul-Ənvar, c.93, səh.297, hədis 25
[6] əl-Kafi, c.2, səh.468, hədis 5
[7] Məkarimul-Əxlaq, c.2, səh.7, hədis1978
[8] əl-Kafi, c.2, səh.469 , hədis5
[9] əl-Kafi, c.2, səh.470 , hədis8
[10] Biharul-Ənvar, c.93, səh.288 , hədis3
[11] Biharul-Ənvar, c.93, səh.301 , hədis37
[12] Məkarimul-Əxlaq, c.2, səh.10 , hədis1992

«İnsana bir zərər yetişən zaman, Rəbbinə tərəf üz tutub Onu çağırar. Sonra, Rəbbi tərəfindən Ona bir nemət əta edildikdə, bundan əvvəl etdikləri bütün duaları yaddan çıxarar və (insanları) haqq yolundan azdırmaq üçün Allaha şəriklər qoşar. De: «Hələ öz küfrünlə bir müddət (dünya həyatından) bəhrələn. (Axirətdə) Sən Cəhənnəm əhlindənsən.» [1]

«Yaxud əli hər yerdən üzülüb çarəsiz qalan bir kimsə Onu çağıran zaman duasına cavab verən, çətinliyini aradan götürən və sizi yer üzünün varisləri edən kimdir?. Məgər Allahla yanaşı başqa bir tanrı varmı? Necə də az nəsihət götürürsünüz.»[2]

**Hədis:**

2107. «Biharul-Ənvar»: Allah-taala Davuda (ə) vəhy etdi:«Xoşluqda və rahatlıqda Məni yad et ki, çətinlikdə və sıxıntıda sənin duanı qəbul edim.»[3]

2108. Allahın Peyğəmbəri (s): «Rahatlıq vaxtı özünü Allaha tanıtdır ki, çətinlik və sıxıntı zamanı da O səni tanısın.»[4]

2109. İmam Baqir (ə): «Layiqlisi budur ki, mömin çətinlik və sıxıntı vaxtı dua etdiyi kimi, xoşluq və rahatlıqda da elə dua etsin.»[5]

### *684. Hər bir ehtiyac üçün dua etməyə təşviq*

2110. «Biharul-ənvar»: «Allah-taala Musaya (ə) vəhy etdi: «Ehtiyacın olan hər bir şeyi-hətta qoyunların otunu və xəmirinin duzunu da- Məndən istə.!.»[6]

2111. Allahın Peyğəmbəri (s): «Hər bir hacətiniz üçün, hətta ayaqqabının bağı üçün olsa belə, xahiş əlinizi Allaha doğru uzadın. Çünki Allah onu asanlaşdırmayınca, asan olmaz (yerinə yetməz).»[7]

2112. İmam Baqir (ə): «Öz kiçik hacətlərinizi xırda və az əhəmiyyətli hesab etməyin. Çünki Allahın ən çox sevdiyi möminlər daha çox dua edən kəslərdir.»[8]

### *685. Dua hacətin qəbul olunmasının açarıdır*

**Qur’an:**

«Bəndələrim səndən Mənim barəmdə soruşduqda (söylə ki,): Mən onlara yaxınam və Məni çağıran kəsin duasına cavab verərəm. Gərək onlar da Mənim çağırışıma cavab versinlər və doğru yolu tapmaq üçün Mənə iman gətirsinlər.»[9]

**Hədis:**

2113. Allahın Peyğəmbəri (s): «Allah-taala bir bəndənin xahişini yerinə yetirmək istəyəndə, ona dua etmək icazəsi (və uğuru) əta edər.»[10]

---

[1] Zümər, ayə 8
[2] Nəml, ayə 62
[3] Biharul-Ənvar, c.93 səh.381 , hədis6
[4]Biharul-Ənvar, c.77, səh.87 , hədis3
[5] əl-Kafi, c.2, səh.488 , hədis1
[6] Biharul-Ənvar, c.93, səh.303 , hədis39
[7] Biharul-Ənvar, c.93, səh.295 , hədis23
[8] Məkarimul-Əxlaq. c.2, səh.97 , hədis2275
[9] Bəqərə, ayə186
[10] Kənzul-Ummal, hədis 3186

2114. İmam Əli (ə): «Kim pak və müqəddəs olan Allahın (rəhmət) qapısını döysə, o qapı üzünə açılar.»[1]

2115. İmam Həsən (ə): «Allah-taala kimin üzünə dua və istək qapısını açıbsa, qəbul qapısı da onun üzünə açılmışdır.»[2]

***686. Duanın qəbul olunma şərtləri***

1. Mərifət (Tanımaq)

2116. İmam Sadiq (ə): «Niyə bizim dualarımız qəbul olunmur?» deyə soruşan bir dəstə adama cavabından: «Çünki tanımadığınız bir Kəsi çağırırsınız.»[3]

2117. İmam Sadiq (ə) «Gərək Mənim də‘vətimi qəbul etsinlər və Mənə iman gətirsinlər.» ayəsi barədə buyurduqlarından: «Yəni bilsinlər ki, Məndən istədikləri şeyi, onlara verə bilərəm.»[4]

***2.Allahı tanımağın tələblərinə əməl etmək***

2118. İmam Əli (ə) Allah-taala «Məni çağırın, sizə cavab verim..» buyurur, bəs biz dua etsək də, niyə dualarımız qəbul olunmur?» sualına cavabında: «Çünki sizin qəlbləriniz səkkiz xəyanət etmişdir. Onların birincisi budur ki, siz Allahı tanıdınız, amma Onun haqqını sizə vacib etdiyi kimi yerinə yetirmədiniz. Buna görə, Allahı tanımağınızın sizə bir faydası olmadı... Siz, dua qapılarını və yollarını bağlayandan sonra sizin hansı dualarınız qəbul olunar?.»[5]

***3. Halal qazanc***

2119. Allahın Peyğəmbəri (s): «Həqiqətən, bəndə yeməyi haram olduğu halda əllərini dua üçün Allah dərgahını uzadır. Məgər belə halda onun duası qəbul olunarmı?!»[6]

2120. Allahın Peyğəmbəri (s): «Qazancını halal et ki, duan qəbul olunsun. Çünki insan bir (haram) tikə ağzına qoyarsa, qırx gün ibadəti qəbul olunmaz.»[7]

2121. İmam Sadiq (ə): «Sizlərdən hər kim dualarının qəbul olunmasını istəyirsə, öz qazancını təmiz etsin və insanların haqqını ödəsin. Qarnında haram mal və boynunda bir kəsin haqqı olan insanın duası Allah dərgahına qalxmır.»[8]

***4. Dua vaxtı qəlbin kövrəlməsi və ürəkdən dua olunması***

2122. Allahın Peyğəmbəri (s): «Bilin ki, Allah-taala qafil və xəbərsiz qəlbdən gələn duanı qəbul etmir.»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 8292
[2] Biharul-Ənvar, c.78, səh.113 , hədis7
[3] Biharul-Ənvar, c.93, səh.368 , hədis4
[4] Biharul-Ənvar, c.93, səh.323 , hədis37
[5] Ə‘lamud-Din, səh.269
[6] İrşadul-Qulub, səh.149
[7] Məkarimul-Əxlaq c.2, səh.20 , hədis2045
[8] Biharul-Ənvar, c.93, səh.321 , hədis31
[9] Biharul-Ənvar, c.93, səh.321 , hədis31

2123. Allahın Peyğəmbəri (s): «Qəlbin kövrəldiyi vaxtı dua etməyi qənimət bil. Çünki qəlbin kövrəlməsi (riqqəti) rəhmətdir.»[1]

2124. İmam Sadiq (ə): «Allah-taala daş qəlbdən gələn duanı qəbul etməz.»[2]

2125. İmam Sadiq (ə): «Hər zaman sizlərdən birinin qəlbi kövrəlsə, dua etsin. Çünki qəlb xalis və pak olmayınca kövrəlməz.»[3]

### *687. Duanın qəbul olunmasına mane olan səbəblər*

**1. Günah.**

2126. İmam Baqir (ə): «Bəndə Allahdan bir hacət diləyən zaman Allah-taala öz şəninə görə yaxın gələcəkdə, ya bir qədər tə‘xirə salaraq onun duasını qəbul edər. Amma, bəndə sonradan günah edər. Belə olan halda Allah-taala Mələyə deyər: Onun diləyini yerinə yetirmə və onu (nemətdən) məhrum et. Çünki o, özünü Mənim qəzəbimə duçar etdi və Mənim tərəfimdən məhrumiyyətə layiq oldu.»[4]

**2. Zülm.**

2127. İmam Əli (ə): «Allah-taala Məryəm oğlu İsaya vəhy etdi: Bəni İsrailin zadəganlarına de ki.... Mən sizin heç birinizin və boynunda mənim məxluqlarımın haqqı olan kəslərdən heç birinin duasını qəbul etmərəm.»[5]

2128. İmam Sadiq (ə): «Allah-taala buyurmuşdur: And olsun izzəti-cəlalıma, əgər məzlum özünə olan zülm kimi bir zülmü başqasına qarşı edibsə, onun zalım barəsində etdiyi dua və Lənəti qəbul etmərəm.»[6]

**3. Duanın Allahın hikmətinə uyğun olmaması.**

2129. İmam Əli (ə) :«Pak və müqəddəs Allahın kərəmi Onun hikmətinə zidd deyil. Buna görə hər dua qəbul olunmur.»[7]

### *688. Dua etməyin qaydası*

**1. Bismillah demək.**

2130. Allahın Peyğəmbəri (s): «Bismillahir rəhmanir rəhim»lə başlayan dua geri qaytarılmaz.»[8]

**2. Allahı (gözəl sifətlərlə) vəsf etmək.**

2131. Allahın Peyğəmbəri(s): «Allahın vəsfi ilə başlanılmayan hər bir duanın axırı yoxdur (yəni, qəbul olunmaz).»[1]

---

[1] Əl-Dəəvat, səh.30 , hədis60
[2] əl-Kafi, c.2, səh.473 , hədis1
[3] əl-Kafi, c.2, səh.477 , hədis5
[4] Biharul-Ənvar, c.75, səh.329 , hədis11
[5] əl-Xisal, səh.337 , hədis40
[6] Biharul-Ənvar, c.75, səh.312 , hədis20
[7] Ğurərul-Hikəm, hədis 3487
[8] Əl-Dəəvat, səh.52 , hədis131

**3. Məhəmmədə və onun Əhli-Beytinə salavat göndərmək.**

2132. İmam Sadiq (ə): «Dua Məhəmməd və Əhli-Beytinə salavat göndərilən vaxtadək daim hicabdadır.»[2]

2133. İmam Sadiq (ə) :«Kim Allahdan bir hacət istəsə Məhəmmədə və Əhli-Beytinə salavat göndərməklə başlasın, sonra hacətini diləsin və axırda yenə Məhəmməd və ali Məhəmmədə salavat göndərsin. Çünki Allah-taalanın şəni və şərəfi duanın əvvəlini və axırını qəbul edib, ortasını isə qəbul etməməkdən daha yüksəkdir. Belə ki, Məhəmməd və Əhli-Beytinə salavat Allahdan gizlin qalmaz.»[3]

**4.Əməli saleh insanları şəfaətçi etmək.**

2134. İmam Kazim (ə): «Allahdan bir hacət istəyəndə de: «Pərvərdigara! Məhəmməd və Əhli-Beytinin haqqına Səndən istəyirəm...Çünki o ikisinin Sənin yanında (ali) məqamları vardır.»[4]

**5. Günahı e‘tiraf etmək.**

2135. İmam Sadiq (ə): «(Duada) Əvvəlcə Allahı mədh etmək və sonra günahı e‘tiraf edib hacəti diləmək lazımdır.»[5]

**6. Yalvarmaq və israr.**

2136. «Biharul-Ənvar»: «Allah-taalanın İsaya (ə) nəsihətlərindən:«Ey İsa! Məni qəmli halda, köməyinə heç kəs gəlməyən və suda batan şəxs kimi çağır... Məni yalnız xar, zəlil, ahu-zar edə-edə və xalis niyyətlə çağır. Məni bu halda çağırsan, sənə cavab verərəm.»[6]

2137. İmam Hüseyn (ə) :«Allahın Rəsulu (s) dua vaxtı bir qədər yemək istəyən yazıq, dilənçi kimi əllərini göyə qaldırardı.»[7]

**7. İki rəkət namaz qılmaq.**

2138. İmam Sadiq (ə): «Kim düzgün dəstəmaz alıb, iki rəkət namaz qılsa, onun rukusu və səcdələrini kamil şəkildə yerinə yetirsə, sonra salam verib Allahı, peyğəmbəri mədh etsə və hacətini istəsə yerində istəmişdir. Hər kim yerində xeyir və yaxşılıq istəsə naümid qayıtmaz.»[8]

**8. İstəyi çox bilməmək.**

---

[1] Biharul-Ənvar, c.93, səh.317 , hədis21
[2] əl-Kafi c.2, səh.491 , hədis1
[3] Məkarimul-Əxlaq, c.2, səh.19 , hədis2040
[4]Əl-Dəəvat, səh.51 , hədis127
[5] Biharul-Ənvar, c. 93, səh.318 , hədis23
[6] Biharul-Ənvar, c.93, səh.314 , hədis19
[7] Məkarimul-Əxlaq. c.2, səh.8 , hədis1981
[8] Biharul-Ənvar, c.93, səh.314 , hədis20

2139. Allahın Peyğəmbəri (s): «Allahdan istəyin və çox istəyin. Çünki Onun üçün heç nə çox və böyük deyil.»[1]

2140. İmam Baqir (ə): «Heç vaxt xahiş və istəyi çox bilməyin. Çünki Allah dərgahında olanlar sizin düşündüyünüzdən daha çoxdur.»[2]

**9. Xahişdə alicənablıq.**

2141. İmam Əlinin (ə) oğlu Həsənə (ə) vəsiyyətindən: «Allahdan özün üçün elə şey istəməlisən ki, onun gözəlliyi və xeyri sənə (əbədi) qalsın, ağırlığı və əziyyəti səndən uzaq olsun. Mal və sərvət sənə, sən də onlara qalmayacaqsan.»[3]

2142. İmam Sadiqin (ə): «Qoca qarı Musadan (ə) nə istəmişdir?» sualına cavabından: «O qarı dedi:«Yalnız o vaxt bu işi görərəm ki, mənim üçün bir neçə əməli yerinə yetirsən. Ayağımı zirək edəsən, gözümün nurunu və cavanlığımı mənə qaytarasan və özünlə bərabər Cənnətdə mənə də yer verəsən.»[4]

**10. Hamı üçün dua etmək.**

2143. Allahın Peyğəmbəri (s): «Bir nəfər dua edəndə hamı üçün dua etsin. Çünki belə etdikdə duanın qəbul olunma imkanı daha çoxdur. Kim özü üçün dua etməmişdən qabaq, qırx nəfər (mömin) qardaşı üçün dua etsə, bu dua həm onlar üçün, həm də özü üçün qəbul olunar.»[5]

**11. Gizlində edilən dua.**

2144. Allahın Peyğəmbəri (s): «Gizlində edilən bir dua, aşkarda edilən yetmiş duaya bərabərdir.»[6]

**12. Birlikdə edilən dua.**

2145. İmam Sadiq (ə): «Hər zaman dörd nəfər yığılıb bir dilək üçün Allah dərgahına dua etsə, onlar duaları qəbul olunmuş halda bir-birindən ayrılarlar.»[7]

**13. Duanın qəbul olunmasına nikbin olmaq.**

2146. Allahın Peyğəmbəri (s): «Duanın qəbul olunmasına əminliklə Allahı çağırın.»[8]

2147. İmam Sadiq (ə) :«Dua edəndə elə zənn et ki, hacətin qapının astanasında dayanıb.»[9]

**14. Münasib vaxt seçmək.**

---

[1]Biharul-Ənvar, c.93, səh.302 , hədis39
[2] Məkarimul-Əxlaq. c.2, səh.97 , hədis2275
[3] Biharul-Ənvar, c.77, səh.205 , hədis1
[4] Mən la yəhzuruhul-Fəqih, c.1, səh.193 , hədis594
[5] Biharul-Ənvar, c.93, səh.313 , hədis17
[6] Əd-Dəavat, səh.18 , hədis7
[7] əl-Kafi, c.2, səh.487 , hədis2
[8] Biharul-Ənvar, c.93, səh.305 , hədis1
[9] əl-Kafi, c.2, səh.473 , hədis1

2148. Allahın Peyğəmbəri (s): «Allahı çağırmaq üçün ən yaxşı vaxt sübh çağıdır.» *Sonra Yaqubun (ə) sözlərini nəql edən bu ayəni oxudu*: «Tezilklə Rəbbimdən sizin bağışlanmanızı istəyəcəm.» Həzrət (s) buyurdu:«Onlar üçün (dua etməyi) sübh vaxtına saxladı.»[1]

2149. İmam Sadiq (ə): «Üç vaxtda Allah duanı geri qaytarmaz: «Vacibatı yerinə yetirəndən sonra, yağış yağan zaman və yer üzündə Allahın möcüzələrinin əlamətləri zahir olan vaxt (məsələn günəşin tutulması və s...).»[2]

**15. İsrarla istəmək.**

2150. Allahın Peyğəmbəri (s): «Allah o bəndəyə rəhmət eləsin ki, bir hacət diləyən və dua edən zaman, duasının qəbul olub olunmamasından asılı olmayaraq (öz hacətini) israrla istəyir.» [3]

2151. İmam Baqir (ə): «Allaha and olsun, ilahi dərgahdan israrla və təkidlə öz hacətini istəyən elə bir mömin bəndə olmayıb ki, Allah-taala onun hacətini yerinə yetirməsin.»[4]

***689. Dua edənin uzaqlaşmalı olduğu işlər***

**1. Mümkün olmayan və rəva bilinməyən şeylər üçün dua etmək.**

2152. İmam Əli (ə): «Ey dua edən, mümkün olmayan və rəva bilinməyən şeyləri Allahdan istəmə.»[5]

**2. Tələsmək.**

2153. İmam Sadiq (ə): «Mömin hövsələsizlik etməyib, əlini naümid halda duadan çəkənədək daim Allahın xeyir, rifah və rəhmətindədir» (Rəvayətçi deyir) Ərz etdim:«Necə hövsələsizlik edər?» Buyurdu:«Xeyli müddətdir ki, dua etsəm də, qəbul olunmasını görmürəm» deməklə»[6]

**3. Öz işində nəyin məsləhət (faydalı) olduğunu Allaha öyrətməsin**

2154. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurmuşdur: «Ey Adəm övladı! Sənə verdiyim əmrə itaət et və öz işində nəyin məsləhətli olduğunu Mənə öyrətmə!.»[7]

***690. Diləyi, istəmədən yerinə yetən kəs***

2155. Əbu Həmzə: «Allah-taala Davuda (ə) vəhy etdi: «Ey Davud! Mənim əmrimə itaət edən bəndənin diləyini Mənə deməmiş yerinə yetirərəm və Məni çağırmamış ona cavab verərəm.»[8]

---

[1] əl-Kafi, c.2, səh.477 , hədis6
[2] Biharul-Ənvar, c.85, səh.321 , hədis8
[3] əl-Kafi, c.2, səh.475 , hədis6
[4] əl-Kafi, c.2, səh.475 , hədis3
[5] əl-Xisal, səh.635 , hədis10
[6] Biharul-Ənvar, c.93, səh.374 , hədis16
[7] Biharul-Ənvar, c.71, səh.178, hədis 24
[8] Biharul-Ənvar, c.93, səh.376, hədis 16

2156. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurmuşdur: «Məni yad etməklə öz istəyini Məndən diləməyi unudan kimsəyə, hacət istəyənlərə verdiklərimdən daha üstününü bəxş edərəm.»[1]

2157. Xanım Fatimeyi-Zəhra (ə): «Kim özünün saf və pak ibadətini Allah dərgahına qaldırsa, Allah-taala o bəndənin xeyrinə olan ən yaxşı işi ona nazil edər.»[2]

***691. Duası müstəcab olan şəxs***

2158. İmam Həsən (ə): «Qəlbindən Allahın razılığını qazanmaqdan başqa bir şey keçirməyənə Allahın onun duasını qəbul edəcəyini zəmanət verirəm.»[3]

2159. İmam Səccad (ə): «Allah-taala, heç bir işində insanlara ümid bəsləməyən və özünün bütün işlərini Allaha tapşıran şəxsin hər bir duasını qəbul edər.»[4]

***692. Qəbul olan dualar***

2160. Allahın Peyğəmbəri (s): «Atanın Lənətindən qorxun ki, o qılıncdan itidir.»[5]

2161. Allahın Peyğəmbəri (s): «Mənim ümmətimin uşaqları günahlara aludə olmasalar, duaları qəbul olunar.»[6]

2162. İmam Həsən (ə): «Qur‘an oxuyan kəsin gec, ya tez qəbul olunmuş bir duası vardır.»[7]

***693. Qəbul olmayan dualar***

2163. Allahın Peyğəmbəri (s): «Mən Allahdan istəmişəm ki, dostun öz dostu haqqında Lənətini qəbul etməsin.»[8]

2164. İmam Sadiq (ə): «Dörd nəfərin duası qəbul olunmaz: Evində oturub «ey Allahım, mənə ruzi yetir!.» deyən kişinin. Allah-taala ona buyurar: «Məgər sənə qalxıb ruzi dalınca getməyi əmr etməmişəmmi?» Öz arvadına Lənət edən kişinin. Allah-taala ona buyurar: «Məgər onun işini sənə tapşırmamışammı?» Var-dövlətini hədərə verən kişinin. O, deyər: «Ey Allahım! Mənə ruzi ver.» Allah buyurar: «Məgər sənə qənaətcil olmağı əmr etmədimmi?.» Öz malını sənəd və şahid olmadan başqasına borc verən şəxsin. Allah-taala ona deyər: «Məgər sənə göstəriş vermədimmi ki, (borc verən zaman) sənəd və şahid tutasan.»[9]

---

[1] Kənzul-Ummal, hədis 1874

[2] Tənbihul-Xəvatir, c.2, səh.108

[3] Biharul-Ənvar, c.43, səh.351 , hədis25

[4] Biharul-Ənvar, c.75, səh.110 , hədis16

[5] Biharul-Ənvar, c.74, səh.84 , hədis94

[6] Biharul-Ənvar, c.93, səh.357 , hədis14

[7] Biharul-Ənvar, səh.313, hədis 17

[8] Biharul-Ənvar, səh.378 , hədis21

[9] əl-Dəəvat, səh.33

### *694. Duanın qəbulunun gecikdirilməsinin səbəbi*

2165. İmam Əli (ə): «Duanın qəbul olunmasının gecikdirilməsi sənin ümidini kəsməsin. Çünki Allahın bəxşişi sənin niyyətinə bağlıdır. Çox vaxt, istəyin yerinə yetirilməsi tə‘xirə salınar ki, dilək diləyənə daha böyük mükafat verilsin və (ilahi bəxşişə) ümidvar olana daha böyük bəxşişlər bağışlansın. Çox vaxt görürsən ki, bir şey istəyəndə sənə verilməz, amma gec, ya tez ondan daha yaxşısı sənə bəxş edilər, yaxud sənin xeyrin nəzərə alınaraq istədiyin şey sənə verilməz. Elə diləklər də vardır ki, onların həyata keçməsi sənin dininin, imanının əldən getməsinə və zay olmasına gətirib çıxarardı.»[1]

2166. İmam Sadiq (ə): «Allah-taala buyurmuşdur: «And olsun izzəti-cəlalıma, əzəmətimə və böyüklüyümə ki, dünyada öz dostuma Məni yad etməyi ona unutduran bir şeyi verməyə çəkinirəm. Çünki istəyirəm ki, o, Məni çağırsın və Mən onun səsini eşidim. Kafiri isə arzusuna çatdıraram. Çünki ona nifrət edirəm və istəmirəm ki, Məni çağırsın və onun səsini eşidim.»[2]

### *695. Duanın qəbul olunmamasının səbəbi*

2167. İmam Sadiq (ə): «Bir kişi Əmir-əl- möminin (ə) yanına gəlib ərz etdi:«Mən Allahı çağırıram, amma bir cavab almıram.» Həzrət buyurdu: «Çünki sən Allahı Ona məxsus olmayan sifətlərlə vəsf edirsən (çağırırsan). Həqiqətən, duanın dörd xüsusiyyəti var: Batini ixlas, niyyət, vasitəni tanımaq və istəkdə insaflı olmaq. Sən bu dörd məqamdan agah olduğun haldamı dua edirsən?» Ərz etdi: «Xeyr.» Həzrət buyurdu: Belə isə, bunları öyrən (və bu dörd məqama diqqət yetirərək dua et).»[3]

### *696. Dua təsirsiz qalmaz*

2168. Allahın Peyğəmbəri (s): «Həqiqətən, sizin Rəbbiniz həyalı və bağışlayandır. O, bəndənin Ona tərəf uzanan əlini (istəyini) boş halda geri qaytarmağa həya edər.»[4]

2169. İmam Səccad (ə): «Mömininin duası üç cür olar: Ya onunçün ehtiyat saxlanar, ya dünyada yerinə yetirilər, ya ona yetişmək istəyən bəlanı geri qaytarar.»[5]

2170. İmam Səccad (ə): «Mömin axirətin gözəl mükafatlarını görəndə arzu edər ki, ey kaş, dünyada onun dualarının heç biri qəbul olmayaydı.»[6]

ιooooooπ

---

[1] Kəşful-Muhəccəte, səh.228
[2] ət-Təmhis, ayə 33 , hədis17
[3] Tənbihul-Xəvafir, c.1, səh.302
[4] Kaənzul-Ummal, hədis 3128
[5] Tuhəful-Uqul, səh. 280
[6] əl-Kafi, c.2, səh.491 , hədis9

## 143

# Dünya

***697. Dünya həyatı***

2171. İmam Əli (ə): «Dünya ən alçaq (ya ən yaxın) şey olduğu üçün dünya adlanıb. Axirətə də, orada əvəz və mükafat olduğuna görə axirət deyilir.»[1]

2172. İmam Əli (ə): «İnsanlar dünyanın övladlarıdır. Heç kəs anasını sevdiyinə görə məzəmmət olunmaz.»[2]

**698. Dünya axirət üçün əkin yeridir**

2173. Allahın Peyğəmbəri (s): «Dünya axirətin əkin sahəsidir.»[3]

2174. İmam Əli (ə) : «Axirət, dünya ilə əldə olunar.»[4]

2175. İmam Əli (ə): «Həqiqətən, pak və müqəddəs Allah dünyanı ondan sonra üçün yaradıb. Dünya əhlini onda imtahana çəkir ki, kimin ən yaxşı əməl sahibi olduğu məlum olsun. Biz dünya üçün yaradılmamış və orada çalışmağa əmr olunmamışıq.»[5]

2176. İmam Baqir (ə) : «Dünya axirət üçün necə də gözəl köməkçidir.»[6]

***699. Dünyanın mənası***

2177. Allahın Peyğəmbəri (s): «Dünya Lənətlənibdir. Allahın razılığını qazanmaq üçün vasitə olan hər bir şeydən başqa, dünyada olan nə varsa hamısı Lənətlənmişdir.»[7]

2178. İmam Səccad (ə): «Dünya iki növdür: axirətə çatdıra biləcək həddə olan dünya və bir də (axirətdən çəkindirən) Lənətlənmiş dünya.»[8]

***700. Dünyadan yalnız zəruri olan qədər götürmək***

2179. İmam Əli (ə): - Onun yanında özünün ehtiyaclı olmasından şikayətlənən kişiyə- «Bil ki, sənə dünya malından qüvvəndən və ehtiyacından artıq nə yetişsə, sən onu yalnız başqası üçün saxlayan xəzinədarsan.»[9]

---

[1] İləluş-Səraye, səh.2 , hədis1
[2] Nəhcül-Balağə, hikmət 303
[3] Əvaliyul-Lali, c.1, səh.267 , hədis66
[4] Nəhcül-Bəlağə, xütbə 156
[5] Nəhcül-Bəlağə, məktub 55
[6] Biharul-Ənvar, c.73, səh.127 , hədis126
[7] Kənzul-Ummal, hədis 6088
[8] əl-Kafi, c.2, səh.317 , hədis8
[9] Biharul-Ənvar, c.73, səh.90 , hədis61

2180. İmam Əli (ə): «Dünya malından ehtiyacın olduğundan artıq heç nə axtarma və sənə kifayət edəndən başqa heç nə istəmə.»[1]

2181. İmam Əli (ə): «Dünya münafiqlərin sarayıdır, təqvalıların sarayı deyil. Buna görə, dünyadan bədəninini qüvvətləndirən, səni diri saxlayan və axirətin üçün azuqə olan həddə bəhrələn.»[2]

2182. İmam Sadiq (ə): «Dünya mənim nəzərimdə bir leşə bənzər, yalnız çarəsiz qaldığım vaxt ondan yeyərəm.»[3]

***701. Dünya onu tərk edən kəs üçündür***

2183. Allahın Peyğəmbəri (s): «Allah-taala dünyaya vəhy etdi: Sənə xidmət edən kəsi əziyyətə sal, səndən uzaqlaşana isə xidmət et.»[4]

2184. İmam Əli (ə): «Dünya, onu tərk edən və axirət, onu axtaran üçündür.»[5]

2185. İmam Əli (ə): «Dünyanın misalı sənin kölgənə bənzər. Sən dayansan, o da dayanar, əgər dalınca getsən, səndən uzaqlaşar.»[6]

***702. Dünyanı nadancasına məzəmmət etmək***

2186. Allahın Peyğəmbəri (s): «Dünyaya nalayiq sözlər deməyin, o mömin üçün gözəl bir minikdir. Çünki mömin onun vasitəsilə xeyir-bərəkətə yetişər və şərr-bəladan xilas olar. Bəndə «Allah dünyaya Lənət etsin» deyəndə dünya deyər:«Allahın Lənəti öz Rəbbinə qarşı ən çox itaətsizlik edənimizə olsun.»[7]

2187. İmam Əli (ə): «Ey dünyanı məzəmmət edən kimsə, axı onun puçluqlarına məftun olan və batilinə aldanan da sənsən. Dünyaya məftun olduğun halda onu məzəmmət edirsən? Sən onu cinayətkar və günahkar bilirsən, yoxsa o səni? Dünya səni nə vaxt məftun etdi, nə vaxt aldatdı?.. Dünya, ona doğru-düzgünlük qapısından daxil olan hər kəs üçün doğruluq sarayıdır. Onu yaxşı dərk edən üçün əmin-amanlıq və səadətdən bir imarət, ondan (axirətə) azuqə yığançün qüdrət və ehtiyacsızlıq sarayıdır.»[8]

***703. Məzəmmət olunmuş dünyanın xüsusiyyətləri***

2188. İmam Əli (ə): «Dünya ziyan bazarıdır.»[9]

2189. İmam Əli (ə): «Dünya ağılların torpağa düşmə (yıxılma) meydanıdır.»[10]

2190. İmam Əli (ə): «Dünya pislik mə‘dəni və aldatma məkanıdır.»[11]

2191. İmam Əli (ə): «Dünya şər və pisliyin əkinidir.»[1]

---

[1] Nəhcül-Bəlağə, xütbə 45
[2] Mətalibus-Suul, səh.52
[3] Biharul-Ənvar, c.78, səh.193 , hədis7
[4] Əmali-Səduq, səh.230, hədis9
[5] Biharul-Ənvar, c.73, səh.81, hədis43
[6] Ğurərul-Hikəm, hədis 9818
[7] Biharul-Ənvar, c.77, səh.178, hədis 10.
[8] Nəhcül-Bəlağə, 131 hikmət.
[9] Ğurərul-Hikəm, hədis 396
[10] Ğurərul-Hikəm, hədis 921
[11] Ğurərul-Hikəm, hədis 1473

2192. İmam Əli (ə): «Dünya (insanı) xar edər.»[2]

***704. Dünyanı sevmək bütün günahların mənşəyidir***

2193. Allahın Peyğəmbəri (s): «Dünyanı sevmək ən böyük «kəbirə» günahdır.»[3]

2194. Allahın Peyğəmbəri (s): «Dünya məhəbbəti hər bir asiliyin kökü və hər günahın başlanğıcıdır.»[4]

2195. Allahın Peyğəmbəri (s): «Dünyadan səni islah edən şeyi axtarmaq, dünya məhəbbəti deyil.»[5]

2196. İmam Sadiq (ə): «Dünya sevgisi bütün günahların mənşəyidir.»[6]

***705. Dünyaya məhəbbətin nəticələri***

2197. İmam Əli (ə): «Dünyaya məhəbbət ağlı zay, qəlbi kar edər, qəlb hikməti eşitməz və ağrılı əzaba səbəb olar.»[7]

2198. İmam Əli (ə): «Dünya sevgisi tamahkarlıq gətirər.»[8]

2199. İmam Sadiq (ə): «Qəlbini dünyaya bağlayan kəs, qəlbini üç şeyə bağlamışdır: sonu olmayan qəm-qüssəyə, əlçatmaz arzuya və doğrulmayan ümidə.»[9]

2200. İmam Sadiq (ə): «Dünyaya daha çox bağlanan şəxs ayrılıq vaxtı daha çox heyfslənər.» [10]

***706. Dünya İmam Əlinin (ə) nəzərində***

2201. İmam Əli (ə): «Allaha and olsun, sizin dünyanızın mənim nəzərimdə cüzam xəstəliyinə tutulmuş şəxsin əlində olan bir donuz sümüyü qədər də dəyəri yoxdur.»[11]

2202. İmam Əli (ə): «Sizin bu dünyanız mənim nəzərimdə bir keçinin burnunun suyundan da dəyərsizdir.»[12]

2203. İmam Əli (ə): «Həqiqətən, sizin dünyanızın mənim nəzərimdə çəyirtkənin ağzında əzilən bir ağac yarpağı qədər dəyəri yoxdur. Əlinin puç olan bu nemətlərlə nə işi?!»[13]

2204. İmam Əli (ə): «Ey dünya, məndən uzaq ol, sənin ipini belinə atmışam. (yəni, səni azad buraxmışam) Mən sənin caynaqlarından xilas olmuşam, tələlərindən qaçmış və sənin uçurumlarından uzaqlaşmışam.»[1]

---

[1] Ğurərul-Hikəm, hədis 401
[2] Ğurərul-Hikəm, hədis 3
[3] Kənzul-Ummal, hədis 6074
[4] Tənbihul-Xəvatir, c.2, hədis 122
[5] Kənzul-Ummal, 5439
[6] əl-Kafi, c.2, səh.315, hədis1
[7] Ğurərul-Hikəm, hədis 4878
[8] Ğurərul-Hikəm, hədis 4872
[9] əl-Kafi, c.2, səh.320, hədis17
[10] əl-Kafi, c.2, səh.320, hədis16
[11] Nəhcül-Bəlağə, hikmət 236
[12] Nəhcül-Bəlağə, xütbə 3
[13] Nəhcül-Bəlağənin şərhi, c.1, səh.246

2205. İmam Əli (ə): «Sizi dünyadan çəkindirirəm. Çünki dünya şirin, təravətli və nəfsi istəklərin mühasirəsindədir.»

2206. İmam Əli (ə): «Dünyadan çəkinin ki, onun halalının hesabatı və haramının cəzası var. Başlanğıcı əziyyət, sonu isə məhv olmaqdır.»[2]

2207. İmam Əli (ə): «Bu aldadıcı, vəfasız, xəyanətkar dünyadan çəkinin. Zinətləri ilə özünü bəzəyən və bər-bəzəyi ilə naz-işvə edən dünyadan... O, təzə gəlin kimi çilvələnmiş və gözlər ona mat-məətəl qalmışdır.»[3]

2208. İmam Əli (ə): «Dünyadan uzaqlaşın ki, dünya bivəfa, məkrli və yalançıdır. Bəxş edən, amma eyni zamanda xəsisdir. Geyindirəndir, amma özü də soyundurandır» (verdiyi şeyi sonra geri alandır).»[4]

2209. İmam Əli (ə): «Dünyadan çəkinin! Çünki o, həm Allah dostlarının düşməni, həm də Allah düşmənlərinin düşmənidir. Belə ki, o, Allahın dostlarını qəm-qüssəli edər və Onun düşmənlərini isə aldadar.»[5]

### *707. Dünyanın yalanından çəkinmək*

**Qur‘an:**

«Qadınlara, uşaqlara, qızıl-gümüş yığınları, nişanəli (cins) atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi şeylərə məhəbbət insanlara gözəl göstərilmişdir. (Lakin) Bunların hamısı dünya həyatının malıdır. Halbuki, xeyirli aqibət Allah yanındadır.»[6]

«Dünya həyatı sizləri aldatmasın, eləcə də yalançı sizi Allahla (kərəmi ilə) məğrur etməsin.»[7]

**Hədis:**

2210. İmam Əli (ə): «Bilin ki, dünya çox hiyləgər və məkrli bir saraydır. Hər gün birinə ərə gedər, hər gecə bir ailəni öldürər və hər dəm, hər saat birlikdə olanları bir-birindən ayırar.»[8]

2211. İmam Əli (ə): «Dünyanın rəngarəng cazibələri sizi aldatmasın. Çünki onlardan yalnız az bir miqdarını özünüzlə aparacaqsınız.»[9]

2212. İmam Əli (ə): «Dünya çox hiyləgərdir və onda hər nə varsa aldadıcıdır. Məhv olmağa məhkumdur və onda yaşayan hər bir şey fani olar. Təqvadan başqa onun heç bir azuqəsində xeyir və yaxşılıq yoxdur.»[10]

### *708. Dünyaya yalnız nadanlar aldanar*

---

[1] Nəhcül-Bəlağənin şərhi, səh.111
[2] Biharul-Ənvar, c.73, səh.108 , hədis88
[3] Biharul-Ənvar, c.73, səh.109 , hədis109
[4] Nəhcül-Bəlağə, xütbə 230
[5] Nəhcül-Səadət, c.3, səh.202
[6] Ali İmran, ayə14
[7] Loğman, ayə33
[8] Nəhcül-Səadət, c.3, səh.174
[9] Biharul-Ənvar, c.73, səh.118 , hədis109
[10] Nəhcül-Bəlağə, xütbə 111

2213. İmam Əli (ə): «Ey dünya! Sənin hiylələrini tanımayan və kələk torlarından xəbərsiz olan kimsəni aldat.»[1]

2214. İmam Əli (ə): «Dünya axmaqların qənimətidir.»[2]

2215. İmam Əli (ə): «Dünyaya sevinmək axmaqlıqdır.»[3]

### *709. Qəlbi dünyaya bağlamaqdan çəkinmək*

**Qur'an**:

«Bizimlə görüşməyə (Qiyamətə) ümid etməyən, dünya həyatına razı olan, qəlbini ona bağlayan və bizim ayələrimizdən xəbərsiz olanlar etdikləri əməllərin cəzasına çatacaqlar. Onların yeri (Cəhənnəm) oddur.»[4]

**Hədis:**

2216. İmam Əli (ə) «Onun (divarın) altında ikisinə (iki yetimə) çatacaq bir xəzinə var idi»[5] mübarək ayəsi haqda buyurub: Həmin xəzinə, üzərində aşağıdakı sözlər yazılmış bir qızıl lövhə idi: Mən, dünyanın və onun əhlinin hallarının dəyişkənliyini görən və yenə də qəlbini ona bağlayan kimsəyə təəccüb edirəm.»[6]

2217. İmam Əli (ə) :«Dünyaya, dünyada zahid olanların gözü ilə baxın, çünki dünya tezliklə öz sakinlərini qovar, naz-nemət görmüş qüdrətliləri dərdə-qəmə salar. Buna görə dünyada xoşunuza gələn firavanlıq sizi aldatmasın, çünki dünyadan özünüzlə çox az bir şey aparacaqsınız.»[7]

2218. İmam Əli (ə) :«Dünyaya, ona rəğbəti, meyli olmayan və ondan ayrılan kəs kimi bax, dünyaya, ona məftun olan aşiq kimi baxma.»[8]

2219. İmam Sadiq (ə) :«Əgər dünya fanidirsə, ona ürək bağlamaq nəyə gərəkdir?»[9]

### *710. Dünyanı (axirətdən) üstün tutmağın təhlükəsi*

**Qur'an:**

«Beləliklə, kim tüğyan edib bu dünya həyatını seçərsə (onu axirətdən üstün tutarsa), şübhəsiz ki, onun yeri Cəhənnəmdir.»[10]

**Hədis:**

2220. Loğman (ə) oğluna nəsihətindən: «Dünyanı axirətinə sat ki, hər ikisini əldə edərsən. Axirətini dünyaya satma ki, hər ikisini əldən verərsən.»[11]

2221. İmam Əli (ə): «Dünyaya pərəstiş edən və onu axirətdən üstün tutan şəxsin aqibəti acı olacaqdır.»[12]

---

[1] Ğurərul-Hikəm, hədis 6413
[2] Ğurərul-Hikəm, hədis 1110
[3] Ğurərul-Hikəm, hədis 454
[4] Yunis,ayə7,8
[5] Kəhf, ayə82
[6] Məani -Əxbar, səh.200 , hədis1
[7] Biharul-Ənvar, c.87, səh.20 , hədis79
[8] Ğurərul-Hikəm, hədis 2386
[9] Biharul-Ənvar, c.13, səh.422 , hədis54
[10] Naziat, ayə37-39
[11] Biharul-Ənvar, c.13, səh.422 , hədis17
[12] Əl-Xisal, səh.632 , hədis10

2222. İmam Əli (ə): «Əgər insanlar öz dünyəvi xeyirləri üçün dini işlərindən birini tərk edərlərsə, Allah-taala ziyanı həmin xeyirdən daha çox olan bir işi onların qarşısına çıxarar.»[1]

### *711. Dünya möminin zindanıdır*

2223. Allahın Peyğəmbəri (s): «Dünya heç bir möminin ürəyincə deyil. O, mömin üçün zindan, əziyyət və çətinliklərin mənşəyi olduğu halda başqa cür necə ola bilər ki...»[2]

2224. İmam Sadiq (ə): «Dünya möminin zindanı, qəbr onun qalası, Cənnət isə onun (əbədi) mənzilidir. Dünya kafirin Cənnəti, qəbr onun zindanı, Cəhənnəm odu isə onun (əbədi) mənzilidir.»[3]

### *712. Dünyaya çox əhəmiyyət verməyin təhlükəsi*

2225. İmam Əli (ə) :«Ən böyük dərdi-səri dünya olan kəsin bədbəxtliyi və qəmi uzun çəkər.»[4]

2226. İmam Sadiq (ə): « Allah-taala gecə-gündüz ən böyük dərdi-səri dünya olan kəsin gözləri önünə yoxsulluğu gətirər, işini pərişan edər və Allah-taalanın qismət etdiyindən başqa dünyadan ona bir şey yetişməz. Gecə və gündüz ən böyük dərdi-səri axirət olan kəsin qəlbini Allah-taala ehtiyacsız edər və işlərini səhmana salar.»[5]

### *713. Allah yanında dünyanın zəlilliyi və dəyərsizliyi*

**Qur'an**:

«Əgər insanların vahid ümmət kimi birləşmələri (ehtimalı) olmasaydı, Rəhman Allahı inkar edənlərin evlərinin tavanlarını gümüşdən edərdik... bütün bunların hamısı heç bir dəyəri olmayan dünya malıdır. Halbuki ki, axirət sənin Rəbbinin yanında təqvalılar üçündür.»[6]

**Hədis:**

2227. Allahın Peyğəmbəri (s): «Allah-taala: Əgər mömin bəndəmin xətrinə dəyməsəydi, kafirin başına ləl-cəvahiratla bəzənmiş şal sarıyardım.»[7]

2228. Allahın Peyğəmbəri (s): «Əgər Allahın yanında dünyanın ağcaqanad qanadı qədər dəyəri olsaydı, heç vaxt kafirə və fəsad törədənə bir qurtum su belə içirtməzdi.»[8]

2229. İmam Əli (ə): «Dünyanın Allah yanında xar və ucuz olması (nişanəsi) bundadır ki, dünyadan başqa heç bir yerdə Ona itaətsizlik edilmir və dünyanı

---

[1] Nəhcül-Bəlağə, hikmət 106
[2] Kənzul-Ummal, hədis 6090
[3] əl-Xisal, səh.108 , hədis74
[4] Biharul-Ənvar, c.73, səh.81 , hədis43
[5] əl-Kafi, c.2, səh.319 , hədis15
[6] Zuxruf, ayə33-35
[7] Ət-Təmhis, səh.47
[8] Əmali-Tusi, səh.531 , hədis1162

tərk etməkdən başqa heç bir yolla Allahın yanında olanlara (Cənnətə və Allahın razılığına) yetişmək mümkün deyil.»[1]

2230. İmam Hüseyn(ə): « Dünyanın Allah-taalanın yanında xar və ucuz olmağındandır ki, Yəhya ibn Zəkəriyyanın başı bəni İsrail fahişələrindən birinə hədiyyə verildi.»[2]

### *714. Dünyanın axirətdən ayrı olması*

2231. Allahın Peyğəmbəri (s): «Dünyasını sevən kəs axirətinə ziyan yetirər.»[3]

2232. İmam Əli (ə): «Həqiqətən, dünya və axirət iki barışmaz düşmən və bir-birindən ayrı iki yoldur. Beləliklə, kim dünyanı sevib onunla dostluq edərsə, axirətə nifrət edib ona düşmən olar. Dünya və axirət şərqlə qərb kimidir. Kim onların (ikisinin) arasında yol gedərsə, hər nə qədər birinə yaxınlaşarsa bir o qədər o birindən uzaqlaşar. Dünya və axirət bir kişinin iki arvadı kimidir. (Yəni hər nə qədər birinə tərəf meyl etsə, bir o qədər o biri arvadın ona nifrəti artacaq).[4]

2233. İmam Əli (ə): «Dünyanın acılığı axirətin şirinliyi və dünyanın şirinliyi isə axirətin acılığıdır.»[5]

2234. İmam Əli (ə): «Dünya ilə axirəti bir yerə yığmağa çalışmaq nəfsin hiylələrindəndir.»[6]

2235. İmam Əli (ə): «İnsanın dünyada daddığı elə bir ləzzət yoxdur ki, Qiyamət günü ona qəm-qüssə gətirməsin.»[7]

2236. İmam Əli (ə): «Dünyanın sərvəti axirətin yoxsulluğudur.»[8]

2237. İmam Səccad (ə): «Allaha and olsun, dünya və axirət tərəzinin iki gözü kimidir. Biri aşağı enəndə, o biri yuxarı qalxar.»[9]

2238. İmam Sadiq (ə): «Cənnətə axırıncı daxil olan peyğəmbər Süleyman ibn Davud (ə) olacaq. Bunun səbəbi onun dünyada bütün nemətlərdən bəhrələnməsidir.»[10]

### *715. Dünya və axirətin hazırlanması*

**Qur’an:**

«Allah-taala onlara həm bu dünya mükafatını, həm də axirətin gözəl mükafatını bəxş etdi. Allah yaxşı iş görənləri sevər.»[11]

**Hədis:**

---

[1] Nəhcül-Bəlağə, hikmət 385
[2] Biharul-Ənvar, c.44, səh.365
[3] Biharul-Ənvar, c.73, səh.81 , hədis43
[4] Nəhcül-Bəlağə,  hikmət 103
[5] Nəhcül-Bəlağə, hikmət 251
[6] Ğürərul-Hikəm, hədis 5995
[7] Ğürərul-Hikəm, 9618
[8] Ğürərul-Hikəm, 4705
[9] əl-Xisal, səh.64 , hədis95
[10] Biharul-Ənvar, c.14,  səh.74 , hədis16
[11] Ali İmran, ayə148

2239. İmam Əli (ə): «Var-dövlət və övladlar dünya əkini, yaxşı əməllər isə axirətin tarlasıdır. Bə‘zən Allah-taala insanlar üçün bu iki neməti birlikdə bəxş edər.»[1]

2240. İmam Əli (ə): «Əgər dinini dünyana tabe etsən, dininin və dünyanın hər ikisini itirəcək, axirətdə isə ziyana uğrayanlardan olacaqsan. Amma öz dünyanı dininə tabe etsən, dinini və dünyanı-hər ikisini əldə edəcək və axirətdə də nicat tapanlardan olacaqsan.»[2]

2241. İmam Kazim (ə): «Mürvətinizə xələl yetirmədən və israfa yol vermədən halal istəklərinizi əldə etməklə nəfslərinizi dünya nemətindən bəhrələndirin və bu vasitə ilə öz dini işlərinizi yerinə yetirmək üçün kömək alın. Çünki rəvayət olunub ki, dünyasını dininə görə tərk edən, ya dinindən öz dünyasına görə üz döndərən kəs bizdən deyil.»[3]

***716. Dünyanın bənzəri***

**Qur’an:**

«Onlara dünyanı misal çək. (Bu dünya) Səmadan yağdırdığımız yağışa bənzər. Yerin bitkiləri onunla qarışıb yetişər, sonra isə qupquru quruyar və külək onun çör-çöplərini havaya sovurub hər tərəfə dağıdar. Allah hər şeyə qadirdir.»[4]

**Hədis:**

2242. İmam Əli (ə): «Dünya sənin kölgənə bənzər. Dayansan, o da dayanar, əgər onun dalınca getsən, səndən uzaqlaşar.»[5]

2243. İmam Kazim (ə): «Dünya ilana bənzər. Ona sığal çəkərkən (dərisinin) yumşaqlığını hiss edirsən, amma daxilində öldürücü zəhər var. Ağıllı insanlar ondan çəkinər, uşaqlar isə əllərini ona tərəf uzadarlar.»[6]

2244. İmam Kazim (ə): «Dünya dəniz suyuna bənzər. Təşnə (insan) ondan nə qədər içərsə, susuzluğu daha da artar və axırda onu öldürər.»[7]

2245. İmam Kazeim (ə): «Dünya göy gözlü qadın surətində İsa Məsih (ə) qarşısında təcəssüm etdi. Həzrət (ə) ona buyurdu: «Nə qədər ərə getmisən?.» Dedi: «Çox.» Məsih (ə) buyurdu: «Onların hamısı sənə təlaq verdilər?» Dünya dedi: «Xeyr, əslində onların hamısını öldürdüm.» Məsih (ə) buyurdu:«Onda, vay olsun sənin qalan ərlərinə. Necə də köçüb gedənlərdən ibrət götürmürlər?!»[8]

---

[1] Nəhcus-Səadə c.3, səh.127
[2] Ğurərul-Hikəm, hədis 3750,3751
[3] Biharul-Ənvar, c.78, səh.321 , hədis18
[4] Kəhf, ayə45
[5] Ğurərul-Hikəm, hədis 9818
[6] Biharul-Ənvar, c.78, səh.311 , hədis1
[7] Tuhəful-Uqul, səh.396
[8] Biharul-Ənvar, c.78, səh.311 , hədis1

### *717. Dünyanın xüsusiyyəti*

**Qur'an:**

«Allah-taala istədiyi kəsin ruzisini bol edər, ya da azaldar. İnsanlar isə dünya həyatına sevinirlər. Halbuki, dünya həyatı axirət həyatının müqabilində azacıq maldan başqa bir şey deyil.»[1]

**Hədis:**

2246. «Tənbihul-Xəvatir»: Cəbrayıl (ə) Nuha (ə) dedi:«Ey peyğəmbərlərin ən yaşlısı! Dünyanı necə gördün.» Nuh (ə) buyurdu:«Dünyanı iki qapılı ev kimi gördüm. Bir qapıdan daxil olub o biri qapıdan çıxdım.»[2]

2247. Məsih (ə): «Dünya körpüdən başqa bir şey deyil. Belə isə, ondan keçib gedin və onu abad etməyin.»[3]

2248. Allahın Peyğəmbəri (s): «Dünya axirətlə müqayisədə yalnız buna bənzər ki, sizlərdən bir nəfəri barmağını dənizə batırsın və özü ilə nə gətirdiyinə baxsın.»[4]

2249. Allahın Peyğəmbəri (s): «Dünya (nın ömrü) bir saatdan çox deyil. Buna görə onu (Allaha) itaət etməklə keçir.»[5]

2250. İmam Əli (ə): «Dünya gəldi-gedər və fanidir. Əgər, o sənin üçün qalarsa, sən onun üçün qalmayacaqsan.»[6]

2251. İmam Əli (ə): «Ey insanlar! Dünya keçid sarayı və axirət (əbədi) qalmaq yeridir. Buna görə bu keçiddən öz (əbədi) qalacağınız mənzil üçün (azuqə) götürün.»[7]

2252. İmam Əli (ə): «Dünya keçid sarayıdır, qalmaq yeri deyil və burada insanlar iki dəstəyə bölünür: biri dünyada özünü satıb pozğunluğa düçar edir, o biri isə özünü alır və azad edir.»[8]

2253. İmam Baqir (ə): «Dünyanı özünçün bir dayanacaq mənzil kimi bil ki, sonra oradan köçəcəksən. Yaxud da, yuxu aləmində tapdığın bir mal bil ki, oyanandan sonra ondan bir əsər-əlamət qalmayacaq. Mən bunu bir bənzətmə və misal kimi sənə dedim. Çünki dünya əql və ilahi mərifət sahiblərinin nəzərində kölgələrin yerini dəyişməsinə bənzər.»[9]

2254. İmam Baqir (ə): «Dünya, alimlərin nəzərində kölgə kimidir.»[10]

2255. İmam Kazim (ə): «Loğman oğluna dedi: «Dünya dərin dənizə bənzər, çox insanlar onda qərq olublar. Buna görə (xilas olmaq üçün) sənin bu dənizdə

---

[1] Rəd, ayə26
[2] Tənbihul-Xəvatir, c.1, səh.131.
[3] əl-Xisal, səh.65
[4] Biharul-Ənvar, c.73, səh.119 , hədis110
[5] Biharul-Ənvar, c.77, səh.164 , hədis2
[6] Ğurərul-Hikəm, hədis 1802
[7] Nəhcül-Bəlağə, xütbə 203
[8] Nəhcül-Bəlağə, hikmət 133
[9] əl-Kafi, c.1, səh.133 , hədis16
[10] Biharul-Ənvar, c.73., səh.126 , hədis123

(mindiyin) gəmin gərək ilahi təqva, onun yükü iman, yelkəni təvəkkül, kapitanı ağıl, yol göstərəni elm və sükanı da səbr olsun.»[1]

***718. Dünya bəla ilə dolu saraydır***

2256. İmam Əli (ə): «Dünya bəla ilə dolu bir saraydır, vəfasızlığı ilə məşhurdur, halları davamsızdır. Onun sakinləri sağ-salamat nicat tapmazlar, vəziyyətləri (əhvalları) müxtəlif, vaxtları (növbələri) dəyişkəndir. Onda həyat (yaşayış) məzəmmət olunub, əmin-amanlığı və rahatlığı yoxdur.»[2]

ιοοοοοοπ

---

[1] əl-Kafi, c.1, səh.16 , hədis12

[2] Nəhcül-Bəlağə, xütbə 226

## 144

# Yumşaqlıq göstərmək

***719. Yumşaqlıq göstərmək***

**Qur'an:**

«İstərdilər ki, sən onlara qarşı yumşaqlıq göstərəsən ki, onlar da sənə qarşı yumşaqlıq göstərsinlər».[1]

**Hədis:**

2257. İmam Əli (ə): «Sənin ən pis (din) qardaşın, sənin nəfsin (nöqsanların) barədə yumşaqlıq göstərən və sənin eyblərini sənə deməyən kəsdir.»[2]

2258. İmam Əli (ə): «Kim öz nəfsinə qarşı yumşaqlıq göstərərsə, onu haram olunmuş səhlənkarlığa tərəf çəkər.»[3]

2259. İmam Baqir (ə): «Allah-taala Şueyb peyğəmbərə (ə) vəhy etdi:Mən sənin xalqından yüz min nəfərə əzab verəcəm, onların qırx min nəfəri pis əməl sahibi, altmış min nəfəri isə yaxşı əməl sahibidir. Şueyb (ə) ərz etdi: Ey Rəbbim! Pis əməl sahibləri buna layiqdir, bəs yaxşı əməl sahibləri niyə? Allah-taala ona vəhy etdi ki, onlar günahkarlarla yumşaq rəftar etdilər. Mənim qəzəbimə xatir qəzəblənmədilər.»[4]

**720. Haqqda yumşaqlıq göstərməmək.**

2260. İmam Əli (ə): «Haqla üzbəüz gələndə və haqq olduğunu biləndə onun barəsində səhlənkarlıq etməyin. Yoxsa, çox böyük ziyan görərsiniz.»[5]

2261. İmam Əli (ə): «Öz canıma and olsun, haqqa qarşı çıxan və azğınlığa qərq olan kəslə müharibədə heç vaxt yumşaqlıq və zəiflik göstərmərəm.»[6]

ιooooooπ

---

[1] Qələm, ayə9
[2] Ğurərül-Hikəm, hədis 5725
[3] Ğurərül-Hikəm, hədis 9022
[4] Mişkəful-Ənvar, səh.51
[5] Biharul-Ənvar, c.77, səh.291 , hədis2
[6] Nəhcül-Bəlağə, xütbə 24

**145**

# Dövlət

***721. Alicənab insanların dövləti***

2262. İmam Əli (ə): «Alicənabların dövləti ən böyük qənimət, alçaqların dövləti isə alicənabların xar olmasına səbəbdir.»[1]

2263. İmam Əli (ə): «Dövlətlərin dağılmasının dörd əlaməti var: Üsulu (dini əqidələri) kənara qoymaq, furudan (yalnız zahirən dini əməlləri yerinə yetirməkdən) yapışmaq, alçaqları qabağa çəkmək, ləyaqət və fəzilət sahiblərini geriyə atmaq.»[2]

2264. İmam Əli (ə): «Allahın vacib etdiyi ən mühüm hüquq rəhbərin xalq üzərində olan haqqı və xalqın rəhbər üzərində olan haqqıdır...Əgər xalq rəhbərin, rəhbər də xalqın haqqını yerinə yetirərsə bu dövlətdə haqq izzət və qüdrət tapar, dinin aydın yolları düz, hamar olar, ədalət və doğruluq nişaşələri bərpa olunar, qayda-qanunlar düzgün icra edilər. Bu minvalla, zəmanənin vəziyyəti düzələr, dövlətin möhkəm və davamlı olmasına ümid artar və düşmənlər öz arzularına çatmaqdan məyus olarlar.»[3]

2265. İmam Əli (ə): «Ədalət qədər dövləti möhkəmlədən heç bir amil yoxdur.»[4]

2266. İmam Əli (ə): «Dini öz dövlətinin hasarı, şükr etməyi öz nemətlərinin mühafizəçisi et! Çünki din hasarları arasında olan hər bir dövlət məğlub edilməzdir və şükr etməyin mühafizəsi altında olan hər bir nemət isə heç vaxt oğurlanmaz.»[5]

2267. İmam Əli (ə): «İşlərin təhlükəsizliyi üçün oyaq qalmaq dövlətin möhkəmliyinin nişanəsidir.»[6]

---

[1] Ğurərul-Hikəm, hədis 5112+5113
[2] Ğurərul-Hikəm, hədis 10965
[3] Nəhcül-Bəlağə, xütbə 216
[4] Ğurərul-Hikəm, hədis 9574
[5] Ğurərul-Hikəm, hədis 5831
[6] Ğurərul-Hikəm, hədis 9360

146

# Dərman və müalicə

***722. Müalicə etmək***

2268. İmam Sadiq (ə): «Peyğəmbərlərdən biri xəstələnir və belə deyir: Mənə xəstəlik göndərən mənə şəfa verməyincə, özümü müalicə etməyəcəm. Allah-taala ona vəhy edir ki, «özünü müalicə etməyincə, sənə şəfa verməyəcəm. Çünki şəfa vermək Mənim əlimdədir.»[1]

***723. Hər dərdin bir dərmanı var***

2269. Allahın Peyğəmbəri (s): «Özünüzü müalicə edin. Çünki Allah-taala ölüm və qocalıqdan başqa (onların dərmanı yoxdur) elə bir dərd göndərməyib ki, onun şəfasını insanların ixtiyarında qoymamış olsun.»[2]

2270. İmam Əli (ə) :«Hər dərdin bir dərmanı var.»[3]

***724. Dərhal dərmana sığınmaqdan çəkin***

2271. Allahın Peyğəmbəri (s): «Bədənin xəstəliyə tab gətirənədək dərmandan istifadə etməkdən çəkin və xəstəliyə dözə bilməyəndə dərmana əl at.»[4]

2272. İmam Əli (ə): «Müsəlman özünü, yalnız xəstəlik onun sağlamlığına qalib gələn zaman müalicə edər.»[5]

2273. İmam Kazim (ə): «Elə bir dərman yoxdur ki, özü ilə yeni bir xəstəlik gətirməsin. Bədən üçün ən faydalı şey onun ehtiyacı olduğu (qida) maddələrdən başqa, hər şeydən pəhriz saxlamaqdır.»[6]

***725. Pəhriz ən gözəl dərmandır***

2274. İmam Əli (ə): «Ən faydalı dərman ac qalmaqdır.»[7]

2275. İmam Sadiq (ə): «Yeməkdən pəhriz saxlamaq xəstəyə ziyan yetirməz.»[8]

---

[1] Biharul-Ənvar, c.62, səh.66 , hədis15
[2] Kənzul-Ummal, hədis 28088
[3] Ğurərul-Hikəm, hədis 7275
[4] Biharul-Ənvar, c.81, səh.211 , hədis30
[5] əl-Xisal, səh.620 , hədis10
[6] əl-Kafi, c.8, səh.273, hədis409
[7] Ğurərul-Hikəm, səh.903
[8] Biharul-Ənvar, c.62, səh.140 , hədis2

2276. İmam Sadiq (ə): «(Xəstəliyin) Yeddinci günündən sonra pəhrizin (başlamağın) xəstəyə faydası yoxdur.»[1]

2277. İmam Kazim (ə): «Pəhriz ən yaxşı dərman və mə‘də xəstəliklərin evidir. Bədəninin adət etmək qabiliyyəti olduğu qədər ona adət etdir.»[2]

2278. İmam Kazim (ə): «Pəhriz, heç bir şey yeməmək deyil, əksinə, pəhriz hər şeydən yüngülcə yeməkdir.»[3]

**726. Ən böyük dərman.**

2279. İmam Sadiq (ə): «İmam Hüseynin (ə) qəbrinin türbətində (torpağında) hər dərdin şəfası var. Ən böyük dərman odur.»[4]

***727. Müxtəlif***

2280. İmam Əli (ə): «Nə çoxdur özü ilə dərd və xəstəlik gətirən dərmanlar. Nə çoxdur özü dərman və müalicə olan xəstəliklər.»[5]

2281. İmam Əli (ə): «Dərmanın acılığına tab gətirməyən şəxsin xəstəliyi uzanar.»[6]

2282. İmam Hüseyn (ə): «Padşaha dərman yazma. Çünki ona fayda versə sənə təşəkkür etməz və əgər ona zərər yetirsə, səni ittiham edər.»[7]

ιοοοοοπ

[1] əl-Kafi, c.7, səh.291 , hədis442
[2] Məkarimul-Əxlaq, c.2, səh.180 , hədis2468
[3]əl-Kafi, c.8, səh.291 , hədis443
[4] Biharul-Ənvar, c.101, səh.123 , hədis18
[5] Nəhcül-Bəlağə, məktub 31
[6]Ğurərul-Hikəm, hədis 9209
[7] Biharul-Ənvar, c.75, səh.382 , hədis47

## 147

# Din

**728. Din**

2283. İmam Əli (ə): «Dində (dindarlıqda) incəlikləri görən və dəqiq olan kəs Qiyamət günü ali məqam sahibi olar.»[1]

2284. İmam Əli (ə) : «Din nurdur.»[2]

2285. İmam Əli (ə) : «Həqiqətən, ən üstün din Allah yolunda dostluq və düşmənçilik etməkdir.»[3]

2286. İmam Əli (ə): «Din insanı qoruyar.»[4]

2287. İmam Əli (ə) : «Din ən qüdrətli dayaqdır.»[5]

2288. İmam Sadiq (ə): «Əmirəl-möminin (ə) öz xütbələrində bu cümləni çox buyurardı: Ey insanlar! Dindar olun, dindar! Əgər günah edib dindar olsanız, (bu sizin üçün) savab iş görüb, amma dinsiz olmadığınızdan daha yaxşıdır. Çünki günah (dindar olduqda) bağışlanar, amma savab və yaxşılıq dinsizlikdə qəbul olunmaz.»[6]

***729. Dinin bəlası***

2289. İmam Əli (ə) : «Dinin bəlası bədgüman olmaqdır.»[7]

2290. İmam Əli (ə): «Dinin fəsadı dünyadır.»[8]

2291. İmam Sadiq (ə): «Dinin bəlası paxıllıq, xudpəsəndlik və özünü öyməkdir.»[9]

***730. Dini qorumağa təşviq***

2292. İmam Əli (ə) : «Bəla gələn zaman öz mallarınızı öz canlarınızı qorumaqçün sipər edin. Bir hadisə baş versə canlarınızı dininizə qurban edin və bilin ki, dini məhv olanın özü həlak olmuşdur. Dini qarət olunmuşun özü qarət olunmuşdur.»[10]

---

[1] Ğurərul-Hikəm, hədis 8807
[2] Ğurərul-Hikəm, hədis 213
[3] Ğurərul-Hikəm, hədis 3540
[4] Ğurərul-Hikəm, hədis 1
[5] Ğurərul-Hikəm, hədis 489
[6] Nəhcüs-Səadə, c.3, səh.368
[7] Ğurərul-Hikəm, , hədis 3924
[8] Ğurərul-Hikəm, hədis 6554
[9] əl-Kafi, c.2, səh.307 , hədis5
[10] əl-Kafi, c.2, səh.216 , hədis2

2293. İmam Sadiq (ə) müsibət gələn vaxt buyurardı: «Allaha şükr və həmd olsun ki, mənim müsibətimi dinimdə qərar vermədi.»[1]

### *731. Bu kəslərin dini yoxdur*

2294. İmam Baqir (ə): «Günah iş görən şəxsə itaət etməyi öz öhdəsinə götürənin dini yoxdur. Yalan və batili (şeyləri) Allahın adına çıxanın dini yoxdur. Allahın ayələrindən bir ayəni inkar edən şəxsin dini yoxdur.»[2]

2295. İmam Sadiq (ə): «Allah tərəfindən olmayan zalım rəhbərin vilayətini (və hakimiyyətini) qəbul edən kimsənin dini yoxdur.»[3]

2296. İmam Sadiq (ə): «Əhd-peymanına sadiq olmayan kəsin dini yoxdur.»[4]

2297. İmam Sadiq (ə):«Məhəbbəti və düşmənçiliyi dinə görə olmayanın dini yoxdur.»[5]

2298. İmam Kazim (ə): «Mərdliyi və insaniyyəti olmayan kəsin dini yoxdur.»[6]

2299. İmam Rza (ə): «Allah qorxusu olmayan kəsin dini yoxdur.»[7]

### *732. Dinin asanlığı*

2300. Allahın Peyğəmbəri (s): «Ey insanlar! Həqiqətən, Allahın dini asandır.»[8]

2301. Allahın Peyğəmbəri (s): «Mən (insanlara) haqq (hənif), asan din gətirmək üçün seçilmişəm. Mənim sünnəmə və üslubuma müxalif olan kəs məndən deyil.»[9]

2302. Allahın Peyğəmbəri (s): «Allah-taala məni zahidliyi təbliğ etməyə göndərməmişdir. Həqiqətən, Allahın yanında ən yaxşı din Allahın asan, haqq (hənif) dinidir.[10]

### *733. Əməllərin yalnız onunla qəbul olunduğu din*

**Qur’an:**

«İslamdan qeyri bir dini seçən kəsdən (heç bir əməl) qəbul olunmayacaq və axirətdə ziyan görənlərdən olacaqdır.»[11]

**Hədis:**

2303. İmam Sadiqin (ə) əbu Bəsirin «Sənə fəda olum! Məni, Allah-taalanın bəndələr üçün vacib etdiyi dindən agah et. O dindən ki, bəndələrin vəzifəsi onu tanımaqdır və ondan başqa bəndələrdən heç bir din qəbul olunmur» sualına

---

[1] Biharul-Ənvar, c.78, səh.268 , hədis183
[2]əl-Kafi, c.2, səh.2, hədis4
[3] Biharul-Ənvar, c.72, səh.135 , hədis19
[4] Biharul-Ənvar, c.84, səh.252 , hədis48
[5] əl-Kafi, c.2, səh.127 , hədis16
[6] Tuhəful-Uqul, səh.389
[7] Kəmalu-Din, səh.341 , hədis5
[8] Kənzul-Ummal, hədis 5418
[9] Kənzul-Ummal, hədis 900
[10] Kənzul-Ummal, hədis 5422
[11] Ali İmran, ayə85

cavabından: «Allahın vahidliyinə, Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət vermək, namaz qılmaq, zəkat vermək, gücü çatanlar üçün Allahın evini (həcc) ziyarət etmək və Ramazan ayının orucunu tutmaq.» Burada İmam bir qədər sükut etdi. Sonra iki dəfə buyurdu:«Və (biz Əhli-Beytin) vilayəti qəbul etmək.»[1]

***734. Dini tanımağın yolu***

2304. İmam Sadiq (ə): « Öz dinini Allahın kitabı ilə tanıyan şəxs dağlar öz yerindən oynasa belə, dinində tərəddüdə və şəkkə düşməz. Amma başa düşmədiyi bir əqidəni qəbul edən kəs, başa düşmədən də həmin əqidədən çıxar.»[2]

2305. İmam Sadiq (ə): «Kim bəzi insanların (şəxsiyyətlərinə məftun olmaq) vasitəsilə bu dinə gələrsə, həmin şəxslər onu dinə gətirdikləri kimi, eləcə də dindən çıxardar. Amma kim Allahın kitabı və peyğəmbərin sünnəsi ilə dinə gələrsə,dağlar yerindən qopar, ancaq o, öz dinində sabitqədəm qalar (və əqidəsində, dinində tərəddüdə, səkkə düşməz).» [3]

***735. Dini dünya ilə qorumaq***

2306. İmam Əli (ə): «Öz dinini dünyanla qoru ki, hər ikisini udasan. Öz dünyanı dininlə qoruma ki, hər ikisini uduzarsan.»[4]

2307. İmam Əli (ə): «Əgər insanlar öz dünyalarının xeyir və abadlığı naminə öz dini işlərindən birini tərk edərlərsə, Allah-taala ziyanı o xeyirdən daha çox olan bir işi onlara ürcah edər.» [5]

***736. Dinin qəlbdə möhkəmlənməsi üçün dua***

2308. Abdulla ibn Sənan: «İmam Sadiq (ə) buyurmuşdur: «Tezliklə elə bir şübhəyə düçar olacaqsınız ki, (doğru) yol tapmaq üçün nə bir nişanə görəcəksiniz, nə də bir rəhbər sizi (doğru yola) hidayət edəcək. O şübhədən yalnız qəriğ duası oxuyan kəs nicat tapacaq.» Ərz etdim: «Qəriq duası necədir?» Buyurdu:«Belə deyərsən: Ya Allahu, ya rəhmanu, ya rəhim. Ya muqəllibəl qulub. Səbbit qəlbi alə dinəkə.» (Yəni, ey Allah, ey bağışlayan, ey mehriban! Ey qəlbləri dəyişdirən! Mənim qəlbimi öz dinində sabit və möhkəm et). [6]

***737. Allahın dinini qoruyanların xüsusiyyəti***

2309. İmam Əli (ə): «Allahın dinini qoruyan kəslər, dini bərpa edənlər, ona kömək edənlər, dini hər tərəfdən əhatəyə alanlar, onu Allah bəndələri üçün saxlayanlar, onu əziz tutan və ona riayət edənlərdir»[7].

---

[1] əl-Kafi, c.2, səh.22 , hədis11
[2] Biharul-Ənvar, c.33, səh.103 , hədis11
[3] Biharul-Ənvar, c.2, səh.105 , hədis67
[4] Ğurərul-Hikəm, hədis 5861
[5] Ğurərul-Hikəm, hədis 10831
[6] Kəmalud-Din, səh.352 , hədis49
[7] Ğurərul-Hikəm, hədis 3912

***738.Dindən bəhrələnməyən şəxslərin vasitəsilə dinin möhkəmlənməsi***

2310. Allahın Peyğəmbəri (s): «Allah-taala bu dini bədəməl kişinin vasitəsilə möhkəmlədər.»[1]

2311. Allahın Peyğəmbəri (s): «Allah-taala bu dini xeyirdən və dindən bir bəhrə görməyən insanların vasitəsilə möhkəmlədər.»[2]

ιοοοοοπ

---

[1] Kənzul-Ummal , hədis115

[2] Kənzul-Ummal, hədis 2895

# 148

# Borc almaq

***739. Borc***

2312. Allahın Peyğəmbəri (s): «Borc almaqdan çəkinin ki, o, gecənin qəmi və günün zəlilliyidir.» [1]

2313. İmam Əli (ə): «Çox borclu olmaq doğru danışanı yalançı və sözübütöv adamı sözündən çıxan edər.» [2]

2314. İmam Sadiq (ə): «Az borc götürün, az borclu olmaq ömrü uzadar.»[3]

***740. Ehtiyac olan yerdə, borc almaq olar***

2315. İmam Kazim (ə): «Özünün və ailəsinin tə‘minatı üçün halal ruzi dalınca gedən şəxs Allah yolunda cihad edən kəs (mucahid) kimidir. Əgər bir qazanc əldə edə bilməsə, Allaha və Onun peyğəmbərinə ümid edərək borc götürsün və ailəsinin yeməyini tə‘min etsin.» [4]

***741. Borcu (yazılı) qeyd etməyə həvəsləndirmək***

**Qur’an:**

«Ey iman gətirənlər! Bir-birinizə müddətli borc verəndə onu (bir yerdə) yazın.»[5]

**Hədis:**

2316. Allahın Peyğəmbəri (s): «Bir neçə dəstə insanın, o cümlədən, bir kəsə müddətli borc verən, amma onu qeyd etməyən, ya bir neçə şahid götürməyən kəsin duası müstəcəb olmaz.»[6]

***742. Borcu ödəməyi yubatmağın qadağan olunması***

2317. Allahın Peyğəmbəri (s): «Əgər bir şəxs öz borcunu ödəməyə imkanı olduğu halda, bu ödənişi yubadırsa, hər keçən gün (zorla) bac (xərac) yığanın günahı onunçün yazılar.»[7]

2318. Allahın Peyğəmbəri (s): «İmkanlı şəxsin borcunu ödəməyi yubandırması zülmdür.»[8]

2319. İmam Əli (ə): «Öz malında ən xəsis insanlar, öz abırlarında (tökməkdə) ən səxavətli olanlardır.»[9]

---

[1] Biharul-Ənvar, c.103, səh.141, hədis4
[2] Ğurərul-Hikəm, hədis 7105
[3] Biharul-Ənvar, c.103, səh.145, hədis21
[4] əl-Kafi, c.5, səh.93, hədis3
[5] Bəqərə/282
[6] Biharul-Ənvar, c.104, səh.301, hədis1
[7] Biharul-Ənvar, c.103, səh.126, hədis3
[8] Mustədrəkul-Vəsail, c.13, səh.397 , hədis15713
[9] Ğurərul-Hikəm, hədis 3190

**149**

# Allahı yad etmək

***743. Allahı yad etməyin fəziləti***

**Qur’an:**

«Ey iman gətirənlər! Mallarınız və övladlarınız sizin fikrinizi Allahı yad etməkdən yayındırmasın. Belə edən kəslər (Əlbəttə,) ziyana uğrayanlardır.»[1]

**Hədis:**

2320. Allahın Peyğəmbəri (s): «Heç bir şeyi Allahı yad etməkdən üstün bilmə. Çünki O, buyurmuşdur: «Allahı yad etmək daha böyükdür.»[2]

2321. Allahın Peyğəmbəri (s): «Allah yanında heç bir başqa əməl Allahın xatırlanması qədər sevilən, dünya və axirətdə bəndənin bütün günahlardan xilas olmağında daha tə‘sirli olan heç bir başqa əməl yoxdur.» Ərz etdilər: «Hətta Allah yolunda müharibə etmək də?» Buyurdu: «Əgər Allahı yad etmək olmasaydı, Allah yolunda müharibə əmri verilməzdi.»[3]

2322. İmam Əli (ə): «Allahı yad etmək (Allahı) sevənlərin ləzzətidir.»[4]

2323. İmam Əli (ə) : «Yad etmək, sevilən (məşuq) ilə həmsöhbət olmaqdır.»[5]

2324. İmam Əli (ə): «Allahı yad etmək hər yaxşı əməl sahibinin adəti və hər bir möminin xasiyyətidir.»[6]

***744. Allahı çox yad etməyə həvəsləndirmək***

**Qur’an:**

«Ey iman gətirənlər! Allahı çox yad edin, Ona hər səhər və axşam təsbih deyin.»[7]

**Hədis:**

2325. Allahın Peyğəmbəri (s): «Çoxlu Qur‘an oxumağı və Allahı çox yad etməyi sənə tövsiyə edirəm. Çünki bu, sənin üçün səmada ad (və şöhrət) və yerdə nurdur.»[8]

2326. İmam Əli (ə): «Allahı gizlində yad edən kəs Allahı çox yad etmişdir.»

---

[1] Münafiqun/9
[2] Biharul-Ənvar c.77, səh.107 , hədis1
[3] Kənzul-Ummal, hədis 3931
[4] Ğurərul-Hikəm, hədis 670
[5] Ğurərul-Hikəm, hədis 322
[6] Ğurərul-Hikəm, hədis 5173
[7] Əhzab/41, 42
[8] əl-Xisal, səh.525 , hədis13

[1]

2327. İmam Sadiq (ə): «Bacardığınız qədər gecə və gündüz, hər an, hər saat Allahı çox yad edin. Çünki Allah-taala özünü çox yad etməyi əmr etmişdir.» [2]

2328. İmam Sadiq (ə): «Xanım Fatimeyi Zəhranın (ə) təsbihi Allah - taalanın «Allahı çox yad edin.» kəlamında buyurduğu həmin çox zikrlərdəndir.» [3]

***745. Allahı daim yad etməyə həvəsləndirmək***

2329. Allahın Peyğəmbəri (s): «Adəm övladı dünya həyatında Allahın anmadan keçirdiyi hər bir anına görə Qiyamət günü təəssüflənəcək.»[4]

2330. İmam Əli (ə) Şəban ayının dualarında: «İlahi, məni Səni yad etməyə məftun və divanə et, mənim sə‘yimi Sənin qalib adlarının ruhuna və müqəddəs dərgahına tərəf yönəlt.»[5]

2331. İmam Əli (ə): «İlahi! Səndən Məhəmməd və onun ismətli Əhli-Beytinə salam göndərməyi və məni daim Səni yad edənlərdən, Sənin əhdini pozmayanlardan etməyini diləyirəm.»[6]

***746. Allahı hər bir halda yad etmək yaxşıdır***

**Qur’an:**

«Həqiqətən, səmaların və yerin yaranmasında, gecə ilə gündüzün dəyişməsində ağıl sahibləri üçün ibrətlər vardır. O kəslər ki, ayaq üstə, oturaq və yanları üstündə uzanıqlı halda Allahı yad edirlər.»[7]

**Hədis:**

2332. İmam Əlinin (ə) vəfat edərkən oğlu Həsənə (ə) tövsiyyələrindən: «Bütün hallarda Allahı yad et.»[8]

2333. İmam Sadiq (ə): «Musa (ə) ərz etdi: «Ey Rəbbim! (Bə‘zən) Elə bir halda oluram ki, sənin şənini, məqamını Səni yad etməyimdən daha ali bilirəm.» Allah buyurdu: «Ey Musa! Məni bütün hallarda yad et.»[9]

***747. Allahı yad edənlər***

2334. Allahın Peyğəmbəri (s): «(Allahdan) Qafil olanların arasında Allahı yad edən kəs, fərarilər arasında döyüşən şəxs kimidir.»[10]

2335. Allahın Peyğəmbəri (s): «Allahı yad edənlərdən başqa hamı dodaqları

---

[1] Biharul-Ənvar, c.93, səh.342 , hədis11
[2] əl-Kafi, c.8, səh.8 , hədis1
[3] Xanım Fatimeyi-Zəhranın (ə.s.) təsbihi – 34 dəfə Allahu əkbər, 33 dəfə əlhəmdulillah, 33 dəfə subhanəllah deməkdir.
[4] əl-Kafi, c.2, səh.500 , hədis4
[5] Kənzul-Ummal, hədis 1819
[6] Biharul-Ənvar, c.94, səh.98 , hədis13
[7] Ali İmran/190, 199
[8] Biharul-Ənvar, c.81, səh.99 , hədis13
[9] Əmali-Tusi, səh.8 , hədis8
[10] Biharul-Ənvar, c.80, səh.176 , hədis21

təşnə halında öləcək.»[1]

2336. «Biharul-Ənvar»: «Musa ibn İmran (ə) öz Rəbbinə ürək sirlərini açan zaman ərz etdi: «Ey Rəbbim! Məgər Sən məndən uzaqsan ki, Səni səsləyim, ya mənə yaxınsan ki, Səninlə pıçıldaşım?» Allah-taala vəhu etdi:«Mən, Məni yad edən kəsin yoldaşıyam.»[2]

2337. İmam Əli (ə): «Allahı (daim) yad edən kəsi Allah-taala adlı-sanlı edər.»[3]

2338. İmam Əli (ə): «Sübhan olan Allahı yad edən kəs, Onunla yoldaşdır.»[4]

2339. İmam Baqir (ə): «Mömin ayaq üstə, oturaq, ya uzanıqlı halda Allahı yad etməklə məşğul olan zamanadək daim namazdadır. Allah-taala buyurmuşdur: «O kəslər ki, ayaq üstə, oturaq və yanları üstündə uzanıqlı halda Allahı yad edərlər...»[5]

2340. İmam Sadiq (ə): «Allahı yad edənə ildırım ziyan yetirməz.»[6]

### *748. Məni yad edin ki, sizi yad edim*

**Qur'an:**

« Məni yad edin ki, Mən sizi yad edim. Mənə şükr edin, Mənə qarşı küfr və nankorluq etməyin»[7]

**Hədis:**

2341. İmam Sadiq (ə): «Allah-taala buyurub: «Ey Adəm ovladı! Öz qəlbində Məni yad et ki, Mən də özümdə səni yad edim. Ey Adəm övladı! Xəlvətdə Məni yad et ki, səni xəlvətdə yad edim. Ey Adəm övladı! Camaat arasında Məni yad et ki, sənin camaatından daha yaxşı camaat arasında səni yad edim.»[8]

### *749. Allahı yad etməyin səmərələri*

**Qur'an:**

«İman gətirən və qəlbləri Məni yad etməklə rahatlıq tapan kimsələr. Bilin ki, Allahı yad etməklə qəlblər rahatlıq tapar.»[9]

**Hədis:**

2342. Allahın Peyğəmbəri (s): «Allahı yad etmək qəlblərin şəfasıdır.»[10]

2343. Allahın Peyğəmbəri (s): «Allahı çox yad edən kəs nifaqdan uzaq olar.»[11]

---

[1] Məkarimul-Əxlaq, c.2, səh.373 , hədis2661
[2] Biharul-Ənvar, c.81, səh.240, hədis26
[3] Ğurərul-Hikəm, hədis 8235
[4] Ğurərul-Hikəm, hədis 5159
[5] Əmali-Tusi, səh.79
[6] Əmali-Səduq, səh. 375
[7] Bəqərə/152
[8] Biharul-Ənvar, c.93, səh.158 , hədis31
[9] Rəd/27
[10] Kənzul-Ummal, hədis 1751
[11] əl-Firdovs, c.3, səh.564 , hədis5768

2344. Allahın Peyğəmbəri (s):«Allah-taala, Onu çox yad edən kəsi sevər.»[1]

2345. İmam Əli (ə): «Öz qəlbini Allahı həmişə yad etməklə abad edən şəxsin əməlləri gizlində də, aşkarda da gözəl olar.»[2]

2346. İmam Əli (ə): «Qəlbin islah olmasının və təmizlənməsinin kökü onun Allahı yad etməsindədir.»[3]

2347. İmam Əli (ə): «Kim pak olan Allahı yad edərsə, Allah-taala onun qəlbini dirildər, əqlini və düşüncəsini işıqlandırar.»[4]

2348. İmam Əli (ə): «Allahı yad etmək canların qidası (qüvvəsi) və məşuqla həmsöhbət olmaqdır.»[5]

2349. İmam Əli (ə): « Sənə Allahı yad etməyi tövsiyyə edirəm. Çünki o, qəlblərin nurudur.»[6]

2350. İmam Əli (ə): «Daim Allahı yad etmək qəlbi və düşüncəni işıqlandırar.»[7]

2351. İmam Əli (ə): «Sübhan olan Allah özünü yad etməyi qəlbləri cilalayan vasitə etmişdir; qəlblərin ağır eşidən qulaqları Allahı yad etməklə açılar, qəlblərin zəif gözləri onun vasitəsilə işıqlı və iti görən olar, inadkar və dava axtaran qəlblər Allahı yad etməklə ram olarlar.»[8]

2352. İmam Əli (ə): «Ey adı dərman və zikri şəfa olan.»[9]

2353. İmam Əli (ə): «Allahı xatırlamaq, ünsiyyətin açarıdır.»[10]

2354. İmam Əli (ə): «Elə ki gördün, pak olan Allah öz zikrini sənin qəlbinə salıb, (yəqin) bil ki, O səni sevir. Elə ki gördün, sənin qəlbini öz yaratdıqları ilə məşğul edib və öz zikrindən (yadından) ayırıb, bil ki, səndən üz döndərib.»[11]

2355. İmam Əli (ə): «Allahı yad etmək şeytanı uzaqlaşdırar.»[12]

2356. İmam Əli (ə): «Allalhı yad etmək sinələri cilalandırar və qəlblərə rahatlıq bəxş edər.»[13]

2357. İmam Əli (ə): «Allahı yad etmək sinəni genişləndirər.»[14]

### *752. Bəzi məxsus məqamlarda Allahı yad etməyə həvəsləndirmək*

**1. Düşmənlə üz-üzə gələndə.**

**Qur'an:**

«Ey iman gətirənlər! Düşmənlərdən bir dəstə ilə üz-üzə gəldikdə möhkəm

---

[1]Biharul-Ənvar, c.93, səh.160 , hədis39
[2]Ğurərul-Hikəm, hədis 8872
[3] Ğurərul-Hikəm, hədis 3083
[4] Ğurərul-Hikəm, hədis 8876
[5] Ğurərul-Hikəm, hədis 5166
[6] Ğurərul-Hikəm, hədis 6103
[7] Ğurərul-Hikəm, hədis 5144
[8] Nəhcül-Bəlağə, xütbə 222
[9] İqbalul-Əmal, c.3, səh.337
[10] Ğurərul-Hikəm, hədis 541
[11] Ğurərul-Hikəm, hədis 4040+4041
[12] Ğurərul-Hikəm, hədis5162
[13] Ğurərul-Hikəm, hədis 5165
[14] Ğurərul-Hikəm, hədis 835

olun və Allahı çox yad edin, bəlkə nicat tapasınız.»[1]

**Hədis:**

2358. İmam Əli (ə): «Müharibədə düşməninizlə qarşı-qarşıya gələndə, az söz danışın və Allahı çox yad edin.»[2]

**2. Bazara daxil olanda.**

2359. İmam Əli (ə): «Bazara daxil olarkən insanların (alverlə) məşğul olduğunu görəndə Allahı çox yad edin. Çünki bu əməl günahları aparar, yaxşılıqları artırar və adlarınız qafil olanların sırasında yazılmaz.»[3]

**3. Qəmli olanda, hökm verəndə və bölgü zamanı.**

2360. Allahın Peyğəmbəri (s): « Sənə qəm-qüssə üz verəndə öz qəminlə Allahı yad et. Hökm vermək istəyəndə Allahı dilinlə zikr et, bir şeyi bölmək istəyəndə Allalhı öz əlinlə yad et.»[4]

**4. Qəzəbli olanda.**

2361. Allahın Peyğəmbəri(s): «Allah-taala öz peyğəmbərlərindən birinə vəhy etdi: «Ey Adəm övladı! Qəzəbli olanda Məni xatırla ki, Mən də qəzəblənəndə səni yad edim və başqaları ilə birlikdə səni məhv etməyim.»[5]

**5. Tək olanda və ləzzətlər vaxtı.**

2362. İmam Baqir (ə): «Tövratda yazılıb: ...Ey Musa! Tək olanda, ləzzət və şadlıqlar sevinci zamanı Məni yad et ki, qəflətdə olduğun vaxt da Mən səni yad edim.»[6]

***751. Allahı yad etməyin həqiqəti***

2363. Allahın Peyğəmbəri (s): «Kim Allahın əmrinə itaət edərsə -hərçənd namaz qılmağı, oruc tutmağı və Qur‘an oxumağı az olsa da- Allahı yad etmişdir.»[7]

2364. İmam Sadiq (ə) («və Allahı yad etmək daha böyükdür» ayəsi barədə): «Burada məqsəd, Allahın halal və haramı ilə qarşılaşanda Allahı yad etməkdir.»[8]

2365. İmam Sadiq (ə): «Zikr iki növdür: Qəlblə müvafiq və onunla birlikdə olan xalis zikr, digəri isə Allahdan qeyri bir kəsin zikrini (yad edilməsini) qəlbdən götürən çəkindirici zikrdir.»[9]

2366. İmam Sadiq (ə): «Əgər Allahı yad edirsənsə, bil ki, bunun səbəbi Onun səni yad etməyindir. O səni yad edir, halbuki səndən ehtiyacsızdır. Beləliklə, Onun səni yad etməyi, sənin Onu yad etməyindən daha qiymətli, daha

---

[1] Ənfal/45

[2] əl-Xisal, səh.617, hədis10

[3] əl-Xisal, səh.614, hədis10

[4] Biharul-Ənvar, c.77, səh.171, hədis7

[5] Biharul-Ənvar, c.75,səh.321, hədis50

[6] Əmali-Səduq, səh. 210, hədis6

[7] Biharul-Ənvar, c.77, səh. 86, hədis3

[8] Nurus-Səqəleyn, c.4, səh.162, hədis61

[9] Biharul-Ənvar, c.93, səh.159, hədis33

çox istənilən, daha kamil və daha tezdir... Buna əsasən, Allah-taalanı yad etmək istəyən kəs bilməlidir ki, Allah-taala özünü yad etmək uğurunu bəndənin yadına salmasaydı, bəndənin Onu yad etməyə qüdrəti çatmazdı.»[1]

2367. İmam Rza (ə): «Allahı yad edən kəs Onun görüşünə tələsməsə özünə rişxənd etmişdir.»[2]

### *752. Allahı daim yad etməyə səbəb olan amillər*

2368. «Biharul-Ənvar»: Merac hədisində nəql olunur ki, Allah-taala buyurmuşdur: «Ey Əhməd! Məni daim yad et.» Ərz etdi: «Ey Rəbbim! Səni daim necə yad edim? Buyurdu: «İnsanlardan xəlvətə çəkilməklə, turş və şirin şeylərdən uzaq durmaqla, qarnını və evini dünyadan boş saxlamaqla.»[3]

2369. İmam Əli (ə): «Hər kəsin sevdiyi şey, onun dilinin əzbəri olar.»[4]

### *753. Allahı yad etməkdən saxlayanlar*

**Qur'an:**

«Ey iman gətirənlər! Mallarınız və övladlarınız sizi Allahı yad etməkdən yayındırmasın. Kim belə edərsə, (əlbəttə,) ziyana uğrayanlardandır.»[5]

«Həqiqətən, Şeytan içki və qumarla sizin aranızda ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namaz qılmaqdan çəkindirmək istəyir. Bu işə son qoyacaqsınızmı?»[6]

**Hədis:**

2370. İmam Əli (ə): «Günahların arasında şəhvətə tabe olmaqdan şiddətlisi yoxdur. Buna görə ona itaət etməyin ki, sizi Allahdan qafil edər.»[7]

2371. İmam Əli (ə): « Səni Allahı yad etməkdən yayındıran hər bir şey qumar (məysir) sayılır.»[8]

2372. İmam Əli (ə): «Səni Allahın zikrindən yayındıran hər bir şey şeytandandır.»[9]

2373. İmam Səccad (ə): «Çox yemək, iradə zəifliyi, toxluqdan və qüdrətdən məst olmaq (xeyir) əməldən çəkindirən, onu ləngidən və Allah zikrini unutduran amillərdəndir.»[10]

### *754. Allahın zikrini tərk etməyin nəticələri*

**Qur'an:**

«Kim Məni yad etməkdən üz döndərsə, yaşayışı sıxıntılı olar və Qiyamət

---

[1]Biharul-Ənvar, c. 93, səh.158 , hədis33
[2] Biharul-Ənvar, c.78, səh.356 , hədis11
[3] Biharul-Ənvar, c.77, səh.22 , hədis6
[4]Ğurərul-Hikəm, hədis 7851
[5] Münafiqun/9
[6] Maidə/91
[7] Ğurərül-Hikəm, hədis 7520
[8] Biharul-Ənvar, c. 37, səh. 157 , hədis2
[9] Tənbihul-Xəvatir, c.2, səh.170
[10] Biharul-Ənvar, c. 78, səh.129 , hədis1

günü onu qəbrdən kor (halda) qaldırarıq»[1]

«Kim rəhman Allahı yad etməkdən boyun qaçırsa, Biz ona şeytanı ürcah edərik ki, onunla yoldaşlıq etsin.»[2]

«Allahı unutduqlarına görə, Allahın da onların özlərini-özlərinə unutdurduğu kəslər kimi olmayın. Fasiqlər elə onlardır.»[3]

**Hədis:**

2374. İmam Əli (ə): «Kim pak olan Allahı unutsa, Allah-taala özünü o kəsə unutdurar və qəlbini kor edər.»[4]

### *755. Alalhı gizlində yad etmək*

**Qur'an:**

«Rəbbini hər sübh və axşam öz qəlbində yalvarışla, qorxu ilə, səsini ucaltmadan yad et və qafillərdən olma.»[5]

**Hədis:**

2375. Allahın Peyğəmbəri (s): «Ən yaxşı zikr gizli zikrdir.»[6]

2376. İmam Baqir (ə) və ya İmam Sadiq (ə): «Mələk yalnız eşitdiyini yazar. Allah-taala buyurmuşdur:«və Rəbbini öz qəlbində yad et...» Bəndənin bu daxili zikrinin savabının (ölçüsünü) Allahdan başqa heç kim bilmir.»[7]

ιoooooπ

[1] Taha/124

[2] Züxruf/36

[3] Həsr/19

[4] Ğurərül-Hikəm, hədis 8875

[5] Ə'raf, ayə205

[6]Kənzul-Ummal, hədis1771

[7]Biharul-Ənvar, c. 5, səh.322 , hədis7

## 150

# Zəlillik

***756. Zəlillik***

2377. İmam Əli (ə) :«Aza qane olun və özünüzü zəlil etməyin.»[1]

2378. İmam Əli (ə) : «Ölüm, bəli, qəbuldur, amma alçaqlıq və zəiflik heç vaxt. Azla kifayətlənmək, bəli, qəbuldur, amma ona-buna əl açmaq heç vaxt.»[2]

2379. İmam Əli (ə) : «Bir saat zillət, bir ömür izzətə dəyməz.»[3]

2380. İmam Əli (ə) (öz münacatından): «İlahi! Elə et ki, hər şeydən əvvəl məndən aldığın əziz bir şey və mənə əmanət verdiyin nemətlərindən geri götürdüyün birinci əmanət mənim canım olsun.»[4]

2381. İmam Hüseyn (ə): «İzzətlə ölmək zillətlə yaşamaqdan yaxşıdır.» O Həzrət (ə) öz şəhadət günü bu beytləri oxumuşdur:

«Ölüm yaxşıdır rüsvay olmaqdan
Rüsvayçılıq layiqlidir (Cəhənnəmdə)oddan
And olsun Allaha, nə od, nə rüsvayçılığı
Heç vaxt qoymaram, yol tapsın qapımdan.»[5]

***757. Özünü xar etmək möminə yaraşmaz***

2382. Allahın Peyğəmbəri (s): «Kim itaətkarcasına xarlığı və zəlilliyi qəbul edərsə, biz Əhli-Beytdən deyil.»[6]

2382. İmam Sadiq (ə): «Allah-taala möminə, özünü xar etməyin ixtiyarından başqa, hər bir işin ixtiyarını vermişdir.»[7]

2384. İmam Sadiq (ə): «Möminə özünü xar etmək yaraşmaz.» Ərz etdilər:«Mömin özünü necə xar edər?» Buyurdu:«Bacarmadığı bir işə baş qoşar və bununla da, özünü xar və başıaşağı edər.»[8]

***758. İnsanı zəlil edən amillər***

2385. Allahın Peyğəmbəri (s): «İnsanlar dinar və dirhəmi Allah yolunda

---

[1] Ğurərul-Hikəm, hədis 362
[2] Nəhcül-Bəlağə, hikmət 396
[3] Ğurərul-Hikəm, hədis 5580
[4] Nəhcül-Bəlağə, xütbə215
[5] Biharul-Ənvar, c.44, səh.192, hədis4
[6] Tufəful-Uqul, səh.58
[7] əl-Kafi, c.5, səh.63, hədis3
[8] Mişkətul-Ənvar, səh.245

xərcləməyə simiclik edib eynə»[1] ticarətilə məşğul olsalar, öz mal-qarasının dalınca qaçıb Allah yolunda cihadı tərk etsələr, öz (xalis) dinlərinə qayıtmayınca Allah-taala onları zəlilliyə düçar edər və zillət boyunduruğunu onların boynundan çıxarmaz.»[2]

2386. Allahın Peyğəmbəri(s): «Ən zəlil insan, başqalarını xar edəndir.»[3]

2387. İmam Əli (ə): «Xalq zəlilliyin qorxusundan zəlilliyə tərəf tələsər.»[4]

2388. İmam Əli (ə): «Öz çətinliyinin üzərindən pərdəni götürən (yəni, hər yerdə öz problemindən danışan) şəxs özünü zəlilliyə düçar etmişdir.»[5]

2389. İmam Baqir (ə): «Tamah kimi zəlillik və alçaqlıq yoxdur.» [6]

2390. İmam Sadiq (ə): «Həyatı sevən kəs, xar olar.»[7]

2391. «Biharul-ənvar» belə nəql olunur ki «Bir nəfər öz qonşusundan o Həzrətə (ə) şikayət etdi. Həzrət (ə)buyurdu: «Səbr et.» Ərz etdi: «Camaat məni zəlillikdə ittiham edir.» Həzrət buyurdu:«Zəlil- zülm edən kəsdir.»[8]

ιoooooπ

[1] Eynə ticarət budur ki, insan bir malı müəyyən bir qiymətə nəqd surətdə alar və sonra həmin malı əvvəlkindən baha qiymətə nisyə surətdə həmin adama satar, ya əksinə.

[2] Kənzul-Ummal, hədis 10504

[3] Biharul-Ənvar, c.75, səh.142, hədis2

[4] Ğurərul-Hikəm, hədis 2172

[5] Tuhəful-Uqul, səh.201

[6] Tuhəful-Uqul, səh.286

[7] əl-Xisal, səh.120, hədis110

[8] Biharul-Ənvar, c.78, hədis 205, hədis46

**151**

# Günah

***759. Günah***

**Qur'an:**

«Günahı -istər aşkar olsun, istər də gizli- tərk edin. Çünki günah işlər görənlər öz əməllərinin cəzasına çatacaqlar.»[1]

«Bəli, pis işlər görən və günaha batanlar Cəhənnəm əhlidir və orada əbədi qalacaqlar.»[2]

2392. İmam Əli (ə): «Günahlar xəstəlikdir. Onların dərmanı Allahdan istiğfar (bağışlanmaq diləmək) və şəfası bir daha o günahı təkrar etməməkdir.»[3]

2393. İmam Əli(ə): «Ey insan! Hansı bir şey səni günah etməkdə həyasız, Rəbbinin qarşısında qürurlu və özünü xarab etməkdə adətkar etmişdir?»[4]

2394. İmam Əli (ə): «Bu insanlara heyrətlənirəm. Sağlamlıqlarına zərər dəyəcəyindən qorxaraq yeməkdən pəhriz saxlayır, Amma onları Cəhənnəm əzabına atan günahlardan necə də çəkinmirlər!»[5]

2395. İmam Əli (ə): «Əgər Allah-taala Ona itaətsizlik olunduğuna görə (əzabla) qorxutmasaydı belə, yenə də bəxş etdiyi nemətlərə görə Ona itaət etmək vacib olardı.»[6]

2396. İmam Əli (ə):«Pisliklərdən çəkinmək yaxşılıq etməkdən üstündür.»[7]

2397. İmam Əli (ə): «Həqiqətən, ağıllı insanlar dünyanın artığını tərk edərlər, o ki qalmış olsun günahları.! Halbuki, dünyanı tərk etmək fəzilət və ləyaqət, günahları tərk etmək isə vacibdir.»[8]

2398. Mə'sum İmamlar (ə) buyururlar: «Çalışın və sə'y göstərin, əgər (xeyir) əməl etmirsinizsə, (heç olmasa) günah da etməyin. Çünki binanı tikən və onu uçurmayanın binası, hərçənd kiçik olsa da ucalar. Amma binanı tikən və sonra da onu uçuran şəxsin binası ucalmaz.»[9]

***760. Aşkar günah etmək***

2399. İmam Əli (ə): «Pak olan Allaha aşkar surətdə itaətsizlik etmək,

---

[1] Ə'nam/120
[2] Bəqərə/81
[3] Ğurərul-Hikəm, hədis 11890
[4] Nəhcül-Bəlağə, xütbə 223
[5] Tuhəful-Uqul, səh.204
[6] Nəhcül-Bəlağə, hikmət 290
[7] Ğurərul-Hikəm, hədis 1522
[8] Biharul-Ənvar, c.78, səh.301, hədis 1
[9] Biharul-Ənvar, c.70, səh.286, hədis 8

cəzaları tezləşdirər.»[1]

2400. İmam Rza (ə): «Öz günahını aşkar edən kəs xar olub tək-tənha qalar. Günahı gizli və örtülü saxlayan kimsə bağışlanar.»[2]

***761. Ən böyük günahlar***

2401. İmam Əli (ə): «Ən pis günah, günahkarın onu yüngül (kiçik) sanmasıdır.»[3]

2402. İmam Əli (ə): «Allah yanında ən böyük günah, sahibinin israr (dəfələrlə təkrar) etdiyi günahdır.»[4]

2403. İmam Baqir (ə): «Günahların hamısı pisdir, onların ən pisi isə üzərinə ət və qan gələn günahdır.»[5]

***762. Bağışlanmayan günahlar***

**Qur'an:**

«Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamaz və ondan qeyri günahı istədiyi kəsə keçər. Allaha şərik qoşan kəs, Əlbəttə ki, böyük günah etmişdir.»[6]

**Hədis:**

2404. Allahın Peyğəmbəri (s): «Pis əxlaqdan başqa bütün günahların tövbəsi vardır. Çünki pis əxlaqlı insan hər günahdan qurtarıb tövbə edəndə, digər bir günaha düşər.»[7]

2405. İmam Əli (ə): «Allah-taalanın Qur'anı Kərimdə buyurduğu qəti hökmlərdən bəziləri bunlardır. Əgər insan bu əməllərdən birini edib, tövbə etmədiyi halda Allahı ilə görüşərsə, (xeyirli işlər görmək üçün) özünə zəhmət verib və əməlini xalis etsə belə, özü üçün bir xeyir aparmaz: Allahın ona vacib etdiyi ibadətdə və sitayişdə Allaha şərik qoşmaq, kimsəni öldürməklə öz qəzəb atəşini söndürmək, özü etdiyi işə görə başqasını məzəmmət etmək, insanlardan öz ehtiyac və istəyini əldə etmək üçün dində bir bidət icad etmək, insanlarla ikiüzlü, ya da ikidilli olmaq.»[8]

2406. İmam Baqir (ə): «Bağışlanmayan günahlardan biri də insanın dediyi bu sözdür: «Kaş bu günahdan başqa heç bir şey barədə sorğu-sual olunmayaydım.»[9]

2407. İmam Sadiq (ə): «(Ey Cundubun oğlu) Din qardaşlarının (həmməsləklərinin) səndən narazılıqlarından başqa bütün günahlar bağışlanar.»[10]

***763. Gizlində günah etməkdən çəkindirmək***

2408. İmam Əli (ə): « (Özünüzə) Xəlvət yerlərdə Allaha qarşı günah

[1] Ğurərul-Hikəm, hədis 9811
[2] Biharul-Ənvar, c.73, səh.356 , hədis1
[3] Biharul-Ənvar, səh.364, hədis96
[4] Ğurərul-Hikəm, hədis 3131
[5] əl-Kafi, c.2, səh.270, hədis7
[6] Nisa /11
[7] Biharul-Ənvar, c.77, səh.48 , hədis3
[8] Nəhcül-Bəlağə, xütbə 153
[9] əl-Xisal, səh.24, hədis83
[10] Tuhəful-Uqul, səh.303

etməkdən çəkinin. Çünki şahid olan Allah həm də (mühakimə edən) hakimdir.»[1]

2409. İmam Baqir (ə): «Gizlində günah edən kəsə qarşı Allah etinasız olar.»[2]

***764. Günahı yüngül və kiçik sanmaq***

2410. Allahın Peyğəmbəri (s): «Həqiqətən, mömin öz günahını, onun üstünə düşəcəyindən qorxduğu böyük bir qaya kimi görür. Kafir isə öz günahına burnunun qabağından (vızıldayıb) keçən bir milçək kimi baxır.»[3]

2411. Allahın Peyğəmbəri (s): «Həqiqətən, iblis sizin kiçik günahlarınızdan şaddır.»[4]

2412. Allahın Peyğəmbəri (s): «Günahın kiçikliyinə baxmayın. Ancaq baxın, görün kimə qarşı ədəbsizlik etmisiniz.»[5]

2413. İmam Əli (ə): «Pak olan Allahın yanında ən böyük günah, günahkarın nəzərində kiçik sayılan günahdır.»[6]

2414. İmam Baqir (ə): «Günahını kiçik saymaq və bu vəziyyəti ilə razılaşmaq kimi müsibət yoxdur.»[7]

2415. İmam Kazim (ə): «Kiçik günahları az hesab etməyin. Çünki həmin günahlar bir-birinin üstünə qalanıb çoxalar.»[8]

2416. İmam Rza (ə): «Kiçik günahlar böyük günahlara açılan bir yoldur. Allah qarşısında az günahdan qorxusu olmayan kimsə, çox günahda da Ondan qorxmaz.»[9]

***765. Böyük günahlar***

**Qur’an:**

«Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, sizin (digər) pisliklərinizdən keçər və sizi ali bir məqama çatdırarıq.»[10]

**Hədis:**

2417. Allahın Peyğəmbəri (s): «Böyük günahlar bunlardan ibarətdir:«Allaha şərik qoşmaq, ata- ananı incitmək, adam öldürmək və (başqalarının hüququnu pozmaq və xalqın malını yemək) üçün yalandan and içmək.»[11]

2418. İmam Əli (ə) ən böyük kəbirə günahlar barədə verilən suala cavabında:«Allahın məkrindən (möhlət və əzabından) qafil olub özünün amanda olduğunu sanmaq, Allahın köməyindən məyus olmaq və Allahın rəhmətindən

---

[1] Biharul-Ənvar, c.78, səh.70 , hədis25
[2] Biharul-Ənvar, c.46, səh.247 , hədis35
[3] Əmali-Tusi, səh.527, hədis1162
[4] Biharul-Ənvar, c.73, səh.363 , hədis93
[5] Biharul-Ənvar, c.73, səh.168 , hədis6
[6] Ğurərul-Hikəm, hədis3141
[7] Tuhəful-Uqul, səh.286
[8] Əmali-Mufid, hədis157, hədis8
[9] Biharul-Ənvar, c.73, səh.353 , hədis55
[10] Nisa/31
[11] Kənzul-Ummal, hədis7798

ümidini üzmək.»[1]

2419. İmam Sadiq (ə): «Yeddi böyük günah vardır:«Mömini qəsdən öldürmək, iffətli qadına böhtan atmaq, düşmənə qarşı olan cihad meydanından qaçmaq, hicrətdən sonra təərrub[2], yetimin malını haqsız yerə yemək, ribanın (sələmin) haram olduğunu biləndən sonra ondan qazanc kimi istifadə etmək və Allahın vacib etdiyi Cəhənnəm əzabına səbəb olan hər bir şey.»[3]

### *766. Günaha etməkdə israrlı olmaq*

**Qur'an:**

« Və o kəslər ki, pis iş gördükləri və özlərinə zülm etdikləri zaman Allahı yad edər və günahlarının bağışlanmasını diləyərlər, (Məgər) Allahdan başqa günahları kim bağışlar? Belə isə, onlar öz günahlarının pisliklərindən agah olduqda, bir daha gördükləri işlərdə israr etməsinlər.»[4]

**Hədis:**

2420. Allahın Peyğəmbəri (s): «İstiğfarla (bağışlanmaq diləməklə) böyük günah bağışlanar və kiçik günahda israr etməklə (kiçiklik) mənası aradan gedər.»[5]

2421. İmam Baqir (ə) «…gördükləri işlərdə israr etməsinlər» ayəsi barədə): «Günahda israr etməyin mənası budur ki, bəndə günah edəndən sonra, onun bağışlanmasını istəməz və tövbə etmək fikrində də olmaz.»[6]

### *767. Günaha şad olmaq*

2422. İmam Əli (ə): «Allah-taala günahdan ləzzət alan kimsəni zəlil edər.»[7]

2423. İmam Səccad (ə): «Günaha şad olmaqdan çəkin. Çünki günaha şad olmaq onu etməkdən pisdir.»[8]

### *768. Günahların nəticələri*

---

[1] Kənzul-Ummal, hədis4325

[2] «Lisanul-ərəb» lüğətində hicrətdən sonra təərrub barədə qeyd olunur ki, bədəvi (çöl) ərəblərinin arasından Mədinəyə hicrət edənlər yenidən badiyəyə (çölə, biyabana) bədəvilərlə yaşamaq üçün geri qayıdırdılar. Bu əməl isə dindən dönmək demək idi. Üsuli-Kafinin tərcüməçisi və şərhçisi bu ifadənin altında yazır:«Hicrətdən sonra təərrob» ifadəsi İslamın ilk dövlərində, Məkkə və əhalisi kafir olan digər məntəqələrdən Mədinəyə- İslamın mərkəzinə hicrət edən kəslərə aid edilirdi. Onların başqa müsəlmanlarla birlikdə əhalisi kafir olan məntəqələrə yenidən qayıtmasına «hicrətdən sonra təərrob» deyirdilər. Bu böyük (kəbirə) günahlardan biri və dindən dönmək sayılırdı. Lakin, Mə'sum İmamların (ə)zamanında və qeybət dövründə təərrbun mənası, bir müsəlmanın dinini aşkar etməsinə və öyrənməsinə yasaqlar qoyulmasına baxmayaraq kafir məmləkətində qalmasıdır. Onun orada qalması böyük günahlardan sayılır. Bəzi alimlər təərrobun mənasını ümumiləşdirmiş, hətta buraya elm, təhsil alan və sonra onu tərk edənləri də şamil ediblər.

[3] əl-Kafi, c.2,səh.277, hədis3

[4] Ali İmran/135

[5] Biharul-Ənvar, c.73, səh.355 , hədis62

[6] Biharul-Ənvar, c.73, səh.32,hədis10

[7] Ğurərul-Hikəm, hədis 8823

[8] Biharul-Ənvar, c.73, hədis329

2424. Allahın Peyğəmbəri (s): «Günah, onu etməyən kəs üçün də bədbəxtlikdir. Çünki əgər onu eyb tutarsa, (həmin günaha) duçar olar, əgər onun qeybətini edərsə günahkar olar və əgər ona razı qalarsa onda şərik olar.»[1]

2425. İmam Əli (ə): « Gözlərin yaşı rəhmsizlikdən qeyri bir səbəbdən qurumadı, qəlblər də yalnız günahların çoxluğundan rəhmsiz oldular.»[2]

2426. İmam Səccad (ə): «Göydən yağışın yağmasının qarşısını alan günahlar hakimlərin ədalətsiz hökm çıxarmaları, yalan şəhadət vermək və şəhadəti gizlətməkdən ibarətdir.»[3]

2427. İmam Baqir (ə): «Heç bir il digər ildən az yağıntılı deyil. Əslində, Allah-taala yağışı istədiyi yerə yağdırar. Amma bir xalq günah əməllər edəndə Allah-taala onlar üçün təyin etdiyi yağışı yağdırmaz.»[4]

2428. İmam Sadiq (ə): «İnsan bir günah edən zaman onun qəlbində qara nöqtə yaranar. Əgər tövbə etsə, o nöqtə təmizlənər. Ancaq əgər yenə günah etsə həmin nöqtə böyüyər və nəhayət qəlbinin hər yerini bürüyər. Bundan sonra isə o, heç vaxt nicat tapmaz.»[5]

2429. İmam Sadiq (ə): «Allah-taala bəndəyə verdiyi hər bir neməti, yalnız həmin neməti ondan məhrum etməyə layiq olan günaha görə geri almışdır.»[6]

2430. İmam Sadiq (ə): «Həqiqətən, bəndə etdiyi bir günaha görə gecə namazından məhrum olar. Pis əməlin insana tə‘sirinin surəti, bıçağın ətə tə‘sirinin sürətindən daha çoxdur.»[7]

2431. İmam Sadiq (ə): «Günahların nəticəsinə görə ölən adamların sayı, əcəlinin çatmasına görə ölənlərin sayından çoxdur.»[8]

2432. İmam Rza (ə): «Rəhbərlər yalan danışanda göydən yağış yağmaz, sultan zülm etsə dövlət zəifləyib etibardan düşər və zəkat verilməyəndə heyvanlar ölər.»[9]

***729. Cəzası tez yetişən günahlar***

2433. Allahın Peyğəmbəri (s): «Üç günahın cəzası bu dünyada çatar və axirətə qalmaz:  Ata-ananı incitmək, xalqa zorakılıq və zülm etmək, başqalarının yaxşılıqlarına qarşı naşükrlük etmək.»[10]

2434. İmam Baqir (ə): «Əmirəl-mömininin (ə) kitabında belə yazılıb: «Üç günahın sahibi bu dünyada onların cəzasını çəkər. Bu günahlar: zülm etmək, qohumluq əlaqələrini kəsmək və yalandan and içməkdir.»[11]

**770. Günahların dərmanı.**

---

[1] əl-Firdovs, c.2, səh.249, hədis3169
[2] İləluş-Şəraye, səh.81 , hədis1
[3] Nurus-Sədəleyn, c.5,səh.597, hədis24
[4] Biharul-Ənvar, c.73,səh.329, hədis12
[5] Biharul-Ənvar, c.73,səh.327, hədis10
[6] Biharul-Ənvar, səh.339 , hədis21
[7] əl-Kafi, c.2,səh.272, hədis16
[8] Əmali-Tusi,səh.701 , hədis1498
[9] Əmali-Mufid,səh.310, hədis2
[10] Əmali-Mufid,səh. 237 , hədis1
[11] Əmali-Mufid,səh.198, hədis8

2435. Allahın Peyğəmbəri (s): «Hər dərdin dərmanı var. Günahların dərmanı da istiğfardır (bağışlanmaq diləmək).»[1]

2436. Allahın Peyğəmbəri (s): «Möminin yetmiş iki pərdəsi var. Bir günah edən zaman bir pərdə yırtılar və əgər tövbə etsə Allah o pərdəni digər yeddi pərdə ilə birlikdə ona qaytarar.»[2]

### *771. Günahların kəffarəsi*

**1. Dünyəvi cəza.**

2437. Allahın Peyğəmbəri (s): «Mömin kişi və qadınlar həmişə can, mal və övladlarında bəlaya düçar olarlar ki, sonda heç bir günahı qalmadan Allaha qovuşsunlar.»[3]

2438. İmam Əli (ə): «Bizim şiələrdən hər biri qadağan etdiyimiz bir iş görərsə, ölməmişdən qabaq onun malına, ya övladına və ya özünə bəla gələr. Bununla da, öz günahlarından təmizlənər və Allahla günahsız halda görüşər. Əgər günahlarından hələ də bir şey qalarsa, ölüm zamanı çətinliklə can verər.»[4]

2439. İmam Sadiq (ə): «Allah-taala bəndənin xeyrini istəyəndə onun günahlarının cəzasını elə bu dünyada verər. Bəndəyə pislik istəsə, onu öz günahlarında saxlayar ki, Qiyamət günü günahlarının cəzasını çəksin.»[5]

**2. Xəstəliklər.**

2440. Allahın Peyğəmbəri (s): «Xəstəlik günahları təmizləyər.»[6]

2441. Allahın Peyğəmbəri (s): «Bir gecə qızdırma içində olmaq bir ilin günahlarının kəffarəsidir.»[7]

2442. İmam Əli (ə): «Allah-taala bəndəyə xəstəlik göndərdikdə xəstəliyinin miqdarı qədər onun günahlarından təmizləyər.»[8]

2443. İmam Əli (ə) (uşaqların xəstəliyi barədə): «Onların ata və analarının günahlarının kəffarəsidir.»[9]

**3. Qəm-qüssələr.**

2444. Allahın Peyğəmbəri(s): «Möminin başına gələn elə bir əziyyət, hadisə, qəm-qüssə və hətta qəlbinin nigarançılığı olmayıb ki, bunların vasitəsilə Allah-taala onun günahlarını silməsin.»[10]

2445. İmam Sadiq(ə): «Həqiqətən, qəm-qüssə müsəlmanı günahdan təmizləyər.»[11]

2446. İmam Rza (ə): «Əli şiələrindən elə bir şəxs yoxdur ki, gün ərzində bir pis əməl, ya bir günah edəndə gecə onu qəm-qüssə burüməsin. Bunun vasitəsilə onun etdiyi pis əməl, ya günah silinib gedər. Bəs, qələm belə şəxsin günahlarını

---

[1] Mustəcrikul-Vəsail, c.5,səh.316, hədis5972
[2] Nəvadirur-Ravəndi,səh.6
[3] Biharul-Ənvar, c.67,səh.236 , hədis54
[4] əl-Xisal,səh. 635, hədis10
[5] Biharul-Ənvar, c.81, səh177, hədis18
[6] Biharul-Ənvar, c.65,səh.244 , hədis83
[7] Biharul-Ənvar, c.81,səh.186 , hədis39
[8] Dəaimul-İsam c.1,səh.218
[9] Biharul-Ənvar, c.81,səh.186, hədis40
[10] Tuhəful-Uqul,səh.38
[11] əd-Dəəvat,səh.120

necə yazsın?»[1]

**4. Xeyir əməllər**

**Qur’an:**

«Günün əvvəlində və sonunda, gecənin ilk saatlarında namaz qıl. Çünki yaxşılıqlar pislikləri silib aparar. Bu, ibrət götürənlər üçün bir ibrətdir.»[2]

2447. Allahın Peyğəmbəri (s): «Elə ki bir pis əməl etdin, yaxşı iş gör ki, o pisliyi təmizləsin.»[3]

**5. Xoşxasiyyətlilik.**

2448. Allahın Peyğəmbəri (s): «Əgər insanda bu dörd xislət olarsa, başdan ayağa günaha batmış olsa belə, Allah-taala onun günahlarını yaxşılığa və savaba çevirər: doğruluq, həya, xoşxasiyyətlilik və şükr etmək.»[4]

2449. İmam Sadiq (ə): «Günəş buzu əritdiyi kimi, xoş xasiyyət də günahları əridər. Sirkə balı necə korlayırsa, pis xasiyyət də (xeyir) əməlləri elə korlayar.»[5]

**6. Məzlumların köməyinə çatmaq.**

2450. İmam Əli (ə): «Məzlumların fəryadına çatmaq və qəmlinin qəmini dağıtmaq böyük günahların kəffarəsindəndir.»[6]

**7. Mələklərin əfv diləmələri.**

2451. İmam Sadiq (ə): «Allah-taalanın elə mələkləri var ki, külək (payız çağı) ağacın yarpaqlarını saldığı kimi, günahları bizim şiələrin çiynindən aşağı salarlar. Allah-taalanın «öz Rəbblərinə sitayiş edərək Ona təsbih deyirlər və möminlər üçün bağışlanmaq diləyərlər.» kəlamında Allaha and olsun ki, möminlərdən məqsəd sizlərdən başqa bir kəs deyil.» [7]

**8. Çoxlu səcdə.**

2452. İmam Sadiq (ə):«Bir kişi peyğəmbərin yanına gəlib ərz etdi:«Ey Allahın Rəsulu. Günahlarım çoxalıb, əməllərimsə zəifləyib və azalıb.» Allahın Peyğəmbəri (s) buyurdu:«Çox səcdə et. Çünki külək ağacların yarpağını tökdüyü kimi, səcdə də günahları tökər.» [8]

**9. Həcc və ümrə.**

2453. Allahın Peyğəmbəri (s):«Bu ümrə növbəti ümrəyədək olan arada baş verən günahların kəffarəsidir. Qəbul olunmuş həccin savabı Cənnətdir. Elə günahlar var ki, Ərəfatdan başqa heç bir yerdə bağışlanmaz.[9]

**10. Məhəmməd və onun ailəsinə (Əhli-Beytinə) salavat göndərmək.**

2454. İmam Rza (ə):«Kim günahlarının silinməsi üçün bir iş görə bilmirsə, Məhəmməd və onun pak ailəsinə çoxlu salavat göndərsin. Çünki bu əməl

[1] Biharul-Ənvar, c.68,səh.146 , hədis94
[2] Hud/114
[3] Əmali-Tusi,səh.186 , hədis312
[4] əl-Kafi, c.2,səh.108 , hədis7
[5] Biharul-Ənvar, c.71,səh.395 , hədis74
[6] Nəhcül-Bəlağə, hikmət 24
[7] Biharul-Ənvar, c.59,səh.196 , hədis61
[8] Əmali-Səduq,səh.404 , hədis4
[9] Biharul-Ənvar, c.59,səh.196 , hədis46

günahların kökünü kəsər.» [1]

**11. Ölüm.**

2455. Allahın Peyğəmbəri (s):«Ölüm - möminlərin günahlarının kəffarəsidir.» [2]

ιooooooπ

[1] Əmali-Səduq,səh.68 , hədis4
[2] Əmali-Mufud,səh.283 , hədis8

152

# Başçılıq

***772. Başçılığın məzəmməti***

2456. İmam Baqir (ə):«Baş olmağa çalışma, quyruq olarsan.» [1]

2457. İmam Sadiq (ə):«İş başında olan rəislərdən uzaq olun. Çünki Allaha and olsun, ayaqqabılar bir kəsin arxasınca səs çıxardısa, ya onu həlak edər, ya da məhvə sürükləyər.» [2]

2458. İmam Sadiq (ə):«Rəislik axtaran məhv olar.» [3]

2459. İmam Rza (ə) bundan sonra bir kişinin adını çəkdi və dedi: «O, rəislik axtarandır. İki yırtıcı canavarın çobançız bir sürüyə hücum edən zaman vurduğu ziyan, rəisliyə çalışan adamın müsəlmanların dininə vurduğu ziyandan azdır.» [4]

***773. Rəhbərlik aləti***

2460. İmam Əli (ə):«Rəhbərliyin aləti, sinənin genişliyidir.» [5]

2461. İmam Əli (ə):«Səvaxətli insan ağalığa çatar, varlı isə rəyasətə.» [6]

2462. İmam Sadiq (ə):«Başçılıq axtarırdım, onu Allah bəndələrinə xeyirxahlıq və nəsihət etməkdə tapdım.» [7]

---

[1] əl-Kafi, c.2,səh.338, hədis1
[2] əl-Kafi, c.2, ,səh.297, hədis3
[3] əl-Kafi, c.2,səh.297 , hədis2
[4] əl-Kafi, c.2,səh.297, hədis1
[5] Nəhcül-Bəlağə, hikmət 176
[6] Tuhəful-Uqul,səh.96
[7] Mustədrəkul-Vəsail, c.12,səh. 143 , hədis13810

**153**

# Yuxu

***774. Yuxu müjdəsi***

2463. Allahın Peyğəmbəri (s) «Onlara müjdə var» ayəsi barədə: «O müjdə, möminin gördüyü yaxşı yuxudur. Onun vasitəsilə dünyada mömin müjdə verilər.»[1]

2464. Allahın Peyğəmbəri (s):«Müjdə verənlərdən başqa nübüvvətdən bir şey qalmamışdır.»Soruşdular:«Mücdə verənlər nədir?» Buyurdu:«Doğru yuxu.» [2]

2465. İmam Rza (ə):«Sübh açılanda Allahın Peyğəmbəri (s) öz səhabələrinə deyərdi:«Bir kəsdə mücdə verən varmı?» Bunu dedikdə Həzrətin məqsədi yuxu idi.» [3]

***775. Yuxunun növləri***

2466. İmam Baqir (ə):«Bəndələr yuxuya gedən zaman ruhları səmaya qalxar. Beləliklə, ruhun səmada gördükləri nə varsa həqiqətdir, fəzada gördükləri isə pərişan edən yuxulardır.» [4]

2467. İmam Sadiq (ə):«Yuxu üç növdür: möminə Allah tərəfindən verilən müjdə, şeytanın vəsvəsə etdiyi qorxu və pərişan (nigaran) edən yuxular.»[5]

***776. Yuxunu yozmaq və danışmaq***

2468. Allahın Peyğəmbəri (s):«Sizlərdən kim yaxşı yuxu görsə, onu yozsun və başqalarına danışsın. Əgər pis yuxu görsə, onu yozmasın və heç kəsə söyləməsin.» [6]

2469. Allahın Peyğəmbəri (s):«Yuxunu paxıllıq və təcavüzdən pak olan mömindən başqa, bir kimsəyə danışmaq olmaz.» [7]

ιοοοοοοπ

---

[1] əl-Kafi, c.8,səh.90, hədis60
[2] Biharul-Ənvar, c.61,səh.177 , hədis39
[3] əl-Kafi, c.8,səh.90 , hədis59
[4] Əmali-Səduq,səh.125 , hədis16
[5] əl-Kafi, c.8,səh.90 , hədis61
[6] Kənzul-Ummal,hədis 416392
[7] əl-Kafi, c.8,səh.336 , hədis530

**154**

# Riyakarlığın məzəmmət olunması

**Qur’an:**

«Öz yurdlarından təkəbbürdən məst halda, özlərini xalqa göstərmək üçün çıxanlar və başqalarını Allah yolundan çəkindirənlər kimi olmayın. Allah onların etdiklərindən ağahdır.»[1]

**Hədis:**

2470. Allahın Peyğəmbəri (s):«Vay olsun, dini dünya malından ötrü vasitə edənlərə! Öz yumşaq dilləri ilə insanların qarşısına quzu cildində çıxarlar, sözləri baldan şirindir, qəlbləri isə canavar qəlbidir. Allah-taala buyurmuşdur:«Mənə (rəhmətimə) lovqalanırlar?!»[2]

2471. Allahın Peyğəmbəri (s):«Mələk bəndənin əməllərini sevinə-sevinə yuxarı aparar. Yaxşı əməllərini yuxarı çatdırdıqda, Allah-taala buyurar:«Onları siccində[3] yerləşdir. Bu əməllər Mənə xatir olmayıb.»[4]

2472. Allahın Peyğəmbəri (s): «Qiyamət günü riyakara nida gələr: «Ey pis əməl sahibi! Ey yalançı! Ey riyakar! Əməlin bərbad oldu, savabın aradan getdi. Get, öz savabını, əməllərini kimdən ötrü etmişdinsə, ondan al.»[5]

2473. Allahın Peyğəmbəri (s):«Allah-taala buyurur:«Həqiqətən, Mən ən ehtiyacsız şərikəm. Buna görə, bir iş görən Məndən qeyrisini onda şərik tutarsa, Mən o işə nifrət edərəm. Belə iş, Mənə şərik qoşulandan ötrü görülüb.»[6]

2474. Peyğəmbər (s):«Allah-taala zərrə qədər riya ilə qarışıq olan əməli qəbul etməz.»[7]

2475. Allahın Peyğəmbəri (s) bir kişinin «Ey Allahın Rəsulu, nicat nədədir?» sualına cavabından: «Bəndənin Allaha itaəti insanlara xatir etməməsində.»[8]

2476. İmam Əli (ə):«Adamın batininin xəstə və zahirinin gözəl olması necə də pisdir.»[9]

2477. İmam Əli (ə):«İlahi! Zahirimin insanların nəzərində gözəl olmasından

---

[1] Ənfal, ayə 47

[2] Ə‘lamud-Din,səh.295

[3] Siccin-zindan günahkarların və kafirlərin əməl dəftəri

[4] əl-Kafi, c.2, səh.295, hədis7

[5] Munyətul-Murid.səh.318

[6] İddətud-Dai,səh.203

[7] Tənbihul-Xəvatir, c.1,səh.187

[8] Tənbihul-Xəvatir, c.1, səh.186

[9] Ğurərul-Hikəm,hədis 9661

və Sənin üçün aşkar olan batinimin çirkinliyindən, özümü riyakarlıqla xalqın nəzərində Sənin məndən daha yaxşı bildiyin şeylə bəzəməyimdən, sonra da gözəl zahirimi xalq üçün göstərib bu əməlimin pisliyini Sənin yanına gətirməyimdən və bu minvalla bəndələrinə yaxınlaşıb, razılığından uzaq düşməyimdən Sənə pənah gətirirəm.» [1]

2478. İmam Baqir (ə):«Kimin zahiri (tərəzisinin gözü) batinindən ağır gələrsə, onun əməl tərəzisi yüngül olar.» [2]

2479. İmam Sadiq (ə):«Riyakarlıqdan çəkin. Çünki kim Allahdan qeyrisi üçün bir iş görərsə Allah-taala onu Allaha şərik qoşduğu həmən kəsə tapşırar.» [3]

### *778. Riya və şirk*

2480. Allahın Peyğəmbəri (s):«Hər şeydən çox, sizin üçün kiçik şirkdən narahatam.» Ərz etdilər:«Ey Allahın Rəsulu! Kiçik şirk nədir?» Buyurdu:«Riya.» [4]

2481. İmam Əli (ə):«Bilin ki, azacıq riya, şirkdir.» [5]

2482. İmam Əli (ə):«Allahın Rəsulundan (s) «Kimin öz Rəbbi ilə görüşmək ümidi varsa, yaxşı işlər görməli və heç kəsi Rəbbinə şərik qoşmamalıdır»[6] ayəsi haqda soruşdular. Həzrət (s) buyurdu:«Kim özünü xalqa göstərmək üçün namaz qılarsa müşrikdir… və kim Allahın əmrlərindən birini özünü xalqa göstərmək üçün yerinə yetirərsə müşrikdir.»[7]

### *779. Riyakarların acı aqibəti*

2483. Allahın Peyğəmbəri (s):«Cəhənnəm və onun əhli riyakarların əlindən fəryad qopararlar.» Dedilər:«Ey Allahın Rəsulu! «Alov necə fəryad qoparar?» Buyurdu:«Riyakarlara verilən əzab alovunun istisindən.» [8]

2484. İmam Sadiq (ə):«Qiyamət günü namaz qılan bəndəni gətirərlər və o, deyər:«Ey Rəbbim, mən Sənin razılığın üçün namaz qılmışam.» Amma ona deyilər:«Xeyir, əslində sənin barəndə «filankəs necə də gözəl namaz qılır» demələrindən ötrü namaz qılmısan. Onu Cəhənnəmə aparın.» [9]

### *780. Riyakarın nişanələri*

2485. İmam Əli (ə):«Riyakarın üç nişanəsi var: insanları görəndə sevincək olar, tək qalanda isə halsız və tənbəl, hər bir işdə təriflənməyini istər.» [10]

---

[1] Nəhcül-Bəlağə, hikmət 276
[2] Əmali-Səduq,səh.398
[3] əl-Kafi, c.2,səh.293, hədis1
[4] İddətud-Dai,səh.214
[5] Tuhəful-Uqul,səh.151
[6] Kəhf, ayə 110
[7] Təfsirul-Qummi, c.2,səh.47
[8] Mustədrəkul-Vəsail, c.1,səh.107 , hədis 109
[9] əz-Zöhdli lil Huseyn ibni Səid,səh.63, hədis 166
[10] əl-Kafi, c.2,səh.295 , hədis 8

***781. Müxtəlif***

2486. Allahın Peyğəmbəri (s):«Gizli (ibadət və xeyir əməl) aşkardan yaxşıdır. Bu əməlləri aşkar surətdə etmək, başqalarına nümunə olsun deyə yerinə yetirmək istəyən kəs üçün yaxşıdır.» [1]

2487. İmam Baqir (ə) (Zurarə, yaxşı iş görən və kənardan onun bu əməlini kimsənin gördüyü zaman bundan xoşhal olan bir şəxs barədə Həzrətdən (ə) soruşduqda): «Eybi yoxdur, hamı xeyir əməllərinin insanlar qarşısında aşkar olunmasını istəyər. Ancaq, bir şərtlə ki, o xeyir əməli həmin məqsədlə yerinə yetirməsin.» [2]

2488. İmam Sadiq (ə):«Kim gizlində xeyir iş görsə, ona (gizli işin) savabı yazılar. Əgər onu dilinə gətirsə, həmin gizli əməl silinər və ona aşkar əməlin savabı yazılar. Əgər ikinci dəfə dilinə gətirsə, aşkar əməlin savabı silinər və onun üçün riya yazarlar.» [3]

ιοooooπ

[1] Kənzul-Ummal,hədis 5273
[2] əl-Kafi, c.2,səh.297 , hədis18
[3] İddətud-Daai,səh.221

# 155

# Rə‘y

***782. Doğru fikrin amilləri***

2489. İmam Əli (ə):«Doğru fikir sakitliklə, təmkinlə əldə olunur. Xam və düşünülməmiş fikir necə də pis dayaqdır.» [1]

2490. İmam Əli (ə):«Məşvərət edin ki, doğru fikir meydana gəlsin» [2]

2491. İmam Əli (ə):«Müxtəlif rə‘ylərlə qarşılaşan kəs, səhv məqamları (və yanlış fikri) görər.» [3]

2492. İmam Əli (ə):«Məsləhətçinin rəyinə ehtiyac duyan şəxsin rə‘yi daha üstündür.»[4]

***783. İnadkarlığın nəticələri***

2493. İmam Əli (ə):«Öz rəyində inadkarlıq edən məhv olar, böyüklərdən məsləhət alansa onların ağıllarına şərik olar.» [5]

2494. İmam Əli (ə):«Yalnız nadan öz rəyinə vurğun olar.» [6]

2495. İmam Sadiq (ə):«Öz bildiyini edən inadkar uçurumun kənarında dayanmışdır.» [7]

***784. Rəyi korlayan amillər***

2496. İmam Əli (ə):«İnadkarlıq düşüncəni yox edər.» [8]

2497. İmam Sadiq (ə):«Öz sidiyini saxlayan şəxsin şəxsi rə‘yi olmaz.» [9]

***785. Dövlət (bəxt) və doğru fikir***

2498. İmam Əli (ə):«Doğru fikir dövlətlə yoldaşdır, onunla gələr və onun getməyi ilə də gedər.» [10]

***786. Dində rəyin tətbiqi***

---

[1] Biharul-Ənvar, c.87,səh.81, hədis 76
[2] Ğurərul-Hikəm, hədis 2567
[3] Nəhcül-Bəlağə, hikmət 173
[4] Ğurərul-Hikəm, hədis 3152
[5] Nəhcül-Bəlağə,hikmət 161
[6] Ğurərul-Hikəm, hədis 9471
[7] Biharul-Ənvar, c.75,səh.105 , hədis41
[8] Nəhcül-Bəlağə,, hikmət 179
[9] Əmali-Tusi,səh.301, hədis595
[10] Nəhcül-Bəlağə, hikmət 339

2499. Allahın Peyğəmbəri (s):«Bu ümmət bir müddət Allahın kitabına, sonra isə bir müddət Peyğəmbərin (s) sünnəsinə əməl edər. Daha sonra isə, bir müddət öz rəyinin ardınca gedər. Öz rəyinə uyğun əməl edən zaman yolların azar və başqalarını da azdırarlar.» [1]

2500. İmam Əli (ə):«Üç şey mövcud olarsa heç bir əməl qəbul olunmaz:«Şirk, küfr və rə'y.» Ərz etdilər:«Ey Əmirəl-möminin! Rə'y dedikdə məqsəd nədir?» Buyurdu:«Allahın kitabını və peyğəmbərin sünnəsini kənara qoyub öz rəyinə əməl etmək.» [2]

***787. Düşüncədə ictihad etmək***

2501. Allahın Peyğəmbəri (s):«Əgər hakim sə'y və zəhmət nəticəsində haqqa çatarsa onun iki mükafatı (əcri) olar. Əgər sə'yləri sayəsində haqqa çatmazsa, bir mükafatı olar.» [3]

2502. İmam Əli (ə):«Kim insanlara xeyir vermək üçün öz fikrini sə'y və zəhmətə salsa, öz niyyətinin mükafatını alar və vəzifəsini yerinə yetirmiş olar.» [4]

ιooooooπ

---

[1] Kənzul-Ummal,hədis 915

[2] Kənzul-Ummal,hədis 1640

[3] Kənzul-Ummal,hədis 14110

[4] Nəhcus-Səadə c.2,səh. 97

**156**

# Riba (Sələm)

***788. Sələmdən çəkindirmək***

2503. Allahın Peyğəmbəri (s):«Allah-taala sələm alana, sələm verənə, onu yazana (qeyd edənə) və onun şahidlərinə Lənət etmişdir.» [1]

2504. Allahın Peyğəmbəri (s):«Me‘rac gecəsi elə bir xalqın üzərindən keçdim ki, onların ev böyüklüyündə və içində kənardan görünən ilanlar olan qarınları var idi.»Soruşdum:«Ey Cəbrayıl! Bunlar kimlərdir?» Dedi:«Bunlar sələm yeyənlərdir.» [2]

2505. İmam Baqir (ə):«Ən çirkin qazanc sələmdir»[3]

2506. İmam Sadiq (ə):«Sələm yeyən, yalnız şeytan onu dəli etdikdən sonra dünyadan köçər.» [4]

2507. İmam Sadiq (ə):«Bir dirhəm sələm, Allahın yanında yetmiş dəfə öz mərhəmətləri ilə Allahın hörmətli evi Kə‘bədə zina etməkdən daha ağır günahdır.» [5]

***789. Sələmin haram edilməsinin hikməti***

2508. İmam Sadiq (ə) (Hişam ibn Həkəmin sələmin haram edilməsinin səbəbi barədə sualına cavabından): «Əgər sələm halal olsaydı, insanlar ticarəti və yaşayışları üçün qazanc dalınca getməyi tərk edərdilər. Beləliklə, Allah-taala sələmi haram etdi ki, insanlar haram yeməkdən əl çəkib ticarətə, alış-verişə üz tutsunlar və mallarının artığını bir-birinə borc versinlər.» [6]

2509. İmam Sadiq (ə) (sələmin haram edilməsinin səbəbi haqda sualın cavabında): «Səbəbi budur ki, insanlar bir-birinə yaxşılığı əsirgəməsinlər.» [7]

***790. Sələmə qurşanmağın amilləri***

2510. İmam Əli (ə):«Ey insanlar! Əvvəl əhkam, sonra ticarət! Allaha and olsun, bu ümmətin arasında sələm qara daşın üzərində gəzən qarışqadan daha gözəgörünməzdir.» [8]

2511. İmam Əli (ə):«Dinin hökmlərini bilmədən ticarət və qazancla məşğul

---

[1] Əmali-Səduq,səh. 346 , hədis1
[2] Kənzul-Ummal,hədis 31857
[3] əl-Kafi, c.5,səh. 147 , hədis12
[4] Təfsirul-Əyyaşi, c.1,səh.152 , hədis503
[5] Nurus-Sədəleyn, c.1,səh. 295 , hədis1177
[6] İləluş-Şərayə, səh.482,hədis 1
[7] Biharul-Ənvar, c.78,səh. 201, hədis 32
[8] Biharul-Ənvar, c.103,səh. 117 , hədis 16

olan özünü sələmin uçurumuna atmışdır.»[1]

***791. Sələmi halal bilən sələmxor Allahla müharibəyə çıxmışdır***

**Qur’an:**

«Ey iman gətirənlər! Əgər möminsinizsə, sələmdən gələn gəliri tərk edin. Belə etməsəniz, Allaha və onun Peyğəmbərinə müharibə elan etmiş olarsınız. Əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar.»[2]

**Hədis:**

2512. İmam Sadiq (ə) (bir kişinin sələm yeməklə məşğul olduğunu və bunun adını «liba»[3] qoyduğunu eşitdikdə buyurmuşdur): «Əgər Allah-taala məni ona hakim etsəydi, onun boynunu vurardım.»[4]

ιoooooπ

---

[1] Nəhcül-Bəlağə, hikmət 447

[2] Bəqərə, ayə 178, 279

[3] «Liba»ya «Ağuz» – ananın öz yeni dünyaya gələn körpəsinə verdiyi ilk süddür.

[4] əl-Kafi, c.5,səh. 147, hədis11

157

# Ümid

***792. Həqiqi ümidə həvəsləndirmək***

**Qur'an:**

«Həqiqətən də iman gətirənlər, mühacirət edənlər və Allah yolunda cihad edənlər Allahın rəhmətinə ümidvardır. Allah bağışlayan və mehribandır»[1]

**Hədis:**

2513. İmam Əli (ə) :«Hər bir ümidvar axtarandır, hər bir qorxaq isə qaçan.»[2]

2514. İmam Əli (ə) (Ondan nəsihət, məsləhət istəyən bir kişiyə buyurduqlarından): «Xeyir əməllər görmədən axirətə ümidvar olan və uzun arzular edərək tövbəni tə'xirə salan şəxs kimi olma. Həmin şəxs dünyanı məzəmmət edərkən təqvalılar kimi danışar, ancaq dünyapərəstlər kimi rəftar edər.»[3]

2515. İmam Sadiq (ə) («Bir dəstə insanın günah edərək, Allahın rəhmətinə ümidvar olduqlarını dediklərini və ölənədək bu halda olduqlarını» ərz etdikdə): «Bu insanlar öz arzu və xəyallarına qərq olublar. Yalan deyirlər, onlar ümidvar deyillər. Çünki bir şeyə ümidi olan kəs, onu axtarmağa çalışar və bir şeydən qorxan kəs ondan qaçar.»[4]

***793. Allahdan qeyrisinə ümidvar olmaqdan çəkindirmək***

2516. İmam Əli (ə):«Bütün ümidlərinizi pak olan Allaha bağlayın və Ondan qeyrisinə ümid etməyin. Çünki Allahdan qeyrisinə ümid bəsləyən elə birisi olmadı ki, ümidi puça çıxmasın.»[5]

ıooooooπ

---

[1] Bəqərə, ayə218
[2] Əmali-Muvid,səh. 207 , hədis38
[3] Nəhcül-Bəlağə, hikmət 150
[4] əl-Kafi, c.2,səh. 68 , hədis5
[5] Ğurərul-Hikəm,hədis 2511

**158**

# Ric‘ət (Dünyaya qayıdış)

***794. Ölülərin ric‘əti***

2517. İmam Sadiq (ə):«Allaha and olsun, Allah-taala ölüləri dirildib diriləri öldürməmiş, haqqı öz əhlinə qaytarmamış və Özünün bəyəndiyi (İslam) dini bərpa etməmiş (bütün dünyaya hakim etməmiş) gündüzlər və gecələr öz sonuna çatmayacaq.»[1]

***795. Ric‘ət edənlər***

2518. İmam Əli (ə):«Allah-taala Adəmdən (ə) Məhəmmədə (s) qədər bütün mürsəl peyğəmbərləri dirildər ki, onlar mənim yanımda ölülərin və dirilərin, bütün cinlərin və insanların başlarına qılıncla zərbə endirsinlər… Mənim qayıtma ardınca qayıtmağım, ric‘ət ardınca ric‘ətim var. Mən bu qayıdışların və ric‘ətlərin, bu yürüşlərin və intiqamların sahibiyəm.»[2]

2519. İmam Sadiq (ə):«Dünyaya qayıdan birinci şəxs Hüseyn ibn Əlidir (ə). O, yer üzündə o qədər hökmranlıq edər ki, qocalıqdan qaşları gözlərinin üstünə tökülər.»[3]

***796. Ric‘ət hamı üçün deyil***

2520. İmam Sadiq (ə):«Ric‘ət ümumi deyil, xüsusidir. Dünyaya yalnız xalis möminlər və qatı müşriklər qayıdacaqlar.»[4]

ιooooooπ

[1] Biharul-Ənvar, c.53,səh. 102 , hədis 125
[2] Biharul-Ənvar, c.53,səh. 47 , hədis 20
[3] Biharul-Ənvar, c.53,səh. 46 , hədis19
[4] Biharul-Ənvar, c.53,səh. 39 , hədis1

## 159

# Mehribanlıq

***797. Bir-biri ilə mehriban olmaq***

**Qur’an:**

«Məhəmməd Allahın peyğəmbəridir. Onunla birgə olanlar kafirlərlə amansız və bir-biri ilə mehribandır.»[1]

«Bundan əlavə, iman gətirənlərdən və bir-birinə səbri və mehribanlığı tövsiyə edənlərdən olmaqdır. Bunlardır xoşbəxtlər (əməl namələri sağ əllərinə verilənlər).»[2]

**Hədis:**

2521. Allahın Peyğəmbəri (s):«Rəhman Allah qəlbi rəhimli insanlara rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, səmada olan da sizə rəhm etsin.»[3]

2522. Allahın Peyğəmbəri (s):«Nida verən Cəhənnəmdə fəryad qoparar:«Ey mehriban! Ey bağışlayan! Məni oddan xilas et. Sonra Allah-taala onu oddan çıxarmağı bir mələyə əmr verər və o, Allahın qarşısında dayanar. Allah-taala ona buyurar:«Sən bir sərçəyə rəhm etmisənmi?»[4]

2523. İmam Əli (ə):«Rəhm et ki, sənə rəhm etsinlər.»[5]

2524. İmam Əli (ə):«Heyrətlənirəm o kəsə ki, özündən yuxarıdakının rəhminə və mehribanlığına ümidvar olur, amma necə də özündən aşağıda olanlara rəhm etmir.»[6]

***798. Mehribanlığa və rəhmə layiq olanlar***

2525. Allahın Peyğəmbəri (s):«Xar olmuş adlı-sanlıya, yoxsullaşmış varlıya, cahillər zamanında korlanmış alimə mehribanlıq gösltərin.»[7]

2526. Allahın Peyğəmbəri (s):«Yoxsullarla mehriban ol.»[8]

2527. İmam Əli (ə):«Öz ailənin uşaqlarına mehriban ol və ailənin böyüklərinə ehtiram göstər.»[9]

---

[1] Fəth, ayə 29
[2] Bələd, ayə17, 18
[3] Kənzul-Ummal,hədis 5969
[4] Kənzul-Ummal,hədis 5992
[5] Əmali-Səduq, səh.174 , hədis9
[6] Ğurərul-Hikəm,hədis 6255
[7] Biharul-Ənvar, c.74,səh. 405 , hədis 2
[8] Kənzul-Ummal,hədis 5983
[9] Əmali-Mufid,səh. 222 , hədis 1

**160**

# Rəhmət

***799. Allahın rəhməti***

2528. Allahın Peyğəmbəri (s):«Allah-taala göyləri və yeri yaratdığı gün, hər biri yerlə göy arasındakı məsafə qədər olan yüz rəhmət yaratdı. Sonra rəhmətlərdən birini yer üzünə endirdi və həmin rəhmətin səbəbinə yaradılmışlar bir-birinə rəhm edir, ana öz balasına məhəbbət bəsləyir, quşlar və heyvanlar su içir, insanlar bir yerdə yaşayırlar.»[1]

2529. Allahın Peyğəmbəri (s):«İnsanlar Cənnətə yalnız Allahın rəhməti ilə daxil olacaqlar.» Ərz etdilər:«Hətta siz də?» Buyurdu:«Hətta, mən də. Yalnız, Allah-taalanın məni öz rəhmətinə şamil etdiyi haldan başqa.»[2]

2530. Allahın Peyğəmbəri (s):«Əgər Allahın rəhmətinin ölçüsünü bilsəydiniz, mütləq ona arxalanardınız.»[3]

2531. İmam Səccad (ə):«Nicat tapan o qədər də təəccüb doğurmur. Əksinə, məhv olan kimsə təəccüb doğurur ki, Allahın bu qədər geniş rəhməti olduğu halda məhv olmuşdur.»[4]

***800. Rəhmətin səbəbləri***

2532. Allahın Peyğəmbəri (s):«Allahın əmrlərinə itaət etməklə özünüzü Onun rəhmətinə qovuşdurun.»[5]

2533. İmam Əli (ə) :«Allahın rəhməti Onu yad etməklə nazil olar.»[6]

2534. İmam Əli (ə) :«Mehribanlıq göstərməklə Allahın rəhməti nazil olar.»[7]

ιooooooπ

---

[1] Kənzul-Ummal,hədis 464
[2] Kənzul-Ummal,hədis 10407
[3] Kənzul-Ummal,hədis 10387
[4] Biharul-Ənvar, c.78,səh. 153 , hədis 17
[5] Tənbihul-Xəvatir, c.2, hədis 120
[6] Ğurərul-Hikəm, hədis 4209
[7] Ğurərul-Hikəm, hədis 4343

**161**

# Qohumluq

***801. Sileyi-rəhm (Qohumluq əlaqələrini saxlamaq)***

2535. Allahın Peyğəmbəri (s):«Sileyi-rəhmin savabı istənilən digər xeyir əməlin savabından tez çatar.»[1]

2536. Allahın Peyğəmbəri (s):«Sileyi-rəhmi yerinə yetirmək üçün (hətta əgər olubsa) bir illik yolu qət et.»[2]

***802. Sileyi-rəhmin səmərələri***

2537. Xanım Fatimeyi Zəhra (ə):«Allah-taala sileyi-rəhmi şəxslərin saylarının artması üçün qərar vermişdir.»[3]

2538. İmam Hüseyn (ə):«Kim ölümünün tə‘xirə salınmasını və ruzisinin artmasını istəyirsə sileyi-rəhmi yerinə yetirsin.»[4]

2539. İmam Baqir (ə):«Sileyi-rəhm əməlləri və var-dövləti artırar, bəlanı qaytarar, Qiyamət gününün hesabını asanlaşdırar, ölümü tə‘xirə salar.»[5]

2540. İmam Baqir (ə):«Sileyi-rəhm əxlaqı və xasiyyəti gözəlləşdirər, əli açıq edər, ruhu paklaşdırar, ruzini artırar, əcəli yubadar»[6]

2541. İmam Hadi (ə):«Allah-taala Musa ibn İmranla (ə) danışanda Musa (ə) ərz etdi:«Sileyi-rəhm edənin mükafatı nədir?» Allah buyurdu:«Ey Musa! Onun ölümünü tə‘xirə salaram, can verməyin çətinliklərini onunçün asanlaşdıraram.»[7]

***803. Əlaqəni kəsən ilə əlaqə yaratmaq***

2542. Allahın Peyğəmbəri (s):«Qohumun səninlə əlaqəni kəssə də, sən onunla əlaqəni qırma.»[8]

2543. İmam Hüseyn (ə) :«Hamıdan çox sileyi-rəhm edən şəxs, əlaqəni kəsən qohumu ilə əlaqəni bərpa edəndir.»[9]

---

[1] əl-Kafi, c.2,səh.152 , hədis 15
[2] Biharul-Ənvar, c.74,səh.103 , hədis61
[3] Biharul-Ənvar,səh. 94 , hədis23
[4] Biharul-Ənvar,səh. 91 , hədis15
[5] əl-Kafi, c.2,səh. 150 , hədis4
[6] əl-Kafi, c.2,səh. 152 , hədis12
[7] Əmali-Səduq,səh.173 , hədis8
[8] əl-Kafi, c.2,səh. 347, hədis6
[9] Biharul-Ənvar, c.74,səh.94 , hədis41

***804. Qohumluq əlaqəsini kəsməkdən çəkindirmək***

**Qur’an:**

«Əgər hakimiyyətə yetişsəniz, yer üzündə fəsad törədib qohumluq əlaqələrini kəsərsinizmi? Bunlar Allahın Lənətlədiyi və qulaqlarını kar, gözlərini kor etdiyi kəslərdir.»[1]

**Hədis:**

2544. Allahın Peyğəmbəri (s):«Allahın rəhməti, aralarında qohumluq əlaqəsini kəsən şəxs olan xalqa nazil olmaz.»[2]

2545. İmam Əli (ə):«İnsanlar sileyi-rəhmi kəsdikdə sərvətlər fəsad törədənlərin əlinə keçər.»[3]

2546. İmam Sadiq (ə):«Ölümü və məhvi tezləşdirən günahlardan biri də sileyi-rəhmi kəsməkdir.»[4]

***805. Sileyi-rəhmin ən az həddi***

2547. Allahın Peyğəmbəri (s):«Bir salamla olsa da, sileyi-rəhmi yerinə yetirin.»[5]

2548. İmam Sadiq (ə):«Hətta, əgər bir qurtum su içirtməklə olsa da, qohumuna sileyi-rəhm et. Ən yaxşı sileyi-rəhm qohumu incitməməkdir.»[6]

ιooooooπ

---

[1] Muhəmməd, ayə 22,23

[2] Kənzul-Ummal,hədis 6998,

[3] əl-Kafi, c.2,səh. 348 , hədis8

[4] Biharul-Ənvar, c.74,səh. 94 , hədis23

[5] Tuhəful-Uqul,səh. 57

[6] əl-Kafi, c.2,səh.151 , hədis9

## 162

# Ruzi

***806. Ruzi verən***

**Qur'an:**

«Həqiqətən, ruzi verən də, yenilməz qüvvə sahibi də Allahdır.»[1]

«Həqiqətən, Rəbbin istədiyi kəsin ruzisini artırar, ya azaldar. O, öz bəndələrinin halını bilən və görəndir.[2]

**Hədis:**

2549. İmam Əli (ə):«Ruzinin azalıb çoxalmasının ixtiyarı ruzi verən Allahdan başqa heç kəsin əlində deyil.»[3]

2550. İmam Əli (ə) :«Allah-taala ruziləri təyin etdi, bu vaxt onları az, ya çox, genbol və sıx surətdə ədalətlə böldü ki, istədiyi kəsi ruzinin bolluğu və ya azlığı ilə imtahana çəksin və bunun vasitəsilə varlının və kasıbın şükrünü səbrini aşkara çıxartsın.»[4]

***807. Ruziyə zəmanət verilməsi***

**Qur'an:**

«Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisi Allahın öhdəsində olmasın. Allah onun olduğu və qayıdacağı (öləcəyi) yeri bilir. Çünki bunların hamısı açıq-aydın kitabdadır (Lövhi-məhfuzdadır).»[5]

**Hədis:**

2551. Allahın Peyğəmbəri (s):«Zəmanət verilmiş ruzini qazanmaqla məşğul olmağın səni Allahın vacib etdiyi əməlləri yerinə yetirməkdən saxlamasın. Çünki sənin qismətində nə varsa sənə çatacaqdır və qismətində olmayan şeyə sənin əlin yetməyəcək.»[6]

2552. İmam Əli (ə):«Hər canlının öz ruzisi var.»[7]

2553. İmam Əli (ə):«Bu qarğadır, o isə qartal, bu göyərçindir, o da dəvəquşu. Hər bir quşu adı ilə çağırıb və onun ruzisinə zəmanət verib.»[8]

---

[1] Zariyat, ayə58

[2] İsra, ayə30

[3] Ğurərul-Hikəm, hədis 10838

[4] Nəhcül-Bəlağə, xütbə 91

[5] Hud, ayə6

[6] Biharul-Ənvar, c.77,səh.187, hədis10

[7] Əmali-Səduq,səh. 264, hədis9

[8] Nəhcül-Bəlağə, xütbə 185

2554. İmam Əli (ə) :«İnsanlar Allahın çörəyini yeyənlərdir. Allah

onların ruzisinə zamin durmuş və yeməklərini təyin etmişdir.»[1]

2555. İmam Əli (ə):«Ruzini axtarın. Çünki ruzi onu axtaran üçün zamin olunmuşdur.»[2]

2556. İmam Əskəri (ə) :«Zəmanət verilmiş ruzi səni vacib işlərdən çəkindirməsin.»[3]

***808. Hərislik və ruzinin artması***

57. Allahın Peyğəmbəri (s):«Nə hərisin acgözlüyü ruzini ona tərəf çəkər, nə də kimsənin ruzidən xoşlanmaması ruzini ondan çəkindirər.»[4]

2558. İmam Əli (ə):«Bilin ki, Allah-taalanın bəndəyə qismət etdiyi ruzi, onun zirəkliyi və tədbirliliyi az olsa da, əyər-əskiklik olmadan onun əlinə yetişəcək. Eləcə də, çox zirək və tədbirli olsa da, Allah-taalanın onun üçün təqdir etdiyindən çox ruzi əlinə çatmayacaq.»[5]

2559. İmam Sadiq (ə) :«Ruzi hər kəsə öz miqdarında təyin olunubsa hərislik nəyə lazım?»[6]

2560. İmam Sadiq (ə) :«Allah-taala sadəlövhlərin ruzisini bol etdi ki, əql sahibləri ibrət alsın və bilsinlər ki, dünya çalışmaq və zirəkliklə əldə olunmaz.»[7]

***809. Ruzini orta həddə istəməyə həvəsləndirmək***

2561. Allahın Peyğəmbəri (s):«Həqiqətən, Cəbrayıl qəlbimə belə təlqin etdi ki, heç kəs öz ruzisini tam şəkildə əldə etməmiş dünyadan köçməz. Beləliklə, Allahdan qorxun, ruzi istəməkdə orta həddi gözləyin və ruzinin gec gəlib çatması sizi onu haram yollarla axtarmağa vadar etməsin. Çünki Allahın nemətləri ona itaətdən qeyri bir yolla ələ gəlməz.»[8]

2562. İmam Əli (ə):«Dünyadan sənə nə çatarsa, götür və səndən nə üz döndərərsə, onu tərk et. Əgər belə etməsən, ən azı dünyanı istəməkdə orta həddi gözlə.»[9]

2563. İmam Sadiq (ə):«Yaşayışın üçün istədiyin ruzinin miqdarı ruzi dalınca getməyən kimsənin istəyindən çox və qəlbini dünyaya bağlayan, ondan razı olan həris şəxsin tələbindən az olsun. Mötədil və həyalı ol, tənbəllikdən və zəiflikdən çəkin. Mömin üçün nəsib edilən ruzidən ötrü çalış.»[10]

---

[1] Nəhcül-Bəlağə, xütbə 91
[2] əl-İrşad, c.1,səh. 303
[3] Biharul-Ənvar, c.78,səh. 374 , hədis22
[4] Biharul-Ənvar, c.77,səh. 68 , hədis 7
[5] Əmali-Mufiq,səh. 207 , hədis39
[6] Əmali-Səduq,səh.16 , hədis5
[7] Biharul-Ənvar, c.103,səh. 34 , hədis63
[8] əl-Kafi, c.2,səh. 84 , hədis2
[9] Nəhcül-Bəlağə, hikmət 393
[10] Biharul-Ənvar, c.103,səh. 33 , hədis63

***810. Ruzi və onu axtaran***

2564. Allahın Peyğəmbəri (s):«Əgər insan ölümdən qaçdığı kimi ruzidən qaçsaydı, ölüm gəlib onu haqladığı kimi, ruzi də yenə gəlib ona çatardı.»[1]

2565. İmam Əli (ə):«Ruzi, onu axtarmayanın sorağındadır.»[2]

2566. İmam Əli (ə):«Ruzi iki növdür: Birinci, sənin onun dalınca getdiyin ruzi, ikinci də onun sənin arxanca gəldiyi ruzi.Əgər sən də onu axtarmasan, özü sənin yanına gələcək.»[3]

2567. İmam Sadiq (ə):«Allah-taala möminlərin ruzisini, onların heç fikirləşmədikləri yerdən çatdırar. Səbəbi də budur ki, mömin ruzisinin haradan gələcəyini bilməyəndə çox dua edər.» [4]

***811. Sabahın ruzisinin qəmini çəkmək***

2568. Allahın Peyğəmbəri (s):«Sabahın ruzisinin qəmini çəkmə. Çünki hər sabah öz ruzisini gətirər.»[5]

2569. İmam Sadiq (ə):«Öz ruzisinin qəmini çəkənə bir günah yazılar.»[6]

***812. Ruzinin gəlişinin gecikməsi***

2570. Allahın Peyğəmbəri (s):«Böyük və pak Allah buyurur:«Məni ruzi verməkdə ləng hesab edən bəndə qorxsun ki, qəzəbə gəlib dünyanın bir qapısını onun üzünə açaram.»[7]

2571. Allahın Peyğəmbəri (s):«Allah-taala hər kəsə bir nemət bəxş edərsə, həmin şəxs Allaha həmd və şükr etməlidir. Kimin ruzisi tə‘xirə düşərsə Allahdan günahlarının bağışlanmasını istəsin.»[8]

2572. Allahın Peyğəmbəri (s):«Öz ruzisinin tə‘xirə düşdüyünü və az olduğunu görən şəxs, gərək çoxlu təkbir desin və qəmi-qüssəsi çox olan, çoxlu istiğfar etsin.»[9]

***813. Ruzi gətirən və artıran şey***

2573. Allahın Peyğəmbəri (s):«Camaata yemək ehsanı verən şəxsin ruzisi, bıçağın dəvənin belinə batmasından daha tez gələr.»[10]

2574. Allahın Peyğəmbəri (s) («İstəyirəm ki, ruzim çox olsun» deyə müraciət edənə buyurub): «Həmişə təharətdə (şəriət qaydalarına əsasən təmizlik) və pak halda ol, ruzin artar.»[11]

---

[1] Məkarimul-Əxlaq, c.2,səh. 377
[2] Ğurərul-Hikəm,hədis 1408
[3] Nəhcül-Bəlağə, məktub 31
[4] Nurus-Səqəleyn, c.5,səh. 354 , hədis34
[5] Biharul-Ənvar, c.77,səh. 67 , hədis6
[6] Əmali-Tusi,səh. 300 , hədis593
[7] Biharul-Ənvar, c.81,səh. 195 , hədis52
[8] Uyune Əxbare Rza, c.2,səh. 26 , hədis171
[9] Kənzul-Ummal,hədis 9325
[10] Biharul-Ənvar, c.74,səh. 362 , hədis71
[11] Kənzul-Ummal,hədis 44154

2575. Allahın Peyğəmbəri (s):«Çoxlu sədəqə verin ki, Allah sizə ruzi yetirsin.»[1]

2576. İmam Əli (ə) :«Din qardaşına maddi kömək etmək ruzini artırar.»[2]

2577. İmam Əli (ə):«Əmanətə sadiq qalmaq ruzini artırar.»[3]

2578. İmam Əli (ə):«Sədəqə verməklə ruzini (yerə) endirin.»[4]

2579. İmam Əli (ə):«Xoş niyyətli olanın, ruzisi çox olar.»[5]

2580. İmam Baqir (ə):«Həmişə din qardaşına dua et ki, bu əməl ruzini sənə tərəf yönəldər.»[6]

2581. İmam Baqir (ə):«Zəkat vermək ruzini artırar.»[7]

2582. İmam Sadiq (ə):«Ailəsi ilə mehriban davrananın ruzisi artar.»[8]

2583. İmam Sadiq (ə):«Yaxşı işlər görmək ruzini artırar.»[9]

2584. İmam Sadiq (ə):«Gözəl əxlaq ruzini artırar.»[10]

### *814. Ruzinin kəsilməsinin səbəbi*

2585. Allahın Peyğəmbəri (s):«Kim müsəlman qardaşının hüquqlarından birini yerinə yetirməsə, tövbə etmədiyi halda, Allah-taala ruzinin bərəkətini ona haram edər.»[11]

2586. İmam Baqir (ə):«Bəndə günah edər və bu səbəbdən ruzi ondan geri götürülər.»[12]

2587. İmam Sadiq (ə):«Çox haram yemək ruzini aradan götürər.»[13]

### *815. Halal ruzi axtarmaq*

2588. Allahın Peyğəmbəri (s):«İbadət on hissədir, onun doqquzu halal ruzi axtarmaqdır.»[14]

2589. Allahın Peyğəmbəri (s):«Ailəsinin dolanışığı üçün zəhmət çəkən şəxs, Allah yolunda cihad edən mücahid kimidir.»[15]

2590. Allahın Peyğəmbəri (s):«Allah-taala, bəndəsini halal ruzi qazanmaq yolunda yorğun görməyi sevər.»[16]

2591. Allahın Peyğəmbəri (s):«Halal ruzi qazanmaq hər müsəlman kişi və qadına vacibdir.»[1]

---

[1] Biharul-Ənvar, c.77,səh. 172, hədis10
[2] Biharul-Ənvar, c.74,səh. 395, hədis22
[3] Biharul-Ənvar, c.75,səh. 172, hədis8
[4] Nəhcül-Bəlağə, hikmət 137
[5] Biharul-Ənvar, c.103,səh. 21 , hədis18
[6] Biharul-Ənvar, c.76,səh. 60 , hədis14
[7] Biharul-Ənvar, c.96,səh.14 , hədis27
[8] Biharul-Ənvar, c.69,səh. 408 , hədis117
[9] Biharul-Ənvar, c.74,səh. 81 , hədis84
[10] Biharul-Ənvar, c.71,səh. 396 , hədis77
[11] Əmali-Səduq,səh. 350 , hədis1
[12] əl-Kafi, c.2,səh. 270 , hədis8
[13] Tuhəful-Uqul,səh. 372
[14] Biharul-Ənvar, c.103,səh. 9 , hədis37
[15] Biharul-Ənvar, c.103,səh. 13 , hədis59
[16] Kənzul-Ummal,hədis 9200

2592. Allahın Peyğəmbəri (s):«Öz zəhməti ilə çörək yeyən şəxs sirat körpüsündün ildırım kimi keçəcək.»[2]

2593. Peyğəmbər (s):«Allah-taala öz zəhməti ilə çörək yeyən kəsə rəhmət nəzərilə baxar və heç vaxt ona əzab verməz.»[3]

2594. Allahın Peyğəmbəri (s):«Öz ailəsinin xərcini təmin etməyən kəs məl'undur, məl'un.»[4]

2595. Müfəzzəl ibn Ömər:«Dünyanın bəzi şeylərindən axirət üçün kömək götürün. Çünki imam Sadiqin(ə) belə buyurduğunu eşitdim:«Bəzi dünya şeylərindən axirət üçün kömək götürün və insanlara artıq yük olmayın.»[5]

### *816. Ən yaxşı ruzi kafi həddə olandır*

2596. Allahın Peyğəmbəri (s):«İlahi! Məhəmməd və onun ailəsinin haqqına, Məhəmməd və onun ailəsini sevən kəsin hörmətinə pak və kifayət edən qədər ruzi ver. Məhəmməd və onun ailəsini düşmən bilən kəsə mal-dövlət və övlad bəxş et.»[6]

2597. Allahın Peyğəmbəri (s):«Ən yaxşı ruzi kifayət edən miqdarda olandır.»[7]

2598. Allahın Peyğəmbəri (s):«Az və kifayət edən miqdarda olan ruzi, çox və Allahı yad etməkdən çəkindirən ruzidən yaxşıdır.»[8]

ιοοοοοοπ

---

[1] Cami-Əxbar,səh. 389 , hədis1079
[2] Cami-Əxbar,səh. 390 , hədis1085
[3] Cami-Əxbar,səh. 390 , hədis1078
[4] Biharul-Ənvar, c.103,səh. 13 , hədis62
[5] Biharul-Ənvar, c.78,səh. 384 , hədis1
[6] əl-Kafi, c.2,səh. 140 , hədis3
[7] Biharul-Ənvar, c.77,səh. 168 , hədis4
[8] Əmali-Səduq,səh. 395 , hədis1

**163**

# Rüşvət

***817. Rüşvət***

2599. Allahın Peyğəmbəri (s):«Rüşvət almaqdan çəkinin ki, həqiqətən, o, xalis küfrdür. Rüşvətxor Cənnətin ətrini duymayacaqdır.»[1]

2600. Allahın Peyğəmbəri (s):«Allah rüşvət verənə, rüşvət alana və onların arasında vasitəçi olana Lənət etsin.»[2]

2601. İmam Əli (ə):«Sizdən qabaqkılar ona görə ölümə və pozğunluğa düçar oldular ki, xalqı öz haqlarından məhrum etmişdilər və insanlar (çarəsiz qalıb rüşvət verməklə) o haqqı aldılar. Onlar insanları batil əməllərə və əyintilərə vadar etdilər, insanlar da onların ardınca getdilər.»[3]

2602. İmam Əli (ə):«Siz bilirsiniz ki, müsəlmanların namusunun, canının, qənimətlərinin (mallarının), hökmlərinin Məsuliyyətini və idarəçiliyini öz öhdəsinə götürən şəxs xəsis olmamalı və qərar verərkən, mühakimə edərkən rüşvət almamalıdır. Çünki əks halda, o, hüquqları pozacaq və haqqı haqq sahibinə çatdırmayacaqdır.»[4]

2603. İmam Əli (ə) («Çox haram yeyənlərdir» ayəsi haqda): «Bunlar, din qardaşlarının çətinliklərini həll etdikdən sonra onun hədiyyəsini qəbul edənlərdir.»[5]

2604. İmam Sadiq (ə):«Mühakimədə rüşvət almaq Allaha küfr etməkdir.»[6]

ιoooooπ

---

[1] Biharul-Ənvar, c.104,səh. 274 , hədis12
[2] Kənzul-Ummal, hədis 15080
[3] Nəhcül-Bəlağə, məktub 79
[4] Nəhcül-Bəlağə, xütbə 131
[5] Biharul-Ənvar, c.104,səh. 273 , hədis5
[6] əl-Kafi, c.8,səh. 409 , hədis2

**164**

# Sudəmər dövr

***818. Körpənin südəmər dövrü***

**Qur'an:**

«Öz körpələrinə süd verməyi tamamlamaq istəyən analar, bütöv iki ili süd versinlər.»[1]

**Hədis:**

2605. Allahın Peyğəmbəri (s):«Körpə üçün anasının südündən yaxşı süd yoxdur.»[2]

2606. İmam Əli (ə):«Övladlarınıza kimin süd verdiyinə diqqət yetirin. Çünki körpə ona süd verənin təbiəti ilə inkişaf edir.»[3]

2607. İmam Baqir (ə):«Öz körpənizə süd vermək üçün gözəl əxlaqlı dayə tutun və pis əxlaqlı dayələrdən çəkinin. Çünki süd (insanın xüsusiyyətlərini) keçirir.»[4]

***819. Nalayiq dayələr***

2608. Allahın Peyğəmbəri (s):«Ağıldan kəm və göz xəstəliyinə tutulan qadınları dayəliyə götürməyin. Çünki süd öz tə'sirini qoyur.»[5]

2609. İmam Əli (ə):«Öz körpələrinizi əxlaqsız və dəli qadınların südündən uzaqlaşdırın. Çünki süd öz tə'sirini göstərir.»[6]

2610. İmam Sadiq (ə):«Yəhudi və xaçpərəst dayənin südü, nasibi (Əhli-Beyt (ə) düşməni) dayənin südündən yaxşıdır.»[7]

---

[1]Bəqərə, ayə 233

[2] Uyune Əxbarul Rza (ə), c.2,səh. 34 , hədis69

[3] əl-Kafi, c.6,səh. 44 , hədis10

[4] əl-Kafi, c.6,səh. 44 , hədis12

[5] Biharul-Ənvar, c.103 , hədis13

[6] Biharul-Ənvar, c.103,səh. 323, hədis9

[7] Vəsayiluş-Şiə, c.15, səh 187, hədis1

1000000π

# 165

# Razılıq (1)

## Allahın qəzvü- qədərinə razılıq

***820. Razılıq***

2611. İmam Əli (ə):«Razılıq necə də gözəl yoldaşdır.»[1]

2612. İmam Həsən (ə):«Allahın gözəl seçiminə arxalanan, Allahın onun üçün seçdiyi vəziyyətdən başqa bir vəziyyət arzulamaz.»[2]

2613. İmam Həsən (ə):«Mömin öz qismətindən narazı olduğu və öz məqamını, vəziyyətini dəyərsiz saydığı halda necə mömin ola bilər? Halbuki, onun hakimi (və taleyini təyin edən) Allahdır.»[3]

2614. İmam Səccad (ə):«Zahidliyin ən ali dərəcəsi, «vərə»nin (günahlardan çəkinməyin) ən aşağı dərəcəsidir, «vərə»nin ən yüksək dərəcəsi yəqinin ən aşağı dərəcəsidir. Yəqinliyin ən yüksək dərəcəsi (Allahdan) razılığın ən aşağı dərəcəsidir.»[4]

2615İmam Səccad (ə):«(Allahın) Acı qəza və qədərinə razı olmaq əminliyin ən ali dərəcəsidir.»[5]

2616. İmam Sadiq (ə):«Allahın Rəsulu (s) heç bir hadisə və əhvalatla əlaqədar «kaş, bu baş verməyəydi» deməzdi.»[6]

2617. İmam Sadiq (ə):«Allaha itaətin tacı, bəndənin xoşuna gəlsə də, gəlməsə də Allahın işinə razı olmaqdır.»[7]

***821. Razılıq gətirən şey***

2618. İmam Əli (ə):«Razılığın kökü, Allaha könül şadlığı ilə e‘timad etməkdədir.»[8]

2619. İmam Sadiq (ə):«Allahı ən yaxşı tanıyan insan, Allahın qəzavü-qədərinə hamıdan çox razı olandır.»[9]

---

[1] Nəhcül-Bəlağə, hikmət 4
[2] Biharul-Ənvar, c.78,səh. 106 , hədis6
[3] Biharul-Ənvar, c.43,səh. 351 , hədis25
[4] əl-Kafi, c.2,səh. 351 , hədis4
[5] ət-Təmhis,səh. 60 , hədis131
[6] Biharul-Ənvar, c.71,səh. 157 , hədis75
[7] Biharul-Ənvar, c.71,səh. 139 , hədis28
[8] Ğurərul-Hikəm , hədis3805
[9] Biharul-Ənvar, c.71,səh. 158 , hədis75

***822. Razılığın səmərələri***

2620. Allahın Peyğəmbəri (s):«Allah bir bəndəni sevəndə ona bəla göndərər. Səbr etsə onu seçər, əgər razı olsa, onu Özü üçün seçər.»[1]

2621. Allahın Peyğəmbəri (s):«Allahın qismətinə razı ol, ən ehtiyacsız insan olarsan.»[2]

2622. İmam Əli (ə):«Razılıq qəmi aparar.»[3]

2623. İmam Əli (ə):«Ən ləzzətli həyatı Allahın qismətinə razı olan kəs yaşayır.»[4]

2624. İmam Həsən (ə):«Mən, qəlbindən (Allahından) razılıqdan başqa bir şey keçməyən kəsə zəmanət verirəm ki, Allahı çağırsın, duası qəbul olunacaq.»[5]

2625. İmam Sadiq (ə):«Xoşluq və rahatlıq razılıqda və əminlikdədir. Qəm-qüssə isə şəkkdə və narazılıqda.»[6]

***823. Narazılığın nəticəsi***

2627. İmam Sadiq (ə):«Kim Allahın qismət etdiyinə razı olmasa (əslində) Allahı öz müqəddəratına görə ittiham etmişdir.»[7]

2627. İmam Sadiq (ə):«Allahın müqəddəratı (qəzası) hər bir halda icra olunacaq. Buna əsasən, belə müqəddərata razı olan şəxs savab qazanar və ondan narazı qalanın Allah-taala savabını aradan aparar.»[8]

ιοooooπ

---

[1] Biharul-Ənvar, c.82,səh. 142 , hədis26
[2] Biharul-Ənvar, c.69,səh. 368, hədis4
[3] Ğurərul-Hikəm,hədis 410
[4] Ğurərul-Hikəm,hədis 3397
[5] Biharul-Ənvar, c.71,səh. 159 , hədis75
[6] Biharul-Ənvar, c.71,səh. 159 , hədis 75
[7] Biharul-Ənvar, c.78, səh. 202, hədis 33
[8] Biharul-Ənvar, c.71,səh. 139, hədis26

**166**

# Razılıq (2)

## Sübhan olan Allahın razılığı

***824. Allahın razılığının amilləri***

**Qur’an:**

«Məgər Allahın razılığını qazanmaq yolu ilə gedən kimsə, Allahın qəzəbinə gələn şəxs kimidirmi? Onun yeri Cəhənnəmdir və bu necə də pis aqibətdir.»[1]

**Hədis:**

2628. «Biharul-Ənvar»:«Rəvayət olunur ki, Musa (ə) dedi:«Ey Rəbbim! Mənə elə bir işə yol göstər ki, ona əməl edəndə Sənin razılığını qazana bilim.» Allah-taala ona vəhy etdi:«Ey İmranın oğlu! Həqiqətən, Mənim razılığım sənin narazılığındadır… və sənin də buna taqətin yoxdur…» Musa (ə) ağlayaraq səcdəyə getdi və dedi:«Ey Rəbbim! Sən mənə özünlə söhbət etmək iftixarı ilə başıucalıq bəxş etdin, məndən qabaq heç bir bəşərlə söhbət etmədin. İndi isə, mənə Sənin razılığını qazanmağa vasitə ola biləcək bir əməlin yolunu göstərmirsənmi?» Allah-taala ona vəhy etdi:«Həqiqətən, Mənim razılığım, Mənim müqəddəratıma (qəzavü-qədərimə) razılığındadır.»[2]

2629. İmam Əli (ə):«Üç şey bəndəni Allahın razılığına çatdırar: çox istiğfar etmək, təvazökarlıq və sədəqə vermək.»[3]

2630. İmam Əli (ə):«Kim öz bədənini ibadət zəhmətinə salarsa, Rəbbini razı salmışdır. Kim öz bədənini zəhmətə salmasa, Rəbbinə itaətsizlik etmişdir.»[4]

2631. İmam Əli (ə):«Allah-taala sizə təqvalı olmağı tapşırdı və bunu, Öz bəndələrindən razılığının tacı və istəyinə çevirdi.»[5]

2632. İmam Əli (ə):«Allahın razılığı Onun itaətinə yaxındır.»[6]

2633. İmam Səccad (ə):«Həqiqətən, sizin aranızda Allahın ən razı olduğu kəs öz ailəsini daha çox firavanlıqda və rifah içində saxlayandır.»[7]

***825. Allahın razılığının nişanələri***

---

[1] Ali İmran, ayə162
[2] Biharul-Ənvar, c.82,səh.143, hədis 17
[3] Biharul-Ənvar, c.78,səh. 81, hədis74
[4] Biharul-Ənvar, c.70,səh. 312, hədis 11
[5] Nəhcül-Bəlağə, xütbə 183
[6] Ğurərul-Hikəm,hədis 5410
[7] Biharul-Ənvar, c.78,səh. 136, hədis13

2634. «Biharul-Ənvar»: «Rəvayət olunur ki, Musa (ə) dedi:«Ey Rəbbim! Məni bəndəndən razılığının nişanələrindən agah et.» Allah-taala ona vəhy etdi:«Mən bəndəmi Öz itaətimə hazırlayıb, günahlardan uzaqlaşdırdığımı görəndə bil ki, bu Mənim razılığımın nişanəsidir.»[1]

2635. İmam Əli (ə):«Sübhan olan Allahın bəndədən razılığının nişanəsi, bəndənin Allah tərəfindən onun xeyrinə və ziyanına təyin etdiyinə razı olmasıdır.»[2]

***826. Yaradılmışların razılığı və Yaradanın narazılığı***

2636.İmam Əli (ə) (Məhəmməd ibn Əbibəkrə yazdığı məktubundan): «Allahın yaratdıqlarından birinin razılığına xatir öz Rəbbini narazı etməyəcəyin bir işi bacarsan, bu işi gör. Çünki Allahın razılığı hər razılığın canişinidir, amma heç bir şey Allahın razılığının yerini tutmaz.»[3]

2637.İmam Hüseyn (ə):«Kim insanların narazı qalması ilə Allahın razılığını istəsə, Allah-taala onu insanların işlərindən ehtiyacsız edər. Kim Allahın narazı qalmağı ilə insanların razılığını axtarsa, Allah-taala onu insanlara tapşırar. Vəssəlam.»[4]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.70,səh. 26, hədis 29
[2] Ğurərul-Hikəm,hədis 6344
[3] Əmali-Tusi, səh. 29 , hədis 31
[4] Biharul-Ənvar, c.71,səh.208 , hədis 17

**167**

# Mülayimlik

***827.Mülayimliyin dəyəri***

2638. Allahın Peyğəmbəri (s):«Mülayimlik hər nəyə yoldaş olarsa ona zinət verər və hər nədən götürülərsə, onu çirkinləşdirər.»[1]

2639.Allahın Peyğəmbəri (s):«Bir-biri ilə dostluq edənlərdən, öz dostuna qarşı daha mülayim olanın daha çox əcri var və Allah yanında daha sevimlidir.»[2]

2640.Allahın Peyğəmbəri (s):«Allah-taala bir ailənin xeyrini istəyəndə onların üzünə mülayimlik qapısı açar.»[3]

2641. Allahın Peyğəmbəri (s):«İnsanların ən ağıllısı xalqla ən mülayim və mehriban rəftar edəndir.»[4]

2642. Allahın Peyğəmbəri (s):«Allah-taala mülayim və mehribandır, hər işdə də mülayimliyi sevər.»[5]

2643. İmam Əli (ə):«Mülayimlik xoşbəxtliyin açarıdır.»[6]

2644. İmam Baqir (ə):«Hər şeyin qıfılı var, imanın da qıfılı mülayimlikdir.»[7]

2645. İmam Kazim (ə):«Mülayimlik həyatın yarısıdır.»[8]

***828. İbadətdə mülayimlik***

2646. Allahın Peyğəmbəri (s):«Həqiqətən, bu din möhkəmdir. Ona mülayimliklə daxil olun və Allah bəndələrini zorla Allaha ibadətə məcbur etməyin. Yoxsa nə məsafəni qət edə bilən, nə də miniyi salamat saxlayan süvariyə bənzəyərsiz.»[9]

2647. İmam Əli (ə):«Öz nəfsini ibadət etmək üçün aldat, onunla mülayim rəftar et və zorla ibadətə vadar etmə. Yalnız sənə vacib edilmiş ibadətlərdən başqa, onu asudə və şad vaxtı ibadətə tut. Belə ki, vacibləri vaxtında yerinə yetirməli və onlardan ehtiyatlı olmalısan.»[10]

---

[1] əl-Kafi, c.2,səh. 119 , hədis 6
[2] əl-Kafi, c.2,səh. 120 , hədis 15
[3] Şərhe Nəhcül-Bəlağə, c.6,səh. 339
[4] Əmali-Səduq,səh. 28 , hədis 4
[5] Kənzul-Ummal, hədis 5370
[6] Ğurərul-Hikəm,hədis 294
[7] əl-Kafi, c.2, səh. 118, hədis 1
[8] əl-Kafi,c.2, səh. 120 , hədis 11
[9] əl-Kafi,c.2, səh. 86 , hədis 1
[10] Nəhcül-Bəlağə, məktub 69

***829. Mülayimliyin səmərələri***

2648. Allahın Peyğəmbəri (s):«Həqiqətən, mülayimlikdə artım və bərəkət var. Mülayimlikdən məhrum olan xeyirdən məhrum olar.»[1]

2649 İmam Əli (ə):«Mülayimlik çətinlikləri asan, mürəkkəb çarələri sadə edər.»[2]

2650. İmam Hüseyn (ə):«Kim öz nəzərində bir çıxış yolu tapmayıb çarəsiz qalarsa, mülayimlik onun müşkülünün həllinə açar olar.»[3]

2651. İmam Səccad (ə):«Xızırın (ə) Musa ibn İmrana (ə) axırıncı vəsiyyəti bu idi:«Kim bu dünyada başqası ilə mülayim rəftar edərsə, Allah-taala Qiyamət günü onunla mülayim rəftar edər.»[4]

2652. İmam Sadiq (ə):«Öz işlərində mülayim olan kəs, insanlardan istədiyi şeyi əldə edər.»[5]

2653. İmam Sadiq (ə):«Hörmətli olmaq istəyirsənsə mülayim ol, xar olmaq istəyirsənsə kobud.»[6]

## 167. Nəzarət.

### 830. Allahın, mələklərin və bədən əzalarının nəzarəti.

**Qur'an:**

«Həqiqətən, Allah-taala sizə nəzarət edəndir.»[7]

«(İnsanın) Dediyi elə bir söz yoxdur ki, onun yanında bir gözətçi hazır durub yazmasın.»[8]

**Hədis:**

2654. İmam Əli (ə):«Bilin, ey Allahın bəndələri! Əməllərinizi və nəfəslərinizi qeyd etmək üçün sizin üzərinizdə vucudlarınızdan nəzarətçilər, bədən əzalarınızdan casuslar və sadiq gözətçilər təyin olunmuşlar. Nə zülmət gecənin qaranlığı sizin əməllərinizi onların nəzərindən itirər, nə də möhnət və bağlı darvazalar sizi onlardan gizlədər.»[9]

***831. Nəzarətə həvəsləndirmək***

2655. Allahın Peyğəmbəri (s) :«İbrahimin (ə) səhifələrində nəql olunur ki… «Ağıl sahibi -madam ki, ondan ağıl alınmayıb- günün saatlarını özü üçün dörd hissəyə bölməlidir: bir hissəsini Allahla münacat və dua etməyə, bir hissəsini öz nəfsinin hesabatını aparmağa, bir hissəsini Allahın ona bəxş etdiyi nemətlər barədə düşünməyə və bir hissəsini də öz canını halaldan bəhrələndirməyə sərf

---

[1] əl-Kafi, c.2,səh. 119 , hədis7
[2] Gurərul-Hikəm,hədis 1778
[3] Biharul-Ənvar, c.78,səh. 128 , hədis 11
[4] Biharul-Ənvar, c.73,səh. 386 , hədis 6
[5] əl-Kafi, c.2,səh. 120 , hədis16
[6] Biharul-Ənvar, c.87,səh. 269 , hədis109
[7] Nisa/1
[8] Qaf/18
[9] Nəhcül-Bəlağə, xütbə 157

etsin. Çünki bu vaxt kəsiyi digər üç vaxt üçün kömək və qəlbin rahatlıq tapmasının, yorğunluğun getməsinin səbəbidir.»[1]

2656. İmam Əli (ə):«Özün tərəfindən özünə nəzarətçi, gözətçi təyin et və öz dünyandan axirətin üçün bəhrə götür.»[2]

2657. İmam Əli (ə):«Yaxşıdır ki, insan öz nəfsinin gözətçisi, qəlbinin nəzarətçisi və dilinin mühafizəçisi olsun.»[3]

2658. İmam Əli (ə):«Allah rəhmət eləsin öz günahına nəzarət edən və Allahdan qorxan bəndəyə.»[4]

2659. İmam Əli (ə):«Öz dini, fikri, əxlaqı və tərbiyəsindəki nöqsanları hesablamaqla onları öz sinəsində, ya da yazılı surətdə toplayıb və aradan götürülməsi üçün çalışmaq ağıllı insanın öhdəsinə düşür.»[5]

2660. İmam Sadiq (ə):«Allah-taalanın İsaya (ə.) moizələrindən:«Ey İsa! Harada olursan ol, Məni nəzərində saxla.»[6]

2661. İmam Sadiq (ə):«Kimin iki günü eynilə bərabər olarsa, zərər etmişdir. Kimin sabahı bu günündən pis olarsa, aldanılmışdır. Kim öz nöqsanlarına nəzarət etməsə daim nöqsanlar içində qalar, kim öz nöqsanlarına davam edərsə, onun üçün ölüm daha yaxşıdır.»[7]

***832. Nəzarət və hesab-kitab***

2662. İmam Kazim (ə):«Hər gün öz nəfsinin hesabatını aparmayan kəs, bizdən deyil. Yaxşı iş görmüşsə Allahdan onun artmasını istəyər, əgər pis iş görübsə Allahdan bağışlanmasını istəyər və Onun dərgahına tövbə edər.»[8]

ιooooooπ

[1] əl-Xisal,səh. 525 , hədis 13
[2] Ğurərul-Hikəm,hədis 2429
[3] Ğurərul-Hikəm,hədis 10947
[4] Ğurərul-Hikəm,hədis 5205
[5] Biharul-Ənvar, c.78, səh. 6 , hədis 58
[6] Biharul-Ənvar, c. 14,səh. 289, hədis 14
[7] Biharul-Ənvar, c.78,səh. 277 , hədis 113
[8] əl-Kafi, c.2,səh.453, hədis 2

**168**

# Ramazan

***833. Ramazan ayı***

**Qur'an:**

«İnsanları hidayət etmək, aydın yolu göstərmək və haqqı batildən ayırmaq üçün Qur'anın nazil olduğu (bu həmin) Ramazan ayıdır. Beləliklə, kim bu ayı görərsə (əgər səfərdə olmasa) oruc tutmalıdır. Kim xəstə, ya səfərdə olarsa, gərək həmin günlərin sayı qədər başqa vaxtda oruc tutsun. Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir. Gərək (təyin olunmuş) sayı kamala çatdırasınız və sizlərə doğru yol göstərdiyinə görə Allahı böyüklüyü ilə yad edəsiniz (təkbir deyəsiniz) və bəlkə də şükr edəsiniz.» [1]

**Hədis:**

2663. Allahın Peyğəmbəri (s):«Ramazan günahları yandırdığına görə Ramazan adlandırılmışdır.»[2]

2664. Allahın Peyğəmbəri (s):«Ramazan ayının ilk gecəsi səmanın qapıları açılar və son gecəsinədək bağlanmaz.»[3]

2665. Allahın Peyğəmbəri (s):«Əgər bəndə Ramazan ayının qiymətini bilərsə, ilin başdan-başa Ramazan olmasını istər.»[4]

2666. Allahın Peyğəmbəri (s):«Ramazan ayının hilalı görünəndə Cəhənnəmin qapıları bağlanar, Cənnətin qapıları açılar və şeytanlar zəncirlənərlər.»[5]

2667. İmam Əli (ə):«Bir gün Allahın Rəsulu (s) bizə xütbə söyləyən zaman buyurdu:«Ey insanlar! Həqiqətən bərəkət, rəhmət və bağışlanmaq ayı sizə doğru gəlməkdədir. Bu ay Allahın yanında ən üstün ay, günləri ən yaxşı günlər, saatları isə ən yaxşı saatlardır. Bu ayda siz, Allahın qonaqlığına də'vət olunmusunuz və Allahın kəramətindən bəhrələnənlərin cərgəsində dayanmısınız. Bu ayda sizin nəfəsləriniz Allaha təsbih, yuxunuz ibadətdir, əməlləriniz qəbul, dualarınız müstəcəbdir…» Mən qalxıb ərz etdim:«Bu ayda ən yaxşı əməl nədir?» Allahın Peyğəmbəri (s) buyurdu:«Ey Əbəl-Həsən! Bu ayda ən yaxşı əməl, özünü Allahın haram etdiklərindən çəkindirməkdir.»[6]

---

[1] Bəqərə/185
[2] Kənzul-Ummal, hədis 23688
[3] Biharul-Ənvar, c.96,səh. 34 , hədis 8
[4] Biharul-Ənvar, c.96,səh. 346 , hədis 12
[5] Biharul-Ənvar, c.96,səh. 348 , hədis 14
[6] Əmali-Səduq,səh. 84 , hədis 4

2668. İmam Baqir (ə):«Allahın Rəsulu (s) Şəban ayından üç gün qalmış Bilala göstəriş verərdi ki, camaatı toplaşmağa səsləsin. Camaat toplananda Allahın Peyğəmbəri (s) minbərə qalxar, Allaha həmd, tərif söyləyəndən sonra buyurardı:«Ey insanlar! Həqiqətən bu ay sizə tərəf üz tutub və bu bütün ayların ağasıdır. Onda bir gecə var ki, min aydan yaxşıdır. Bu ayda Cəhənnəmin qapıları bağlanar, Cənnətin qapıları açılar. Kim bu ayı yaşasa və bağışlanmasa, Allah-taala onu Öz rəhmətindən uzaqlaşdırar.»[1]

2669. İmam Sadiq (ə) (Ramazan ayının hilalını görən zaman öz övladlarına söylədiyi tövsiyələrdən): «Bü ayda öz canlarınızı zəhmətə və sə‘yə vadar edin. Çünki bu ayda ruzilər bölünər, əcəllər yazılar və Allah dərgahına daxil olan qonaqların adları qeydə alınar. Bu ayda bir gecə var ki, o gecənin əməli min ayın xeyir əməlindən yaxşıdır.»[2]

2670. Allahın Peyğəmbəri (s):«Kim Ramazan ayını yaşasa və bağışlanmasa, Allah-taala onu Öz rəhmətindən uzaqlaşdırar.»[3]

2671. Allahın Peyğəmbəri (s) (Ramazan ayının gəlişi ilə bağlı xütbəsindən): «Bu böyük ayda Allahın bağışlanmasından məhrum olan kimsə bədbəxtdir.»[4]

2672. Allahın Peyğəmbəri (s):«Ramazan ayında bağışlanmayan kimsə, bəs hansı ayda bağışlanacaq?!»[5]

2673. İmam Sadiq (ə):«Ramazan ayında bağışlanmayan kimsə Ərəfatda qalması istisna olmaqla, gələn Ramazanadək bağışlanmaz.»[6]

ιοooooοπ

[1] Əmali-Səduq, səh. 56 , hədis 2
[2] Biharul-Ənvar, c.96,səh. 375 , hədis 63
[3] Biharul-Ənvar, c.74,səh. 74 , hədis 62
[4] Uyune Əxbare Rza (ə), c.1,səh. 295 , hədis 53
[5] Əmali-Səduq,səh. 52 , hədis 2
[6] Biharul-Ənvar, c.96,səh. 342 , hədis 6

169

# Ruh

***835. Ruh***

**Qur'an:**

«Səndən ruh haqda soruşarlar de ki, ruh mənim Rəbbimin əmrindəndir və elmdən sizə az bir miqdardan başqa bir şey verilməmişdir.»[1]

**Hədis:**

2674. İmam Sadiq (ə):«Ruhlar bədənlə qarışmışlar. Bədənə söykənikli deyillər, əksinə bədəni araya alıb əhatə edirlər.»[2]

2675. İmam Sadiq (ə) :«Ruh, üzərinə qalın bədən geyindirilmiş zərif, incə bir cisimdir.»[3]

***836. Ruhlar hazırlıqlı əsgərlərdir***

2676. Allahın Peyğəmbəri (s):«Ruhlar hazırlıqlı əsgərlərdir. Tanış ruhlar qarşılıqlı ünsiyyətə girir, tanış olmayan ruhlar isə bir-birindən ayrılırlar.»[4]

2677. İmam Əli (ə):«Dostluq, ruhların ünsiyyəti sayəsində qəlblərin bir-birinə olan meylidir.»[5]

2678. Şəqiq ibn Səlmə:«Bir kişi Həzrət Əmirəl-mömininin (ə) yanına gəlib Onunla söhbət edir və söhbət əsnasında deyir:«Mən sizi sevirəm.» Əli (ə) buyurur:«Yalan deyirsən» Ərz edir:«Niyə, ey möminlərin ağası?» Buyurur:«Öz qəlbimdə sənin məhəbbətini tapmıram.» Allahın Peyğəmbəri (s) buyurmuşdur:«Ruhlar fəzada bir-biri ilə görüşür və bir-birilərini qoxuyurdular. Bir-birini tanıyanlar bir yerə yığılır və tanış olmayanlar isə ayrılırdılar.»[6]

***837. Ruhun halları***

2679. İmam Əli (ə):«Bədənin altı halı var: sağlamlıq, xəstəlik, ölüm, həyat, yuxu və oyaqlıq. Ruh da belədir: həyatı onun elmi, ölümü onun nadanlığı, xəstəliyi isə onun şəkkidir. Sağlamlığı onun əminliyidir, yuxusu onun qəfləti və oyaqlığı onun dərrakəsidir.»[7]

---

[1] İsra, ayə 85
[2] Biharul-Ənvar, c.61,səh. 40 , hədis11
[3] Biharul-Ənvar, c. 61,səh. 34 , hədis 7
[4] Kənzul-Ummal, hədis 24660
[5] Ğurərul-Hikəm,hədis 2057
[6] Kənzul-Ummal, hədis 25560
[7] Biharul-Ənvar,c. 61, səh.40 , hədis 10

2680. İmam Sadiq (ə) (Əbu Bəsirin «Yuxu vaxtı ruh bədəndən çıxırmı?» – sualının cavabında): «Xeyr, ey Əbu Bəsir! Çünki ruh bədəndən ayrılsa bir daha ona qayıtmaz. Ancaq ruh səmanın ortasında günəş kimidir: onun şüası hər yerə saçar.»[1]

2681. İmam Kazim (ə):«İnsan yatanda onun heyvani ruhu bədəndə qalır. Ondan çıxan isə əql ruhudur.»[2]

ιοοοοοοπ

[1] Camiul-Əxbar,səh. 488, hədis 1360
[2] Biharul-Ənvar, c.61, səh. 43 , hədis 19

**170**

# Rahatlıq

***839. Rahatlığın səbəbləri***

2682. İmam Əli (ə):«Hər kim Allahın onunçün təqdir etdiyinin onun əlinə yetişəcəyinə əmin olarsa, qəlbi rahatlıq tapar.»[1]

2683. İmam Əli (ə):«Xasiyyətcə uyğun olan zövcə iki rahatlıqdan biridir.»[2]

2684. İmam Əli (ə):«Kifayət edənə qane olan kimsə rahatlıq tapıb dinclik mənzilində məskən salar.»[3]

2685. İmam Əli (ə) :«Zahidlik və dünyaya e‘tinasızlıq ən böyük rahatlıqdır.»[4]

2686. İmam Sadiq (ə):«Xoşluq və rahatlıq razılıq və əminlikdədir. Qəm-qüssə isə şəkkdə və narazılıqda.»[5]

2687. İmam Sadiq (ə):«Ən gözəl rahatlıq insanlardan ehtiyacsız olmaqdır.»[6]

***840. Dünyada rahatlıq axtarmaq***

2688. İmam Sadiq (ə) (öz səhabələrinə xitab edərək buyurur): «Mümkün olmayan şeyi arzulamayın!» Ərz etdilər:«Məgər kim mümkün olmayan şeyi arzu edir ki?» Buyurdu:«Siz. Məgər dünyada rahatlıq axtarmırsınızmı?» Dedilər:«Niyə də yox? Bəli (axtarırıq).» Buyurdu:«Möminin dünyada rahatlığı qeyri- mümkündür.»[7]

ιooooooπ

---

[1] Ğurərul-Hikəm,hədis 8763
[2] Ğurərul-Hikəm,hədis 1633
[3] Nəhcül-Bəlağə, hikmət 371
[4] Ğurərul-Hikəm,hədis 1316
[5] Mişkətul-Ənvar,səh. 34
[6] Mişkətul-Ənvar,səh. 184
[7] Biharul-Ənvar, c. 81,səh. 195, hədis 52

**171**

# Əkinçilik

***841. Əkinçiliyin və meşəçiliyin müstəhəb olması***

2689. Allahın Peyğəmbəri (s):«Hər müsəlman bir ağac, ya bir əkin əksə və bir insan, quş, ya da heyvan onun məhsulundan yesə, həmin şəxs üçün sədəqə savabı sayılar.»[1]

2690. İmam Baqir (ə): -Atam buyurardı:«İşlərin ən yaxşısı əkinçilikdir. Əkdiyindən yaxşı əməl sahibi də, pis əməl sahibi də yeyər. Yaxşı əməl sahibi yeyib Allahdan sənin bağışlanmağını dilər. Pis əməl sahibi isə yeyər, ancaq yediyi nemət ona Lənət və qarğış edər. Həmçinin, otlayan heyvanlar və quşlar da ondan bəhrələnərlər.»[2]

2691. İmam Baqir (ə):«Əmirəl-möminin (ə) buyurardı:«Kim su və torpaq olduğu halda möhtac olarsa Allah-taala onu öz rəhmətindən uzaqlaşdırar.»[3]

2692. İmam Sadiq (ə):«Əkinçilik xalqın xəzinələridir. Allahın yaratdığı pak toxumu əkirlər, Qiyamət günü onların məqamı hamıdan üstün, yaxınlığı və dərəcələri hamıdan çoxdur. Onlar «mübarək» adı ilə çağırılırlar.»[4]

2693. İmam Sadiq (ə) («möminlər gərək Allaha təvəkkül etsinlər» ayəsi barədə): «Möminlər dedikdə məqsəd əkinçilərdir.»[5]

2694. İmam Sadiq (ə):«İşlərin arasında heç bir iş əkinçilik qədər Allah yanında sevimli deyil və Allah-taala dərzi olan İdrisdən (ə) başqa elə bir peyğəmbər göndərməmişdir ki, əkinçiliklə məşğul olmasın.»[6]

ιoooooπ

[1] Müstədrəkul-Vəsail, c.13, səh. 460 , hədis 15892
[2] əl-Kafi, c.5,səh. 260 , hədis 5
[3] Qurbul-İsnad, səh. 115 , hədis 404
[4] əl-Kafi, c.5, səh. 261 , hədis 7
[5] Biharul-Ənvar, c.103, səh. 66 , hədis 16
[6] Mustədrəkul-Vəsail, c.13,səh. 261 , hədis 15898

# 172

# Zəkat

***842. Zəkat***

**Qur'an:**

«Onların mallarından sədəqə (zəkat) götür ki, bu vasitələ onları pak edəsən və onlara salam göndər ki, sənin salamın onlara sakitlik bəxş edir. Allah-taala eşidən və biləndir.[1]

«Namaz qılın, zəkat verin. Qabaqcadan özünüz üçün göndərdiyiniz əməlləri Allah yanında tapacaqsınız. Həqiqətən, Allah etdikləriniz bütün əməlləri görəndir.» [2]

**Hədis:**

2695. İmam Sadiq (ə):«Allah-taala (zikri əziz olsun) bu ümmətə zəkat kimi ağır bir şeyi vacib etməmişdir. Onların əksər hissəsi bundan qeyri şeyə görə məhv olmayacaqdır.»[3]

2696. İmam Sadiq (ə):«Zəkat verməyənin namazı faydasız olar və «vərə»ni (günahdan çəkinməyi) olmayanın zəkatı qəbul olunmaz.»[4]

2697. İmam Sadiq (ə):«Zəkat varlıları sınamaq və möhtaclara kömək məqsədi ilə təyin olunub. Əgər insanlar öz mallarının zəkatını versəydilər bir nəfər də olsun möhtac, yoxsul müsəlman qalmazdı və Allah-taalanın onun üçün vacib etdiyinin səbəbinə ehtiyacsız olardı. İnsanlar yalnız varlıların günahlarına görə yoxsul, möhtac, ac və çılpaq olublar.»[5]

***843. Sərvətlərin artmasında zəkatın rolu***

2698. Allahın Peyğəmbəri (s):«Allahdan sərvətinin artmasını istəsən, onun zəkatını ver.»[6]

2699. İmam Əli (ə):«Öz mallarınızı zəkat verməklə qoruyun.»[7]

2700. İmam Həsən (ə):«Zəkat heç vaxt sərvəti azaltmaz.»[8]

---

[1] Tövbə, ayə 103
[2] Bəqərə, ayə 110
[3] Əmali-Tusi, səh.693 , hədis 1474
[4] Mişkəful-Ənvar,səh. 46
[5] Mən la yəhzurhuul-Fəqih, c.2, səh.8 , hədis 1579
[6] Biharul-Ənvar, c.96,səh. 23 , hədis 54
[7] Biharul-Ənvar, c.78,səh. 60, hədis 138
[8] Biharul-Ənvar, c. 96, səh.23 , hədis 56

2701. İmam Baqir (ə):«Allahın Rəsulunun (s) kitabında belə yazıldığını gördük:«İnsanlar zəkat verməyi tərk edən zaman, torpaq özünün hər növ tarlalarından, meyvələrindən, mədənlərindən bərəkətini gizlədər.»[1]

2702. İmam Kazim (ə):«Allah-taala zəkatı yoxsulların qüvvəsinin təmini və sizin sərvətinizin artması məqsədilə təyin etmişdir.»[2]

2703. İmam Rza (ə):«Zəkat verilməyən zaman heyvanlar ölümə düçar olarlar.»[3]

***844. Zəkat verməyən şəxs***

2704. İmam Baqir (ə):«Allah-taala Qiyamət günü zəkat verməyən şəxsin sərvətini alovlu və ikihürgüclü əfi ilana döndərər. Həmin şəxsi də onun halqasında yerləşdirər və sonra ilana deyilər ki, «Bu şəxs dünyada sənə yapışdığı kimi, indi sən də onun ətrafını halqaya al.» Allah-taala buyurmuşdur:«Ehsanında xəsislik etdikləri şey tezilklə boyunduruq kimi boyunlarından asılacaqdır…»[4]

2705. İmam Sadiq (ə):«Zəkat verməyən şəxs ölüm vaxtı gələndə həyata qayıtmaq istəyər. Bunu isə Allah-taala buyurmuşdur:«Onların birinin ölüm anı çatanda deyər:«Ey Rəbbim! Əldən verdiyim şeylərin əvəzinə yaxşı iş görmək üçün məni geri qaytar.»[5]

2706. İmam Sadiq (ə):«Oğrular üç dəstədir: zəkat verməyən, qadınların mehriyyələrini (kəbinini) özünə halal bilənlər və borc alıb onu qaytarmamaq niyyətində olanlar.»[6]

2707. İmam Sadiq (ə):«Zəkatından bir qirat[7] verməyən hər bir müsəlmana de ki, istəyir yəhudi kimi, istərsə də xaçpərəst kimi ölsün.»[8]

***845. Zəkat düşən şəxslər***

**Qur'an:**

«Zəkat yalnız yoxsullara, miskinlərə, onu toplayıb paylayanlara, ürəkləri (İslama) təzə isinişib-bağlananlara, qullara, borclulara, Allah yolunda və yolda qalanlara Allahın vacibatı kimi məxsusdur.»[9]

**Hədis:**

2708. İmam Sadiq (ə) («Sədəqələr yalnız yoxsullar üçündür və…» ayəsi barədə): «Yoxsul dilənmək əlini xalqa tərəf uzatmayan kimsədir. Miskinin vəziyyəti yoxsuldan daha pisdir, bais isə vəziyyəti bunların hamısından çətin olandır.»[10]

---

[1] əl-Kafi, c.2,səh.374, hədis 2
[2] əl-Kafi, c.3,səh. 498 , hədis 6
[3]Biharul-Ənvar, c.73, səh.373 , hədis 8
[4] Biharul-Ənvar, c.96, səh.8 , hədis 3
[5] Biharul-Ənvar, c.96,səh. 21 , hədis 50
[6] Biharul-Ənvar, c.96,səh. 12 , hədis 15
[7] Qirat - karat, qiymətli daşların 0,2 qrama bərabər çəki ölçüsü
[8] Səvabul-Əmal, səh. 281 , hədis 7
[9] Tövbə, ayə60
[10] əl-Kafi, c.3,səh. 501 , hədis 16

### *846. Hər şeyin zəkatı var*

2709. İmam Əli (ə):«Qüdrətin zəkatı inşafdır.»[1]

2710. İmam Əli (ə):«Gözəlliyin zəkatı ismətdir.»[2]

2711. İmam Əli (ə):«Varlının zəkatı qonşularına yaxşılıq və sileyi-rəhm etməkdir.»[3]

2712. İmam Əli (ə) :«Sağlamlığın zəkatı Allaha itaətdə çalışmaqdır.»[4]

2713. İmam Əli (ə):«Şücaətin zəkatı Allah yolunda cihaddır.»[5]

2714. İmam Sadiq (ə):«Sənə oruc tutmağı tövsiyə edirəm. Çünki o bədənin zəkatıdır.»[6]

2715. İmam Sadiq (ə):«Hər şeyin zəkatı var. Elmin zəkatı da, onu öz əhlinə öyrətməkdir.»[7]

2716. İmam Sadiq (ə):«Yaxşılıq nemətlərin zəkatıdır. Himayədarlıq məqam və mövqeyin zəkatı, güzəşt isə qələbənin zəkatıdır. Əgər hər bir nemətin zəkatını versən, həmin nemət yox olmaq təhlükəsindən amanda qalar.»[8]

### *847. Fitrə zəkatı*

2717. İmam Əli (ə):«Kim fitrə zəkatı verərsə, bu əmələ görə, Allah-taala həmin şəxsin malından verdiyi zəkatın yerini doldurar.»[9]

2718. İmam Sadiq (ə):«Namaz peyğəmbərə (s) salam göndərməklə tamama yetdiyi kimi, orucun tamamlanmasının şərtlərindən biri zəkatdır, yəni fitrədir. Belə ki, bir şəxs (Ramazan) ayının orucunu tutub, qəsdən fitrəni verməsə orucunun faydası olmaz.»[10]

ιοοοοοοπ

---

[1] Ğurərul-Hikəm, hədis 5448
[2] Ğurərul-Hikəm, hədis 5449
[3] Ğurərul-Hikəm, hədis 5455
[4] Ğurərul-Hikəm, hədis 5455
[5] Ğurərul-Hikəm, hədis 5455
[6] Biharul-Ənvar, c.78,səh. 99 , hədis 1
[7] Biharul-Ənvar, c.78,səh. 247, hədis 77
[8] Biharul-Ənvar, c.78, səh. 268, hədis182
[9] Vəsailuş-Şiə, c.6, səh. 220, hədis 4
[10] Mənla Yəhzuruhul-Fəqih, səh.183,səh. 2, hədis 2085

# 173

# Zaman

***848. Zamanı tanımaq***

2719. İmam Əli (ə):«İnsanın agahlığı üçün öz zəmanəsini tanıması kifayət edər.» [1]

2720. İmam Əli (ə):«Zəmanəsini hamıdan yaxşı tanıyan insan, onun hadisələrindən təəccüblənməyəndir.»[2]

2721. İmam Sadiq (ə):«Öz zəmanəsini tanıyan şəxs şübhələrə məruz qalmaz.»[3]

***849. Zəmanəyə etimad edən şəxs***

2722. İmam Əli (ə):«Zəmanəsinə e'timad edən yerə yıxılar.»[4]

2723. İmam Əli (ə):«Kim zəmanəyə əmin olub (ona e'timad edərsə) zəmanə ona xəyanət edər. Kim zəmanəni böyük bilərsə, zəmanə onu xar edər.»[5]

2724. İmam Əli (ə):«Kim zəmanəni əmanətdar bilsə, zəmanə ona xəyanət edər. Kim ona əzəmət versə, zəmanə onu zəlil və xar edər. Kim zəmanəyə qəzəblənərsə, o da ona qəzəblənər, kim ona pənah gətirərsə, zəmanə onu təslim edər. Hər ox atan hədəfə dəyməz və hökumətin dəyişməsi ilə zəmanə dəyişməz.»[6]

2725. İmam Əli (ə):«Zəmanə öz sahibinə xəyanət edər və onu məzəmmət edəndən razılıq istəməz.»[7]

2726. İmam Əli (ə):«Kim başını zəmanəylə qarışdırsa, zəmanə onu özünə məşğul edər.»[8]

***850. Zəmanə ilə döyüşən şəxs***

2727. İmam Əli (ə):«Zəmanənin eybini tutan şəxsin eyb tutmağı uzun çəkər.»[9]

2728. İmam Əli (ə):«Kim zəmanə ilə döyüşsə, zəmanə onu xar edib yerə

---

[1] Biharul-Ənvar, c.78,səh. 80, hədis 66
[2] Ğurərul-Hikəm,hədis 3252
[3] Tuhəful-Uqul,səh. 356
[4] Uyune Əxbare Rza (ə), c.2,səh. 54, hədis204
[5] Ğurərul-Hikəm, hədis 8028
[6] Biharul-Ənvar, c.77, səh.213, hədis1
[7] Ğurərul-Hikəm,hədis 2093
[8] Ğurərul-Hikəm,hədis 7890
[9] İyune Əxbare Rza (ə), c.2,səh. 53, hədis 204

sərər. Kim zəmanəyə təslim olsa, amanda olmaz.»[1]

2729. İmam Əli (ə):«Kim zəmanə ilə döyüşsə həlak olar. Kim zəmanəni məzəmmət etsə, özü qəzəbə gələr.»[2]

***851. Zəmanənin eybi***

2730. Rəyan ibn Səlt:«Həzrət Rza (ə) Əbdülmütəllibin bu beytlərini bizim üçün oxudu:

Tutar zəmanə eybin bütün insanlar
Məgər bizdən başqa onun eybimi var?
Vücudumuzda nöqsan olduğu halda
Daim gileyliyik səndən ey ruzigar.
Zəmanə nitqə gəlib danışsa əgər
Həcv ilə bizləri məzəmmət edər
Ki, qurd yeməsə də qurdun ətini
İnsanlar bir-birinin ətini didər.
Məkrlə bürünərik təqva libasına
Yanımıza gələn qərib, vay halına.»[3]

ιοooooπ

[1] Ğurərul-Hikəm,hədis 9054
[2] Tuhəful-Uqul,səh. 85
[3] İyune Əxbare Rza (ə), c.2, səh. 177, hədis5

# 174

# Zina

***852. Zinanın qadağan olması***

**Qur'an:**

«Zinaya yaxınlaşmayın ki, o fahişəlik və pis yoldur.» [1]

**Hədis:**

2731. Allahın Peyğəmbəri (s):«Əgər ərli qadın öz gözünü ərindən başqa bir kişi, ya naməhrəmlə doldurarsa, Allah-taala ona qəzəblənər və onun bütün əməllərini batil edər. Əgər öz ərinə xəyanət edərsə, ona qəbr əzabı verdikdən sonra Cəhənnəm odunda yandırmaq Allahın haqqıdır.»[2]

2732. İmam Əli (ə):«Qeyrəti olan, heç vaxt zina etməz.»[3]

2733. İmam Sadiq (ə):«Qiyamət günü ən şiddətli əzab, öz nütfəsini ona haram olan rəhmdə yerləşdirən kişiyə veriləcəkdir.»[4]

2734. İmam Rza (ə):«Zina bu fəsadlara səbəb olduğuna görə haram edilmişdir: İnsan qətli, əsl-nəcabətin aradan getməsi, uşaqların tərbiyəsizləşməsi, irs, miras məsələsinin pozulması və bu kimi fəsadlar.»[5]

***853. Zinanın nəticələri***

2735. Allahın Peyğəmbəri (s) :«Ey Əli! Zinanın altı nəticəsi var: üçü dünyada, üçü axirətdə üzə çıxar. Dünyadakı nəticələri budur ki, abır-həyanı aparar, ölümü tezləşdirər və ruzini kəsər. Axirət nəticələri isə ağır və dəqiq hesabatın aparılması, Rəhman Allahın qəzəbi və Cəhənnəm odunda əbədi qalmaqdan ibarətdir.»[6]

2736. İmam Əli (ə):«Zina yoxsulluq gətirər.»[7]

2737. İmam Baqir (ə):«Allahın Rəsulunun (s) kitabında belə yazıldığını gördük:«Məndən sonra zina aşkarda olunacağına görə qəfil ölümlər çoxalar.»[8]

2738. İmam Sadiq (ə):«Zina geniş yayılanda zəlzələlər baş verər.»[9]

---

[1] İsra, ayə 32
[2] Biharul-Ənvar, c.76,səh. 366, hədis 30
[3] Nəhcül-Bəlağə, hikmət 305
[4] Biharul-Ənvar, c.79,səh. 26, hədis 28
[5] Biharul-Ənvar, c.79,səh. 24, hədis 19
[6] Biharul-Ənvar, c.79,səh. 22, hədis 15
[7] Biharul-Ənvar, c.79,səh.23, hədis18
[8] əl-Kafi, c.2,səh. 374, hədis 2
[9] Təhzibul-Əhkam, c.3, səh. 148, hədis 318

***854. Bədənin hər üzvünün zinadan bəhrəsi var***

2739. Məsih (ə):«Ətirlənib bayıra çıxan qadın, nə qədər ki, onun ətri başqalarının burnuna yetişir, zinakardır və ona baxan hər bir göz zina edir.»[1]

2740. Məsih (ə):«Sənə məxsus olmayan qadına gözünü dikmək olmaz. Çünki gözünü (naməhrəmə baxmaqdan) saxlayanadək, heç vaxt zina etməzsən. Əgər naməhrəm qadının hətta libasına baxmamağı bacarsan, belə et.»[2]

2741. Allahın Peyğəmbəri (s):«İnsanın bədən üzvlərinin hər birinə zinadan bir bəhrə yazılmışdır ki, istər-istəməz ona yetişər. Məsələn, gözün zinası (naməhrəmə) baxmaq, ayağın zinası günaha tərəf getmək və qulağın zinası haram səslər eşitməkdir.»[3]

ιοοοοοοοπ

---

[1] Tənbihul-Xəvatir, c.1, səh. 28

[2] Tənbihul-Xəvatir, c. 1,səh. 62

[3] Kənzul-Ummal,hədis 13026

**175**

# Zahidlik

***855. Zahidliyin dəyər-qiyməti***

2742. Allahın Peyğəmbəri (s):«Allah-taalaya qəlbi dunyadan çıxartmaq kimi digər heç bir ibadətlə ibadət olunmayıb.»[1]

2743. İmam Əli (ə):«Zahidlik təqvalıların xasiyyəti və daim tövbə edənlərin xislətidir.»[2]

2744. İmam Əli (ə):«Dinə ən çox kömək edən xislətlərdən biri, dünyaya meyl göstərməməkdir.»[3]

2745. İmam Baqir (ə):«Allah-taalanın Musaya (ə) pıçıltı ilə söylədiklərindən biri də «Zinətlənənlər, dünyada ehtiyac duyulmayan şeylərə meyl göstərməmək qədər heç bir digər şeylə Mənim üçün bəzənmədilər.» olmuşdur.»[4]

2746. Allahın Peyğəmbəri (s):«Xeyirlərin hamısı bir otağa yığılmışdır və onun açarı dünyaya meyl göstərməməkdir.»[5]

***856. Zahidliyin həqiqəti***

**Qur'an:**

«… ki, əlinizdən çıxan şeyə görə qəmlənməyəsiniz və sizə verilən şeyə görə sevinməyəsiniz. Allah heç bir fəxr edən xüdpəsəndi sevməz.»[6]

**Hədis:**

2747. Allahın Peyğəmbəri (s):«Dunyaya meyl göstərməmək, elə arzuları qısaltmaq, hər nemətə şükr etmək və Allahın haramlarından çəkinməkdir.»[7]

2748. Allahın Peyğəmbəri (s):«Zahidlik halalı özünə haram etmək deyil, əksinə, zahidlik insanın Allahın yanında olan şeylərə öz əlində olan şeylərdən daha çox əmin olmasıdır.»[8]

2749. İmam Əli (ə):«Zahidlik iki cümlədən ibarətdir. Allah-taala buyurmuşdur:«Əldən verdiyiniz şeyə görə…» Buna əsasən, əldən verdiyi şeyə

---

[1] Biharul-Ənvar, c.70,səh. 322
[2] Ğurərul-Hikəm,hədis 1713
[3] əl-Kafi, c.2, səh.128, hədis 3
[4] Biharul-Ənvar, c.3,səh. 349, hədis 37
[5] Biharul-Ənvar, c.73,səh. 49, hədis 20
[6] Hədid, ayə 23
[7] Tuhəful-Uqul,səh. 58
[8] Biharul-Ənvar, c.77,səh. 172, hədis 8

görə qüssələnməyən və əldə etdiyi şeyə görə sevinməyən şəxs, zahidliyin hər iki yönümünü (kamil zahidliyi) əldə etmişdir.»[1]

2750. İmam Sadiq (ə) :«Zahidlik axirət qapısının açarı və atəşdən bəraət almaqdır. Zahidlik budur ki, səni Allahdan qafil edib çəkindirən nə varsa, hamısını qəm-qüssə yemədən tərk edəsən və onu tərk etməyin nəticəsində qürura, xüdpəsəndliyə düçar olmayasan. Ondan işlərinin həll olunmasını gözləməyəsən, bu işə görə təriflənməyini arzulamayasan və bunun əvəzində bir şey ummayasan. Əksinə, onu əldən verməyi özün üçün rahatlığın səbəbi və onun mövcud olmasını bəla, möhnət biləsən. Həmişə bəladan qaçan ol və rahatlıqdan yapış.»[2]

### *857. Zahidin sifətləri*

2751. İmam Əli (ə):«Dunyaya zahid olan şəxs odur ki, haram onun səbrinə qalib gəlməsin və halal onu şükr etməkdən çəkindirməsin.»[3]

2752. İmam Əli (ə):«Zahidlər və dünyaya arxa çevirənlər zahirən gülərüz olsalar da, qəlbləri ağlardır. Üzdə şad olsalar da, çox qüssəlidirlər. Onlara verilən ruziyə şad olsalar da, özlərinə çox qəzəblidirlər.»[4]

2753. İmam Sadiq (ə) («Dünyadan qaçan kimdir?» sualının cavabında): «Hesab-kitabın qorxusundan dünyanın halalını və cəzanın qorxusundan onun haramını tərk edən şəxsdir.»[5]

2754. İmam Rza(ə) (Zahidin xüsusiyyətləri barədə sualın cavabında): «Özünün az qüvvəsi ilə kifaytələnən, ölüm gününə hazır olan və diri (sağ) qalmaqdan (qəlbi) təngə gələn şəxsdir. (Qəlbində axirət və Allahla görüşmək şövqü olan şəxs).[6]

### *858. Zahidliyin amilləri*

2755. İmam Əli (ə):«Zahidliyə ən layiqli şəxs dünyanın eybini və nöqsanını biləndir.»[7]

2756. İmam Əli (ə):«Axirətin qiymətini bilməyən kəs dünyaya necə arxa çevirə bilər?»[8]

2757. İmam Baqir (ə):«Ölümü çox xatırla. Çünki ölümü çox xatırlayan elə bir insan yoxdur ki, dünyaya e‘tinasız olmasın.»[9]

2758. İmam Kazim (ə)-bir qəbrin başı üzərində dayanıb buyurdu: «Bir şeyin ki, axırı budur, elə əvvəldən ona qəlb bağlamamaq yaxşıdır. Bir şeyin ki, əvvəli budur, onun aqibətindən qorxmaq yaxşıdır.»[10]

---

[1] Biharul-Ənvar, c.70,səh. 317, hədis 23
[2] Biharul-Ənvar, c.70,səh. 315, hədis 20
[3] Biharul-Ənvar, c.78,səh. 37, hədis 3
[4] Nəhcül-Bəlağə, xütbə 113
[5] Uyune Əzbare Rza (ə), c.2,səh.52, hədis 199
[6] Biharul-Ənvar, c.78,səh. 349, hədis 6
[7] Ğurərul-Hikəm,hədis 3209
[8] Ğurərul-Hikəm,hədis 6987
[9] Biharul-Ənvar, c.73,səh. 64, hədis 31
[10] Biharul-Ənvar, c.78, səh.320, hədis 9

2759. İmam Əskəri (ə) «Əgər dünya əhli öz ağlından istifadə etsəydi, dünya viran qalardı.»[1]

***859. Zahidliyin səmərələri***

2760. Allahın Peyğəmbəri (s):«Dünyaya meylsiz olmaq bədənə və qəlbə rahatlıq bəxş edər. Ona meyl göstərmək isə bədəni və qəlbi əziyyətə salar.»[2]

2761. İmam Əli (ə):«Kim qəlbini dünyadan üzsə, onun xarlığına dözümsüzlük göstərməsə, onda şan-şöhrətə çatmaq üçün rəqabətə girişməsə, Allah-taala heç bir məxluqun hidayəti olmadan onu Özü hidayət edər. Kimsədən tə‘lim almadan Özü ona elmini öyrədər, hikməti onun qəlbində həkk edər və dilinə gətirər.»[3]

2662. İmam Əli (ə):«Dünyaya zahid və rəğbətsiz ol ki, Allahın rəhməti sənin üzərinə ensin.»[4]

2763. İmam Əli (ə):«Qəlbi dünyadan üzmək ən böyük rahatlıqdır.»[5]

2764. İmam Səccad (ə):«Kim qəlbini dünyadan üzsə, dünyanın musibətləri ona asan gələr və onlardan narahat olmaz.»[6]

2765. İmam Sadiq (ə):«Qəlbləriniz dünyaya rəğbətsiz olmayınca, qəlblərinizə imanın şirinliyini dadmaq haramdır.»[7]

***860. Ən zahid insan***

2766. Allahın Peyğəmbəri (s):«Ən zahid insan haramlardan uzaqlaşandır.»[8]

2767. İmam Əli (ə):«Dünyəvi işlərlə axirət iştəyənlər kimi olma… Onlar dünyada zahid insanlar kimi danışar, əməldə isə dünyasevənlər kimi olarlar.»[9]

2768. İmam Əli (ə):«Ən üstün zahidlik, zahidliyi gizli saxlamaqdır.»[10]

2769. İmam Əli (ə):«Zahid, insanlardan qaçan zaman onun ardınca get, zahid, insanlar axtaran zaman sən ondan qaç.»[11]

2770. İmam Səccad (ə):«Allah-taala buyurur:«Ey Adəm övladı! Sənə verdiyim şeyə razı və qane ol ki, insanların ən zahidi olasan.»[12]

2771. İmam Kazim (ə):«Həqiqətən, sizlərin bəlalara ən səbrliniz dünyaya ən zahid olanınızdır.»[13]

---

[1] Biharul-Ənvar, c.78,səh. 377, hədis 3
[2] Kənzul-Ummal, hədis 6060
[3] Biharul-Ənvar, c.78,səh. 63, hədis 155
[4] Ğurərul-Hikəm,hədis 2275
[5] Ğurərul-Hikəm,hədis 1316
[6] Təhəful-Uqul,səh. 281
[7] Biharul-Ənvar, c.73,səh. 49, hədis 20
[8] Əmali-Səduq,səh. 27, hədis 4
[9] Biharul-Ənvar, c.78,səh. 68, hədis 16
[10] Nəhcül-Bəlağə, hikmət 28
[11] Ğurərul-Hikəm,hədis 4078
[12] Biharul-Ənvar, c.78 səh.139, hədis 22
[13] Biharul-Ənvar, c.78 səh.308, hədis 1

**176**

# Evlənmək

***861. Evlənməyə həvəsləndirmək***

**Qur’an:**

«Subaylarınızı, əməli saleh qullarınızı və kənizlərinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah Öz fəziləti ilə onları varlı edər. Allah geniş lütf və elm sahibidir.»[1]

«…Və Onun (qüdrət) nişanələrindən biri də ünsiyyətdə olmağınız üçün sizə zövcələr yaratmasıdır. Sizin aranızda məhəbbət və mərhəmət yaratdı. Həqiqətən, bunda nemət barədə düşünən insanlar üçün böyük ibrətlər vardır.»[2]

2772. Allahın Peyğəmbəri (s):«Kim Allahla pak və təmiz halda görüşmək istəyirsə, ailəli halda Onun görüşünə getsin.»[3]

2773. Allahın Peyğəmbəri (s):«İslamda evlənmək qədər Allaha sevimli və əziz olan heç bir bina qurulmamışdır.»[4]

2774. Allahın Peyğəmbəri (s):«Evlənmək mənim sünnəmdir. Kim mənim sünnəmdən üz döndərərsə mənim ümmətimdən deyil.»[5]

2775. Allahın Peyğəmbəri (s):«Gənc çağında evlənən elə bir cavan olmadı ki, onun şeytanı belə fəryad qoparmasın:«Vay olsun ona! Vay olsun ona! Dininin üçdə ikisini mənim şərrimdən qorudu.» Buna görə də, insan digər üçdə biri qorumaq üçün ilahi təqvanı qazanmalıdır.»[6]

2776. Allahın Peyğəmbəri (s):«İnsan evlənən zaman dininin yarısını kamilləşdirmiş olur. Digər yarısını qorumaq üçünsə İlahi təqvanı qazanmalıdır.»[7]

2777. Allahın Peyğəmbəri (s):«Yuxuda olan evli şəxs, Allah yanında gündüzlər oruc tutan, gecələr ibadət edən subaydan üstündür.»[8]

2778. Allahın Peyğəmbəri (s):«Ailə qurun! Çünki bu iş sizin ruzinizi artırar.»[9]

2779. Allahın Peyğəmbəri (s): «Öz subaylarınızı evləndirin. Bu əməllə Allah-taala onların əxlaqını gözəlləşdirər, ruzilərini artırar və mərdliklərini

çoxaldar.»[1]

---

[1] Nur, ayə 32
[2] Rum, ayə 21
[3] Biharul-Ənvar, c.103,səh. 220, hədis 18
[4] Biharul-Ənvar, c.103,səh. 222, hədis 40
[5] Biharul-Ənvar, c.103,səh. 220, hədis 23
[6] Biharul-Ənvar, c.103,səh. 221, hədis 34
[7] Kənzul-Ummal, hədis 44403
[8] Biharul-Ənvar, c.103,səh. 221, hədis 25
[9] Biharul-Ənvar, c.103,səh. 217, hədis 1

2780. İmam Sadiq (ə): «Evlinin qıldığı iki rəkət namaz, subayın qıldığı yetmiş rəkət namazdan üstündür.»[2]

***864. Subaylar***

2781. Allahın Peyğəmbəri (s): «Sizin ən pis ölüləriniz subaylardır.»[3]

2782. Allahın Peyğəmbəri (s): «Aranızda ən pisləriniz subaylarınızdır. Evlinin iki rəkət namazı, subayın yetmiş rəkət namazından yaxşıdır.»[4]

***863. Din qardaşını evləndirməyin savabı***

2783. İmam Sadiq (ə): «Kim subayı evləndirsə, Qiyamət günü Allah-taalanın nəzər saldığı şəxslərdən biri olar.»[5]

2784. İmam Kazim (ə): «Allahın ərşinin kölgəsindən başqa bir kölgə olmayan gün, üç nəfər Allahın ərşinin kölgəsində olacaq: öz müsəlman qardaşını evləndirən, ya ona xidmət edən, ya da onun sirrini gizlədən şəxs.»[6]

***864. Qızları tez ərə verməyə həvəsləndirmək***

2785. İmam Rza (ə): «Cəbrayıl Peyğəmbərin (s) yanına gəlib dedi:«Ey Məhəmməd! Rəbbin sənə salam göndərir və buyurur: «Bakirə qızlarınız ağacda olan meyvə kimidir. Meyvə yetişəndə onu dərməkdən başqa bir dərmanı yoxdur, əks halda, günəş və külək onu xarab edəcək. Bakirə qızlar da qadınlıq inkişaf mərhələsinə çatanda, onların ərə verməkdən başqa bir dərmanı yoxdur. Yoxsa, azğınlıqdan və fəsaddan amanda olmayacaqlar.» Sonra Allahın Peyğəmbəri (s) minbərə qalxıb, camaatı topladı və Allahın fərmanını onlara çatdırdı.»[7]

***865. Ailə qurarkən dinə əhəmiyyət vermək***

2786. Allahın Peyğəmbəri (s): «Kim qadının gözəlliyinə görə onunla evlənsə, öz qəlbinin istədiyini onda görməyəcək. Kim qadınla onun var-dövlətinə xatir evlənsə Allah-taala onu həmin mal-dövlətə tapşırar. Beləliklə, sizə dindar qadınlarla evlənməyi tövsiyə edirəm.»[8]

2787. Allahın Peyğəmbəri (s): «Qadının gözəl surətini, onun gözəl dindarlığından üstün tutmaq olmaz.»[9]

2788. Allahın Peyğəmbəri (s): «Bir nəfər sizə elçiliyə gələn zaman dindarlığını və əmanətdarlığını bəyənsəniz, ona qız verin. Belə etməsəniz, yer üzündə çox fəsadlar və pozğunluqlar törəyəcək.»[10]

---

[1] Biharul-Ənvar, c.103,səh. 272, hədis 38
[2] Biharul-Ənvar, c.103, səh. 219, hədis 15
[3] Biharul-Ənvar, c.103,səh. 220, hədis 19
[4] Kənzul-Ummal, hədis 44448
[5] əl-Kafi, c.5,səh. 331, hədis 2
[6] əl-Xisal,səh.141, hədis 162
[7] Biharul-Ənvar, c.16,səh. 223, hədis 22
[8] Biharul-Ənvar, c.103,səh. 235, hədis 19
[9] Kənzul-Ummal, hədis 44590
[10] Biharul-Ənvar, c.103,səh. 372, hədis 3

2889. İmam Həsən (ə) (onunla öz qızının evlənməsi barədə məşvərət edən bir kişiyə xitabən): «Onu təqvalı kişiyə ərə ver. Çünki sənin qızını sevsə ona hörmət edəcək və əgər sevməsə ona zülm etməyəcək.»[1]

***866. Ağır mehriyyənin məzəmmət olunması***

2790. Allahın Peyğəmbəri (s): «Ümmətimin ən yaxşı qadınları onların ən gözəl üzlüləri və ən az mehriyyəsi olanlarıdır.»[2]

2791. Allahın Peyğəmbəri (s): «Ən yaxşı mehriyyə, ən yüngül olanıdır.»[3]

2792. İmam Sadiq (ə): «Qadının bədbəxtliyi və başıbəlalığı, mehriyyəsinin çox olması və ərinə itaətsizliyidir.»[4]

***867. Seçimə əhəmiyyət vermək***

2793. Allahın Peyğəmbəri (s): «Yaxşı və ləyaqətli ailədən evlənin. Çünki qanın tə‘siri var.»[5]

2794. Allahın Peyğəmbəri (s): «Öz nütfələriniz üçün (yaxşı seçim) seçin. Çünki qadınlar qardaşlarına və bacılarına bənzəyən uşaqlar dünyaya gətirərlər.»[6]

2795. Allahın Peyğəmbəri (s) (camaata xitabən): «Xəzraud- diməndən (xarabalıqda bitən bitkidən) çəkinin.» Dedilər: «Xəzraud-dimən nədir?» Buyurdu: «Pozğun ailədə böyümüş gözəl üzlü qadın.»[7]

2796. Allahın Peyğəmbəri (s): «Axmaq qadınla evlənməkdən çəkinin ki, onunla həyat yoldaşı olmaq fəsad və onun övladları kaftar sifətlidir.»[8]

***868. Ərin hüququ***

2797. Allahın Peyğəmbəri (s): «Qadının üzərində ən böyük haqqı olan şəxs onun əri, kişinin üzərində ən böyük haqqı olan şəxs isə onun anasıdır.»[9]

2798. Allahın Peyğəmbəri (s): «Vay olsun ərini narahat edən qadına və xoş o qadının halına ki, əri ondan razı qalar.»[10]

2799. Allahın Peyğəmbəri (s): «Əgər bir kəsə digərinin qarşısında səcdəyə getmək əmri verəsi olsaydım, mütləq qadına öz əri qarşısında səcdə etmək əmri verərdim.»[11]

***869. Qadının hüququ***

---

[1] Məkarimul-Əxlaq, c.1,səh. 446, hədis 1534
[2] Biharul-Ənvar, c. 103, səh. 237, hədis 25
[3] Kənzul-Ummal, hədis 44707
[4] Məaniyul-Əxbar,səh. 152, hədis1
[5] Kənzul-Ummal, hədis 44559
[6] Kənzul-Ummal, hədis 44557
[7] Biharul-Ənvar, c.103,səh.232, hədis 10
[8] Biharul-Ənvar, c. 103, səh. 237, hədis 35
[9] Kənzul-Ummal, hədis 44771
[10] Biharul-Ənvar, c.103, səh. 246, hədis 24
[11] əl-Kafi, c.5,səh. 508 , hədis 6

2800. Allahın Peyğəmbəri (s): «Cəbrayıl daima mənə qadınlar barədə tapşırardı. Nəticədə, elə güman etdim ki, pozğunluğu sübut olunan haldan başqa, qadına təlaq vermək olmaz.»[1]

2801. Allahın Peyğəmbəri (s): «Qadının əri üzərində olan haqqı budur ki, əri onun qarnını doyursun, bədənini geyindirsin və heç vaxt ona sifətini turşutmasın.»[2]

2802. Allahın Peyğəmbəri (s): «Kişinin qadına dediyi «Mən səni sevirəm» sözü heç vaxt qadının qəlbindən silinməz.»[3]

***870. Ərinə xidmət***

2803. Allahın Peyğəmbəri (s): «Əgər qadın ərinə yeddi gün xidmət edərsə, Allah-taala Cəhənnəmin yeddi qapısını onun üzünə bağlayar və Cənnətin səkkiz qapısını onun üzünə açar ki, istədiyi qapıdan oraya daxil olsun.

Eyni zamanda buyurdu: «Öz ərinə bir qurtum su içirdən elə bir qadın yoxdur ki, bu əməli ona bir il gündüzləri oruc tutmaq və gecələri ibadətlə keçirməkdən daha yaxşı olmasın.»[4]

2804. İmam Sadiq (ə): «Ümmü Sələmə Allahın Rəsulundan (s) qadınların öz ərlərinə xidmətlərinin fəziləti barədə soruşanda, o Həzrət (s) buyurdu: «Qadın öz ərinin evini səliqəyə salmaq məqsədilə bir şeyi yerbəyer edərsə Allah-taala ona Öz nəzərini yetirər və Allah-taala nəzər yetirdiyi kimsəyə əzab verməz.»[5]

2805. İmam Kazim (ə): «Qadının cihadı, öz ərinə yaxşı qulluq etməsidir.»[6]

***871. Qadına xidmət***

2806. Allahın Peyğəmbəri (s): «Kişi öz arvadına su içirdən zaman savab qazanar.»[7]

2807. Allahın Peyğəmbəri (s): «Kişinin öz arvad-uşağının yanında oturması Allah yanında mənim bu məscidimdə etikaf etməsindən daha sevimlidir.»[8]

2808. Allahın Peyğəmbəri (s): «Öz arvadının ağzına bir loğma uzadan kişi savab qazanar.»[9]

***872. Əri incitmək***

---

[1] Biharul-Ənvar, c.103, səh. 253, hədis 58
[2] Biharul-Ənvar, c. 103, səh. 254, hədis 60
[3] əl-Kafi, c.5,səh. 569, hədis 59
[4] İrşadul-Qulub, səh. 175
[5] Biharul-Ənvar, c.103,səh. 251, hədis 49
[6] əl-Kafi, c.5,səh. 507 , hədis 4
[7] Kənzul-Ummal,hədis 44435
[8] Tənbihul-Xəvatir, c.2,səh. 122
[9] Muhəccətul-Beyza, c.3,səh. 70

2809. Allahın Peyğəmbəri (s): «Öz ərini incidən qadın ərinə kömək edib, onu razı salmayınca, Allah-taala onun namazını və xeyir əməlini - ömrü boyu oruc tutsa belə -qəbul etməz. Kişi də həmçinin, əgər öz arvadını incidib zülm etsə, həmin günah və əzab onun üçün də var.»[1]

2810. Allahın Peyğəmbəri (s): «Mən özü döyülməyə ondan daha çox layiq olan arvadını döyən kişiyə təəccüb edirəm.»[2]

2811. İmam Sadiq (ə): «Məl'undur, məl'undur, öz ərini incidən və onu qəmgin edən qadın. Xoşbəxtdir, xoşbəxtdir öz ərinə hörmət edən, əziyyət verməyən və bütün hallarda ona itaət edən qadın.»[3]

### *873. Pis xasiyyətə səbr etmək*

2812. Allahın Peyğəmbəri (s): «Əgər kişi Allaha xatir və Onun mükafatına ümid edərək öz arvadının pis xasiyyətinə səbr edib, onu Allahın hesabına tapşırarsa, Allah-taala ona səbr etdiyi hər gecə və gündüzə görə Əyyub(ə) peyğəmbərin bəla müqabilində qazandığı savabı bəxş edər. Qadının gecə və gündüz etdiyi günahlar qumsallıqdakı qumlar qədər olsa belə.»[4]

2813. Allahın Peyğəmbəri (s): «Ərinin pis əxlaqı qarşısında səbr edən qadına Allah-taala Fir'onun zövcəsi Asiyanın savabı qədər savab bəxş edər.»[5]

### *874. Ləyaqətli qadın*

2814. Allahın Peyğəmbəri (s): «Mömin, Allahın təqvasından sonra ləyaqətli qadından yaxşı bir bəhrə götürməmişdir.»[6]

2815. Allahın Peyğəmbəri (s): «Dünyanın ən yaxşı neməti ləyaqətli qadındır.»[7]

2816. Allahın Peyğəmbəri (s): «Kişinin xoşbəxtliklərindən biri də ləyaqətli arvadı olmasıdır.»[8]

### *875. Ləyaqətsiz qadın*

2817. Allahın Peyğəmbəri (s): «Ən pis şey ləyaqətsiz arvaddır.»[9]

2818. İmam Sadiq (s): «Mömini ən çox məğlub edən düşmən ləyaqətsiz zövcədir.»[10]

2819. İmam Sadiq (ə): «Allahın Rəsulunun (s) dualarından biri bu idi: «Qocalıq çağına çatmamış məni qocaldan qadından Sənə pənah gətirirəm.»[11]

### *876. Allaha qarşı günah etməkdə qadına itaət*

---

[1] Vəsailuş-Şiə, c.14,səh. 116 , hədis1
[2] Camiul-Əxbar,səh. 447 , hədis 1259
[3] Biharul-Ənvar, c.103səh.253 , hədis 55
[4] Səvabul-Əmal,səh. 339 , hədis 1
[5] Biharul-Ənvar, c.103,səh. 247 , hədis 30
[6] Kənzul-Ummal, hədis 44410
[7] Kənzul-Ummal, hədis 44451
[8] əl-Kafi, c.5,səh. 327 , hədis 4
[9] Biharul-Ənvar, c.103,səh. 240 , hədis 52
[10] Mənla Yəhzuruhul-Fəqih, c.3,səh. 390 , hədis 4370
[11] əl-Kafi, c.5,səh. 316 , hədis 3

2820. İmam Əli (ə): «Pis qadınlardan qorxun və onların yaxşılarından çəkinin. Əgər sizi bir xeyir işə çağırsalar qulaq aşmayın ki, haramda və pis işlərdə itaət etməyinizə tamahlanmasınlar.»[1]

2821. İmam Əli (ə): «İxtiyarı qadının əlində olan hər bir kişi məl'undur.» [2]

***877. Ailənin xərclərində bəzi incəliklərə riayət etmək***

2822. Allahın Peyğəmbəri (s): «Kim bazara daxil olanda bir hədiyyə alıb onu öz ailəsinə aparsa, bir dəstə möhtaca sədəqə verən şəxs kimidir. Hədiyyəni verəndə qızlardan başlayın.»[3]

2823. İmam Səccad (ə): «Kim öz ailəsini daha çox rifahda və firavanlıqda saxlasa, Allah-taala ondan daha çox razı olar.»[4]

***878. Toya də'vəti qəbul etməyin qaydası***

2824. Allahın Peyğəmbəri (s): «Toy mərasiminə də'vət olunan zaman, ora getməkdə bir qədər ləngiyin. Çünki bu mərasim insana dünyanı xatırladar. Amma dəfn mərasiminə də'vət olunan zaman ona getməyə tələsin ki, bu mərasim axirəti xatırladar.»[5]

2825. Allahın Peyğəmbəri (s): «Sizlərdən biriniz toy məclisinə də'vət olunarsa, qəbul edin.»[6]

***879. Evlənməyi aşkarlamağa həvəsləndirmək.***

2826. Allahın Peyğəmbəri (s): «Bu toyları aşkar edin, onları məscidlərdə keçirin.»[7]

2827. Allahın Peyğəmbəri (s): «Toy mərasimini aşkar və elçiliyi gizli edin.»[8]

ıooooooπ

---

[1] Biharul-Ənvar, c.103,səh. 224 , hədis 4
[2] əl-Kafi, c.5,səh.518 , hədis 10
[3] Biharul-Ənvar, c.104,səh. 69 , hədis 2
[4] Biharul-Ənvar, c.78,səh. 136 , hədis 13
[5] Biharul-Ənvar, c.103,səh. 279 , hədis 2
[6] Kənzul-Ummal, hədis 44617
[7] Kənzul-Ummal, hədis 44536
[8] Kənzul-Ummal, hədis 44532

177

# Görüşmək (Ziyarət)

***880. Allaha xatir görüşməyə həvəsləndirmək***

2828. Allahın Peyğəmbəri (s): «Kim bir ehtiyaca görə yox, yalnız mömin qardaşını görmək üçün onun evinə gedərsə, Allahı ziyarət edənlərin sırasında yazılar. Öz qonaqlarına ehtiram etmək isə Allaha layiqdir.»[1]

2829. İmam Əli (ə): «Allaha xatir ziyarət edin. Allaha xatir dostluq edin. Allaha xatir bəxşiş edin və bəxşiş verməkdən Allaha xatir çəkinin. Allahın düşmənləri ilə əlaqəni kəsin və Allahın dostları ilə əlaqə yaradın.»[2]

2830. İmam Baqir (ə): «Evlərinizdə bir-birinizlə görüşün. Çünki bu bizim işimizi dirildər və bizim işi dirildənə Allahın rəhməti olsun.»[3]

2831. İmam Sadiq (ə): «Kim Allah yolunda və Allaha xatir öz mömin qardaşını görməyə gedərsə Qiyamət günü nurlu libasların arasından vuqarla keçər və nəyin yanından keçərsə onu işıqlandırar.»[4]

2832. İmam Sadiq (ə): «Bir-birinizlə görüşün və ziyarət edin ki, görüşləriniz qəlblərinizin diri qalmasına, bizim hədislərin yad edilməsinə səbəb olar və bizim hədislər sizi bir-birinizə mehriban edər. Əgər onlara əməl etsəniz kamillik və nicat tapacaqsınız. Əgər tərk etsəniz yolu azıb, məhv olacaqsınız. Beləliklə, bizim hədislərə əməl edin ki, belə olan halda mən sizin nicat tapmanıza zaminəm.»[5]

2833. İmam Kazim (ə): «Mömin qardaşların bir-birilə Allaha xatir görüşməsi qədər heç bir şey iblisi və onun ordusunu darmadağın etmir.»[6]

***881. Qardaşlarla görüşməyin səmərələri***

2834. Allahın Peyğəmbəri (s): «Görüşmək və ziyarət məhəbbət (toxumu) bitirər.»[7]

2835. İmam Cavad (ə): «Din qardaşları ilə görüşmək, qısa olsa belə, əqlin çiçəklənməsinə və bar verməsinə səbəb olar.»[8]

---

[1] Biharul-Ənvar, c.77,səh. 192 , hədis 11
[2] Ğurərul-Hikəm,hədis 5492
[3] Biharul-Ənvar, c.2,səh. 144 , hədis 6
[4] Biharul-Ənvar, c.74,səh. 347 , hədis 8
[5] əl-Kafi, c.2,səh.186 , hədis 2
[6] əl-Kafi, c.2,səh. 188 , hədis 7
[7] Biharul-Ənvar, c.74,səh. 355 , hədis 36
[8] Biharul-Ənvar, c.74,səh. 353 , hədis 26

***882. Görüşməyin qaydası***

2836. Allahın Peyğəmbəri (s): «Bir gündən bir ziyarət et ki, daha sevimli olasan.»[1]

2837. İmam Əli (ə) (oğlu Hüseynə (ə) vəsiyyətindən): «Çox görüşmək pərişanlıq gətirər.»[2]

2838. İmam Əli (ə): «Öz (din) qardaşının dostluğuna əmin olanda, artıq nə vaxt onun ziyarətinə gedəcəyinə və onun sənin ziyarətinə gələcəyinə əhəmiyyət vermə.»[3]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.74,səh.355 , hədis 36
[2] Biharul-Ənvar, c.77,səh.237 , hədis 1
[3] Ğurərul-Hikəm,hədis 4087

# 178

# Qəbrlərin ziyarəti

***883. Peyğəmbərin ziyarəti***

2839. Allahın Peyğəmbəri (s): «Kim mənim ziyarətimə gələrsə, Qiyamət günü onun şəfaətçisi olaram.»[1]

2840. Allahın Peyğəmbəri (s): «Kim yer üzünün hər hansı bir yerindən mənə salam göndərsə, salamı mənə gəlib çatar. Kim qəbrim üstündə mənə salam göndərsə, onu eşidərəm.»[2]

***884. Mə'sum imamların ziyarəti***

2841. Allahın Peyğəmbəri (s) («Atacan! Sizi ziyarət edən kəsin mükafatı nədir?» deyə müraciət edən Həsən ibn Əliyə (ə) cavabından) «Kim məni, Sənin atanı, ya qardaşını və ya sənin özünü diri vaxtı və dünyadan köçəndən sonra ziyarət edərsə, mənim üzərimdə haqqı var ki, Qiyamət günü onu ziyarət edim və onu günahlarından xilas edim.»[3]

2842. Allahın Peyğəmbəri (s): «Kim «Bəgi»də Həsəni ziyarət edərsə, Allah-taala ayaqlar titrəyən gün, onun qədəmlərini Siratın üstündə möhkəm edər.»[4]

2843. Allahın Peyğəmbəri (s): «Tezliklə mənim bədənimin bir parəsi Xorasanda dəfn olunar. Onu ziyarət edən elə bir mömin yoxdur ki, Allah-taala Qiyamət günü behişti ona vacib və bədənini Cəhənnəm atəşinə haram etməsin.»[5]

2844. İmam Sadiq (ə): «Kim vəfatımızdan sonra bizi ziyarət edərsə, bizi sağlığımızda ziyarət etmiş kimidir.»[6]

2845. İmam Sadiq (ə): «Küfənin yaxınlığında bir qəbir var ki, hər qəmli oraya gedib onun yanında dörd rəkət namaz qılsa, Allah-taala onun ehtiyacını ödəməklə onu şad edər.»[7]

2846. İmam Sadiq (ə): «Allahın Rəsulu (s) buyurmuşdur: «Mənim qəbrimlə minbərimin arasında Cənnət bağlarından bir bağ var və mənim minbərim Cənnət arxlarından birinin üzərində qurulmuşdur.» Çünki Fatimənin (Allahın salamı olsun ona) qəbri, Allahın Rəsulunun qəbri ilə onun minbəri arasındadır.

---

[1] Biharul-Ənvar, c.100,səh. 142 , hədis 18
[2] Biharul-Ənvar, c.100, səh. 182 , hədis 4
[3] İləluş-Şəraye,səh. 450 , hədis 5
[4] Biharul-Ənvar, c.100,səh. 141 , hədis 14
[5] Biharul-Ənvar, c.102,səh. 31 , hədis 1
[6] Biharul-Ənvar, c.100,səh. 124 , hədis 34
[7] Biharul-Ənvar, c.100 ,hədis 259 , hədis 7

Fatimənin qəbri Cənnət bağlarından biridir və Cənnət arxlarından biri də ona tərəf axır.»[1]

2847. İmam Sadiq (ə): «Kim Hüseyni (ə) onun haqqına və məqamına layiq mə‘rifətlə ziyarət edərsə Allah-taala onunçün min qəbul olunmuş həccin və min qəbul olunmuş ümrənin savabını yazar, onun keçmiş və gələcək günahlarını bağışlar.»[2]

2848. İmam Sadiq (ə): «Hüseyn ibn Əli (ə) buyurardı: «Əgər mənim zəvvarım Allahın onun üçün nə hazırladığını bilsə, onun sevinci (səfərin yorğunluğundan doğan) dözümsüzlüyündən daha çox olar.» Həqiqətən, onun zəvvarı hər bir günahdan pak halda öz evinə qayıdar.»[3]

2849. İmam Sadiq (ə): «İmam Hüseynin (ə) ziyarətinə gedəndə qəm-qüssəli qəlblə, nimdaş bədənli, toza bulaşmış, ac və təşnə halda ziyarət et. Çünki Hüseyn qəm-qüssəli, nimdaş, toza bülaşmış, ac və təşnə halda öldürüldü. Öz hacətlərini ondan istə və geri qayıt, onun qəbrinin kənarında məskən salma.»[4]

2850. İmam Sadiq (ə): «Kim məni ziyarət etsə günahları bağışlanar və yoxsulluqda ölməz.»[5]

2851. İmam Sadiq (ə) («Sizlərdən birinizi ziyarət edənin savabı nədir?» deyə soruşan kimsəyə cavabından): «Allahın Rəsulunu (s) ziyarət edən şəxsin savabı qədərdir.»[6]

2852. İmam Rza (ə): «Əmirəl-mömininin (ə) qəbrinin ziyarətinin Hüseynin (ə) qəbrinin ziyarətindən üstünlüyü və fəziləti Əmirəl-möminin (ə) Hüseyndən (ə) üstünlüyü və fəziləti kimidir.»[7]

2853. İmam Rza (ə) (İbn Sənanın «sizin atanızı ziyarət edən kimsənin savabı nədir?» sualının cavabında): «Onun savabı Cənnətdir. Beləliklə, o alicənabı ziyarət et.»[8]

2854. İmam Rza (ə): «Haqq və məqamımı tanıyan dostlarımın arasında, məni ziyarət edən elə bir şəxs yoxdur ki, Qiyamət günü ona şəfaət etməyim.»[9]

2855. İmam Rza (ə): «Kim məni qürbət diyarda ziyarət edərsə, Qiyamət günü üç yerdə onun dadına yetişərəm və onların qorxularından, çətinliklərindən onu xilas edərəm: əməl dəftərləri sağa və sola veriləndə, Siratdan keçəndə, əməllər tərəzidə ölçüləndə.»[10]

2856. İmam Hadi (ə) (İmam Hüseyn(ə), İmam Kazim (ə) və İmam Cavadın (ə) ziyarətləri barədə İbrahim ibn Uğbənin sualına cavabı): «İmam Hüseynin (ə) ziyarəti üstündür, ancaq onların hamısını ziyarət etsən daha kamil və savabı daha çox olar.»[11]

2857. İmam Əskəri (ə) (Əbu Haşim Cəfəriyə xitabən): «Mənim Samirrada qəbrim Fəratın hər iki tərəfinin sakinlərinin əmin-amanlığına səbəbdir.»[12]

---

[1] Məanil-Əxbar,səh. 267 , hədis 1
[2] Biharul-Ənvar, c.100,səh. 257 , hədis 1
[3] Əmali-Tusi,səh. 55 , hədis 74
[4] Səvabul-Əmal,səh. 114 , hədis 21
[5] Biharul-Ənvar, c.100,səh. 145 , hədis 34
[6] əl-Kafi, c.4,səh. 579 , hədis 1
[7] Biharul-Ənvar, c.100,səh. 266 , hədis 14
[8] Biharul-Ənvar, c.102, səh.1, hədis 3
[9] Uyune Əxbari-Rza (ə), c.2, səh.258 , hədis 16
[10] Uyune Əxbari-Rza (ə), c.2,səh.255 , hədis 2
[11] əl-Kafi, c.4,səh. 583 , hədis 3
[12] Biharul-Ənvar, c.102,səh. 59 , hədis 1

***885. İmam Kazimın (ə) qızı Fatimənin ziyarəti***

2858. İmam Sadiq (ə): «Bizim bir hərəmimiz var, o da Qumdur. Tezliklə mənim övladlarımdan Fatimə adlı bir xanım orada dəfn olunacaq. Kim onu ziyarət etsə, Cənnət ona vacib olar.»[1]

2859. İmam Cavad (ə): «Qumda bibimin qəbrini ziyarət edənin mükafatı Cənnətdir.»[2]

***886. Həzrət Əbdüləzim Həsəninin ziyarəti***

2860. «Səvabul əmal»:«Rey əhalisindən bir nəfər İmam Hadinin (ə) yanına gələndə Həzrət (ə) ondan soruşur:«Harada idin?» (O kişi deyir) Dedim:«İmam Hüseynin (ə) ziyarətinə getmişdim.» Həzrət (ə) buyurdu:«Bil ki, öz şəhərinizdəki Əbdüləzimin qəbrini ziyarət etsən, Hüseyn ibn Əlini (ə) ziyarət etmiş kimisən.»[3]

***887. Əməli saleh insanların qəbrlərinin ziyarəti***

2861. İmam Sadiq (ə):«Kimin bizləri ziyarət etməyə imkanı çatmırsa, əməli saleh dostlarımızın qəbrlərini ziyarət etsə onunçün bizim ziyarətimizin savabı yazılar.»[4]

***888. Ölənlərin qəbrlərinin ziyarəti.***

2862. İmam Əli(ə):«Öz ölənlərinizi ziyarət edin. Çünki onlar sizinlə görüşməkdən şad olurlar. İnsan öz ata-anasının qəbri üstündə onlara dua edəndən sonra Allahdan öz diləyini diləməlidir.»[5]

2863. İmam Sadiq (ə) (Davud Rəqqinin «İnsan öz atasının, qohumunun və qəribin qəbri üstünə gedir. Bu işin ona faydası varmı?» sualına cavabından): «Bəli. Sizlərdən birinizə bir hədiyyə veriləndə şad olduğunuz kimi, ölü də sizin bu işinizə sevinir.»[6]

***889. Qəbiristan əhlinə salam vermək***

2864. İmam Əli (ə) (qəbiristandan keçərkən): «Salam olsun sizə, ey qəbirlərdə yatanlar. Siz getdiniz, biz isə qaldıq. İnşallah, biz də sizlərə qoşulacağıq. Sizin evlərinizdə başqaları oturur, zövcələriniz ərə gediblər, mallarınız bölünübdür. Bu bizdə olan xəbərlərdir. Kaş biləydim sizdə nə xəbər var?» Sonra buyurdu:«Bilin ki, onlar dil açıb danışsaydılar belə deyərdilər:«Biz təqvanı ən yaxşı azuqə tapdıq.»[7]

---

[1] Biharul-Ənvar, c.102,səh. 267 , hədis 5
[2] Biharul-Ənvar, c.102səh. 265 , hədis 3
[3] Səvabul – Əmal, səh. 124 , hədis 1
[4] Biharul – Ənvar, c.74,səh. 354 , hədis 29
[5] əl-Xisal,səh. 618 , hədis 10
[6] Biharul-Ənvar, c.78,səh. 71 , hədis 6
[7] Biharul-Ənvar, c.78,səh. 71 , hədis 35

179

# Zinət

***890. Zinət***

**Qur’an:**

«Ey Adəm övladları! Hər bir məsciddə öz zinətlərinizi geyinin, yeyin, için, lakin israf etməyin. O (Allah), israf edənləri sevməz.»[1]

«Ey Peyğəmbər! De ki, Allahın öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?» [2]

**Hədis:**

2865. Allahın Peyğəmbəri (s):«Allah mömin bəndəsinin (din) qardaşının yanına gedəndə özünü, onu ziyarət etmək üçün hazırlayıb bəzəməsini sevər.»[3]

2866. İmam Əli (ə):«Sizlərdən hər biriniz onu ən yaxşı sifətdə görmək istədiyi yad bir insan üçün özünü bəzədiyi kimi, öz müsəlman qardaşının yanına gedəndə də özünü elə bəzəməlidir.»[4]

2867. İmam Əli (ə):«Batini gözəllik zahiri gözəllikdən yaxşıdır.»[5]

2868. İmam Əli (ə):«İmanın zinəti batinin paklığı və zahirən gözəl rəftardır.»[6]

***891. Ən gözəl bəzək***

2869. Allahın Peyğəmbəri (s):«Kişinin ən gözəl zinəti imanla müşaiyət olunan sakitlikdir.»[7]

2870. İmam Əli (ə):«Ən gözəl məslək səni insanlarla qaynayıb-qarışdıran, onların arasında səni gözəl göstərən və acı dillərini səndən çəkindirəndir.»[8]

2871. İmam Əli (ə):«Heç bir bəzənən Allaha ibadət kimi bir zinətlə bəzənməyib.»[9]

---

[1] Ə‘raf, ayə 131
[2] Ə‘raf, ayə 132
[3] Biharul-Ənvar, c.79,səh. 307 , hədis 23
[4] Biharul-Ənvar, c.79,səh. 298 , hədis 3
[5] Ğurərul-Hikəm,hədis 5503
[6] Ğurərul-Hikəm,hədis 5504
[7] Biharul-Ənvar, c.71,səh. 337 , hədis 2
[8] Ğurərul-Hikəm,hədis 3470
[9] Ğurərul-Hikəm,hədis 9489

**180**

# Məsuliyyət

***892. Mə'suliyyət***

**Qur'an:**

«And olsun sənin Rəbbinə, onların hamısından etdikləri əməllər barədə soruşacağıq.» [1]

**Hədis:**

2872. İmam Əli (ə):«Allahdan, Onun bəndələri və torpaqlarına barəsində qorxun. Çünki siz hətta torpaqlara və heyvanlara görə də cavabdeh olmalısınız. Allahdan qorxun və Ona itaətsizlik etməyin.»[2]

***893. Ümumi Mə'suliyyət***

2873. Allahın Peyğəmbəri (s):«Bilin ki, sizin hamınız rəhbərsiniz və rəiyyət[3] sahibisiniz. Hamınız öz rəiyyətiniz və əliniz altında olanlar barədə sorğu-sual olunacaqsınız. Rəhbər xalqın başçısıdır və öz rəiyyətinə görə sorğu-sual olunacaq. Kişi öz ailəsinin başçısıdır və onlara görə cavabdehlik daşımalıdır. Qadın öz evinin və ərinin uşaqlarının başçısıdır və onlara görə cavabdeh olmalıdır.»[4]

2874. İmam Əli (ə):«Hər bir kişi öz tabeliyində olanlara və ailəsinə görə sorğu-sual olunacaq.»[5]

***894. Qulağın, gözün və qəlbin Mə'suliyyəti***

2875. «Mən lə yəhzuruhul fəqih»:«Bir kişi İmam Sadiqə (ə)ərz etdi:«Mənim qonşularımın cavan kənizləri var və bu kənizlər xoş avazla oxuyub ud çalırlar. Mən əl-üz yuyulan yerə gedəndə bə'zən onların çalıb oxumaqlarına qulaq asmaq üçün uzun müddət otururam…» Həzrət buyurdu:«Sən Allah, sən də belə edirsən?!!» Allah-taalanın «Həqiqətən, qulaqdan, gözdən, qəlbdən, onların hamısından soruşulacaqdır» buyurduğunu eşitməmisənmi?»[6]

---

[1] Hicr, ayə 92, 93

[2] Nəhcül-Bəlağə, xütbə 167

[3] Rəiyyət – Başçısı, himayəçisi olan bir xalq kütləsi, camaat. Kiminsə rəhbərliyi altında olan bir qrup insan.

[4] Səhihi-Muslim,səh. 1829

[5] Ğurərul-Hikəm,hədis 7254

[6] Mən la yəhzuruhul-Fəqih, c.1,səh.180 , hədis 177

**181**

# Sual (1)

## Elm öyrənmək

***895. «Elmin açarı»***

**Qur'an:**

«Səndən qabaq da özlərinə vəhy etdiyimiz kişilərdən başqa bir kəs göndərmədik. Əgər bilmirsinizsə, zikr əhlindən soruşun.»[1]

**Hədis:**

2876. Allahın Peyğəmbəri (s):«Elm xəzinə, onun açarları isə suallardır. Allah sizə rəhm eləsin, soruşun, çünki bu işdə dörd nəfər savab qazanar: soruşan, cavab verən, qulaq asan və onları sevən.»[2]

2877. Allahın Peyğəmbəri (s):«Sual elmin yarısıdır.»[3]

***896. Gözəl tərzdə soruşmaq***

2878. Allahın Peyğəmbəri(s):«Gözəl tərzdə soruşmaq dinin yarısıdır.»[4]

2879. İmam Əli (ə) (çətinlik doğuran bir sualı soruşan kişinin cavabında): «Öyrənmək niyyəti ilə soruş, əziyyət vermək və səhv axtarmaq niyyəti ilə soruşma. Çünki öyrənmək istəyən cahil alim kimidir. Azğınlığa qədəm qoyan alim isə səhv tutmaq məqsədilə soruşan cahilə bənzər.»[5]

***897. Yersiz sual verməkdən çəkinmək***

**Qur'an:**

«Ey iman gətirənlər! Sizə aşkar olduğu halda xoşunuz gəlmədiyi şeylər barədə soruşmayın. Əgər Qur'an nazil olanda onlar barədə soruşsanız, sizə aydın olar. Allah onlardan (suallardan) keçdi. Allah bağışlayan və həlimdir»[6]

**Hədis:**

2880. Allahın Peyğəmbəri (s):«Mən sizə rüxsət verənədək, siz mənə rüxsət verin. Çünki sizdən qabaqkılar çox sual verməkdən və öz peyğəmbərlərinin yanına çox gəlib-getməkdən məhv oldular. Beləliklə, sizə göstəriş verdiyim zaman, bacardığınız qədər onu yerinə yetirin və bir şeyi qadağan etdiyim zaman

---

[1] Nəhl, ayə 43
[2] Tuhəful-Uqul,səh. 42
[3] Kənzul-Ummal, hədis 29260
[4] Tuhəful-Uqul,səh. 56
[5] Nəhcül-Bəlağə, hikmət 320
[6] Maidə, ayə 101

ondan uzaqlaşın.»[1]

***898. Bilmədiyin suallara cavab vermək***

2881. Allahın Peyğəmbəri (s) (Əbuzərə tövsiyyəsindən): «Ey Əbuzər! Bilmədiyin şey barədə səndən soruşanda «bilmirəm» de ki, onun nəticələrindən xilas olasan. Bilmədiyin şey haqda fitva vermə ki, Qiyamət günü Allahın əzabından nicat tapasan.»[2]

2882. İmam Əli(ə):«Alimdən cavabını bilmədiyi bir sualı soruşanda «bilmirəm» deməyə utanmaz.»[3]

2883. İmam Əli (ə):«Kim «bilmirəm» sözündən uzaqlaşsa, özünün ölüm uçurumuna düşər.»[4]

2884. İmam Sadiq(ə):«Hər verilən suala cavab verən dəlidir.»[5]

2885. İmam Sadiq (ə):«Alimin, ona verilən sualın cavabını bilməyəndə «Allah daha yaxşı bilir.» deməyə haqqı var. Amma alim olmayanın belə deməyə haqqı yoxdur və «bilmirəm» deməlidir.»[6]

ιooooooπ

---

[1] Kənzul-Ummal, hədis 916
[2] Məkarimul-Əxlaq, c.2,səh. 364 , hədis 2661
[3] əl-Məhasin, c.1,səh. 328 , hədis 664
[4] Nəhcül-Bəlağə, hikmət 85
[5] Biharul-Ənvar, c.2,səh. 117 , hədis 15
[6] əl-Kafi, c.1,səh. 42 , hədis 5

**182**

# Sual (2)

## Hacət istəmək

***899. İnsanlardan hacət istəməyin qadağan olması***

**Qur'an:**

«Bu sədəqələr Allah yolunda sıxıntıya düşən və (öz dolanışıqlarını təmin etmək üçün) səfərə çıxa bilməyən yoxsullar üçündür. Onlar çox həyalı olub (dilənçilikdən çəkindiklərinə görə), məlumatı olmayanlar onları varlı hesab edirlər. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla heç nə istəməzlər. Şübhəsiz ki, onlara sədəqə verdiyiniz hər bir maldan, Allah agahdır.» [1]

2886. Allahın Peyğəmbəri (s):«Ey Əbuzər! Xahişdən və dilənçilikdən ehtiyatlı ol ki, o, düynada xarlığa və yoxsulluğa səbəb olar, Qiyamət günü isə hesab-kitabı uzundur.»[2]

2887. Allahın Peyğəmbəri (s):«Kim mənə insanlardan heç nə istəməməyi söz verər ki, mən ona Cənnəti verim?» Suban dedi:«Mən.» Bundan sonra Suban insanlardan heç nə istəmirdi.»[3]

2888. Allahın Peyğəmbəri (s):«Ehtiyacını dilə gətirməyin qapısını öz üzünə açan elə bir bəndə olmadı ki, Allah-taala yoxsulluğun yetmiş qapısını onun üzünə açmasın.»[4]

2889. İmam Əli (ə):«Kim Allahdan qeyrisindən bir şey istəsə, məhrumiyyətə layiq olar.»[5]

2890. İmam Həsən (ə):«Bu üç yerdən başqa bir yerdə ehtiyac istəmək rəva deyil: Ağır qanbahasında, ya üzücü borcda, ya öldürücü yoxsulluqda.»[6]

2891. İmam Səccad (ə):«İnsanlardan ehtiyac istəmək həyatda xarlığa, həya və abrın getməsinə səbəb olar. Eləcə də, insanın vüqarını, əzəmətini azaldar və o, əsl yoxsulluqdur. Ehtiyac əlini insanlara az uzatmaq isə nəğd olan ehtiyacsızlıqdır.»[7]

2892. İmam Sadiq (ə):«Bizim şiəmiz acından ölsə də, ehtiyac əlini insanlara

---

[1] Bəqərə, ayə 273
[2] Mən la Yəhzuruhul-Fəqih, c.4,səh. 375 , hədis 5762
[3] Kənzul—Ummal, hədis17142
[4] Camiul-Əxlaq,səh. 379 , hədis 1061
[5] Ğurərul-Hikəm,hədis 7993
[6] Biharul-Ənvar, c.96,səh. 152 , hədis 16
[7] Tuhəful-Uqul,səh. 79

uzatmaz.»[1]

***900. Ehtiyac olmayan yerdə kömək istəməkdən çəkindirmək***

2893. Allahın Peyğəmbəri (s):«Kim, ehtiyac olmadığı halda, ehtiyac əlini uzadarsa nəticəsi başağrı və ürək ağrısı olar.»[2]

2894. İmam Səccad (ə):«Mən Rəbbimi zamin tuturam ki, ehtiyacı olmadan başqasından bir şey istəyən elə bir kəs olmadı ki, onun bu diləyi bir gün onu həqiqi ehtiyac əlini uzatmağa məcbur etməsin.»[3]

2895. İmam Baqir (ə):«Kim ehtiyacı olmadan xahiş (və dilənçilik) edərsə, Qiyamət günü üzü çırmaqlanmış halda Allahla görüşər.»[4]

***901. İnsanlardan ehtiyacsız olmağa həvəsləndirmək***

2896. Allahın Peyğəmbəri (s):«Kim bizdən bir şey istəsə ona verərik, kim bir şey istəməsə Allah-taala onu ehtiyacsız və varlı edər.»[5]

2897. Allahın Peyğəmbəri (s):«Sizlərdən hər biriniz kəndir götürüb bir qucaq odun gətirib satsa və bu işlə öz abrını qorusa, bu onunçün ehtiyac əlini uzatmaqdan daha yaxşıdır.»[6]

***902. Yaxşılığı onun əhlindən istəmək***

2898. Allahın Peyğəmbəri (s):«Yaxşılığı və bəxşişi ümmətimin səxavətlilərindən və mehribanlarından istəyin ki, onların kölgəsində yaşayasınız.»[7]

2899. İmam Əli (ə):«Sənin abrın donmuş buzdur, ehtiyac istəmək isə onu damla-damla əridər. Beləliklə, bax gör onu kimin yanında əridirsən.»[8]

2900. İmam Əli (ə):«Ehtiyacın aradan getməsi onu əhli olmayandan istəməkdən daha asandır.»[9]

***903. Dilək diləməyin qaydası***

2901. İmam Sadiq (ə):«Sənə rədd cavabı verməsindən qorxduğun kimsədən heç nə istəmə.»[10]

2902. İmam Sadiq (ə):«Üç şey məhrumiyyətə səbəb olar: istəməkdə israr etmək, qeybət və rişxənd etmək.»[11]

---

[1] Vəsailuş-Şiə, c.6,səh. 309 , hədis 15
[2] Biharul-Ənvar, c.96,səh. 156 , hədis 29
[3] Biharul-Ənvar, c.96,səh. 158 , hədis 37
[4] Biharul-Ənvar, c.96,səh. 155 , hədis 26
[5] əl-Kafi, c.2,səh. 138 , hədis 2
[6] Biharul-Ənvar, c.96,səh. 158 , hədis 37
[7] Biharul-Ənvar, c.96,səh. 160 , hədis 38
[8] Nəhcül-Bəlağə, hikmət 346
[9] Nəhcül-Bəlağə, hikmət 66
[10] Ə‘lamud-Din,səh. 303
[11] Tuhəful-Uqul,səh. 321

### *904. İstəyəni naümid qaytarmağın qadağan olması*

**Qur’an:**

«Və dilənçini (qapıdan) qovma»[1]

**Hədis:**

2903. Allahın Peyğəmbəri (s):«Dilənçinin diləyini rədd etməyin. Çünki dilənçilərin yalan danışmaqları olmasaydı, onların xahişini rədd edən şəxs heç vaxt nicat tapmazdı.»[2]

2904. Allahın Peyğəmbəri (s):«Dilənçiyə baxın, əgər ona ürəyiniz yansa sədəqə verin. Çünki o, doğru danışır.»[3]

2905. İmam Əli (ə):«Dilənçini əliboş geri qaytarma, əksinə, üzümün ya xurma dənəsinin yarısı olmuş olsa belə, ona ver.»[4]

2906. İmam Əli (ə):«Vermək istədiyin sədəqənin azlığından utanma, Çünki (dilənçini) məhrum etmək ondan daha pisdir.»[5]

2907. İmam Hüseyn (ə): Möhtac xahiş etməklə öz hörmətini və abrını tökmüşdür. Sən də, onu naümid etməməklə öz abrını və hörmətini saxla.»[6]

2908. İmam Baqir (ə):«Dilənçi onun xahişində və istəyində nə gizləndiyini bilsəydi, heç vaxt heç kimdən bir şey istəməzdi. Əgər xahiş olunan şəxs, naümid qaytarmaqda nə gizləndiyini bilsəydi, heç vaxt heç kəs digərini naümid qaytarmazdı.»[7]

2909. İmam Sadiq (ə):«Bir şəxs ehtiyac əlini mənə uzadan zaman onun ehtiyacını ödəməyə tələsirəm. Çünki işin işdən keçdiyindən və mənim köməyimin artıq ona fayda verməməsindən qorxuram.»[8]

2910. İmam Sadiq (ə):« Üç dilənçiyə yemək verin. Bundan sonra ixtiyar sizin özünüzdədir, istəsəniz daha çoxunu yedirdərsiniz, istəsəniz də yedirtməzsiniz. Belə ki, artıq o gününüzün vəzifəsini yerinə yetirmisiniz.»[9]

2911. Mə’sumlar (ə):«Biz yardıma layiq olanın xahişini rədd etməkdən qorxduğumuza görə, buna layiq olmayanlara da bəxşiş verərik.»[10]

ιooooooπ

---

[1] Zuha, ayə 10
[2] Biharul-Ənvar, c.96,səh. 158 , hədis 37
[3] Nəvadirul-Rəvandi,səh. 3
[4] Tuhəful-Uqul,səh. 172
[5] Nəhcül-Bəlağə, hikmət 67
[6] Kəşful-Ğummə, c. 2, səh.244
[7] Tuhəful-Uqul,səh. 300
[8] Uyunu-Əxbəru Rza(ə), c.2,səh.179 , hədis 2
[9] İddətud-Dai,səh. 91
[10] Biharul-Ənvar, c.96,səh. 159 , hədis 37

# 183

# Söyüş söymək

***905. Mömini söymək***

2912. Allahın Peyğəmbəri(s):«Mömini söymək məhv olmağın kandarında durmaq kimidir.»[1]

2913. Allahın Peyğəmbəri (s):«Mö'minə təhqiramiz sözlər demək fasiqlik (fisqdir), onunla müharibə etmək küfr, onun ətini yemək (qeybətini etmək) Allaha itaətsizlikdir.»[2]

***906. Söyüş söyməyin qadağan olması***

**Qur'an:**

«Allahdan qeyrisini çağıranları (sitayiş edənləri) söyməyin ki, belə olan halda onlar da düşmənçilik və cahilliklərinə görə Allahı söyərlər. Beləcə, hər ümmətin əməllərini (öz gözlərində) zinətləndirdik. Onların son qayıdışı Allahın yanınadır. Allah onlara etdikləri əməllərdən xəbər verəcəkdir.»[3]

**Hədis:**

2914. Allahın Peyğəmbəri (s):«Küləkləri söyməyin. Onlar (Allah tərəfindən) məmurdurlar. Dağları, anları, günləri və gecələri söyməyin ki, günahkar olarsınız və özünüzə qayıdar.»[4]

2915. Allahın Peyğəmbəri (s):«İnsanları söyməyin ki, bu işinizlə onların arasında özünüzə düşmən taparsınız.»[5]

2916. İmam Əli (ə) (onu söymüş olan kişini söymək istəyən Qəmbərə xitabən): «Sakit ol, Qəmbər! Səni söyəni xar və rüsvay halda qoy ki, Rəhman Allahı razı və şeytanı narazı edərək düşməninə cəza vermiş olasan. Toxumu yaran və məxluqatı yaradan Allaha and olsun ki, mö'min öz Rəbbini dözümlülük və güzəşt etmək kimi başqa bir şeylə razı etmədi. Sakitlik kimi bir silah qədər başqa bir şeylə şeytanı qəzəbləndirmədi və axmağa, onun müqabilində susmaq kimi digər bir şey ilə cəza vermədi.»[6]

---

[1] Kənzul-Ummal, hədis 8093
[2] Biharul-Ənvar, c.75, səh. 148, hədis 6
[3] Ən'am, ayə 108
[4] İləluş-Şəraye, səh. 577, hədis 1
[5] əl-Kafi, c.2,səh. 360, hədis 3
[6] Əmali-Mufid,səh. 118, hədis 2

2917. İmam Kazim (ə) (iki nəfərin bir-birinə söyüş söydüyünü gördükdə): «Birinci başlayan daha çox zülmkardır və qarşı tərəfin günahı zülmə məruz qalan öz həddini aşmayanadək, onun boynundadır.»[1]

2918. İmam Kazim (ə):«Heç vaxt bir-birini söyən iki nəfər olmayıb ki, onlardan daha çox söyüş söyən daha aşağı məqama çökməsin.»[2]

**907.** ***Peyğəmbərləri və vəsilərini söyən şəxsin cəzası.***

2919. Allahın Peyğəmbəri (s):«Kim peyğəmbərlərdən birini söysə, onu öldürün. Kim onların vəsilərindən birini söysə, şəkksiz ki, peyğəmbəri söymüşdür.»[3]

2920. İmam Sadiq (ə) (Allahın Rəsulunu söyən şəxsin hökmü barədə verilən sualın cavabında): «Ona daha yaxın olan kimsə, onu mühakimə etmək üçün imamın yanına aparmadan öldürsün.»[4]

**908.** ***İcazə verilən söyüş***

2921. Allahın Peyğəmbəri (s):«Sizlərdən biriniz (din) qardaşını söyən zaman onun elinə, obasına, atasına, anasına söyməsin. Əksinə, belə desin:«Sən simicsən, sən qorxaqsan, sən yalançısan» Bir şərtlə ki, onun həqiqətən belə olduğunu bilsin.»[5]

ιοοοοοοπ

---

[1] Tuhəful-Uqul,səh. 412
[2] Ə‘lamud-Din,səh. 305
[3] Əmali-Tusi,səh. 365, hədis 769
[4] əl-Kafi, c.7,səh. 259, hədis 21
[5] Kənzul-Ummal, hədis 8134

## 184

# Səcdələr

**909.** ***Səcdələr***

2922. İmam Əli (ə):«Bəndəni heç nə çoxlu səcdələr və rukular qədər pak olan Allaha yaxınlaşdırmaz.»[1]

2923. İmam Sadiq (ə) :«Səcdə, Adəm övladının ibadətinin zirvəsidir.»[2]

2924. İmam Sadiq (ə) (Səid ibn Yəsarın «Ruku halında dua edim ya səcdə halında?» sualına cavabından): «Bəli, səcdə halında dua et. Çünki bəndənin Allaha ən yaxın halı səcdədir. O halda dünyan və axirətin üçün Allahın dərgahına dua et.»[3]

***910. Səcdəni uzatmaq***

2925. Allahın Peyğəmbəri (s):«Allahın səni mənimlə birgə qəbirdən qaldırmasını istəyirsənsə, vahid Qəhhar olan Allahın dərgahına uzun səcdə et.»[4]

2926. İmam Əli (ə):«Səcdələri uzadın. Çünki iblis üçün Adəm övladını səcdə halında görmək qədər daha ağır və xoşagəlməz bir mənzərə yoxdur. Belə ki, səcdə etmək ona əmr olunsa da, əmrə itaət etmədi.»[5]

2927. İmam Sadiq (ə); «Bir dəstə insan Allahın Rəsulunun yanına gəlib ərz etdi:«Ey Allahın Rəsulu! Rəbbinin qarşısında Cənnəti bizə zəmanət ver.» Allahın Rəsulu(s) buyurdu:«Bir şərtlə ki, siz də uzun səcdələrlə mənə kömək edəsiniz.»[6]

2928. İmam Sadiq (ə):« Əli ibn Hüseyn (ə) səcdəyə gedəndə, bədənindən tər axanadək başını səcdədən qaldırmazdı.»[7]

***911. Səcdə əlaməti***

**Qur'an:**

«Üzlərində səcdələrin əsər-əlaməti var.»[8]

**Hədis:**

2929. İmam Əli (ə):«Mən kişi üçün alnının saf görünməyini və onda

---

[1] Ğurərul-Hikəm, hissə 10888
[2] əd-Də'vat,səh. 33, hədis 70
[3] Biharul-Ənvar, c.85,səh. 131, hədis 6
[4] Biharul-Ənvar, c.85,səh. 164, hədis 12
[5] əl-Xisal,səh. 616, hədis 10
[6] Əmali-Tusi,səh. 664, hədis 1389
[7] Biharul-Ənvar, c.85,səh. 137, hədis 17
[8] Fəth, ayə 29

səcdədən bir əsər-əlamət olmamasını bəyənmirəm.»[1]

2930. İmam Baqir (ə):«Atamın səcdə yerində bir nişanə peyda yaranmışdı. İldə iki dəfə və hər dəfə beş qabar ondan kəsərdi. Buna görə o Həzrətə «Zus-səfənat» yə’ni «qabar sahibi» deyərdilər.»[2]

### *912. İmam Hüseynin (ə) torpağına səcdə etmək*

2931. İmam Sadiq (ə):«Hüseynin (ə) torpağına səcdə etmək yeddi hicabı yarar.»[3]

ιooooooπ

---

[1] Biharul-Ənvar, c.71, səh.344, hədis 4

[2] İləluş-Şəraye, səh.233, hədis 2

[3] Biharul-Ənvar, c.85səh.153, hədis 14

**185**

# Məscid

***913. Məscid Allahın evidir***

**Qur'an:**

«Həqiqətən, məscidlər və səcdəgahlar Allahındır. Buna görə Allahla bərabər heç kəsi çağırmayın.»[1]

**Hədis:**

2932. İmam Sadiq (ə):«Sizlərə məscidlərə getməyi tövsiyə edirəm. Çünki məscidlər Allahın yer üzündə evləridir. Kim pak və təmiz halda oraya daxil olsa, Allah-taala onu günahlardan təmizləyər və zəvvarları sırasında qeyd edər. Beləliklə, məscidlərdə çox namaz qılıb dua edin.»[2]

***914. Məscidləri abad etmək***

**Qur'an:**

«Allahın məscidlərini yalnız Allaha və axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayan şəxs abad edər. Ümid var ki, onlar doğru yolu tapsınlar.»[3]

**Hədis:**

2933. Allahın Peyğəmbəri (s) (məscidlərin necə abad olunması barədə Əbuzərin sualının cavabında): «Onlarda səslərini qaldırmasınlar, nalayiq və boş-boş sözlərə, işlərə vaxt sərf etməsinlər. Orada alış-veriş edilməsin. Məsciddə olduğun müddətdə hədər və əhəmiyyətsiz işlərdən əl çəkəsən. Əgər belə etməsən, Qiyamət günü özündən başqa bir kəsi danlamağa haqqın yoxdur.»[4]

2934. İmam Sadiq (ə):«Kim bir məscid tiksə, Allah-taala onunçün Cənnətdə bir ev tikər.»[5]

***915. Məscidlərə getmək***

2935. Allahın Peyğəmbəri (s):«Kim camaat namazında iştirak etmək üçün məscidə getsə, atdığı hər bir addıma yetmiş min yaxşı əməlin savabı yazılar və həmin həddlə dərəcəsi ali səviyyəyə yüksələr. Əgər bu halda ölərsə, Allah-taala yetmiş min mələyi, qəbrdən qalxan günədək onu qəbrdə ziyarət etmək,

---

[1] Cin, ayə 18
[2] Əmali-Səduq,səh. 293, hədis 8
[3] Tövbə, ayə 18
[4] Məkarimul-Əxlaq, c.2,səh. 374, hədis 2661
[5] əl-Kafi, c.2,səh. 368, hədis 1

tənhalıqda onunla munis olmaq və günahlarının bağışlanmasını istəməkdən ötrü ayırar.»[1]

### *916. Məsciddə oturmaq*

2936. Allahın Peyğəmbəri (s):«Ey Əbuzər! Məsciddə oturduğun müddətdə Allah-taala hər aldığın nəfəs üçün sənə Cənnətdə bir dərəcə verər, mələklər sənə salam göndərər, məsciddə çəkdiyin hər bir nəfəs üçün sənə on yaxşı əməlin savabı yazılar və on günahın silinər.»[2]

### *917. Məscidlə qonşuluq və onda namaz qılmaq*

2937. İmam Əli (ə):«Məscidin qonşuluğunda yaşayan şəxsin bir üzrlü səbəb, ya xəstə olduğu haldan başqa məsciddən qeyri bir yerdə qıldığı namazı qəbul deyil.» Ərz etdilər:«Ey Əmir-əl-mö’minin! Məscidin qonşusu kimdir?» Həzrət (ə) buyurdu:«Məsciddə namaz qılmaq üçün də‘vət səsini eşidən şəxs»[3]

2938. İmam Əli (ə):«Məscidin ətrafı qırx zirədir, məscidin qonşuluğu isə hər tərəfə qırx evdir.»[4]

### *918. Məsciddə ədəb qaydaları*

2939. Allahın Peyğəmbəri (s):«Kim bu pis iyli dənəni (yə’ni sarımsağı) yeyərsə, bizim məscidə yaxınlaşmasın. Amma məscidə gəlməyəcək şəxsə yeməyin eybi yoxdur.»[5]

2940. Allahın Peyğəmbəri (s):«Məsciddə iki rəkət namaz qılmadan onu özünüzün keçid yeri etməyin.»[6]

ιοοοοοπ

---

[1] Biharul-Ənvar, c.76,səh. 336, hədis 1
[2] Biharul-Ənvar, c.77, səh. 85, hədis 3
[3] Biharul-Ənvar, c.83, səh. 379, hədis 47
[4] əl-Xisal,səh.544, hədis 20
[5] Biharul-Ənvar, c.84,səh. 9, hədis 83
[6] Əmali-Səduq,səh. 344, hədis 1

**186**

# Səxavət

***919. Səxavət***

2941. Allahın Peyğəmbəri (s):«Səxavət Allahın əzəmətli xislətidir.»[1]

2942. Allahın Peyğəmbəri (s):«Allah-taala bütün vəlilərinin təbiətinin xəmirini səxavətdən başqa bir şeylə yoğurmamışdır.»[2]

2943. İmam Əli (ə):«Səxavət Allaha və insanlara yaxınlaşmağın səbəbidir.»[3]

2944. İmam Əli (ə): «Ağla kömək etmək üçün səxavətdən başqa bir şeydən imdad istənilməsin.»[4]

2945. İmam Əli (ə):«Səxavət müdrikliyin meyvəsi və qənaət şərəfin dəlilidir.»[5]

2946. İmam Əli (ə):«Səxavət məhəbbətin toxumunu səpər.»[6]

2947. İmam Əli (ə):«Səxavət məhəbbət gətirər, əxlaqı və xasiyyəti bəzəyər.»[7]

2948. İmam Sadiq (ə):«Səxavət peyğəmbərlərin əxlaqi keyfiyyətlərindən biri və imanın sütunudur. Səxavətli olmayan mömin yoxdur. Yalnız yəqinlik və ali hədəf sahibi səxavətli ola bilər. Çünki səxavət yəqinlik nurunun şüasıdır və buna görə hədəfi tanıyan şəxsə bəxşiş etmək asan olar.»[8]

2949. İmam Sadiq (ə):«Sizin ən yaxşılarınız səxavətliləriniz və ən pisləriniz xəsislərinizdir.»[9]

***920. Səxavətli***

2950. «əl-Kafi»:«Allah-taala Musaya (ə) vəhy etdi ki, Samirini öldürmə. Çünki o, səxavətlidir.»[10]

2951. Allahın Peyğəmbəri (s):«Səxavətli şəxs Allaha yaxındır, insanlara yaxın və Cənnətə də yaxındır.»[11]

---

[1] Kənzul-Umma,hədis 15962
[2] Kənzul-Umma, hədis 16204
[3] Biharul-Ənvar, c.72,səh. 193, hədis 9
[4] Biharul-Ənvar, c.72,səh. 193, hədis 59
[5] Ğurərul-Hikəm, hədis 2145
[6] Ğurərul-Hikəm, hədis 306
[7] Ğurərul-Hikəm, hədis. 1600
[8] Biharul-Ənvar, c.71,səh. 355, hədis 17
[9] Biharul-Ənvar, c.71,səh. 350, hədis 3
[10] Əl-Kafi, c.4,səh. 41, hədis 13
[11] Biharul-Ənvar, c.73,səh. 308, hədis 37

2952. Allahın Peyğəmbəri (s):«Səxavətlinin səhvindən keçin. Hər dəfə ayağı büdrəyən zaman Allah-taala onun əlindən tutar.»[1]

2953. İmam Sadiq (ə):«Günaha batmış səxavətli gənc Allah yanında xəsis abid qocadan daha sevimlidir.»[2]

2954. İmam Rza (ə):«Səxavətli şəxs insanların süfrəsindən yeyər ki, insanlar da onun süfrəsindən yesinlər. Amma xəsis insanların süfrəsindən yeməz ki, onlar da onun süfrəsindən yeməsinlər.»[3]

### *921. Səxavətin sərhəddi*

**Qur‘an:**

«Əlini boynuna bağlama (yə’ni xəsis olma) və tamamilə açıq saxlama ki, peşmançılıq və həsrət içində oturarsan.»[4] («İsra» 29)

**Hədis:**

2955. Allahın Peyğəmbəri (s):«İnsanların ən səxavətlisi öz malının zəkatını verəndir.»[5]

2956. İmam Əli (ə):«Səxavət öz malından bəxşiş, ehsan vermək və başqalarının sərvəti qarşısında zahidlik etməkdir.»[6]

2957. İmam Sadiq (ə):«Kərəm və səxavət sahibi öz malını haqq yolunda xərcləyəndir.»[7]

2958. İmam Sadiq (ə):«Səxavət bir kimsənin xahişi olmadan həyata keçər. Amma xahişdən sonra edilən səxavət utancaqlıqdan irəli gəlir və məzəmmətdən qaçmaq üçündür.»[8]

2959. İmam Əskəri (s):«Səxavətin həddi var, əgər onu aşsalar ifrat olar.»[9]

ιοοοοοοοπ

---

[1] Kənzul-Ummal, hədis 16212
[2] Biharul-Ənvar, c.73,səh. 307, hədis 34
[3] Biharul-Ənvar, c.71,səh. 352, hədis 8
[4] İsra, ayə 29
[5] Biharul-Ənvar, c.77, səh. 112, hədis 2
[6] Ğurərul-Hikəm, hədis. 1928
[7] Biharul-Ənvar, c.71,səh. 353, hədis 11
[8] Biharul-Ənvar, c.71,səh. 357, hədis 21
[9] Biharul-Ənvar, c.69,səh. 407, hədis 115

**187**

# Sirr

***922. Sirr saxlamaq***

2960. İmam Əli (ə):«Kim öz sirrini gizlətsə, seçim qüdrəti onun öz əlində olar.»[1]

2961. İmam Əli (ə):«Qələbə uzaqgörənliklə, uzaqgörənlik fikirləşməklə və fikirləşmək sirr saxlamaqla əldə olunur.»[2]

2962. İmam Əli (ə):«Sənin sirrin sənin əsirindir. Əgər onu faş etsən, sən onun əsiri olacaqsan.»[3]

2963. İmam Əli (ə):«Aqil insanın sinəsi onun sirr sandığıdır.»[4]

2964. İmam Əli (ə):«Sirr bilənlərin sayı hər nə qədər çox olarsa, onların faş olma ehtimalı bir o qədər artıq olar.»[5]

2965. İmam Əli (ə):«Nə qədər məhəbbətin varsa dostuna həsr et, amma inamının hamısını onun ayağı altına atma.»[6]

2966. İmam Əli (ə) :«İşlərin ən uğurlusu tam məxfiliklə baş verəndir.»[7]

2967. İmam Əli (ə):«Öz sirrini e‘timad etdiyin kəsdən başqa heç kimə vermə.»[8]

2968. İmam Əli (ə):«Sənin sirrinin bilinməməsinin nə qorxusu var!?»[9]

2969. İmam Əli (ə):«Öz sirrini gizlətməkdə aciz olan şəxsin, başqalarının sirrini saxlamağa qüdrəti çatmaz.»[10]

2970. İmam Sadiq (ə):«Sirrin faş olması süquta uğramaqdır.»[11]

2971. İmam Sadiq (ə):«Sənin sirrin, sənin qanının bir hissəsidir. Buna görə sənin damarlarından qeyrisində axmamalıdır.»[12]

2972. İmam Rza (ə):«Mömində bu üç xislət olmasa mömin olmaz. Bir xislət öz Rəbbindən, bir xislət peyğəmbərindən və bir xislət də öz vəlisindəndir. Rəbbinin xisləti sirr saxlamaqdır. Allah-taala buyurmuşdur: «Qeybi və sirri

---

[1] Nəhcül-Bəlağə, hikmət 162
[2] Nəhcül-Bəlağə, hikmət 48
[3] Ğurərul-Hikəm, hədis 5630
[4] Nəhcül-Bəlağə, hikmət 6
[5] Ğurərul-Hikəm, hədis 7197
[6] Ğurərul-Hikəm, hədis 2463
[7] Ğurərul-Hikəm, hədis 3284
[8] Biharul-Ənvar, c.77,səh. 235 , hədis 3
[9] Biharul-Ənvar, c.77,səh. 269 , hədis 1
[10] Ğurərul-Hikəm, hədis 8941
[11] Tuhəful-Uqul,səh. 315
[12] Biharul-Ənvar, c.75,səh. 71 , hədis 15

biləndir. Bəyəndiyi peyğəmbərdən başqa heç kəsi Öz sirrindən, qeybindən agah etməz.»[1]

2973. İmam Cavad (ə):«Bir şeyi möhkəmlənməmiş və sabit olmamış üzə çıxarmaq, onun korlanmasına gətirib çıxarar.»[2]

***923. Sirri verməyə layiq olmayanlar***

2974. İmam Əli (ə):«Sirr saxlamağa taqəti olmayan nadana sirr vermə.»[3]

2975. İmam Əli (ə):«Əmanətə sadiq olmayana sirr vermə.»[4]

2976. İmam Əli (ə):«Üç nəfərə sirr vermək olmaz: qadına, söz gəzdirənə və axmağa.»[5]

2977. İmam Sadiq (ə):«Dörd şey bərbad olar: ….və ağıldan heç bir bəhrəsi olmayana sirr vermək.»[6]

ιooooooπ

[1] Biharul-Ənvar, c.75,səh. 68 , hədis 2
[2] Biharul-Ənvar, c.75,səh. 71 , hədis 13
[3] Ğurərul-Hikəm,hədis 10265
[4] Ğurərul-Hikəm,hədis 10166
[5] Ğurərul-Hikəm,hədis 4662
[6] Biharul-Ənvar, c.75,səh. 69 , hədis 4

**188**

# Şadlıq

**924. Şadlanmağa layiq olan şey**

2978. İmam Əli (ə) (Abdullah ibn Abbasa xitabən): «Allahı tərif etdikdən sonra bə’zən insan hər bir halda onun əlinə çatacaq bir şeyi qazananda sevinir. Bə’zən də, heç vaxt ona çata bilmədiyi bir şeyi əldə etməyəndə qüssələnir. Beləliklə, sən axirət işlərindən birinə çatanda sevin və onun işlərindən birini əldən verən zaman qüssələn.» İbn Abbas deyərdi ki, Allahın Rəsulunun (s) sözündən sonra, bu söz qədər heç bir sözdən faydalanmadım.»[1]

**925.** ***Şadlığın amilləri***

2979. İmam Əli (ə):«Şadlığa yumşaq xasiyyətdən başqa heç bir şeylə kömək etmək olmaz.»[2]

2980. İmam Əli (ə):«Əqlin kökü qüdrət, onun meyvəsi isə sevincdir.»[3]

***926. Kim bir qəlbi sevindirərsə…***

2981. Allahın Peyğəmbəri (s):«Cənnətdə darul-fərəh (yə’ni şadlıq sayarı) adlanan saray var. Oraya yalnız möminlərin yetimlərini sevindirənlər daxil olacaq.»[4]

2982. Allahın Peyğəmbəri (s):«Həqiqətən, Cənnətdə «darul-fərəh» adlı bir saray var ki, oraya yalnız uşaqları sevindirənlər daxil olar.»[5]

2983. İmam Əli (ə):«And olsun bütün avazları eşidən kəsə, bir qəlbi şadlandıran elə bir şəxs olmayıb ki, Allah-taala o şadlıqdan bir lütf yaratmasın. Həmin şəxs bir çətinliyə, müsibətə düşəndə bu lütf üzüaşağı axan su kimi müsibətin üzərinə axar və qərib dəvə sürüdən qovulduğu kimi, o müsibəti ondan uzaqlaşdırar.»[6]

2984. İmam Sadiq (ə):«Sizlərdən hər hansı biriniz bir mömini sevindiribsə yalnız onu sevindirdiyini fikirləşməsin. Əslində, Allaha and olsun ki, bizi sevindirmişdir. Allaha and olsun, Allahın Rəsulunu (s) sevindirmişdir.»[7]

---

[1] Şərhe Nəhcül-Bəlağə, c.15,səh. 140
[2] Mətalibus-Suul,səh. 50
[3] Biharul-Ənvar, c.78,səh. 7 , hədis 59
[4] Kənzul-Ummal, hədis 6008
[5] Kənzul-Ummal, hədis 6009
[6] Nəhcül-Bəlağə, hikmət 257
[7] əl-Kafi, c.2,səh. 189 , hədis 6

***927. Mömini sevindirən, Allahı sevindirmişdir***

2985. Allahın Peyğəmbəri (s):«Kim bir mömini sevindirsə, məni sevindirmişdir. Kim məni sevindirsə, Allahı sevindirmişdir.»[1]

***928. Mömininin qəlbindən qəmi aparmağın savabı***

2986. İmam Sadiq (ə):«Kim mömininin qəmini aparsa, Allah-taala axirət qəmlərini ondan uzaqlaşdırar və qəbirdən rahat qəlblə qaldırar.»[2]

2987. İmam Sadiq (ə):«Allah-taala mömini qəbrdən çıxaranda, onunla bir surət də çıxar və mömininin qabağınca gedər. Mömin Qiyamət gününün qorxulu səhnələrindən birini görəndə, həmin surət deyər:«qorxma və kədərlənmə….» Mömin ona deyər:«Sən kimsən?» Surət deyər:«Mən mömin qardaşına çatdırdığın həmin şadlıq və sevincəm.»[3]

2988. İmam Rza (ə):«Kim mömininin işinin düyününü açsa, Qiyamət günü Allah-taala onun qəlbinin düyününü açar.»[4]

ιοοοοοπ

[1] əl-Kafi, c.2, səh.188 , hədis 1
[2] əl-Kafi, c.2,səh. 199 , hədis 3
[3] əl-Kafi, c.2,səh. 190 , hədis 8
[4] əl-Kafi, c.2,səh.200 , hədis 4

**189**

# İsraf

***929. Həddi aşmaq***

**Qur’an:**

«Ey Adəm övladları! Hər bir məscidə gedəndə öz zinətlərinizi geyinin, yeyin, için və israf etməyin ki, Allah-taala israf edənləri sevməz.» [1]

**Hədis:**

2989. İmam Əli (ə):«Biçarə israfçı! Öz nəfsinin islahından və əldən verdiklərinin yerini doldurmaqdan necə də uzaqdır.»[2]

2990. İmam Əli (ə):«İsraf puçluqdur, orta həddi gözləməksə sərvət gətirər.»[3]

2991. İmam Əli (ə):«Malı nahaq yerə xərcləmək israf və zay etməkdir»[4]

2992. İmam Səccad (ə) (duada): «Ey Allahım! Məni israf etməkdən çəkindir, ruzimi tələf olmaqdan qoru, malıma bərəkət verməklə onu artır və onu xeyir işlərdə xərcləməyin yolunu mənə göstər.»[5]

***930. İsrafçının nişanəsi***

2993. Allahın Peyğəmbəri (s):«İsrafçının dörd nişanəsi var: batil işlərlə öyünər, ona aid olmayan şeyi yeyər, xeyirli işlərə meylsiz olar və ona xeyir verməyən şəxsi inkar edər.»[6]

2994. İshaq ibn Əmmar:«İmam Sadiqdən (ə) soruşdum:«Mö’minin on köynəyi ola bilərmi?» Həzrət buyurdu:«Bəli.» Ərz etdim:«İyirmi köynək necə?» Buyurdu:«Bəli. Bunlar israf deyil. İsraf çöl, bayır və qonaq paltarını ev və əlaltı paltarları etməkdir.»[7]

2995. İmam Əskəri (ə):«Həqiqətən, səxavətin həddi var. Əgər onu aşsalar israf olar.»[8]

***931. İsrafın ən az həddi***

2996. Allahın Peyğəmbəri (s):«Ürəyin istədiyi hər şeyi yemək israfdır.»[9]

---

[1] Ə‘raf, ayə 31
[2] Ğurərul-Hikəm,hədis 10092
[3] Biharul-Ənvar, c.72 , hədis 9
[4] Nəhcül-Bəlağə, xütbə 126
[5] Səhifeyi-Səccadiyyə,səh. 86, dua 20
[6] Tuhəful-Uqul,səh. 22
[7] Biharul-Ənvar, c.79,səh. 317 , hədis 1
[8] əd-Durrətul-Bahirə,səh. 43
[9] Kənzul-Ummal, hədis 7366

2997. İmam Sadiq (ə):«İsrafın ən az həddi qabın dibində qalan suyu, ya yeməyi atmaq, həmçinin bayır paltarını ev və əlaltı paltarına çevirmək və (xurma və meyvələrdəki) çəyirdəyi tullamaqdır.»[1]

***932. İsraf sayılmayan şey***

2998. Allahın Peyğəmbəri (s):«İsrafda bir xeyir gizlənməmişdir və xeyir işlərdə israf yoxdur.»[2]

2999. İmam Sadiq (ə):«Bədəni sağlam saxlayan şeydə israf yoxdur… əslində israf malı tələf edən və bədənə ziyan verən şeylərdir.»[3]

3000. «Biharul-Ənvar»:«İmam Kazimdən (ə) soruşurlar:«On köynəyə sahib olmaq israfdırmı?» Buyurur:«Xeyr. Əksinə, çox köynəyə sahib olmaq köynəklərin ömrünü uzadar. İsraf çöl paltarını çirkli yerə geyməkdir.»[4]

[1] Biharul-Ənvar,c.75,səh. 303 , hədis 7
[2] Biharul-Ənvar,c.77,səh. 165 , hədis 2
[3] Biharul-Ənvar,c.75,səh. 303 , hədis 6
[4] Biharul-Ənvar,c.79,səh. 317 , hədis 1

**190**

# Oğurluq

***933. Oğurluq***

**Qur'an:**

«Oğru kişi və qadının, etdikləri əmələ görə Allah tərəfindən cəza olaraq əllərini kəsin. Allah izzət və hikmət sahibidir.» [1]

**Hədis:**

3001. İmam Rza (ə):«Allah-taala oğurluğu haram etmişdir. Çünki, buna icazə verilsəydi, malların məhvinə və insanların qətlinə səbəb olardı. Belə ki, bir-birinin mallarını qəsb etmək qarşılıqlı kütləvi qətllərə, münaqişələrə və paxıllığa səbəb olur. Eləcə də ticarət və sənayedən uzaqlaşmağa, sərvətlərin haram və nalayiq yollarla əldə edilməsinə gətirib çıxarardı.

Sağ əl bu səbəbdən kəsilir ki, oğru sağ əli ilə əşyalara toxunur. Sağ əl həm də onun bədəninin ən yaxşı və ən çox fayda verən üzvüdür. Buna görə, onun kəsilməsi oğru üçün cəza və başqaları üçün bir ibrət dərsidir ki, haram yolla mallara təcavüz etmək niyyətindən əl çəksinlər. Həm də ona görə ki, oğru daha çox sağ əl ilə oğurluq edir.»[2]

***934. Oğurluğa görə cəzalandırılmayanlar***

3002. Allahın Peyğəmbəri (s):«Oğrunun əli, yalnız dinarın dörddə biri və ondan çox məbləğdə oğurluqda kəsilər.»[3]

3003. İmam Əli (ə):«Bir qızın qulağından zorla mirvari sırğanı oğurlayan kişi barədə buyurdu:«Bu aşkar oğurluqdur.» Sonra şallaq vurub zindana saldı.»[4]

3004. İmam Əli (ə):«Dörd nəfərin əli kəsilməməlidir :qapıb qaçırdan, qənimətə xəyanət edən, qənimətdən oğurlayan və fəhlənin oğurluq etməsi. Çünki bunların işi oğurluq yox, xəyanət sayılır.»[5]

3005. İmam Baqir (ə)və ya İmam Sadiq (ə):« Yalnız divarı deşmək ya qıfılı sındırmaqla evə daxil olan oğrunun əli kəsilər.»[6]

3006. İmam Sadiq (ə):«Əgər fəhlə yaxud qonaq oğurluq etsə, əlləri kəsilməz. Çünki onlara e'timad olunubdur.»[7]

3007. İmam Sadiq (ə):«Qəhətlik və aclıq olan illərdə oğrunun əli kəsilməz.»[8]

3008. İmam Sadiq (ə):«Əgər oğru öz ayağı ilə gəlib oğurluğunu e'tiraf etsə və Allah dərgahına tövbə edib oğurladığı malı sahibinə qaytarsa, əli kəsilməz.»[9]

---

[1] Maidə, ayə 38

[2] Nurus-Səqəleyn, c.1,səh. 627 , hədis 183

[3] Səhihi-Muslim , hədis 1684

[4] əl-Kafi, c.7,səh. 226 , hədis 7

[5] əl-Kafi, c.7,səh. 226 , hədis 6

[6] Vəsailuş-Şiə, c.18,səh. 510 , hədis 5

[7] İləluş-Şəraye,səh. 535 , hədis 1

[8] əl-Kafi, c.7,səh. 231 , hədis 2

[9] Təhzibul-Əhkam, c.10,səh. 122 , hədis 489

## 191

# Xoşbəxtlik

***935. Xoşbəxt***

3009. Allahın Peyğəmbəri (s) (Əmirəl-mömininə (ə) xitabən): «Əsil xoşbəxt, səni sevən və sənə itaət edən şəxsdir.»[1]

3010. İmam Əli (ə):«Xoşbəxt insan Allaha ixlasla itaət edəndir.»[2]

3011. İmam Sadiq (ə):«Alim olmayan xoşbəxt sayılmağa layiq deyil.»[3]

***936. Xoşbəxtlik gətirən amillər***

3012. İmam Əli (ə):«Elminizə əməl edin ki, xoşbəxt olasınız.»[4]

3013. İmam Əli (ə):«Alimlərlə oturub dur ki, xoşbəxt olasan.»[5]

3014. İmam Əli (ə):«Xoşbəxtlik haqqa bağlılıqdadır.»[6]

3015. İmam Əli (ə):«Öz nəfsinin hesabatını aparan xoşbəxt olar.»[7]

3016. İmam Əli (ə):«Kim öz nəfsini islah etmək naminə onu əziyyətə salarsa, xoşbəxt olar. Amma kim öz nəfsini ləzzətlərə tapşırarsa, bədbəxt olar və Allahın dərgahından qovular.»[8]

***937. Xoşbəxtlik sayılan şey***

3017. Allahın Peyğəmbəri (s):«Dörd şey kişinin xoşbəxtliyidir: ləyaqətli yoldaşlar, əməlisaleh övlad, uyğun olan zövcə və iş yerinin öz şəhərində olması.»[9]

3018. İmam Əli (ə):«Qəlbdə kin və paxıllığın olmaması bəndənin xoşbəxtliyidir.»[10]

3019. İmam Əli (ə):«Xeyir işlər görməyə nail olmaq xoşbəxtlikdir.»[11]

***938. Həqiqi xoşbəxtlik***

---

[1] Əmali-Tusi,səh. 426 , hədis 953
[2] Ğurərul-Hikəm,hədis 1293
[3] Tuhəful-Uqul,səh. 364
[4] Ğurərul-Hikəm,hədis 2479
[5] Ğurərul-Hikəm,hədis 4717
[6] Ğurərul-Hikəm,hədis 6489
[7] Ğurərul-Hikəm,hədis 8778
[8] Ğurərul-Hikəm,hədis 8246
[9] Nəvadirur-Ravəndi,səh. 11
[10] Ğurərul-Hikəm,hədis 5803
[11] Ğurərul-Hikəm,hədis 9296

3020. İmam Əli (ə):«Həqiqi xoşbəxtlik insanın işinin xoşbəxtliklə sonuclanmasıdır. Həqiqi bədbəxtlik isə insanın işinin bədbəxtliklə nəticələnməsidir.»[1]

3021. İmam Əli (ə):«Əməllər pak olan Allaha ərz edilən zaman həqiqi xoşbəxt əsl bədbəxtdən ayrılar.»[2]

**939. *Ən xoşbəxt insan***

3022. Allahın Peyğəmbəri (s):«Ən xoşbəxt insan böyük insanlarla yoldaşlıq edəndir.»[3]

3023. İmam Əli (ə):«Ən xoşbəxt insan ötəri ləzzəti, əbədi ləzzətə görə tərk edəndir.»[4]

3024. İmam Əli (ə):«Dünyada ən xoşbəxt insan, özünə ziyan bildiyi şeydən çəkinən və ən bədbəxt insansa öz nəfsinin istəklərinə tabe olandır.»[5]

3025. İmam Əli (ə):«Ən xoşbəxt insan bizim fəzilət və məqamımızı tanıyan, bizim vasitəmizlə Allaha yaxınlaşan, bizə məhəbbətdə səmimi və ixlaslı olan, dediklərimizə əməl edən və qadağan etdiyimizi tərk edəndir. Belə insan bizdəndir və əbədiyyət sarayında (Cənnətdə) bizimlədir.»[6]

3026. İmam Əli (ə):«Ən xoşbəxt insan, hamıdan təqvalı olandır.»[7]

ιooooooπ

---

[1] Məani –Əxbar,səh. 345 , hədis 1
[2] Ğurərul-Hikəm,hədis 6223
[3] Biharul-Ənvar,c.74,səh. 185 , hədis 2
[4] Ğurərul-Hikəm,hədis 3218
[5] Vaqiətus-Siffeyn,səh. 108
[6] Ğurərul-Hikəm,hədis 3297
[7] Ğurərul-Hikəm,hədis 3100

**192**

# Səfər

**940. Səfər**

3027. Allahın Peyğəmbəri (s):«Səfərə çıxın ki, sağlam qalasınız və qənimət əldə edəsiniz.»[1]

3028. Allahın Peyğəmbəri (s):«Səfər əzabın bir hissəsidir. Sizlərdən biriniz səfəri başa vuran kimi, tezliklə öz ailəsinin yanına qayıtsın.»[2]

3029. İmam Əli (ə):«Səfərdən qabaq öz yol yoldaşınla maraqlan və ev almamışdan qabaq bax gör, qonşun kimdir.»[3]

***941. Səfərin qaydası***

3030. Allahın Peyğəmbəri (s):«Üç nəfər həmsəfər olduqda, öz aralarından bir nəfəri başçı seçsinlər.»[4]

3031. Allahın Peyğəmbəri (s):«İnsanların başçısı səfərdə onlara xidmət edəndir.»[5]

3032. Allahın Peyğəmbəri (s):«Sizlərdən biriniz səfərdən qayıdanda bir daş parçası da olsa öz ailəsi üçün hədiyyə və töhfə gətirsin.»[6]

3033. İmam Əli (ə):«Sən ona qarşı münasibətdə, onu özündən üstün bildiyin kimi, o da səni özündən üstün bilməyən şəxslə səfərə çıxma.»[7]

3034. İmam Sadiq (ə):«Öz səfərini sədəqə verməklə başla və istədiyin vaxt yola düş. Çünki sədəqə verməklə səfərin salamatlığını alarsan.»[8]

3035. İmam Sadiq (ə):«Loğman öz oğluna dedi:«Bir neçə nəfərlə həmsəfər olanda özünə və onlara aid olan işlərdə yol yoldaşlarınla məşvərət et, onlarla gülərüz ol, ehtiyat üçün götürdüyün azuqəndən onlara əliaçıqlıq et. Səni də‘vət etsələr qəbul et. Üç şeydə onlardan üstün ol: susmaqda, çox namaz qılmaqda və öz minik, və ya sərvət və yaxud götürdüyün azuqədə səxavətlilikdə.»[9]

3036. İmam Sadiq (ə):«Səfərdə mərdlik aşağıdakılardan ibarətdir: yol azuqəndən yoldaşlarına bəxşiş etmək, Allahı qəzəbə gətirməyən zarafat etmək,

---

[1] Kənzul-Ummal, hədis 17470
[2] Biharul-Ənvar,c.76,səh. 222 , hədis7
[3] Nəhcül-Bəlağə, məktub 31
[4] Kənzul-Ummal, hədis 17550
[5] Məkarimul-Əxlaq, c.1,səh. 536 , hədis 1866
[6] Biharul-Ənvar,c.76,səh. 283 , hədis 2
[7] Biharul-Ənvar,c.76,səh. 267 , hədis 8
[8] Biharul-Ənvar,c.100,səh. 103 , hədis 5
[9] Biharul-Ənvar,c.76,səh. 271 , hədis 28

həmsəfərlərə az müxalifdə olub, az narazılıq etmək və onlardan ayrıldıqdan sonra onları pis sözlərlə yad etməmək.»[1]

***942. Qadağan olunmuş səfərlər***

3037. İmam Əli (ə):«İnsan öz dininə və namazına ziyan dəyəcəyindən qorxduğu səfərə çıxmamalıdır.»[2]

3038. İmam Sadiq (ə) (Məhəmməd ibn Muslimin səfərdə cünub olan və qüsl almaq üçün qardan və buzdan başqa bir şey tapmayan şəxsin hökmü barədə sualına cavabından): «Belə vəziyyətdə zərurət halı vardır. O, bir daha dininə ziyan vuran məkana çıxmamalıdır.»[3]

***923. Gəzmək***

3039. İmam Sadiq (ə) İmamın qardaşı Abdullah ibn Muhəmmədin (ə) mənzilində o Həzrətin (ə) yanına gəlib «Sizə fəda olum. Buraya nə məqsədlə gəlmisiniz?» deyə soruşan Əmr ibn Hureysə cavabında buyurdu:«Gəzmək üçün.»[4]

3040. İmam Rza (ə):«Bir gün xudmani bir gəzintiyə çıxmışdıq. Amma xidmətçilərdən biri duz götürməyi yaddan çıxarmışdı. Buna görə, bizim üçün kəsdikləri kök qoyundan heç nə yeməyib geri qayıtdıq.»[5]

ιoooooπ

---

[1] Əmali-Mufid,səh. 44 , hədis 3
[2] Biharul-Ənvar,c.10,səh. 108 , hədis 1
[3] Biharul-Ənvar,c.76,səh. 222 , hədis 9
[4] Əl-Məhasin, c.2,səh. 261 , hədis 2595
[5] əl-Kafi, c.2,səh. 326 , hədis 7

**193**

# Su içirtmək

***944. Su içirtmək***

3041. Allahın Peyğəmbəri (s):«Kişinin öz arvadına su içirtməyinin savabı var.»[1]

3042. Allahın Peyğəmbəri (s):«Günahların çoxalanda, dalbadal təşnələrə su ver.»[2]

3043. İmam Səccad (ə):«Kim susamış möminə su versə, Allah-taala ona möhürlənmiş Cənnət şərabından içirdər.»[3]

3044. İmam Baqir (ə):«Kim təşnəyə bir ağız su içirtsə, Allah-taala ona möhürlənmiş Cənnət şərabından içirdər.»[4]

3045. İmam Baqir (ə):«Qiyamət günü hər şeydən əvvəl hesabatı aparılan şey təşnəyə su verməyin sədəqəsinin savabı olacaqdır.»[5]

3046. İmam Sadiq (ə):«Ən yaxşı sədəqə yanan ciyəri sərinlətməkdir. Kim bir heyvanın, ya ondan qeyrisinin yanğılı ciyərini sərinlədərsə, Allah-taala Onun kölgəsindən başqa bir kölgənin olmayacağı gün onun üzərinə kölgə salar.»[6]

***945. Su verənə layiq olan cəhət***

3047. Allahın Peyğəmbəri (s):«Camaata su verənin özü hamıdan axırda su içməlidir.»[7]

ιooooooπ

---

[1] Kənzul-Ummal, hədis 16380
[2] Kənzul-Ummal, hədis 16377
[3] əl-Kafi, c.2,səh. 201 , hədis 5
[4] Biharul-Ənvar,c.96,səh. 172 , hədis 8
[5] Biharul-Ənvar,c.96,səh. 173 , hədis 13
[6] Biharul-Ənvar,c.96,səh. 172 , hədis 8
[7] Biharul-Ənvar,c. 75, səh. 172 , hədis 24

194

# Məstlik

***946. Hər məstedici haramdır***

3048. Allahın Peyğəmbəri (s):«Hər bir məstedici haramdır.»[1]

3049. İmam Baqir (ə):«Çoxu məstlik gətirən hər şeyin azı da haramdır.»[2]

***947. Məstedicilərin növləri***

3050. Allahın Peyğəmbəri (s):«Ey Məsudun oğlu! Günahın məstliyindən çəkin. Çünki günahın məstliyi şərabın məstliyi kimi, əslində ondan da şiddətlidir. Allah-taala buyurur:«Kar, lal və kordurlar. Buna görə, onlar qayıtmayacaqlar[3].»[4]

3051. İmam Əli (ə):«Məstlik dörd növdür: şərabın məstliyi, var-dövlətin məstliyi, yuxunun məstliyi və hakimiyyətin məstliyi.»[5]

3052. İmam Əli (ə):«Aqil insan var-dövlətin, qüdrətin tərifin, və gəncliyin məstliyindən çəkinməyə layiqdir. Çünki bu məstliklərin hər birinin əqli zəiflədən və vüqarı aparan çirkin külələri var.»[6]

3053. İmam Əli (ə):«Qəflət və qürurun məstliyi başdan, şərabın məstliyindən geç çəkilib gedər.»[7]

ıooooooπ

[1] əl-Kafi, c.6, səh.409 , hədis 9
[2]Biharul-Ənvar,c.79, səh.131 , hədis 20
[3] Bəqərə, ayə18
[4] Məkarimul-Əxlaq, c.2, səh.352 , hədis 266
[5] Biharul-Ənvar,c.10, səh.114 , hədis 1
[6] Ğurərul-Hikəm,hədis 10948
[7] Ğurərul-Hikəm,hədis 5651

**195**

# Yaşayış yeri

***948. Yaşayış yerinin genişliyi***

3054. Allahın Peyğəmbəri (s):«Müsəlmanın xoşbəxtliyindən biri də geniş yaşayış yerinin olmasıdır.»[1]

3055. İmam Baqir (ə):«Yaşayışın dərdlərindən biri də mənzilin darlığıdır.»[2]

***949. Ehtiyacdan artıq tikməkdən çəkindirmək***

3056. İmam Əli (ə):«Əziyyətlərdən biri də insanın yığdığı malı yeməməsi və tikdiyi binada yaşamamasıdır. Sonra da Allah-taalanın yanına maldan və binadan məhrum olduğu halda köçəcəkdir.»[3]

3057. İmam Sadiq (ə):«Ehtiyacdan artıq olan böyük bina Qiyamət günü sahibinin boynuna yük olacaqdır.»[4]

3058. İmam Sadiq (ə):«Yaşayış ehtiyacından artıq bina tikən şəxs Qiyamət günü onu daşımağa məcbur olacaq.»[5]

***950. Evin satılması***

3059. Allahın Peyğəmbəri (s):«Kim bir ev satıb puluna onu kimisini almasa, malı bərəkət tapmayacaq.»[6]

3060. Allahın Peyğəmbəri (s):«Sizlərdən biriniz bir mənzil, ya mülk satanda, bilsin ki, onu kimisini almasa, onun pulu bərəkətə layiq deyil.»[7]

ιooooooπ

---

[1] əl-Kafi, c.6, səh.526 , hədis 7
[2] əl-Kafi, c.6, səh.526 , hədis 6
[3] Nəhcül-Bəlağə, xütbə 114
[4] əl-Kafi, c.6, səh.531 , hədis 7
[5] Əl-Məhasin, c.2, səh. 446 , hədis 2531
[6] Kənzul-Ummal, hədis 5440
[7] Kənzul-Ummal,hədis 5441

**196**

# Silah

***951. Silah düzəltməyin mukafatı***

3061. Allahın Peyğəmbəri (s):«Allah-taala bir döyüş oxuna görə 3 nəfəri Cənnətə aparacaq: onu xeyir niyyətlə düzəldəni, onu atanı və bu oxu onun ixtiyarına verəni.»[1]

***952. Silah və xeyir***

**Qur‘an:**

«Kafirlər sizin öz silahlarınızdan qafil olmadığınızı istəyirlər.»[2]

**Hədis:**

3062. Allahın Peyğəmbəri (s):«Xeyirlərin hamısı qılıncda və qılıncın kölgəsi altındadır. İnsanları qılıncdan qeyri bir şey islah etməz. Qılınclar Cənnət və Cəhənnəmin açarlarıdır.»[3]

3063. Allahın Peyğəmbəri (s):«Cənnət qılıncların kölgəsi altındadır.»[4]

3064. İmam Sadiq (ə):«Allah-taala öz Rəsuluna on il İslamı insanlara dil ilə təbliğ etməyi əmr etdi. Amma onlar bu dini qəbul etməkdən boyun qaçırdılar. Nəhayət, ona müharibə fərmanını verdi. Buna əsasən, xeyir qılıncda və qılıncın kölgəsindədir. Əvvəldə belə olduğu kimi, yenidən bir daha belə olacaq.»[5]

***953. Din düşmənlərinə silah satmağın qadağan olması***

3065. Allahın Peyğəmbəri (s) (Əliyə (ə) tövsiyyəsindən): «Ey Əli! Bu ümmətdən 10 nəfər böyük Allaha qarşı küfr edəndir: ……. hərb əhli (müsəlmanlarla muharibə edən düşmənlərə) silah satan şəxs.»[6]

ιooooooπ

---

[1] Sunəni əbi Davud,səh. 2513

[2] Nisa, ayə102

[3] Biharul-Ənvar,c.100,səh. 9 , hədis 10

[4] Kənzul-Ummal, hədis 10482

[5] əl-Kafi, c.5, səh.8 , hədis 7

[6] Mən la Yəhzuruhul-Fəqih, c.4, səh.356 , hədis 5762

## 197

# Sultan

3066. Allahın Peyğəmbəri (s):«Sultanın xidmətində durmaqdan ehtiyatlı ol ki, bu iş dini aradan aparar. Ona köməklik göstərməyə ehtiyat et. Çünki onun işlərini bəyənməyəcəksiniz.»[1]

3068. Allahın Peyğəmbəri (s):«Kim Sultana xidmət etmək yolunu seçərsə fitnə və azğınlığa düçar olar. Kim sultana daha çox yaxınlaşsa, Allahdan daha uzaq olar.»[2]

3068. Allahın Peyğəmbəri (s):«Sultanın dərgahından və ətrafından uzaq ol. Çünki sizlərdən sultan dərgahına və ətrafına ən yaxın olanınız Allahdan ən uzaq olanınızdır. Kim sultanı Allahdan üstün bilsə, Allah-taala təqvanı ondan götürər, onu çaşqın və məəttəl edər.»[3]

3069. İmam Əli (ə):«Sultanın yaxını və sirdaşı olmaq şiri minmiş şəxs kimidir. İnsanlar onun məqamına qibtə etsələr də, özü neçə təhlükəli vəziyyətdə olduğunu daha yaxşı bilir.»[4]

3070. İmam Əli (ə):«Sultandan uzaq ol ki, onun hiylə və məkrlərindən amanda qalasan.»[5]

***955. Sultanın qarşısında baş əymək***

3071. Allahın Peyğəmbəri (s):«Kim öz ehtiyacına görə zalım sultanın qarşısında özünü alçaltsa, Cəhənnəm atəşində onunla birlikdə olar.»[6]

3072. Allahın Peyğəmbəri (s):«Kim bir şeyə tamahlanaraq zalım sultanı tərifləsə və özünü onun qarşısında xar və yüngül tutsa, Cəhənnəmdə ona yoldaş olar.»[7]

3073. İmam Sadiq (ə):«Əgər mömin bir qüdrət sahibinin, və ya onun dininə müxalif olan şəxsin qarşısında onun dünya malından bir şey əldə etmək niyyəti ilə baş əyib qulluğunda dayanarsa, Allah-taala onun ad-sanını yox edər. Bu işə görə ona qəzəblənər və özbaşına buraxar. Əgər onun dünya malından bir şey əldə edərsə, Allah-taala o maldan bərəkəti götürər.»[8]

---

[1] Biharul-Ənvar,c.10, səh.368 , hədis 7
[2] Biharul-Ənvar,c.75, səh.371 , hədis 13
[3] Biharul-Ənvar,c.75, səh.372 , hədis 19
[4] Nəhcül-Bəlağə, hikmət 263
[5] Biharul-Ənvar,c.77, səh.215 , hədis 1
[6] Biharul-Ənvar,c.76, səh.360 , hədis 30
[7] Əmali-Səduq, səh.347 , hədis 1
[8] Biharul-Ənvar,c.75, səh.371 , hədis 15

***956. Ədalətli sultanın fəziləti***

3074. Allahın Peyğəmbəri (s):«Təvazökar, ədalətli sultan yer üzündə Allahın kölgəsi və Onun nizəsidir.»[1]

3075. İmam Əli (ə):«Rəhbərlər yer üzündə Allahın hökmlərini qoruyanlardır.»[2]

3076. İmam Əli (ə):«Həqiqətən, Allahın sultanı (haqq dinin hakimiyyəti və rəhbərliyi) sizin işlərinizin qorunmasının və sahmana düşməsinin səbəbkarıdır. Buna görə, vaxt itirmədən öz meyliniz və ixtiyarınızla ona itaət edin. Allaha And olsun, ya siz bu işi edəcəksiniz, ya da Allah-taala İslam sultanını (islamın haqq hökumətini) sizin əlinizdən alıb, bir daha heç vaxt sizə nəsib etməyəcək və hakimiyyət sizdən qeyrisinə tapşırılacaqdır.»[3]

ιοοοοοοπ

---

[1] Kənzul-Ummal, hədis 14589
[2] Nəhcül-Bəlağə, hikmət 332
[3] Nəhcül-Bəlağə, xütbə 169

**198**

# İslam

***957. İslam***

**Qur‘an:**

«Həqiqətən, Allahın yanında yeganə din İslamdır.» [1]

«Kim İslamdan qeyri bir dini seçərsə, heç vaxt ondan qəbul edilməyəcək və axirətdə xəsarətə uğrayanlardan olacaqdır.»[2]

**Hədis:**

3077. Allahın Peyğəmbəri (s):«İslam üstün olaraq qalacaq və heç bir şey ondan üstün olmayacaq.»[3]

3078. Allahın Peyğəmbəri (s):«Kimin İslamı gözəl və həqiqi olarsa, öz cahiliyyət dövründə etdiyi əməllərə görə sorğu-suala çəkilməyəcək. Kimin İslamı pis, çirkin olarsa, etdiyi və edəcəyi əməllərə görə hesabatı aparılacaq.»[4]

3079. İmam Əli (ə):«İslamdan böyük şərəf yoxdur.»[5]

3080. İmam Əli (ə):«Həqiqətən, bu İslam Allah-taalanın özü üçün seçdiyi dindir. Öz nəzarəti altında tərbiyə etdiyi yaradılmışların ən yaxşısına onu təbliğ etməyi əmr etdi. Onun sütunlarını Öz məhəbbəti üzərində qurdu. Onun izzətilə digər dinləri xar etdi və onu ucaltmaqla başqa məzhəbləri aşağı endirdi.»[6]

3081. İmam Əli (ə) (İslamı vəsf edərkən): «İslam ən işıqlı yol, ən aşkar keçiddir. Onun yol nişanələri uca, baş yolu parlaq, çıraqları işıqlı və nur saçandır.»[7]

***958. Müsəlman kimdir?***

3082. Allahın Peyğəmbəri (s):«Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz və nalayiq sözlər deməz.»[8]

3083. Allahın Peyğəmbəri (s):«Müsəlman müsəlmanın qardaşıdır, ona xəyanət etməz, yalan söyləməz və onu tək, köməksiz qoymaz.»[9]

---

[1] Ali-İmran, ayə19
[2] Ali-İmran, ayə85
[3] Mən la Yəhzuruhul-Fəqih, c.4, səh.334 , hədis 5719
[4] əl-Kafi, c.2, səh.261 , hədis 2
[5] Nəhcül-Bəlağə, hikmət 371
[6] Nəhcül-Bəlağə, xütbə 198
[7] Nəhcül-Bəlağə, xütbə 106
[8] Kənzul-Ummal, hədis 745
[9] Kənzul-Ummal, hədis 747

3084. Allahın Peyğəmbəri (s):«Müsəlman müsəlmanın güzgüsüdür.»[1]

3085. İmam Sadiq (ə):«Müsəlman odur ki, insanlar onun əlindən və dilindən arxayın olsunlar. Mömin odur ki, insanlar öz mallarında və canlarında onu əmin bilsinlər.»[2]

### *959. İslamın dayaqları*

3086. Allahın Peyğəmbəri (s):«İslam çılpaqdır. onun libası həya, zinəti vəfa, mərdliyi xeyir və ləyaqətli əməl, sütunu «vərə»dir (günahlardan çəkinmək). Hər şeyin dayağı var, İslamın dayağı da biz – Əhli-Beytə (ə) məhəbbətdir.»[3]

3087. Allahın Peyğəmbəri (s):«İslamın dayağı mənə və mənim Əhli-Beytimə (ə) məhəbbətdir.»[4]

3088. İmam Əli (ə):«İslamın yeddi dayağı var: onlardan birincisi əqldir və səbr onun üzərində qurulubdur. İkinci dayaq abrı saxlamaq və doğru danışmaqdır. Üçüncü dayaq Qur'an oxumaqdır (lazımi qaydada və peyğəmbərə nazil olduğu kimi). Dördüncü dayaq Allaha xatir dostluq və düşmənçilik etmək, beşincisi Ali Məhəmmədin haqqı və onların vilayətini tanımaqdır. Altıncı dayaq (din) qardaşlarının haqqı, onların himayəsi və müdafiəsidir. Yeddinci dayaq insanlarla gözəl qonşuluq etməkdir.»[5]

3089. İmam Baqir (ə):«İslam 5 sütun üzərində qurulubdur: namaz qılmaq, zəkat vermək, Ramazan ayının orucunu tutmaq, Allahın evi olan Kəbənin həcc ziyarəti və biz Əhli-Beytin(s) vilayəti.»[6]

3090· İmam Rza (ə):«İmamət İslamın artan kökü və uca şaxəsidir.»[7]

### *960. İslamın mənası*

3091. Allahın Peyğəmbəri (s):«İslam qəlbini təslim etməyin və müsəlmanların sənin əlindən, dilindən rahatlıqda və amanda olmasıdır.»[8]

3092. Allahın Peyğəmbəri (s):«Gününü başlayan və müsəlmanların işlərindən ötrü çalışmayan şəxs müsəlman deyil.»[9]

3093. İmam Əli (ə):«İslam elə təslim olmaq, təslim elə əminlik, əminlik elə təsdiq, təsdiqin özü e'tiraf, e'tiraf elə icra və icra elə əməldir.»[10]

3094. İmam Əli (ə):«Xəyanətdən uzaqlaşın. Çünki xəyanət İslamdan uzaqdır.»[11]

3095. İmam Əli (ə):«Müsəlmanın əleyhinə kömək edən şəxs İslamdan uzaqdır.»[1]

---

[1] Kənzul-Ummal, hədis 742
[2] Məanil-Əxbar, səh.239 , hədis 1
[3] əl-Məhasin, c.1, səh.445 , hədis 1031
[4] Kənzul-Ummal, hədis 37631
[5] Tuhəful-Uqul, səh.136
[6] Əmali-Mufid, səh.353 , hədis 4
[7] əl-Kafi, c.1, səh.200 , hədis 1
[8] Kənzul-Ummal, hədis 17
[9] əl-Kafi, c.2, səh.163 , hədis 1
[10] Nəhcül-Bəlağə, hikmət 125
[11] Ğurərul-Hikəm,hədis 4742

3096. İmam Sadiq (ə) (O Həzrətdən suallar soruşan və cavab aldıqdan sonra «Allaha and olsun, İslama gəldim» deyən Şam əhlindən bir nəfərə xitabından): «Xeyr. Əksinə, indi Allaha iman gətirdin. İslam imandan qabaqdır. İslamın vasitəsilə bir-birindən irs aparar, bir-biri ilə evlənərlər. Amma imanın vasitəsilə savab və mukafat qazanarlar.»[2]

3097. İmam Sadiq (ə):«İslamın vasitəsilə insanların qanı qorunur, əmanət sahibinə çatdırılır, evlənmək halal olur, ancaq savab imanın müqabilində verilir.»[3]

ιooooooπ

---

[1] Ğurərul-Hikəm,hədis 9220
[2] əl-Kafi, c.1, səh.173 , hədis 4
[3] əl-Kafi, c.2, səh.25 , hədis 6

**199**

# Salam vermək

***961. Müsəlmanların görüşməyi***

**Qur'an:**

«Orada belə dua edərlər:«Allahım, Sən uca və paksan. Görüşən zaman «salam» deyərlər. Dualarının axırı isə budur:Şükr olsun, aləmlərin Rəbbi olan Allaha.»[1]

**Hədis:**

3098. Allahın Peyğəmbəri (s):«Salam vermək bizim dinin rəhmət və mehribanlıq nişanəsi, dövrümüzün əmin-amanlığı və pənahımızdır.»[2]

3099. Allahın Peyğəmbəri (s):«Ən xəsis insan, salam verməkdə xəsislik edəndir.»[3]

3100. Allahın Peyğəmbəri (s):«Salama rəvac ver ki, evinin xeyir-bərəkəti artsın.»[4]

3101. İmam Baqir (ə):«Allah-taala insanları yedirtməyi və salama rəvac verməyi sevər.»[5]

3102. İmam Sadiq (ə):«Salam sözdən qabaqdır.»[6]

3103. İmam Sadiq (ə) (öz ata babalarından nəql edir): «Allahın Rəsulu (s) buyurmuşdur:«Kim salam verməmiş sözə başlasa, ona cavab verməyin.» Eləcə də buyurmuşdur: «Heç kəsi salam verməyincə yeməyinə də'vət etmə.»[7]

***962. Salamda qabaqlamaq***

3104. Allahın Peyğəmbəri (s):«Allaha və Onun Rəsuluna (s) ən yaxın olan insan birinci salam verəndir.»[8]

3105. Allahın Peyğəmbəri (s) :«Birinci salam verən təkəbbürdən uzaqdır.»[9]

3106. İmam Əli (ə):«Salamın 70 savabı var: altmış doqquzu salam verənə, biri də salam alana çatar.»[10]

---

[1] Yunis, ayə 10
[2] Kənzul-Ummal, hədis 25242
[3] Əmali-Tusi, səh.89 , hədis 136
[4] əl-Xisal, səh.181 , hədis 246
[5] əl-Məhasin, c.2, səh.143 , hədis 1371
[6] Camiul-Əxbar, səh.231 , hədis 596
[7] əl-Xisal, səh.19 , hədis 67
[8] Biharul-Ənvar,c.76, səh.12 , hədis 50
[9] Kənzul-Ummal, hədis 25265
[10] Biharul-Ənvar,c.76, səh.11 , hədis 46

### *963. Evə daxil olanda salam vermək*

**Qur‘an:**

«Evə daxil olanda özünüzə salam verin ki, bu Allah tərəfindən mübarək və pak salamlamadır.»[1]

**Hədis:**

3107. Allahın Peyğəmbəri (s):«Sizlərdən biriniz evə daxil olan zaman salam versin. Çünki salam həmin evə bərəkət endirir və mələklər o evlə ünsiyyətə girir.»[2]

### *964. Salamın cavabı vacibdir*

**Qur‘an:**

«Sizə salam verildiyi zaman ondan daha yaxşı, ya onun kimi salamla cavab verin ki, Allah-taala hər şeyi hesaba alandır.» [3]

**Hədis:**

3108. Allahın Peyğəmbəri (s):«Salam vermək müstəhəbdir, salamı almaq isə vacib.»[4]

### *965. Salam verməyin qaydası*

3109. Allahın Peyğəmbəri (s):«Kiçik böyüyə salam versin, bir nəfər iki nəfərə, sayları az olanlar sayları çox olanlara, yol gedən dayanana, ayaq üstə duran oturana salam versin.»[5]

3110. Allahın Peyğəmbəri (s):«Beş şeyi hələ ki, sağam tərk etməyəcəm:… uşaqlara salam verməyi, məndən sonra sünnə olsun deyə.»[6]

3111. İmam Baqir (ə):«Nə yəhudiyə salam verin, nə də xaçpərəstə. Nə məcusiyə, nə bütpərəstə, nə süfrə başında şərab içənlərə, nə şahmat və nərd oynayanlara, nə özünü qadın surətinə salan kişiyə, nə isмətli qadına böhtan deyən şairə və nə də namaz qılana (namaz vaxtı) salam verməyin. Çünki namaz qılan salamın cavabını verə bilmir, halbuki müsəlmana salam vermək müstəhəbbdir, salamı almaq isə vacib. Nə sələm yeyənə salam verin, nə ayaq yolunda olana, nə hamamda olana, nə açıq-aşkar günah və fisq edən fasiqə salam verməyin.»[7]

3112. İmam Sadiq (ə) :«Allahın Rəsulu (s) qadınlara salam verərdi. Onlar da Həzrətin salamının cavabını alardılar. Əmir-əl-mö’minin(ə) də həmçinin qadınlara salam verərdi. Amma cavan qadınlara salam verməkdən xoşu gəlməzdi və buyurardı:«Qorxurdum ki, səsləri mənim xoşuma gəlsin, nəticədə savab və əcr (mükafat) qazanmaq əvəzinə günaha batım.»[8]

---

[1] Nur, ayə 61
[2] Biharul-Ənvar,c.76, səh.7 , hədis 25
[3] Nisa, ayə 86.
[4] Kənzul-Ummal, hədis 25294
[5] Kənzul-Ummal, hədis 25321
[6] Biharul-Ənvar,c.76, səh.10 , hədis 38
[7] Biharul-Ənvar,c.76, səh.9 , hədis 35
[8] əl-Kafi, c.5, səh.535 , hədis 3

# 200

# Təslim olmaq

***966. Təslim olmaq***

**Qur‘an:**

«Belə deyil, Rəbbinə And olsun, onlar öz aralarında olan ixtilaflarda səni hakim təyin etməyincə və sənin verdiyin hökmə heç bir narazılıq etmədən, birbaşa ona təslim olmayınca, iman gətirməzlər.» [1]

**Hədis:**

3113. «Biharul-Ənvar»: «Allah-taala Davuda(s) vəhy etdi:«Sən istəyirsən və Mən də istəyirəm, amma yalnız Mən istədiyim baş verəcək. Beləliklə, əgər mənim istədiyimə təslim olsan, sənin də istəyini təmin edərəm. Amma Mənim istəyimə təslim olmasan, səni öz istəyinin yolunda əziyyətlərə, zəhmətlərə salacam və o zaman yenə də Mən istədiyim baş verəcək.»[2]

3114. İmam Baqir (ə):«Yaradılmışların arasında Allahın qəzavü -qədərinə və əmrinə təslim olmağa ən ləyaqətli insan, Allahı tanıyandır.»[3]

3115. İmam Baqir (ə):«Biz sevdiyimiz şəxslərə nisbət salamatçılıqda olmaq (və onlara heç bir əziyyətin olmamasının) istəyirik. Ancaq, Allahın əmri gəldikdə, Onun istədiyinə təslim olarıq.»[4]

3116. İmam Sadiq (ə): («Bir şəxsin mö’min olduğu nədən bilinər?» suala cavabından): «Onun Allah qarşısında təslim olmasından və Ona yetişən hər xoşluğa və çətinliyə razı olmasından.»[5]

3117. İmam Sadiq (ə):«Allahın Rəsulu (s) heç vaxt keçmişdə olmuş iş barədə «kaş başqa cür olaydı» deməzdi.»[6]

3118. İmam Sadiq (ə):«Bəndə «Maşaallah, la haulə va lə quvvətə illa billah» deyən zaman Allah-taala buyurar:«Ey mənim mələklərim! Bəndəm təslim oldu. Ona kömək edin, onu xilas edin və ehtiyacını ödəyin.»[7]

---

[1] Nisa, ayə65
[2] Biharul-Ənvar,c.82, səh. 136 , hədis 22
[3] Biharul-Ənvar,c.71, səh. 153 , hədis 63
[4] Biharul-Ənvar,c.46, səh.301 , hədis 44
[5] Biharul-Ənvar,c.2, səh.205 , hədis 91
[6] Tənbihul-Xəvatir, c.2,səh. 185
[7] Biharul-Ənvar,c.93, səh. 190 , hədis 25

201

# Qulaq asmaq

***967. Eşidən qulaqların dəyəri***

3119. İmam Əli (ə):«Əgər danışan alim deyilsənsə, qulaq asıb eşidənlərdən ol.»[1]

3120. İmam Əli (ə):«Bilin ki, ən yaxşı eşidən qulaq, öyüd-nəsihəti eşidən və qəbul edəndir.»[2]

***968. Söz eşitməyən qulaq***

**Qur'an:**

«Və dedilər:«Əgər eşitsəydik ya düşünsəydik Cəhənnəm əhlindən olmazdıq.»[3]

**Hədis:**

3121. İmam Əli (ə):«Hər qəlbi olan ağıllı, hər qulağı olan eşidən və hər gözü olan görən olmaz.»[4]

***969. Yaxşı eşitmək***

3122. İmam Əli (ə) :«Öz qulağına yaxşı eşitməyi adət etdir və sənin islah olmağına, paklığına bir şey artırmayan sözlərə qulaq asma.»[5]

3123. İmam Əli (ə):«Allahı xatırlayanı eşidənin özü Allahı yad edəndir.»[6]

3124. İmam Əli (ə):«Kim yaxşı qulaq assa, tez faydalanar.»[7]

**970. Qulağın vəzifələri**

**Qur'an:**

«Bilmədiyin şeyin ardınca getmə. Çünki qulaqdan, gözdən, ürəkdən (bunların) hamısından soruşulacaqdır.» [8]

**Hədis:**

3125. İmam Əli (ə):«(Allah-taala) Qulağa onunla haram eşitməməyini vacib etdi.»[9]

---

[1] Ğurərul-Hikəm,hədis 4090
[2] Nəhcül-Bəlağə, xütbə 105
[3] Mülk, ayə 10
[4] Nəhcül-Bəlağə, hikmət 88
[5] Ğurərul-Hikəm,hədis 6234
[6] Ğurərul-Hikəm,hədis 5579
[7] Ğurərul-Hikəm,hədis 9243
[8] İsra, ayə 36
[9] Nurus-Səqəleyn, c.1,səh. 564, hədis 628

**202**

# Ad

***971. Gözəl adlar seçmək***

3126. Allahın Peyğəmbəri (s):«Özünüzə gözəl adlar qoyun, çünki Qiyamət günü bu adlarla çağrılacaqsınız: Filankəs oğlu filan kəs! Qalx öz nuruna tərəf get. Filankəs oğlu filankəs, qalx, sənin nurun yoxdur.»[1]

3127. Allahın Peyğəmbəri (s):«Övladlarınıza peyğəmbərlərin adlarını qoyun.[2]

3128. İmam Sadiq (ə) («Övladlarımıza imamların adlarını qoymağın bir faydası varmı?» deyə soruşulduqda): «Bəli, Allah haqqı var. Məgər din məhəbbətdən qeyri bir şeydirmi? Allah-taala buyurmuşdur:«Əgər Allahı sevirsinizsə Mənə tabe olun ki, Allah sizi sevsin və günahlarınızı bağışlasın.»[3]

3129. İmam Kazim (ə):«Kişinin öz övladına verdiyi ilk bəxşiş və ehsan onun üçün gözəl ad seçməyidir. Beləliklə, övladlarınıza gözəl adlar seçin.»[4]

***972. Pis adların dəyişdirilməsi.***

3130. İmam Baqir (ə) :«Allahın Rəsulu (s) kişilərin və şəhərlərin pis adlarını dəyişdirərdi.»[5]

---

[1] əl-Kafi, c.6,səh. 19, hədis 10
[2] Məkarimul-Əxlaq, c.1,səh. 474, hədis 1626
[3] Təfsirul-Əyyaşi, c.1,səh. 168, hədis 28
[4] əl-Kafi, c.6, səh.18, hədis 3
[5] Biharul-Ənvar,səh. 104, hədis 4

**203**

# Allahın adları

***973. Bismillahir rəhmanir rəhim***

**Qur'an:**

«O məktub Süleymanın tərəfindəndir və bağışlayan, mehriban Allahın adı ilə başlayır.»[1]

**Hədis:**

3131. Allahın Peyğəmbəri (s):«Bismillahir rəhmanir rəhim hər bir yazının başlığıdır.»[2]

3132. Allahın Peyğəmbəri (s):«Bismillahir rəhmanir rəhimlə başlanmayan hər mühüm işin axırı yoxdur.»[3]

3133. İmam Sadiq (ə):«Bismillahir rəhmanir rəhim deməyi tərk etmə, hətta ondan sonra şe'r gəlsə də.»[4]

3134. İmam Sadiq (ə):«Bə'zən bizim şiələrdən biri öz işini Bismillahir rəhmanir rəhimlə başlamır, buna görə də Allah-taala onu çətinliklərə və xoşagəlməz vəziyyətlərə düçar edir ki, ona Allaha şükrü və sitayiş etməyi başa salsın.»[5]

***974. Allahın İsmi Əzəmi***

3135. İmam Baqir (ə):«Allahın İsmi Əzəmi yetmiş üç hərfdir, Asəf (Bərxiya) onun bir hərfini bilirdi. Asəf o hərfi dilinə gətirdi, onunla İbilqeysin taxtı arasında nə var idisə hamısı yerin bətininə batdı və Asəf əlini uzadıb, taxtı götürdü. Sonra yer öz əvvəlki halına qayıtdı və bunların hamısı bir göz qırpımında baş verdi. İsmi Əzəmin yetmiş iki hərfi biz (Əhli-Beytin) yanındadır və bir hərfi Allah təbarəkə-taalanın yanındadır. Onu Özünün qeyb elminə məxsus edibdir.»[6]

---

1 Nəml, ayə 30
2 Kənzul-Ummal,hədis 2490
3 Kənzul-Ummal, hədis 2491
4 əl-Kafi, c.2,səh. 672, hədis 1
5 Nurus-Səqəleyn, c.1,səh.113, səh. 5, hədis 20
6 Biharul-Ənvar, c.14,hədis 113, hədis 5

ιooooooπ

204

# Sünnə

***975. Sünnəyə sadiq qalmağa həvəsləndirmək***

3136. Allahın Peyğəmbəri (s):«Sünnəyə sadiq olan şəxs yaxşı əməl edərsə əməli qəbul olar, səhv edərsə, bağışlanar.[1]

3137. İmam Səccad (ə):«Allahın yanında ən yaxşı iş, miqdarı az olsa belə, sünnəyə uyğun görülən işdir.»[2]

***976. Sünnə qoyan şəxsin mükafatı***

3138. Allahın Peyğəmbəri (s):«Kim öz ölümündən sonra da əməl olunan gözəl bir sünnə qoyarsa, həm özünün mükafatı, həm də o sünnəyə əməl edən kəslərin savabından bir şey azalmadan onların savabı qədər savabı var. Amma kim bəyənilməyən bir sünnə qoyarsa və ölümündən sonra ona əməl olunarsa, günahkardır və onların öz günahlarından bir şey azalmadan, sünnəyə əməl edən kəslərin günahları qədər ona da günah yazılar.»[3]

***977. Bəyənilmiş sünnəni ləğv etməyin qadağan olması***

3139. İmam Əli (ə): (Malik Əştəri Misirə vali təyin etdiyi fərmanından): «Bu ümmətin böyüklərinin əməl etdiyi, vəhdətə və həmrəyliyə səbəb olan, xalqın işini nizama, sahmana salan bəyənilmiş sünnəni sındırma. Heç vaxt keçmiş sünnələrə az da olsa ləkə gətirən bir sünnə və üsul icad etmə. Çünki belə olan surətdə keçmiş sünnənin banisi savab qazanacaq, sən isə onu ləğv etməklə günahkar olacaqsan.»[4]

---

[1] Kənzul-Ummal,hədis 911
[2] əl-Kafi, c.1,səh. 70, hədis 7
[3] Kənzul-Ummal, hədis 43079
[4] Nəhcül-Bəlağə, məktub 53

1000000π

205

# Gecə oyaq qalmaq

***987. Gecə oyaq qalmaq***

3140. Allahın Peyğəbməri (s):«Üç şeydən qeyri səbəbə gecə oyaq qalmaq rəva deyil: Qur‘an oxumaq, elm öyrənmək və gəlini ər evinə göndərmək.»[1]

3141. Allahın Peyğəmbəri (s):«Xiftən namazından sonra oyaq qalmaq iki nəfərdən- namaz qılandan və müsafirdən- başqa heç kəsə rəva deyil.[2]

3142. İmam Əli (ə):«Gecə (ibadəti üçün) oyaq qalmaq, müştaqların (Allahla ünsiyyət axtaranların) gülüstanıdır.»[3]

3143. İmam Əli (ə):«Allaha itaət və bəndəlik etmək üçün gecə oyaq qalmaq övliyaların baharı və xoşbəxtlərin bağıdır.»[4]

3144. İmam Əli(ə):«Ən üstün ibadət, pak olan Allahı zikr və yad etmək üçün gecə oyaq qalmaqdır.»[5]

3145. İmam Əli(ə):«Ey Allahın bəndələri! Allahdan qorxun, (yaradılış və axirət) fikri qəlbini öz hayına qalmağa məşğul edən, Allah və Qiyamət gününün qorxusu bədənini zəiflədən, gecə ibadəti az olan yuxusunu da əlindən alan alimin qorxduğu kimi qorxun.»[6]

***989. Bəzi gecələri (ibadət üçün) oyaq qalmağa həvəsləndirmək***

3146. Allahın Peyğəmbəri (s):«Kim Fitr, Qurban bayramlarının gecələrini və Şəban ayının 15-ci gecəsini oyaq qalarsa (əhya saxlayarsa), qəlblərin öldüyü gün onun qəlbi ölməz.»[7]

3147. İmam Rza(ə):«Əmirəl-möminin (ə) üç gecəni yatmazdı: Ramazan ayının 23-cü gecəsi, Fitr bayramının gecəsi və Şəban ayının 15-ci gecəsi. Bu gecələr ruzilər bölünər, ömrün müddəti və həmin il baş verəcək bütün hadisələr təyin olunar.»[8]

---

[1] Bihurul-Ənvar, c.76,səh. 178, hədis 3
[2] Bihurul-Ənvar, c.76,səh. 179, hədis 5
[3] Ğurərul-Hikəm,hədis 666
[4] Ğurərul-Hikəm,hədis 5613
[5] Ğurərul-Hikəm,hədis 3149
[6] Nəhcül-Bəlağə, xütbə 53
[7] Səvabul-Əmal, c.1,səh. 102 , hədis 2
[8] Bihurul-Ənvar, c.97,səh. 88 , hədis 15

# 206

# Rəhbər

***980. Rəhbər***

3148. Allahın Peyğəmbəri (s):«Xalqın rəhbəri onun xidmətçisidir.»[1]

3149. İmam Hüseyn (ə) (Alicənab atası rəhbərliyin mənası barədə soruşduqda): «Ailəyə kömək etmək və onların üzləşdiyi zərər və ziyanları öz üzərinə götürməkdir.»[2]

***981. Rəhbərliyin amilləri***

3150. İmam Əli (ə):«Xalqın zəhmətlərinin və xərclərinin yükünü üzərinə götürmək başçılığa səbəb olar.»[3]

3151. İmam Əli (ə):«Həqiqi alicənab odur ki, elmi və biliyi ona böyüklük bəxş etsin. Həqiqi rəhbər öz Allahından və Rəbbindən qorxandır.»[4]

3152. İmam Əli (ə):«Rəhbərlərin dəyəri və fəziləti ibadətin gözəlliyindədir.»[5]

3153. İmam Əli (ə):«İnsan dörd xislətlə rəhbər olar: İffət (mə‘nəvi paklıq), ədəb, səxavət və müdriklik.»[6]

3154. İmam Həsən (ə):«Xahişdən qabaq bəxş etmək ən böyük rəhbərin xislətindəndir.»[7]

***982. Rəhbərliyə mane olanlar***

3155. İmam Əli(ə):«Alçaqlarla çəkişmək rəhbərliyə ləkə gətirər.»[8]

3156. İmam Sadiq (ə):«Az günaha görə cəza verən şəxs rəhbərlik etməyə tamah gözünü dikməməlidir. Az təcrübəli, özündən razı və inadkar şəxs başçılıq tamahında olmamalıdır.»[9]

3157. İmam Sadiq (ə):«Heç bir səfeh rəhbərlik kürsüsünə çatmaz.»[10]

---

[1] Kənzul-Ummal, hədis 17517
[2] Biharul-Ənvar, c.72,səh. 194 , hədis 14
[3] Nəhcül-Bəlağə, hikmət 224
[4] Biharul-Ənvar, c.78,səh.72 , hədis 72
[5] Ğurərul-hikəm, hədis 6559
[6] Biharul-Ənvar, c.1,səh. 94 , hədis 23
[7] Biharul-Ənvar, c.78, səh. 113 , hədis 7
[8] Ğurərul-Hikəm, hədis 9813
[9] əl-Xisal,səh. 434 , hədis 20
[10] əl-Xisal,səh. 434 , hədis 10

$1000000\pi$

**207**

# Siyasət

***983. Siyasət***

3158. İmam Əli (ə) :«Mülkün idarəçiliyi siyasətdir.»[1]

3159. İmam Əli(ə):«Başda oturanların bəlası siyasətdə acizlikdir.»[2]

3160. İmam Əli (ə):«Gözəl siyasət rəhbərliyin davamiyyətinə səbəb olar.»[3]

3161. İmam Əli (ə) :«Gözəl siyasət xalqın möhkəmliyinin mənşəyidir.»[4]

3162. İmam Əli (ə):«Yaxşı tədbir görmək və israfçılıqdan çəkinmək gözəl siyasətdir.»[5]

3163. İmam Əli (ə):«Pis tədbir tökmək viran olmağın səbəbidir.»[6]

3164. İmam Əli(ə):«Siyasətin me‘yarı ədalətdir.»[7]

3165. İmam Əli(ə) :«Mehribanlıq siyasətin başıdır.»[8]

3166. İmam Əli (ə):«Dözümlü olmaq siyasətin zinətidir.»[9]

***984. Nəfsə hakim olmaq***

3167. İmam Əli (ə):«Kim öz nəfsi ilə siyasət apararsa, (onun ağası və rəhbəri olarsa) xalq üzərində də siyasət yürütmək məqamına çatar.»[10]

3168. İmam Əli(ə):«Öz nəfslərinizlə təqva ilə siyasət aparın və xəstələrinizi sədəqə verməklə müalicə edin.»[11]

3169. İmam Əli(ə):«Hökmdar öz ordusu ilə siyasətlə davranmazdan əvvəl, özü ilə siyasətlə davranmalıdır.»[12]

ιooooooπ

[1] Ğurərul-hikəm,hədis 17
[2] Ğurərul-hikəm,hədis 3931
[3] Ğurərul-hikəm,hədis 4820
[4] Ğurərul-hikəm,hədis 4818
[5] Ğurərul-hikəm,hədis 4821
[6] Ğurərul-hikəm,hədis 5571
[7] Ğurərul-hikəm,hədis 9714
[8] Ğurərul-hikəm,hədis 5266
[9] Ğurərul-hikəm,hədis 772
[10] Ğurərul-hikəm,hədis 8013
[11] Ğurərul-hikəm,hədis 5588
[12] Ğurərul-hikəm,hədis 9333

**208**

# Bu günün işini sabaha saxlamaq

***985. Bu günün işini sabaha saxlamağın qadağan olması***

3170. Allahın Peyğəmbəri (s):«Ey Əbuzər! Arzunun tə‘sirindən bu günün işini sabaha saxlamaqdan ehtiyat et. Çünki sən sabahda yox, bu gündə yaşayırsan. Belə ki, əgər sənin üçün sabah açılarsa, sabah da bu gündə olduğun kimi ol və əgər sənin üçün sabah olmasa, bu günün işində səhlənkarlıq etdiyinə görə peşman olmayasan.»[1]

3171. İmam Əli (ə) (öz dostlarından birinə məktubundan): «Ömründən sənə nə qalıbsa əldən vermə və «sabah və birigün» demə. Çünki səndən qabaqkılar öz arzularına arxayın olduqlarına və «bu gün-sabah» etdiklərinə görə məhv oldular. Belə ki, Allahın (ölüm) fərmanı bu qafilləri gözlənilmədən haqladı.»[2]

3172. İmam Əli (ə):«Kimin möhləti başa çatıbsa (əldən verdiyini, ələ gətirmək üçün) möhlət istəyər. Kimə möhlət verilərsə, işi yerinə yetirməkdə «bu gün-sabah» edər.[3]

3173. İmam Əli (ə):«Əməli olmadan axirətə ümid bəsləyən və uzun arzulara görə tövbəni tə‘xirə salan şəxs kimi olma... onun qarşısına bir şəhvət çıxanda günahı qabağa və tövbəni tə‘xirə salar.»[4]

3174. İmam Səccad (ə) (duasında): «Ey Allahım! Mənə öz halıma ağlamaqda kömək et. Çünki «bu gün sabah» etməklə arzu və amallarla ömrümü hədərə verib, puç etmişəm və artıq öz xeyrinə, nicatına ümidini itirənlərdən olmuşam.»[5]

3175. İmam Baqir (ə):«Bu günün işini sabaha saxlamaqdan ehtiyat et, Çünki bu iş elə bir dənizdir ki, insanlar onda batıb məhv olublar.»[6]

3176. İmam Sadiq (ə):«Tövbəni tə‘xirə salmaq özünü aldatmaqdır və «bu gün-sabah» etmək məəttəl qalmaqdır.»[7]

ιοοοοοοπ

[1] Biharul-Ənvar, c.77,səh. 75 , hədis 3
[2] Biharul-Ənvar, c.73,səh. 75 , hədis 39
[3] Nəhcül-Bəlağə,səh. 285
[4] Nəhcül-Bəlağə,səh. 150
[5] Biharul-Ənvar, c.98,səh. 88 , hədis 2
[6] Biharul-Ənvar, c.18,səh. 164 , hədis 1
[7] Biharul-Ənvar, c.73,səh. 365 , hədis 97

209

# Bazar

***986. Bazarın məzəmmət olunması***

3177. Allahın Peyğəmbəri (s):«Bazar bixəbərlik və qəflət sarayıdır. Kim bazarda bir təsbih desə, Allah-taala ona min-min savab yazar.»[1]

3178. İmam Əli(ə) -Haris Həmdaniyə yazdığı məktubdan- «Bazarların yığıncaq yerlərindən çəkin ki, ora şeytanların toplandığı meydan, fitnə və azğınlıqların yarandığı yerdir.»[2]

3179. İmam Baqir (ə):«Yer üzünün ən pis yerləri bazarlardır. Bazar şeytanın meydanıdır, sübh tezdən öz bayrağını orada sancıb taxtını qurar və övladlarını hər tərəfə peymanələri (mayelərin ölçü qabı) az verənlərə, ya tərəzini yüngül çəkənlərə və metrədə oğurluq edənlərə, ya malını satmaq üçün yalana əl atana tərəf göndərər. O, öz övladlarına deyər:«Sizin atanız (iblis) hələ sağ olduğu bir halda atası (Həzrəti Adəm) ölmüş kişini aldatmağı sizə tövsiyyə edirəm. İblis bazara girən birinci şəxslə daxil olar və bazarı tərk edən axırıncı şəxs ilə oradan çıxar.»[3]

***987. İmam Əlinin(ə) bazar əhlinə nəsihəti***

3180. Əbu Səid:«Əli (ə) bazara daxil olub buyurardı:«Ey bazar əhli! Allahdan qorxun və and içməkdən çəkinin. Çünki and içmək alveri canlandırar, amma bərəkəti aparar. Həqiqətən, qazanc əldə edən və tacir öz ticarətində haqqa riayət etməyincə günahkardır. Vəssəlam!» Sonra gedər və bir neçə gündən sonra yenidən gəlib belə sözlər buyurardı.»[4]

---

[1] Kənzul-Ummal, hədis 9330
[2] Nəhcül-Bəlağə, məktub 69
[3] Biharul-Ənvar, c.84,səh. 11 , hədis 87
[4] Biharul-Ənvar, c.103,səh. 102 , hədis 44

## 210

# Dişləri fırçalamaq

***988. Dişləri fırçalamağa həvəsləndirmə***

3181. Allahın Peyğəmbəri (s):«Əgər ümmətimin çətinliyə düşmək qorxusu olmasaydı, onlara hər namazda dişləri fırçalamağı əmr edərdim.»[1]

3182. Allahın Peyğəmbəri (s) (Əliyə (ə) tövsiyyəsindən): «Hər dəstəmaz alanda, dişləri fırçalamağı sənə tövsiyyə edirəm.»[2]

3183. Allahın Peyğəmbəri (s) *(həmçinin buyurur):* «Ey Əli! Sənə dişləri fırçalamağı tövsiyə edirəm. Bacardığın qədər bu işin azalmasına yol vermə. Çünki dişləri fırçalanmış halda qılınan hər namaz, qırx gün dişləri fırçalanmadan qılınan namazlardan üstündür.»[3]

3184. Allahın Peyğəmbəri (s) :«Dəstəmaz imanın, dişləri fırçalamaq isə dəstəmazın bir hissəsidir.»[4]

3185. Allahın Peyğəmbəri (s):«Öz ağızlarınızı dişləri fırçalamaqla ətirli edin. Çünki ağızlarınız Qur'anın keçid yeridir.»[5]

3186. Allahın Peyğəmbəri (s):«Cəbrayıl daim dişləri fırçalamağı mənə tövsiyyə edərdi. O həddə ki, tezliklə bu işi vacib edəcəyini güman etdim.»[6]

3187. İmam Sadiq (ə) (*«Bu məxluqların hamısı insan hökmündədirmi?» sualının cavabında) :* « Dişlərini fırçalamayan şəxsləri onların sırasından çıx.»[7]

***989. Dişləri fırçalamağın faydası***

3188. Allahın Peyğəmbəri (s):«Dişləri fırçalamaq kişinin gözəl nitq söyləmək qabiliyyətini artırar.»[8]

3189. İmam Sadiq (ə):«Dişləri fırçalamağın on iki xasiyyəti var: sünnədən olması, ağzı təmizləməsi, gözün nurunu artırması, Rəhman olan Allahı razı etməsi, dişləri ağartması, onların çürüməsinin qarşısını alması, damağı möhkəmlətməsi, iştahı açması, bəlğəmi aparması, hafizəni gücləndirməsi, savabları iki dəfə artırması və mələklərin şad olması.»[9]

---

[1] əl-Kafi, c.3,səh. 22 , hədis 1
[2] Biharul-Ənvar, c.77,səh. 69 , hədis 8
[3] Biharul-Ənvar, c.76,səh. 131 , hədis 48
[4] Kənzul-Ummal, hədis 26200
[5] Kənzul-Ummal, hədis 3753
[6] Biharul-Ənvar, c.76,səh. 126 , hədis 2
[7] Biharul-Ənvar, c.76,səh. 128 , hədis 11
[8] Biharul-Ənvar, c.76,səh.135 , hədis 48
[9] əl-Xisal,səh. 481 , hədis 53

3190. İmam Sadiq (ə):«Sizə dişləri fırçalamağı tövsiyə edirəm. Çünki bu iş qəlbdən vəsvəsəni aparar.»[1]

3191. İmam Rza (ə) :«Dişləri fırçalamaq gözün nurunu artırar, saçı çoxaldar və gözdən mirvari suyunu aparar.»[2]

***990. Dişləri fırçalamağın qaydası***

3192. Allahın Peyğəmbəri (s):«Fırçanı dişlərinizə uzununa (yəni sağan sola) yox, eninə (aşağı-yuxarı) çəkin.»[3]

3193. «Biharul-Ənvar»:«Peyğəbmər (s) misvak çəkəndə, eninə və gecə üç dəfə çəkərdi: biri yatmamışdan qabaq, biri gecə Allaha ibadət etmək üçün yuxudan oyananda, biri də sübh namazına çıxmamışdan qabaq. O Həzrət (s) Cəbrayılın tövsiyyəsilə misvak ağacının çöpü ilə misvak çəkərdi».[4]

3194. İmam Baqir (ə):«Səhərlər dəstəmazdan qabaq dişləri fırçalamaq sünnədəndir.»[5]

ιoooooπ

[1] Biharul-Ənvar, c.76, səh. 139 , hədis 52
[2] Biharul-Ənvar, c.76,səh. 137 , hədis 48
[3] əl-Dəʻvat,səh. 161 , hədis 445
[4] Biharul-Ənvar, c.76,səh. 135 , hədis 47
[5] Mən la yəhzuruhul-Fəqih, c.1,səh. 480 , hədis 1390

**211**

# Gənclik

***991. Gənclik***

3195. Allahın Peyğəmbəri (s) :«Gənclik dəliliyin bir budağıdır.»[1]

3196. Allahın Peyğəmbəri (s):«Sizin ən yaxşı cavanlarınız orta yaşlılarınıza bənzəmək istəyənlərdir. Sizin ən pis orta yaşlılarınız cavanlarınız kimi rəftar edənlərdir.»[2]

3197. İmam Əli (ə) :«İki nemətin qədrini onu əldən verən şəxsdən başqa bir kimsə bilməz: cavanlığın və sağlamlığın.»[3]

***992. Gəcnlərin tərbiyəsi***

3198. İmam Əli(ə):«Həqiqətən, yeniyetmənin gəlbi xam (işlənməmiş) torpaq kimidir. Ora hər nə atılsa qəbul edər.»[4]

3199. İmam Sadiq (ə): -Əhvələ xitabən- «Bəsrəyə getdinmi?» Ərz etdi:«Bəli.» Buyurdu:«Xalqın bu işə (bizim vilayət və imamətimizə) sevgisini və onu qəbul etməyini necə gördün?» Ərz etdi:«Allaha and olsun azdırlar, müəyyən iş görüblər, amma azdır.» Həzrət (ə) buyurdu:«Gənclərə diqqətli olmağı sənə tövsiyə edirəm. Çünki onlar hər bir yaxşılığı qəbul etməkyə daha çox tələsirlər.»[5]

***993. Gənc yaşlarında öyrənmək***

3200. Allahın Peyğəmbəri (s):«Cavanlıqda öyrənilən elm daşa həkk olunmuş yazıya bənzər, yaşlı vaxtda öyrənilən elm isə su üzərindəki yazıya.»[6]

3201. İmam Baqir (ə):«Əgər mənim yanıma (dini) elm öyrənmək istəməyən bir gənc şiə gətirsələr, onu tənbeh edərəm.»[7]

3202. İmam Sadiq (ə):«Sizin gəncləri bu iki haldan qeyri bir halda görmək istəmirəm: alim və ya tələbə. Çünki belə olmasa, səhlənkarlıq etmişdir. Əgər səhlənkarlıq etsə, zay olmuşdur. Əgər zay olsa, günahkar olar. Günahkar olsa, and olsun Məhəmmədi haqq ilə göndərənə, yeri Cəhənnəmdə olar.»[8]

---

[1] əl-İxtisas,səh. 343 , hədis 343
[2] Kənzul-Ummal, hədis 43058
[3] Ğurərul-hikəm,hədis 5764
[4] Tühəful-Uqul,səh. 70
[5] Qurbul-İsnad,səh. 128 , hədis 450
[6] Biharul-Ənvar, c.1,səh. 222 , hədis 6
[7] əl-Məhasin, ayə 1 , hədis 760
[8] Əmali-Tusi, səh. 303 , hədis 604

***994. Gənc abidin fəziləti***

3203. Allahın Peyğəmbəri (s):«Allah-taala gənc abidin vücudu ilə mələklərin qarşısında iftixar edər və buyurar:«Baxın Mənim bu bəndəmə, Mənə xatir öz şəhvətindən əl çəkmişdir».»[1]

3204. Allahın Peyğəmbəri (s):«Allah-taala cavan tövbəkarı sevər.»[2]

3205. Allahın Peyğəmbəri (s):«Gənclik çağında bəndəlik yolunu tutan cavan abidin, yaşlı vaxtında ibadətə başlayan qocadan üstünlüyü Allahın Rəsullarının digər insanlardan üstünlüyü kimidir.»[3]

3206. Allahın Peyğəmbəri (s):«Allah-taala, öz gəncliyini Allaha itaətə həsr edən cavanı sevər.»[4]

***995. «Fəta»nın mənası***

3207. İmam Sadiq (ə): -bir kişiyə xitabən- «Siz «fəta» kimə deyərsiz?» Ərz etdi:«Cavana» Həzrət (ə) buyurdu:«Xeyr. «Fəta» mömindir. Əshabi Kəhfin hamısı yaşlılar idi, Amma Allah-taala onları imanına görə «fətiyə» (cavanlar, mərdlər) adlandırdı.»[5]

ιoooooοπ

[1] Kənzul-Ummal, hədis 43057
[2] Kənzul-Ummal, hədis 10185
[3] Kənzul-Ummal, hədis 43059
[4] Kənzul-Ummal, hədis 43060
[5] əl-Kafi, c.8,səh. 395 , hədis595

# 212

# Şübhə

***996. Şübhə***

3208. İmam Əli (ə) :«Şübhə, haqqa oxşar (şəbih) olduğuna görə, şübhə adlanmışdır. Yəqinlik şübhə vaxtı Allahın övliyalarının yolunun işığı, doğru yol isə hidayət edənləridir. Ancaq, şübhə vaxtı Allah düşmənlərinin də‘vətçisi azğınlıq və yol göstərənləri isə korluq olar.»[1]

3209. İmam Əli (ə):«Şübhədən çəkinin. Çünki şübhə fitnə və yoldan azdırmaq məqsədilə ortaya atılmışdır.»[2]

3210. İmam Baqir(ə) :«Qarşıya şübhə çıxan zaman dayanmaq, ölüm uçurumuna düşməkdən yaxşıdır.»[3]

3211. İmam Sadiq (ə) :«Ən təqvalı insan şübhə vaxtı dayanandır.»[4]

***997. Şübhələrdən uzaqlaşmağın vacibliyi***

3212. Allahın Peyğəmbəri (s):«Səni şübhəyə salan hər nə varsa tərk et, səndə şübhə doğurmayan şeydən işində istifadə et. Çünki qoruğun ətrafında heyvan otaran, qoruğa daxil olmağın astanasındadır.»[5]

3213. Allahın Peyğəmbəri (s):«Aydın halal var və bir də aydın haram. Bunların arasında şübhəli və naməlum işlər də mövcuddur. Beləliklə, kim şübhələri tərk edərsə haramlardan nicat tapmışdır. Kim şübhələrdən yapışsa, haramlara düşüb bilmədən məhv olar.»[6]

---

[1] Nəhcül-Bəlağə, xütbə 38
[2] Nəhcus-Səadə, c.2,səh. 320
[3] Ə‘lamud-Din,səh. 301
[4] əl-Xisal,səh. 16 , hədis 56
[5] Tənbihul-Xəvatir, c.1,səh. 52
[6] əl-Kafi, c.1,səh. 68 , hədis 10

**213**

# Ağac

***998. Meşəçilik***

3214. Allahın Peyğəmbəri (s):«Əgər Qiyamət günü gəlib çatsa və sizlərdən birinizin əlində bir şitil olsa, qalxıb onu əkməyi bacararsa bu işi yerinə yetirsin.»[1]

3215. Allahın Peyğəmbəri (s):«Bir müsəlman toxum səpsə, ya bir şitil basdırsa, o toxumun və şitilin məhsulundan bir quş, insan, yaxud otlayan heyvan yeyərsə, həmin müsəlmana sədəqənin savabı yazılar.»[2]

3216. Allahın Peyğəmbəri (s) :«Meyvə ağacı əkən elə bir kəs olmayıb ki, Allah-taala o ağacın verdiyi meyvələr qədər ona savab yazmasın.»[3]

3217. Allahın Peyğəmbəri (s):«Kim bir ağac əkib, meyvə verənədək onu qorusa, qulluq etməkdə səbrli olarsa, ondan yeyilən hər meyvənin müqabilində Allah yanında onunçün bir sədəqə yazılar.»[4]

***999. Ağac kəsmək***

3218. İmam Sadiq (ə) :«Meyvə ağaclarını kəsməyin ki, Allah-taala başınızın üstünə əzab endirər.»[5]

3219. İmam Sadiq (ə) *(ağacları kəsmək barədə verilən sualın cavabında)*: «Eybi yoxdur.» Əmmar ibn Musa deyir ki, «Sidr ağacı necə?» deyə ərz etdim. Buyurdu:«Eybi yoxdur. Çöl-biyabanda sidr ağacını kəsmək məkruhdur. Çünki səhrada bu ağac az tapılandır. Amma burada məkruh deyil.»[6]

ιοοooooπ

---

[1] Kənzul-Ummal, hədis 9056
[2] Kənzul-Ummal, hədis 9051
[3] Kənzul-Ummal, hədis 9075
[4] Kənzul-Ummal, hədis 9081
[5] əl-Kafi, c.5,səh. 264 , hədis 9
[6] əl-Kafi, c.5,səh. 264 , hədis 8

## 214

# Şücaət

***1000. Şücaət***

3220. İmam Əli (ə) :«Şücaət nəqd olan izzətdir.»[1]

3221. İmam Əli(ə):«Şücaət nəqd kömək və aşkar fəzilətdir.»[2]

3222. İmam Əli(ə):«Əgər xislətlər bir-birindən seçilib ayrılsa, hökmən doğruluq şücaətlə və qorxaqlıq yalanla birgə olar.»[3]

3223. İmam Həsən (ə) *(«Şücaət nədir?»süalının cavabında)*: «Düşmənlər qarşısında dəyanət və döyüşdə möhkəmlikdir.»[4]

***1001. Şücaətin amilləri***

3224. İmam Əli (ə):«Şücaətin təbiətində üç xislət var, onların hər birindəki fəzilət və dəyər digərində yoxdur: öz canından keçmək, zillətə getməmək, ad axtarmaq. Əgər bu üç xislət şücaətli insanda bərabər və kamil şəkildə olarsa, rəqibsiz bir pəhləvana və öz zəmanəsinin adlı-sanlı qəhrəmanına çevrilər. Əgər onda bu xislətlərdən biri digərindən daha artıq olarsa, həmin xislətdə onun şücaəti daha çox və qorxmazlığı daha artıqdır.»[5]

3225. İmam Əli (ə):«Kişinin dəyər-qiyməti onun sə'yi qədərdir. Doğru danışmağı və sadiqliyi onun mərdliyi həddə və onun şücaəti də qeyrəti qədərdir.»[6]

3226. İmam Əli (ə):«Kişinin şücaəti onun sə'yi və qeyrəti isə zillətə getməməyi qədərdir.»[7]

3227. İmam Əli(ə) :«Şücaət, zillətdən utanmağın qədərincədir.»[8]

***1002. Ən şücaətli insan***

3228. Allahın Peyğəmbəri (s):- səhabələrə xitabən- «Aranızda kimin ən möhkəm və ən qüvvəli olduğunu deyimmi?» Ərz etdilər:«Bəli, ey Allahın Rəsulu!» Həzrət (s) buyurdu:«Sizin ən möhkəm və ən güclünüz şad və razı olanda günaha, batilə tərəf getməyən, eləcə də narahat, narazı vaxtı haqqı

---

[1] Ğurərul-hikəm,hədis 572
[2] Ğurərul-hikəm,hədis 1700
[3] Ğurərul-hikəm,hədis 7597
[4] Tuhəful-Uqul,səh. 226
[5] Biharul-Ənvar, c.78,səh. 236 , hədis 66
[6] Nəhcül-Bəlağə, hikmət 47
[7] Ğurərul-hikəm,hədis 5763
[8] Ğurərul-hikəm,hədis 6180

danışmaq yolundan çıxmayan, qüdrətə çatanda haqqı olmadığına əl atmayandır.»[1]

3229. İmam Əli (ə) :«Ən şücaətli insan hamıdan səxavətli olandır.»[2]

3230. İmam Əli (ə):«Ən şücaətli insan dözməklə nadanlığa qalib gələndir.»[3]

3231. İmam Əli (ə) :«Ağıl sahibindən şücaətli bir kimsə yoxdur.»[4]

3232. İmam Əli (ə) :«Ən güclü insan, öz nəfsinə daha çox hakim olandır.»[5]

***1003. Şücaətin bəlası***

3233. İmam Əli (ə):«Şücaətin bəlası uzaqgörənliyi tərk etməkdir.»[6]

3234. İmam Əli (ə):«Həqiqətən, şücaətin bir həddi var. Əgər onu aşsalar qorxmazlıq olar.»[7]

ιοοοοοοπ

---

[1] Məani-Əxbar,səh. 366 , hədis 1

[2] Ğurərul-Hikəm,hədis 2899

[3] Ğurərul-Hikəm,hədis 3357

[4] Ğurərul-Hikəm,hədis 10591

[5] Ğurərul-Hikəm,hədis 3188

[6] Ğurərul-Hikəm,hədis 3938

[7] Biharul-Ənvar, c.78,səh.377 , hədis 3

**215**

# Pislik

***1004. Yaxşılıq və pisliyin meyarı***

**Qur'an:**

«Sizin üçün cihad təyin edildi, o da sizin xoşunuza gəlmir. Nə çoxdur sizin xeyrinizə olan, ancaq xoşunuza gəlməyən şey. Nə çoxdur sizin xoşunuza gələn, ancaq ziyanınıza olanlar. Allah bilir, sizsə bilmirsiniz.»[1]

«İnsan xeyir dua etdiyi kimi, şər dua da edər. İnsan həmişə tələsəndir.»[2]

**Hədis:**

3235. İmam Əli (ə):«O yaxşılıq ki, onun arxasında atəş var, yaxşılıq deyil. O pislik ki, sonunda Cənnət var, pislik deyil. Cənnətlə müqayisədə hər bir nemət kiçik və dəyərsizdir. Cəhənnəmin müqabilində hər əziyyət və bəla, salamatlıqdır.»[3]

3236. İmam Əli (ə) :«Sübhan olan Allah hidayət edən bir kitab göndərdi və onda yaxşı ilə pisi bəyan etdi. Belə isə, yaxşılıq yolunu seçin ki, hidayət olasınız. Pislik yolundan da uzaqlaşın ki, məqsədə çatasınız.»[4]

***1005. Pisdən də pis***

3237. Allahın Peyğəmbəri (s) :«İki işdən üstün heç bir xeyir yoxdur: Allaha iman və Allah bəndələrinə xeyir vermək. İki işdən də böyük şərr yoxdur: Allaha şərik qoşmaq və Allahın bəndələrinə ziyan vurmaq.»[5]

3238. İmam Əli (ə) :«Pisdən daha pis olan onun cəzası, yaxşıdan daha yaxşı isə onun mükafatıdır.»[6]

3239. İmam Əli (ə):«Pislik edən, pislikdən daha pisdir.»[7]

***1006. Pisliklərin açarları***

3240. İmam Baqir (ə):«Allah-taala pisliyə qıfıllar qoymuş və bütün bu qıfılların açarını şərabda qərar vermişdir. Yalan isə şərabdan da pisdir.»[8]

3241. İmam Sadiq (ə) :«Qəzəb, bütün pisliklərin açarıdır.»[1]

---

[1] Bəqərə, ayə 216
[2] İsra, ayə 11
[3] Nəhcül-Bəlağə, xütbə 387
[4] Nəhcül-Bəlağə, xütbə 167
[5] Biharul-Ənvar, c.77,səh.137 , hədis 2
[6] Nəhcül-Bəlağə, xütbə 114
[7] Nəhcül-Bəlağə, hikmət 32
[8] Biharul-Ənvar, c.72,səh. 236 , hədis 3

***1007. Şərr toplusu***

3242. Allahın Peyğəmbəri (s):«İblis öz şeytanlarına dedi:«Sizə əti, məstedici şeyləri və qadınları (nəzərinizdə saxlamağı) tövsiyyə edirəm. Çünki bu üç şeydən başqa pislikləri hazırlayan heç nə tapmıram.»[2]

***1008. Şər insanın təbiətindədir***

3243. Allahın Peyğəmbəri (s) :«Xeyir iş görmək üçün özünüzü zəhmətə salın və bu yolda nəfslərinizlə mübarizə aparın. Çünki insanın təbiətində şər qoyulmuşdur.»[3]

3244. İmam Əli (ə):«Öz nəfsini fəzilətləri qəbul etməyə məcbur et. Çünki rəzalətlər sənin təbiətində qoyulmuşdur.»[4]

ιoooooπ

---

[1] Biharul-Ənvar, c.73,səh. 263 , hədis 4
[2] Biharul-Ənvar, c.62, səh. 293
[3] Tənbihul-Xəvatir, c.2,səh.120
[4] Ğurərul-Hikəm,hədis 2477

## 216

# Şirk

***1009. Şirkdən çəkinmək***

**Qur’an:**

«Loğman öz oğluna nəsihət edəndə belə dedi:«Oğlum, Allaha şərik qoşma. Çünki şirk böyük zülmdür» [1]

«Allah Ona şərik qoşmağı bağışlamaz. Bundan qeyri günahları isə, istədiyi şəxsə bağışlayar. Kim Allaha şərik qoşarsa, şübhəsiz ki, çox azmışdır.»[2]

**Hədis:**

3245. Allahın Peyğəmbəri (s):«Ey Məs‘udun oğlu! Məbada bir an Allaha şərik qoşasan. Hətta, səni mişarla kəssələr, ya oynağını oynağından ayırsalar, ya dar ağacından assalar, ya da odda yandırsalar belə.»[3]

***1010. Şirkin təlimi***

3246. İmam Sadiq (ə):«Bəni Üməyyə iman tə‘limini insanlar üçün azad buraxdı. Ancaq, şirkin tə‘limini azad buraxmadılar ki, insanları şirkə tərəf çəkəndə onu tanımasınlar.»[4]

***1011. Şirkin ən aşağı dərəcəsi***

3247. İmam Baqir (ə): -Şirkin ən aşağı dərəcəsi barədə sualın cavabında- «Şirkin ən aşağı dərəcəsi budur ki, insan meyvə çərdəyinə «bu bir xırda daş parçasıdır», daş parçasına da «bu bir çərdəydir» desin. Sonra da, özünün bu sözünə inansın və ondan dönməsin.»[5]

3248. İmam Sadiq (ə)- elə bu barədə- «Öz rəyinə, əqidəsinə bidət gətirən, sonra da ona xatir sevən və düşmənçilik edən şəxsdir.»[6]

***1012. Gizli şirk***

**Qur’an:**

«Və onların əksəriyyəti Allaha iman gətirsələr də, Ona şərik qoşarlar.»[7]

**Hədis:**

---

[1] Loğman, ayə 13
[2] Nisa, ayə 116
[3] Məkarimul-Əxlaq, c.2, səh. 357, hədis 2660
[4] əl-Kafi, c.2, səh. 415, hədis 1
[5] əl-Kafi, c.2, səh. 397, hədis 1
[6] əl-Kafi, c.2, səh. 397, hədis 2
[7] Yusif, ayə 116

3249. Allahın Peyğəmbəri (s):«Üzrxahlığa səbəb olan işdən çəkin. Çünki onda gizli bir şirk var.»[1]

3250. İmam Sadiq (ə) -yuxarıdakı ayə barədə- «İnsan belə «əgər filankəs olmasaydı mən məhv olardım, filankəs olmasydı mən belə-elə olardım, filankəs omlasydı ailəm məhv olardı» deyəndə görmürsənmi ki, bu sözlərlə Allahın hakimiyyətində, ona ruzi verən, onu müdafiə edən, çətinlikləri ondan uzaqlaşdıran Allaha şərik qoşur?» Rəvayətçi deyir, ərz etdim:«Bəs «əgər Allah filankəsin vasitəsilə mənə kömək etməsəydi məhv olardım.» desə necə?» Buyurdu:«Bəli, belə desə eybi yoxdur.»[2]

3251. İmam Sadiq (ə): - yuxarıdakı ayə barədə- «Burada məqsəd, ibadətdə şirk deyil, itaətdə şirkdir.»[3]

3252. İmam Sadiq (ə):«Həqiqətən, şirk qarışqanın hərəkətindən də gözə görünməzdir. Bir işi yada salmaq və bu kimi şeylər üçün üzüyün yerini dəyişmək gizli şirkdir.»[4]

3253. İmam Sadiq (ə):- «onların əksəriyyəti iman gətirmir» ayəsi barədə- «Onlar deyirdilər:«Filan ulduzun batması ilə və bəhmən ulduzun çıxması ilə yağış yağacaq. Yaxud da, falçılara muraciət edər və onların dediklərinə inanardılar. (Bunların hamısı gizli şirkdir).»[5]

ιoooooπ

---

[1] Biharul-Ənvar, c.78,səh. 200 , hədis 28
[2] Təfsirul-Əyyaşi, c.2,səh. 397 , hədis 96
[3] əl-Kafi, c.2,səh. 397 , hədis 4
[4] Məani-Əxbar,səh. 379 , hədis 1
[5] Biharul-Ənvar, c.58,səh. 317 , hədis 8

**217**

# Şeytan

***1013. Allahın iblislə rəftarından dərs almaq***

3254. İmam Əli(ə):«Allahın iblislə rəftarından dərs alın. Belə ki, Allah-taala onun uzunmüddətli işini, yorucu zəhmətlərini bir anlıq təkəbbürə görə batil etdi. O altı min il Allaha ibadət etmişdi və özü də məlum deyil bunlar dünya illərindəndir, yoxsa axirət illərindən.»[1]

***1014. Şeytandan Allaha sığınmaq***

**Qur'an:**

«De:«Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram. Ey Rəbbim! Onların mənim yanımda hazır olmalarından sənə sığınıram.»[2]

«Qur'an oxumaq istəyəndə qovulmuş şeytandan Allaha sığın.»[3]

**Hədis:**

3255. İmam Əli (ə):«Allaha həmd edir, şeytanın qovulması və uzaqlaşdırılmasına görə, eləcə də onun tələ və hiylələrindən salamat qalmağa səbəb olan işlərdə Allahdan kömək istəyirəm.[4]

***1015. Şeytanın insanla düşmənçiliyi***

**Qur'an:**

«Həqiqətən, şeytan sizin düşməninizdir. Bəs, siz də ona düşmən olun. Həqiqətən, o öz dəstəsini arxasınca çağırır ki, onlar Cəhənnəm əhli olsunlar.»[5]

**Hədis:**

3256. İmam Əli (ə): Gizlincə qəlblərə nüfuz edən və asta-asta qulağlara ovsun oxuyan düşməndən çəkinin.»[6]

2357. İmam Sadiq (ə) :«İblis məkr və hiylə dolu bu sarayın hər yerində öz tələlərini qurmuşdur və onun məqsədi bizi sevənlərdən başqa bir kimsə deyil.»[7]

3258. İmam Kazim (ə): -»Cihad hansı düşmənlə daha çox vacibdir?» sualına cavabından- «Sənə daha yaxın və səninlə düşmənçiliyi daha çox olanla... və sənin düşmənlərini sənə qarşı təhrik edənlə. O da şeytandır.»[1]

---

[1] Nəhcül-Bəlağə, xütbə 192
[2] Muminun, ayə 97, 98
[3] Nəhl, ayə 98
[4] Nəcül-Bəlağə, xütbə 151
[5] Fatir, ayə 6
[6] Ğurərul-Hikəm,hədis2623
[7] Tuhəful-Uqul,səh. 301

***1016. Şeytanın fitnələrindən agah etmək***

**Qur'an:**

«Ey Adəm övladları! Şeytan sizin ata-ananızı Cənnətdən çıxardıb ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurduğu kimi, sizi də aldatmasın. O və onun dəstəsi sizi, onları görmədiyiniz yerdən görürlər. Həqiqətən, Biz şeytanları iman gətirməyənlərin dostları etdik.» [2]

**Hədis:**

3259. İmam Əli(ə):«Yoldan arzdıran üç amil var: qadınları sevmək (şeytanın qılıncıdır), şərab içmək (bu şeytanın tələsidir), dirhəm-dinara məhəbbət (bu da şeytanın oxudur).»[3]

***1017. Şeytana sitayiş edənlər***

**Qur'an:**

«Ey Adəm övladları! Məgər sizinlə əhd-peyman bağlamamışdı ki, şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşməninizdir?» [4]

**Hədis:**

3260. İmam Əli (ə) (*Şeytanın ardınca gedənləri məzəmmət edərək):* «Onlar şeytanı öz işlərinin me'yarı etdilər və şeytan da onları öz tələsinə çevirdi. Beləliklə, onların qəlblərində yumurta saldı, cücə çıxartdı, tədricən ağıllarına nüfuz etdi, onları xətalara və büdrəyişlərə düçar etdi, batili gözlərində bəzədi. Onların işləri güclərində şeytan şərik olan və onun dili ilə batil söz danışan şəxsin işi kimidir.»[5]

***1018. Şeytanın fitnələri***

**Qur'an:**

«Şeytan sizi yoxsulluqla qorxudur və sizə pis işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanmaq və bəxşişlər vəd edir. Allah geniş rəhmət sahibi və hər şeyi biləndir.» [6]

«Şeytan onlara vədə verir və öz arzularının tələsinə salır. Şeytan onlara yalan vədədən başqa bir şey verməz.»[7]

«Bəs, niyə Bizim əzabımız onlara çatanda nalə çəkmədilər? Çünki onların qəlbləri daşlaşmış və şeytan onların əməllərini öz nəzərlərində bəzəmişdir.»[8]

**Hədis:**

---

[1] Tuhəful-Uqul,səh. 399

[2] Ə'raf, ayə 27

[3] əl-Xisal,səh.113 , hədis 91

[4] Yasin, ayə 60

[5] Nəhcül-Bəlağə, xütbə 7

[6] Bəqərə, ayə 268

[7] Nisa, ayə 120

[8] Ən'am, ayə 43

3261. İmam Əli (ə):«Ey Kumeyl! İblis öz tərəfindən vədə vermir, əksinə, öz Rəbbinin tərəfindən vədə verir ki, onları günah etməyə vadar etsin və ölümün uçurumuna atsın.»[1]

3262. İmam Əli (ə):«Şeytan bəndəyə təhkim olunmuşdur. Günah etməkdən ötrü günahı onun gözlərində bəzəyir və tövbəyə də ümidvar edir ki, onu tə‘xirə salsın.»[2]

3263. İmam Səccad (ə)- duasında- «Əgər şeytan hiyləylə onları Sənin itaətindən çəkindirməsəydi, heç bir günahkar sənə qarşı günah etməzdi. Əgər batili onlar üçün haqq libasında göstərməsəydi, heç bir yolunu azan Sənin yolundan azmazdı.»[3]

3264. İmam Sadiq (ə) :«İblis öz qoşununa deyər:«İnsanlar arasında paxıllıq və haqqa təcavüz toxumu səpin. Çünki bu ikisi Allah yanında şirkə bərabərdir.»[4]

### *1019. Şeytanın fitnəsindən qoruyanlar*

**Qur’an:**

«Həqiqətən, Şeytanın iman gətirən və öz Rəbblərinə təvəkkül edənlərin üzərində hakimiyyəti yoxdur.»[5]

«Həqiqətən, sənə tabe olan yolunu azmışlardan başqa, bəndələrimin üzərində heç bir hakimiyyətin yoxdur.» [6]

**Hədis:**

3265. İmam Əli (ə):«Çox dua et ki, şeytanın şərrindən amanda qalasan.»[7]

3266. İmam Baqir (ə) :«Həqiqi qorxu ilə özünü iblisdən qoru.»[8]

3267. İmam Sadiq (ə):«İblis dedi:«Beş nəfs var ki, onlara qarşı heç bir çarəm yoxdur. Bunlar xalis niyyətlə Allaha sığınan və bütün işlərində Ona arxalanan, gecə-gündüz Allaha çox təsbih deyən, özü üçün bəyəndiyi şeyi mömin qardaşına da bəyənən, başına müsibət gələndə səbrsizlik etməyən, Allahın ona qismət etdiyinə razı olan və ruzi qəmi çəkməyənlərdir. Ancaq, qalan bütün insanlar mənim ovcumun içindədir»[9]

### *1020. Şeytanı hakim edən şeylər*

**Qur’an:**

«Kim Rəhman Allahı yad etməkdən üz döndərərsə, onunla yoldaş olmaq üçün ona bir şeytan təyin edərik.»[10]

**Hədis:**

---

[1] Bəşaratul-Mustəfa,səh. 27
[2] Nəhcül-Bəlağə, xütbə 64
[3] Səhifətus-Səccadiyyə, səh.144, dua 37
[4] əl-Kafi, c.2, səh.327, hədis 2
[5] Nəhl, ayə 99
[6] Hicr, ayə 42
[7] Biharul-Ənvar, c.78,səh. 9, hədis 64
[8] Biharul-Ənvar, c.78,səh.164, hədis 1
[9] əl-Xisal,səh. 254 , hədis 37
[10] Zuxruf, ayə 36

3268. Allahın Peyğəmdəri (s):«Bir gün Musa (ə) oturmuşdu və iblis onun yanına gəldi... Musa (ə) buyurdu:«Mənə elə bir günahdan xəbər ver ki, insan onu edəndə sən ona hakim olasan.» İblis dedi:«Özündən razı olmaq, əməlini çox görmək, günahı öz nəzərində kiçik görmək.»[1]

3269. İmam Əli (ə):«Şəhvətpərəstlərlə yoldaşlıqlıq imanın unudulmasına və şeytanın hazır olmasına gətirib çıxarar.»[2]

3270. İmam Sadiq (ə):«İblisin qadınlardan və qəzəbdən güclü ordusu yoxdur.»[3]

ιoooooοπ

[1] əl-Kafi, c.2,səh. 314, hədis 8
[2] Nəhcül-Bəlağə, xütbə 86
[3] Tuhəful-Uqul,səh. 363

## 218

# Şe'r

***1021. Şairləri məzəmmət edən ayələrin təfsiri***

**Qur'an:**

«Və şairlərə yolunu azmışlar tabe olarlar. Məgər görmürsənmi ki, onlar hər yerdə avara kimi dolanarlar? Yalnız iman gətirən, yaxşı işlər görən və Allahı çox yad edənlərdən başqa, əməl etmədikləri şeyləri danışarlar. Onlar zülmə məruz qaldıqlan sonra kömək istədilər.»[1]

**Hədis:**

3271. İmam Baqir (ə) (*«Və şairlərə yolunu azmışlar...» ayəsi barədə*): «Elə bir şair görmüsənmi ki, bir kimsə ona tabe olsun? Bu məzəmmət olunanlar, əslində dindən qeyri bir şey üçün elm öyrənənlər və nəticədə həm özləri yolu azan, həm də başqalarını azdıran camaatdır.»[2]

***1022. Şe'r, dil ilə cihaddır***

3272. Allahın Peyğəmbəri (s):«Həqiqətən, mömin öz qılıncı və dili ilə cihad edər. And olsun canım Onun qüdrət əlində olana, mömin şairlərin sözləri düşmənə vurulan ox kimidir.»[3]

3273. Allahın Peyğəmbəri (s) (*Həssan ibn Sabitə*): «Müşrikləri həcv yaz ki, Cəbrayıl səninlədir.»[4]

3274. Allahın Peyğəmbəri (s): «Bəzi şe'rlərdə hikmət var, bəzi bəyanlarsa ovsunlayıcıdır.»[5]

3275. İmam Sadiq (ə) :«Kim bizim barəmizdə bir beyt şe'r desə, Allah-taala onunçün Cənnətdə bir ev tikər.»[6]

3276. İmam Sadiq (ə):«Bizim barəmizdə bir beyt şe'r deyən elə bir şair olmayıb ki, Müqəddəs Ruh ona kömək etməmiş olsun.»[7]

---

[1] Şüəra, ayə 224-227
[2] Məani-Əxbar, səh 385, hədis 19
[3] Nurus-Səqəleyn, c.4, səh.70, hədis 105
[4] əd-Durrul-Mənsur, c.6, səh.336
[5] Əmali-Səduq, səh. 495, hədis 6
[6] Uyune Əxbari Rza, c.1, səh.7 , hədis 1
[7] Uyune Əxbari Rza, c.1, səh.7 , hədis 2

# 1000000π

**219**

# Şüar

***1023. Şüar***

3277. Allahın Peyğəmbəri (s): -Müharibəni başlamazdan qabaq şuar verməyi əmr etdiyi zaman- «Şüarınızda Allahın adlarından biri olmalıdır.»[1]

3278. İmam Əli (ə): «Bədr günü Allah Rəsulunun (s) sahabələrinin şüarı bu idi:«Ey kömək olunmuş, öldür!»[2]

3279. «Mustədrikul vəsail»:«Cəməl» müharibəsində Əmirəl-mömininin (ə) şüarlarından biri bu idi: «Ha mim, la yün sərunə» Ey Allahım, bizi əhdi sındıranlar üzərində qalib et.»[3]

3280. İmam Sadiq (ə): «Bədr günü bizim şuarımız bu olmuşdur: «Ey Allahın qələbəsi! Yaxınlaş, yaxınlaş!»….Hüseynin (ə) şüarı «Ya Məhəmməd» idi. Bizim də şüarımız: «Ya Məhəmməd!»dir.»[4]

***1024. Qiyamətdə müsəlmanların şüarı***

3281. Allahın Peyğəmbəri (s): «Qiyamət günü sirat körpüsündən keçəndə müsəlmanların şüarı «Allahdan başqa Allah yoxdur və təvəkkül edənlər gərək Allaha təvəkkül etsinlər» olacaq.»[5]

3282. Allahın Peyğəmbəri (s): «Qiyamət günü siratdan keçəndə möminlər bu şüarı deyəcəklər: «İlahi! Bizi salamat saxla, bizi salamat saxla.»«[6]

3283. Allahın Peyğəmbəri (s): «Qiyamətin qaranlığında möminlərin şüarı budur: «Səndən başqa Allah yoxdur.»«[7]

ιooooooπ

---

[1] Musitədrəkul-Vəsail, c.11, səh. 113 , hədis 12564
[2] Musitədrəkul-Vəsail, c.11,səh. 113 , hədis 12560
[3] Şərhe Nəhcül-Bəlağə, c.1, səh. 262
[4] əl-Kafi, c.5, səh.47, hədis 1
[5] Mustədrəkul-Vəsail, c.5, səh.47, hədis 6079
[6] Kənzul-Ummal, hədis 39030
[7] Kənzul-Ummal, hədis 39033

**220**

# Şəfaət və vasitəçilik

***1025. Dünyada vasitəçilik***

3284. Allahın Peyğəmbəri (s):«(Xeyir işlərdə) Vasitəçilik edin ki, mükafat görəsiniz.»[1]

3285. Allahın Peyğəmbəri (s): «Kim öz vasitəçiliyi ilə bir ziyanın qarşısını alsa, ya bir xeyri bərpa etsə, Allah-taala qədəmlər titrəyən günü onun qədəmlərini möhkəm edər.»[2]

3286. İmam Sadiq (ə): «Vasitəçilik, məqamın zəkatıdır.»[3]

***1026. Axirətdə səfaət***

**Qur'an:**

«De ki, şəfaət tamamilə Allaha məxsusdur. Göylərin və yerin hakimiyyəti Onundur. Anında Ona tərəf qaytarılacaqsınız.»[4]

«Kim Onun izni olmadan Onun yanında şəfaət edər?» [5]

«Rəhman Allahdan əhd-peyman almış şəxsdən başqa, heç kimdə səfaət olmaz.»[6]

«O gün Rəhman Allahın izn verdiyi və sözündən şad olduğu kimsədən başqasının şəfaəti fayda verməz.»[7]

**Hədis:**

3287. Allahın Peyğəmbəri(s):«Ummətimin arasında mənim şəfaətim, yalnız mənim Əhli-Beytimi (ə) sevən şəxsin halına şamil olacaq.»[8]

3288. Allahın Peyğəmbəri (s): «Mən Qiyamət günü qəlbində ağcaqanadın qanadı qədər iman olan şəxsə, hökmən şəfaət edərəm».[9]

3289. Allahın Peyğəmbəri (s): «Mahmud (həmd olunmuş) məqaına çatanda, ümmətimdən böyük günahlar edənlər üçün şəfaət edəcəm və Allah-taala onların barəsində mənim şəfaətimi qəbul edəcəkdir. Allaha and olsun, övladlarımı incidənə şəfaət etməyəcəm.»[10]

3290. Allahın Peyğəmbəri (s): «Hər peyğəmbər Allah dərgahına dua etmiş

---

[1] Kənzul-Ummal, hədis 6489
[2] Kənzul-Ummal, hədis 6496
[3] Tuhəful-Uqul,səh. 381
[4] Zumər, ayə 44
[5] Bəqərə, ayə 255
[6] Məryəm, ayə 87
[7] Ta-ha, ayə 109
[8] Kənzul-Ummal, hədis 39057
[9] Kənzul-Ummal, hədis 39043
[10] Əmali-Səduq,səh. 242 , hədis 3

və Ondan bir şey istəmişdir. Amma mən (Allahdan) öz xahişimi Qiyamət günü ümmətimə şəfaət etmək üçün saxlamışam»[1]

3291. İmam Baqir (ə): «Tezliklə Rəbbin sənə elə bir şey bəxş edər ki, ondan razı olarsan» ayəsi barədə- «Bu şəfaətdir. Allaha and olsun, şəfaətdir, Allaha and olsun ki, şəfaətdir.»[2]

3292. İmam Sadiq (ə):- «Şəfaət haqqı yalnız... «ayəsi barədə- «Yalnız Əmirəl-möminin (ə) və ondan sonra gələn imamlara etiqadı olanlara məxsusdur. Bu da Allah yanında sahib olduqları həmin əhd-peymandır.»[3]

### *1027. Şəfaətdən məhrum olanlar*

3293. Allahın Peyğəmbəri (s): «Mənim şəfaətim iki nəfərə çatmaz:«Qüdrət sahibi olan zalıma və dindən çıxmış üsyankara.»[4]

3294. Allahın Peyğəmbəri (s): «Mənim şəfaətim müşriklər və zalımlar istisna olmaqla, böyük günah edənlər barəsindədir.»[5]

3295. Allahın Peyğəmbəri (s): «Namazı yüngül sayan mənim şəfaətimə çatmayacaq. Allaha and olsun ki, Kövsər hovuzunun kənarında mənimlə görüşməyəcək.»[6]

3296. Allahın Peyğəmbəri(s): «Kim mənim şəfaət etməyimə iman qətirməsə, Allah-taala mənim şəfaətimi ona çatdırmayacaq»[7]

3297. İmam Sadiq (ə) (*dünyadan köçmək anı gələndə, qohum- əqrəbasının o Həzrətin (ə) yanına toplaşmasın tapşırdı və sonra buyurdu)*: «Namazı yüngül sayan, heç vaxt bizim şəfaətimizə nail olmayacaq.»[8]

3298. İmam Sadiq (ə): «Nasibi olan şəxsin barəsində hətta müqərrəb (yaxın) mələklər və mürsəl peyğəmbərlər də şəfaət etsə, şəfaətləri qəbul olunmayacaq.»[9]

### *1028. Hamının şəfaətə möhtac olması.*

3299. «Biharul-Ənvar»:«Əbu Əymən İmam Baqirə (ə) dedi: «Ey əbu-Cəfər! Siz həmişə xalqı aldadıb, Məhəmmədin şəfaəti, Məhəmmədin şəfaəti - deyirsiniz.» Həzrət (ə) o qədər narahat oldu ki, üzünün rəngi qaraldı. Sonra buyurdu: «Vay olsun sənə, ey Əbu Əymən! Qarnının və şəhvətinin iffəti səni aldatdı?! Əgər Qiyamətin dəhşətli səhnələrini görsən hökmən Məhəmmədin (s) şəfaətinə möhtac olacaqsan. Vay olsun sənə, məgər şəfaət yalnız Cəhənnəm atəşi onlara vacib olan şəxslərə aiddir?» Bu vaxt buyurdu: «İlk insanlardan sonuncuyadək elə bir şəxs yoxdur ki, Qiyamət günü Məhəmmədin (s) şəfaətinə

---

[1] əl-Xisal,səh. 29 , hədis 103
[2] Biharul-Ənvar, c.8,səh. 57 , hədis 72
[3] Biharul-Ənvar, c.8,səh. 57 , hədis 9
[4] əl-Xisal,səh. 63 , hədis 93
[5] əl-Xisal,səh. 355 , hədis 36
[6] əl-Məhasin, c.1, səh.159 , hədis 223
[7] Uyune Əxbare Rza, c.1, səh. 136 , hədis 35
[8] əl-Məhasin, c.1, səh. 294 , hədis 587
[9] əl-Məhasin, c.1, səh. 159 , hədis 225

möhtac olmasın.»[1]

***1029. Şəfaət edənlər***

3300. Allahın Peyğəmbəri (s): «Allah yanında üç dəstə şəfaət edər və səfaətləri qəbul olunar: «Peyğəmbərlər, sonra alimlər, sonra da şəhidlər.»[2]

3301. Allahın Peyğəmbəri (s): «Şəfaət etmək peyğəmbərlərə, vəsilərə, möminlərə və mələklərə məxsusdur.»[3]

3302. Allahın Peyğəmbəri(s):Şəfaət edənlər beşdir: Qur'an, qohum, əmanət, sizin Peyğəmbəriniz və Peyğəmbərinizin Əhli-Beyti(ə) [4]

3303. Allahın Peyğəmbəri (s): «Tövbədən faydalı şəfaətçi yoxdur.»[5]

3304. İmam Əli (ə): «İnsanların şəfaətçisi haqqa əməl etmək, sədaqət və doğruluğa vəfalı qalmaqdır.»[6]

***1030. Vasitə***

**Qur'an:**

«Ey möminlər! Allahdan qorxun. Ona (pənah gətirməyə) yaxınlaşmağa çalışın və Onun yolunda cihad edin ki, bəlkə nicat taparsınız.»[7]

**Hədis:**

3305. Allahın Peyğəmbəri (s): «Allahdan mənim «vasitə» olmağımı diləyin... Kim mənim «vasitə» olmağımı diləsə, ona şəfaət olunar.»[8]

3306. Allahın Peyğəmbəri(s): «İmamlar Hüseynin (ə) nəslindəndir. Kim onlara itaət edərsə, Allaha itaət etmişdir. Kim onlara itaətsizlik göstərərsə, Allaha itaətsizlik etmişdir. Onlar Allaha yaxınlaşmaq üçün ən möhkəm vasitədirlər.»[9]

***1031. Şəfaətə ən çox ləyaqəti olan insan***

3307. Allahın Peyğəmbəri(s):«Həqiqətən, sabah, Qiyamətdə sizlərdən mənə ən yaxın və mənim şəfaətimə ən çox ləyaqəti olan şəxs ən doğru danışanınız, əmanətə hamıdan çox sadiq olanınız, hamıdan əxlaqlı və insanlara ən yaxın olanınızdır.»[10]

***1032. Möminin şəfaəti onun əməli qədərdir.***

3308. Allahın Peyğəmbəri (s): «Möminlərin arasında da elələri var ki, «rəbiə» və «muzir» qəbilələri qədər şəfaət edəcəklər. Şəfaətə hamıdan az haqqı olan möminlər fəqət otuz nəfərə şəfaət edəcəklər.»[11]

3309. İmam Baqir(ə): «İnsan var öz xalqına və qohum əqrəbasına şəfaət

---

[1] Biharul-Ənvar, c.8,səh. 38 , hədis 16
[2] əl-Xisal,səh. 156 , hədis 197
[3] Biharul-Ənvar, c.8,səh. 58 , hədis 75
[4] Biharul-Ənvar, c.8,səh. 43 , hədis 39
[5] Biharul-Ənvar, c.8,səh. 58 , hədis 75
[6] Ğurərul-Hikəm, hədis 5789
[7] Maidə, ayə 35
[8] Səhihi-Muslim , hədis 384
[9] Uyune Əxbare Rza (ə), c.2,səh.58 , hədis 217
[10] Əmali-Səduq,səh. 411 , hədis 5
[11] Biharul-Ənvar, c.8,səh. 58 , hədis 75

edəcək, insan var öz ailəsinə şəfaət edəcək, insan da var öz əməli qədər iki nəfərin haqqında şəfaət edəcək. Budur, elə Mahmud (bəyənilmiş) məqamı.» [1]

**221**

# Bədbəxtlik

***1033. Bədbəxtin xüsusiyyətləri***

3310. İmam Əli (ə): «Bədbəxt öz nəfsi istəklərinə aldanandır.»[2]

3311. İmam Əli (ə): «Bədbəxt, öz əqlindən və təcrübəsindən bəhrələnməyəndir.»[3]

3312. İmam Əli (ə): «Günahları tərk edin və öz nəfslərinizi onlardan çəkindirin. Çünki bədbəxt öz cilovunu günahlar meydanına buraxandır.»[4]

***1034. Bədbəxt, anasının bətnində bədbəxtdir.***

3313. Allahın Peyğəmbəri (s): «Xoşbəxt insan, anasının bətnində xoşbəxtdir. Bədbəxt, anasının bətnindən bədbəxtdir.»[5]

3314. İmam Sadiq (ə): «Allah-taala Öz məxluqatını yaratmamış xoşbəxtliyi və bədbəxtliyi yaratdı. Beləliklə, Allah xoşbəxt bildiyi şəxslə düşmənçilik etməz. Əgər pis iş görərsə, onun işi ilə düşmən olar, özü ilə yox. Amma bədbəxt bildiyi şəxsi heç vaxt sevməz. Əgər yaxşı iş görərsə onun bu işini sevər, ancaq taleyinə görə ondan xoşu gəlməz.»[6]

3315. İmam Sadiq (ə): «Allah-taala bəndəni bədbəxtlikdən xoşbəxtliyə köçürər, amma xoşbəxtlikdən bədbəxtliyə köçürməz.»[7]

3316. İmam Kazim (ə) (*Peyğəmbərin (s) «Bədbəxt insan, anasının bətnində bədbəxtdir..» sözü barədə ibn Əbi Uməyrin sualına cavabında)*: «Bədbəxt insan, hələ anasının bətnində olarkən Allah-taala bilir ki, o gələcəkdə bədbəxtlərin iş və əməllərini görəcəkdir. Xoşbəxt olan insansa, hələ ana bətnində olarkən, Allah-taala onun gələcəkdə xoşbəxtlərin əməllərini və rəftarını edəcəyini bilir.»[8]

---

[1] Biharul-Ənvar, c.8,səh. 43 , hədis 41
[2] Nəhcül-Bəlağə, xütbə 86
[3] Nəhcül-Bəlağə, məktub 78
[4] Ğurərul-Hikəm,hədis 4499
[5] Kənzul-Ummal, səh. 491
[6] ət-Tovhid, səh. 357 , hədis 5
[7] ət-Tovhid,səh. 358 , hədis 6
[8] ət-Tovhid,səh. 358 , hədis 3

**1035. Bədbəxtliyin amilləri.**

3317. İmam Əli (ə): «Bədbəxtliyin səbəbi dünyapərəstlikdir.»[1]

3318. İmam Hüseyn (ə)- Ərəfə gününün duasında buyurur- «İlahi! Özün tərəfindən gəlbimə elə bir qorxu sal ki, sanki Səni görürəm. Təqva və Özündən qorxu vasitəsi ilə məni xoşbəxt et, günah və itaətsizliklə məni bədbəxt etmə.»[2]

***1036. Ən bədbəxt insan***

3319. Məsih (ə): «İnsanların ən bədbəxti xalq arasında öz elmi ilə məşhurlaşan və əməli ilə tanınmayandır.»[3]

3320. Allahın Peyğəmbəri (s): «Ən bədbəxt insan dünyanın yoxsulluğunu və axirətin əzabını özündə cəm edəndir.»[4]

3321. İmam Əli (ə)- «Ən bədbəxt insan kimdir?» sualının cavabında- «Öz dinini başqasının dünyasına satan.»[5]

***1037. Bədbəxtliyin əlamətləri***

3322. Allahın Peyğəmbəri (s): «Bədbəxtliyin əlamətləri bunlardır: ağlamayan göz, daşgəlblilik, ruzi istəməkdə çox hərislik etmək və günaha israrlı olmaq.»[6]

3323. İmam Əli (ə): «Bədbəxtliyin əlamətlərindən biri dosta qarşı hoqqabazlıq etməkdir.»[7]

3324. İmam Əli (ə): «Bədbəxtliyin nişanələrindən biri yaxşılara pislik etməkdir.»[8]

ιooooooπ

[1]Ğurərul-Hikəm,hədis 5516
[2] Biharul-Ənvar, c.98, səh. 218 , hədis 19
[3] Biharul-Ənvar, c.2, səh. 52 , hədis3
[4] Kənzul-Ummal, hədis 16683
[5] Əmali-Sədduq,səh. 322, hədis 4
[6] əl-Xisal,səh. 243, hədis 96
[7] Ğurərul-Hikəm, hədis 9297
[8] Ğurərul-Hikəm, hədis 9307

**222**

# Şükr

***1038. Allaha şükr etməyə həvəsləndirmək***

**Qur’an:**

«Məni yad edin ki, sizi yad edim. Mənə şükr edin və naşükür olmayın.»[1]

**Hədis:**

3325. İmam Əli (ə): «Şükr var dövlətin zinəti və səbr, çətinliyin zinətidir.»[2]

3326. İmam Əli (ə): «Allah qarşısında sizə ən vacib olan əməl Onun nemətlərinə şükr etmək və Onun razılığına səbəb olan şeyləri hazırlamaqdır.»[3]

3327. İmam Sadiq (ə): «Hər çəkdiyin nəfəs üçün bir şükr, bəlkə min şükr və mindən də çox şükr etmək sənə vacibdir.»[4]

***1039. Şükr edən***

**Qur’an:**

«Allaha ibadət et və şükr edənlərdən ol»[5]

**Hədis:**

3328. İmam Sadiq (ə):«Misbahus Şəriə» kitabında o Həzrətə aid olunub- «Əgər Allah üçün, Onun muxlis bəndələrinin Allahı ibadət etmələrindən ötrü, bütün hallarda şükr etməkdən yaxşı bir ibadət olsaydı, o kəlməni bütün məxluqatına aid edərdi. Amma ondan yaxşı ibadət olmadığına görə, ibadətlərin arasında ona xüsusi yer verdi və onun sahiblərini məxsusən qeyd edərək buyurdu: «Bəndələrimin az bir hissəsi şükr edərlər.»[6]

3329. İmam Hadi (ə): «Şükr edən, öz şükrünün bərəkətindən, onun şükrünə səbəb olan nemətdən daha çox səadət qazanar. Çünki nemətlər dünya malıdır, amma şükr, nemətləri özü ilə axirətə aparar.»[7]

3330. İmam Əskəri (ə): «Nemətin qədrini şükr edəndən başqa bir kimsə bilməz və nemətin şükrünü, nemətin qədrini biləndən başqa bir kəs etməz.»[8]

***1040. Nemətin artmasında şükr etməyin rolu***

**Qur’an:**

---

1 Bəqərə, ayə 152
2 əl-İrşad, c.1, səh. 300
3 Ğurərul-Hikəm, hədis 3329
4 Biharul-Ənvar, c.71, səh. 52, hədis 77
5 Zumər, ayə 66
6 Misbahuş-Şəriyyə,səh. 55
7 Tuhəful-Uqul,səh. 483
8 Ə‘lamud-Din,səh. 313

«Rəbbiniz belə bəyan etdi: «Əgər şükr etsəniz sizin nemətinizi artıraram və əgər naşükürlük etsəniz, həqiqətən, Mənim əzabım şiddətli olacaqdır.»[1]

**Hədis:**

3331. Allahın Peyğəmbəri (s): «Allah bəndənin üzünə şükrün elə bir qapısını açmadı ki, bu zaman nemətin artım qapısından da biri onun üzünə açılmamış olsun.»[2]

3332. İmam Əli (ə): «Allah-taala bəndəyə bir nemət verəndə və bəndə öz qəlbində o nemətin şükrünü edəndə, şükrünü dilinə gətirməmişdən qabaq, şəmin nemətin onun üçün artması vacib olur.»[3]

***1041. Şükr neməti üçün şükr etməyin vacibliyi***

3333. İmam Səccad (ə): -duada- «Mənim Sənə şükr etməyim (nemətinin özü) şükrə möhtac olduğu halda Sənin şükrünü necə yerinə yetirə bilərəm? Hər dəfə «şükr Sənə» deyəndə, elə şükr etmək nemətinin özünə görə bir daha «şükr Sənə» demək mənə vacib olur.»[4]

3334.İmam Sadiq(ə):«Allah-taala Musaya(ə) vəhy etdi:«Ey Musa! Mənə, layiq olduğum kimi şükr et.» Musa(ə) ərz etdi:«Ey Rəbbim. Sənə söylədiyim hər bir şükrün özü, Sənin mənə bəxş etdiyin bir nemət olduğu halda necə Sənə layiq olduğun kimi şükr edim?» Buyurdu: «Ey Musa! O şükrün uğurunu Mənim sənə bəxş etdiyimi dərk etdiyin zaman, şükrümün haqqını yerinə yetirmiş olarsan.»[5]

***1042. Şükrün həqiqəti***

3335. İmam Əli (ə): «Hər bir nemətin şükrü Allahın haram etdiklərindən çəkinməkdir.»[6]

3336. İmam Əli (ə): «Düşməninə üstün gəldiyin zaman, ona güzəşt etməyini öz qələbənin şükrü bil.»[7]

3337. İmam Baqir (ə): «Allahın az ruzisini özün çox bil ki, bununla onun şükrünü etmiş olarsan.»[8]

3338. İmam Sadiq (ə): «Nemətin şükrü haramlardan uzaqlaşmaq və şükrün bütövlüyü insanın «həmd olsun, aləmlərin Rəbbi olan Allaha» deməsidir.»[9]

3339. İmam Sadiq (ə): «Allah-taala bir şəxsə nemət bəxş edən zaman, həmin şəxs qəlbində o neməti Allah tərəfindən verildiyi kimi tanıyarsa, onun şükrünü yerinə yetirmiş olar.»[10]

3340. İmam Sadiq (ə):«Peyğəmbərin (s) qarşısına xoşagələn bir iş çıxan zaman buyurardı:«Allahın bu nemətinə şükür.» Eləcə də, qəm-qüssə gətirən bir

---

[1] İbrahim, ayə 7
[2] əl-Kafi, c.2, səh. 94, hədis 2
[3] Əmali-Tusi,səh. 580, hədis 1197
[4] Biharul-Ənvar, c.94,səh. 146, hədis 21
[5] Qəsəsul-Ənbiya,səh. 161, hədis 178
[6] Mişkətul-Ənvar,səh. 35
[7] Nəhcül-Bəlağə, hikmət 11
[8] Tuhəful-Uqul,səh. 285
[9] əl-Kafi, c.2,səh. 95, hədis 10
[10] əl-Kafi, c.2,səh. 97, hədis15

hadisə ilə rastlaşanda buyurardı: «Hər bir halda şükr olsun Allaha.»[1]

3341. İmam Sadiq (ə)- «Misbahuş Şəriyə» kitabında o Həzrətə istinad olunduğu kimi- «Şükrün ən azı insanın nemətin bilavasitə Allah tərəfindən olduğunu bilməsi və nemət üçün Ondan başqa bir səbəb görməməsidir. Həmçinin, Allahın bəxş etdiyinə razı olması və Onun nemətilə günaha tərəf getməməsi, ya da Allahın nemətindən, Onun heç bir əmrinə və qadağanına zidd olan yolda istifadə etməməsidir.»[2]

***1043. Ən çox şükr edən insan***

3342. İmam Əli (ə): «Ən çox şükr edən insan hamıdan çox qane və nemətlərə görə ən naşükür insan, hamıdan tamahkar olandır.»[3]

3343. İmam Səccad (ə): «Allaha ən şükrlü olanınız, insanlara ən çox təşəkkür edəninizdir.»[4]

***1044. Yaxşı əməl sahibinə təşəkkür etməyə həvəsləndirmək***

3344. İmam Həsən (ə): «Alçaqlıq, nemətə naşükür olmaqdır.»[5]

3345. İmam Səccad(ə): «Sənə yaxşılıq edənin haqqı, ona təşəkkür etməyin, yaxşılığını dilə gətirməyin, onu yaxşılıqla yad etməyin və Allahla özün aranda onun üçün ixlasla dua etməyindir. Əgər belə etsən, gizlində və aşkarda ona təşəkkür etmiş olarsan. Özü də, bir gün onun yaxşılığının əvəzini çıxmağa imkanın olarsa, bunu et.»[6]

***1045. İnsanlara təşəkkür etməyən Allaha minnətdar olmaz***

3346. İmam Səccad (ə) : «Allah-taala Qiyamət günü Öz bəndələrindən birinə buyurar: «Filankəsə təşəkkür etdinmi?» O, deyər: «Xeyr, ey Rəbbim! Mən Sənə təşəkkür etdim.» Allah-taala buyurar:«Ona təşəkkür etmədiyin üçün, Mənə də təşəkkür etməmisən.»[7]

3347. İmam Sadiq (ə): «Yaxşılığın yolunu kəsənlərə Allah Lənət eləsin. Yəni, bir şəxsə yaxşılıq edilərsə, o da bunun müqabilində naşükürlük edər və nəticədə yaxşı əməl sahibini başqalarına yaxşılıq etməkdən çəkindirər.»[8]

3348. İmam Rza (ə): «Kim insanların yaxşılığının müqabilində təşəkkür etməsə, Allaha təşəkkür etməmişdir.»[9]

---

[1] əl-Kafi, c.2,səh. 97, hədis19
[2] Misbahuş-Şəriyə,səh. 53
[3] əl-İrşad, c.1,səh. 304
[4] əl-Kafi, c.2,səh. 99, hədis30
[5] Tuhəful-Uqul,səh. 233
[6] əl-Xisal,səh. 568, hədis1
[7] əl-Kafi, c.2,səh. 99, hədis30
[8] əl-İxtisas,səh. 241
[9] Uyune Əxbari Rza (ə) c.2,səh. 24, hədis2

**223**

# Şəkk

***1046. Şəkk***

3349. İmam Əli (ə) : « Sənə əmin olduğundan yapışmağı və şəkkdən uzaqlaşmağı tövsiyyə edirəm. Çünki insanın dini üçün, şəkkin onun əminliyinə qalib gəlməsi qədər məhvedici bir şey yoxdur.»[1]

3350. İmam Əli (ə): «Haqqı tapdığım andan bəri Onda şəkk etməmişəm.»[2]

3351. İmam Əli (ə) : «Mənim öz Rəbbimə əminliyim var və dinimdə heç bir şübhə yoxdur.»[3]

3352. İmam Sadiq (ə): «Çirkabı sizdən təmizləyər.»[4] ayəsi barədə- «Burada məqsəd, elə şəkkin çirkabıdır. Allaha and olsun, biz heç vaxt öz Rəbbimiz barədə şəkkə düşmürük.»[5]

***1047. Şəkkin yaranma amilləri***

3353. İmam Əli (ə): «Şəkk nadanlığın məhsuludur.»[6]

3354. İmam Əli (ə): «Kim Allahın işində itaətsizlik edərsə, şəkkə düçar olar. Kim şəkkə düşərsə, Allah ona üstün gələr. Öz qüdrəti ilə onu xar edər və Öz cəlalı ilə onu alçaldar. Necə ki, o da Allahın işində səhlənkarlıq etmişdi.»[7]

3355. İmam Əli (ə): «Şübhələnməyin ki, şəkkə düçar olarsınız. Şəkkə düşməyin ki, küfrə yuvarlanarsınız. Öz nəfslərinizə meydan verməyin ki, belə olan halda dində səhlənkarlıq olar.»[8]

3356. İmam Əli (ə): «Şəkk, imanı bərbad edər.»[9]

3357. İmam Əli (ə): «Şəkk qəlbin nurunu söndürər.» [10]

3358. İmam Əli (ə): «Şəkkin məhsulu çaşqınlıqdır.»[11]

---

[1] Ğurərul-Hikəm,hədis 6146
[2] Ğurərul-Hikəm,hədis 9482
[3] Həhcül-Bəlağə, xütbə 22
[4] Əhzab, ayə 33
[5] əl-Kafi, c.1, səh. 288 , hədis1
[6] Ğurərul-Hikəm,hədis 725
[7] Həhcus-Səadə, c.1,səh. 373
[8] Biharul-Ənvar, c. 2,səh. 54 , hədis24
[9]Ğurərul-Hikəm,hədis 723
[10] Ğurərul-Hikəm,hədis 1242
[11] Ğurərul-Hikəm,hədis 4619

***1048. Şəkki götürən şey***

3359. İmam Əli (ə): «Ardıcıl surətdə düşünməklə şəkk aradan gedər.»[1]

3360. İmam Əli (ə): «Allahın yaratdıqlarını gördüyü halda, Onun varlığına şəkk edən şəxsə təəccüb edirəm.»[2]

3361. İmam Əli (ə):«Heç bir ixlaslı bəndə şübhəyə düçar olmadı və heç bir yəqin əhli şəkkə düşmədi.»[3]

3362. İmam Əli (ə): «Şəkkin dörd şaxəsi var: mübahisə etmək, qorxu, çaşqınlıq və təslim olmaq. Mübahisəni özünə adət etmiş şəxsin, gecəsi səhər olmaz. Kim gələcək hadisələrdən qorxuya düşsə, keçmişə qayıdar. Tərəddüd və çaşqınlıqda qalan şeytanların caynağında didilər. Dünya və axirət ölümünə təslim olansa, hər iki sarayda məhv olar.»[4]

ιοοοοοοπ

---

[1] Ğurərul-Hikəm,hədis 4271
[2] Həhcül-Bəlağə, hikmət 126
[3] Ğurərul-Hikəm,hədis 9532
[4] Nəhcül-Bəlağə, hikmət 31

**224**

# Şahidlik

## Məhkəmə məsələlərində

***1050. Ədalətli şahidlik***

**Qur'an:**

«Ey möminlər! Allahın razılığı naminə qalxın və ədalətlə şahidlik edin. Bəzi insanlarla düşmənçiliyiniz sizi ədalətsizliyə vadar etməsin. Ədalətli olun ki, bu təqvaya daha yaxındır və Allahdan qorxun ki, Allah etdiklərinizdən xəbərdardır.»[1]

**Hədis:**

3363. Allahın Peyğəmbəri (s): «Mən ədalətliyəm və ədalətdən qeyri bir şeyə şahidlik etmərəm.»[2]

3364. İmam Əli (ə): «Ədalət, şahidliyin ruhudur.»[3]

***1051. Şahidlik etməyə həvəsləndirmək***

**Qur'an:**

«Allaha xatir doğru şahidlik edin» [4]

«Şahidlər, şəşadət vermək üçün çağırılanda, ondan boyun qaçırmamalıdırlar.»[5]

**Hədis:**

3365. Allahın Peyğəmbəri (s): «Kim bir nəfər müsəlmanın haqqını bərpa etmək üçün haqqına şahidlik edərsə, Qiyamət günü üzünün nuru göz işləyən məsafədə görünən halda gətirilər və məxluqlar onu adı, əsl-nəcabəti ilə tanıyar.»[6]

3366. İmam Sadiq (ə): -»Şahidlər, şahidlik etmək üçün...» ayəsi barədə- «Bir şəxs şahidlik etmək üçün də'vət olunduqda «Mən sizin üçün şəhadət vermirəm» deməməlidir.» [7]

3367. İmam Sadiq (ə):«Şahidlik etmək üçün də'vət olunanda, də'vəti qəbul et.»[8]

---

[1] Maidə, ayə 8
[2] Kənzul-Ummal, səh. 17735
[3] Ğurərul-Hikəm,hədis 356
[4] Təlaq, ayə 2
[5] Bəqərə, ayə 282
[6] Biharul-Ənvar, c.104, səh. 311 , hədis9
[7] Təfsirul-Əyyasi,səh. 156 , hədis524
[8] Təhzibul-Əhkam, c.6, səh. 275 , hədis752

### *1052. Şəhadəti gizlətmək*

**Qur'an:**

«Allah tərəfindən gələn şəhadəti özündə gizlədən şəxsdən daha zalım kim ola bilər?.» [1]

«Şəhadəti gizlətməyin. Kim onu gizlədərsə, qəlbi günahkar olar. Allah etdiklərinizi bilir.»[2]

**Hədis:**

3368. Allahın Peyğəmbəri (s):«Kim şahidlik etmək üçün çağırılan zaman, öz şəhadətini gizlədərsə, yalan şəhadət verən şəxs kimidir.»[3]

3369. Allahın Peyğəmbəri (s):«Kim öz şəhadətindən dönüb onu gizlətsə, Allah-taala (Qiyamət günü) məxluqların yanında onun ətini özünə yedizdirər və o, öz dilini çeynəyə-çeynəyə Cəhənnəmə gedər.»[4]

### *1053. Sahidliyi qəbul olunan şəxslər*

3370. İmam Əli (ə): -Şureyhə xitabən- «Bil ki, öz günahının cəzasına görə şallaq vurulmuş və tövbə etməmiş, ya yalan şəhadət verməsilə məşhurlaşan, ya barəsində bədgüman olunmuş (şübhəli) şəxsdən başqa müsəlmanlar bir-birilə münasibətdə ədalətli sayılırlar.»[5]

3371. İmam Sadiq (ə):«Fasiqin şahidliyini, yalnız özünə zidd olacaq halda qəbul edərəm.»[6]

3372. İmam Sadiq (ə):«Əmirəl-möminin (ə) nə söyüş söyən və acı dili olanın, nə də keçmişdə dinsizliyi ilə məşhur olan şəxsin şahidliyini qəbul etməzdi.»[7]

### *1054. Şəhadət verməyin ədəbi*

3373. Allahın Peyğəmbəri (s)-şəhadət vermək barədə sualın cavabında-»Günəşi görürsənmi? Mövzu sənin üçün həmin günəş kimi aydın, işıqlı olanda şahidlik et və əks halda şəhadət verməkdən çəkin.»[8]

3374. İmam Sadiq (ə):«Şəhadətini ovcunun içi kimi tanımasan şahidlik etməməlisən.»[9]

---

[1] Bəqərə, ayə 140
[2] Bəqərə, ayə 283
[3] Kənzul-Ummal, hədis 17743
[4] Səvabul-Əmal,səh. 333
[5] Mən la yəhzuruhul-Fəqih, c.13,səh. 15 , hədis3243
[6] əl-Kafi, c.7, səh. 395 , hədis5
[7] əl-Kafi, c.7, səh. 396 , hədis7
[8] Vəsailuş-Şiə, c.18, səh. 250 , hədis3
[9] əl-Kafi, c.7, səh. 383, hədis3

1000000π

**225**

# Şəhadət (2)

## Allah yolunda ölmək

### *1055. Şəhidliyin fəziləti*

**Qur'an:**

«Allah yolunda öldürülənləri heç vaxt ölü hesab etmə. Əksinə, onlar diridirlər və Allahın yanında ruzi yeyərlər.» [1]

3375. Allahın Peyğəmbəri (s):«İnsanın Allah yolunda öldürülməsi həddinə qədər, hər yaxşılıqdan üstün yaxşılıq vardır. Beləliklə, insan Allah yolunda öldürülərsə, bundan üstün (və dəyərli) yaxşılıq olmaz.»[2]

3376. Allahın Peyğəmbəri (s):«Ən şərəfli ölüm şəhadətdir.»[3]

3377. Allahın Peyğəmbəri (s) :«İstəyirəm ki, Allah yolunda vuruşum və öldürülüm, yenə vuruşum və öldürülüm. Yenə də vuruşum və öldürülüm.»[4]

3378. Allahın Peyğəmbəri (s):«Şəhidin borcdan başqa bütün günahları bağışlanar.»[5]

3379. Allahın Peyğəmbəri (s):«Düşmənlə üz-üzə gələn şəxs əgər öldürülənədək müqavimət göstərsə və ya qalib gələrsə, qəbr əzabı görməz.»[6]

3380. Allahın Peyğəmbəri (s):«Şəhiddən başqa heç kim ölümündən sonra, Allahın yanında xeyir nemətlərdən bəhrələnən və eyni zamanda, bütün dünyanı ona bağışlasalar da yenidən dünyaya qayıtmaq istəməz. Çünki o, şəhadətin fəzilətini bildiyinə görə, dünyada öldürülmək üçün dünyaya qayıtmasını arzulayar.»[7]

3381. İmam Əli (ə):«Siz, öldürülməsəniz də öləcəksiniz. And olsun Əlinin canı Onun qüdrət əlində olana ki, başa min qılınc zərbəsinin endirilməsi, yataqda ölməkdən daha asandır.»[8]

### *1056. Şəhadət istəməyin savabı*

3382. Allahın Peyğəmbəri (s):«Kim sidq ürəklə Allahdan şəhid olmasını istəyərsə, öz yatağında ölsə belə, Allah-taala onu şəhidlərin məqamına

---

[1] Ali-İmran, ayə 169
[2] əl-Kafi, c.2, səh. 348 , hədis4
[3] Biharul-Ənvar, c.100,səh.8 , hədis4
[4] Səhihi-Muslim , hədis1876
[5] Kənzul-Ummal, hədis 11110
[6] Kənzul-Ummal, hədis 10662
[7] Səhihi-Muslim , hədis1877
[8] əl-İrşadul-Lil-Mufid, c.1,səh. 238

çatdırar.»[1]

***1057. Şəhid hesab olunanlar***

3383. Allahın Peyğəmbəri (s):«Özünü zülmdən qorumaq yolunda öldürülən şəxs, şəhiddir.»[2]

3384, Allahın Peyğəmbəri (s):«Öz eşqini gizlətdiyinə və paklığını saxladığına görə ölən aşiq, şəhiddir.»[3]

3385. Allahın Peyğəmbəri (s):«Məhəmməd Əhli-Beytinin (ə) məhəbbəti ilə dünyadan köçən, şəhiddir.»[4]

3386. İmam Səccad (ə):«Kim bizim qaimimizin (ə) qeybəti dövründə qəlbində bizə dostluq və məhəbbət ölərsə, Allah-taala Bədr və Uhud şəhidləri kimi min şəhidin mükafatını ona bəxş edər.»[5]

***1058. Allah yolunda yaralanmağın savabı***

3387. Allahın Peyğəmbəri (s):«Kim Allah yolunda yaralanarsa, Qiyamət günü müşk ətrinə bənzər bir ətir saça-saça, rəngi zəfəran rəngində və üzərində şəhidlərin nişanəsi ilə gələr. Kim ixlasla Allahdan şəhidlik istəsə, yataqda ölsə belə, Allah-taala ona şəhidin mükafatını verər.»[6]

ιooooooπ

[1] Səhihi-Muslim , hədis1909
[2] Kənzul-Ummal, hədis 11205
[3] Kənzul-Ummal, hədis11203
[4] Biharul-Ənvar, c.68,səh.137 , hədis76
[5] Biharul-Ənvar, c.82,səh.173 , hədis6
[6] Kənzul-Ummal, hədis 11144

# 226

# Şöhrət

***1059. Təqdir olunmuş şöhrət***

**Qur'an:**

«Məgər səni adlı-sanlı etmədikmi?»[1]

«… və gələcək nəsillər arasında məni yaxşı ad-sanla tanıtdır.»[2]

**Hədis:**

3388. Alahın Peyğəmləri (s) (bir kişinin yaxşı bir iş gördüyünə görə xalqın onu tərifləməsi barədə sualının cavabında): «Bu, dünyada mömınə gəlib çatan bir müjdədir.»[3]

3389. Allahın Peyğəmbəri (s):«Allah-taala mənim ümmətimdən bir bəndəni sevəndə, seçilmiş bəndələrin qəlblərinə, mələklərin ruhlarına və Öz ərşinin sakinlərinin qəlblərinə onun məhəbbətini salar ki, onu sevsinlər. Budur həqiqətən sevilən insan.»[4]

***1060. Məzəmmət olunmuş şöhrət***

**Qur'an:**

«O axirət evini yer üzündə üstünlük (təkəbbürluk) və fəsad istəməyənlərə verəcəyik və gözəl aqibət təqvalılara məxsusdur.» [5]

**Hədis:**

3390. Allahın Peyğəmbəri (s):«Allah tərəfindən pislikdən qorunan şəxsdən başqa, dininə və dünyasına görə xalq arasında barmaqla göstərilməsi bir şər olaraq insana bəsdir.» [6]

3391. İmam Əli (ə):«Dünyada bir pillə yüksək məqama qalxmaq istəyən və qalxan elə bir bəndə yoxdur ki, Allah-taala axirətdə onu həmin pillədən də yüksək bir pillə aşağı endirməmiş olsun.»[7]

3392. İmam Sadiq (ə) (mömini vəsf edərkən): «Mömin dünya izzətini arzulamaz və onun xarlığına dözümsüzluk göstərməz. İnsanlar dünyanın qəmini çəkməkdədir, onu isə axirətin fikri məşğul etmişdir.»[8]

---

[1] Şərh, ayə 4
[2] Şüəra, ayə 84
[3] Səhihi-Muslim , hədis 2642
[4] Biharul-Ənvar, c.70, səh. 24, hədis23
[5] Qəsəs, ayə 83
[6] Şərhi Nəhcül-Bəlağə, c.2, səh. 181
[7] Kənzul-Ummal, hədis 6144
[8] Biharul-Ənvar, c.67,səh.271, hədis3

***1061. Paltar və ibadətə görə şöhrətin pislənilməsi***

3393. İmam Sadiq (ə):«İnsana rüsvayçılıqda onun barmaqla göstərilməsinə səbəb olan paltar geyinməsi və ya barmaqla göstərilən miniyə minməsi bəsdir.»[1]

3394. İmam Sadiq (ə):«Allah-taala iki şeyə görə məşhurluğu düşmən bilir: Paltara və namaza görə məşhurluq.»[2]

3395. İmam Sadiq (ə):«İbadətlə məşhurlaşmaq bədgümanlığa səbəb olar.»[3]

3396. İmam Sadiq (ə):«Şöhrətin yaxşısı və pisi də oddadır.»[4]

ιοooooοπ

---

[1] Biharul-Ənvar, c.78,səh.252 , hədis105
[2] Mişkətul-Ənvar, səh. 320
[3] Biharul-Ənvar, c.72,səh.297, hədis27
[4] əl-Kafi, c.2,səh. 445, hədis3

**227**

# Məşvərət

***1062. Məşvərət etməyə həvəsləndirmək***

**Qur'an:**

«Öz Rəbblərinin çağırışına cavab verib namaz qılanlar və işləri öz aralarında bir-birilə məsləhətləşmək olanlar onlara verdiyimiz ruzidən bəxşiş edərlər»[1]

**Hədis:**

3397. İmam Əli (ə): «Məşvərət etmək (doğru) yol tapmağın gözüdür. Öz rə'yi və fikri ilə kifayətlənən şəxs özünü təhlükəyə atmışdır.»[2]

3398. İmam Əli (ə):«Məşvərət kimi (möhkəm) dayaq yoxdur.»[3]

3399. İmam Əli (ə):«Məşvərət etmək tövsiyə və təşviq olunmuşdur, Çünki məsləhət verənin rə'yi (şəxsi qərəzlərdən) pak, məşvərət edənin nəzəri (şəxsi gərəzlər və mənfi istəklərlə) qarışmışdır.»[4]

3400.Allahın Peyğəmbəri (s):«Ey Əli! Qorxaqla məşvərət etmə ki, müşkülün həll yolunu sənə dar edər. Simiclə məşvərət etmə ki, səni məqsədindən çəkindirər. Həris adamla məşvərət etmə ki, hərisliyi sənin nəzərində gözəl göstərər.»[5]

3401.İmam Əli (ə):«Yalançı ilə məşvərət etmə. Çünki yalançı ilğım kimi uzağı sənə yaxın və yaxını uzaq göstərəcək.»[6]

***1064. Məşvərətə layiq olanlar***

3402.İmam Sadiq (ə):«Məşvərət onun dörd həddindən qeyri bir halda baş tutmaz: birinci hədd budur ki, məşvərət etdiyin ağıllı olsun, ikincisi azad və dindar olsun, üçüncüsü dost və qardaşcanlı olsun. Dördüncü isə budur ki, öz şirrini ona deyəsən, o da özün bildiyin qədər həmin sirdən agah olsun və onu gizlətsin, heç kəsə deməsin.»[7]

***1065. Məsləhə edənə bir yol göstərməyə həvəsləndirmək***

3403. İmam Səccad (ə):«Məsləhət edənin haqqı budur ki, yol göstərməkçün

---

[1] Şura, ayə 38
[2] Nəhcül-Bəlağə, hikmət 211
[3] Nəhcül-Bəlağə, hikmət 54
[4] Ğurərul-Hikəm,hədis 3908
[5] İləluş-Şəraye,səh. 559, hədis1
[6] Ğurərul-Hikəm,hədis 10351
[7] Məkarimul-Əxlaq c.2, səh.98 , hədis2280

bir fikrin varsa ona yol göstərəsən və bir məlumat olmasa da, bu sahədə məlumatı olanın yanına göndərəsən.»[1]

3404.İmam Sadiq (ə):«Kim öz (din) qardaşı ilə məsləhətləşəndə həmin adam ona xalis niyyətlə yol göstərməsə, Allah onun düşüncəsini əlindən alar.»[2]

***1066. Hökumət işində məşvərət etmək***

3405. İmam Əli (ə) *(Müaviyəyə yazdığı məktubundan):* «Məşvərət, yalnız mühacir və ənsarların haqqıdır. Onlar bir şəxs barədə razılığa gəlib onu rəhbər adlandırarlarsa, Allahın razılığı da elə bundadır.»[3]

3406.İmam Əli (ə):«Haqq sözü danışmaqdan, ya ədalətli yol göstərməkdən çəkinməyin. Çünki ixtiyar sahibi olan böyük Allah məni hifz edib qorumasa, xəta və səhvdən amanda qalmaram.»[4]

3407.İmam Həsənin (ə) sülh anlaşmasında Müaviyə üçün qoyduğu şərtlərdən biri budur: «Müaviyə ibn əbi Süfyanın özündən sonra bir kəsi xəlifə təyin etmək haqqı yoxdur. Belə ki, ondan sonra xəlifəlik məsələsi müsəlmanların şurasına tapşırılacaqdır.»[5]

ιoooooοπ

[1] əl-Xisal,səh. 590, hədis1
[2] əl-Məhasin, c.2, səh 438, hədis2521
[3] Nəhcül-Bəlağə, məktub 6
[4] Nəhcül-Bəlağə, hikmət 216
[5] Biharul-Ənvar, c.44, səh. 65, hədis13

228

# Qocalıq

***1067. Qocalıq və ağ saçlar***

**Qur'an:**

«Odur sizi əvvəl zəif yaradan, bu zəiflikdən sonra qüvvə verən, sonra da yenidən zəifliyə və qocalığa düçar edən Allah. Allah istədiyini yaradar. O alim və qadirdir.» [1]

**Hədis:**

3408. Allahın Peyğəmbəri (s):«Qoca, öz həmdəminin məhəbbəti, uzun ömür və çoxlu sərvətin muqabilində həmişə gəncdir.»[2]

3409.İmam Əli (ə):«Ağ saçlar ölümün qasididir.»[3]

3410.İmam Əli (ə):«Ağ saçlar xəbərdarlıq üçün kifayətdir.»[4]

3411.İmam Əli (ə):«Mənim üçün qocalığın vuqarı, gənclik şadlığından daha sevimlidir.»[5]

3412.İmam Əli (ə):«Aqil qocalanda əqli gəncləşər, nadan qocalanda nadanlığı cavanlaşar.»[6]

3413.İmam Baqir (ə):«Bir gün İbrahim (ə) öz üzündə ağ tük görüb deyir:Şükr olsun aləmlərin Rəbbi olan Allaha ki, məni bu yaşa çatdırdı və bir an belə günah etmədim.»[7]

3414.İmam Sadiq (ə):«Ağ saçın möminə tərəf tələsdiyi qədər, heç bir şeyin digərinə tərəf tələsdiyini görmədim. Ağ saç mömin üçün dünyada vuqar və Qiyamət günü işıq saçan nurdur. Allah-taala Öz xəlili İbrahimə(ə) ağ saçlarla vüqar bəxş etdi. Bu vaxt İbrahim(ə) ərz etdi: Ey Rəbbim! Bu nədir? Allah buyurdu:Bu vüqardır. İbrahim (ə) dedi:Ey Rəbbim! Mənim vüqarımı artır. »[8]

***1068. Qocalara hörmət***

3415.Allahın Peyğəmbəri (s):«Yaşlı müsəlmana ehtiram Allaha ehtiramdır.»[9]

---

[1] Rum, ayə 54
[2] Biharul-Ənvar , c.77 səh.147, hədis9
[3] Ğurərul-Hikəm,hədis 1202
[4] Ğurərul-Hikəm, səh. 7019
[5] Ğurərul-Hikəm,hədis 10099
[6] Ğurərul-Hikəm,hədis 4169-4170
[7] İləluş-Səraye,səh. 104
[8] Əmali-Tusi,səh. 699
[9] əl-Kafi, c.2, səh.165, hədis1

3416.Allahın Peyğəmbəri (s):«Ümmətimin qocasına hörmət etmək, mənə hörmət etməkdir.»[1]

3417.İmam Sadiq (ə):«Ahıllarınıza hörmət edin və sileyi-rəhmi yerinə yetirin.»[2]

3418.İmam Sadiq (ə):«Ahıllarımıza hörmət qoymayan və uşaqlarımızla mehriban olmayan bizdən deyil.»[3]

ιooooooπ

---

[1] Kənzul-Ummal, hədis 6013

[2] əl-Kafi, c.2, səh. 165, hədis 3

[3] əl-Kafi, c.2, səh. 165, hədis 2

229

# Şiə

***1069. Şiənin məqamı***

3419.İmam Əli (ə):«Allahın Peyğəmbərinə (s) insanların mənə paxıllıq etmələrindən şikayətləndim. O Həzrət (s) buyurdu:«Ey Əli! Cənnətə daxil olacaq ilk dörd nəfər Mən, Sən, Həsən və Hüseyndir. Bizim arxamızda övladlarımız Cənnətə daxil olacaqlar. Onların arxasında bizi sevənlər, sağ-solumuzda da bizim şiələrdir.»[1]

3420.İmam Baqir (ə):«Peyğəmbərin (s) zövcəsi Ümmü Sələmədən Əli ibn Əbutalib (ə) barədə soruşduqda dedi: Allahın Rəsulundan (s) eşitdim ki, Əli və onun şiələri elə nicat tapanlardır.»[2]

***1070. Şiənin xüsusiyyətləri***

3421.İmam Əli (ə) (Nouf Bəkaliyə xitabən): «Ey Nouf! Bilirsənmi mənim şiəm kimdir?» Ərz etdi:«Xeyr, Allaha and olsun, bilmirəm.» Buyurdu:«Mənim şiələrimin (oruc tutmağın təşnəliyindən) dodaqları qurumuş, (aclıqdan) qarınları bellərinə yapışmışdır. Təqva onların üzlərindən görünər, gecənin abidləri və gündüzün şirləridirlər.»[3]

3422. İmam Həsən (ə) («Mən sizin şiələrdənəm» deyən kişinin cavabında): «Ey Allahın bəndəsi! Əgər bizim əmr və qadağalarımıza itaət edirsənsə, doğru deyirsən. Yox, əgər belə deyilsənsə, əhli olmadığın ali məqam iddiası ilə öz günahlarını artırma. Demə ki, «mən sizin şiələrdənəm.» De ki, «mən sizi sevənlərdən və sizin düşmənlərinizin düşmənlərindənəm.» Belə olan halda, sən yaxşı insansan və yaxşıya tərəf istiqamət götürmüsən.»[4]

3423. İmam Baqir (ə):«Bizim şiələrimiz yalnız Allahdan qorxan və Onun əmrinə itaət edənlərdir. Onlar təvazökarlıq, sadəlik, əmanətə sadiqlik və Allahı çox yad etməkdən başqa bir şeylə tanınmazlar.»[5]

3424.İmam Sadiq (ə):«Əslində Əli şiəsi qarın və qasıq iffətinə malikdir, (ibadətdə və nəfslə mübarizədə) çalışqandır, Yaradanı üçün işləyən, Onun mükafatına ümidvar olan və Onun cəzasından qorxandır. Belə şəxsləri görən zaman bil ki, onlar Cəfəri şiələridir.»[6]

---

[1] əl-İrşad, c.1, səh. 43
[2] əl-İrşad, c.1, səh. 41
[3] Biharul-Ənvar, c.78,səh. 28, hədis95
[4] Tənbihul-Xəvatir, c.2, səh.106
[5] Tuhəful-Uqul,səh. 295
[6] əl-Kafi, c.8,səh. 215, hədis9

3425. İmam Sadiq (ə):«Bizim şiələrimizi üç şeydə sınayın: namazın vaxtlarına riayət etməkdə, bizim düşmənlərdən sirlərini gizlətməkdə və qardaşları ilə həmdərd olub onlara maddi kömək etməkdə.»[1]

3426.İmam Sadiq (ə):«Bizim şiələrin dörd gözü var: iki gözü sifətində, iki gözü də qəlbində. Bil ki, insanların hamısı belədir. Fərq yalnız bundan ibarətdir ki, Allah-taala sizin gözlərinizi açıq və görən, onların gözlərini isə kor etmişdir.»[2]

***1071. Şiə olmayanlar***

3427.İmam Sadiq (ə):«Sözdə şiəlikdən dəm vuran, əməlində isə bizim əməllərə zidd rəftar edən, bizim şiə deyil.»[3]

3428.İmam Sadiq (ə):«Bir dəstə insan deyir ki, mən onların imamıyam. Allaha and olsun, mən onların imamı deyiləm. Allah onlara Lənət eləsin. Pərdəni hər nə qədər örtürəmsə, onlar pərdəni bir o qədər yırtırlar. Mən «belədir, elədir» deyirəm, onlarsa «Onun məqsədi filan və bəhmandır.» deyirlər. Əslində mən, mənə itaət edən şəxsin imamıyam.»[4]

3429.İmam Sadiq (ə):«Dörd şeyi inkar edən bizim şiə deyil: me'racı, qəbrdə sorğu-sualı, Cənnət və Cəhənnəmin yaradılmasını və şəfaəti.»[5]

3430. «əl-Kafi»: İmam Sadiq (ə) bir kişidən onun xalqının və qəbiləsinin əhvalını soruşdu. Kişi onları çox təriflədi. Həzrət (ə) buyurdu:«Varlılar yoxsulların xəstələrinə baş çəkirlərmi?» Kişi dedi:«Az olur.» Buyurdu:«Varlılarla yoxsulların bir-birinə gəliş-gedişi, görüşməyi necədir? Kişi dedi:«Az olur.» Buyurdu:«Varlıların yoxsullara maddi köməyi necədir?» Kişi ərz etdi:«Siz bizim aramızda nadir əxlaqı və sifətləri buyurursunuz.» Həzrət (ə) buyurdu:«Bəs, onlar özlərini necə şiə hesab edirlər?»[6]

3431.İmam Kazim (ə):«Tənhalıqda və xəlvətdə, qəlbən Allahdan qorxmayan bizim şiə deyil.»[7]

***1072. Şiənin təsnifatı***

3432.İmam Baqir (ə):«Bizim şiələr üç dəstədir: bir dəstəsi bizim adımızla xalqı qarət edər, bir dəstəsi şüşə kimidir (ürəyində nə varsa aşkar edər–yəni, sir saxlayan deyillər, ürəklərində olan sirri faş edərlər), bir dəstə də qırmızı qızıl kimidirlər və odda nə qədər çox əridilsələr, bir o qədər saflaşarlar.»[8]

3433.İmam Sadiq (ə):«Şiə üç növdür: (birinci bizə qarşı) məhəbbətli və mehriban olarlar, belə şiələr bizdəndir. (İkinci) Özünü bizlərlə bəzəyən şiə. Kim bizlərlə özünü bəzəsə, onun bəzənməsinə səbəb olarıq. (Üçüncü) Bizi öz ruzisi

---

[1] Biharul-Ənvar, c.83,səh. 92, hədis40
[2] əl-Kafi, c.8, səh. 215 , hədis260
[3] Biharul-Ənvar, c.68,səh. 164, hədis 13
[4] Biharul-Ənvar, c.58,səh. 80 , hədis76
[5] Biharul-Ənvar, c.69,səh. 9 , hədis11
[6] əl-Kafi, c.2, səh.173, hədis10
[7] Bəsairud-Dərəcat,səh. 247, hədis1
[8] Biharul-Ənvar, c.78,səh.186 , hədis24

üçün vasitəyə çevirən şiə. Kim bizi ruzi qazanmaq vasitəsi edərsə, yoxsulluğa duçar olar.»[1]

### *1073. Şiələrə həddlərini aşmağın qadağan olması*

3434.İmam Baqir (ə):«Ey şiə camaatı! Ey Ali Məhəmməd şiələri. Orta həddi gözləyin ki, iti gedən sizə tərəf qayıdacaq və geri qalan da gəlib sizə çatacaq.» Ənsarlardan Sədd adlı birisi ərz etdi:«Sənə fəda olum, iti gedən kimdir?» Həzrət (ə):«Biz öz barəmizdə deməmiyimiz şeyləri, barəmizdə danışan bir dəstədir. Onar bizlərdən deyil, biz də onlardan.» Ərz etdi:«Geri qalan kimdir?» Buyurdu:«Xeyir istəyən, axtaran şəxsdir. O, xeyrə çatar və onun mükafatını tapar.»[2]

### *1074. İnsanlarla münasibətdə şiəyə yaraşan rəftar*

3435. İmam Sadiq (ə):«Ey Əbdül-Əla! Mənim tərəfimdən şiələrə Allahın salamını və rəhmətini çatdır və de ki, İmam Sadiq sizə bunları deyir: Allahın rəhməti olsun o bəndəyə ki, insanların başa düşdükləri sözləri söyləməklə və başa düşmədikləri sözlərdən çəkinməklə xalqın məhəbbətini özünə və bizə tərəf cəlb etmiş olur.»[3]

3436. İmam Sadiq (ə):«Ey şiə camaatı! Bizim abrımızın qorunmasına səbəb olun, bədnam olmağımıza bais olmayın. İnsanlara yaxşı sözlər deyin. Dillərinizi saxlayın, onları boş, mənasız və pis sözlər danışmaqdan çəkindirin.»[4]

### *1075. Qiyamətdə şiənin məqamı*

3437. Allahın Peyğəmbəri (s):«Qiyamət günü bizə məhəbbətlərində xalis olan mənim və Əhli-Beytimin şiələri üçün ərşin ətrafında minbərlər düzüləcək. Allah-taala buyurar: Ey Mənim bəndələrim! Mənə tərəf gəlin ki, Öz Kərəmimi sizin aranızda paylayım. Çünki siz dünyada əzab-əziyyət görmüsünüz.»[5]

3438. Allahın Peyğəmbəri(s) (ibn Abbasın «Öndə gedən, birincilər, onlardır Allaha yaxın olanlar» ayəsi barədə sualının cavabında): «Cəbrayıl mənə dedi: Onlar Əli və onun şiələridir. Onlar Cənnətə gedənlərin öncülü və Allahın lütfü, kəraməti sayəsində Ona yaxındırlar.»[6]

---

[1] əl-Xisal, səh.103 , hədis 61
[2] əl-Kafi, c.2,səh. 75 , hədis6
[3] Biharul-Ənvar, c.2,səh. 77, hədis 62
[4] Əmali-Səduq, səh. 327, hədis17
[5] Uyunu Əxbari Rza (ə), c.2, səh. 60, hədis232
[6] Əmali-Tusi,səh.72 , hədis104

**230**

# Səbr

***1076. Səbrin fəziləti***

**Qur'an:**

«Çox peyğəmbərlər olub ki, Allaha sitayiş edənlər onlarla birgə düşmənlərə qarşı vuruşmuş və bu yolda onların başına gələn müsibətlərdən zəifləməmiş və aciz qalmamış, düşmənə də təslim olmamışlar. Allah səbr edənləri sevəndir.» [1]

«Allaha və Onun Rəsuluna itaət edin. Zəifləyib, əzəmət-qüdrətiniz aradan getməsin və bir-birinizlə çəkişməyin. Səbr edin ki, Allah səbr edənlərlədir.» [2]

**Hədis:**

3439. Məsih(ə):«Siz xoşunuza gəlməyənə səbr etməsəniz, sevdiyinizə çatmayacaqsınız.»[3]

3440. Allahın Peyğəmbəri (s) (*«İman nədir?» deyə soruşulduqda buyurdu):* «Səbr.» [4]

3441. İmam Əli (ə) :«Səbr çətin müsibəti asan edər.»[5]

3442. İmam Əli (ə):«Çətinliklərə səbr etmək rifah içində can rahatlığından yaxşıdır.»[6]

3443. İmam Sadiq (ə):«Möminin xəmiri çətinliklərə səbr etməklə yoğrulmuşdur.»[7]

3444. İmam Cavad (ə):«Müsibətə səbr etmək, başqalarının müsibətinə sevinən üçün bir müsibətdir.»[8]

***1077. Səbr və ali məqamlara çatmaq***

**Qur'an:**

«İsrail övladları səbr etdiklərinə görə, sənin Rəbbinin onlara verdiyi yaxşı vəd həyata keçdi.» [9]

«Səbr etdiklərinə və nişanələrimizə əmin olduqlarına görə, onların

---

[1] Ali-İmran, ayə 146
[2] Ənfal, ayə 24
[3] Musəkkinul-Fuad,səh. 48
[4] Musəkkinul-Fuad,səh. 47
[5] Ğurərul-Hikəm,hədis 533
[6] Ğurərul-Hikəm,hədis 1821
[7] Mişkətul-Ənvar,səh. 23
[8] Kəşful-Ğummə, c.3,səh. 139
[9] Ə'raf, ayə 137

arasından bizim əmrimizlə hidayət edən imamlar təyin etdik.»[1]

**Hədis:**

3445. İmam Əli (ə):«Səbrlə ali məqamlara çatmaq olar.»[2]

3446. İmam Əli (ə):«Kim Allaha (qovuşmağa) xatir səbr edərsə, öz məqsədinə çatar.»[3]

3447. İmam Sadiq (ə):«Səbr imanın başıdır»[4]

### *1078. Səbr və qələbə*

**Qur'an:**

«Nə çox olub ki, azsaylı bir dəstə Allahın izni ilə sayları çox olan dəstəyə qalib gəlsin. Allah səbr edənlərlədir.»[5]

«Əgər səbr edib, təqvalı olsanız və onlar da coşub hay-küy salmaqla üstünüzə hücum etsələr, Rəbbiniz beş min nişan qoyulmuş mələklə sizə kömək edər.»[6]

**Hədis:**

3448. Allahın Peyğəmbəri(s):«Həqiqətən, qələbə səbrlə və işin uğurlu sonluğu çətinliklə müşayət olunur. Həqiqətən, hər çətinliklə yanaşı bir asanlıq da var.»[7]

3449. Allahın Peyğəmbəri(s):«Səbrlə zəfəri gözləmək olar. Kim daim bir qapını döyərsə, axırda o qapı üzünə açılar.»[8]

### *1079. Səbrli insanın savabı*

**Qur'an:**

«Şübhəsiz, sizi qorxu, aclıq, malın azlığı, canlarınız və məhsullarınızla imtahan edəcəyik. Səbrlilərə müjdə ver. Başlarına bir müsibət gələndə «biz Allah üçünük və Ona doğru qayıdarıq» deyənlərə Rəbblərinin salam və rəhməti olsun. Hidayət tapanlar da onlardır.» [9]

3450. İmam Əli (ə) (*təqvalıların vəsfində):* «Bir neçə gün səbr etdilər və uzun müddətli rahatlıq tapdılar.»[10]

3451. İmam Sadiq (ə):«Şiələrimizdən kim çətinliyə düşəndə səbr edərsə, min şəhidin mükafatını qazanar.»[11]

3452. İmam Sadiq (ə):«Dərdə düçar olan şəxs əgər səbr edib bunun Allah yolunda olduğunu hesab edərsə, Allah-taala ona min şəhidin mükafatını yazar.»[1]

---

[1] Səcdə, ayə 24

[2] Ğurərul-Hikəm,hədis 4276

[3] Biharul-Ənvar, c.71,səh. 95, hədis60

[4] əl-Kafi, c.2,səh. 87, hədis1

[5] Bəqərə, ayə 249

[6] Ali-İmran, ayə125

[7] Biharul-Ənvar, c.77,səh. 88, hədis2

[8] Biharul-Ənvar, c.71,səh.96, hədis61

[9] Bəqərə, ayə 155-157

[10] Nəhcül-Bəlağə, xütbə 193

[11] ət-Təmhis,səh. 59, hədis5

***1080. Səbrin mənası***

3453. Allahın Peyğəmbəri (s.):«Səbr razılıqdır.»[2]

3454. İmam Əli (ə):«Səbr, insanın bir çətinlik və müsibətlə qarşılaşanda dözümlülük göstərib öz qəzəbini udmasıdır.»[3]

3455. İmam Əli (ə):«Səbr iki növdür: sənin xoşuna gəlməyən şeylərə səbr etmək və sevdiyin şeylərin müqabilində səbr edib, özünü saxlamaq (məsələn, haram ləzzətlərdən).»[4]

3456. İmam Əli (ə):«Səbr, ya müsibət qarşısında, ya itaət etməkdə, ya da günahı tərk etmədə səbrdir. Üçüncü növ əvvəlki iki növdən üstündür.»[5]

3457. İmam Baqir (ə) (*gözəl səbr barədə suala cavabından):* «O, insanlara giley və şikayət olunmayan bir səbrdir.»[6]

***1081. Əhli-Beyt şiələrinin səbri***

3458. İmam Sadiq (ə) (öz səhabələrindən birinə xitabən): «Biz səbrliyik, amma bizim şiələr bizdən də səbrlidirlər.» Ərz etdim:«Sənə fəda olum. Necə olur ki, sizin şiələr sizdən səbrli olur?» Buyurdu:«Biz bildiklərimiz şeyə, şiələrimiz isə bilmədikləri şeyə səbr edərlər.»[7]

***1082. Səbrsizliyin nəticələri***

3459. İmam Əli(ə):«Əgər səbrli olsan, ilahi müqəddərat sənin barəndə icra olunar və sən mükafat alarsan. Səbrsizlik etsən də, ilahi müqəddərat sənin barəndə icra olunacaq, lakin sən günahkar olacaqsan.»[8]

3460. İmam Əli(ə):«Əgər böyüklər kimi səbr etsən çox yaxşı. Əks halda, minik heyvanları kimi əziyyəti unudacaqsan.»[9]

3461. İmam Əli(ə):«Kim iş və qazancın əziyyətinə səbr etməsə, yoxsulluğun əziyyətinə səbr etməlidir.»[10]

3462. İmam Əli(ə):«Hər kimə səbr nicat verməsə, səbrsizlik onu həlak edər.»[11]

***1083. Səbr yaradan amillər***

3463. Allahın Peyğəmbəri(s):«Kim özünü səbr etməyə vadar etsə, Allah-taala onu çox səbrli edər. Kim paklıq istəsə, Allah onu pak edər. Kim

---

[1] Tibbul-Əimmə,səh. 17
[2] Kənzul-Ummal, hədis 6499
[3] Ğurərul-Hikəm,hədis1874
[4] Nəhcül-Bəlağə, hikmət 55
[5] Nəhcül-Bəlağənin şərhi, c.1,səh. 319
[6] əl-Kafi, c.2,səh. 93, hədis23
[7] əl-Kafi, c.2,səh. 93, hədis25
[8] Camiul-Əxbar,səh. 316, hədis882
[9] Nəhcül-Bəlağə, hikmət 414
[10] Ğurərul-Hikəm,hədis8987
[11] Nəhcül-Bəlağə, hikmət 189

ehtiyacsızlıq axtarsa, Allah onu ehtiyacsız edər. Heç bir bəndəyə səbrdən daha yaxşı və geniş bir nemət bəxş edilməyib.»[1]

3464. İmam Əli(ə):«Səbrin kökü, Allaha həqiqi əminliyin olmasıdır.»[2]

3465. İmam Əli (ə):«Xoşagəlməz işlərin müqabilində özünü səbrə vadar et. Necə də gözəl xasiyyətdir, haqqa xatir özünü səbrə vadar etmək.»[3]

3466. İmam Əli(ə):«Xoşagəlməz işlərin müqabilində özünü səbrə vadar etmək qəlbi gücləndirər.»[4]

ιοοοοοοπ ιοοοοοοπ

ιοοοοοοπ

---

[1] Kənzul-Ummal, hədis 6522
[2] Ğurərul-Hikəm,hədis 3084
[3] Nəhcül-Bəlağə, məktub 31
[4] Biharul-Ənvar, c.77,səh. 207, hədis1

# M Ü N D Ə R İ C A T


Müqəddimə ........ 5
1. Fədakarlıq ........ 11
2. İcarə ........ 13
3. Əcəl ........ 15
4. Axirət ........ 17
5. Qardaş ........ 19
6. Ədəb ........ 26
7. Azan ........ 30
8. İncitmək ........ 31
9. Əsir ........ 32
10. Bəlalar ........ 33
11. Yemək ........ 36
12. Ülfət ........ 39
13. Allah ........ 40
14. Hökmdarlıq ........ 41
15. Arzu ........ 43
16. Ümmət ........ 46
17. İmamət ........ 49
18. İmam Əli ........ 59
19. İmamların anası-Fatimə ........ 65
20. İmam Həsən Müctəba ........ 67
21. İmam Hüseyn ........ 69
22. İmam Səccad ........ 72
23. İmam Məhəmməd Baqir ........ 74
24. İmam Cəfər Sadiq ........ 75
25. İmam Musa Kazım ........ 77
26. İmam Rza ........ 79
27. İmam Cavad ........ 81
28. İmam Hadi ........ 83
29. İmam Həsən Əskəri ........ 85
30. İmam Mehdi ........ 87
31. İman ........ 93
32. Əmanətdarlıq ........ 102
33. Sığınacaq vermək ........ 104
34. Ünsiyyət ........ 105
35. İnsan ........ 106
36. Xəsislik ........ 108
37. Bid'ət ........ 111
38. İsrafçılıq ........ 113
39. Yaxşılıq ........ 114
40. Bərzəx ........ 115
41. Bərəkət ........ 116
42. Gülərüzlük ........ 117

43. Bəsirət ........ 118
44. Batil ........ 119
45. Nifrət ........ 121
46.Zülm, zorakılıq, itaətsizlik ........ 124
47. Ağlamaq ........ 126
48. Şəhər ........ 128
49. Bəlağət ........ 129
50. Təbliğat ........ 130
51. Sınaq ........ 133
52. Böhtan ........ 139
53. Mübahilə ........ 140
54. Beyət ........ 141
55. Ticarət ........ 143
56. Tövbə ........ 148
57. Töhmət ........ 153
58. Savab ........ 154
59. İnqilab ........ 155
60. Cəbr (Alın yazısı) ........ 157
61. Qəddarlıq ........ 159
62. Qorxaqlıq ........ 160
63. Mübahisə ........ 161
64. Təcrübə ........ 162
65. Dözümsüzlük edib fəryad qoparmaq ........ 163
66. Əvəz ........ 164
67. Arayıb axtarmaq ........ 165
68. Məclis ........ 167
69. Yoldaşlıq ........ 170
70. Camaat ........ 172
71. Cümə ........ 173
72. Gözəllik ........ 174
73. Cənabət ........ 176
74. Ordu ........ 177
75. Cənnət ........ 178
76. Divanəlik ........ 183
77. Cihad (1) ........ 184
78. Cihad (2) ........ 187
79. Cihad (3) ........ 189
80. Nadanlıq ........ 190
81. Cəhənnəm ........ 193
82. Cavab ........ 196
83. Səxavət ........ 197
84. Qonşu ........ 198
85. Məhəbbət ........ 200
86. Həbs ........ 207
87. Hicab ........ 209
88. Həcc ........ 210

89. Hüccət ........ 214
90. Hədis ........ 216
91. Həddlər ........ 219
92. Müharibə ........ 222
93. Müharib ........ 225
94. Azadlıq və azadəlik ........ 226
95. Hərislik ........ 227
96. Haram ........ 229
97. Peşə ........ 231
98. Uzaqgörənlik ........ 233
99. Qəm ........ 235
100. Hesab-kitab ........ 238
101. Paxıllıq ........ 243
102. Həsrət ........ 245
103. Yaxşılıq ........ 246
104. Yaxşılıq etmək ........ 247
105. Hafizə ........ 249
106. Kin bəsləmək ........ 250
107. Təhqir ........ 251
108. Haqq ........ 252
109. Hüquq ........ 255
110. Möhtəkirlik ........ 257
111. Hikmət ........ 259
112. And içmək ........ 262
113. Halal ........ 263
114.Dözümlülük ........ 264
115. Axmaqlıq ........ 266
116. Hamam ........ 268
117. Ehtiyac ........ 269
118. Ehtiyat ........ 272
119. Həyat ........ 273
120. Heyvanat aləmi ........ 274
121. Həya ........ 276
122. Aqibət ........ 278
123. Xidmət etmək ........ 279
124. Xəvaric ........ 280
125. Ziyankarlıq ........ 282
126. Xuşu (təvazökarlıq) ........ 283
127. Xütbə ........ 284
128. Xətt və xəttatlıq ........ 285
129. İxlas ........ 286
130. Müxlis ........ 287
131. Xalis din ........ 288
132. İxtilaf ........ 290
133. Yaradılış ........ 292
134. Yaradan ........ 294

135. Əxlaq....297
136. Şərab....301
137. Qorxu....303
138. Xəyanət....307
139. Xeyir....309
140. İstixarə (Allahdan xeyir diləmək)....314
141. Camaatla mehriban davranmaq....315
142. Dua....316
143. Dünya....326
144. Yumşaqlıq göstərmək....336
145. Dövlət....337
146. Dərman və müalicə....338
147. Din....340
148. Borc almaq....344
149. Allahı yad etmək....345
150. Zəlillik....352
151. Günah....354
152. Başçılıq....362
153. Yuxu....363
154. Riyakarlığın məzəmmət olunması....364
155. Rəy....367
156. Riba (Sələm)....369
157.Ümid....371
158.Ricət (Dünyaya qayıdış)....372
159. Mehribanlıq....373
160.Rəhmət....374
161. Qohumluq....375
162. Ruzi....377
163. Rüşvət....382
164. Südəmər dövr....383
165. Razılıq (1)....384
166. Razılıq (2)....386
167. Mülayimlik....388
168. Ramazan....391
169. Ruh....393
170. Rahatlıq....395
171. Əkinçilik....396
172. Zəkat....397
173. Zaman....400
174. Zina....402
175. Zahidlik....404
176. Evlənmək....407
177. Görüşmək (Ziyarət)....413
178. Qəbrlərin ziyarəti....415
179. Zinət....418
180. Məsuliyyət....419

181. Sual (1) ... 420
182. Sual (2) ... 422
183. Söyüş söymək ... 425
184. Səcdələr ... 427
185. Məscid ... 429
186. Səxavət ... 431
187. Sirr ... 433
188. Şadlıq ... 435
189. İsraf ... 437
190. Oğurluq ... 439
191. Xoşbəxtlik ... 440
192. Səfər ... 442
193. Su içirtmək ... 444
194. Məstlik ... 445
195. Yaşayış yeri ... 446
196. Silah ... 447
197. Sultan ... 448
198. İslam ... 450
199. Salam vermək ... 453
200. Təslim olmaq ... 455
201. Qulaq asmaq ... 456
202. Ad ... 457
203. Allahın adları ... 458
204. Sünnə ... 459
205. Gecə oyaq qalmaq ... 460
206. Rəhbər ... 461
207. Siyasət ... 462
208. Bu günün işini sabaha saxlamaq ... 463
209. Bazar ... 464
210. Dişləri fırçalamaq ... 465
211. Gənclik ... 467
212. Şübhə ... 469
213. Ağac ... 470
214. Şücaət ... 471
215. Pislik ... 473
216. Şirk ... 475
217. Şeytan ... 477
218. Şer ... 481
219. Şüar ... 482
220. Şəfaət və vasitəçilik ... 483
221. Bədbəxtlik ... 486
222. Şükr ... 488
223. Şəkk ... 491
224. Şahidlik ... 493
225. Şəhadət (2) ... 495
226. Şöhrət ... 497

227. Məşvərət ............................................................................................ 499
228. Qocalıq ................................................................................................ 501
229. Şiə........................................................................................................ 503
230. Səbr .................................................................................................... 506

# MÖVZULARIN
## ƏLİFBA SIRASI İLƏ MÜNDƏRİCATI

## A

Ad ........ 457
Aqibət ........ 278
Ağac ........ 470
Ağlamaq ........ 126
Axirət ........ 17
Axmaqlıq ........ 266
Allah ........ 41
Allahı yad etmək ........ 345
Allahın adları ........ 458
And içmək ........ 262
Arayıb axtarmaq ........ 165
Arzu ........ 44
Azadlıq və azadəlik ........ 226
Azan ........ 30

## B

Başçılıq ........ 362
Batil ........ 119
Başçılıq ........ 359
Bazar ........ 464
Beyət ........ 141
Bədbəxtlik ........ 486
Bəlalar ........ 33
Bəlağət ........ 129
Bərzəx ........ 115
Bərəkət ........ 116
Bəsirət ........ 118
Bid'ət ........ 111
Borc almaq ........ 344
Böhtan ........ 139
Bu günün işini sabaha saxlamaq ........ 463

## C

Cavab ........ 196
Camaat ........ 172
Camaatla mehriban davranmaq ........ 315
Cəbr (Alın yazısı) ........ 157
Cənabət ........ 176
Cənnət ........ 178
Cəhənnəm ........ 193
Cihad (1) ........ 183
Cihad (2) ........ 184
Cihad (3) ........ 187

Cümə ..... 173

## D

Dərman və müalicə ..... 338
Divanəlik ..... 183
Din ..... 340
Dişləri fırçalamaq ..... 465
Dövlət ..... 337
Dözümlülük ..... 263
Dözümsüzlük edib fəryad qoparmaq ..... 163
Dua ..... 316
Dünya ..... 326

## E

Ehtiyat ..... 272
Ehtiyac ..... 269
Evlənmək ..... 407

## Ə

Əcəl ..... 15
Ədəb ..... 26
Əxlaq ..... 297
Əkinçilik ..... 396
Əmanətdarlıq ..... 102
Əsir ..... 32
Əvəz ..... 164

## F

Fədakarlıq ..... 11

## G

Gecə oyaq qalmaq ..... 460
Gənclik ..... 467
Görüşmək (Ziyarət) ..... 413
Gözəllik ..... 174
Gülərüzlük ..... 117
Günah ..... 354

## H

Hafizə ..... 249
Haqq ..... 252
Halal ..... 263
Hamam ..... 268
Haram ..... 229
Hesab-kitab ..... 238
Heyvanat aləmi ..... 274

Hicab ....................................................................................................209
Hikmət...................................................................................................257
Həbs......................................................................................................207
Həcc......................................................................................................210
Həddlər..................................................................................................219
Hədis.....................................................................................................216
Hərislik..................................................................................................227
Həsrət ...................................................................................................245
Həya......................................................................................................276
Həyat ....................................................................................................273
Hökmdarlıq..............................................................................................42
Hüquq ...................................................................................................254
Hüccət...................................................................................................214

## X

Xalis din ...............................................................................................288
Xeyir......................................................................................................309
Xəsislik..................................................................................................108
Xətt və xəttatlıq ....................................................................................285
Xəvaric .................................................................................................280
Xəyanət.................................................................................................307
Xidmət etmək ........................................................................................279
Xoşbəxtlik..............................................................................................440
Xuşu (təvazökarlıq) ...............................................................................283
Xütbə ....................................................................................................284

## İ

İmamət....................................................................................................50
İmam Əli..................................................................................................59
İmamların anası-Fatimə ...........................................................................65
İmam Həsən Müctəba...............................................................................67
İmam Hüseyn............................................................................................69
İmam Səccad ............................................................................................72
İmam Məhəmməd Baqir...........................................................................74
İmam Cəfər Sadiq.....................................................................................75
İmam Musa Kazım ...................................................................................77
İmam Rza..................................................................................................79
İmam Cavad..............................................................................................81
İmam Hadi................................................................................................83
İmam Həsən Əskəri ..................................................................................85
İmam Mehdi .............................................................................................86
İman.........................................................................................................92
İcarə.........................................................................................................13
İxlas .......................................................................................................286
İxtilaf.....................................................................................................290
İncitmək...................................................................................................31
İnqilab....................................................................................................155
İnsan .....................................................................................................106

İslam ....................................................................................................450
İsraf.......................................................................................................437
İsrafçılıq.................................................................................................113
İstixarə (Allahdan xeyir diləmək) ..........................................................314

## K

Kin bəsləmək .........................................................................................250

## Q

Qardaş.......................................................................................................19
Qəbrlərin ziyarəti.....................................................................................415
Qəddarlıq ................................................................................................159
Qəm ........................................................................................................235
Qonaqpərvərlik .......................................................................................538
Qonşu......................................................................................................198
Qorxaqlıq ...............................................................................................160
Qorxu......................................................................................................303
Qohumluq ...............................................................................................375
Qocalıq ...................................................................................................501
Qulaq asmaq ...........................................................................................456

## M

Mehribanlıq ...........................................................................................373
Məclis .....................................................................................................168
Məhəbbət................................................................................................200
Məstlik....................................................................................................445
Məsuliyyət ..............................................................................................419
Məscid ....................................................................................................429
Məşvərət .................................................................................................499
Möhtəkirlik.............................................................................................257
Mübahilə.................................................................................................140
Mübahisə ................................................................................................161
Müharib .................................................................................................225
Müharibə.................................................................................................222
Müxlis.....................................................................................................287
Mülayimlik .............................................................................................388

## N

Nadanlıq ................................................................................................190
Nəzarət....................................................................................................387
Nifrət ......................................................................................................121

## O

Oğurluq...................................................................................................439
Ordu........................................................................................................177

## P

Paxıllıq....................................................243
Peşə....................................................229
Pislik....................................................473

## R

Rahatlıq ....................................................395
Ramazan ....................................................391
Razılıq (1)....................................................384
Razılıq (2)....................................................386
Rəhbər ....................................................461
Rəhmət....................................................374
Rəy ....................................................367
Riba (Sələm)....................................................369
Ricət (Dünyaya qayıdış) ....................................................372
Riyakarlığın məzəmmət olunması ....................................................364
Ruh ....................................................393
Ruzi ....................................................377
Rüşvət....................................................382

## S

Savab ....................................................154
Salam vermək ....................................................453
Səbr....................................................506
Səcdələr ....................................................427
Sədəqə ....................................................503
Səfər....................................................442
Səxavət ....................................................197
Səxavət ....................................................431
Silah....................................................447
Sirr....................................................433
Siyasət ....................................................462
Sual (1) ....................................................420
Sual (2) ....................................................422
Sultan....................................................448
Su içirtmək....................................................444
Südəmər dövr....................................................383
Sünnə....................................................459
Sığınacaq vermək ....................................................104
Sınaq....................................................133
Söyüş söymək....................................................425

## Ş

Şadlıq....................................................435
Şahidlik....................................................493
Şer....................................................481
Şeytan ....................................................477
Şəfaət və vasitəçilik....................................................483
Şəhadət (2)....................................................495

Şəhər ....128
Şəkk ....491
Şərab ....301
Şiə ....503
Şirk ....475
Şöhrət ....497
Şüar ....482
Şübhə ....469
Şücaət ....471
Şükr ....488

## T

Təbliğat ....130
Təcrübə ....162
Təhqir ....251
Təslim olmaq ....455
Ticarət ....141
Töhmət ....153
Tövbə ....148

## U

Uzaqgörənlik ....233

## Ü

Ülfət ....40
Ümid ....371
Ümmət ....47
Ünsiyyət ....105

## Y

Yaxşılıq ....114
Yaxşılıq ....246
Yaxşılıq etmək ....247
Yaradan ....294
Yaradılış ....292
Yaşayış yeri ....446
Yemək ....37
Yemək vermək ....541
Yoldaşlıq ....170
Yuxu ....363
Yumşaqlıq göstərmək ....336

## Z

Zahidlik ....404
Zaman ....400
Zəkat ....397

Zəlillik ........................................................................................................................352
Zina...............................................................................................................................402
Zinət..............................................................................................................................418
Ziyankarlıq ...................................................................................................................282
Zülm, zorakılıq, itaətsizlik ..........................................................................................124